2019

2

ELMİ ƏSƏRLƏR 86

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

cild 86, №2, 2019

ISSN 2409-8817

# ELMİ əsərlər

# НАУЧНЫЕ ТРУДЫ

# RESEARCH PAPERS

ISSN 2409-8817
9 772409 881009

ISSN 2409-8817

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# *ELMİ ƏSƏRLƏR*

**cild 86, № 2, 2019**

# *НАУЧНЫЕ ТРУДЫ*

**том 86, № 2, 2019**

# *RESEARCH PAPERS*

**volume 86, № 2, 2019**

**BAKI – 2019**

***Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Şurasının 18 dekabr 2018-ci il tarixli iclasının qərarı ilə nəşr edilir.***

***Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu***

***"Elmi əsərlər" 1934-cü ildən nəşr olunur.***

***"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.***

***Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir***

**Baş redaktor: Akif Abbasov** – *pedaqogika üzrə elmlər doktoru, professor*
**Məsul katib: İlham Cavadov –** *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Redaksiya heyəti:**

Ənvər Abbasov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
Rəfiq Qəndilov – *kimya üzrə fəlsəfə doktoru*
Qulu Novruzov – *hüquq üzrə fəlsəfə doktoru*
Yəhya Kərimov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Asəf Zamanov – *fizika-riyaziyyat üzrə elmlər doktoru, professor*
Faiq Şahbazlı – *filologiya üzrə fəlsəfə doktoru, dosent*
Fərahim Sadıqov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Vidadi Xəlilov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Hümeyir Əhmədov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Fərrux Rüstəmov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Hikmət Əlizadə – *pedaqogika üzrə elmlər doktoru, professor*
Ramiz Əliyev – *psixologiya üzrə elmlər doktoru, professor*
Rövşən Hümbətəliyev – *riyaziyyat üzrə elmlər doktoru*
İntiqam Cəbrayılov – *pedaqogika üzrə elmlər doktoru*
Piralı Əliyev – *pedaqogika üzrə elmlər doktoru*
Şahin Tağıyev – *pedaqogika üzrə elmlər doktoru, professor*
Novruz Musayev – *pedaqogika üzrə elmlər doktoru, professor*
Mübariz Əmirov – *pedaqogika üzrə elmlər doktoru, professor*

© ARTİ, 2019

# MÜNDƏRİCAT


*BAŞ REDAKTORDAN*
*AİLƏ PEDAQOGİKASI*

**Akif Abbasov** Ailə tərbiyəsinin metodları 13

*ÜMUMPEDAQOJİ PROBLEMLƏR*

**Müdafiə Mahmudov** Ali təhsildə innovasiya və modernləşmə: problemlər, perspektivlər və reallıqlar 20

**Nərminə Məmmədova** XXI əsr - tədris resursları 27

**Günel Məmmədova** Pedaqoji prosesdə inteqrasiyanın tarixi mərhələləri 33

**Mələk Zamanova** Təlim sistemində harmoniya, sistemogenez, uyğunluq, özünüinkişaf, sinergetizm prinsipləri 37

**Zərifə Əliyeva** Ali təhsil müəssisələrinin elmi-innovativ fəaliyyəti 42

**Ülviyyə İsmayılova** Yeniyetmələrin müstəqilliyinin növləri: idrak müstəqilliyi, təlim müstəqilliyi, intellektual müstəqillik 47

*TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ, QİYMƏTLƏNDİRMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

**Qurban Həsənov** Təhsilin keyfiyyəti günün tələbi kimi 53

**Firuzə Abdullayeva** Təhsildə qiymətləndirmə vacib element kimi 57

**Sevil İsayeva** Təhsilin keyfiyyətinin yüksəldilməsində yeni pedaqoji təfəkkürün rolu 60

**Nəzakət Zamanova** Ali pedaqoji təhsil müəssisələrinin idarə edilməsi pedaqoji problem kimi 63

*TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

**Dilqəm Quliyev, Sadıq Sadıqov, Etibar Quliyev** İdmançı gənclərin mütaliəyə marağının yaradılmasında kitabxananın rolu 67

**Rüxsarə Əliyeva** Dərsdənkənar tədbirlər kollec tələbələrində mənəvi keyfiyyətlərin formalaşdırılması vasitəsi kimi 73

**Tahirə Quliyeva** Milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işlər tələbələrin sosiallaşmasının başlıca şərti kimi 77

**Həmidə Qasımova** Yuxarı sinif şagirdlərinin təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin pedaqoji əsasları 81

*PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*

**Edison Quliyev** Yeniyetmə dövründə sosial davranışın inkişafının psixoemosional xüsusiyyətləri 85

| | | |
|---|---|---|
| **Nailə Hüseynova** | Damaq-udlaq qüsuru olan xəstələrdə nitq pozulmalarının əsas korreksiya istiqamətləri | 90 |
| **Yeganə Əskərova** | Məktəblilərin şəxsiyyət kimi inkişafına ailə və məktəbin psixoloji təsiri | 94 |
| **Səlbi Abasova** | Serebral iflicli uşaqlarda sensor funksiyaların pozulması | 98 |
| **Günay Bədəlzadə** | Daun sindromlu gənclərin (15-18 yaş) sosial-əmək adaptasiyasının onların şəxsiyyət kimi inkişafında rolu | 102 |
| **Simuzər Hacıyeva** | Ailə həyatının çətinlikləri: mənəvi və psixoloji tərəflər | 105 |

***METODİKA: FƏNLƏRİN TƏDRİSİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ***

| | | |
|---|---|---|
| **Hamlet İlyasov** | Təlim fəaliyyətinə yaradıcı yanaşmanın bəzi xüsusiyyətləri | 109 |
| **Nahidə Əhmədova** | Müəllimin gündəlik dərsə hazırlaşması təlimin səmərəlilik göstəricisi kimi | 113 |
| **Mübariz Süleymanov** | Yuxarı sinif şagirdlərinin özünütəhsilində bədii ədəbiyyatın rolu | 116 |

***MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ***

| | | |
|---|---|---|
| **Gülnar Vəliyeva** | Məktəbəqədər dövrdə uşağın sosiallaşma prosesində oyunun və ünsiyyətin rolu | 120 |

***RİYAZİYYATIN TƏDRİSİ METODİKASI***

| | | |
|---|---|---|
| **Mübariz Əsədov, Züleyxa Heydərova** | Məsələ həllində həndəsə elementlərindən istifadə | 124 |
| **Dəstəgül Zeynalova** | Riyaziyyat təlimində didaktik prinsiplər | 127 |
| **Gülşən Sadıqova** | 5-ci sinif riyaziyyat kursunda həndəsi elementlərin tədrisi metodikası | 130 |
| **Rəqibə Talıbova** | Məktəb riyaziyyat kursunda ibtidai funksiya və qeyri-müəyyən inteqralın tətbiqləri | 133 |
| **Zinyət Bədəlova** | Loqarifmik funksiyaların öyrədilməsi | 135 |
| **Aynur Əsədova** | Məzmun xətlərinin öyrənilməsində həndəsə elementlərinin tətbiqi. | 138 |
| **Elgün İsmayılov** | Anlayışın formalaşdırılması metodikası | 141 |

***FİZİKANIN TƏDRİSİ METODİKASI***

| | | |
|---|---|---|
| **Gülbəniz Valehova** | Fizika dərslərində fəaliyyətyönlü yanaşma | 144 |

***İNFORMATİKANIN TƏDRİSİ METODİKASI***

| | | |
|---|---|---|
| **Mehriban Həsənova** | Pedaqoji ali məktəb tələbələrinin informatika üzrə kompetensiyalarının formalaşmasında elektron təhsil sisteminin rolu | 148 |
| **Vüsalə Süleymanova** | Məktəb informatikası və V sinif informatika dərsliyinin təhlili | 153 |

*KİMYANIN TƏDRİSİ METODİKASI*

| | | |
|---|---|---|
| **Kamil Haqverdiyev, Rəna Abdinbəyova, Gülay Cəfərova** | Aminlər mövzusunun akmeo-psixoloji tədrisi | 156 |
| **Əyyub Əzizov, Kamil Haqverdiyev, Vüsalə Yusifli** | Amin turşularının akmeoloji-metodoloji tədrisi | 161 |

*TARİXİN TƏDRİSİ METODİKASI*

| | | |
|---|---|---|
| **Mübariz Əmirov** | Tarix təlimində şagirdlərdə fənlərarası əlaqələrdən istifadə bacarıqlarının formalaşdırılması | 164 |
| **Arif Veyisov**. | Epiqrafik abidələr Azərbaycanın tarixi ərazisi haqqında | 172 |
| **Sevda Məmmədova** | Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilinin didaktik və psixoloji əsaslarına dair | 178 |
| **Gülarə Ağayeva** | Azərbaycan tarixinin tədrisi prosesində vizuallaşdırma metodundan istifadə | 183 |

*XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*

| | | |
|---|---|---|
| **Firuzə Rzayeva** | Cütlərlə və qrup şəkilində müstəqil işin təşkilinin səmərəli yolları | 187 |
| **Günay Şirəliyeva** | İngilis dilinin qrammatikasının kommunikativ metodla tədrisi zamanı istifadə edilən linqvodidaktik vasitələr | 190 |
| **Tahirə Xasməmmədova** | İngilis dilində oxuyub-anlama fəaliyyətinin pedaqoji və psixoloji xüsusiyyətləri | 195 |
| **Rəbiyə Qəniyeva** | İngilis dilindən təlim xarakterli sinifdənxaric tədbirlərdə X-XI sinif şagirdlərinin idrak fəallığının inkişaf etdirilməsi | 198 |

*TƏSVİRİ İNCƏSƏNƏTİN TƏDRİSİ METODİKASI*

| | | |
|---|---|---|
| **Emilya Həsənova**. | İncəsənətə dair dərs-söhbətlər təsviri incəsənət təliminin səmərəlilik şərti kimi | 205 |

*MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

| | | |
|---|---|---|
| **İradə Əmirəliyeva** | Nikolay Aleksandroviç Dobrolyubov qadın təhsili və tərbiyəsi haqqında | 213 |
| **Nigar Muradova** | Yan Amos Komenskinin pedaqoji ideyalarında ali məktəb tələbələrinin mənəvi tərbiyə konsepsiyası | 217 |

*MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ*

| | | |
|---|---|---|
| **Cavanşir Rəhimov, Zübeyid Tağıyev, Tapdıq Əliyev, Fatma Axundova** | Heterotsiklik birləşmələrin molekulyar quruluşu, fiziki-kimyəvi xüsusiyyətləri və tibbi-bioloji əhəmiyyəti | 222 |

*İŞ YOLDAŞLARIMIZ*

| | | |
|---|---|---|
| **Həsən Bayramov, Xatirə Başirli** | Ziyalılıq və ləyaqət simvolu | 226 |

# ОГЛАВЛЕНИЕ


*ОТ ГЛАВНОГО РЕДАКТОРА*
*СЕМЕЙНАЯ ПЕДАГОГИКА*

**Акиф Аббасов** Методы семейного воспитания 13

*ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ*

**Мудафие Махмудов** Инновация и модернизация высшего образования: проблемы, перспективы и реалии 20

**Нармина Мамедова** XXI век - учебные ресурсы 27

**Гюнель Мамедова** Исторические этапы интеграции в педагогическом процессе 33

**Мяляк Заманова** Принципы гармонизации, системогенеза, саморазвития, соответствия, синергетизма в системе обучения 37

**Зарифа Алиева** Научно-инновативная деятельность высших учебных заведений 42

**Ульвия Исмайлова** Виды самостоятельности подростков: познавательная самостоятельность, учебная самостоятельность, интеллектуальная самостоятельность 47

*ВОПРОСЫ ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ И УПРАВЛЕНИЯ*

**Гурбан Гасанов** Качество образования как требование дня 53

**Фируза Абдуллаева** Оценивание в образовании как важный элемент 57

**Севиль Исаева** Роль нового педагогического мышления в повышении качества образования 60

**Назакат Заманова** Управление педагогическими высшими учебными заведениями как педагогическая проблема 63

*ВОПРОСЫ ВОСПИТАНИЯ*

**Дильгам Гулиев, Садыг Садыгов, Этибар Гулиев** Роль библиотеки в зарождении интереса к чтению у молодых спортсменов 67

**Рухсара Алиева** Внеурочные мероприятия как средства формировании нравственных качеств у студентов колледжа 73

**Тахире Гулиева** Работы, проводимые по формированию национально-нравственной культуры как важное условие социализации студентов 77

**Гамида Гасымова** Педагогические основы формировании организаторских способностей у старшеклассников 81

*ВОПРОСЫ ПСИХОЛОГИИ, ВОЗРАСТНОЙ ФИЗИОЛОГИИ*
*И ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ*

**Эдисон Гулиев** Психоэмоциональные особенности развития социального поведения в подростковом возрасте 85

| | | |
|---|---|---|
| **Наиля Гусейнова** | Основные направления коррекции нарушений речи у пациентов с небно-глоточной недостаточностью | 90 |
| **Егяна Аскерова** | Психологическое влияние семьи и школы на развитие личности школьника | 94 |
| **Сальби Абасова** | Нарушение сенсорных функций у детей с церебральным параличом | 98 |
| **Гюнай Бадалзаде** | Роль социально-профессиональной адаптации молодых людей с синдромом дауна (15-18 лет) в развитии их личности | 102 |
| **Симузер Гаджиева** | Трудности семейной жизни: нравственные и психологические аспекты | 105 |

***МЕТОДИКА: ОБЩИЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ ПРЕДМЕТОВ***

| | | |
|---|---|---|
| **Гамлет Ильясов** | Некоторые особенности творческого подхода к учебной деятельности | 109 |
| **Нахида Ахмедова** | Ежедневная подготовка учителя к уроку как показатель эффективности обучения | 113 |
| **Мубариз Сулейманов** | Роль художественной литературы в самообразовании учащихся в старших классов | 116 |

***ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ***

| | | |
|---|---|---|
| **Гульнар Велиева** | Роль игры и общения в процессе социализации ребенка в дошкольном периоде | 120 |

***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ124***

| | | |
|---|---|---|
| **Мубариз Асадов, Зулейха Гейдарова** | Применение геометрических элементов в решении задач | 124 |
| **Дастагюль Зейналова** | Дидактические принципы в обучении математике | 127 |
| **Гульшан Садыгова** | Методика преподавания геометрических элементов в 5 классе математического курса | 130 |
| **Рагиба Талыбова** | Введение элементарной функции и неопределенной интеграции в школьный курс математики | 133 |
| **Зиньят Бадалова** | Обучение логарифмических функций | 135 |
| **Айнур Асадова** | Применение геометрических элементов при исследовании содержательных линий | 138 |
| **Эльгун Исмаилов** | Методика формирования понятия | 141 |

***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИКИ***

| | | |
|---|---|---|
| **Гюльбениз Валехова** | Деятельностный подход на уроках физики | 144 |

## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНФОРМАТИКИ*


| | | |
|---|---|---|
| **Мехрибан Гасанова** | Роль электронной системы образования в формировании компетенций по информатике у студентов педагогических вузов | 148 |
| **Вусаля Сулейманова** | Анализ школьного курса информатики и учебника информатики V класса | 153 |


## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ХИМИИ*


| | | |
|---|---|---|
| **Камиль Ахвердиев, Рена Абдинбекова, Гюлай Джафарова** | Акмео-психологическое преподавание темы амины | 156 |
| **Эййуб Азизов, Камиль Ахвердиев, Вусала Юсифли** | Акмеолого-методологическое преподавание аминокислот | 161 |


## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ*


| | | |
|---|---|---|
| **Мубариз Амиров** | Формирование у учащихся навыков использования междисциплинарных связей при обучении истории | 164 |
| **Ариф Вейисов** | Эпиграфические памятники о историческом памятнике Азербайджана | 172 |
| **Севда Мамедова** | Дидактические основы организации самостоятельных работ студентов при обучении истории Азербайджана в высших школах | 178 |
| **Гюляра Агаева** | Использование метода визуализации в процессе преподавания истории Азербайджана | 183 |


## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ*


| | | |
|---|---|---|
| **Фируза Рзаева** | Эффективные способы организации самостоятельной работы в парах и группах | 187 |
| **Гюнай Ширалиева** | Лингводидактические средства использованные во время преподавания грамматики английского языка с помощью коммуникативного метода | 190 |
| **Тахира Хасмамедова** | Педагогико-психологические особенности чтения и понимания в английском языке | 195 |
| **Рабия Ганиева** | Развитие познавательной активности учащихся 10-11 классов по английскому языку на внеклассных мероприятиях учебного характера | 198 |


## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА*


| | | |
|---|---|---|
| **Эмилья Гасанова** | Уроки-беседы по искусству как условие эффективности преподавания изобразительного искусства | 205 |

## *ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ*


| | | |
|---|---|---|
| **Ирада Амиралиева** | Николай Александрович Добролюбов о женском образовании и востпитании | 213 |
| **Нигяр Мурадова** | Педагогические идеи Ян Амос Коменского в концепции нравственного воспитания студентов высших школ в схемах. | 217 |


## *САМООБРАЗОВАНИЕ УЧИТЕЛЯ*


| | | |
|---|---|---|
| **Джаваншир Рагимов, Зубейид Тагиев, Тапдыг Алиев, Фатма Ахундова** | Молекулярная структура гетероциклических соединений, физико-химические свойства и медико-биологические значение | 222 |


## *ТОВАРИЩИ ПО РАБОТЕ*


| | | |
|---|---|---|
| **Гасан Байрамов, Хатира Баширли** | Символ интеллегентности и достоинства | 226 |

# CONTENTS


*FROM EDITOR IN CHIEF*
*FAMILY PEDAGOGY*

| | | |
|---|---|---|
| **Akif Abbasov** | Methods of Family Upbringing | 13 |

*GENERAL PROBLEMS OF EDUCATION*

| | | |
|---|---|---|
| **Mudafiya Mahmudov** | İnnovation and modernization in the higher education: problems, perspectives and realities | 20 |
| **Narmina Mammadova** | XXI century - teaching resources | 27 |
| **Gunel Mammadova** | Historical stages of integration in pedagogical process | 33 |
| **Melek Zamanova** | Harmonization, systemogenesis, compliance, self-development, synergetism in the training system | 37 |
| **Zarifa Aliyeva** | Scientific innovative activities of higher education institutions | 42 |
| **Ulviyya Ismayilova** | Types of independence of adolescents: cognitive independence, educational independence, intelligent independence | 47 |

*PROBLEMS OF IMPROVEMENT OF QUALITY OF EDUCATION AND MANAGEMENT*

| | | |
|---|---|---|
| **Gurban Hasanov** | Quality education as a demand of the day | 53 |
| **Firuza Abdullayeva** | Assessment in education as an important element | 57 |
| **Sevil Isayeva** | The role of new pedagogical thinking in improving the quality of education | 60 |
| **Nazakat Zamanova** | The management of pedagogical higher education institutions as a pedagogical problem | 63 |

*PROBLEMS OF UPBRINGING*

| | | |
|---|---|---|
| **Dilgam Guliyev, Sadig Sadigov, Etibar Guliyev** | The role of library in arousing interest to reading in young sportsmen | 67 |
| **Ruxsara Aliyeva** | Extracurricular activities as a means of forming moral qualities of college students | 73 |
| **Tahira Guliyeva** | The work carried out on the formation of national moral culture as an important condition fo r the socialization of students | 77 |
| **Hamida Gasimova** | Pedagogical basis of the formation of organizational abilities in high school students | 81 |

*PROBLEMS OF PSYCHOLOGY, AGE PHYSIOLOGY AND INCLUSIVE EDUCATION*

| | | |
|---|---|---|
| **Edison Guliyev** | Psycho-emotional features of the development of social behavior in adolescence | 85 |
| **Naila Huseynova** | The main correction directions of speech disorders in patients with deficiency palatal-pharyngeal | 90 |

| | | |
|---|---|---|
| **Yegana Askarova** | The impact of the family and the school psychology on the development of schoolchildren as a gender | 94 |
| **Salbi Abasova** | Breach of sensory functions in children with cerebral paralism | 98 |
| **Gunay Badalzade** | The role of social-vacational adaptation of young people with down syndrome (15-18 years) in their personality development | 102 |
| **Simuzar Hacıyeva** | Difficulty of family life: moral and psychological aspects | 105 |


***METHODICS: GENERAL ISSUES OF TEACHING OBJECTS***


| | | |
|---|---|---|
| **Hamlet Ilyasov** | Some features of the creative approach to educational activity | 109 |
| **Nahida Akhmedova** | Daily training of the teacher to the lesson as an indicator of efficiency of training | 113 |
| **Mubariz Suleymanov** | Artistic literature, the role of upper class students in education | 116 |


***PRESCHOOL EDUCATION AND UPBRINGING***


| | | |
|---|---|---|
| **Gulnar Valiyeva** | The role of play and communication in the process of socialization of the child in the preschool period | 120 |


***METHODICS OF TEACHING MATHEMATICS***


| | | |
|---|---|---|
| **Mubariz Asadov, Zuleyha Heydarova** | Applying the geometric elements in the solution task | 124 |
| **Dastagul Zeynalova** | Didactic principles in mathematics training | 127 |
| **Gulshan Sadigova** | Methodology of teaching geometric elements in the 5th grade math course | 130 |
| **Ragiba Talibova** | Introducing primary function and undefined integration in school mathematics course | 133 |
| **Zinyat Badalova** | Teaching logarithmic functions | 135 |
| **Aynur Asadova** | Application of geometry elements in the study of content lines | 138 |
| **Elgun Ismayilov** | Method of formation of the notion | 141 |


***METHODICS OF TEACHING PHYSICS***


| | | |
|---|---|---|
| **Gulbeniz Valehova** | Activity approach in physics lessons | 144 |


***METHODİCS OF TEACHING INFORMATICS***


| | | |
|---|---|---|
| **Mehriban Hasanova** | The role of electronic education system in the formation of competence on informatics in students of pedagogical higher education institutions | 148 |
| **Vusala Suleymanova** | Analysis of the school course of informatics and the textbook of informatics v class | 153 |

*METHODICS OF TEACHING CHEMISTRY*

| | | |
|---|---|---|
| **Kamil Hagverdiyev, Rena Abdinbeyova, Gulay Jafarova** | Acmeo-psychological teaching topic of amines | 156 |
| **Eyyub Azizov, Kamil Hagverdiyev, Vusala Yusifli** | Acmeological-methodological teaching of amino acids | 161 |

*METHODICS OF TEACHING HISTORY*

| | | |
|---|---|---|
| **Mubariz Amirov** | Formation of using skills of interdisciplinary relationship for pupils in history education | 164 |
| **Arif Veyisov** | Epigraphical monuments of the historical monument of Azerbaijan | 172 |
| **Sevda Mammadova** | Didactic and psychological bases of organization of students' individual works in teaching Azerbaijan history | 178 |
| **Gulara Aghayeva** | Use of the visualization method in the process of teaching the history of Azerbaijan | 183 |

*METHODICS OF TEACHING FOREIGN LANGUAGES*

| | | |
|---|---|---|
| **Firuza Rzayeva** | Effective ways of organizing independent work in pairs and group | 187 |
| **Gunay Shiraliyeva** | Linguodidactic means used in teching English grammar by the help of communicative method | 190 |
| **Tahira Khasmammadova** | Pedagogical and psychological features of reading-comprehension skills in the English language | 195 |
| **Rabiya Ganiyeva** | Development of cognitive activity of pupils of 10-11 classes in the English language at extra class events of educational nature | 198 |

*METHODICS OF TEACHING OF FINE ARTS*

| | | |
|---|---|---|
| **Emilya Hasanova** | Lessons conversations on art as a condition of the efficiency of teaching Fine arts | 205 |

*HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT*

| | | |
|---|---|---|
| **İrada Amiraliyeva** | Nikolai Aleksandrovich Dobrolubov on women's education and upbringing | 213 |
| **Nigar Muradova** | Pedagogical ideas of Yan Amos Komensky in the concept of moral education of students high schools in diagrams | 217 |

*TEACHERS' SELF-EDUCATION*

| | | |
|---|---|---|
| **Cavanshir Rahimov**, **Zubeyid Taghiyev**, **Tapdıg Aliyev, Fatma Akhundova** | Molecular structure of heterocyclic compounds, physico-chemical properites and biomedical value | 222 |

*COMRADE ON WORK*

| | | |
|---|---|---|
| **Hasan Bayramov, Khatira Bashirli** | Symbol of intelligence and advantages | 226 |

**BAŞ REDAKTORDAN**
**AİLƏ PEDAQOGİKASI**

UOT 371.

**Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

## AİLƏ TƏRBİYƏSİNİN METODLARI

**Акиф Нурага оглу Аббасов**
*доктор наук по педагогике, профессор,*
*Институт Образования Азербайджанской Республики*

## МЕТОДЫ СЕМЕЙНОГО ВОСПИТАНИЯ

**Akif Nuragha Abbasov**
*doctor of pedagogical sciences, professor*

## FAMILY UPBRİNGİNG METHODS

**Xülasə.** Ailədə mühüm şərtlərdən biri ailənin mühitidir. İkinci şərt – valideynlərin nüfuzudur. Üçüncü şərt – tərbiyənin metodlarının düzgün tətbiqidir ki, ata və analar onların köməyilə məqsədyönlü şəkildə öz uşaqlarına təsir göstərirlər.

Məqalədə müəllif ailə tərbiyəsi metodlarının təsnifatını verir.

***Açar sözlər:*** *ailə, ailə tərbiyəsi, ailə tərbiyəsinin metodları, ailə pedaqogikası, uşaqlar*

**Резюме**. В семье одним из важных условий является семейная атмосфера. Второе условие – авторитет родителей. Третьим условием воспитания в семье являются те воспитательные методы, с помощью которых отцы и матери целенаправленно воздействуют на ребенка.

В статье автор обращает внимание на классификации методов семейного воспитания.

***Ключевые слова****: семья, семейное воспитание, методы семейного воспитания, семейная педагогика, дети*

**Summary**. One of the important conditions is a family atmosphere in a family. The second condition is the authority of the parents. The third condition of upbringing in the family is the upbringing methods by which fathers and mothers purposefully influence the child.

In the article, the author draws attention to the classification methods of family upbringing.

***Keywords****: family, family upbringing, family upbringing methods, family pedagogy, children*

Valideynlər övladları ilə ailədə təhsil-tərbiyə işləri apardıqda müvafiq metodlardan faydalanmalı olurlar. Həmin metodların köməyi ilə uşaqlar düzgün davranış və rəftar qaydalarına yiyələnir, onlarda davranış və ünsiyyət mədəniyyəti formalaşır, oğlanlar və qızlar vətənsevər olur, ailənin şərəfini qoruyurlar.

Valideynlər bir sıra hallarda ailədə öz bildikləri kimi uşağı tərbiyə edir, onların təhsil və təlimi məsələləri ilə məşğul olurlar, müxtəlif tərbiyə metodlardan faydalanırlar. Deməli, bu və ya digər ailədə tərbiyə üsulu müxtəlif ola bilər. Bu, bir həqiqətdir: nə qədər ailə varsa, o qədər tərbiyə metodikasının olması mümkündür. Lakin eyni zamanda, hər halda ailədə tərbiyənin ümumi forma və metodları da mövcuddur ki, ata-analar, ailənin yaşlı üzvləri onlara müraciət edirlər.

Gəlin əvvəlcə belə bir suala cavab tapmağa çalışaq: "Metod" nədir?

Oxuyuruq: "Metod (yunancada: *methodos* – gerçəkliyə, gözlənilən nəticəyə doğru *yol*, *vasitə*).

Metod dedikdə, məqsədə çatmaq, pedaqoji gerçəkliyi dərk etmək, bu və ya digər pedaqoji vəzifəni həyata keçirmək üçün istifadə olunan priyomların, nəzəri və əməli fəaliyyəti nizamlayan qaydaların məcmusu anlaşılmalıdır. Dərk olunan qanunauyğunluqlar metodun obyektiv amilləri; həmin qanunauyğunluqlara əsaslanaraq pedaqoji gerçəkliyin öyrənilməsi və qarşıda dayanan pedaqoji vəzifələrin həyata keçirilməsi priyom və vasitələri isə onun subyektiv amilləridir" (1, 11).

Bəs elə isə, ailə tərbiyəsinin metodları nələri nəzərdə tutur?

Ailə tərbiyəsinin metodları dedikdə, tərbiyənin vəzifələrinə çatmaq üçün valideynin istifadə etdiyi yol və vasitələr, üsullar sistemi anlaşılır. Başqa sözlə, ailə tərbiyəsinin metodları dedikdə, ata-ana, ailənin digər yaşlı üzvləri tərəfindən uşağın şüuruna və davranışına məqsədyönlü, sistemli, planauyğun təsiri həyata keçirməyə imkan verən yol anlaşılır.

Pedaqoji və metodik ədəbiyyatda tərbiyənin, o cümlədən ailə tərbiyəsinin metodlarını müxtəlif şəkildə təsnif olunur. Ya metodların hər birinin konkret olaraq, adları qeyd edilir (məsələn, inandırma, alışdırma, rəğbətləndirmə, cəzalandırma, tərbiyəçinin şəxsi nümunəsi), yaxud onlar metodlar qrupu ilə ifadə olunur.

Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində əxlaq tərbiyəsinin metodlarına münasibət bildirmiş, rəğbətləndirmə tədbirlərindən tərif, həvəsləndirmə və ürək-dirək vermənin; cəzalandırma tədbirlərindən qulaqburması vermənin və hədəqorxu gəlmənin adını tutmuşdur.

1. **Şüura, ağıla, idraka təsir göstərən metodlar** (başqa sözlə, "*inandırma metodları*")

Valideynlər ailədə uşaqlarla tərbiyəvi işlər apardıqda əsasən onların şüuruna, ağlına, idrakına təsir göstərirlər. Bu zaman tərbiyə metodlarının başa salma, öyüd-nəsihət, məsləhət və s. növlərinə müraciət olunur.

Müsbət keyfiyyətlərin aşılanması, inkişaf etdirilməsi, intizama nail olunması üçün uşaqlarda ata-analarının dediklərinə inam yaratmaq lazım gəlir. Deməli, inandırma metodunun imkanlarından faydalanmaq məsləhət bilinir. Bu metoddan istifadə etməklə uşaqlarda fəaliyyətə, davranış, rəftar və ünsiyyət tərzinə yeni, düzgün münasibət formalaşdırılır. İnandırma metodunun tətbiqi xüsusi diqqət tələb edir. hətta təsadüfən deyilmiş hər hansı bir söz uşaqda inam yarada bilər. valideyn nümunəsi inandırma metodunun səmərəlilik göstəricisi kimi çıxış edir. Nümunə müsbət, yaxud mənfi ola bilər. Uşaqlar xüsusən kiçik yaşlarından öz ata-analarını yamsılamağa, qızlar – analarına, oğlanlar – atalarına bənzəməyə, özlərini böyüklərə oxşatmağa çalışırlar. Odur ki, valideyn öz hərəkətlərinə, oturuşuna, duruşuna, davranış və rəftarına ciddi fikir verməlidirlər.

İnsanın, gənc nəslin təşəkkül tapıb formalaşmasında nəsihət və öyüdün müstəsna dərəcədə əhəmiyyətli olduğunu yaxşı Nizami Gəncəvi oğlu Məhəmmədə nəsihətlər yazmışdır.

İnandırma metodu dedikdə, müsbət adət və keyfiyyətlərin yaradılması, davranış, rəftar və xarakterdəki, şəxsiyyətlərarası münasibətlərdə mənfi halların qarşısının alınması üçün valideynlərin uşaqların şüuruna, hisslərinə və iradəsinə təsir göstərməsi üsulu nəzərdə tutulur.

Nəsirəddin Tusi ailə tərbiyəsində inandırma metodunun roluna yüksək dəyərləndirir, başa salmaya bu metodun çox mühüm növü, vasitəsi kimi yanaşırdı. Tusxinin qənaətincə, "Uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə ağıla, şüura, idraka təsir edən başa salma yolu ilə…".

Sözün təsir qüvvəsi inandırma metodunun səmərəliliyi şərtidir. Uşaqlarla söhbətlər, öyüd-nəsihət, tövsiyə, məsləhət faydalıdır. İnandırma metodunun bir sıra növləri vardır. Həmin növlərə (vasitələrə) daxildir: başasalma, öyüd, nəsihət, tövsiyə, xatırlama, dilətutma, xəbərdarlıq, söhbət və s.

2. **Fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıran metodlar** (başqa sözlə, "*alışdırma metodları*")

Uşaqlarda davranış mədəniyyəti, müsbət mənəvi keyfiyyətlər formalaşdırmaq baxımından inandırma metodunun imkanları genişdir. Fəqət ailə tərbiyəsində yüksək göstəricilər qazanmaq üçün ata-ana öz pedaqoji fəaliyyətini yalnız bu metodla məhdudlaşdıra bilməz. Uşaqla söhbət etmək, məsləhət, öyüd-nəsihət vermək, onu dilə tutmaq, başa salmaq hələ kifayət etmir. Nə üçün? Cavab verməyə çalışaq: Axı heç də bütün uşaqlar tərbiyəvi təsirləri eyni dərəcədə, valideynin istədiyi kimi qəbul etmir. Heç də onların tərbiyəlilik səviyyəsi eyni deyil. Ailələrdə sakit, sözəbaxan uşaqlarla yanaşı, çıl-

ğın, sözəbaxmaz, ərköyün, əsəbi, xudpəsənd uşaqlar olur.

Odur ki, istər-istəməz ailə tərbiyəsində uşağın fəaliyyətinin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metodlarından, başqa sözlə, alışdırma metodundan, onun vasitələrindən, priyomlarından faydalanmaq lazım gəlir. Alışdırma müsbət hərəkət və davranışla bağlı vərdişlərin yaradılmasını tələb edir.

Valideyn hər hansı bir davranış təcrübəsinin, hərəkətin zəruriliyini, bu və ya digər müsbət keyfiyyəti özündə tərbiyə etməyin vacibliyini oğluna, yaxud qızına başa salır. Başasalma, aydınlaşdırma (şüura təsir göstərmə) kömək etmədikdə ata, yaxud ana, eləcə də ailənin digər yaşlı üzvləri (baba, nənə və b.) alışdırma metodunu imkanlarından bəhrələnir. Beləliklə, düzgün davranışa, nəzakətli və xeyirxah hərəkətlərə uşaqları alışdırmaqla onlarda mədəni adətlər meydana gəlir. Alışdırma metodu valideynlərin təşkilatçılıq qabiliyyətinə yiyələnmələrini tələbata çevirir.

Öz övladlarına davranış qaydaları, şəxsiyyətlərarası münasibətlər sistemi, rəftar tərzi barədə məlumatın verilməsi ilə bu sahədə adətlərin formalaşması arasında ziddiyyət, uyğunsuzluq ola bilər. başqa sözlə, inandırmaq (şüura təsir göstərmək) mümkün olmadısa, alışdırmaq *(fəaliyyəti təşkil etmək və mənəvi davranışı formalaşdırmaq)* lazım gəlir.

Bu xüsusda A.S. Makarenko yazırdı: “Biz hər gün döşəmələri silirdik. Sonra kimsə çirkli ayaqqabıları ilə döşəmədən keçib gedirdi. Heç bir oğurluq, heç bir xuliqanlıq məni bu çirkli ayaq izləri kimi qəzəbləndirmirdi. Niyə çirkləndirmişdir? Ona görə ki onu heç kim görməmişdir. Bəlkə də bu, başqalarından düzgün davranış tələb edən, özü gözəl zərbəçi olan, irəlidə gedən ən yaxşı kommunardır. O, tək qalanda, onu heç kim görmədikdə o, öz yoldaşlarının işinə, öz rahatlığına və gözəlliyinə tüpürmüşdür, çünki onun bu hərəkətini heç kim görməmişdir. Necə hərəkət etmək lazım olduğunu başa düşməklə adət üzrə davranmaq arasında olan ziddiyyət belədir”.

Uşaqları vətənpərvərlik hisslərini inkişaf etdirmək üçün onların məqsədyönlü, sistemli və planauyğun şəkildə Vətənin mənafeyi naminə fəaliyyət göstərmələrinə çalışmaq lazımdır.

Beləliklə, davranış mədəniyyətinin təşəkkül tapması alışdırma ilə – oğlanlarda və qızlarda zəruri bacarıq və vərdişlərin, mədəni adətlərin yaradılması ilə başlanır. Alışdırma dönədönə təkrar nəticəsində mümkündür. Mədəni adətlər uşaqları mənəvi təcrübəyə yiyələndirir. Onlar intizamı, etik qaydaları, cəmiyyətdə davranış və birgəyaşayış normalarını, qanunun tələblərini gözləyir, özünütərbiyə və özünütəhsillə məşğul olur, nəzakətli, mərifətli olurlar. Beləliklə, intizama əməl etmək baxımından adətə çevrilmiş hərəkətlər işə düşür.

Alışdırma metodunun köməyi ilə uşaq hər hansı xoşagəlməz hərəkəti icra etməkdən vaz keçir.

Ailə tərbiyəsində alışdırma metodunun aşağıdakı növlərindən (vasitələrindən) istifadə etmək məsləhətdir: rejim, oyun, sərəncam, tələb, ictimai rəy, tərbiyəvi vəziyyətin yaradılması, tapşırıq, pedaqoji tələb, ictimai-faydalı əmək və s.

3. **Şagirdlərin hiss və münasibətlərini, fəaliyyət və davranışını stimullaşdıran metodlar** (başqa sözlə, “*rəğbətləndirmə və cəzalandırma metodları*”)

Bəzi valideynlərin əksinə olaraq ailə tərbiyəsinin məqsədi “sözəbaxan”, yalnız buyurulanı yerinə yetirən uşaqlar tərbiyələndirməkdən ibarət deyildir. Bu uşaqların aciz, təşəbbüskar olmayan, müstəqillik nümayiş etdirə bilməyən nəzil kimi böyümələrinə səbəb olardı.

Tərbiyənin keyfiyyətindən, valideynlərin tərbiyə işində səriştəliliyindən asılı olaraq, ailədə müxtəlif tərbiyəlilik səviyyəsinə malik uşaqlar böyüyür. Ona görə də

uşaqların hiss və münasibətlərini, fəaliyyət və davranışını stimullaşdıran metodlardan istifadə etmək də zərurətə çevrilir. Nümunəvi davranan, dərslərini yetirən, müstəqillik, təşəbbüskarlıq nümayiş etdirən, təşkilatçılıq bacarıqlarına yiyələnən, əməyə bağlanan, yaradıcı təfəkkürə malik uşaqlar valideynlər tərəfindən yeri gəldikcə rəğbətləndirilməlidirlər.

Rəğbətləndirmə tərbiyənin səmərəli metodudur. Rəğbətləndirmə - ailədə uşağın nümunəvi davranışına və fəaliyyətinə müsbət qiymət verilməsidir.

Rəğbətləndirməyə qarşılıqlı fəaliyyətin müxtəlif formaları aiddir. Nümunə olaraq birgə gəzinti və oyunu, etibar, tərif, hətta maddi stimullaşdırmanı göstərə bilərik.

Nəsirəddin Tusiyə yazırdı: "Uşaqda xoşa gələn bir hərəkət baş verdikdə onu tərifləyib həvəsləndirmək lazımdır, lakin əks hallarda hər dəqiqə danlayıb başına vurmaq doğru deyildir".

Rəğbətləndirmə vasitələri tətbiq olunarkən ədalət və obyektivlik gözlənilməlidir. Əks halda, nümunəvi davranış və rəftarı, aktiv fəaliyyəti ilə diqqət mərkəzində olan uşaq inciyə, küsə bilər, ədalətin olmadığı qənaətinə gələr.

Ailədə rəğbətləndirmənin aşağıdakı növlərindən (vasitələrindən) faydalanmaq mümkündür: 1) mənəvi (tərif, təşəkkür etmək, fəxri tapşırıq, şagirdin valideynlərinə məktub göndərmək, şagirdin şəklini şərəf lövhəsinə vurmaq, haqqında divar qəzetinə, məktəbin kitabına yazmaq və s.); 2) maddi (fəxri fərmanla, diplomla, qiymətli hədiyyə ilə təltif etmək və s.).

Davranış və rəftarı qüsurlu olan, sözeşitməz, kobud, dalaşqan, təlimdə yetirməyən, məhəllə uşaqlarını, sinif yoldaşlarını, bacı-qardaşlarını incidən, söyüş söyən, dərsdən qaçan, dərsdən yayınan uşaqlar ata-anaları tərəfindən cəzalandırılmalıdırlar. Cəzalandırma heç də o demək deyildir ki, uşaq ata-anası tərəfindən döyülsün. Fiziki cəza, ümumiyyətlə, yol verilməzdir. Fiziki cəza tərbiyəvi metodu yoz, təzyiq metodudur.

Bəzən valideyn tərbiyənin bu və ya digər metodundan istifadə etsə də, uşağın davranış, rəftar və ünsiyyətində, hərəkət və əməllərində müsbət dəyişikliklər müşahidə olunmur. O, bacı və qardaşları, sinif yoldaşları, məhəllədəki uşaqlarla kobud davranır, onda mənəvi borc və məsuliyyət, cavabdehlik hissləri inkişaf etmir, özündən kiçikləri incidir, böyükləri eşitmir.

Niyə belə olur? Bunun səbəbini onunla izah etmək mümkündür ki, ailədə tərbiyə işləri düzgün qurulmamışdır, ailənin mənəvi və psixoloji mühiti lazımi səviyyədə olmamış, beləliklə, mənfi adətlər təşəkkül tapmışdır. Bütün bunların aradan qaldırılması lazım gəlir, fəqət buna uzun vaxt lazımdır. Belə hallarda valideynlər tərbiyəvi təsirlərinə yeni nəzərlərlə baxmaq əvəzinə, cəzalandırma tədbirlərinə əl atırlar.

Bu və ya digər hərəkət formasını bəyənməmək, danlamaq, məzəmmət etmək, irad tutmaq uşağı naqis, xoşagəlməz hərəkət və əməllərdən çəkindirir.

Cəzalandırma pedaqoji təsir metodudur. O, uşaq müəyyən olunmuş tələbləri yerinə yetirmədiyi, davranış qaydalarını pozduğu hallarda tətbiq olunur. Bu metodun tətbiqi nəzərdə tutulduqda uşağa ilk növbədə cəzalandırmanın səbəbi aydınlaşdırılmalıdır: o hansı işinə, əməlinə, hərəkətinə görə cəzalandırılır. Ailə təcrübəsində cəzalandırmanın aşağıdakı növlərinə müraciət edilir: tənbeh, töhmət, danlaq, nəzərdə tutulmuş bu və ya digər işi (məsələn, kinoya, konsertə, teatr tamaşasına, muzeyə, ad gününə, toya getməyi, sərgiyə baxmağı və s.) təxirə salmaq və s.

Uşağı, xüsusən oğlanları tez-tez cəzalandırma tədbirləri ilə təngə gətirmək olmaz.

Nəsirəddin Tusinin fikrincə, "Çox danlamağa adət edib hər şeyi qadağan etməkdən çəkinmək lazımdır, bu sırtıqlaşmağa, acığa düşüb həmən işi bir də görməyə sövq edər (insan qadağan olunmuş şeylərə həvəskar olar); nəsihətə qulaq asmaqdan bezər, zəhləsi gedər, "qorxaq" olmadığını nəzərə çarpdırmaq xatirinə bəd əməllərə başlayar, bəlkə daha incə hiylələrə əl atar".

Cəza lazım gəldikdə tətbiq edilməli, düzgün, ədalətli, obyektiv və əsaslandırılmış şəkildə olmalıdır. Bu, uşağın öz hərəkətini təhlil etməsi, xoşagəlməz hallara yol veməməsi ilə nəticələnir.

Ailə həyatında əsas yer tutan norma və qaydalar pozulduqda, uşağın davranış və rəftarında xoşagəlməz hallar müşahidə edildikdə, təcili tədbir görülməlidir. Bir daha tərbiyəşünas A.S. Makarenkoya müraciət edək: "Bu yayılmış fikirdir ki, insanın həm ləyaqətli, həm də nöqsanlı cəhətləri olmalıdır. Bu cür fikirləşərək yaşamaq bir qədər rahat olur: ləyaqətlərim də var, qüsurlarım da var. Sonra insan özünə təsəlli verməyə başlayır: qüsurlar olmasaydı, insan yox, sxem əmələ gələrdi. Əlvanlıq üçün qüsurlar olmalıdır. Lakin nədən ötrü, nəyin xatirinə mütləq qüsurlar olmalıdır. Hərgah sizin iyirmi ləyaqətiniz və on qüsurunuz varsa, biz sizdən əl çəkməməliyik: bəs nə üçün sizin 10 qüsurunuz var? Rədd olsun beşi. Beş qüsur qalanda – rədd olsun ikisi, qoy üçü qalsın. Ümumiyyətlə, insandan tələb etmək, tələb etmək lazımdır! Hər bir adam özündən də tələb etməlidir".

Bir sıra hallarda ailələrdə cəzalandırma metodu kimi fiziki cəza tətbiq olunur. Bu, problemə yanlış yanaşmadır. Həqiqi şəxsiyyət təzyiq və zorakılıq metodları ilə hazırlana bilməz. Vaxtilə ata övladını oxutmaq üçün mədrəsəyə, mollanın yanına gətirəndə "əti sənin, sümüyü mənim» deyir, oğlunu onun sərəncamına verirdi.

Həmin sözlərin mənası bu idi ki, istəsən, uşağı döy, şallağa tut, təki oxusun, bilik alsın.

Şillə, şallaq, qayış və çubuqla tərbiyə. Bu, anti-pedaqoji bir formadır. Uşağın tərbiyəsində bu vasitələrdən istifadə həm yolverilməzdir, həm də səmərəsiz. Hətta 4-5 yaşlı uşaq belə ata-ananını qışqırığının səbəbini anlamır, bunun cəza olduğunu başa düşmür. Bu kimi hallarda küncə qoymaq daha münasibdir. Əgər valideyn fiziki cəzaya əl atırsa, bu, o deməkdir ki, özünün haqlı olduğunu başqa yollarla heç cür uşağa sübut edə bilmir. Şillə, şallaq, qayış və çubuq uşaqda ata-ananın hərəkətini, münasibətini bəyənməmək, qəbul etməmək, acıq, bəzi hallarda nifrət yaradır.

Mollalar atanın onlara verdiyi səlahiyyətdən sui-istifadə edərək yaxşı oxumayan, yaxud intizamsız uşaqların ayaqlarını falaqqaya qoyub çubuqla onları döydürürdülər. "Dəli Kür" romanı (və eyni adlı filmi) nümunə gətirilə bilər.

Əslinə varsaq, deyə bilərik ki, fiziki cəza nəyin yaxşı, nəyin pis olduğunu uşağa öyrətmir. Döyülmək qorxusunu hiss edən uşaq yalnız müvəqqəti, müəyyən vaxt çərçivəsində sözə baxır. Çəkindiyi, qorxduğu şəxsin yanında özünü sözəbaxan, ədəbli aparır, sonra da bildiyini edir.

Yeniyetmələr valideynlərin onlara uşaq kimi yanaşmalarını xoşlamır, hər addımbaşı onları nəzarət altında saxlamalarından hətta hiddətlənirlər. Yeniyetməlik ziddiyyətli yaş dövrüdür. Özlərini böyümüş hiss edən uşaqlar himayəçiliyi qəbul etmirlər. Bir sıra hallarda valideynlərini eşitmir, dediklərini yerinə yetirmir, öz bildiklərini yeridirlər. Bu yaş dövründə yaxşı olar ki, ata-analar yeniyetmələrlə dost münasibətində olsunlar. Belə halda hətta onlar öz ürəklərini valideynlərinə aça da bilərlər. Uşaqların etibarını itirmək olmaz. Əks təqdirdə yeniyetmələr qaraqabaq olacaq, bir çox məsələləri ata-analarından gizli saxlayacaqlar.

Ata (ana) fikirləşir ki, övladı (oğlu, qızı) onun dediklərindən özü üçün nəticə çıxarıb, "sözəbaxan" olub. Fəqət, aldadıcı qənaətdir. Həqiqətdə bu, döyülmək qorxusu önündə zahiri itaətkarlıqdır. Fiziki cəza qorxusu uşağı özünü başqa cür aparmağa məcbur edir. Onda yalançılıq, ikiüzlülük, qorxaqlıq, yaltaqlıq və s. kimi mənfi keyfiyyətlərin formalaşmasına səbəb olur.

Valideyn ailə tərbiyəsində rəğbətləndirmə və cəzalandırma metodlarını ona görə tətbiq edir ki, uşaq öz hərəkət və əməllərinin, davranış və rəftarının, ünsiyyət tərzinin müsbət və mənfi nəticələrini görüb, düzgün qənaətə gəlsin.

Valideyn cəza verdikdən sonra onun nəticəsini də diqqət yetirməlidir. Ata, yaxud ana uşağın hər hansı biri əmələ, hərəkətə qəsdən, bilərəkdən və ya təsadüfən yol verdiyini özü üçün aydınlaşdırmalıdır. Bəzən cəzanın tətbiqi lazım gəlmir. Pedaqoqların qənaəti belədir ki, cəzalandırma metodundan nə qədər az istifadə edilsə onun səmərəliliyi daha yüksək olar. Əgər uşaq günahını səmimi şəkildə etiraf edirsə, cəzaya ehtiyac qalmır.

Valideynlərin hamısı uşaqlarını xoşbəxt böyütmək istəyirlər. Bəzi ata-analar bu sahədə uğurlar qazansalar da, bir sıra hallarda səhvlərə də yol verirlər.

Hansılardır o səhvlər:

*1) Ata-analar nümunə göstərmək əvəzinə elə hey öyüd-nəsihət verirlər.* Necə deyərlər, uşaq hər gün gördüklərini, şahidi olduqlarını canına, yaddaşına hopdurur. Ata, yaxud ananın dediyi bir şey olur, amma etdikləri başqa şey. Bu deyilənlərlə edilənlər arasında seçim etməyi uşağa tapşırmalı olsaq, o zaman uşaq ikincini – valideynlərinin davranış və rəftar, ünsiyyət tərzini seçəcək, təbii ki, məsləhət bildiklərinə laqeyd qalacaqlar. Məsələn, ata (ana) deyir: ki, söyüş söymək olmaz. Amma evdə o, söyüş söyür. Ana (ata) deyir: yalan danışmaq olmaz. Fəqət uşaq görür kü, ana özü əslində lazım gələndə yalan danışır, sözün düzünü, həqiqəti demir.

*2) Uşağın əvəzinə bir çox işləri valideynlər görürlər*. Bununla, əvvəla, uşağı müstəqillikdən, özünəxidmətdən məhrum edirlər. İkincisi, onu tənbəlliyə alışdırırlar. Ana balaca qızının dalınca uşaq bağçasına getmişdir. Onun paltarını tələsmədən dəyişdiyini görüb: "Qızım, tələs" deyir. Gözləməyə səbri çatmadığından onu özü geyindirir. Sonra qonşuların, rəfiqələrinin yanında şikayətlənir: "Qızım mənim köməyim olmadan çəkmələrinin bağını belə bağlaya bilmir. Fəal deyil".

*3) Valideynlərdən birinin (ananın) o birini (atanı) uşağın yanında tənqid etməsi*. Hətta valideynlərin bir-birindən narazılıqları varsa da, uşağın yanında bir-birini pisləməməli, bir-birinin nöqsanlarını sadalamamalı, qığqırmamalı, bir-birinə əl qaldırmamalıdırlar. Uşaq belə hal-

larda valideyn münaqişələrinin qurbanına çevrilir. Bu da onun psixi vəziyyətini pisləşdirir.

*4) Uşağın fiziki fəallığına təzyiq göstərilməsi.* Oğlanlar qızlarla müqayisədə fiziki baxımdan daha fəal olurlar. Onlar artıqlıq edən enerjidən yaxa qurtarmalıdırlar. Buna görə də onların hərəki oyunlarla, qaçış, uzununa və hündürlüyə tullanma, uzgüçülük, güləş, boks və s. məşğul olmaları təbiidir. Bəzi valideynlər uşaqlarını idman bölmələrində iştirakına qadağa qoyur, beləliklə, istifadə olunmayan enerji emosional gərginlik yaradır.

*5) Uşağı həmyaşıdları ilə müqayisə edib üstünlüyün onun dostuna, yoldaşına verilməsi.* Bu da arzuolunmazdır. Uşağı ruhdan salır, öz dostuna, yoldaşına münasibətdə qibtə, nifrət, öz qüvvəsinə inamsızlıq yaradır. əgər ailədə bir neçə uşaq varsa, onları da bir-biri ilə müqayisə etmək, üstünlüyü onlardan hansınasa vermək lazım deyil. Belə bir mövqe, uşaqlar arasında ixtilafa səbəb olur. ailədə uşaqlara ögey-doğma münasibət yolverilməzdir. Hər bir uşağı özünün uğuruna görə tərifləmək daha yaxşı olar. Uşaq yaxşı rəqs edirsə, demək olar: bu gün dünənkindən də yaxşı rəqs etdin. O biri uşağı tərifləyərək bildirmək olar: çəkdiyin rəsmlər adamı valeh edir. Belə yanaşma uşaqlarda öz qüvvələrinə inamı artırır.

*6) Fiziki cəzanın tətbiqi.* Bu, ailə tərbiyəsini çətinləşdirir. Bu haqda artıq bəhs etmişik.

*7) Yersiz himayə.* Ailədə yeganə oğlan uşağı böyüdükdə o, hədsiz qayğı ilə əhatə olunur. Nəticədə o, müstəqillikdən məhrum olur. Belələrinə, adətən "ana uşağı" deyirlər.

*8) Valideynlik məhəbbətini əsirgəmək.* Bəzi ata-analar tərbiyəvi məqsəd baxımından valideynlik məhəbbətini əsirgəmək kimi priyomundan istifadə edirlər. Mənəvi cəza bir sıra hallarda hətta fiziki cəzadan da dəhşətli olur. Uşaq atan-anasından:

-Mən səni daha sevmirəm.

-Mən pis, yaramaz uşağı xoşlamıram

-İtil gözümdən.

-Mənim ümidlərimi doğrultmadın.

-Tərbiyəsizin birisən.

-Əgər mənin dediklərimə qulaq asmasan, daha səni sevməyəcəyəm.

-Rədd ol, gözüm səni görməsin və s. bu kimi sözləri eşidəndə varından yox olur. Bunlar çox ağır ittihamlardır.

Azyaşlı uşaqlar valideynlərini itirməkdən, ata-anasının gözündən düşməkdən qorxaraq onların tələblərini yerinə yetirirlər. tərbiyənin bu tipli metodu az-çox səmərə versə də, ağır nəticələrlə müşayiət olunur.

9) *Emosiyaların qadağan olunması.* Ailədə bir sıra hallarda oğlan uşaqlarına müraciətlə deyilir: kişilər ağlamaz; qız kimi gözünün yaşını tökmə; sən kişisən – dözməlisən və s. Bu müraciətlər, bu təsdiqlər təbii hissləri büruzə verməkdə oğlanlara mane olur. Lazımdırmı? Əlbəttə, yox. Hətta yekə kişilər belə bir çox hallarda öz emosiyalarına nəzarət edə bilmirlər. Burada nə qəbahət var? Uşaq his-həyəcanını büruzə vermək haqqına malikdir. Bu zaman zəruri köməyi, dəstəyi almalıdır. Kədərini, hiss-həyəcanını daxilində yaşatmaq ona ziyan vurar.

*10) Məktəbdə aldığı qiymətə görə uşağı danlamaq.* Bu ona pis təsir göstərir. Valideynin verilən qiymətə reaksiyası müxtəlif şəkildə nəticələnə bilər: uşaqda təlimə ciddi məsuliyyət yaradar; yaxud oxumağa, təlimdə yaxşı nəticələrə yiyələnməyə marağını öldürə bilər. Qiymət düzələndir, münasibətin korlanması daha ciddi fəsadlar yarada bilər: uşaq valideynindən küsür, tez-tez üstünə qışqırdığına görə anadan (atadan) qorxur və s.

**4. Valideynin şəxsi nümunəsi.** Valideyn nümunəsi uşağa təsir edən güclü metoddur. K.D. Uşinskinin düzgün qənaətinə görə, "Tərbiyəçinin cavan ruha təsiri elə bir təsir qüvvəsidir ki, heç bir dərslik, heç bir əxlaqi nəsihət, heç bir cəza və rəğbətləndirmə onu əvəz edə bilməz".

Bu sözlərdə dərin həqiqət vardır.

Valideyn bütün günü uşağın diqqət mərkəzində olur. Ata, yaxud ana pedaqoji etikanın tələblərini necə yerinə yetirir, uşaqla necə danışır, onu necə həvəsləndirir, necə cəzalandırır, necə geyinir, hövsələli, yaxud əsəbidir? Uşaqlar bunlara fikir verirlər. Ona görə də valideynin uşaqlara dedikləri, məsləhət bildikləri ilə özlərinin hərəkət və əməlləri, davranış və rəftar tərzləri bir-birinə uyğun gəlməlidir.

Deməli, valideyn hər sahədə – bilik və bacarığı, geyimi, davranış və rəftarı, ünsiyyəti, qarşılıqlı münasibət tərzi, təşkilatçılıq qabiliyyəti və s. ilə öz övladlarına nümunə göstərməlidir.

5. **Tərbiyədə nəzarət, özünənəzarət və özünüqiymətləndirmə** (başqa sözlə, *tərbiyə*

*prosesinə nəzarət və onun səmərəliliyinin təhlili*) **metodu**

Uşağın bir şəxsiyyət kimi təşəkkülündə bu metodun da əhəmiyyəti böyükdür. Tərbiyə mütəşəkkil, məqsədyönlü, sistemli və fasiləsiz proses olduğundan bu proses nəzarətsiz buraxıla bilməz. Özlərinin gündəlik davranışına, rəftar və ünsiyyət tərzinə fikir verməyi uşaqlara öyrətmək və hər sahədə nümunəvi olmaq tələbatını onlarda yaratmaq vacibdir.

Özünənəzarət özünütərbiyənin mühüm komponentlərindəndir, şəxsiyyətin ahəngdar və hərtərəfli inkişafını təmin edir. Özünüqiymətləndirmə barədə də həmin fikri söyləmək olar. Əgər uşaq özünüqiymətləndirməyi bacarırsa, özünə kənardan, başqasının gözləri ilə baxa bilir və öz qüsurlarını, yaxşı cəhətlərini görürsə, o, nəticə çıxarmağa çalışacaqdır. Başqa cür ola da bilməz.

Burada Şeyx Nizaminin:

Öz əksinə vurulma, bil ki, nədir varlığın,

Qüdrətin güzgüsündə bir zərrədir varlığın,

və: A. Bakıxanovun: "O adam ağıllı hesab olunur ki, öz nöqsanını başqalarından çox görsün və hünərini az bilsin" sözləri yerinə düşür.

Cəmiyyətin nəzərində müsbət qiymətləndirilmək istəyi insanı mədəni və tərbiyəli, kamil olmağa məcbur edir. Tərbiyədə nəzarət, özünənəzarət və özünüqiymətləndirmə bir-biri ilə sıx surətdə bağlı olan və biri digərinin olmasını zərurətə çevirən anlayışlardır.

Ailədə şəxsiyyətlərarası münasibətlərin ölçüsü. Ailə tərbiyəsində uşaqla kobudluq yolverilməzdir. Valideynlər sözlərinə, danışıq tərzlərinə fikir verməlidirlər. Ünsiyyət zamanı təhqiredici sözlərdən istifadə olunmamalıdır. Nitq mədəniyyəti gözlənilməlidir. Valideyn söyüşə, kobud sözlərə, təhqirə adət edərsə, bu kimi hallar uşaqda, onun danışıq, nitq və ünsiyyətində öz əksini tapacaqdır. Məktəbəqədər yaşlı uşaqlarla adi dildə danışılmayanda, bu onun nitqinin inkişaf etməməsinə, yaxud düzgün olmayan davranışına səbəb olur. uşaq doğulduğu gündən etibarən çığır-bağır deyil, düzgün nitq eşitməlidir ki, normal danışa bilsin.

**Problemin aktuallığı**. Ailə tərbiyəsinin metodlarının araşdırılması aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Ailə tərbiyəsinin metodları diqqət mərkəzinə gətirilir. Ailə tərbiyəsində yol verilmiş nöqsanlara münasibət bildirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə ali məktəblərin bakalavriat səviyyəsində "Ailə pedaqogikası" fənnindən mühazirə və seminar aparan müəllimlər üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. A.N. Abbasov. Pedaqogika: müxtəsər konspekt və sxemlər. Bakı: Mütərcim, 2007.
2. A.N. Abbasov. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.

**Rəyçilər**: ped.ü.elm.dok. **İ.H. Cəbrayılov**,
ped.ü.elm.dok., prof. **F.N. İbrahimov**
**E-mail:** *a.abbasov@arti.edu.az*
**Redaksiyaya daxil olub**: 17.12.2018

## ÜMUMPEDAQOJİ PROBLEMLƏR

*UOT 378.*

***Müdafiə Cəmil oğlu Mahmudov***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Texniki Universitetinun kafedra müdiri*

# ALİ TƏHSİLDƏ İNNOVASİYA VƏ MODERNLƏŞMƏ: PROBLEMLƏR, PERSPEKTİVLƏR VƏ REALLIQLAR

***Мудафие Джамиль оглу Махмудов***
*профессор, доктор наук по математике*
*заведующий кафедрой Общей и прикладной математики,*
*Азербайджанский Технический Университет*

# ИННОВАЦИЯ И МОДЕРНИЗАЦИЯ ВЫСШЕГО ОБРАЗОВАНИЯ: ПРОБЛЕМЫ, ПЕРСПЕКТИВЫ И РЕАЛИИ

***Mudafie Jamil Mahmudov***
*doctor of pedagogical sciences, professor*
*Head of the Department of General and Applied Mathematics,*
*Azerbaijan Technical University*

# İNNOVATION AND MODERNİZATİON İN THE HİGHER EDUCATİON: PROBLEMS, PERSPECTİVES AND REALİTİES

**Xülasə:** Məqalə ali texniki təhsil müəssisələrində yeniliklər və modernləşmə, problemlər, perspektivlər və reallıqlara həsr olunub. Yüksək texniki təhsil müəssisələrinin qarşısında duran problemləri və ziddiyyətlərin aradan qaldırılması araşdırılır.
***Açar sözlər:*** *innovasiya, modernləşmə, problem, yenilik, tədris, proqram, ali məktəb, keyfiyyət, informasiya, texnologiya*

***Резюме:*** Статья посвящена инновациям и модернизации, проблемам, перспективам и реалиям в высших технических учебных заведениях. Были исследованы проблемы, с которыми сталкиваются высших технические учебные заведения, и вопросы устранения противоречий**.**
***Ключевые слова:*** *инновации, модернизация, проблемы, инновации, обучение, программное обеспечение, высшее образование, качество, информация, технологии*

**Summary:** The article focuses on innovation and modernization, problems, perspectives and realities at higher technical schools. The problems faced by high technical schools and the issues of elimination of controversy have been investigated.
***Key words:*** *innovation, modernization, problem, innovation, teaching, software, higher education, quality, information, technology*

*"Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri bütün tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişdir. Bu gün qədəm qoyduğumuz informasiya cəmiyyəti və biliklərə əsaslanan yeni tip iqtisadiyyatın formalaşması, qloballaşma çağırışları bütün dünya təhsil sistemi qarşısında yeni vəzifələr qoyur. "Təhsil əsri" adı qazanmış XXI əsr Azərbaycan təhsilinin də yeniləşməsini və müasirləşməsini tələb edir. Əminəm ki, Azərbaycan müəllimləri*

*fəaliyyətlərini bu tələblərə uyğun daha da təkmilləşdirərək, müstəqil Azərbaycan Respublikasının çiçəklənməsinə xidmət edən gənc nəslin yetişdirilməsi işinə öz töhfələrini verəcəklər."*

***İLHAM ƏLİYEV***

XX əsr müasir cəmiyyətə böyük dinamik dəyişikliklər gətirdi. Bu dəyişikliklər bizi əhatə edən ətraf aləmin görüntüsünü əsaslı sürətdə dəyişdi. Belə vəziyyətdə ali məktəblərin fəaliyyət dairəsi genişlənməyə başladı. Bu zaman ancaq ənənəvi sahədə mütəxəssis hazırlamaq deyil, həm də bu strategiyanı hazırlayan və həyata keçirə bilən mədəniyyət konturunun yaradılması məsələsinin həlli qarşıda durdu. Daha doğrusu, ali məktəbin yeni vəziyyəti, təhsil sisteminin istiqaməti ilə cəmiyyətin məlumat ehtiyacını bağlayan ümumdünya fikirlərinə olan münasibətin həllindən asılı oldu. Ali məktəb aramla bazar münasibətlərinin tam hüquqlu subyektinə çevrilir, bu isə onun quruluşunun yaranmasına, funksiyalarının dəyişilməsinə, yeni məktəblərin maliyyə problemlərinin həllinə, təlimin yeni metodikalarının axtarışına və biliyin keyfiyyətinin nəzarətinə təkan verir.

Ali məktəbin sosial funksiyaları kateqoriya kimi geniş dairədə baxılır, bu isə sosial sistemin müxtəlif sferalarda elementlərinin fəaliyyətini bütövlükdə əks etdirir. Məsələn, mədəni-yaradıcı funksiyalar cəmiyyətin mənəvi aləminin inkişafına yönəlmişdir. Belə şəraitdə ali məktəblərin rolu və məsuliyyəti artmışdır. Çünki bu proses şəxsiyyətin formalaşmasına birbaşa təsir göstərir, sosial məsuliyyət hissinin bünövrəsini qoyur, yəni bu, cəmiyyəti qorumaq, inkişaf etdirmək və mənəvi irsi ötürməyə imkan verir. Bunları nəzərə alıb deyə bilərik ki, XXI əsrdə köhnə təhsil sistemi bütövlükdə ümumi inkişafa mane olur.

XX əsrin axırları, XXI əsrin əvvəllərindən ölkəmiz inkişaf etmiş ölkələrlə bu istiqamətdə həm regionlar arasında liderliyinə görə, həm də öz milli təhlükəsizliyinə, özünəxas inkişafın qorunmasına, siyasi-mədəni sistemə və çoxrəngli dünyəvi cəmiyyətə görə rəqabətə başladı. Bu isə perspektivlər aləmində təhsil və elmin miqyası, səviyyə və keyfiyyəti milli təhlükəsizliyin təminatının və inkişafının həlledici, aparıcı amilinə çevrilir.

Müşahidələr göstərir ki, təhsil ocaqlarının əksəriyyətində əməkdaşlıq yaradılması, ezamiyyətlər, qarşılıqlı danışıqların təşkili və s. ancaq görüntülərdən ibarətdir. Xarici dillərin öyrənilməsinin təşkil olunması və tərəfdaşlar arasında ünsiyyət yetərli deyil. Birgə əməkdaşlığın zəruri amillərinin yaradılmasında xarici dil bilən ixtisaslı müəllimlərin cəlb edilməsi və əmək haqlarının ödənilməsi üçün ciddi maliyyə qoyuluşunun olmaması ağrılı nöqtələrdən biridir (bəzi ali məktəblərdə xarici dil bilməyən müəllimlərin xarici ölkələrə nə üçün getdikləri sual doğurur).

Universitetlərdə mühüm dəyişikliklərin sırasında həyata keçiriləcək faktlardan bəzilərini göstərək: bilik səviyyəsinin yüksəldilməsi, informasiya və kommunikasiyanın qlobal miqyasda inkişafı, meydana çıxan geniş miqyaslı əmək bazarına daxil olmaq və s. ali təhsil də daxil olmaqla, ümumdünya inkişafını xarakterizə edən qloballaşma bir proses kimi dövlətin müxtəlif sahələrindəki siyasətin formalaşmasına təsir edən əsas qüvvələrdən biridir.

Dünya proseslərinin öyrənilməsində ali təhsil mühüm rol oynamalı, peşə fəaliyyəti və qlobal prosesləri idarə etmək üçün mütəxəssislər hazırlanmalıdır. Bu isə çətin və ziddiyyətli prosesdir, məhz buna görə də tədqiqatçılar ona müxtəlif məna verirlər. Bu faydalar isə təhsil sistemindən faydalı sürətdə istifadə etməklə ticarətin geniş miqyasda böyüməsində, rəqabətin artmasında, keyfiyyət standartlarının yüksəldilməsində, mövcud olmuş mili təcrid qalıqlarının aradan qaldırılmasında və s. özünü göstərir. Avropada geniş yayılmış Bolonya prosesi də qloballaşmanın müsbət təsirinin parlaq nümunəsidir.

İndiki dövrdə dünya təhsil sistemində ali məktəblərin milli çərçivəyə qapanması iqtisadiyyatın qloballaşmasının nəticələri və perspektivləri ilə get-gedə daha dərin və müxtəlif məsələlərdə konfliktə gətirir. Məsələn, universitet diplomlarının və ixtisas dərəcələrinin tanınmasında, təhsilin keyfiyyətinin beynəlxalq qiymətləndirmə formalarının inkişafında, beynəlxalq akkreditasiya prosedurlarında və s. qarşıya çıxır. Bu məsələnin həllini tələbələrin və müəllimlərin mobilliyi, tədris planlarının beynəlmiləlləşdirilməsi, birgə proqramlar, ikili və üçlü diplom proqramları, təhsil xidmətlərinin müxtəlif növləri kimi formalarda axtarmaq lazımdır.

Ölkə ali məktəblərinin ünvanına bəzi iradlar səslənir, etiraf etmək lazımdır ki, bu iradların bəziləri heç də əsassız deyil. Artıq bu iradları araşdırmaq zamanı gəlib çatmışdır: bizim ali təhsilimiz bu gün hansı səviyyədədir, bu gün ali təhsil ocaqlarında nə kimi proseslər gedir? Müvəffəqiyyətlərimiz və nöqsanlarımız nələrdən ibarətdir?

Ölkəmizdə ictimai inkişafın indiki mərhələsində sosial-iqtisadi, mədəni və s. sahələrdə xeyli dəyişikliklər baş verir və təhsilə münasibət dəyişilir. Ali məktəblərə böyük müstəqillik verilməsi və aparılan islahatlar yüksək ixtisaslı mütəxəssislər hazırlayan bu məktəblərin yeni inteqrasiya formalarının tədqiqi məsələsini qarşıya qoyur. YUNESKO və Avropa Birliyi islahat konsepsiyasına uyğun olaraq qida, geyim və mənzillə yanaşı təhsili insanın əsas tələbləri qrupuna aid edir. İnsanın tələbatlarından yaranan belə bir irəliləyiş bir sıra səbəblərlə bağlıdır. Bunların içərisində müasir istehsalın intellektuallığı mühüm rol oynayır. İndiki zamanda istehsalat və ictimai həyat sürətlə dəyişir, inkişaf edir. Buna müvafiq olaraq tədris prosesi daimi yeniləşmə, modernləşmə və təkmilləşmə tələb edir.

İnsan gəncliyində seçdiyi peşəsindən, ixtisasından və bəzən həvəsləndirdiyi, mükafatlandırdığı iş yerindən yeni sahələrin yaranması səbəbindən öz fəaliyyətini dəyişdirmək zərurəti qarşısında qalır. Bu isə onda yeni fəaliyyət sahəsinə dair bilik və bacarıqlara yiyələnmək zərurəti yaradır. Bununla yanaşı, insanın gəncliyində konkret peşə, ixtisas bacarıqlarından bütün həyat boyu istifadə etməsi kifayət etmir. Buna görə də fasiləsiz (ömürboyu) təhsilin zəruri olduğunu dərk edərək digər sahələrdə də özünü sınamaq məcburiyyətində qalır. İnsan özünün təhsil sayəsində əmək və məişət qayğılarının dar çərçivəsindən ayrılaraq bütün bəşəriyyətə mənsub olduğunu duymağa başlayır. Aldığı biliklər ona nəinki planetin əsas hadisələrindən xəbər tutmaq, həm də özünün əhatəsində baş verən zərərli hadisələrin qarşısını almaq üçün hansısa addımlar atmasını təmin edir.

Təhsilin böhrandan çıxış yolunu təmin edən amillərdən biri məhz insanın yüksək peşəkarlığını təmin edən fasiləsiz təhsil prinsipinin gerçəkləşməsidir. Ali təhsil sferasında yeni yanaşmalar təhsil və elmi-tədqiqat proseslərinin elə bir uzlaşmasını tələb edir ki, o, yeni biliklərin təhsil sferasına axının ləngiməsini minimuma endirmiş olsun. Təəssüflər olsun ki, bəzi ali məktəblərdə aparılan elmi-tədqiqat işlərinin səviyyəsi və xarakteri bu prinsipdən çox-çox geridə qalır. Başqa elm sahələrində olduğu kimi, bu problem riyaziyyat-təbiət elmləri sahəsində də özünü göstərir.

Dünyada iqtisadiyyatın texnoloji inkişaf yoluna qədəm qoyduğu indiki zamanda yüksək səviyyəli mütəxəssislərin hazırlanmasına ehtiyac vardır və bu məqsədlə dünya təhsil sistemində yüksək səviyyəli bakalavrların hazırlanması mühüm və əhəmiyyətli rol oynayır. Başlıca problemlərdən biri ölkəmizdə hazırlanan peşəkarlar kəmiyyətcə yox, keyfiyyətcə fərqlənməlidir. Bunun üçün təhsilin keyfiyyəti və sağlam mühit qarşıya çıxan problemlərin həllində əsas rol oynayır. Müşahidələr göstərir ki, ali texniki məktəblərin kompüter və informatika mədəniyyətinin formalaşdırılması, müasir psixoloji-pedaqoji texnologiyalar və nəzəri yanaşmalar hazırda mövcud tələblərdən geridə qalır. Əgər biz keyfiyyətli təhsil istəyiriksə, onda birinci növbədə müəllim və tələbələri müasir avadanlıqlarla təchiz etməliyik. Bu istiqamətdə kadr hazırlayan tədris müəssisələri mövcud çatışmazlıqları görməli və aradan qaldırmalıdır.

Bəzi ali məktəblərin müəllimin əmək haqlarından qənaət etməsi kadr iflasına və onların intellektual yoxsullaşmasına aparan bir yoldur ki, bu da öz növbəsində mütəxəssis hazırlığının keyfiyyətinin pisləşməsinin bir şərti kimi özünü göstərir.

Son zamanlar əmək haqqının artırılması dövlətimiz və hökumətimizin diqqət mərkəzində durmuşdur. Lakin onu da qeyd edək ki, belə bir şəraitdə Bolonya prosesinin müddəalarının reallaşdırılmasında və tətbiq edilməsində müəllimlərin əmək fəaliyyətinin qiymətləndirilməsi üzrə məqsədyönlü, düşünülmüş işlərin görülməsi zəruridir. Məsələn, tutaq ki, professorun dərs yükü 600 saat təşkil edir. Bundan başqa, onun üzərinə düşən başqa elmi fəaliyyətə diqqət yetirək: dərsliklər, dərs vəsaitləri yazırlar, fəlsəfə və ya elmlər doktorluğu müdafiələrində opponent qismində iştirak edirlər, dissertasiya şuralarında fəal sürətdə çalışırlar, ali məktəblərdə elmi dərəcə almaq istəyən kadrların hazırlığını aparırlar, monoqrafiya və dərsliklərə rəy verirlər, elmi seminarlar aparırlar və s. Deyilənlərdən aydın gö-

rünür ki, ştat cədvəli bütün kateqoriyalardan müəllim heyəti üçün eyni olan dəyişilməz rəqəm üzrə deyil, qeyd olunan fəaliyyət amillərini nəzərə almaqla formalaşdırılmalıdır. Göstərilən amillər isə ali məktəblərin maliyyələşdirilməsinin iqtisadi meyarlarının işlənib hazırlanması ilə bağlıdır ki, bu, çox mürəkkəb bir prosesdir. İkinci tərəfdən maliyyə təminatının sadələşdirilməsini yalnız müəllimlərin sayı ilə müəyyənləşdirmək düzgün deyil. Digər tərəfdən, professor-müəllim heyətinin keyfiyyət tərkibində onların fəaliyyət səviyyəsini və bir sıra başqa amilləri nəzərə almaq lazımdır.

Tədris yükü normaları maliyyə təminatı ilə möhkəmləndirilmir, tədris saatlarının cəmi eynilə qalsa da, həyata keçirilən tədris yükü normaları tətbiq edilərkən əlavə sayda müəllimlərin cəlb edilməsinə zərurət yaranır, bu isə əlavə maliyyələşdirmə tələb edir. Bu hal isə çətin ki, büdcədə nəzərdə tutulmuş olsun. Başqa bir problemə diqqət yetirək: auditor və müstəqil işin nisbəti reallaşdırıldıqda, auditor yükünün azaldığı ortaya çıxır, bu isə müəllimlərin sayının real olaraq ixtisarına, onların arasında işsizliyə və qalan müəllimlərin yükünün artmasına gətirib çıxarır.

Avropa universitetləri dövlət tərəfindən lazımınca maliyyələşdirilmir. Buna görə də universitetlər maliyyə axınlarının genişləndirilməsi problemi üzərində işləyir. Universitetlər ali təhsilə və elmi tədqiqatlara olan münasibətlərini və onların maliyyələşdirilməsini yenidən diqqətdən keçirir və gələcəyə kapital qoyuluşu kimi baxmağa çağırır. Universitetlər Avropa səviyyəsində ən yüksək dialoqu alqışlayır və belə bir fikir irəli sürürlər: güclü Avropaya güclü universitetlər lazımdır.

Təhsil strukturu və sistemi elə olmalıdır ki, XXI əsrdə vətəndaşların yüksək səviyyədə yaşamalarında əhəmiyyətli rol oynasın. Dövlət və hökumətimiz universitetlərin dəstəklənməsi və saxlanması üçün həmişə müvafiq maliyyələşdirmə səviyyəsinə zəmanət vermişdir. Məhz yuxarıda göstərilənləri nəzərə alaraq deyə bilərik: güclü Azərbaycan üçün güclü universitetlər yaratmaq lazımdır.

Nə üçün XXI əsr kompüter əsri adlanır? Çünki o, artıq praktikada geniş tətbiq olunmuşdur, həyatımızın bütün sahələrinə sirayət etməklə onun bir hissəsinə çevrilmiş, tədqiqat və tədris məsələlərinə yaxşı uyğunlaşdırılmışdır. Ona görə də bu, gənc kadrların işində daim köməkçi rolunu oynayır.

İndiki dövrdə bakalavr təhsil səviyyəsi üçün yeni tədris proqramının hazırlanması, ona uyğun dərsliklər, dərs vəsaitləri və s. işlənməsi kafedralar qarşısında kəskin qoyulmalıdır. Dərsliklər, dərs vəsaitləri və s. elə şəkildə yazılmalıdır ki, tələbələr riyazi məsələlərin həllində fikirləşə bilsin, əldə etdikləri bilikləri müasir riyazi məsələlərin həllinə tətbiq etsin və qarşıya çıxan məsələlərin həlli yollarını müəyyənləşdirə bilsinlər. Bunun üçün də tələbələrə həm də öyrənməyi öyrətmək lazımdır. Ali məktəb tələbələri arasında təbiət elmləri fənlərinin öyrədilməsi zamanı ümumiləşdirmə və təsnifat əməliy-yatlarının başlanğıc səviyyəsinin mənimsənilməsinin yetərsizliyi özünü əks etdirir. Bu çatışmazlıq riyaziyyat kursunun tədrisində də özünü göstərir. Təhsilin və riyazi təhsilin keyfiyyət məsə-lələri, riyazi təhsilin məzmununa müxtəlif yanaşmalar, tədrisdə yeni təlim texnologiyalarının tətbiqi və s. kimi əhəmiyyətli məsələlər bu gün öz həllini gözləyir.

Ali məktəblərdə dəqiq fundamental elmlərin tədrisi o halda keyfiyyətli ola bilər ki, tədris prosesi məqsədyönlü və gərgin təfəkkürlə müşayiət olunsun. Dəqiq elmlərin tədrisində psixologiyanın bu müddəası daha fundamental önəm daşıyır ki, yeni anlayışlar mənimsənilərkən tələbələrin təfəkkür fəaliyyəti fəallaşdırılmazsa, onda nəinki düşünmək bacarığı əldə olunar, həm də yaddasaxlamanın özü də yarımçıq olar, çünki onun bünövrəsi başadüşərli, anlamlı olmayacaqdır. Anlama zamanı lazımi səviyyəyə nail olmaq üçün həyata keçirilən yaddasaxlama nəinki faydalıdır, hətta o, adətən sonrakı əldə olunacaq biliklərin möhkəmləndirilməsinə mane olmur.

Elmi-texniki tərəqqinin sürətli inkişafı və cəmiyyətin həyat şəraitinin dəyişməsi təhsil konsepsiyasının təkmilləşdirilməsi zərurətini doğurur. Buna görə təhsilin keyfiyyətinin artırılmasının əsas yollarından biri informasiya kommunikasiya təhsil sahəsinə geniş şəkildə tətbiqidir. İnformasiya kommunikasiya tətbiqində istifadə edilən yeniliklər yeni metod və formaların genişlənməsinə, müəllimlərin iş üslubunun dəyişilməsinə, həm də pedaqoji sistemdə struktur dəyişikliklərinə gətirib çıxarır. Bu halda təhsilin məqsəd, vəzifə və məzmununun qiymətləndirilməsi baş verir, bu isə mütəxəssis hazırlığının

şəxsiyyətyönlü modelinin qurulmasına imkan verir. Belə bir yanaşma şəxsiyyətin yaradıcılıq qabiliyyətinin inkişafına, qeyri-standart vəziyyətlərdə həll yolu tapmaq bacarığına, müstəqil və yaradıcı düşünməyə, dəyişən şəraitə uyğunlaşmağa yönəlməlidir.

Müasir dövrdə elmi-texniki tərəqqi, informasiya və kompüter inqilabı, ideya və biliklərin sənayeyə çevrilməsi, yeni informasiya texnologiyalarının inkişafı, təhsilin yeni vəzifələrini qarşıya qoyur. İnformatika hazırlığının məqsədi təhsilalanın fəaliyyətinin və onun şəxsiyyət keyfiyyətinin formalaşmasından ibarətdir. Bunlar insanın peşəsi, onun həyat tərzi, mədəni və intellektual inkişaf səviyyəsi ilə müəyyənləşir, yeni pedaqoji texnologiya biliklərin ötürülməsindən daha çox, təhsilalanın şəxsi keyfiyyətlərinin formalaşmasına istiqamətlənməlidir. Bu kimi problemlərdən biri pedaqoji prosesin layihələşdirilməsidir. Təhsilə sosial həyatın birinci dərəcəli tələbatlarından biri kimi yanaşılmalı və onun yeni texnologiyalarını mənimsəmək lazımdır. Buna görə də işin ənənəvi formalarını və metodlarını, eləcə də təlim vasitələri və texnologiyalarını təkmilləşdirmək sahəsində əsaslı tədqiqatlar aparılmalıdır.

Tədris prosesinin keyfiyyətinin yüksəldilməsinin yeni yollarının işlənib hazırlanması onun təkmilləşdirilməsinin şərti kimi, elm və texnikanın son nailiyyətlərinin tətbiqinin nəticələrindən biri kimi bu gün aktualdır və daha çox vacibdir. Tələbələrin müasir texnologiyaların tələblərinə uyğun yüksək səviyyəli hazırlığı üçün tədris prosesində elə lazımi addımlar atılmalıdır ki, müasir texnologiyaların sürətlə inkişafı ilə bağlı olaraq qazandıqları bilikləri onlar gələcəkdə uyğun olaraq dəyişdirə bilsinlər.

Ali məktəb müəllimləri üçün aşağı kurs tələbələrində adekvat formalaşdırılma problemi xüsusi maraq kəsb edir. Bu baxımdan tədris fəaliyyətini şəxsiyyətin inkişafının tərkib hissəsi kimi gözdən keçirmək lazımdır. Müşahidələr göstərir ki, nəzəri fənlərin öyrədilməsi zamanı yeni informasiya texnologiyalarından istifadə edilməsi ilə əldə olunan biliklərin keyfiyyət göstəriciləri, fərdi və ya kollektiv tədris fəaliy-yətinin təşkili bütün digər formalarda alınan göstəricilərdən yüksəkdir. Bilik və bacarıqların əldə edilməsi ciddi fəaliyyətdir. Bilik və bacarıq bir-biri ilə bağlı, biri digərinin səbəbi və biri digərinin nəticəsi olub, eyni bir fəaliyyətdir, lakin müxtəlif formalarda üzə çıxır. Tədrisin ümumi keyfiyyəti yetərli olmadıqda keyfiyyətli məzunlardan danışmaq mümkün olmadığından ali məktəblərdə tədrisin keyfiyyətinin yüksəldilməsi dövrün prioritet vəzifələrindən birinə çevrilmişdir.

XI-XII əsrlərdən yaranmış dünya ölkələrinin nüfuzlu ali təhsil müəssisələrinin indiki dövrdə illik dövriyyəsi milyonlar və ya bir - beş milyard dollar həcmindədir. Buna baxmayaraq, yüz illərlə tarixi təcrübəsi və böyük maddi-texniki bazası olan bu ali təhsil müəssisələrinin də müasir texnologiyaların tələblərinə uyğun öz maliyyə problemləri vardır. Dünya təhsil sistemlərinin təcrübəsi göstərir ki, nüfuzlu qeyri-dövlət və dövlət ali müəssisələrinin inkişafında da maliyyə çətinlikləri baş verir. Bu ali təhsil müəssisələrinin rəhbərləri, əlaqədar nazirliklər və şəxslər həmin çətinliklərin aradan qaldırılmasında və əlavə gəlir əldə edilməsində müxtəlif variantlardan istifadə edirlər. Bu işdə həm də varlı, imkanlı şəxslərin köməkliyi də mühüm rol oynayır ki, bu təcrübədən bizim ölkəmizdə də istifadə etmək faydalı olardı.

Dövlətimizin təhsil işçilərinə diqqət və qayğının nəticəsidir ki, hər il bir sıra müəllimlərə fəxri adlar verilir və bir sıra müəllimlər isə təhsilin inkişafındakı xidmətlərinə görə orden və medallara layiq görülür. Ağrılı nöqtələrdən biri odur ki, ali məktəb müəllimlərinə fəxri adların, orden və medalların verilməsi əsasən ali məktəblərin müəyyən illik yubileylərində baş verir. Digər tərəfdən qeyd edək ki, müəllimlərin xidmətləri aşağı təbəqələrdən qiymətləndirilib təqdim edilməsində yerlibazlıq, dostbazlıq, yaramaz əməllər özünü əks etdirmişdir. Ali məktəblərdə yaşı 65-70-i keçmiş vəzifədə olan şəxslərin öz vəzifələrindən uzaqlaşdırılması rəhbərlik tərəfindən yaşlarının bəhanə olması yox, vəzifələrinə yararsız olduqları açıqlanmır.

Ölkəmizin təhsil inkişafı üzrə dövlət proqramlarının yerinə yetirilməsində Ali Texniki Universitetdə maddi-texniki bazanın gücləndirilməsi, təhsilin məzmununun yeniləşdirilməsi, yeni tədris proqramlarına uyğun dərslik, dərs vəsaitləri, metodik vəsaitlər və s. hazırlanması, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində yeni model və mexanizmlərin tətbiq edilməsi, pedaqoji kadr təminatının yaxşılaşdırılması, kafedraların İKT ilə təminatı sahəsində nailiyyətlər və s. əldə

olunmuşdur. Biz müəllimlər əminik ki, keçmişin hərc-mərclikləri bu gün təkrar olunmayacaq. Ziyalı gücümüzdən istifadə edərək ölkəmizin çiçəklənməsi naminə Prezidentimiz cənab İlham Əliyevin siyasətini alqışlayır və qəlbən deyirik – Ulu Tanrı Sizə yardımçı olsun!

Son illər texniki universitetlərdə bəzi müəllimlər tərəfindən dərs vəsaitlərinin hazırlanması bir növ qazanc əldəetmə prosesinə çevrilmişdir. Dərs vəsaitləri peşəkar, elmi cəhətdən yüksək səviyyəli müəllimlər tərəfindən yazılmalıdır və həm də tələbələrə satıldıqda ölkəmizin iqtisadi cəhətdən indiki vəziyyəti nəzərə alınmalıdır. Yüksək səviyyəli müəllimlər tərəfindən yazılmayan vəsait gələcək mütəxəssislərin hazırlıq səviyyəsini aşağı salır. Dərs vəsaitləri tədris proqramı üzrə kafedranın əməkdaşları tərəfindən hazırlanmalı və daim təkmilləşdirilməlidir. Buna görə də müəllimlər öz biliklərini artırmalı, müasir tələblərə uyğun təkmilləşməlidirlər. Göstərilən problemlərin bir çoxu tədris planlarının və proqramlarının hazırlanması prosesində meydana çıxır.

Təhsil sahəsində aparılan islahatlar nə üçün lazımdır sualına islahatçılar dolğun və məntiqi cavab vermirlər. Hətta islahatın nə demək olduğu elmi və məntiqi şəkildə aydınlaşmır. Hazırda “yenilik” və ya “yeniləşmə” anlayışları və ya təhsilin “modernləşməsi” sualı meydana çıxır. Bunlar müxtəlif məfhumlardır. Məktəblərin modernləşməsinin başlıca səbəblərindən biri də onun dəyişikliklərə uğramış sosial-iqtisadi inkişafa uyğunlaşmasını təmin etməkdir. Müasir dövrdə respublikamızda təhsil sisteminin modernləşməsi məsələsi çox narahatçılıq doğurur. Hazırda orta və ali məktəblərdə həyata keçirilən modernləşmənin konkret problemlərinə nəzər salaq. Təhsilin məzmunu ilə bağlı olan problem son illər orta və ali təhsilin siyasi, iqtisadi, sosial dəyişikliklərə məruz qalan müasir insanların tələblərinə uyğun şəkildə qurmaq məsələsi ilə bağlıdır. İkinci problem təhsilin keyfiyyəti ilə əlaqədardır. Orta təhsilin modernləşməsini hansı yollarla həyata keçirmək olar? Təhsil sistemini prinsipial surətdə dəyişərək, tədrisin struktur və metodlarının yenidən qurulmasının zəruriliyini hesab edənlər böyük təhlükə yaradırlar. Bu halda məktəb qarşısında müasir insanların qoyduğu yeni məsələləri həll etmək lazım gəlir. Bu cür cəhdlər tariximizdə artıq olmuş və uğursuzluqla nəticələnmişdir.

Aparılan statistik araşdırmalara görə ali texniki məktəblərə daxil olan tələbələrin 80-85%-i gələcək peşələrinə yalnız diplom almaq xatirinə yiyələndiklərini bildirirlər. Hətta bu tələbələrin təxminən 70-80%-dən çoxu peşə seçimlərindən narazıdırlar. Bu xoşagəlməz problemlərdə başlıca rol oynayan amillərdən biri də qəbul imtahanı ilə bağlı olan strukturun düzgün qurulmamasıdır. Bu göstərilən faktların hamısı nəticədə mənasız xərclərə və faciələrə gətirib çıxarır. Ali texniki məktəblərə gələn tələbələrin peşə seçimi orta məktəbdən başlayır. Buna görə də ali texniki məktəbləri seçən tələbələr universitetdə tədris olunan riyaziyyat kursunu qavramağı bacarmalıdır. Texniki məktəblərdə təhsilini uğurla davam etdirmək üçün tələbələrdə ümumi riyaziyyata maraq oyatmaq; tədris zamanı sərbəst iş təcrübəsi qazandırmaq; özünü qiymətləndirmə keyfiyyəti aşılamaq lazımdır. Təhsilin yenidənqurma ilə bağlı riyaziyyat kursunun tədrisində tələsmək ölkənin riyaziyyat təhsilinə ciddi zərər yetirdi və ali texniki məktəblər arasında rəqabətin azalması özünü göstərir. Daha doğrusu, orta məktəblərdə riyaziyyata maraq azaldı və peşəkarlar elə ixtisas seçdilər ki, orada riyaziyyat öyrənilmir. Üçüncü amil isə repetitorluğun geniş vüsət almasıdır. Orta məktəb zəruri biliklər vermədiyindən, imkanlı ailələr repetitorlara müraciət edirlər. Bu halda texniki məktəblərə qəbul olunan abituriyentlər arasında bərabər olmayan imkanlar yaranır.

Orta məktəblərdə yaranmış bu acınacaqlı vəziyyətin əsas səbəblərindən biri də yeni orta məktəb proqramının çatışmazlığı, ikincisi isə, tədris vəsaitlərinin aşağı olması, bəzi fənlər üzrə buraxılış imtahanlarının ləğv olunmasıdır. Araşdırmalardan məlum olub ki, orta məktəblərin bir çoxu riyaziyyat üzrə təzə məktəb proqramının çətinliklərini və ziddiyyətlərini dəf edə bilmirlər. Buna görə də ali texniki məktəblər gələcək mütəxəssislərin, tədqiqatçıların və istehsalat rəhbərlərinin müasir tələblərə uyğun hazırlanmasına daha da məsuliyyətlə yanaşmalıdırlar. Buna görə də ali texniki məktəblərdə riyaziyyatın tədrisi üçün tədris yükü artırılmalı və əlavə saatlar nəzərdə tutulmalıdır. Gələcək bakalavr yüksək səviyyəli peşəkar kimi riyaziyyat kursunun öyrənilməsinə nail olmaq üçün nəzəri bilik-

lərdən başqa, həm də praktik vərdiş və bacarıqlara üstünlük verməlidir. Hazırda ali texniki məktəblərə daxil olan tələbələr qarşısında duran məsələlərdən biri də abituriyentlərin biliklərindəki çatışmazlıq və boşluqların heç olmasa qismən aradan qaldırılmasına imkan verən tədbirlərin kompleks həyata keçirilməsidir. Riyaziyyat kursu üzrə orta məktəb məzunlarının biliyi daha formal xarakter daşıyır. Həndəsə fənni üzrə işlər xüsusilə pis vəziyyətdədir. Orta məktəb məzunlarının həndəsədən bilikləri keyfiyyətli olmadığı üçün onlar ali texniki məktəblərdə "Tərsimi həndəsə və mühəndis qrafikası", "Maşın və mexanizmlər nəzəriyyəsi", "Materiallar müqaviməti", "Riyaziyyat", "Nəzəri mexanika" və s. fənlərin tədrisində çox böyük çətinliklərlə üzləşirlər.

İnformasiya texnologiyaları sferasında maddi-texniki bazanın müəyyən səviyyədə qurulması bu gün üçün çox vacib məsələdir. Sevindirici haldır ki, dövlətimiz də hökumətimiz tərəfindən bu sahəyə böyük diqqət yetirilir. Bu problemlərin yüksək səviyyədə həllində həm də zaman rol oynayır. Şübhəsiz ki, ali təhsil müəssisələrində kadr siyasətinin formalaşdırılması və təhsilə ayrılan resurslardan səmərəli istifadədən başqa, əlavə maliyyə vəsaitlərinin əldə olunması problemlərini həll etmək, çıxış yollarını tapmaq və reallaşdırmaq bu gün üçün mühüm əhəmiyyət kəsb edir.

İstər orta, istərsə də ali məktəblərdə aparılan islahatlar davam edir. Təhsil prosesinin mərkəzində dayanan və mühərrik hesab olunan müəllimin rolu yüksəlir və onun peşəkarlıq keyfiyyətlərinə olan tələblər artır. Bununla belə həm texniki universitetlər, həm də müəllimlər qarşısında çətinliklər də vardır və həmin problemlər kifayət qədər diqqət mərkəzində deyil.

**Problemin aktuallığı:** Ali texniki məktəblərdə innovasiya və modernləşmələr istiqamətində problemlərin həlli özünü doğruldarsa onda nəzərdə tutulan perspektivlər öz həllini tapar.

**Problemin yeniliyi:** Məqalədə göstərilən boşluqlar və ziddiyyətlər aradan qaldırılarsa onda ali texniki məktəblərdə təhsilin keyfiyyəti müasir tələblərə uyğun olar.

**Problemin nəzəri və praktik əhəmiyyəti:** Ölkəmizin ali texniki məktəblərində tətbiq olunan innovasiya və modernləşmələr müasir tələblərə uyğun olarsa onda onun müsbət nəticələri tədris, elmi və s. fəaliyyət sahələrində özünü əks etdirər.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Pedaqogika, Bakı: Mütərcim, 2013.
2. Ağayev Ə.Ə. Təlim prosesi: reallıqlar, perspektivlər. Azərbaycan məktəbi, 2005, N5
3. Mehrabov A.O. Azərbaycan təhsil sisteminin müasir problemləri. Bakı: Mütərcim, 2007.
4. Müdafiə Mahmudov. Bolonya prosesi. Problemlər, perspektivlər, reallıqlar. Bakı: Elm və təhsil nəşriyyatı, 2010.
5. Müdafiə Mahmudov. Dünyada təhsil sistemləri, Bakı: Mütərcim, 2014.

**E-mail:** maxmudov45@mail.ru
**Rəyçi:** *ped.ü.fəls.dok., dos.* **Ə.A. Gərayev**
**Redaksiyaya daxil olub:** 22.11.2018.

*UOT 37.*

***Nərminə İsrafil qızı Məmmədova***
*pedaqogika üzrə fəlsəfə doktoru*

# XXI ƏSR - TƏDRİS RESURSLARI

***Нармина Исрафил гызы Мамедова***
*доктор философии по педагогике*

# XXI ВЕК - УЧЕБНЫЕ РЕСУРСЫ

***Narmina İsrafil Mammadova***
*PhD in pedagogy*

# XXI CENTURY - TEACHING RESOURCES

**Xülasə.** Məqalədə dövrün tələbləri nəzərə alınmaqla, müasir tədris resurslarının rolu, əhəmiyyəti və səciyyəvi xüsusiyyətləri diqqət mərkəzinə gətirilmişdir. Təhsildə tədris resurslarının tətbiqini imkanları və səmərəli yolları üzərində dayanılır, zəruri təkliflər verilir.
***Açar sözlər:*** *XXI əsr, informasiya cəmiyyəti, təhsilin məzmunu, tədris prosesi, tədris avadanlıqları, tədris resursları, müasir texnologiya*

**Резюме.** В статье упоминаются роль, значение и специфические характеристики современного учебного оборудования и ресурсов (ИКТ) в соответствии с требованиями эпохи. Выделены вопросы, связанные с их применением в образовании, и внесены соответствующие предложения.
***Ключевые слова:*** *XXI век, информационное общество, содержание образования, учебный процесс, учебное оборудование, учебные ресурсы, современные технологии*

**Summary.** The article mentions the role, importance and specific characteristics of modern teaching equipment and resources (ICTs) in line with the requirements of the era. Issues related to their application in education are emphasized and relevant proposals are made.
***Key words:*** *XXI century, information society, the content of education, teaching process, learning, teaching, teaching equipment, teaching resources, modern technology*

"İnformasiya əsri", "Bilik əsri" kimi xarakterizə olunan XXI əsr dünyada, eləcə də Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində sürətli inkişaf və köklü dəyişikliklərin baş verməsi ilə səciyyələnir.

Bu inkişaf və dəyişikliklər birbaşa elm və texnikanın sürətlə inkişafı, məlumata sürətli çıxışla bağlıdır. Bu dövrdəki dəyişiklik və inkişafla gündəmə gələn bir xüsusiyyət də informasiya cəmiyyəti anlayışıdır. İnformasiya cəmiyyəti - cəmiyyətin bütün sahələrinin inkişafında elm və texnikanın hakim olduğu bir cəmiyyəti ifadə edir (2, 6, 8, 11, 18).

Təsadüfi deyil ki, elm və texnologiya müasir dövrün ictimai strukturunun ən təyinedici amili kimi xarakterizə olunur. İnformasiya cəmiyyətinin inkişaf xüsusiyyətlərindən bəziləri bunlardır:

Elm və texnologiya əsaslı bir cəmiyyət olub, iqtisadi strukturun bilavasitə inkişafı ilə meydana gəlmişdir; Elm istehsalın əsas amilidir; Elm - məqsəd deyil, vasitədir; Fərdlər fasiləsiz, bütün həyat boyu öyrənirlər; Öyrənən fərd və öyrənən təşkilatlar vardır; Bir düzgün pozitiv baxış yerinə, alternativ baxış metodları vardır.

Təhsil sistemlərini formalaşdıran cəmiyyətin dəyişməsi, müasir texnologiya, o cümlədən kompüter, internet və ünsiyyətdəki yeniliklər təhsil anlayışında da dəyişmələrə səbəb olmaqda, təhsilə yeni tədris avadanlıqları və resursların istifadəsini də özü ilə gətirməkdədir.

"İnformasiya əsri"ndə kompüterlər, səs, görünüş, animasiya və inkişaf edən internet texnologiyaları kimi yeni anlayış və texnologiyalar təlim və tədrisdə yerini almaqdadır. Məhz informasiya və kommunikasiya texnologiyalarındakı

yeniliklər İnformasiya cəmiyyətinin yaradılmasında əhəmiyyətli rol oynayır(1, 14, 15, 16, 17).

İnformasiya cəmiyyətində yaşanan bu dəyişiklik və inkişafın ən çox təsir etdiyi sahələrin başında təhsil sahəsi gəlir. Təhsilin məzmunu, tədris proqramları, tədris resursları, müəllim və şagirdin funksiyası informasiya cəmiyyətinin ehtiyacları istiqamətində dəyişmiş və dəyişməkdədir.

Müasir dövrdə ictimai, iqtisadi, texnoloji və təhsil şərtlərinin dəyişməsi, xüsusilə elm və texnologiyada fasiləsiz yeniliklər, sürətli inkişaf təhsil sisteminin, xüsusilə ümumtəhsil məktəblərindəki tədris resurslarının bütünlüklə yenilənməsi ölkənin təhsil sistemində müasir tələblərə cavab verən mexanizmlərin hazırlanması zərurətini yaratmışdır.

Məhz bu amil digər sahələrin, eləcə də tədris resurslarının məzmununa təsir etməkdə, onun dəyişməsini zəruri etməkdədir.

İnformasiya cəmiyyətinin formalaşmağa başlaması ilə əlaqədar mediada və pedaqoji ədəbiyyatda "informasiya resursları" ifadəsi də işlədilir.

Elektron siniflərin təşkili; e-mail, video məktəb; tam elektron evlərin təşkili; uzaqdan (distant) təhsilin geniş yayılması və normal təhsil kimi qəbul olunması XXI əsrin xarakterik cəhətləridir.

Respublikamızda gedən təhsil islahatlarının əsas cəhəti "informasiya cəmiyyəti"nin tələblərinə uyğun müasir kommunikasiya texnologiyalarını təhsilin bütün pillələrində məqsədyönlü tətbiq etmək bacarığı formalaşdırmaqdır.

Ölkəmizdə təhsilin modernləşdirilməsi, təhsildə informasiya kommunikasiya texnologiyalarının tətbiqində ilkin addımlar artıq atılmışdır. Hazırkı dövrdə Azərbaycan üçün məhz təhsil sahəsi İKT-nin tətbiq istiqamətləri içərisində ən yüksək prioritetə malik istiqamət hesab edilir (1, 2, 3, 4, 5, 11). Onu da qeyd edək ki, hal-hazırda İKT-nin tədris sisteminə inteqrasiyası özünün başlanğıc dövrünü yaşayır.

Hazırda cəmiyyətin informasiya mədəniyyətinin ən mühüm göstəricisi informasiya resurslarının səmərəli istifadə edilməsi məsələsidir. Bu gün ən mütərəqqi yolla informasiya əldə edilməsinin ən geniş yayılan yolu informasiya resurslarının kompüter şəbəkələri onlayn (on-line-interaktiv, dialoq rejimi) rejimidir. Bu kompüter şəbəkəsi "böyük kompüter" (Host-kompüter) və informasiya resurslarını real vaxt rejimində birbaşa istifadəçinin yanına gətirməyə, ondan istifadə etməyə imkan verir (5, 9, 16, 20).

Hazırda təhsildə geniş kütlələrə keyfiyyətli təhsil təqdim etmək yalnız müasir tədris avadanlıqları və tədris resursları ilə mümkündür. Bunun üçün texnologiyanın imkanlarından daha çox faydalanmaq lazımdır. Keyfiyyətli, effektli öyrənmələrin reallaşa bilməsi üçün öyrənmə-öyrətmə mühitlərində tədris avadanlıqları və resurslarından istifadə edilməsinin zəruriliyi artıq bütün pedaqoqlar, təhsil müəssisələrinin rəhbərləri, mütəxəssislər, valideynlər, təhsilalanlar və elm adamları tərəfindən bir mənalı qəbul edilir.

Təhsil prosesinin nəticəsi olaraq qiymətləndirilə biləcək texnoloji inkişaf təhsil prosesinin strukturunu dəyişdirməkdə, təhsil anlayışına fərqli bir dünyagörüş gətirməkdədir. Bu baxımdan texnologiyanın mütəmadi olaraq təlim-tərbiyə prosesində tətbiqi getdikcə əhəmiyyətini artırmaqdadır.

Kompüter əsaslı təhsil, internet əsaslı təhsil, distant-uzaqdan təhsil, xüsusi paket proqramlar, təhsil CD-ləri, telekonferans üsulları, müxtəlif proyeksiya aparatları, həmçinin digər oxşar tədris avadanlıqları və resursları təlim-tərbiyə mühitlərini zənginləşdirməkdədir. Belə ki, əvvəllər tədris prosesində istifadə olunan yazı taxtası, təpəgöz, film lentləri kimi tədris avadanlıqları və resursları yerini artıq daha müasir texnologiya məhsullarına: kompüterə, internetə, "ağıllı löhvə"yə və sairə buraxmaqdadır. Gün keçdikcə ənənəvi sinif və məktəblər öz yerini elektron siniflərə, elektron məktəblərə verəcəkdir (5, 7, 9,10, 12,14, 15, 20).

Müasir tədris avadanlıqları və resursları elm ilə tətbiq arasında körpü funksiyasını yerinə yetirir. Tədris avadanlıqları və resursları problemlərə həll axtaran, elmin çıxardığı məlumatları təlim-tədris üçün istifadə edilə biləcək hala gətirən bir açardır.

Konkret mənada tədris avadanlıqları və tədris resursları təlim-tərbiyə prosesində təcrübəni təmin edir.

Tədris avadanlığı və resursları müxtəlif elmlərin məlumatlarını xüsusi məqsəd, metod, ölçmə və qiymətləndirmə kimi təhsilin geniş sahələrində tətbiq edilir. Təhsildə ortaya çıxan problemlərin həll edilməsini, keyfiyyətin yüksəldilməsini, səmərəliyin artırılmasını təmin edən bütöv bir sistem olaraq qəbul edilir.

Tədris avadanlığı və resursları: öyrənmə-öyrətmə proseslərinin planlaşdırılması, həyata keçirilməsi, qiymətləndirilməsi və təkmilləşdirilməsində əhəmiyyətli funksiyalardır.

Tədris avadanlığı və resursları: öyrənmə-öyrətmə mühitlərini təsirli bir şəkildə tənzimləyən, təlim-tərbiyə prosesində meydana gələn problemləri həll edən, öyrənmə səviyyəsinin keyfiyyətini və qalıcılığını artıran bir effektli sistemdir (2, 7, 12, 13, 14, 15, 16, 17, 19).

Tədris avadanlığı və resurslarının əsas məqsədi: öyrənməyi təsirli və qalıcı bir şəkildə təmin etməkdir.

Tədris avadanlığı və resurslarının əsas məqsədlərindən biri də, gənc nəsli cəmiyyətin ehtiyacları istiqamətində, "İnformasiya əsrinə" uyğun yetişdirməkdir. Məhz XXI əsrin məktəbi gənc nəslə məlumat bolluğunda düzgün seçim etmək, axtarış, təhlil, istifadə, qiymətləndirmə və s. bacarıqları, problemləri həlletmə bacarıqları, təşəbbüskarlıq, məsuliyyətlilik, yaradıcılıq, öyrənmək bacarığı və s. oxşar keyfiyyətlərin formalaşmasını təmin etməlidir.

Bu baxımdan elm və texnologiyadakı yeniliklərə müvafiq hər fənnə uyğun yeni tədris avadanlığı və resurslarının təhsil mühitinə girməsini, təhsildə uyğun bir şəkildə tətbiqini dəstəkləmək günün tələbidir.

Ənənəvi təhsildə şagird oxuyur və ya qulaq asır. Bu zaman yüzdə 10 ilə 20 arasında bir səmərə var. Ancaq, müəllimin səyi, tədris avadanlığı və resursların yardımı ilə bu səmərə 50 faiz və ya hətta 70 faiz arta bilər.

Tədris avadanlığı və resurslarının effektli istifadəsi üçün müvafiq təlim-tədris mühitinin yaradılması və onlara uyğun olan metodların seçilməsi vacib amildir.

Tədris avadanlığı və resurslardan istifadə nəzəri məlumatlara söykənən, tətbiqə əsaslanan bir yanaşmadır. Bu yanaşma müəyyən prinsiplərə əsaslanır:

Məqsəd: Təhsilin bütün pillələrində təhsilalanların tam öyrənməsi, öyrənmənin şüurlu reallaşması əsas məqsəddir.

Funksiya: Nəzəri məlumatlar və elmi prinsiplər çərçivəsində təhsilin reallaşmasına dəstək olmaq məqsədiylə tətbiq proseslərini inkişaf etdirmək və bunları lazım olduğunda təkrarlamaq tədris avadanlığı və resursların əsas funksiyasıdır.

Mövzu və metoda müvafiq tədris avadanlığı və resursların seçilməsi təhsil mühitini daha səmərəli və elmi bir araşdırma məkanına çevirir.

Məzmun: Tədris resursları mövzunun məzmununa, təhsil standartlarına davamlılıq təmin edir. Çünki, dərsin məzmununu dəstəkləməyən bir resurs öyrətmədə təsiri aşağı olacaq.

Personal: tədris mühitində müəllim və şagirdlərin fəal olmasını, qarşılıqlı əməkdaşlığını təmin edir.

Ətraf mühit: Dərs prosesinin baş verdiyi mühitin idarə olunması təhsil texnologiyasının tətbiqi üçün əlverişli bir mühit yaradır.

Müvəffəqiyyət: Təhsil texnologiyası təhsilalanların uğursuzluğunun səbəblərini araşdırır və uğurlarını artıracaq yeni təkliflər verir və tənzimləyir.

Qiymətləndirmə: tədris avadanlığı və resursları təhsildə istənilən hədəfə nail olmaq səviyyəsini ölçə bilən obyektiv bir mühit yaradır.

Tədris avadanlığı və resursların faydaları. Başlıca faydalarını belə ifadə edə bilərik:

Sərbəstlik: tədris avadanlığı və resursların əsas funksiyası müəllim və və şagirdi (tələbəni) sərbəst hala gətirməkdir. Müəllimə və öyrənçilərə zaman və məkan cəhətdən sərbəstlik təmin edir.

Müxtəliflik və keyfiyyət: tədris avadanlığı və resursları müxtəliflik və keyfiyyətli tətbiqlər təklif edir.

Birinci mənbədən məlumat: Ənənəvi təhsildə müəllimlər ümumiyyətlə məlumatı ikinci və ya üçüncü mənbədən verirlər. Tədris resursları ilə isə şagird məlumatı daha çox birinci mənbədən alır. Birinci mənbənin sinfə gətirilə bilməmə halında tədris avadanlığı və resursların köməyi ilə onun sinif mühitinə səs və görüntü olaraq gətirilmək imkanı təmin olunur.

Bərabər imkanlar: Tədris avadanlığı və resursları fiziki imkanları məhdud olan şagirdlər üçün təhsil imkanları təmin edir. Bundan əlavə, müəyyən səbəbdən kifayət qədər təhsil ala bilməyən şagird (yaxud tələbə) də təhsilini başa çatdırmaq imkanı əldə edir.

Yaradıcılıq: Tədris avadanlığı və resursları şagirdlərə çox variantlı öyrənmə imkanları təqdim edərək, yaradıcılıqlarının inkişaf etdirməsini təmin edir.

Fərdi təhsil: Tədris avadanlığı və resursları fərdi təhsili təmin edir. Belə ki, şagirdə (tələbə) çalışma sürətinə uyğun öyrənməyə imkan

verir. Şagird (tələbə) üçün müxtəlif alternativlər seçmək imkanı verdiyinə görə, öyrənmə sürətindən yaranan fərqlər tənzimlənir.

Motivasiya: diqqət çəkirlər, motivasiya edirlər. Tədris mühitinə hərəkətli və rəngli resursların gətirilməsi şagirdlərin (tələbələrin) diqqətini çəkərək, motivasiya edərək, öyrənmə istəklərinin artmasını təmin edir.

Kopyalama sistemi: Hər il şagirdlərin (tələbələrin) sayı artdıqca, tədris üçün tələb olunan resurslar kifayət etmir. Tədris avadanlığının köməyi ilə, təkrar-təkrar istifadə edilə bilən resursların hazırlanmasına imkan verir.

Bunlardan əlavə vaxta qənaəti təmin edirlər, xatırlamağı asanlaşdırır.

Mücərrəd, mürəkkəb anlayışlar, əşyalar, proses və hadisələri sadələşdirir.

Tədris resurslarının səmərəli şəkildə istifadə edilməsi üşün aşağıdakı məsələlərə diqqət etmək vacibdir. İstifadə olunacaq resurs:

- Fənnin və mövzunun məqsədlərinə müvafiq xüsusiyyətdə olmalıdır;
- Məzmunu elmi cəhətdən doğru olub, aktual məlumatları özündə əks etdirməlidir;
- Şagirdlər baxımından aydın və anlaşılan xüsusiyyətdə olmalıdır;
- Mücərrəd, mürəkkəb anlayışları, əşyalar, proses və hadisələri sadələşdirməlidir;
- Vaxtı çox yaxşı nizamlamalı, tədris resurslardan istifadəyə gərəyindən çox zaman ayrılmamalıdır;
- Təlim prosesində şagirdlərin marağını artıracaq, diqqətlərini çəkəcək, motivasiyanı gücləndirəcək və qalıcı öyrənmə yaratmaq xüsusiyyətində olmalıdır;
- Şagirdin dərsdə iştirakını dəstəkləmək qabiliyyətində olmalıdır;
- Şagirdlərin fərdi fərqlilikləri, fərqli maraq, ehtiyac və qabiliyyətləri diqqət mərkəzində saxlanmalıdır;
- Şagirdlərin tədris resurslarından istifadə etmələrinə mütləq nəzarət edilməlidir;
- Fənnin və dərsin mövzusunu əhatə edən bütün məlumatlar deyil, əhəmiyyətli və xülasə şəkilli məlumatları əhatə etməlidir;
- İstifadə ediləcək vizual xüsusiyyətlər (şəkil, qrafik, rəng) əhəmiyyətli nöqtələri vurğulamalıdır. Həddindən artıq istifadədən qaçılmalıdır;
- Texniki şərtlər - xüsusiyyətlər baxımından yaralı olmalıdır;
- Tədris proqramındakı dəyişikliklərə uyğun olaraq lazım gələndə asanlıqla təkmilləşdirilməli və yenilənməli keyfiyyətdə olmalıdır;
- Qarşılıqlı əməkdaşlıq: şagirdlərin öz aralarında və müəllimlərlə qarşılıqlı ünsiyyət qurma imkanı təmin etməlidir (7, 13, 14, 17).

Bunlardan əlavə tədris resursları ilə bağlı nəzərə alınması lazım olan bəzi prinsiplər vardır. Bu prinsiplərin aşağıda qısa izahı verilir:

- ✓ Əhəmiyyətlilik prinsipi: tədris resursu nə qədər mənalı olarsa, öyrənmək daha asan olar;
- ✓ Asandan çətinə, konkretdən mücərrədə prinsipi;
- ✓ Çox nümunə prinsipi: bir anlayışın mahiyyətini göstərmək üçün bir çox nümunə verilməlidir;
- ✓ Vizuallıq prinsipi: istifadə ediləcək vizual xüsusiyyətlər (şəkil, qrafik, rəng) əhəmiyyətli nöqtələri vurğulamaq üçün istifadə edilməli, həddindən artıq istifadədən qaçılmalıdır;
- ✓ Seçicilik prinsipi: fənnin və dərsin mövzusunu əhatə edən bütün məlumatlar deyil, əhəmiyyətli və xülasə şəkilli məlumatları ehtiva etməlidir;
- ✓ Əməkdaşlıq prinsipi: şagird-müəllim, müəllim-valideyn, şagird-şagird arasında ünsiyyətin, qarşılıqlı humanist əməkdaşlığı, təlim fəaliyyətində əməkdaşlıq təmin edilməlidir;
- ✓ Bütövlük, tamlıq prinsipi şagirdin öyrədiləcək hədəflərin, təhsilin bütün komponentlərinin vahidliyi, bir tam olaraq götürülməlidir;
- ✓ Fonun mənalılığı prinsipi: şəkil ya da yazıya məna qatacaq bir fon olmalıdır. Açıq zəmin üzərinə tünd rəng, tünd zəmin üzərinə açıq rəng istifadə edilməlidir; Məsələn; ağ-göy, sarı-qara, ağ-yaşıl, qırmızı-mavi, sarı-qırmızı, ağ-qırmızı;
- ✓ Birləşdiricilik prinsipi: bir-biriylə oxşarlığı, yaxınlığı və ümumi cəhətləri olan obyekt və hadisələr əlaqəli hesab edilir və daha yaxşı xatırlanır;
- ✓ Sistematiklik prinsipi: təhsilin məzmunu (proqram, təlim materialı və tədris resursları) ciddi sistemlilik əsasında qurulmalıdır. Fənn üzrə tədris avadanlığı və resursları ilə dərsin məzmununun sistemli birləşdirilməsi əsas hədəf olmalıdır;
- ✓ Anlama (şüurluluq) prinsipi şagirdin təlim materialının məzmunu, əsas elementlərini dərk etməsi, başa düşməsidir;

✓ Həyatla əlaqələndirmə prinsipi. İstifadə edilən resurs (həmçinin tədris avadanlığı) gerçək həyata müvafiq olmalıdır. İstər tədris mövzuları, istərsə də, tədris prosesində təqdim edilən nümunələr, tədris avadanlıqları və resurslar, yaradılan fiziki və ictimai mühit, şagirdlərin şəxsi təcrübəsi, nəzəri biliklərin müxtəlif növ praktik işlərə tətbiq edilməsi gerçək həyata yaxın olmalıdır;

✓ Yenilik prinsipi: proses və hadisələrin müasir dövrə uyğun olmalıdır;

✓ Biliklərin etibarlılığı prinsipi: təlimin hər mərhələsində, müvafiq tədris resursları ilə tədris planında verilən bilik və bacarıqların elmi cəhətdən düzgün, müasir dövrün tələblərinə uyğun "etibarlı öyrədilməsi" əsas hədəf olmalıdır;

✓ Sadəlik prinsipi: Diqqəti çəkməsi və üzərində saxlanması üçün hər bir resursun elementləri mürəkkəb deyil, sadə olmalıdır;

✓ Hədəf davranış prinsipi: İstifadə olunan resurs qazanılması nəzərdə tutulmuş hədəf-davranışı formalaşdırmağa qadir olan xüsusiyyətdə olmalıdır;

✓ Müvafiq mühitin yaradılması prinsipi. Tədris prosesinin müvafiq tədris avadanlıqları və resursları ilə təmin edilməlidir;

✓ İnkişafetdiricilik prinsipi tədris resurslarının müasir imkanlarından istifadə etməklə təlim prosesində şagirdin məntiqi təfəkkürünü və yaradıcılığını formalaşdırmaq məqsədilə xüsusi təlim şəraitinin yaradılması təmin edilməlidir;

✓ Fərdilik prinsipi*:* Istifadə olunan resurs şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun olmalıdır (yaş, zəka, maraq, bacarıqları, səviyyə fərqlərinə).

✓ Fəallıq prinsipi. Bu prinsipə "şagird və müəllim aktivliyi" və ya "fəal öyrənmə" müvafiq tədris avadanlıqları və resursları ilə təmin edilməlidir.

Təhsildə əsas prinsiplərdən biri də, şagirdə qazandırılmaq istənən bilik, bacarıq, vərdiş kimi davranışların formalaşdırılmasında şagirdlərin ola bildiyincə çox duyğu orqanına xitab etmək prinsipidir. Bunun səbəbi tədris resursu nə qədər çox duyğu orqanına təsir edərsə, öyrənmənin də bir o qədər asan və qalıcı olmasıdır. Belə ki, bir sıra tədqiqatçılara görə, tədris materialının 83 faizi görmə, 11 faizi eşitmə, 3,5 faizi iyləmə, 1,5 faizi toxunma, yüzdə bir faizi dadma duyğu orqanları vasitəsilə öyrənilir. Bununla yanaşı, şagirdlər oxuduqlarının yüzdə 10 faizini, eşitdiklərinin 28 faizini, gördüklərinin 30 faizini, həm eşidib, həm gördüklərinin 50 faizini, dediklərinin 70 faizini, edib-dediklərinin isə 90 faizini xatırlayırlar (9, 10)

Bütün bu prinsiplər bir-biri ilə sıx əlaqəli olub, bütün təlim-tədris fəaliyyətinə aiddir. Müəllimin tədris prosesində bu prinsiplərə kompleks əməl etməsi dərsi daha səmərəli təşkil etməyə, bu da özlüyündə təhsilin keyfiyyətinin yüksəlməsinə kömək edir.

Tədris avadanlığı və resursların təlim-tədris fəaliyyətlərində, dərs ilə əlaqədar şagird, müəllim, ayrılan vaxt, metodlarla birlikdə sistemli bir şəkildə istifadə edilməlidir. Burada ən əhəmiyyətli məqam tədris avadanlığı və resurslardan istifadənin təhsilin bir elementi olmasıdır. Bu tərif tədris avadanlığı və resursların təhsildə necə bir yer tutmasının açıq bir göstəricisidir.

**Problemin aktuallığı.** İnformasiya cəmiyyətinin hazırkı inkişafı, elm və texnika sahəsindəki yeniliklərin cəmiyyətdə geniş yayılması və istifadə edilməsi ilə bağlı ölkənin təhsil sistemində tədris resurslarının bütünlüklə yenilənməsi və müvafiq təlim-tədris mühitinin yaradılması bir problem kimi getdikcə ən aktual xarakter alır.

Bu baxımdan təhsilin məzmunu ilə tədris resurslarının birləşdirilməsində, yeni təfəkkürlü fərdin yetişdirilməsində, bilik və bacarıqların əldə edilməsində tədris resurslarından istifadə təhsilin ayrılmaz hissəsi olub, prioritet istiqamətlərdən birinə çevrilmişdir.

**Problemin elmi yeniliyi:** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada XXI əsrin inkişaf xüsusiyyətlərinə, İnformasiya cəmiyyətinin tələblərinə uyğun ümumtəhsil müəssisələrində müasir tədris resurslardan istifadəyə yeni yanaşma formaları və onların əhəmiyyəti, habelə gənc nəslin yetişməsində müasir tədris avadanlıqları və resursların səmərəli istifadə edilməsi ilə bağlı məsələlər aydın şəkildə ifadə olunur, onun mahiyyəti, xarakterik əlamətləri, əsas prinsipləri, habelə istifadə imkanları və yolları diqqət mərkəzinə gətirilir, didaktik material kimi istifadə etmək haqda fikirlər irəli sürülür, tətbiqi ilə əlaqədar faydalı tövsiyələr verilir

**Problemin praktik əhəmiyyəti**: Bu məqalə təlim-tədris prosesində müasir resurslarının tətbiq etmək məsələsinin vacibliyini əsaslandırır və müəyyən təsəvvür yaradır. Təhsilalanlara kompüter və internet və s. müasir texnologiyaları ilə işləmək vərdişlərinin qazandırılması və inkişaf etdirilməsi istiqamətində pedaqoqlara, təhsil mütəxəssislərinə, bakalavrlara, magistrantlara, eləcə də problemlə maraqlanan hər kəsə kömək edəcəkdir.

**Ədəbiyyat:**


1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il Sərəncamı. “Xalq qəzeti”, 2013, 25 dekabr

2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında **Azərbaycan Respublikası Prezidentinin** 2 aprel 2014-cü il tarixli Sərəncamı. http: President. az/articles/11312. http:/e-qanun.az.

3. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı. “Azərbaycan müəllimi” qəz., 2013, 25 oktyabr

4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı. **Azərbaycan Respublikası Prezidentinin** 15 yanvar 2015-ci il tarixli Sərəncamı. http:e-qanun.az.

5. “Elektron məktəb” layihəsinin tətbiq olunması haqqında Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 oktyabr 2009-cu il tarixli 1108 nömrəli əmri. http://edu.gov.az.ist.tarixi 13 oktyabr 2014.

6. İnsan inkişafı. Birləşmiş Millətlər Təşkilatının inkişaf proqramı. Bakı, 2014..

7. Məmmədova N. İ. Keyfiyyətli təhsil xidmətlərinin təqdim olunmasında müasir tədris avadanlıqları və resursların rolu // Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2016, № 4

8. Məmmədova N. İ. Tədris avadanlıqları və resursların məzmununun dəyişməsini zəruri edən amillər // Azərbaycan məktəbi, 2016, № 2

9. Məmmədova N. İ. Ümumtəhsil məktəblərində tədris avadanlıqları və resurslardan istifadə imkanları: Metodik vəsait. Bakı: Mütərcim, 2017.

10. Məmmədova N. İ. Ümumtəhsil məktəblərində tarix fənninin tədrisində avadanlıq və tədris resurslarından istifadəyə müasir yanaşma istiqamətləri. “Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar” mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 05-06 iyun 2015. Bakı: Mütərcim, 2015.

9. Məmmədova N. İ. Ümumtəhsil məktəblərində tədris avadanlıq və resurslarından istifadə problemlərinə yeni yanaşma: Monoqrafiya. Bakı: Mütərcim, 2017.

10. Məmmədova N. İ. Yeni kurikulumlara uyğun müvafiq tədris resurslarının yaradılması / “Təhsilin inkişafı üzrə Dövlət strategiyası: perspektivlər və vəzifələr” mövzusunda respublika elmi konfransının materialları. Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi, 2015.

11. Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012-ci illər üçün). Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2008-ci il tarixli Sərəncamı. http://edu.gov.az/az/page/83/599.

12. Alkan C. Eğitimde Bilği Teknolojileri. Ankara: Anı Yayıncılık, 8-ci baskı, 2011.

13. Çelik, L. İ. Öğretim teknolojileri ve materyal tasarımı, Demirel, Ö., & Altun, E. (Ed.). Öğretim materyallerinin hazırlanması ve seçimi. Ankara: Pegem Yayıncılık, 2012.

14.Yılmaz A. Eğitim Yönetiminde Bilgisayarlardan Faydalanmanın Avantajları ve Dezavantajları // Milli Eğitim Dergisi, 2005, № 166

15. Андресен Бент Б. Мультимедиа в образовании: специальный учебный курс. Информационные технологии в образовании.М.: Дрофа, 2007.

16. Мамедова Н. Рол современного учебного оборудования и электронных ресурсов в когнитивном развитии учащихся // Балтийский гуманитарный журнал. Россия, Калининград: «Полиар Плюс», 2016, том 5, № 4

17. D'Angelo Jill M. & Woosley Sherry A. Technology in the Classroom: Friend or Foe // Education, Sum.2007, vol. 127, № 4

18. Balay R. Globalization, information society and education// Ankara University: Journal of Faculty of Educational Sciences, 2004, vol.37, № 2

19. Knowlton J. Q. A Conceptual Scheme for the Audiovisual Field // Bulletin of the School of Education: Indiana University, May 1964, vol.40, № 3

20. Porandokht F. Future of Instructional Technology// Procedia - Social and Behavioral Sciences, 2011, № 30


**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.*T.S. Paşayev
*ped.ü.fəls.dok.*İ.B. Əmirəliyeva
**E-mail:** nermine_m@mail.ru
**Redaksiyaya daxil olub:** 13.12.2018

*UOT 37.01.*

***Günel Nurəddin qızı Məmmədova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# PEDAQOJİ PROSESDƏ İNTEQRASİYANIN TARİXİ MƏRHƏLƏLƏRİ

***Гюнель Нуреддин гызы Мамедова***
*доктор философии по педагогике*
*Азербайджанский Государственный Педагогический Университет*

# ИСТОРИЧЕСКИЕ ЭТАПЫ ИНТЕГРАЦИИ В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

***Gunel Nureddin Mammadova***
*PhD in pedagogy*
*Azerbaijan State Pedagogical Universiteti*

# HISTORICAL STAGES OF INTEGRATION IN PEDAGOGICAL PROCESS

**Xülasə.** Məqalədə inteqrasiya anlayışına müxtəlif yanaşmalar nəzərdən keçirilir. Vurğulanır ki, pedaqoji prosesdə inteqrasiya anlayışı ilk dəfə qeyd edildiyi andan bu günə qədər müxtəlif forma və məzmunlar qəbul edərək dinamik şəkildə inkişaf etmişdir. Qeyd edilir ki, inteqrasiya təlim və tərbiyə prosesinin məqsədlərinin, prinsiplərinin və təşkil məzmununun vəhdətinin ifadəsidir, onların fəaliyyət nəticəsi öyrədilənlərdə biliklərin və bacarıqların keyfiyyətcə yeni tam sisteminin formalaşmasıdır.
***Açar sözlər:*** *pedaqoji proses, inteqrasiya, diferensiasiya, sistemli yanaşma, kompleks*

**Резюме:** В статье рассматриваются различные подходы к понятию интеграции. Подчеркивается, что понятие интеграции в педагогическом процессе динамично развивалась с тех пор, как впервые была отмечена принятием различных форм и содержания. Отмечается, что интеграция является выражением единства целей, принципов и организационного содержания процесса обучения и воспитания.
***Ключевые слова:*** *педагогический процесс, интеграция, дифференциация, системный подход, комплекс.*

**Summary:** The article discusses various approaches to the concept of integration. It is emphasized that the concept of integration in the pedagogical process has developed dynamically since it was first marked by the adoption of various forms and contents. It is noted that integration is an expression of unity of goals, principles and organizational content.
***Key words****: pedagogical process, integration, differentiation, system approach, complex.*

Pedaqoji prosesdə inteqrasiyanın həyata keçirilməsi haqqında məsələ fəlsəfənin topladığı və ümumiləşdirdiyi biliklərin bir elm çərçivəsinə sığmadığı dövrdə yarandı və nəticədə fəlsəfədən müstəqil bilik sahələri ayrılmağa başladı. Elmlərin diferensiasiyası da, öz növbəsində, dərs fənlərinin ayrı şəkildə tədrisinə keçidi şərtləndirdi. Pedaqogikanın tarixinin təsdiq etdiyi kimi, parçalanma prosesində biliklər arasındakı real dünyanın hadisələri və predmetləri arasında mövcud olan təbii əlaqə qırıldı.

Filosof – humanist, pedaqoq Y.A. Komenski ilk olaraq təlim və tərbiyənin obyektiv qanunauyğunluqlarını sistem halına gətirməyə, əvvəlki pedaqogikanın cavab verə bilmədiyi məsələləri həll etməyə çalışdı. Komenski şagirdləri hisslərimizlə qavradığımız dünyanın predmet və hadisələri ilə tanış etməklə onların düşüncəsini zənginləşdirməyə çağırırdı. Komenskinin təkamül nəzəriyyəsinə əsasən təbiətdə, deməli, təlim və tərbiyədə sıçrayışlar ola bilməz [4, s.3]. O şagirdə dünyanın bütöv mənzərəsinin təqdim edil-

diyi təhsili daha perspektivli görürdü. Komenski yazırdı: "Qarşılıqlı əlaqədə olan hər şey belə əlaqədə tədris edilməlidir" [5, s.10].

Pedaqoji prosesdə inteqrasiyanın zəruriliyini əsaslandırmaq üçün ilk cəhdi İ.F. Herbart etdi. O təlimdə dörd pillə ayırırdı: aydınlıq, assosiasiya, sistem və metod. Əgər Herbartın ilk iki pilləsi biliklərin əldə edilməsinə yönəlmişdisə, o zaman son iki pilləylə əvvəllər mənimsənilənləri əlaqələndirməyə və "yeni biliklərə yiyələnmək üçün özünəməxsus körpü tərtib etməyə" xidmət edirdi [3, s.7]. Herbart qeyd edirdi ki, "əqli mühit sahəsi" əvvəllər mənimsənilən bilikləri hazırda mənimsənilənlərlə əlaqədə əks etdirmək qabiliyyətində təzahür edir.

Təlim və tərbiyənin təşkilində və məzmununda əhəmiyyətli dəyişikliklərin aparılmasına kömək edən K.D. Uşinski öyrənilən predmet və hadisələr arasında didaktik əhəmiyyətin daha tam psixoloji – pedaqoji əsasını verdi. Özünün "İnsan tərbiyə predmeti kimi" kitabında o real dünyanın predmetləri və hadisələri arasında obyektiv qarşılıqlı əlaqəni əks etdirən müxtəlif assosiativ əlaqələrdən nəticə çıxarır. Uşinskinin nəzəriyyəsində fənlərarası əlaqələr ideyası təlimin sistemliyinin daha ümumi probleminin bir hissəsi kimi çıxış edirdi. O qeyd edirdi ki, biliklərin toplanmasına əsasən onları bir sistemdə cəmləmək çox vacibdir, çünki anlayışlar arasındakı əlaqə və predmetlərin ümumi sistemində onların inkişafı şagirdin biliklərinin genişlənməsinə və dərinləşməsinə gətirib çıxarır və təlimin sonunda onlar bütöv dünyagörüşü sisteminə çevrilir [2, s.12].

Beləliklə, XVII–XIX əsrlərin alim pedaqoqları təhsildə inteqrasiyanı real dünyanın qarşılıqlı əlaqəsini tədris prosesində əks etdirmək, öyrənilən fənləri və hadisələri vahid qırılmaz zəncirdə birləşdirmək arzusunda təzahür edən və bu arzunun da, öz növbəsində, şəxsiyyətin harmonik inkişafını təmin etməli olduğu zərurət kimi görürdülər.

Təlimdə inteqrasiyanın həyata keçirilməsi ilk dəfə praktik olaraq XX əsrin əvvəlində Böyük Britaniyada həyata keçirildi, Avropa alimləri tərəfindən "kooperasiya edilmiş" adlanan kurslar işlənib hazırlandı, onların mahiyyəti peşə biliklərinin praktik fəaliyyətlə inteqrasiya edilməsindən ibarət idi. Sonradan bu kurslar Avropanın və Amerika Birləşmiş Ştatlarının bir çox kolleclərində və universitetlərində şöhrət qazandı. Xarici mütəxəssislər hesab edirdilər ki, kooperativ təlim inteqrasiyanın xüsusi növü kimi bütünlükdə pedaqoji prosesə müsbət təsir göstərdi və şəxsiyyətin hərtərəfli inkişaf və daha dərinləşdirilmiş təlim imkanını verən keyfiyyətcə yeni hazırlıq forması idi [6, s.15].

Sonradan XX əsrin 20-ci illərində Rusiyada təlimin həyatla, şagirdlərin istehsalat əməyi ilə birləşdirilməsi məqsədilə inteqrasiyanın istifadə edilməsi təcrübəsi yarandı. Yerli pedaqogikada inteqrasiya məsələləri ilə V.Y. Stoyunin, N.V. Bunakov, V.İ. Vodovozov, B.Q. Ananyev və b. alimlər məşğul olurdu. Onlar hesab edirdilər ki, təlim prosesində inteqrasiya fənlər sisteminin və məntiqinin və ayrı-ayrı mövzular və məsələlər arasında mövcud olan əlaqələrin dərk edilməsini nəzərdə tutur, habelə tədris prosesində inteqrasiyanın istifadə edilməsinin bir sıra üstünlüklərini ayırırdılar: biliklərin qarşılıqlı istifadəsi, materialın əvəz edilməsinin aradan qaldırılması, baxışların bütöv sisteminin formalaşması.

Bu dövrdə mütərəqqi pedaqoqların tədris prosesində inteqrasiyaya baxışları tədris planlarının və proqramlarının qurulmasına yeni yanaşmada öz əksini tapdı. Bu yanaşma "kompleks yanaşma" adını aldı, onun məqsədi məktəbin həyatla qarşılıqlı əlaqəsinin qurulmasıdır. Kompleks proqramlarda biliklər, bacarıqlar və vərdişlər üç əsas ideyanın ətrafında təyin edilirdi: təbiət, əmək, cəmiyyət. Lakin təlimin məzmununda vahid biliklər sistemini yaradan, tədris fənlərinin daxili məntiqini pozmayan bu komplekslər arasında əlaqə qurulmamışdı. Kompleks proqramlar pedaqoqlar tərəfindən tənqidə məruz qaldı, çünki onların fikrincə, "həddən artıq kompleksləşdirmə fənlərin tam inkarına gətirib çıxarmışdır" [3,s.5]. Lakin onlar ehtimal edirdilər ki, tədris planlarının və proqramlarının tərtib edilməsi zamanı kompleks yanaşmanın tətbiq edilməsi cəhdləri öz müsbət təsirini göstərdi. Xüsusən, alimlər qeyd edirdilər ki, kompleks yanaşma "biliklərin, bacarıqların və vərdişlərin təhsilin əsas ideyaları ətrafında birləşdirmək təcrübəsini verdi. Bu təcrübənin çatışmazlıqları ideyaların özlərində deyil, onların həyata keçirilməsində gizlənir" [2, s. 13].

XX əsrin 30-cu illərində yeni proqramlar daxil etmək cəhdləri edildi, onların qurulması fənnə əsaslanmanı nəzərdə tuturdu. Bununla

əlaqədar olaraq müxtəlif sistemli bilikləri birləşdirən "təməlin" təyin edilməsi vəzifəsi dururdu, yəni tədris prosesində inteqrasiya problemi əvvəlki kimi təlimin məzmunun təyin edilməsində əsas yerlərdən birinə qoyulurdu, lakin bu müddəa praktik xarakterli çətinliklərə görə 50-ci illərin ortalarına qədər həyata keçirilmədi.

50-ci illərdə pedaqoji prosesdə inteqrasiya təlim prosesinə sistemli yanaşma mövqeyindən nəzərdən keçirilirdi. Alimlər sistemli yanaşma dedikdə beynin işində sistemlilik haqqında fizioloji və psixoloji anlayışla uyğunlaşan müxtəlif hadisələrin qarşılıqlı əlaqəsinin təyin edilməsini başa düşürdülər. Buna əsaslanaraq psixoloq B.Q. Ananyev hisslərin qarşılıqlı təsirini açdı və onların mürəkkəb sistemini göstərdi, bu sistem son nəticədə "insan tərəfindən obyektiv reallığın hisslərlə əks edilməsinin tamlığını, maddi dünyanın vahidliyini" təmin edir [1, s. 25]. Ananyevin rəhbərliyi altında "koordinasiya toru" yaradıldı, burada bütün təlim proqramları üzrə fundamental elmi anlayışların inkişaf mərhələləri göstərilmişdi. Bu tor müəllimlərə və pedaqoqlara bir fənnin öyrədilməsi zamanı digər fənnin materialını istifadə etməyə kömək edirdi.

Beləliklə, pedaqoq alimlər inteqrasiyanı təlim prosesinin məzmun dəyişikliyi ilə bağlayırdılar. Onlar biliklərin məzmundan, tədris materialının qurulmasından, dərsin strukturundan asılılığını üzə çıxardılar, mövcud təhsil standartlarını dəyişdirmək və yeni tədris proqramlarının yaratmaq cəhdləri etdilər.

XX əsrin sonuna yaxın pedaqoq alimlərin səyləri ilə pedaqoji prosesdə inteqrasiya anlayışını açan baxışlar və təsəvvürlərin kifayət qədər mükəmməl sistemi yaradıldı. Bütünlükdə, inteqrasiya dedikdə bu və ya digər elm sahəsində ümumiləşdirilən biliklərin bir tədris fənnində məlum hüdudlarda birləşdirilməsi başa düşülür. Bu birləşdirmə müxtəlif tədris fənləri üzrə təlimin məzmunun qarşılıqlı uyğunlaşmasını, həm təhsilin ümumi məqsədləri ilə, həm də tədris – tərbiyə vəzifələrinin nəzərə alınması ilə təyin edilən materialın qurulması və seçilməsini nəzərdə tutur.

Bu gün pedaqoji prosesdə inteqrasiya problemi müxtəlif mövqelərdən öyrənilmişdir – bu inteqrasiyanın ümumnəzəri və pedaqoji aspektləri, elmi biliklərin inteqrasiyası və diferensiasiyası məsələsi, praktik sintez problemi, həmçinin peşə təhsilində inteqrasiya proseslərinin gedişidir.

İnteqrasiyanın pedaqoji aspekti V. S. Bezrukovanın, Q. M. Dobrovanın, V. M. Maksimovanın, O. M. Siçivitsanın, İ. P. Yakovlevin və b. tədqiqatlarında öz əksini tapmışdır. Yakovlev inteqrasiyanı cəmiyyətin, elmin və təhsilin aparıcı inkişaf tendensiyası adlandıraraq təhsildə inteqrasiya proseslərinin daha uğurlu getməsi şərtlərinin üzə çıxarılmasının böyük əhəmiyyətini və "onların nəzəri təhlili zərurətini" göstərir [1, s.18]. Dobrov da, öz növbəsində, belə bir vəziyyəti vurğulayır ki, elmin böyük miqdarda müxtəlif mənşəli biliklərlə zənginləşdirilməsi təlimin qarşısında bu biliklərin sintetik qavranılmasını təmin etmək imkanı verən effektiv əks tədbirlərin görülməsi vəzifəsini qoyur. Belə tədbirlər kimi o təlim prosesinə həm tətbiqi məsələləri, həm də elmi – nəzəri problemləri daxil edilməsi zərurətini görür; tədris prosesində kibernetik maşınlar istifadə etmək; təlimin bütün mərhələlərində biliklərin sərbəst şəkildə alınmasına kömək edən vərdişlərin inkişafını nəzərdə tutan metodları fəal şəkildə tətbiq etmək [5, s.4].

İnteqrasiyanın təbiətinin başa düşülməsi üçün müxtəlif elmlərin qarşılıqlı təsiri nöqteyi – nəzərindən bütöv təlimin məzmununun açılmasına həsr edilmiş tədqiqatlar böyük əhəmiyyət kəsb edir. Hələ N. Q. Çernışevski yazırdı: "... əgər bir elmin bilikləri digərləri üçün bəhrəsiz olarsa, şagirdlərin əqli və fiziki qabiliyyətlərinin hərtərəfli inkişafına nail olmaq olmaz" [4, s.17]. Elmi biliklərin inteqrasiya məsələsi B. M. Kedrovun, M. Q. Çepikovun, Q. M. Dobrovun və b. işlərində daha tam açılmışdır. Alimlər inteqrasiyanı elmi biliklərin ayrılmaz tərkib differensiasiyası kimi nəzərdən keçirirdilər. Kedrov göstərirdi ki, elmi biliklərin inkişafında "iki birbaşa zidd olan və sanki bir-birilərini qarşılıqlı istisna edən tendensiyalar çıxış edir: biri elmlərin bölünməsindən və şaxələnməsindən, onların diferensiasiyasından, digəri isə, əksinə, ayrılmış elmləri elmi dərketmənin ümumi sistemində birləşdirmək cəhdindən, yəni onların inteqrasiyasından ibarət idi". Kedrov inteqrasiyada elmi biliklərin hərəkətini, onların qapalı şəkildə öyrənilməsindən onların qarşılıqlı təsirinə, sonra isə onların bütövlüyünə inkişafını görür, bu zaman eyni obyekt eyni zamanda müxtəlif tərəflərdən öyrənilir. Çepikov, öz növbəsində, inteqrasiya

prosesini xarakterizə etməklə qeyd edirdi ki, "müxtəlif elmlərin birləşməsi, elmi biliklərin sintezi nəticəsində ağlın maddi dünyanın gizli sirlərinə daxil olması üçün ən əlverişli şərait yaradılır" [3, s. 16].

Pedaqoji prosesdə praktik inteqrasiya məsələləri bir çox elmi işlərdə öz əksini tapmışdır (S.M.Arefyeva, S.Y.Burilova, V.V.Quzeyev, V.A.Klenikova, V.M.Panfilova, V.B.Sinnikov, S.Y. Straşnyuk və b.). Praktik inteqrasiya təlimin müxtəlif qaydalarını, metod və yollarını nəzərdə tutur. Pedaqoji prosesdə inteqrasiyanın həyata keçirilməsinin müxtəlif yollarını təklif edərək müəlliflər onların təlim və tərbiyə prosesinə müsbət təsirini qeyd edirlər və bir sıra üstünlükləri ayırırlar: materialın əvəz edilməsinin istisna edilməsi; yeni materialın öyrənilməsi zamanı artıq alınan biliklərə əsaslanmaq imkanı; şagirdin düşüncəsində dünyanın bütöv mənzərəsinin, elmi biliklərin və bacarıqların əsaslarının formalaşması və nəticə kimi, tədrisə marağın yüksəlməsi.

Müasir mərhələdə də orta və ali təhsil müəssisələrində təhsil prosesində inteqrasiyanın tətbiqi məsələsinə böyük diqqət ayrılır. Müxtəlif tədqiqatlar (İ. B. Boqatova, V. Q. İvanov, O. V. Kozlova, Y. M. Strijevskaya və b.) göstərir ki, tədris fənləri arasında qarşılıqlı əlaqə ümumi, politexnik və peşə təhsilinin vəhdətinin həyata keçirilməsi vasitəsidir. Xüsusən, göstərilir ki, peşə təhsilində inteqrasiya proseslərinin daha uğurlu getməsi şərtlərinin üzə çıxarılmasının böyük əhəmiyyətini, habelə bu şərtlərin "mütəxəssislərin hazırlıq effektivliyinin artırılmasına" təsirini göstərir. Təlimdə inteqrasiya yanaşmaları tələbələrin şəxsi və peşə meyllərini birləşdirməyə imkan verir; onlara özünüqiymətləndirmənin formalaşmasında kömək edəcək və mütəxəssislərin hazırlıq keyfiyyətini artırır.

**Problemin elmi yeniliyi:** Pedaqoji prosesdə inteqrasiyanın əsas didaktik prinsip kimi statusu, növləri və realizə yolları müəyyənləşdirilir; təhsil prosesinə mürəkkəb pedaqoji-psixoloji və informasiya mübadiləsi hadisəsi kimi sistemli, kompleks müqayisəli təhlil etmək tədqiqatımızın yeniliyidir.

**Problemin praktik əhəmiyyəti:** Ümumiləşdirilmiş tədqiqat materiallarından pedaqoji təmayüllü ali və orta ixtisas ocaqlarının tələbələri, magistrantları, həmçinin müəllimləri də seminar və mühazirə materiallarının, məşğələlərinin hazırlanmasında istifadə edə bilərlər.

**Problemin aktuallığı:** Pedaqoji prosesdə inteqrasiyanın həyata keçirilməsi nəzəri anlayışların və praktiki tətbiq etmək bacarıqlarının formalaşdırılması böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**


1. Ananyev B. Q. Hisslər nəzəriyyəsi. L.: LDU nəşriyyatı, 1961.
2. Curinski A. N. Pedaqogikanın tarixi: M.: "VLADOS" Humanitar nəşr mərkəzi, 1999.
3. Dobrov Q. M. Elm haqqında elm. Kiyev: Naukova dumka, 1969.
4. Zverev D. İ. Tədris fənlərinin qarşılıqlı əlaqəsi. M.: Bilik, 1977.
5. İ. N. Andreyeva, T. S. Butorina, Z. İ. Vasilyeva və b. Xaricdə və Rusiyada təhsilin və pedaqoji fikrin tarixi: Pedaqoji ali təhsil məktbləri üçün dərs vəsaiti. M.: "Akademiya" nəşr mərkəzi, 2005.
6. Komenski A. Y. Seçilmiş əsərləri. M.: Pedaqoji tədris nəşriyyatı, 1955.


**E-mail**: mamedazade _1986@ bk.ru
**Rəyçilər:** *ped.ü.elm.dok.,prof.* F.A. Rüstəmov
*ped.ü.fəls.dok.,dos.*Y.T. Rzayeva
**Redaksiyaya daxil olub:** 10.12.2018

UOT 37.01.

**Mələk Əlislam qızı Zamanova**
pedoqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti

# TƏLİM SİSTEMİNDƏ HARMONİYA, SİSTEMOGENEZ, UYĞUNLUQ, ÖZÜNÜİNKİŞAF, SİNERGETİZM PRİNSİPLƏRİ

**Мяляк Алислам гызы Заманова**
доктор философии по педагогике
Азербайджанский Государственный Педагогический Университет

# ПРИНЦИПЫ ГАРМОНИЗАЦИИ, СИСТЕМОГЕНЕЗА, САМОРАЗВИТИЯ, СООТВЕТСТВИЯ, СИНЕРГЕТИЗМА В СИСТЕМЕ ОБУЧЕНИЯ

**Melek Alislam Zamanova**
PhD in pedaqogy
Azerbaijan State Pedagogical University

# HARMONIZATION, SYSTEMOGENESIS, COMPLIANCE, SELF-DEVELOPMENT, SYNERGETISM IN THE TRAINING SYSTEM

**Xülasə.** Məqalədə təlim-tərbiyə prosesində harmonik inkişaf etmiş şəxsiyyətin formalaşması , inkişafı bütün sosial rolların fasiləsiz və sistemli şəkildə mənimsənilməsi prosesi kimi baş verir, sistemli sinergetizm qanunlarının kəşf edilməsi ilə didaktikanın inkişafında yeni mərhələ başlanır – təlimin sistemli sinergetik nəzəriyyəyə keçid mərhələsi göstərilir.
***Açar sözlər:*** *harmoniya, sistemogenez, uyğunluq, özünüinkişaf, sinergetika*

**Резюме**. В статье обучение и воспитание - это процесс непрерывного и систематического овладения гармоничным развитием личности, с открытием системных синергетических законов, новым этапом в развитии дидактики - переходом к систематической синергетической теории обучения.
***Ключевые слова:*** *гармонизация, системогенез, саморазвитие, соответствие, синергетизм*

**Summary.** In the article, training and education is a process of continuous and systematic mastering the harmonious development of the personality, with the discovery of systemic synergetic laws, a new stage in the development of didactics - the transition to a systematic synergetic theory of education.
***Key words****: Harmonization, systemogenesis, compliance, self-development, synergetism*

Təlim sistem xassələrinə malik olan obyektiv sistem prosesidir. Bu sistemin elementləri onun normal fəaliyyət göstərməsi üçün (harmoniya qanununa görə) harmonik münasibətdə olmalıdır, yəni bir-birlərinə uyğun olmalı, qarşılıqlı birləşməlidir. Təlim (özünüinkişaf, özühərəkət qanunu mövqeyindən) obyektiv olaraq şəxsiyyətin özünüinkişaf prosesi kimi obyektiv qurulmalıdır, onun əsası uyğunluq (uyğunluq qanununa görə), sistemogenez (sistemogenez qanununa görə) və sinergetikadır (sinergetizm qanununa görə). Sistemli sinergetizm qanunlarına əsaslanaraq, təlimin düzgün qurulması üçün təlimin metodoloji prinsiplərini bilmək və riayət etmək vacibdir.

Təlim prosesini öyrənən və izah edən didaktika əvvəlcə ona əsaslanmalıdır ki, bu proses obyektiv bütöv sistemdir və bunun üçün onun sistem xassələrini açmağa xidmət edir. İstənilən sistem elementlərin sinergetik məcmusudur. Təlim prosesinin daha vacib komponentləri aşağıdakılardır: pedaqoqun və şagirdlərin fəaliyyəti; pedaqoqun və şagirdlərin fəaliyyətinin məqsəd və vəzifələri; təlim şərtləri. Bütün bu elementlər

təlim prosesinin altsistemləri olmaqla, öz növbəsində, ikinci dərəcəli sistemlərdir, yəni sistem xassələrinə malikdir. Əgər hər altsistemi ayrılıqda nəzərdən keçirsək, o zaman biz görərik ki, o, öz növbəsində, üçüncü dərəcəli altsistemlərdən (sistemlərdən) ibarətdir. Məsələn, pedaqoqun tədris fəaliyyəti sistem yaradan müəyyən məzmundan yaranır. Eyni fikri tədrisin məzmunu bütöv sistem yaradan şagirdlərin fəaliyyəti haqqında söyləmək olar.

Sistemlərin prinsiplərinin həyata keçirilməsi həlledici dərəcədə təlimdə şəxsiyyətin formalaşmasına sistemli rollu yanaşmanın (şagirdlər təlim prosesində sosial rolların obyektiv sistemini mənimsəyirlər, pedaqoqlar isə bu sistem prosesini tənzimləyirlər), pedaqoqun tədris fəaliyyətinə və şagirdlərin özünütərbiyə fəaliyyətinə sistem funksional yanaşmadan həyata keçirilməsindən asılıdır (pedaqoji tənzimləmə təlimdə təlim – tərbiyə funksiyalarının obyektiv sisteminin həyata keçirilməsi ilə, şagirdlərin özünütəkmilləşdirməsi isə sistemdə özünütərbiyə funksiyalarını yaradan fəaliyyət və davranışın istiqamətlənmə əsasına yiyələnməklə bağlıdır).

Bu mənada təlimə sistemli rollu və sistemli funksional yanaşmalar onun praktik prinsipləridir, onların köməyi ilə qeyd edilmiş metodoloji prinsip bilavasitə həyata keçirilir. Təlimdə harmoniya, sistemogenez, uyğunluq, özünüinkişaf, sinergetizm prinsipləri vəhdətdədir.

İstənilən sistemlər yalnız harmoniya qanununa əsasən mövcuddur. Bu yalnız harmoniya şərtləri zamanı yerinə yetirilən və öz məqsədlərinə çatan təlim prosesinə tam şəkildə aiddir. Əgər təlim prosesini diqqətlə nəzərdən keçirsək, hər bir elementi üçün harmoniyanın vacib şərt olduğunu, onun hər tərəfini, mərhələ və pillələrini əhatə etdiyini görməmək olmaz. Tədris prosesi öz quruluşunda və fəaliyyətində harmonik olduğu qədər effektivdir.

Təlim – tərbiyə prosesi harmonik inkişaf etmiş şəxsiyyətin formalaşmasına yönəlmişdir və bu harmoniklik onun sosial rolların obyektiv sistemini yerinə yetirməsinə tam şəkildə hazır olmasında və qabiliyyətində təzahür edir. Bu harmoniya təkcə uzaq məqsəd deyil, həm də uşağın hər anında zəruri vəziyyətidir. Uşaq (normal həyat fəaliyyəti şəraitində) həmişə harmonik vəziyyətdə olmalıdır, çünki harmoniya insan həyatının və bütün təbiətin vacib və ayrılmaz xassəsidir. Tədris prosesi də bu mənada istisna təşkil etmir.

Hər şeydən əvvəl, uşaq təhsil alarkən xoşbəxt olmalıdır. Heç kim uşağı onun mənəvi harmoniyasının hər bir anında daha aşkar şəkildə ifadə edilən insan xoşbəxtliyindən məhrum edən hərəkətlər etməməlidir. Deməli, təlim də elə olmalıdır ki, o uşağa xoşbəxtlik gətirsin və onu xoşbəxtliyə aparsın. Uşağı öyrədənlər, təlim sistemini işləyib hazırlayanlar üçün bu hər hansı sübutlar olmadan da aydındır, çünki belə xoşbəxtlik həmişə dərketmə, inkişaf, nailiyyətlər sevinci və pedaqoqlar və yaşıdları ilə münasibətlər sevincidir. Uşağın həyatının bu xoşbəxtliklə tamamilə dolu olması üçün bütün tədris prosesi optimist xarakterə malik olmalıdır, gələcəyə istiqamətlənməlidir və uşağı həyatının hər anında ruhlandırmalıdır. Bu ruh yüksəkliyi o zaman gəlir ki, hər şeydən əvvəl, onunla pedaqoq arasında ruhlandırıcı münasibətlər yaranır, onlar, ilk növbədə, onların mövqelərinin harmoniyasında təzahür edir. Əgər bu harmoniya olmazsa, o zaman bütün qalan şeylər olmayacaq. Təlimin məqsəd və vəzifələri elə olmalıdır ki, onlar uşağı yormasın, bezdirməsin, əksinə, onun inamını və cəhdlərini möhkəmləndirsin. Harmoniya prinsipi təlimin elə məzmununu nəzərdə tutur ki, onun bütün vacib qüvvələrinin inkişafını təmin etsin.

Tədris prosesi, insanşünaslıq istiqamətində uşaq üçün insanşünaslığın əsaslarına yiyələnmək imkanına malik olmalıdır. Onlar uşağa normal həyat fəaliyyəti üçün, onun sosial normaları və dəyərləri səhvlər və yanlışlıqlar vasitəsilə deyil, həyatın normal və təbii gedişi vasitəsilə müstəqil şəkildə tənzimləməsi və mənimsəməsi üçün xüsusilə vacibdir.

Biz bu harmonik pozulmanı uşaqların inkişafında və sonrakı inkişaf mərhələlərində görürük, lakin bununla barışırıq. Bu ona görə baş verir ki, biz insan həyatının harmoniyasının hansı böyük qüvvə olduğunu və onun harmonik pozulması ilə hansı geri dönməz itkilərin bağlı olduğunu axıra qədər dərk edə bilmirik.

Harmoniya prinsipinə müvafiq olaraq pedaqoq və şagirdlərin özünütəhsil və özünütərbiyə fəaliyyəti də harmonik münasibətdədir. Əgər bu fəaliyyətlər vahid əsasa malik olduğunu, vahid sistem – funksiya qanunvericiliyinə tabe olduğunu və obyektiv olaraq birləşdiyini, funksi-

yalarına və onların həyata keçirilmə metodlarına görə bir – birlərinə uyğun olduğunu nəzərə alsaq, bu aydın olur.

Kifayət qədər əminliklə demək olar ki, ön plana şagirdlərin bilik və bacarıqlarını deyil, onların davranış və fəaliyyətinin istiqamətlənmə əsasının formalaşmasını qoymaqla tədris prosesi zəruri harmonik vəziyyətə çatır. Bu zaman biz nəzərə almalıyıq ki, təlimin məqsədlərinin, vəzifələrinin, məzmunun, forma və metodlarının tam harmoniyası təmin edilməlidir.

Təlim bütün digər hadisələr kimi, obyektiv sistemogenez qanununun təsirinə tabedir. Əgər təlim haqqında bütünlükdə sosial hadisə kimi danışsaq, o zaman qəbul etmək olar ki, öz keçmişində o indi olduğu kimi deyildi, gələcəkdə isə hazırda olduğu kimi olmayacaq. Təlim prosesi fasiləsiz şəkildə yenilənir, dəyişir. Lakin belə inkişaf inkarı inkar deyil, idrakın uşaqları necə öyrətmək haqqında yeni səviyyəsinə çatmasıdır. Təlim prosesindən bu və ya digər tendensiyanı, qanunauyğunluğu qoparmağa çalışmaqla, onun ayrı tərəfinə müraciət etməklə düzgün başa düşmək olmaz. O yalnız sistemogenezdə obyektiv dərk edilir, yəni keçmişlə, bu günlə və gələcəklə, konkret mərhələdə keçmişdə mövcud olan və ya hazırda mövcud olan şərtlərlə ayrılmaz vəhdət kimi bağlı olan inkişaf kontekstində dərk edilir.

Bununla belə, belə problemin daha səmərəli yolu ondan ibarətdir ki, keçmiş, bu gün və gələcək eyni dərəcədə nəzərə alınmışdır və həyatda yoxlanılan hər şey gələcək inkişaf üçün götürülmüşdür. Buna parlaq misal təlimin insanşünaslıq mahiyyətinin dirçəldilməsi tələbidir. İnsanşünaslıq ideyaları bu gün yaranmamışdır, onlar hamısı keçmişdən gəlmişdir. Mədəniyyət yeni təhsil və təlim sistemi yaratmaqla insanşünaslıq mədəniyyətinin yalnız bir hissəciyidir, keçmişi mexaniki şəkildə təqlid etmək deyil, bu mədəniyyətin sistemli şəkildə mənimsənilmə yolu ilə getmək lazımdır.

Sistemogenez prinsipi xüsusilə şəxsiyyətin fərdi inkişaf anlayışında vacibdir. Uşağın təbii xassələri ilə, irsi məlumatları ilə, onun inkişafının əvvəlki mərhələləri ilə bağlı olan keçmişlə hesablaşmadan bu inkişafı düzgün qurmaq olarmı?

Təlim prosesində şəxsiyyətin inkişafı bütün sosial rolların fasiləsiz və sistemli şəkildə mənimsənilməsi prosesi kimi baş verir, real təlim prosesi isə bu vaxta qədər dar rollu yanaşmada qurulur, bir çox əlamətlərinə görə, xüsusilə mənəvi, insanşünaslıq aspektində fraqmentar xarakterə malikdir.

Təlimdə uyğunluq təlim prosesinin bütün obyektiv qanunlara və şəxsiyyətin inkişaf qanunauyğunluqlarına, bu prosesin qanunauyğunluqlarına uyğunluğudur. Bu metodoloji prinsipdən bilavasitə bir sıra konkret didaktik prinsiplər irəli gəlir, onlardan bir çoxu zaman ərzində yoxlanmışdır.

Bu, təlimin insanın təbiətinə, onun inkişaf məntiqinə uyğunluğunu nəzərdə tutan təlimin təbiət uyğunluğu prinsipidir. Bu fərdi yanaşma prinsipidir, bu zaman söhbət təlimin konkret uşağın təbiətinə uyğunluğundan gedir. Uşağın yaş dövrü inkişafının xüsusiyyətləri, onun imkanları və qabiliyyətəri ilə yaş dövrü fərqlərinin nəzərə alınması prinsipidir**.** Bu həmçinin uşağın təlim prosesində xüsusi meylləri, qabiliyyətləri, təbii istedadları ilə şərtləndirilən, hətta adi məntiqə sığmayan və şəxsiyyətə fərdi yanaşma tələb edən inkişaf təkrarolunmazlığını ifadə edən təlimin şəxsiləşdirmə prinsipidir. Təlim məqsədəuyğun olmalıdır, yəni məqsədəuyğunluq prinsipinə uyğun olmalıdır, bu prinsip şəxsiyyətin sosial rollar sistemini mənimsəməsi və yerinə yetirməsi kimi obyektiv zərurəti əks etdirir (tərbiyənin, o cümlədən, onun tərkib hissəsi kimi təlimin əsas məqsədi bu prinsipdə ifadə edilir). Təlim pedaqoqun və şagirdlərin obyektiv təqribi əsası üzərində qurulmalıdır, yəni sistemli funksiya prinsipinə uyğun olmalıdır, onun həyata keçirilməsi tədris prosesinin pedaqoji tənzimlənməsinin insanşünaslıq quruluşunu və onun qeyd edilən əsasa yiyələnməsi vasitəsilə şəxsiyyətin özünütənzimləməsini təmin edir.

Şəxsiyyətin özünüinkişafı yeni didaktikada mərkəzi kateqoriyalardan biridir. Bir çox alimlər hesab edirlər ki, şagirdə münasibətdə pedaqoqa inkişafedirici funksiya xasdır. Biz artıq dəfələrlə bu problemə müraciət etmişik və bir daha qeyd edirik ki, belə izah son dərəcə yanlışdır.

Uşağın inkişafı psixi cəhətdən yeni yaranmaların daxili prosesidir və o əlverişli həyat fəaliyyəti şərtləri zamanı özünühərəkət, özünüinkişaf prosesi kimi yerinə yetirilir. Bu onun müəyyən məqsədlərə nail olmaqda fəallığıdır. Pedaqoq uşaqda birbaşa heç nə inkişaf etdirmir, yal-

nız bu prosesi şərtləndirir və deməli, ona münasibətdə inkişafetdirici funksiyanı həyata keçirə bilməz, yalnız uşağın fəaliyyətini, bu fəaliyyətin həyata keçirildiyi şərtləri tənzimləyə bilər. Əgər daha dəqiq desək, o zaman belə demək olar ki, pedaqoq uşağa öz şəxsi davranış və fəaliyyət istiqamətlənmə əsasına yiyələnməyə kömək edir və belə yiyələnmə vasitəsilə şəxsiyyətin özünütənzimləməsinə, özünüidarəetməsinə, onun özünüinkişafına nail olunur.

Təlim indiki görünüşündə və mövcud quruluşunda biliklərin mənimsənilməsi, bacarıq və vərdişlərin formalaşması prosesinə şəxsiyyətin fəal şəkildə daxil edilməsini təmin edilməsinə az yönəlmişdir, buna görə də onlar az məhsuldardır. Təlimdə əsas ideya əmrlər, tələblər, məcburiyyət əsasında deyil, pedaqoqun köməyi ilə davranışın və fəaliyyətin istiqamətlənmə bazası əsasında inkişaf edən tənzimlənməni nəzərdə tutan özünüinkişaf olarsa, vəziyyət kökündən dəyişər. Əlbəttə, bunun üçün təlim taktikasını (o imperativ deyil, insanşünas olmalıdır) və orada üstünlük təşkil edən şəxsiyyətin özünüinkişaf prinsipinin quruluşunu dəyişmək lazımdır.

Bu prinsip təlimin bütün metodologiyasında əsasdır, çünki təlimin həqiqi hərəkətverici qüvvələrinin başa düşülməsi onunla bağlıdır. Nəzərdən keçirdiyimiz istənilən digər metodoloji prinsip yalnız sinergetizmi inkişafın hərəkətverici qüvvəsi, bütün proseslərin mənbəyi kimi kontekstdə düzgün izah edilə və nəzərdən keçirilə bilər. Tədris prosesinin sistem xassələri sinergetizmlə, yəni onun bütün elementlərinin birləşməsinin, qoşulmasının, qarşılıqlı təsirinin obyektiv zərurəti ilə şərtləndirilmişdir.

Tədris prosesinin harmoniyası həmçinin onun elementlərinin, komponentlərinin sinergetik qarşılıqlı təsiri ilə diktə edilmişdir. Bu proses onun bütün elementlərinin sinergetik qarşılıqlı təsirinə nail olduğu qədər də uyğundur, bu prosesdə şəxsiyyətin özünüinkişafı xarakterizə edilən sistemli sinergetizmin birbaşa nəticəsidir. Buna görə də bütün yeni didaktika sistemli sinergetik pedaqoji paradiqmaya əsaslanır və orada təlim sistemli sinergetik proses kimi nəzərdən keçirilir. Biz bilirik ki, sistemli sinergetik pedaqoji paradiqmada bütün məsələlər hər bir inkişafın əsasında duran sistemli sinergetizm mövqeyindən nəzərdən keçirilir. Buna görə də belə demək olar ki, fundamental inkişaf qanunlarının - sistemli sinergetizm qanunlarının kəşf edilməsi ilə didaktikanın inkişafında yeni mərhələ başlanır – təlimin sistemli sinergetik nəzəriyyəyə keçid mərhələsi.

O bütün əvvəlki təcrübədə yaradılan həqiqi hər şeyə son dərəcə ehtiyatla yanaşmaqla əsaslı şəkildə yenidən dərk edilməsini, eyni zamanda saxta elmi müddəalardan və nəticələrdən prinsipial imtina edilməsini, ehkamçılıqdan və orada toplanan bütün təbiiliyə zidd olan hər şeydən azad edilməsini tələb edir.

Sinergetizmin ümumi metodoloji prinsipi təlim prosesində rəhbər tutulması lazım olan bir sıra konkret didaktik prinsipləri nəzərdə tutur. Birincisi, bu təlim prosesində şəxsiyyətin sistemli rollu sinergetizmi prinsipidir, bu prinsipə əsasən təlim şəxsiyyətin sosial rollar sistemini mənimsəməsini və onların yerinə yetirilməsinə hazırlığına və qabiliyyətinə əsaslanmalıdır. İkincisi, bu təlim prosesində şəxsiyyətin sistemli funksional sinergetizmi prinsipidir, bu prinsipə müvafiq olaraq təlim davranışın və fəaliyyətin istiqamətlənmə əsasına şagirdlər tərəfindən yiyələnməsinə əsaslanmalıdır. Üçüncüsü, təlim prosesində proses subyektlərinin münasibətlərinin xarakterini və onların əməkdaşlığını təyin edən pedaqoq və şagirdlərin qarşılıqlı fəaliyyətində sinergetizm prinsipidir. Dördüncüsü, təlim prosesində bütün psixi proseslərin sinegetikləşdirildiyi psixi vəziyyətin əsasını nəzərdə tutan şəxsiyyətin psixoloji sinergetizm prinsipidir. Beşincisi, təlimin şagirdlərin idrak – yaradıcı fəallığını oyadan və ona əsaslanan quruluşu zərurətini diktə edən şəxsiyyətin idrak – yaradıcı sinergetizm prinsipidir.

**Problemin elmi yeniliyi:** Təlim sistemində harmoniya, sistemogenez, uyğunluq, özünüinkişaf, sinergetizm prinsiplərinin vacibliyi müəyyənləşdirilir və ilk dəfə təlim sistemində pedaqoji aspektdə bu prinsiplər tədqiq olunur ki, bu da tədqiqatımızın yeniliyidir.

**Problemin praktik əhəmiyyəti:** Ümumiləşdirilmiş tədqiqat materiallarından pedaqoji təmayüllü ali və orta ixtisas ocaqlarının tələbələri, magistrantları, həmçinin müəllimləri də seminar və mühazirə materiallarının, məşğələlərinin hazırlanmasında istifadə edə bilərlər.

**Problemin aktuallığı:** Təlim prosesində harmoniya, sistemogenez, yğunluq, özünüinkişaf, sinergetizm prinsiplərinin həyata keçirilməsi nəzəri anlayışların və praktiki tədbiq etmək bacarıqlarının formalaşdırılması böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. Корчагин В.П., Шишканов С.В. Основные положения системно-синергетической концепции школьного воспитания //Актуальныепроблемы современной педагогики: Межвузовский сборник научных трудов. Пенза: ПГПУ, 2000.
2. Таланчук Н.М. Системно-синергетическая концепция педагогики и перестройки педагогического образования: В 3 ч. Ч. 2: Общие основы современной педагогики: Социально-педагогическая генеалогия - учение об обществе как воспитательной системе. Казань: ИССО РАО, 1993.
3. Таланчук Н.М. Архитектоника воспитательного процесса: Современная концепция и теория воспитания: В 2 Ч.-Ч. 2. Казань: АПН СССР, 1990.
4. Таланчук НМ., Корчагина Л.Н., Корчагин В.Н. Бинарное обучение и его возможности в совершенствовании подготовки специалистов // Научно-технический прогресс и интенсификация подготовки инженера. Казань: КАИ, 1986.

**E-mail:** zamanovamelek71@gmail.com
**Rəyçilər:** *dos.*Y. Rzayeva
*ped.ü.fəls.dok.*G. Məmmədova
**Redaksiyaya daxil olub:** 03.12.2018

*UOT 378.*

***Zərifə Əliqaib qızı Əliyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Xəzər Universiteti*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ELMİ-İNNOVATİV FƏALİYYƏTİ

***Зарифа Алигаиб гызы Алиева***
*докторант по программе доктора философии*
*Университет Хазар*

# НАУЧНО-ИННОВАТИВНАЯ ДЕЯТЕЛЬНОСТЬ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

***Zarifa Aligaib Aliyeva***
*doctorial student in the program of doctor of philosophy*
*Khazar University*

# SCIENTIFIC INNOVATIVE ACTIVITIES OF HIGHER EDUCATION INSTITUTIONS

**Xülasə:** Təhsil müasir cəmiyyətin ayrılmaz hissəsidir. Cəmiyyətdə təhsilin mövqeyinin dəyişməsi bir sıra innovativ proseslərin yaranmasına səbəb oldu. Bu məqalədə ali təhsil müəssisələrində, tədris prosesində baş verən innovasiyalar haqqında danışılır. Müəllif, eyni zamanda, məqalədə təhsil sistemində innovasiyaların əhəmiyyəti və onlara olan tələbatdan bəhs edir.

***Açar sözlər:*** *innovasiya, innovativ təhsil, ali təhsil müəssisələri, innovativ mühit, pedaqoji fəaliyyət, elmi tədqiqat*

**Резюме:** Образование является неотъемлемой частью современного общества. Изменение роли образования в обществе послужило причиной возникновения ряда инновационных процессов. В статье рассматриваются инновации в высших учебных заведениях и образовательных процессах. Также в статье автор исследует важность и необходимость инноваций в системе образования.

***Ключевые слова:*** *инновация, инновационное образование, высшие учебные заведения, педагогическая деятельность, научное исследование*

**Summary:** Education is an integral part of the modern society. The change of the role of education in society caused the emergence of number of innovative processes. The article deals with innovations in higher education institutions and educational processes. At the same time in this article the author investigates the importance and demand of innovations in educational system.

***Key words:*** *innovation, innovative education, higher education institutions, pedagogical activity, scientific research*

Dünya çox sürətlə dəyişməkdədir. Qloballaşan dünyada cəmiyyətin bir çox sahələrində baş verən radikal dəyişikliklər təhsil sistemindən də yan keçmədi və onun müasir cəmiyyətdə rolunun yenidən qiymətləndirilməsinə səbəb oldu. Nəticədə ali təhsil yeni və "həyəcanlı" dövrünü yaşamağa başladı. Beləliklə, təhsil sahəsində atılan addımlar müasir tələblərə deyil, gələcəyin perspektivləri üzərində köklənməli və kəmiyyətə deyil, keyfiyyətə yönəlməli oldu.

Təhsil hər bir ölkənin inkişafında və dövlətin gələcəyində mühüm rol oynayır. Buna görə də müasir inkişaf etmiş dünyada dövlət ilk öncə təhsildə və elmdə tərəqqini təmin etməlidir. Təhsilindən razı qalan millət inkişafından geri qalır (2).

Azərbaycan Respublikası da dünyadakı qloballaşma proseslərindən kənarda qalmamışdır. Son illər aparılan sosial-iqtisadi siyasət nəticəsində ölkə yüksək inkişafa nail olmuş və apa-

rılan islahatlar sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaratmışdır. XX əsrdə ictimai fəaliyyətin əsaslı surətdə yenilənməsi isə insanlar üçün məhz fərqli keyfiyyətdə inkişaf üçün imkanlar açmışdır.

Bu gün ölkənin qarşısında duran ən böyük vəzifələrdən biri də təhsil sistemini köhnə şablonlardan azad etmək, onun yeni sosial-iqtisadi şəraitin tələblərinə uyğun şəkildə formalaşdırılmasını təmin etmək, səriştəli təhsilverənlərə, müasir texnologiyalara əsaslanan infrastruktura malik olan və dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanaqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır. Bu səbəbdən son dövrlərdə ölkənin təhsil sahəsində aparılan islahatlar təhsilin innovativ fəaliyyətinin aktivləşməsində yeni imkanlar yaratmışdır. Bu gün, demək olar ki, hər kəs innovasiyalar və innovativ inkişaf haqqında söz açır. "İnnovasiya" terminindən yaranan innovativ təşkilat, innovativ fəaliyyət, innovativ potensial, innovativ təklif, innovativ təhsil və s. ifadələrinə cəmiyyətdə tez-tez rast gəlinir.

"İnnovasiya" nədir?

"İnnovasiya" termini latın dilində "innovato" sözündən olub, "yenilənmə" və "yaxşılaşma" deməkdir. Termin elmi tədqiqatlarda XIX əsrlərdə meydana gəlib. "Iqtisadi innovasiya" anlayışı XX əsrin əvvəllərində Avstriya iqtisadçısı Yozef Şumpeterin «The Theory of Economic Development» (1934) əsərindən geniş ictimaiyyətə daxil oldu. İnnovasiya – yüksək səmərəliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsidir. İnnovasiya fəaliyyətinin nəticəsi yeni və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab edilir. İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. Eyni zamanda innovasiya bir mədəniyyət elementlərinin digər mədəniyyətə inteqrasiyası anlamını verir. İnnovasiyanın məqsədi idarəetmə obyektini dəyişməkdir, yeni elmi, texniki, iqtisadi və sosial səmərə əldə etməkdir.

XX əsrin əvvəlində biliyin yeni sahəsi – "innovatika" yarandı. İnnovatika, yeniliklər haqqında elmdir. İnnovatikada əsas anlayış innovativ prosesdir. Bu gün təhsil sistemində "pedaqoji innovasiyalar" termininə tez-tez rast gəlinir (A.H. Tağıyev, İ.A. Aslanzadə. 2017, 11-15).

Əslində, "təhsil innovasiyaları" və "pedaqoji innovasiyalar" terminləri çox yaxın mənalar daşıyır. Pedaqoji innovativ proseslər təxminən 1950-ci illərdən başlayaraq Qərbdə və təxminən son 15 ildə ölkəmizdə xüsusi tədqiqat obyektinə çevrilib.

İnnovasiya pedaqoji fəaliyyət olaraq təhsilə yenilik gətirir, təhsil prosesinin təkmilləşdirilməsinə xidmət edir. Pedaqoji innovasiya dedikdə, pedaqoji sistemdə təlim, tərbiyə, təhsil prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədilə həyata keçirilən yenilik başa düşülür (7).

Bu günlərdə elmi ədəbiyyatda "novasiya" və "innovativ" terminlərinin onlarla izahı var, həmçinin innovatikaya dair izahlı və xüsusi terminoloji lüğətlər hazırlanıb.

Təhsildə innovativ proseslər necə yarandı? Niyə onlar kütləvi xarakter daşımağa başladı və təhsil prosesində strateji mövqe qazandı?

Təhsil müəssisələrinin, xüsusilə universitet və institutların funksiyalarından biri də yeni bilikləri "istehsal" edib, onları sosial və iqtisadi həyatın bütün sahələrinə tətbiq etməkdir. Yeni biliklərin meydana gəlməsi üçün yeni tədris metodologiyaların və təlim texnologiyaların sınaqdan keçirilməsinə, onları tədris prosesində tətbiq etməklə praktik fəaliyyətə əsaslanan tədris metodlara ehtiyac yarandı.

Bundan irəli gələrək dövlət təhsil sahəsində apardığı islahatlarla sözün əsl mənasında ali təhsil müəssisələrinin innovativ fəaliyyətə olan yanaşmasını dəyişməyə məcbur etdi, çünki hər bir ölkənin innovativ inkişafında ali təhsil müəssisələri böyük rol oynayır. Başqa heç bir müəssisə ali təhsil müəssisəsi kimi bütün innovativ prosesi müstəqil şəkildə təmin etmə potensialına malik deyil. Ali təhsil müəssisəsi elmi tədqiqatların aparılmasından tutmuş, innovativ məhsulun ali təhsil müəssisəsinin yetişdirdiyi kadrlar tərəfindən sənaye təşkilatlarına çatdırılmasına qədər müstəqildir. Müəssisənin yeni məhsul istehsal etmək qabiliyyəti gələcək müvəffəqiyyətin əsas amilidir.

Təhsil sahəsində innovativ fəaliyyət elmi-pedaqoji, tədrisi-metodiki, təşkilati, hüquqi, maliyyə-iqtisadi və maddi-texniki bazaların təkmilləşməsinə istiqamətləndirilməlidir.

Ali təhsil müəssisələrində innovativ fəaliyyət təhsilin və fərdlərin şəxsi keyfiyyətlərinin yüksəldilməsinə; yeni intellektual və ya elmi texnologiyaların, dərs vəsaitlərinin hazırlanması, avadanlıqların yaradılmasına və tətbiqinə; ali təhsil müəssisələrinin yeni maliyyə mənbələrinin yaradılmasına; professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılmasına və innovativ infrastrukturun formalaşdırılmasına və onun fəaliyyətinin təmin olunmasına yönəlməlidir.

Ali təhsil müəssisəsinin innovativ potensialını adətən tədris prosesinin keyfiyyəti, infrastrukturun balanslaşdırılması və ali təhsil müəssisəsinin innovativ inkişafının göstəriciləri müəyyənləşdirir.

İnnovativ mühitin formalaşdırılması, innovativ strategiyanın aktuallaşdırılması, şəxsiyyət yetişdirə biləcək elmi mühitin və innovativ düşüncəyə malik insan resurslarının yaradılması innovativ təşkilatın prioritet məsələlərindəndir.

Ali təhsil müəssisəsinin innovativ prosesinin yaradılması və həyata keçirilməsi bilavasitə həmin təşkilatın innovativ potensialından asılıdır. Yalnız aktiv innovativ fəaliyyətlə məşğul olan pedaqoji heyəti və əməkdaşları olan ali təhsil müəssisəsi innovativ təhsil verə bilər.

İnnovativ ali təhsil müəssisəsində innovativ mühit çox önəmlidir. Bəs ali təhsil müəssisəsinin innovativ potensialını ölçən amillərdən biri olan innovativ mühit nədir?

İnnovativ mühit əməkdaşların innovativ potensiallarının optimal şəkildə həyata keçməsinə səbəb olan kollektiv üzvlərinin formalaşmış birgə fəaliyyətidir. Yaradıcı mühit müəllim və tələbələr arasında çevikliyi, əməkdaşlığı və bağlılığı maksimum şəkildə təmin edir. Ümumiyyətlə, innovativ ali təhsil müəssisəsində elə bir mühit yaratmaq lazımdır ki, orada pedaqoji heyətlə yanaşı, istedadlı tələbələr də özlərini təsdiq edə bilsinlər. Yaradıcı insan adətən ona hər mənada "rahatlıq" yaradan bir mühitdə çalışıb yaratmaq istəyir.

Yuxarıda qeyd olunduğu kimi, Ali təhsil müəssisəsinin innovativ fəaliyyətinin qiymətləndirilməsində əsas meyar həmin müəssisədəki tədrisin keyfiyyəti olmalıdır. Ali təhsil müəssisəsinin yetişdirdiyi məzunların peşəkar fəaliyyətə hazırlıq bacarıqları tədrisin keyfiyyətini ölçən göstəricilərindən biri hesab olunur. İşəgötürənlərin fikrincə, müasir mütəxəssis formalaşmış innovativ düşüncəyə və yüksək səviyyədə yaradıcılıq qabiliyyətinə malik olmalı, fərdi peşəkar inkişafı üçün fərqli metod və vasitələrdən istifadə etməyi, layihə və komandalarla işləməyi bacarmalı, müxtəlif istiqamətlər üzrə biliklərə və praktik təcrübəyə malik olmalıdır. Təəssüf olsun ki, Azərbaycanda işəgötürənlərin təhsil və kadr hazırlığı, təhsilin məzmununun təkmilləşdirilməsi prosesinə cəlb olunması, demək olar ki, "yox" səviyyəsindədir. Belə ki, işəgötürənlər kadr hazırlığı prosesində iştirak etməli, hazırlanan kadrlarla bağlı şərtlər və tövsiyyələr irəli sürmək imkanına malik olmalı və buna müvafiq olaraq cavabdehliyini dərk etməlidir.

Mütəxəssislərin fikrincə, ali təhsilin innovativ inkişaf yolu artıq zamanın hökmüdür və ona alternativ yoxdur. Bu səbəbdən, Azərbaycan təhsilinin strateji mövqelərindən biri innovativ düşüncəyə malik peşəkar mütəxəssislərin yetişdirilməsidir.

İnnovativ ali təhsil müəssisəsi tələbəni məqsədyönümlüyə və öz elmi, peşə və şəxsi fəaliyyətinin layihələşdirməsinə, müstəqil qərarlar vermək və məsuliyyətli olmağa öyrətməlidir. Ali təhsil müəssisəsi uyğun peşəkar kompitensiyalara, mənəvi şüura, geniş dünyagörüşünə malik yaradıcı şəxs yetişdirməlidir. Yalnız bu halda məzun olan bir gənc bugünkü əmək bazarının sərt şəraitində rəqabət aparıb öz yolunu tuta bilər.

Təhsilalanların savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Peşəkar mütəxəssislərin hazırlanması tədris prosesinin ciddi şəkildə yenilənməsini tələb edir. Bunun üçün təhsilin yeni innovativ metod və tədris formalarına zərurət yaranır. Müasir dünyada qlobal informasiya şəbəkəsinin və informasiya texnologiyalarının inkişafı müəllimin təhsil sistemindəki roluna bilavasitə təsir edir. Belə ki, internet daha zəngin və ətraflı məlumat bazasına sahib olduğundan, müəllimin birbaşa bilik ötürücüsü rolunun köklü dəyişilməsinə səbəb olub. Bu gün müəllimin əsas missiyası müşahidəçi və metodist olub, tələbələrə biliyin (internetdən əldə etdiyi də daxil) mənimsənilməsində yol gös-

tərib istiqamətləndirməkdir. Artıq müasir tədris prosesi tələbənin müstəqil şəkildə işləməsini təşviq edir. Müəllim, tələbənin əldə etdiyi məlumatdan səmərəli şəkildə istifadə edərək, onun dərin biliyə çevrilməsində dəstək olmalı və ona bu vərdişləri aşılamalıdır.

Qeyd olunduğu kimi, ali təhsil müəssisələrinin hazırladığı kadrlar sahələri üzrə peşəkar mütəxəssis olmaqla yanaşı, geniş dünyagörüşünə və yaradıcı düşüncəyə malik olmalıdır. Bunun üçün təhsil ocaqlarında yaradıcılığı və innovativliyi dəstəkləyən mühitin olması çox önəmlidir. Yaradıcı insana dəstək olmadan o müstəqil şəkildə "yaradıcılıqla" məşğul ola bilməz. Lakin yaradıcı mühitdə gənc istedadlı şəxs yeni ideyalar istehsal etməyə "məhkumdur".

Beləliklə, tədris prosesində innovasiya dedikdə, təlim prosesinin məzmununa (metod, metodika, texnologiya) yeniliyin daxil edilməsi başa düşülür. Bu yenilik tələbələrin biliklərinə və düşüncə tərzlərinə dəyişikliklər gətirir, onlarda innovativ kompetensiyaların yaranmasına bilavasitə səbəb olur.

Ali təhsil müəssisəsinin innovativ "bacarığı"nı müəyyən edən amillərdən biri də onun yeni bilikləri meydana gətirmə, elmi tədqiqatların aparılma imkanlarıdır. Təhsildə innovasiyanın tətbiqinin bir üsulu da pedaqoji fəaliyyətlə məşğul olan professor-müəllim heyətinin daha çox elmi-tədqiqat işlərinə cəlb olunmasıdır. Belə ki, tələbə dünya miqyaslı tədqiqatçılar "cəmiyyətinə" qoşulmalıdır. Bu, nə deməkdir? Bu, o deməkdir ki, bütün ali təhsil müəssisələrinin pedaqoji heyəti gözəl tədqiqatçı olmalıdır və tələbələr ən yaxşı tədqiqatçılardan öyrənmək, onlarla ünsiyyətdə olmaq imkanlarına sahib olmalı və yararlanmalıdırlar.

Tələbələrin özlərinin də elmi tədqiqata cəlb edilməsi arzuolunandır. Onların elmi-tədqiqat fəaliyyətini müxtəlif üsullarla təmin etmək mümkündür. Bura tələbələrin kurs işlərinə, layihələrə, təcrübələrə, diplom işlərinə, elmi tələbə dərnəklərinə, olimpiadalara, yarışlara, tələbə-elmi konfranslara və kafedralarda keçirilən elmi-tədqiqat işlərinə cəlb olunmasını aid etmək olar. Məhz tədqiqatyönlü təhsil müəssisəsi tələbələrin daha çox müstəqil öyrənciyə çevrilmələrinə imkan yaradır və eyni zamanda, onlarda öyrənmə sevgisini aşılamış olur.

Bu gün müxtəlif təhsil qurumları və təşkilatları gənc tədqiqatçılar və müəllimlərin elmi fəaliyyətini dəstəkləmək üçün xüsusi proqramlar təklif edir. Bir sıra dövlət və özəl ali təhsil müəssisələri bu istiqamətdə iş aparır, pedaqoji heyətin elmi fəaliyyətə marağını artırmaq üçün onların müxtəlif yerli və beynəlxalq proqramlarda, müsabiqələrdə iştirakını təmin edir və xüsusi mükafatlar təqdim edir.

Tədris prosesinin innovativ inkişafında müasir təlim texnologiyalarının rolu böyükdür. Bunlardan internet-texnologiya xidmətləri, elektron təlim (təlim e-Learning), smart təlim və s. qeyd etmək olar. Hələ yaxın keçmişdə tələbələr üçün yeganə bilik mənbəyi müəllim və onun tərəfindən tövsiyə edilən dərslik idisə, bu gün tələbənin lazımı məlumatı əldə etməsi üçün geniş imkanları var. Elektron dərs resurslarının (internet texnologiyaları) təklif etdiyi geniş və yenilənən məlumat imkanları tədris prosesini xeyli asanlaşdırıb. Belə ki, internet texnologiyaları biliklərin müəllimdən tələbəyə, tələbədən müəllimə, tələbədən tələbəyə ötürülmə prosesini surətləndirib (6).

Bu gün Azərbaycanın bir sıra ali təhsil müəssisələrində elektron təhsil artıq innovasiya hesab edilmir, lakin bəziləri üçün bu məsələ hələ də yenilikdir və yubanması həmin müəssisənin peşəkar mütəxəssis hazırlanmasına mənfi təsir edir. Düzdür, gecikmənin obyektiv və subyektiv səbəbləri var və bunu danmaq olmaz. Bunlardan biri, bəzi ali təhsil müəssisələrinin infrastrukturunun yetəri qədər zəngin olmamasıdır. Bunun üçün istər informasiya və telekommunikasiya sahəsində, istərsə də professor-müəllim heyətinin peşəkarlıq keyfiyyətinin artırılması istiqamətində ciddi investisiyalara ehtiyac var.

Düzdür, təhsil infrastrukturu önəmli amil olsa da onun möhkəmləndirilməsi insanların bilik və bacarıqlarının yüksəlməsinə tam təminat vermir. Bilik və bacarıqlar təhsil müəssisələrinin sayı və təhsilin müddəti ilə deyil, öyrətmə və öyrənmə prosesinin keyfiyyəti təminatı ilə əldə olunur. Son dövrlərdə bir sıra ölkələr tərəfindən təhsilin inkişafı məqsədi ilə təhsil infrastrukturuna, həmin infrastrukturun yeni avadanlıqlarla təchizatına xeyli vəsait xərclənsə də, həmin ölkələrdə təhsilin nəticələrində müsbət irəliləyiş əldə edilməmişdir. Ümumi təhsil pilləsini

bitirməsinə baxmayaraq, hesab, oxu və yazı vərdişlərinə malik olmayan çoxlu sayda insanlar vardır. Həmin səbəblərdən təhsilin keyfiyyətinin təminatı başlıca strateji prioritetə çevrilməlidir.

Buna baxmayaraq, innovasiyalarla zəngin olan Azərbaycan təhsili bu istiqamətdə artıq müəyyən yol qət edib. Ümumilikdə isə Azərbaycanın Bolonya prosesinə qoşulması ən uğurlu addımlardan biridir ki, bu, qloballaşan dünyada ölkə təhsil sisteminə yenilik, müasirlik gətirərək ona yeni nəfəs, yeni istiqamət vermiş oldu. Bolonya prosesinə qoşulmamız ölkəmizin Avropa təhsilinə inteqrasiyası ilə yanaşı, ali təhsil müəssisələrinin tədris prosesində bir sıra innovasiyaların yaranmasına və tətbiqinə səbəb oldu. Qloballaşma prosesləri müxtəlif dövlətlərin təhsil sistemlərinin inteqrasiyasını şərtləndirdiyinə görə təhsil standartlarının unifikasiya məsələsi ölkəmizdə Bolonya prosesini daha da sürətləndirir.

**Problemin aktuallığı.** Əgər bir ali təhsil müəssisəsi innovativliyini təmin etmək istəyirsə, mütləq şəkildə professor-müəllim heyətinin pedaqoji fəaliyyətinin "keyfiyyətli" yenilənməsinə, müasir təlim texnologiyalarının tətbiqinə, elmi-tədqiqat fəaliyyətinin inkişafına və aktual elmi ixtiraların kəşfinə önəm verməlidir. Çünki, innovasiyalar haqqında sadəcə söhbət açan deyil, innovativ infrastruktura və mühitə malik olan ali təhsil müəssisəsi özünü "innovativ" adlandıra bilər. Yaxşı olar ki, ali təhsil müəssisələri innovativ fəaliyyətini ölçmək üçün mütəmadi olaraq monitorinqlərdən istifadə etsinlər.

**Problemin elmi yeniliyi.** Ali təhsil müəssisələrin innovativ fəaliyyətinin əsas xüsusiyyətlərinin göstərilməsindən, müəssisələrin innovativ fəaliyyətlərində mövcud olan problemlərin müəyyənləşdirilməsindən və gələcək perspektivlərinin öyrənilməsindən ibarətdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə verilmiş yanaşma ali təhsil müəssisələrin innovativ fəaliyyətlərinə olan yanaşmalarını yenidən nəzərdən keçirməyə səbəb olacaqdır.

## Ədəbiyyat


1. Ağayev Ə. Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
2. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası: Monoqrafiya. Bakı: Elm, 2010.
3. İbrahimov F.N., Hüseynzadə R. L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2012.
4. Mehrabov A. Pedaqoji texnologiyalar. Bakı, 2006.
5. Nəzərov A.M. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. Bakı: ADPU-nun nəşriyyatı, 2012.
6. Sadığov F.B. Pedaqogika: Dərs vəsaiti. Bakı, 2008.
7. Tağıyev A.H., Aslanzadə İ.A. İnnovasiya menecmenti: Dərs vəsaiti. I hissə. Bakı, 2017.
8. Гребенюк И.И., Голубцов Н.В. Анализ инновационной деятельности высших учебных заведений России: Монография / под. ред. Гребенюк И.И. М.: Изд-во «Академия Естествознания», 2012.
9. Рыбцова Л. Современные образовательные технологии: Учебное пособие. Изд-во Урал. ун-та, 2014.


**E-mail:** aliyeva.zarifa79@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.*T.S. Paşayev
*ped.ü.fəls.dok.*İ.B. Əmirəliyeva
**Readaksiyaya daxil olub:** 30.11.2018

*UOT 37.*

***Ülviyyə Məmməd qızı İsmayılova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*

# YENİYETMƏLƏRİN MÜSTƏQİLLİYİNİN NÖVLƏRİ: İDRAK MÜSTƏQİLLİYİ, TƏLİM MÜSTƏQİLLİYİ, İNTELLEKTUAL MÜSTƏQİLLİK

***Ульвия Мамед гызы Исмайлова***
*докторант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ВИДЫ САМОСТОЯТЕЛЬНОСТИ ПОДРОСТКОВ: ПОЗНАВАТЕЛЬНАЯ САМОСТОЯТЕЛЬНОСТЬ, УЧЕБНАЯ САМОСТОЯТЕЛЬНОСТЬ, ИНТЕЛЛЕКТУАЛЬНАЯ САМОСТОЯТЕЛЬНОСТЬ

***Ulviyya Mammad Ismayilova***
*doctorial student in the program of doctor of philosophy*
*Ganja State University*

# TYPES OF INDEPENDENCE OF ADOLESCENTS: COGNITIVE INDEPENDENCE, EDUCATIONAL INDEPENDENCE, INTELLIGENT INDEPENDENCE

**Xülasə.** Müstəqilliyin səmərəli şəkildə tərbiyə olunmasını təmin edən bir sıra şərtlərinə münasibət bildirməklə yanaşı təlim prosesində və sinifdənxaric tədbirlər zamanı formalaşdırılan müstəqilliyin ayrı-ayrı növlərinin səciyyəvi cəhətlərinin, yeniyetməlik yaş dövrünün psixofizioloji xüsusiyyətlərinin diqqət mərkəzinə gətirilməsi də vacibdir.

Məqalədə müstəqilliyin idrak müstəqilliyi, təlim müstəqilliyi, intellektual müstəqillik kimi növlərinin üzərində dayanılır.

***Açar sözlər**: müstəqillik, müstəqilliyin növləri, idrak müstəqilliyi, təlim müstəqilliyi, intellektual müstəqillik*

**Резюме.** В статье отмечается, что важно обратить внимание как на характерные особенности отдельных видов самостоятельности подростков, которые формируются во время учебного процесса и во внеклассных мероприятиях, а также на психофизиологические особенности подросткового возраста.

В статье рассматриваются виды самостоятельности, такие как познавательная самостоятельность, учебная самостоятельность, интеллектуальная самостоятельность.

***Ключевые слова**: самостоятельность, виды самостоятельности, познавательная самостоятельность, учебная самостоятельность, интеллектуальная самостоятельность*

**Summary.** The article notes that it is important to pay attention both to the characteristic features of certain types of independence, which are formed during the educational process and in extracurricular activities, as well as the psychophysiological characteristics of adolescence.

The article discusses the types of autonomy, such as cognitive independence, educational independence, intellectual independence.

***Keywords**: independence, types of independence, cognitive independence, learning independence, intellectual independence*

Mövcud ədəbiyyatda müstəqilliyin aşağıdakı növlərinə münasibət bildirirlər: idrak müstəqilliyi (İ.Y. Lerner, M.İ. Maxmutov, T.İ. Şamova və b.), praktik, təşkilati-texniki müstəqillik (E.Y. Qolant, Z.F. Ponomaryeva və b.), əqli müstəqillik (N.V. Kuxarev və b.), tətbiqi və təd-

ris müstəqilliyi (T.S. Panfilova, N.A. Polovnikova və b.), ictimai-siyasi, yaradıcı müstəqillik (V.İ. Andreyev, Y.A. Ponomoryev, M.Q. Yaroşevski və b.), əmək müstəqilliyi (A.İ. Koçetov, Y.V. Yanotovskaya və b).

Biz bu təsnifata mənəvi müstəqilliyi əlavə edə bilərik.

Müstəqilliyin səmərəli şəkildə tərbiyə olunmasını təmin edən bir sıra şərtlərinə münasibət bildirməklə yanaşı təlim prosesində və sinifdənxaric tədbirlər zamanı formalaşdırılan müstəqilliyin ayrı-ayrı növlərinin səciyyəvi cəhətlərinin, konkret yaş dövrünün, o cümlədən bizim tədqiqatda olduğu kimi, yeniyetməlik yaş dövrünün psixofizioloji xüsusiyyətlərinin diqqət mərkəzinə gətirilməsi də vacibdir.

Qeyd olunan müddəalara əsaslanaraq, təlim prosesi və sinifdənxaric tədbirlər üçün səciyyəvi olan idrak, təlim və intellektual müstəqilliyi nəzərdən keçiririk.

**İdrak müstəqilliyi.** Mövcud ədəbiyyatda idrak müstəqilliyinin mahiyyəti, məqsəd və vəzifələri, xüsusiyyətləri müxtəlif şəkildə nəzərdən keçirilir. Tədqiqatçılardan bəziləri bu kateqoriyaya yanaşmada onun fəaliyyətyönlü tərəfinə, digər tədqiqatçılar psixoloji aspektinə diqqət yetirirlər.

M.A. Danilovun qənaətincə, idrak müstəqilliyi, ilk növbədə məsələni, problemi, tapşırığı, göstərişi anlamaqda onların həlli yollarını tapmaqda, başlıcanı diqqətə çatdırmaqda və həlli yollarını müəyyənləşdirməkdə, nəticələr çıxarmaqda ağla və dərrakəyə güvənməkdə, öz mövqeyi irəli sürməkdə və müdafiə etməkdə ifadə olunur (1).

Yeniyetmələrin idrak müstəqilliyi təlim prosesinin təşkilində başlıca amillərdəndir.

Müəllimlik peşəsinə bağlı olan, hər bir şəxsi pedaqoji fəaliyyətinin ilk günlərindən belə bir sual düşündürür: necə etməli ki, şagirdlərdə öz fənnimə maraq oyadım?

Qabaqcıl müəllimlər isə fikirləşirdilər: şagirdlərlə işi necə qurmaq lazımdır ki, onlarda bilikləri müstəqil olaraq əldə etmək tələbatı formalaşsın? Az keçmiş bu suala cavab tapırlar. Bu müəllimlər öz şagirdlərinin təhsil nəticələrindəki dəyişiklikləri müşahidə edərək, belə bir qənaətə gəlirlər ki, dərslərin texniki təchizatının yüksək səviyyədə olması, müəllimin öz fənnini yaxşı bilməsi şagirdlərin öz müstəqil idrak fəaliyyətlərini şüurlu surətdə layihələndirmələrindən ötrü hələ kifayət deyildir.

İdrak müstəqilliyinin mahiyyətinə gəldikdə, müxtəlif yanaşmalar mövcuddur. Alimlərin bir qismi problemin fəaliyyət tərəfinə üstünlük verirlər. Digərləri daha çox psixoloji tərəfini əsas götürür, idrak müstəqilliyini məktəblilərin, o cümlədən V-IX sinif şagirdlərinin məqsədyönlü yaradıcı axtarış prosesində dərketməyə cəhd və bacarığın formalaşdırılması kimi nəzərdən keçirirlər.

İdrak müstəqilliyinin təzahür formaları isə, yeniyetmələrin idraki tapşırıqları həlletmə bacarığında ifadə olunur ki, bu da öz növbəsində yeni biliklərin qazanılmasına və yeni həll üsullarını mənimsəməyə imkan verir. İdraki tapşırıqlar heç də yalnız idrak müstəqilliyinin təzahür forması olmaqla məhdudlaşmır, eyni zamanda "onun formalaşmasının pedaqoji vasitəsi" kimi özünü göstərir. Odur ki, qabaqcıl müəllimlər öz fəaliyyətlərində haqqında danışılan problemə münasibətdə şəxsiyyətyönlü yanaşmadan daha çox fəaliyyətyönlü yanaşmaya üstünlük verirlər.

İdrak müstəqilliyi şəxsiyyətin keyfiyyəti olmaqla bir-birinə təsir edən və bir-biri ilə qarşılıqlı əlaqədə və fəaliyyətdə olan daxili və xarici amillərin təsiri altında formalaşır və inkişaf edir.

Daxili amillər yeniyetmənin şəxsiyyət keyfiyyətlərinin (təbii qabiliyyətlərinin, iradə, temperament və s.) mahiyyətini ifadə edir və həyat fəaliyyəti və təlim prosesində qazanılan bilikləri və onların əldə olunma metodlarını nəzərdə tutur.

Xarici amillər – yeniyetmələri əhatə edən bütövlükdə sosium və sosial mühit, təhsil prosesinin təsiridir.

İdrak müstəqilliyi – daxili təhsillənmə sistemi və onların xarici təzahürü, başqa sözlə, özünütəhsil üzrə praktik fəaliyyətdir. İdrak müstəqilliyinin inkişafının yüksək səviyyəsinin ən mühüm əlamətlərindən biri qarşıda dayanan məqsədə yetmək üçün yeniyetmələrin bütün səylərinin nəzərdə tutulmuş vəzifələri yerinə yetirməsinə cəhdlərdir.

Bir sıra hallarda yeniyetmələrdə idrak müstəqilliyi aşağı səviyyədə təşəkkül tapır. Bunun, təbii ki, səbəbləri vardır. Həmin səbəblərə aid ola bilər:

1) yeniyetmələrin təlimə marağının olmaması, təlimə motivasiyanın aşağı səviyyəli olması;

2) müəllimin siniflə işin frontal formalarından və reproduktiv metodlarından istifadə etməklə təlim prosesini idarə etməsi və bunun nəticəsində şagirdlərin tədris materialını lazımi səviyyədə mənimsəməməsi;

3) ətraf gerçəkliyə aid ümumiləşdirici bilikləri formalaşdırma metodikasına yiyələnməməsi;

4) müəllim tərəfindən yeniyetmələrin müstəqil idrak fəaliyyətinin formalaşdırılmasına qayğı göstərilməməsi;

5) yeniyetmələrin təfəkkür metodlarından fəal şəkildə faydalanmamaları;

6) yeniyetmələrdə müstəqil şəkildə mühakimə yürütmə, mübahisəyə girmə, öz mövqeyini bildirmə və onu müdafiə etmə, tənqid və özünütənqid bacarıqlarının kifayət qədər formalaşmaması;

7) bəzi yeniyetmələrdə analitik təfəkkürün fəal olmaması, onların proqram materialındakı başlıcanı ayırd etməyi bacarmaması, problemin həllinə dair səmərəli planı tuta bilməmək;

8) qazanılmış biliklərdəki formalizm; nəzəri bilikləri təcrübədə tətbiq etməyi bacarmamaq və s;

Yeniyetmələrin müstəqil idrak fəaliyyəti aşağıdakı komponentləri özündə birləşdirir: ümumi və xüsusi idrak tapşırıqlarının şagirdlər tərəfindən müəyyənləşdirilməsi (tədris situasiyasının quruluşunda məqsədi seçmək, vəzifələri təsəvvürünə gətirə bilmək bacarığı); idrak tapşırığının həllinə aparan fəaliyyətin adekvat üsullarının seçilməsi, müəyyənləşdirilməsi və tətbiqi (onun həlli məqsədi ilə yolların və vasitələrin müəyyənləşdirilməsi bacarığı); qarşıda dayanan vəzifələrin necə həyata keçirildiyini öyrənməkdən ötrü nəzarət əməliyyatlarının yerinə yetirilməsi (izləmə).

Mövcud ədəbiyyatda idrak müstəqilliyinin bir-biri ilə qarşılıqlı əlaqədə və fəaliyyətdə olan üç komponentinə münasibət bildirilir: 1) motivasiyayönlü; 2) iradi; 3) məzmunyönlü-əməliyyatyönlü.

İdrak müstəqilliyi müstəqil idrak fəaliyyətində həyata keçir. İdrak müstəqilliyinin inkişafı yeniyetmələrin fəal idarəolunan müstəqil idrak fəaliyyətinə cəlb olunması ilə mümkündür. İdrak müstəqilliyinin inkişafı problemə kompleks yanaşmanı, psixoloji, sosial və didaktik cəhətləri nəzərə almağı zərurətə çevirir.

İdrak müstəqilliyini inkişaf etdirmək üçün V-IX sinif şagirdləri təhsil fəaliyyətinin bütün mərhələlərində yaxından iştirak etməlidirlər. Başqa sözlə, yeniyetmələr təlim fəaliyyətinin planlaşdırılması və həyata keçirilməsinə, təhlilinə, qiymətləndirilməsi və təshihinə cəlb olunmalıdırlar. İşin forma və metodlarının seçimində, müstəqil qərar qəbulunda onlara şərait yaradılmalıdır.

Müstəqil idrak fəaliyyəti bir sistem olmaqla aşağıdakı komponentləri özündə birləşdirir:

1) məzmun yönümü (anlayışlarda, yaxud qavrayış və təsəvvürlərdə öz ifadəsini tapan biliklər);

2) operativ yönüm (müxtəlif fəaliyyətlər, fəaliyyətin həm xarici, həm də daxili planda bacarıq və priyomlarla həyata keçirilən əməliyyatları); nəticə yönümü (yeni biliklər, həll üsulları; şəxsiyyət yeni sosial təcrübəsi, ideyaları, baxışları, qabiliyyətləri və keyfiyyətləri).

Mövcud ədəbiyyatla tanışlıq nəticəsində belə qənaətə gəldik ki, idrak müstəqilliyinin bir-biri ilə sıx surətdə əlaqədə olan üç komponentini qeyd etmək mümkündür: a) motivasiya komponenti – yeniyetmələrin idrak fəaliyyətinə psixoloji hazırlığı; b) koqnitiv komponenti – nəzəri hazırlıq; c) konativ komponent – praktik hazırlıq.

Təlim prosesi tədris fəaliyyətinin xüsusi formada təşkilini zərurətə çevirir. Bu xüsusi forma nəyi nəzərdə tutur? Aydınlıq gətirək: biliklər məktəblilərə, o cümlədən V-IX sinif şagirdlərinə hazır şəkildə verilməsin, problemli situasiya şəraitində, müstəqil idrak fəaliyyəti prosesində təqdim olunsun. Məsələnin kökü bundadır.

**Təlim müstəqilliyi**. Məktəblilərdə, o cümlədən V-IX sinif şagirdlərində təlim müstəqilliyinin formalaşdırılması aktuallıq kəsb edən problemdir. Bu, onunla bağlıdır ki, müasir müəllim təlimin əsas məqsədinə nail olmaq üçün qarşısına kompleks vəzifələr qoyur. Həmin vəzifələrə daxildir: şagirdlərdə özünütəyinə, özünütəhsilə və özünüinkişafa hazırlığın formalaşdırılması.

Bizim fikrimizcə, təlim müstəqilliyi dedikdə, məktəblinin, o cümlədən yeniyetmənin öz qarşısına müxtəlif təlim vəzifələri qoyaraq onları başqasının köməyi olmadan müstəqil şəkildə yerinə yetirməsi başa düşülməlidir. təlim müstəqilliyi şagirdin şəxsi arzusuna rəğmən şüurlu olaraq bu və ya digər fəaliyyəti yerinə yetirmək tələbatı ilə bağlıdır. Başqa sözlə, müəllimin əsas işi təlim fəaliyyətinin komponentlərini formalaşdırmaqdan ibarət olmalıdır.

Təlim müstəqilliyi zamanı şagirdə maraq, təşəbbüskarlıq, idrak fəallığı, öz qarşısına vəzifə qoymaq, öz işini planlaşdırmaq bacarığı kimi keyfiyyətlər xas olmalıdır. Ev şəraitində valideyn uşağın hər addımını izlədikdə, daim başı üzərində dayandıqda, hər bir işi onun əvəzinə gördükdə, təbii ki, həmin oğlanda, qızda müstəqilliyin təşəkkül tapıb formalaşması çətin olacaqdır. Bunun xoşagəlməz nəticəsi özünü məktəbdə göstərəcəkdir. Uşaq təlim müstəqilliyinə alışmaqda çətinlik çəkəcəkdir.

Yeniyetmələrin müstəqil təlim fəaliyyətinə səmərəli rəhbərlik etməkdən ötrü müstəqil işin aşağıdakı *əlamətlərini* müəyyənləşdirmək lazımdır: 1) müəllimin tapşırığı; 2) müəllimin rəhbərliyi; 3) yeniyetmələrin müstəqilliyi; 4) müəllimin bilavasitə iştirakı olmadan tapşırığın yerinə yetirilməsi; 5) yeniyetmələrin fəallığı.

Müəllim sinifdə yeniyetmələrin təlim müstəqilliyinə nail olmaq üçün müxtəlif metodik təlimatlardan, yaddaşlardan istifadə edə bilər. Məktəblilərin təlim əməyinin bacarıq və vərdişləri sistemi ilə silahlandırılması vəzifəsi irəli sürülməzsə, təlim prosesi düzgün planlaşdırıla və səmərəli şəkildə, uğurla həyata keçirilə bilməz. təlim müstəqilliyi, təşəbbüskarlıq, axtarıcılıq fəallığı – müasir məktəbin ideal məzununun portretini müəyyənləşdirən başlıca xüsusiyyətlərdir.

Təbii ki, bu xüsusiyyətlərin əsasları məktəb illərində - ibtidai siniflərdə qoyulur, orta məktəb yaşlarında və yuxarı siniflərdə bu iş davam etdirilir. əgər dərsdə şagird müstəqil işləmək qabiliyyətini nümayiş etdirə bilmirsə, deməli, bunu ona öyrətməyiblər, bu fəaliyyətə onu alışdırmayıblar. Yeniyetmələr bir sıra hallarda böyüklərin köməyi olmadan keçinməyi, tədris və təlimdənkənar tapşırıqları yerinə yetirməyi bilmirlər. Bu işi bacarmaları üçün aşağıdakılar lazımdır:

1. Psixoloji hazırlıq. Bu hazırlıq özü üçün psixoloji baxımdan lazım olanı vəziyyəti və rahatlığı yaratmaq qabiliyyətini nəzərdə tutur.

2. Yeniyetmə özünütəhlil və özünüqiymətləndirmənin elementar vərdişlərinə yiyələnməlidir.

3. Yeniyetmə özünün təlim fəaliyyətinin gedişatını və ümumi nəticəsini qabaqcadan görmək bacarığına sahib olmalıdır.

4. Tapşırıqların yerinə yetirilməsinin bütün mərhələlərində təşəbbüskarlıq və yaradıcılıq üçün şərait yaradılmalıdır.

Şəxsiyyətin müstəqilliyi, vəziyyətdən asılı olaraq, müxtəlif növlərdə olur. Məktəblilərdən ötrü təlim müstəqilliyi lazımdır, məktəbdən kənarda, adətən "gündəlik" (adi) müstəqillik mövcud olur (meydana gəlir). Bu iki mövqe sız surətdə qarşılıqlı əlaqədədir.

Yeniyetmələrin müstəqilliyinin və yaradıcı fəallığının inkişafı fasiləsiz olaraq müstəqilliyin aşağı səviyyəsindən, yəni adi səviyyəli müstəqillikdən, yüksək səviyyəyə - yaradıcı müstəqilliyə qədəm qoyur. Yeniyetmənin müstəqilliyinin tərbiyə olunması və inkişaf etdirilməsi vəzifəsi adi müstəqilliyin yaradıcı müstəqilliyə keçməsi prosesinin idarə olunmasından ibarətdir.

Sinifdənxaric məşğələlərdə yeniyetmələrin təlim müstəqilliyinin xarakterinə əsasən müstəqilliyin dörd səviyyəsini müəyyənləşdirmək olar:

*Birinci səviyyə* - sadə (adi) müstəqillikdir. Bu səviyyə mövcud biliklərin sadə yada salınmasını tələb edən müvafiq tapşırıqların yerinə yetirilməsi zamanı təzahür edir. Müstəqilliyin birinci səviyyəsinə dayanan, lakin hələ onun ikinci səviyyəsinə adlamamış yeniyetmə üzərinə düşən vəzifələrin öhdəsindən gəlməyə çalışır ki, yoldaşlarından geridə qalmasın.

*Müstəqilliyin ikinci səviyyəsi* variativ müstəqillik adlandırıla bilər. Müstəqillik bu səviyyədə mövcud bir neçə qaydaya əsaslanan bacarıqda, təriflərdə (müəyyənləşdirmələrdə), mühakimə obrazlarında və s. üzə çıxır, onlardan birini götürərək, yeni tapşırığın müstəqil yerinə yetirilməsində ondan istifadə etmək lazımdır. Müstəqilliyin ikinci səviyyəsində müqayisə, tutuşdurma, təhlil, tərkib və s. bu kimi təfəkkür əməliyyatlarını yerinə yetirdiklərini göstərirlər. ona verilmiş tapşırığın, göstərişin şərtlərini təhlil süzgəcindən keçirən yeniyetmə sərəncamında olan vasitələrin köməyilə tapşırığın həlli vasitələrini müəyyənləşdirir, onların müqayisəsini aparır, ən səmərəlisini seçir.

*Müstəqilliyin üçüncü səviyyəsi* qismən-axtarıcılıq müstəqilliyidir. Bu səviyyədə yeniyetmənin müstəqilliyi bu və ya digər bir fənn üzrə dərsliyin (məsələn, bizim tədqiqatda Azərbaycan tarixi, ədəbiyyat və Həyat bilgisi dərsliklərinin) müvafiq bölməsi üzrə tapşırıqların həlli üçün müəyyən qayda və qanunlardan faydalanmaq bacarığını nümayiş etdirməklə meydana çıxır.

Qismən-axtarıcılıq müstəqilliyi səviyyəsi şəraitində yeniyetmədən daha çox əqli fəaliyyət priyomlarından istifadə etmək tələb olunur. O, müqayisə, tutuşdurma, təhlil, tərkib, qruplaşdırma, sistemləşdirmə, ümumiləşdirmə aparma, nəticəyəgəlmə kimi əməliyyatları bacarmalıdır. Yeniyetmənin fəaliyyətində nəticələrə nəzarət və özünənəzarət mühüm rola malik olmalı, o, özünün təlim fəaliyyətini müstəqil şəkildə planlaşdırmağı və təşkil etməyi bilməlidir.

Orta məktəb yaşlı şagirdlərin psixoloji xüsusiyyətləri, hər şeyi öyrənmək həvəsi, həssaslıq, yeni biliklərə yiyələnməyə meyillilik, müəllimin verdiyi bilik və məlumatların hamısını mənimsəmək və onlardan faydalanmaq arzusu idrak fəallığının inkişafından ötrü əlverişli şərait yaradır. Dərsdə şagirdlərin təlim müstəqilliyi aşağıdakı keyfiyyətləri özündə birləşdirməlidir: uzaqgörənlik, təşəbbüskarlıq, özünüqiymətləndirmə, özünənəzarət, təlimdə yaradıcılıq nümayiş etdirməyə hazır olmaq, fəallıq, şüurluluq.

Təcrübəli müəllimlər, o cümlədən Azərbaycan tarixi, ədəbiyyat və Həyat bilgisi fənlərini tədris edən müəllimlər yeniyetmələr müstəqillik, fəallıq, şüurluluq və təşəbbüskarlıq nümayiş etdirdikdə onların fəaliyyətini təqdir edirdilər. Bu, şagirdləri həvəsləndirir, onların müstəqilliyə ruhlandırır.

Yeniyetmələrin müstəqilliyinin inkişafı aşağıdakı pedaqoji şərtləri təmin edirdi:

1) müstəqil təlim əməyinə hər bir şagirdin (iştirakçıların qarşılıqlı fəaliyyətinin lider və demokratik tipi ilə qrup işi) bilavasitə cəlb olunması məqsədi ilə onların qrup birliklərinin müxtəlif növlərindən istifadə;

2) tələbetmə ideyasını və şagirdin müstəqil fəaliyyətindən istifadəni həyata keçirən xüsusi tapşırıqlar sistemi.

Şagirdlərin müstəqilliyi - ümumtəhsil məktəblərində uğurlu təlimin rəhnidir. Odur ki, vaxtında şagirdlərin müstəqilliyi üzrə sistemli, məqsədyönlü və fasiləsiz iş aparıldıqda, onlarda idrak müstəqilliyi, təlim müstəqilliyi və intellektual müstəqillik formalaşdırıldıqda, sonrakı illərdə bu keyfiyyət daha da inkişaf edərək təkmilləşir. Yeniyetmənin təlim müstəqilliyi onun bir şəxsiyyət kimi inkişafının, özünün təşəbbüsünə və istəyinə əsasən biliklərini genişləndirməyinin, təcrübəsini, həyati bacarıq və vərdişlərini zənginləşdirməyinin tərəflərindən biridir.

Yeniyetmənin müstəqilliyə tələbatı onun idrak fəallığı, marağı, yaradıcı istiqaməti, təşəbbüskarlığı, qarşısına məqsəd qoymağı və öz işini planlaşdırmağı vasitəsilə həyata keçirilir.

Mövcud ədəbiyyatla tanışlıqdan bu qənaətə gəlmək mümkündür ki, təlim müstəqilliyinin fenomeni xarici və daxili əlamətlərə malikdir. Xarici əlamətlərə aiddir: şagirdlərin öz fəaliyyətlərini planlaşdırması; müəllimin köməyi olmadan tapşırıqları yerinə yetirə bilmələri; yerinə yetirilən işin gedişinə və nəticələrinə nəzarət, onun təshihi və təkmilləşdirilməsi.

Müstəqilliyin daxili tərəfini, hər şeydən əvvəl tələbatyönlü-motivasiyayönlü sahə, həmçinin başqasının köməyi olmadan yeniyetmələrin məqsədə çatmağa istiqamətlənmiş səyləri təşkil edir.

**İntellektual müstəqillik.** Müvafiq intellektual (əqli) bacarıqların mövcudluğu yeniyetməyə öz biliklərini müstəqil şəkildə genişləndirməyə və ümumelmi və xüsusi məlumatlara uğurla yönəlməyə imkan verir.

İntellektual bacarıqlar dedikdə, şəxsiyyətin biliklərə, təsəvvürlərə və vərdişlərə əsaslanan, yeni situasiyalarda tədris işini məhsuldar şəkildə, keyfiyyətlə və vaxtlı-vaxtında yerinə yetirən fərdi və xüsusi hazırlanmış qabiliyyəti nəzərdə tutulur. İntellektual bacarıqlar yeniyetmələrin intellektual müstəqilliyinin və bu və ya digər fənn (məsələn, Azərbaycan tarixinin, ədəbiyyatın, Həyat bilgisinin) üzrə təlim prosesinin ümumi fəallaşdırılmasına imkan verir.

Ədəbiyyat, Azərbaycan tarixi və Həyat bilgisi fənlərinin təlimi təcrübəsində yeniyetmələrin intellektual qabiliyyətlərinin inkişafı, onların yaradıcı fəallığı təlimin interaktiv metodlarının həm sinifdə, həm də sinifdənxaric məşğələlərdə tətbiqinə imkan verir. Onlar innovasiya, təsviri və istehlakçı fəaliyyətinin sistemli və qarşılıqlı əlaqədə öyrənilməsinə istiqamətlənir. Bu tədbirlər yeniyetmələrin intellektual və yaradıcı imkanlarını, analitik qabiliyyətlərinin inkişafını, təlimə motivasiyanın yüksəldilməsini təmin edir

"Müstəqillik" anlayışına münasibətdə daha məhdud bir anlayış rolunda müstəqil intellektual fəaliyyəti əks etdirən və proqnozlaşdıran qabiliyyət kimi nəzərdən keçirilən "intellektual müstəqillik" çıxış edir.

Yuxarıda deyilənləri ümumiləşdirməli olsaq deyə bilərik ki, müstəqilliyin növlərinə (idrak müstəqilliyi, təlim müstəqilliyi, intellektual müstəqillik), onların hər birinin mahiyyətinə, məzmununa, məqsəd və vəzifələrinə bələd olan müəllimlər öz fəaliyyətlərində uğurlar qazanırlar.

**Problemin aktuallığı.** Müstəqilliyin növlərinin (idrak müstəqilliyi, təlim müstəqilliyi, intellektual müstəqillik) müəyyənləşdirilməsi və onlardan yeniyetmələrin müstəqilliyinin inkişaf etdirilməsi baxımından faydalanmaq özünün aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Müstəqilliyin idrak müstəqilliyi, təlim müstəqilliyi, əqli müstəqillik kimi növləri diqqət mərkəzində dayanır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlarda maraq doğuracaqdır.

**Ədəbiyyat:**

1. Данилов М.А. Воспитание у школьников самостоятельности и творческой активности в процессе обучения // Советская педагогика, 1962, № 8

2. Архипов В.И. Развитие познавательной самостоятельности студентов в процессе усвоения учебных грамматических понятий: Автореф. дис. …пед.канд.наук. Казань, 2007.

**E-mail:** emilya-hesenova@bk.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

**Redaksiyaya daxil olub:** 09.10.2018

## *TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ, QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

*UOT 37.*

**_Qurban Hidayət oğlu Həsənov_**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun baş mütəxəssisi, Əməkdar müəllim*

# TƏHSİLİN KEYFİYYƏTİ GÜNÜN TƏLƏBİ KİMİ

**_Гурбан Хидаят оглы Гасанов_**
*Ведущий сотрудник Института Образования Азербайджанской Республики, Заслуженный учитель*

# КАЧЕСТВО ОБРАЗОВАНИЯ КАК ТРЕБОВАНИЕ ДНЯ

**_Gurban Hidayat oglu Hasanov_**
*Leading employee of the Institute of Education of the Republic of Azerbaijan, Honored teacher*

# QUALITY EDUCATION AS A DEMAND OF THE DAY

**Xülasə:** Azərbaycan təhsilində son illərdə təhsilin keyfiyyətini daha da artırmaq məqsədilə qəbul edilmiş sənədlərin məktəb rəhbərləri tərəfindən həyata keçirilməsinin yolları, xüsusilə gənc məktəb rəhbərlərinə köməklik göstərmək, məktəbdə keçirilmiş monitorinqlərin pedaqoji şuralarda müzakirəsinin səmərəsini artırmaq, təlimin I pilləsini diqqətdə saxlamaq idarəetmə sahəsində əsas vəzifələrdən birinə çevrilir.
***Açar sözlər:*** *pedaqoji prosesin idarə edilməsi, yeniləşmə, innovasiya*

**Резюме:** В последние годы в сфере образования Азербайджана одной из ключевых задач в области управления является оказание помощи руководителям школ, в частности, молодым школьным руководителям с целью дальнейшего повышения качества, а также повышение эффективности дискуссий на школьных советах на первом этапе обучения.
***Ключевые слова:*** *управление педагогическим процессом, обновления, инновация*

**Summary:** In recent years, in the field of education in Azerbaijan, one of the key tasks in the field of management is to assist school leaders, in particular, young school leaders, to further improve the quality, as well as to increase the effectiveness of discussions on school boards during the first stage of education.
***Keywords:*** *pedagogical process management, updates, innovation*

Son illər Respublikamızda aparılan sosial-iqtisadi siyasət nəticəsində müasirləşmə, ilk növbədə, qabaqcıl texnologiyalar və idarəetmə sahəsində innovasiyalarla daha keyfiyyətli təhsil verilməsi zərurətini yaratmışdır. Məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” sənədində (1) təhsilin keyfiyyəti başlıca şərt kimi qəbul edilmiş, xüsusilə ümumtəhsil məktəblərinin şagirdlərinin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələ kimi irəli sürülmüşdür. “Strategiya”da o da göstərilmişdir ki, təhsilin ümumi inkişafı insanlar tərəfindən yeni texnologiyaları çevik mənimsəmək, bütün zamanlarda təhsil prosesinə qoşulmaq ətraf mühitə münasibətdə düzgün mövqe tutmaq imkanları yaradır.

Son illərdə Təhsil Nazirliyi tərəfindən atılan mühüm addımlardan biri də məktəblərin IX və XI siniflərindəki nəticələrə əsasən məktəblərin reytinq cədvəllərinin hazırlanması, müəllimlərin diaqnostik qiymətləndirilməsinin həyata keçirilməsi, imtahan və müsabiqələrdən keçməklə pedaqoji kadrların işə qəbulu istər-istə-

məz təhsilin keyfiyyətinə təsir edən mühüm amillərdəndir.

İkincisi, dayanmadan təhsilverənlərin peşəkarlıq səviyyələrinin artırılması, təhsilalanların nailiyyətlərinin yeni meyarlar əsasında qiymətləndirilməsi, onların istedadlarının aşkar edilməsi, həm də tədrisdə yeni təlim texnologiyalarının, xüsusilə də interaktiv təlimin geniş tətbiqi başlıca şərtlərdəndir. Bütün bunlarla yanaşı təhsilalanların bir şəxsiyyət kimi formalaşdırılması diqqət mərkəzində saxlanılmalıdır.

Uzun illər təhsildə əldə etdiyim təcrübənin nəticəsi kimi bu gün təhsilimizi həndəsi fiqur olan dairəyə bənzədirəm. Belə ki, həmin dairənin mərkəzində hər bir fənn üzrə 45 dəqiqəlik dərs, müəllimi dairənin müstəvisi, çevrəsinin üzərində isə təlim-tərbiyənin bu və ya digər sahəsində həyata keçirilən tədbirlər, layihələr, müsabiqələr, olimpiadalar, konfranslar, müxtəlif xarakterli iclaslar, müşavirələr, dərsdənkənar məşğələlər və s. məsələləri təsəvvür edirəm.

Bu müqayisəni etməkdə məqsədim ondan ibarətdir ki, bu gün biz təhsilin keyfiyyətinə nail olmaq üçün bütün digər tədbirlərlə yanaşı müəllimin daha səmərəli işləməsi üçün keçilən hər bir dərsə keyfiyyət baxımından yanaşmalıyıq.

Təcrübə göstərir ki, təhsilin bütün strukturlarında daha çox müxtəlif tədbirlərin keçirilməsinə önəm verilir. Müəllim tərəfindən aparılan dərs çox zaman diqqətdən kənarda qalır. Məktəbə təhsilin yuxarı orqanlarından gələn şəxslər burada bu və ya digər sahənin monitorinqinə əhəmiyyətli yanaşır, daha çox iş planları, məktəb sənədləri ilə tanış olur, əksər hallarda dərslərin monitorinqi qismən kənarda qalır.

2017-2018-ci tədris ilinin "Ümumi təhsildə keyfiyyət ili" elan edilməsi barədə Təhsil Nazirinin əmrində qeyd edilir ki, "Ölkəmiz üçün müasir düşüncəli və rəqabət qabiliyyətli insan kapitalının formalaşmasında ən kütləvi təhsil olan ümumtəhsil xüsusi əhəmiyyətə malikdir". Bunun həyata keçirilməsinin əsas mənbəyi ümumtəhsil məktəbləridir. Bu gün məktəblərimizdə ibtidai təlimin yüksək səviyyədə həyata keçirilməsi gələcək üçün möhkəm təməl deməkdir. Lakin bu sahədə olan bəzi problemlər hələlik tamamilə aradan qaldırılmamışdır. Vaxtilə kadr çatışmazlığı olduğundan müxtəlif pedaqoji ixtisaslı, hətta texniki orta və ali təhsilli, kitabxanaşünaslıq, rəssamlıq və musiqiyönlü texnikumları belə bitirənlər 6-7 ay ərzində ibtidai sinif müəllimi hazırlanmışdır. Son 4-5 ildə bunun qarşısı alınsa da, onlar artıq məktəblərdə sinif müəllimi kimi çalışırlar. Təcrübə göstərir ki, belə kadrların çoxu 10 ildən yuxarı işləmələrinə baxmayaraq, uşaqların yaş psixologiyasını lazımınca bilmir, ibtidai təlim üçün pedaqoji ustalıqları çatışmır. Əksər hallarda ibtidai siniflərdə fiziki tərbiyə dərslərinin əvəzində ana dili və ya riyaziyyat fənnini "öyrədir"lər və nəticə etibarilə uşaqlarda təlimə maraq azalır. Bu dərslərin yalnız ixtisaslı fiziki tərbiyə müəllimləri tərəfindən aparılması daha məqsədyönlü olardı.

Gələcəkdə biz bu siniflərdə daha yüksək nəticələrə çatmaq istəyiriksə, ibtidai sinif müəllimləri hazırlayan ayrıca bir universitetin fəaliyyətinə yol verməliyik.

Hazırda bir sıra ümumtəhsil məktəblərində 30-50 ibtidai sinif vardır, hətta ayrıca korpusları da vardır. Bunların bazası əsasında ibtidai məktəblər yaradıla bilər. Nəhayət, eyni bir müəllimin dörd tədris ili ərzində bir sinifdə işləməsinə yol verməməklə, hər bir sinifdə (I, II, III, IV) müəllimin.... ixtisaslaşması olduqca böyük səmərə verər, ən sonda isə təlimin keyfiyyəti yüksələr.

Son olaraq ibtidai siniflərdə alternativ dərslik, proqram və tədris planlarının da yenidən nəzərdən keçirilməsi effektli olardı.

Təhsil Nazirliyi və onun tabeliyində olan qurumlarda ibtidai təlim üzrə şöbə, sektor, qrup və s. yaradılması bu sahədə monitorinqlərin aparılması, təhsil proqramlarının hazırlanması işinin səmərəliliyini artırmış olardı. Son tədris illərində təlim keyfiyyətinin artırılması sahəsində ümumi və tam orta təhsil verən məktəblərimizdə xeyli işlər görülmüşdür. Son üç tədris ilində məktəblərdə təmayüllü X-XI siniflərin təşkili olduqca müsbət haldır. Bu həm təlimin keyfiyyətinə öz müsbət təsirini göstərəcək, həm də repetitorluğun müəyyən mənada qarşısını alacaqdır.

Təhsilin keyfiyyətində bir mühüm amil də, "Strategiya"da göstərildiyi kimi, idarəetmədən düzgün istiqamətin götürülməsi başlıca şərt olaraq qalmaqdadır. Sənədə idarəetmənin mexanizmlərinin, o cümlədən qabaqcıl beynəlxalq təcrübəyə əsaslanma nəticəyönlü idarə modelini təhsilin keyfiyyətinin yüksəldilməsi öz əksini tapmışdır. Məktəblərimizdə müasir tələbə cavab verən fənn kabinetləri, laboratoriyaların, tam

təchiz edilmiş idman və akt zallarının, hərbi kabinetlərin, həmçinin ibtidai sinif otaqlarının da yeni texnologiyalarla təmin olunması və müəllimlərimizin bu işi mənimsəmələri idarəetmənin elmiliyini və müasirliyini təmin edir, məktəbdə yenilikçi mühiti yaradır.

İdarəetmədə keyfiyyətə nail olmağın biri məktəbdə metodiki işlərin səviyyəsini yüksəltmək, müəllimlərin bu sahəyə yaradıcı yanaşmaları üçün mühit yaratmaq, pedaqoji şura iclaslarının formal keçirilməsinin qarşısını almaq, bu sıralarda yeni proqramların, dərs vəsaitlərinin öyrənilməsi, qabaqcıl təcrübənin tətbiqi ilə bağlı əldə edilmiş nəticələr, müəllimlər arasında ayrı-ayrı fənlər üzrə pedaqoji müzakirələrin və ümumi pedaqoji problemlərə dair seminarların təşkilinə dair nəticələrin təhlili aparılmalıdır.

Məktəbdə keyfiyyətin başlıca amillərindən biri də məhz məktəb rəhbərləri tərəfindən digər yardımçı işçilərin vəzifə funksiyalarının düzgün müəyyənləşdirilməsidir. Bir sıra hallarda vəzifə bölgüsünün düzgün aparılmaması nəticəsində məktəb rəhbərlərinin üzərinə daha çox funksiyalar düşür ki, bu da nəzərdə tutulan məsələlərin vaxtında icra edilməsini çətinləşdirir. Məhz görüləcək işlərin düzgün və razılaşdırılmış koordinasiyası keyfiyyət üçün zəmin yaradır. Məktəb rəhbərlərinin çoxüzlü və hərtərəfli fəaliyyəti, belə ki, ayrı-ayrı fənlər üzrə metodbirləşmələrin, dərnəklərin, digər dərsdənkənar məşğələlərin, sinif rəhbərlərinin, pedaqoji kollektivdə psixoloji iqlimin, müəllimlərin müasir təlim texnologiyaları əsasında işlərinin qurulmasının şagirdlərin milli ruhda tərbiyəsinin, məktəbdaxili icra və əmək intizamının yüksəlməsinə səbəb olur. Rəhbərlikdə keyfiyyətə nail olmağın əsas meyarlarından biri də iş vaxtının səmərəli bölgüsü ilə bağlıdır. Xüsusilə yeni təyin edilmiş gənc məktəb direktorları üçün bir iş gününü təxminən aşağıdakı kimi həyata keçirmək məsləhət bilinir:

1. Yuxarı təhsil orqanları tərəfindən göndərilmiş sərəncam, əmr, qərarlara aid sənədləri öyrənmək - 0,5 saata qədər;

2. Dərslərin monitorinqi, müəllimlərin təlim-tərbiyənin keyfiyyəti işini öyrənmək - 2,5-3 saat;

3. Müəllimlər, sinif rəhbərləri, metodbirləşmə sədrlərinin metodiki işini öyrənmək, əldə olunan nəticələrə dair müşavirə keçirmək - 1-1,5 saat;

4. Valideynləri, şagirdləri, müəllimləri və s. qəbul etmək - 0,5 saat;

5. Məktəb sənədlərinin monitorinqini aparmaq (sinif jurnalları, məktəbli kitabçaları, əmr kitabı və s.) - 1-1,5 saat;

6. Siniflərdə olmaq, şagirdlərin dərsə davamiyyətinə baxmaq, onlara məsləhət vermək, sanitar-gigiyena normalarını öyrənmək, tənəffüs zamanı növbətçiliyin təşkilinə diqqət yetirmək - 1,5-2 saat;

7. Əvvəlcədən nəzərdə tutulmayan tədbirlər - 0,5-1 saat;

8. Görülmüş işlərin qısa hesabatını hazırlamaq, növbəti gün üçün işin planlaşdırılması - 0,5 saat.

Əlbəttə, təbii haldır ki, bir gün heç vaxt digər günlə eyniləşə bilməz, yaxud bu və ya digər məsələyə ayrılan vaxt da eyniyyət təşkil edə bilməz. Lakin gənc məktəb rəhbəri unutmamalıdır ki, hər gün üçün tərtib edilən fəaliyyət planı reallıqdan irəli gəlməklə həftəlik, aylıq və yarımillik fəaliyyətin tərkib hissəsi olmalıdır. Bəzən isə əgər məktəbdə ayrı-ayrı fənlər üzrə aylıqların yekunu, yaxud idmanla bağlı tədbirlər keçirilərsə, iş vaxtının daha çox hissəsi məhz bu məsələlərə həsr edilir. Kiçik sayılan hər hansı bir işin operativ həlli olmursa, həftə ərzində yığılıb qalırsa, nəzərdə tutulan başqa məsələlərin məqsədyönlü həyata keçirilməsinə maneçilik törədir, bu isə idarəetmədə öz mənfi təsirini göstərir.

İdarəetmədə vacib məsələlərdən biri də keçirilən müşavirə və iclasların iki növbəli məktəblərdə belə birinci növbənin sonuna nəzərdə tutulması daha önəmlidir. Çünki pedaqoji işçilərin əksəriyyəti birinci növbədə çalışır. Bir sıra hallarda gənc direktorlar elə də əhəmiyyəti olmayan məsələlərlə bağlı müşavirələr keçirir ki, bu da vaxtın səmərəsiz keçməsinə gətirib çıxarır. Məktəbin idarə olunmasında məktəb pedaqoji şurasının səmərəli fəaliyyətində keyfiyyət göstəricilərinin müzakirəsi mühüm əhəmiyyətə malikdir. Pedaqoji şurada təkcə siniflər üzrə deyil, hətta ayrı-ayrı müəllimlərin əldə etdiyi keyfiyyətə dair nəticələrə baxılması müvafiq qərarların qəbul edilməsi nöqteyi-nəzərindən daha əlverişlidir.

Əlbəttə, bir məqalədə təlimin keyfiyyətinin hərtərəfli göstərilməsi tam öz əksini tapa bil-

məz. Keyfiyyətin məktəbdaxili monitorinqi ilə yanaşı təhsilin yuxarı orqanları tərəfindən vaxt-aşırı olaraq yekun attestasiyalarının keçirilməsi məktəblərdə bu sahədə olan qüsurların aradan qaldırılmasında mühüm şərtlərdən biridir.

**Problemin aktuallığı:** Məktəb rəhbərlərinə köməklik göstərmək, təlimin keyfiyyətini daimi diqqət mərkəzində saxlamaq başlıca şərt kimi götürülür.

**Problemin praktik əhəmiyyəti:** Məqalə müəllimlər, məktəb rəhbərləri, doktorant və dissertantlar üçün əhəmiyyət kəsb edəcəkdir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası // Kurikulum, 2013, №4
2. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2018, № 6
3. Г.И. Горская. Организация учебно-воспитательного процесса в школе. М., 1977.

**E-mail:** gulizade.gunel@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.*T.S. Paşayev
*ped.ü.fəls.dok.*İ.B. Əmirəliyeva
**Redaksiyaya daxil olub:** 13.12.2018

*UOT* 37.

***Firuzə Nüsrəddin qızı Abdullayeva***
*Bakı şəhəri Nəsimi rayonu, Tahir Həsənov adına 23 nömrəli məktəbin*
*Azərbaycan dili və ədəbiyyatı müəllimi*

# TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ VACİB ELEMENT KİMİ

***Фируза Нусреддин гызы Абдуллаева***
*учитель азербайджанского языка и литературы школы №23 имени Тахира Гасанова*
*Насиминского района гор. Баку*

# ОЦЕНИВАНИЕ В ОБРАЗОВАНИИ КАК ВАЖНЫЙ ЭЛЕМЕНТ

***Firuza Nusreddin Abdullayeva***
*teacher of the school number 23 named after Tahir Hasanov of the Nasimi district of Baku city*

# ASSESSMENT IN EDUCATION AS AN IMPORTANT ELEMENT

**Xülasə:** Bütün dünyada təhsil inkişaf etdikcə şagird nailiyyətlərini qiymətləndirmək üçün müxtəlif üsullar, vasitələr, formalar müəyyənləşdirilir. Təhsildə qiymətləndirmə müəllimə illik və gündəlik planlaşdırmaların hazırlanmasında da istiqamətverici rol oynayır. Müəllim bu zaman şagirdin güclü və zəif istiqamətlərini nəzərə alır. Şagirdin hafizəyönlü bilikləri deyil, onun təfəkkürü qiymətləndirilir.

***Açar sözlər:*** *ölçmə, qiymətləndirmə, keyfiyyət, kəmiyyət, bacarıq, vərdiş, qabiliyyət, proses, məqsəd, funksiya, növ, xüsusiyyət, meyar, nəticə, metod, vasitə*

**Резюме:** По мере развития образования во всем мире для оценивания достижений учащихся использовались различные методы, средства и формы. Оценивание также играет руководящую роль в подготовке учителем ежедневного и годового планирования. Учитель каждый раз должен учитывать сильные и слабые стороны ученика. В данном процессе оценивается мышление ученика, а не его знания, основанные на памяти.

***Ключевые слова:*** *измерение, оценивание, качество, количество, умение, навыки, способности, процесс, цель, функции, тип, особенности, критерии, результаты, методы, средства*

**Summary:** As education developed throughout the world, various methods, means, and forms were used to evaluate student achievement. Assessment also plays a leading role in teacher preparation for daily and annual planning. The teacher must take into account the strengths and weaknesses of the student each time. In this process, the student's thinking is assessed, not his knowledge based on memory.

***Key words:*** *measurement, evaluation, quality, quantity, skills, habits, talent, process, evaluation, quality, quantity, skills, habits, talent, process*

Qiymətləndirmə təhsil prosesinin tərkib hissəsidir. Təhsil yarandığı gündən şagirdin biliklər qiymətləndirildiyindən, onun yaranma tarixi də eyni qədimliyə gedib çıxır. Tədqiqatlar göstərir ki, ilk qiymətləndirmə Çində tətbiq olunmuşdur. 587 - ci ildən bu ölkədə keçirilməyə başlanmış qiymətləndirmə "çin imperiya imtahanları" adı ilə tanınırdı.

Bütün dünyada təhsil inkişaf etdikcə şagird nailiyyətlərini qiymətləndirmək üçün müxtəlif üsullar, vasitələr, formalar müəyyənləşdirilirdi. Əksər Avropa ölkələrində ilk vaxtlar imtahanlar şifahi götürülürdü. Şagirdlər qoyulan suallara latın dilində cavab verirdilər və müəllim bu cavabları qiymətləndirirdi. İlk yazılı imtahanların tarixi isə 1792-ci ildə Kembric Universitetindən başlanır.

XX əsrin əvvəllərindən başlayaraq təhsil sahəsində inkişaf meyilləri gücləndi. Buna görə də şagird nailiyyətlərinin qiymətləndirilməsi ilə

bağlı yeni ideyaların meydana çıxarması zərurəti yaranırdı. Həmin dövrdə ABŞ - da "mütərəqqi təhsil ideyası" yarandı və tədricən digər ölkələrə də yayıldı.

"Mütərəqqi təhsil ideyası"nın əsas mahiyyəti ondan ibarət idi ki, təhsil elmi biliklərin yox, sənaye və texnologiyanın inkişaf istiqamətlərinə uyğun gələn həyati bacarıqların formalaşmasına yönəldilirdi. Təhsilin məzmununa bu cür yeni baxışlar tədricən qiymətləndirməyə yanaşmanı da dəyişdi. Artıq qiymətləndirmə daha çox biliklərin tətbiqinə və həyatla əlaqələndirilməsinə əsaslanırdı.

Rusiyanın təhsil tarixində, XVIII əsrin əvvəllərindən etibarən digər Avropa ölkələrində olduğu kimi, 3 səviyyəli qiymətləndirmə sistemi mövcud olmuşdur. Bu sistemə görə şagirdlərin nailiyyətləri yüksək, orta və aşağı səviyyələr olmaqla müəyyən edilmişdi. Sonralar sözlə ifadə olunan qiymətləndirmə nəticələri qısa olaraq rəqəmlə ifadə olunmağa başlandı. Müxtəlif vaxtlarda Rusiyada 3, 5, 8, 10, 12 ballıq qiymətləndirmə şkalası tətbiq edilmişdir. Maraqlıdır ki, 5 ballıq sistemdə Rusiyada "5" ən yüksək qiymət idisə, Almaniyada ən yüksək qiymət "1" sayılır.

Tarixə nəzər salsaq, Azərbaycan Respublikası Sovet İttifaqının tərkibində olduğundan öz təhsil sistemindəki dəyişiklikləri Rusiyada gedən proseslərə uyğunlaşdırmalı idi.

Artıq 11-ci ildir ki, Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində yeni fənn proqramları (kurikulumları) tətbiq olunur. Yeni proqramın təhsil ideyası şagirdlərə bilikdən çox, onlara həyatda lazım olacaq, istifadə edə biləcəkləri bacarıq, vərdiş və dəyərlər qazandırmaqdır. Məktəbdaxili qiymətləndirmənin diaqnostik və formativ növlərində şagirdlərə qiymətlər sözlərlə, meyarlarla, summativ qiymətləndirmədə isə 5 ballıq şkalaya uyğun rəqəmlərlə yazılır.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi təlim prosesində əks əlaqəni təmin etmək, onun inkişafını və keyfiyyətini izləmək, nailiyyətlərini vurğulamaq üçün vacib məsələlərdən biridir. Qiymətləndirmə şagirdin mövcud biliklərini təyin etmək, inkişafını izləmək, çətinliklərini öyrənməklə bərabər, həmçinin təhsilin və təhsil materiallarının da keyfiyyətini təyin etmək üçün bir prosesdir.

Təhsildə qiymətləndirmə müəllimə illik və gündəlik planlanlaşdırmaların hazırlanmasında da istiqamətverici rol oynayır. Müəllim bu zaman şagirdin güclü və zəif istiqamətlərini nəzərə alır. Şagirdin hafizəyönlü bilikləri deyil, onun təfəkkürü qiymətləndirilir.

Qiymətləndirmə öyrənmənin ayrılmaz bir parçasıdır. Qiymətləndirmə şagirdin nəyi bilmədiyini deyil, nəyi, nə qədər bildiklərini görməyi aşkar edən bir vasitədir.

Müasir təhsildə qiymətləndirmə yanaşması dəyişmişdir. Ənənəvi və müasir qiymətləndirmələrin hər ikisində metodlar, vəzifələr, xüsusiyyətlər, keyfiyyət və kəmiyyət göstəriciləri, nailiyyət səviyyələri, növləri, obyekti, meyar və normativləri, rolu və vəzifələri vardır. Ənənəvi və müasir qiymətləndirmənin bir çox oxşarlığı olduğu kimi, fərqlilikləri də vardır.

| **Anlayışlar** | **Ənənəvi yanaşma** | **Müasir yanaşma** |
|---|---|---|
| Məqsədlər | Müəyyən mərhələlərdə şagirdlərin bilik-bacarıq- vərdişlərinin səviyyəsini qeydə almaq və nailiyyətləri müqayisə etmək. | Təlim prosesinin səmərəliliyini və keyfiyyətini yüksəltmək, şagird və müəllimin gələcək fəaliyyətini cari vəziyyətlə əlaqələndirmək. |
| Funksiyalar | Tədris prosesinin sonunda tətbiq edilir, şagird həmin fəndən aldığı qiymətlə kifayətlənərək, bir müddət o fənni oxumur. Qiymətləndirmə kəmiyyətə əsaslanır. | Tədris prosesinin bütün mərhələlərində tətbiq edilir. Gündəlik kəmiyyət qiymətləndirilməsi yoxdur. Qiymətləndirmə keyfiyyətə əsaslanır. |
| Növlər | Gündəlik, rüblük, illik qiymətləndirmə. | Diaqnostik, formativ, summativ qiymətləndirmə |
| Xüsusiyyətlər | Formal, qeyri-dəqiq, sistemsiz müəllimin subyektiv rəyinə əsaslanır. | Standart əsasında qurulur. Daha obyektiv, dəqiq, adekvat, sistemlidir. |

| Meyarlar | Mövzulara əsaslanır. | Qiymətləndirmə standartlarına əsaslanır. |
|---|---|---|
| Metodlar, vasitələr | Şifahi cavab, yoxlama işləri, testlər, imla, ifadə, tapşırıq. | Müsahibə, söhbət, müşahidə, rubriklər, tapşırıqlar, valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq, şagirdlərin şifahi cavabları, şagirdlərin yazı işlərinin təhlili, test tapşırıqlarının nəticələri. |
| Nəticə | Jurnalda rəqəmlə əks etdirilən çoxsaylı qiymətlər. | Potensial və təlim imkanlarına uyğun şagird nailiyyətləri. |

İstər ənənəvi, istərsə də müasir təhsildə şagirdlərin bilik və bacarıqlarını qiymətləndirmək üçün müxtəlif üsullar və vasitələr mövcud olmuşdur. İllər keçdikcə qiymətləndirmənin obyekti, məqsədi, xüsusiyyətləri, göstəriciləri, rolu, vəzifəsi, forması, üsulları, vasitələri, nailiyyət səviyyələri, keyfiyyət və kəmiyyət göstəriciləri dəyişilmişdir.

Təhsildə ölçmə və qiymətləndirmə çox mühüm bir prosesdir. Ölçmə şagirdin hər hansı bir xüsusiyyətinin müəyyən vaxt ərzində müşahidə nəticələrinin sayı və ya simvollarla ifadə edilməsidir. Qiymətləndirmə isə müşahidə nəticələrinin hər hansı meyarlara söykənib bir qərara gəlməkdir.

Təhsildə ölçmə və qiymətləndirmə nəyə lazımdır, və ya nəyə xidmət edir:

- Şagirdin öyrənmə səviyyələrini müəyyən edir;
- Şagirdin inkişafını izləməyə imkan yaradır;
- Şagirdin inkişafında irəliləmə və geriləmələri müəyyən etməyə imkan yaradır;
- Şagirdin öyrənmə çətinliklərini müəyyən edir;
- Qiymətləndirmə vasitələrinin səviyyəsini müəyyən edir;
- Gələcək öyrənmə müddətlərini planlaşdırmağa imkan yaradır;
- Şagird qabiliyyətlərinin həm özləri tərəfindən, həm də müəllimlər tərəfindən müəyyənləşdirməni təmin edir.

Son illərdəki elmi və texnoloji dəyişmə və inkişaflar, cəmiyyətin ayrı-ayrı şəxslərdən gözlədiyi xüsusiyyət, məlumat və bacarıqların müxtəlifliyinə səbəb olmuşdur. Bu fərqliləşmə təhsil proqramlarına da əks olunmuşdur. Proqramlardakı dəyişikliklər, cəmiyyətin ayrı-ayrı şəxslərdən gözlədiyi məlumat və bacarıqların qazanılıb - qazanılmadığını və nə nisbətdə qazanıldığının qiymətləndirilməsi də mühüm amildir.

Şagirdin sahib olduğu məlumat, bacarıq, qabiliyyət və vərdişlərin gerçək həyatda, ya da hər hansı bir mühitdə istifadə edilə biləcəyi müasir təhsilin ən ümdə amallarından biridir.

**Problemin aktuallığı.** Qiymətləndirmə öyrənmənin ayrılmaz bir parçasıdır. Şagird yaddaşa əsaslanan əzbər məlumatları deyil, bacarıq və vərdişlərə əsaslanan səviyyə bacarıqlarının qiymətləndirilməsi ilə hədəflənər. Yalnız öyrənmə məhsulu deyil, öyrənmək prosesləri də qiymətləndirilir.

**Problemin elmi yeniliyi.** Təhsildə qiymətləndirmə şagirdləri bir-birindən fərqləndirmək üçün deyil, onların mənimsəmə səviyyəsini, problemlərini üzə çıxarmaq üçün ölçü vasitəsidir. Yəni, şagirdin şəxsi keyfiyyətləri deyil, onun fəaliyyəti qiymətləndirilməlidir.

**Problemin praktik əhəmiyyəti.** Məktəbdaxili qiymətləndirmə məqsədyönümlü olmalıdır. Məqsədyönlü qiymətləndirmə prioritetləri müəyyən etməyə, qərarlar qəbul etməyə və onu reallaşdırmağa kömək edir. Məqsədlər nə qədər dəqiq müəyyən olunarsa, qiymətləndirmə bir o qədər dəqiq, keyfiyyətli və obyektiv olur.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009.
2. “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı: Qanun, 2009.
3. Шакиров Р. Х., Буркитова А. А., Дудкина О. И. Оценивание учебных достижений учащихся. Бишкек, 2012.
4. Бардин К.В. Как научить детей учиться. М., 1987.

**E-mail:** firuzə_23@mail.ru
**Rəyçilər:** *dos.* A. Bəkirova, d*os.* Ə. Gərayev
**Redaksiyaya daxil olub:** 10.12.2018.

*UOT* 37.

**Sevil Mirhəsən qızı İsayeva**
*Mingəçevir Dövlət Universitetinin müəllimi*

# TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏDİLMƏSİNDƏ YENİ PEDAQOJİ TƏFƏKKÜRÜN ROLU

**Севиль Миргасан гызы Исаева**
*преподаватель Мингечаурского Государственного Университета*

# РОЛЬ НОВОГО ПЕДАГОГИЧЕСКОГО МЫШЛЕНИЯ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

**Sevil Mirgasan Isayeva**
*lecturer at Mingechaur State University*

# THE ROLE OF NEW PEDAGOGICAL THINKING IN IMPROVING THE QUALITY OF EDUCATION

**Xülasə.** Azərbaycan özünün təhsil sistemini dünyanın ən mütərəqqi ölkələrinin təhsil prinsiplərindən istifadə etməklə davamlı inkişaf yolu ilə təkmilləşdirir, insanın həyati bacarıqlara malik bir şəxsiyyət kimi formalaşması istiqamətində səmərəli fəaliyyət göstərir. Məqalədə gənc nəslin və tələbələrin vətəndaş kimi yetişdirilməsində milli-mənəvi və ümumbəşəri dəyərlərdən istifadə edərək, təkamül, davamlı inkişaf yolu ilə təhsil müstəvisində həyata keçirdiyi islahatlardan bəhs olunub.

***Açar sözlər:*** *cəmiyyət, demokratiya, müasir şagirdlər, inteqrasiya, düzgün siyasət****,*** *təhsilin keyfiyyətinin artırılması, müəllim-şagird münasibətinin düzgün qurulması, şəxsiyyətyönümlü yanaşma*

**Резюме.** Азербайджан совершенствует систему образования путем использования принципов образования самых прогрессивных стран мира, а также действует в формировании человека как личности, обладающей необходимыми жизненными навыками. В статье повествуется о реформах, осуществляемых для воспитания подрастающего поколения с использованием национально-нравственных и общечеловеческих ценностей.

***Ключевые слова****: общество, демократия, современные ученики, интеграция, правильная политика, повышение качества образования, правильное построение отношения учителя и ученика, личностно-ориентированный подход*

**Summary:** Azerbaijan improves the education system by using the principles of education of the most progressive countries in the world, and also acts in shaping a person as a person with the necessary life skills. The article tells about the reforms carried out for the education of the younger generation with the use of national moral and human values.

***Key words:*** *society, democracy, modern students, integration, correct policy, improvement of the quality of education, correct construction of the teacher-student relationship, student-centered approach*

Bəşəriyyətin fəaliyyət sahələrindən biri də təhsil sahəsidir. Ulu öndər Heydər Əliyevin təbirincə desək, təhsil xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib sahədir. Yeni əsrimiz öz xüsusiyyətlərinə görə təhsil əsri kimi dəyərləndirilir. Müasir dövrdə inteqrasiya və qloballaşma kimi bəşəri dəyərlər qazanan proseslərin fəal iştirakçısı olmağın yeganə yolu elm və təhsildən keçir. Bütün qabaqcıl ölkələr öz milli inkişafının təminatını bilavasitə təhsillə bağlayırlar. Hansı ölkədə təhsilin keyfiyyəti yüksək olarsa, gələcək də onundur. Təhsil dövlət işi, ictimai əmtəə, hakimiyyətin yetişdirdiyi məhsul, dövlətin öz xalqına göstərdiyi xidmət hesab olunur.

Təcrübə və araşdırmalar göstərir ki, cəmiyyətin siyasi-iqtisadi inkişafında təhsilin böyük rolu vardır. Məhz təhsil vasitəsilə cəmiyyətin tələbatına uyğun müvafiq kadrlar hazırlanır və mövcud insan kapitalı inkişafın sürətlənməsinə, davamlı olmasına şərait yaradır. İnsan kapitalının, dərin biliyə, səriştəyə malik kadrların formalaşdırılması isə, ilk növbədə, təhsilin məzmunundan, nəyin necə öyrənilməsindən, öyrənən-öyrədən münasibətlərinin düzgün tənzimlənməsindən xeyli dərəcədə asılıdır. Ona görə də təhsillə bağlı ciddi elmi araşdırmaların aparılması nəzəri və praktik istiqamətlərdə problemlərin tədqiqi, müəllim-şagird münasibətlərinin düzgün qurulması, cəmiyyətin inkişafına xidmət edən təkliflərin həyata keçirilməsi vacib cəhətlərdən biridir. Qeyd etmək lazımdır ki, son illərdə respublikamızda bu istiqamətdə bir sıra dəyərli monoqrafik tədqiqat əsərləri nəşr olunmuş, oxucuların istifadəsinə verilmişdir.

XXI əsrin ikinci onilliyini başa vuran və dünyanın qlobal təhsil arenasında müxtəlif dəyişiklik və yeniləşmələrlə özünü göstərən Azərbaycan təhsilində yeni pedaqoji təfəkkürün formalaşması dərsin mahiyyət və məzmununda da dəyişikliklərin aparılmasını zəruri etmişdir.

Yeni dərs modellərinin tətbiqi zamanı əsas məqsədimiz elmin incəliklərini mənimsəməklə yanaşı, şagirdin şəxsiyyət kimi formalaşdırılması, təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsi, vətəninə, dilinə bağlı bir vətəndaş kimi yetişməsini təmin etməkdir. Bu məsələnin uğurlu həlli xüsusilə humanitar elm sahələri üçün əhəmiyyətlidir. Humanitar fənlərin inteqrasiyası, bəzən Azərbaycan dili, ədəbiyyat və tarix dərslərinin blok dərs şəklində keçirilməsi müvafiq mövzuların daha effektli mənimsənilməsi ilə nəticələnir.

Cəmiyyətin müasir inkişaf səviyyəsi məktəbdə təlim-tərbiyənin səviyyəsini daha da yüksəltməyi tələb edir.

Elmi-pedaqoji tədqiqatların nəticələri göstərir ki, müəllim-tələbə münasibətlərinin düzgün qurulması, şəxsiyyətyönlü yanaşma müasir dövrdə təhsilalanın inkişafını stimullaşdıran düzgün yanaşma kimi mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətyönlü yanaşma modelinə görə təhsilalanların emosional, sosial və idrak inkişafına eyni dərəcədə diqqət yetirilir. Bu yanaşma təhsilalanın təkcə dərs prosesində, təlim aldığı məqamlarda deyil, həm də gələcəkdə yaxşı nəticələr əldə olunmasına imkan yaradır. Məhz müəllim-şagird münasibətlərin obyektivliyi, şəxsiyyətyönlü yanaşma nəticəsində təhsilalanlar, ilk növbədə, təşəbbüskar olur, özünə inamlı, yaradıcı və müstəqil böyüyür, əsl şəxsiyyət kimi formalaşır və inkişaf edirlər. Ənənəvi təhsil sistemindən fərqli olaraq şəxsiyyətyönlü təhsil sistemində müəllim və tələbə - öyrədən və öyrənən münasibətləri subyekt-subyekt münasibətləri kimi formalaşır.

Müəllim-şagird münasibətlərinin düzgün qurulması, səriştəli yanaşma innovativ fəaliyyətin və əslində bütövlükdə təhsilin modernləşdirilməsinin əsas yollarından biridir. Bu, ilk növbədə, təhsilin bütün pillələri üzrə təlim və tərbiyə məsələlərinə yeni baxış deməkdir. Səriştəli yanaşma təhsilin məqsəd və nəticələrinə, məzmununa, təhsilverən və təhsilalanların fəaliyyətinə, təlim-tərbiyənin forma, metod və vasitələrinə, təhsil müəssisələrinin əlaqədə olduğu tərəflərlə münasibətlərinə müasir elmi düşüncə tələb edir.

Müəllim-şagird münasibətinin yeni pedaqoji təfəkkürə müvafiq qurulması üçün müəllim: şagirdlərin fərdi xüsusiyyətlərini öyrənməli; müsbət xüsusiyyətlərinə əsaslanmalı; onların xarakterində baş verən dəyişiklikləri duymalı; onlarda özünə möhkəm inam yaratmalı; şagird şəxsiyyətinə hörmət bəsləməlidir və s. Deməli, təlimin keyfiyyətinə, onun daha səmərəli və uğurlu qurulmasına müəllim-şagird münasibətlərinin təsiri böyükdür. Belə ki, öyrədən və öyrənən münasibətlərini demokratik əsaslarla qurulduqda, şagirdə təlim prosesinin subyekti kimi baxıldıqda onlarda təlimə maraq artır.

Şagirdləri öyrənməyə cəlb etmək üçün müəllim pedaqogika, psixologiya, metodologiyanın vacib olan əsaslarına yiyələnməlidir. Əgər müəllim dərs dediyi şagirdin tədris uğurları ilə bərabər böyüyə hörmət, ata-anaya, torpağa məhəbbət, ətraf aləmə sağlam münasibət bəsləməsinə nail ola bilirsə, deməli, gələcəyin əsl vətəndaşını hazırlayır.

Təhsil ocağında qazanılan nəzəri bilikləri tətbiq etməyi aşılamaq üçün müəllim-şagird münasibətinin düzgün qurulması tədrisin keyfiyyətini yüksəltmək yolunda ən ümdə problemlərdəndir. Müəllim-şagird münasibətləri qarşılıqlı hörmət, ehtiram, yardım, mərhəmət, səmimi

həmrəylik, məsuliyyət və sıx əməkdaşlıq üzərində qurulmalıdır. Gördüyümüz kimi, müasir dövrdə tədris prosesi sadəcə tədrisin komponentlərini əhatə etməklə kifayətlənmir, tədris prosesinə bilavasitə və dolayı yolla təsir edə biləcək bütün amilləri nəzərə alır.

Deməli, şəxsiyyətin təşəkkülündə təhsil özünəməxsus rol oynayır, təlimin nəticəsi kimi meydana gəlir. Məktəblərin fəaliyyətini şərtləndirən, bilavasitə, təhsilin keyfiyyətinə təsir edən müəllim əməyinin stimullaşdırılmasına, qabaqcıl təcrübənin geniş tətbiqinə imkan yaradılmalıdır. Şagirdyönlülük, şəxsiyyətyönlülük və nəticəyönlülük prinsipləri əsasında qurulan müasir dərslər öz keyfiyyəti ilə fərqlənməlidir. Təlim prosesi, öz növbəsində, təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici kimi mühüm funksiyaları yerinə yetirir.

**Problemin aktuallığı.** Müəllim-şagird münasibətinin düzgün qurulması, şagirdlərin mənəvi inkişafı məsələlərinin tədqiqata cəlb edilməsi yeni pedaqoji təfəkkür şəraitində öz aktuallığı ilə seçilir.

**Problemin elmi yeniliyi.** Bu tədqiqatda öyrədən və öyrənənlər münasibətlərinin düzgün qurulması məsələləri araşdırılmış və mövzunun əhəmiyyətliliyi əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Müəllim-şagird münasibəti yeni pedaqoji təfəkkür aspektində təhsilin keyfiyyətinin yüksəldilməsində istifadə olunacaqdır.

**Ədəbiyyat:**

1. Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: Mütərcim, 2007.
2. Əfəndizadə Ə. Azərbaycan dili təliminin məzmun problemləri // Azərbaycan dili və ədəbiyyat tədrisi, 1987, № 1
3. İsaxanlı H. Müasir dünyada ali təhsil sistemində nələr baş verir və 2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində dövlət proqramı necə olsa yaxşıdır. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2008.
4. Mehrabov A. Öyrədən və öyrənən münasibətlərinin tənzimlənməsində interaktiv təlim metodlarının (yanaşmaların) rolu. "Təhsil problemləri" qəz., 2008, 11-20 iyun
5. https://moluch.ru/archive/30/3462/
6. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər, psixopedaqoji araşdırmalar. Bakı: Adiloğlu, 2001.

**E-mai:** sevil Hesenova57@mail.ru
**Rəyçi:** *ped.ü. fəls.dok., dos.* Z.M. Əzizova
**Redaksiyaya daxil olub:** 12. 11. 2018.

*UOT* 378.

***Nəzakət İbrahim qızı Zamanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİ PEDAQOJİ PROBLEM KİMİ

***Назакат Ибрагим гызы Заманова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# УПРАВЛЕНИЕ ПЕДАГОГИЧЕСКИМИ ВЫСШИМИ УЧЕБНЫМИ ЗАВЕДЕНИЯМИ КАК ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА

***Nazakat İbrahim Zamanova***
*Teacher at Azerbaijan State Pedagogical University*

# THE MANAGEMENT OF PEDAGOGICAL HIGHER EDUCATION INSTITUTIONS AS A PEDAGOGICAL PROBLEM

**Xülasə.** Məqalədə dövlətin iqtisadi, siyasi, mədəni inkişafı ölkədəki təhsilin inkişafından asılı olduğu və təhsilin prioritetliyi vurğulanmış, təhsilin idarə edilməsindəki ümumi və pedaqoji çatışmazlıqdan bəhs edilmişdir. Təhsil ocaqlarının yenilənməsi və onlara muxtariyyətin tam verilməsi yolu ilə problemləri aşmağın mümkün olduğu söylənilmişdir. Rəqabətədavamlı təhsil müəssisələrinin yaradılması ilə məqsədə nail olacağı göstərilmişdir.
***Açar sözlər***: *təhsil, pedaqoji problemlər, qiymətləndirmə, rəqabət*

**Резюме.** В статье подчеркивается экономическое, политическое и культурное развитие государства, которое зависит от развития образования в стране и определения приоритетов образования. Упоминается общий и педагогический недостаток управления в образовании. Было сказано, что можно преодолеть проблемы путем обновления образовательных учреждений и полной автономии. Показано, что эта цель будет достигнута путем создания конкурентоспособных учебных заведений.
***Ключевые слова***: *образование, педагогические проблемы, оценка, конкурс*

**Summary.** The article emphasizes the economic, political and cultural development of the state, which depends on the development of education in the country and prioritizes the education. The general and pedagogical lack of management in education is mentioned. It has been said that it is possible to overcome problems through renewal of educational institutions and full autonomy. It has been shown that this goal will be achieved through creation of competitive training institutions.
***Key words***: *education, pedagogical problems, evaluation, competition*

III minilliyin insanı sürətli dəyişikliyə məruz qalır, texnoloji dövr adlandırılan XXI əsri təhsil əsri də adlandırırlar. Elmdə baş verən yeniliklər diqqəti təhsilin üzərinə çəkir. Dünyada vahid təhsil modeli yoxdur, amma təhsilin əsasən qloballaşan xüsusiyyətini nəzərə alsaq, görərik ki, dünyada təhsil bir yönə istiqamətlənir. Təhsilin keyfiyyətli, hamı üçün əlçatan və təhsilə çəkilən xərclərin dövlətdən asılılığının azaldılması, daimi maliyyə qaynaqlarının əldə edilməsi, demək olar ki, bir çox ölkələrin başlıca istəyidir. İnformasiya cəmiyyətində təhsil rəqabətə davam gətirmək məcburiyyətindədir. İlk növbədə yeni, müasir, innovativ təhsil, təlim, müasir müəllim modeli, dövrün tələbinə uyğun köklü dəyişikliklər tələb edir. Dünyanın qabaqcıl təhsil ocaqlarını inkişafa aparan istiqamətin, biliyin iqtisadi, kommersiyayönlü olduğunu görürük. Hər kəsə təhsil verən ali pedaqoji təhsil ocaqlarının idarə edilməsi xüsusi əhəmiyyət

kəsb edir. Qeyd etməliyik ki, təhsilin idarə edilməsi əsasən pedaqoji idarəetmədir. Müstəqilliyimizin ilk illərindən 1999-cu ildə qəbul edilmiş Təhsil haqqında Qanundan başlayaraq, 16 noyabr 2018- ci il Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli, 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramınadək qanun və islahat proqramlarında əsasən təhsilin inkişafı prioritet olaraq qoyulur. Həyatakeçirmə mərhələsində gözlənilən nəticə əldə edilməmişdir. 2019-2023-cü illər üçün Müasir dövrdə təhsilin iqtisadi həyatda artan rolu Azərbaycanda prioritet istiqamət kimi bilik iqtisadiyyatının formalaşdırılmasını və insan kapitalının inkişafına dövlət dəstəyinin davam etdirilməsini, ümumən ölkədə ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasını hədəfləyir. İlk növbədə istədiyimiz nəticəni ala bilməməyimizin təhsilin idarə edilməsindəki çatışmazlıqlara, inkişafa mane olan ümumi problemlərə baxaq:

- Ali məktəbin uğur və nöqsanlarını təhlil edərkən onun tipini, təbiətini düzgün anlamaq, məqsəd və vəzifəsini nəzərdən qaçırmamaq lazım gəlir. Ali məktəbin yönəldilməsini hər hansı çərçivəyə salmaq bizə yaxşı bir şey vəd etmir.
- Ali məktəblərin müstəqilliyinə yalnız onların məsuliyyəti və səviyyəsi ilə yanaşı hərəkətlərində şəffaflıqla birgə baxılmalıdır.
- Dövlət təhsil müəssisəsinin, onun layiq olduğu müstəqilliyində bələdçi rolunu yetərincə ifadə edə bilmir.
- Keyfiyyətin ölçülməsində və mükafatlandırılmasında isə dövlət təhsil ocağında, tənzimləyici orqanların, akkreditasiya agentlikləri və elmi-tədqiqat fondlarının iştirakını aktiv təşkil edə bilmir.
- Dövlətin ali məktəblərə ümumi qərarlar tətbiq etməsi, zəif - güclü məktəblərə fərq qoymaması inkişafa aparan yolun qarşısını kəsir.
- Muxtariyyatın tam sərbəst verilməməsi, dünyadakı müsbət dəyişən meyilləri izləmək, tətbiq etmək, özündən yeniliklər etmək, yaradıcı gücdən tam istifadə etmək, beynəlxalq əməkdaşlıq vasitəsilə yeni məzmun, forma və keyfiyyətə nail olmaq imkanı bütün ali təhsil ocaqlarına verilmir.
- Sərt inzibati idarəetmənin tətbiqi, keyfiyyətin artması üzərində ciddi çalışan təhsil ocağının inkişafına mane olur.

Təhsil və mədəniyyət üzrə Avropa komissarı Jan Figel 2006-cı ildə Oxford Universitetində dediyi kimi: nazirlər öz vaxtlarını nəzarəti gücləndirməyə sərf etməklə hansı sahədə nə iş görməyi elm adamlarından daha düzgün tapmağa çalışarlarsa, mən universitetlərimizin çox yaxşı işlər görəcəyinə heç ümid bəsləmirəm.

- Rektor tək hakimdir, kooperativ idarə etmək yox dərəcəsindədir, digər tərəfdən isə rektorların təyin olunması, azad edilməsi bir anın içində baş verir. Amerika və digər inkişaf etmiş ölkələrdə ali məktəbə rektor axtarışı bir il çəkə bilər.
- Ali təhsil müəssisələrində strateji inkişaf planı, yaxın illər üçün müəyyən edilmiş fəaliyyət planı əsasən nazirliyin, cari idarəetmə isə rektor və onun ətrafındakı yüksək vəzifəlilərə həvalə edilir. Uğur olarsa hər kəsindir, çatışmazlığın məsuliyyətini isə heç kim öz üzərinə götürmək istəmir və dəqiq məsuliyyətə cavabdeh obyekt yoxdur.
- İdarəetmə strukturu təhsil fəaliyyətinin həyata keçirilməsinin qərarlaşmış formalarının aspektinə uyğun gəlməməsi problemi vardır.
- Nöqsanların həll edilməsinin real mexanizmlərin olmaması, müasir təhsilin idarəedilməsində yenilik və inteqrasiyada, zaman itkisinə yol verilməsi problemi var.

Hamlet İsaxanlı: İnkişafımızın ən mühüm tərkib hissələrindən biri inkişaf etmiş dünyanın təhsil, elm və texnologiya sahəsindəki uğurlarını mənimsəyərək ölkəmizdə tətbiq və inkişaf etdirməklə mümkün olduğunu söyləyir. Vaxtında irəli getməyən geri qalar. Arzularla gerçəklər arasında sürünmək də olar qanad çalmaqda (4, s. 11).

Ali pedaqoji təhsil müəssisələrinin idarə olunmasında ümumi problemlərlə yanaşı, sırf pedaqoji problemlər:

1. İnfrastruktur, maddi-texniki bazanın yüksək səviyyədə olmaması.
2. Yeni pedaqoji texnologiyaların tətbiqində problemlər.
3. Standartların, kompetensiyaların rəqabətli mühitin tələblərinə cavab verməməsi.
4. Tədrisin metod və tədqiqatının informasiya cəmiyyətində yeniliyə uyğunsuzluğu.

5. Keyfiyyətin idarə olunmasında təsirli mexanizmlərin zəif olması.

6. Monitorinq və qiymətləndirmədəki çatışmazlıqlar.

7. Müəllimlərin intellektinin aşağı səviyyədə olması.

8. Təhsildə sosial-psixoloji və fizioloji problemlər.

9. Tədqiqat xarakterli tapşırıqların verilməməsi.

4. informasiyaların vaxtında götürülməməsi.

11. Tərcümə mərkəzlərinin olmaması.

12. Müəllimlərin əmək haqqının aşağı olması.

2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı 16 noyabr 2018-ci ildə təsdiq edilmişdir. Sənəddə təhsildə rəqabətlilik, insan kapitalının inkişafı, bilik iqtisadiyyatının yaradılması, bir sözlə, təhsilin yüksək inkişafı üçün məqsəd hədəf müəyyən edilmiş, həyata keçirməyin maliyyə mənbələri göstərilmişdir. Buna uyğun olaraq dünyada tanınmış ali təhsil müəssisələrinin qiymətləndirilməsində, məsələn, (dünyada ilk dəfə olaraq 2003-cü ildə Şanxayda aparılmışdır) **Şanxay qiymətləndirilməsinə** baxaq:

-ali məktəbin Nobel mükafatı və Filds medalı almış məzunların sayı;

-ali məktəbdə işləyən Nobel mükafatı və Filds medalçılarının sayı;

-elmin 21 sahəsi üzrə ən çox istinad olunan tədqiqatçıların sayı;

-son 5 ildə Nature və Scinence jurnallarında çap olunan məqalələrin sayı;

-SCİE və SSCİ indeksli jurnal və konfranslarda nəşr olunan məqalələrin sayı.

Əlbəttə, bu bir təhsil ocağının qiymətləndirilmə nümunəsidir, ən azından məqsəd və hədəflərimizin qoyulmasında nümunə kimi istifadə edə bilərik. Elə bir şərait yaradılmalıdır ki, xariciləri ölkəmizə cəlb edə bilək. Tarixi irsimizdən bizə qalan mirasa, dünyada tanınmış yurddaşlarımız və təhsil strategiyamızın əsas hədəfləri də imkan verir ki, biz də qabaqcıl ölkələr sırasında olaq. Məqsəd inamla qarşıya qoyularsa, hədəfə çatmaq olar. Xaricilərin bizim ölkəmizdə oxumaları üçün fondlar yaradılmalı, qrantlar ayrılmalıdır. Buna nail olmaq üçün dövlətin, ali təhsil ocaqlarının, iri şirkətlərin və xüsusilə media və ictimaiyyətin birgə səyi gərəkdir.

Coğrafi və geosiyasi mövqeyimiz imkan verir ki, ölkəmizin yaxın çevrəsində yerləşən ölkələr üçün ilk vaxtlar dəqiq fənlər üzrə, daha sonra bütün ixtisaslar üzrə müəllim kadrları yetişdirək. Hər fənn üzrə tələb olunan standart bilik və müəllim peşəsinin sirlərini öyrədə bilərik. Bunun üçün bizim yetərincə kadrlarımız var, sadəcə inamla işə başlamaq lazımdır. Əvvəlcə ingilis dilində, sonralar bir çox dillərdə mütəxəssis yetişdirmək olar. Bir gün maddi sərvətlərimizin tükənəcəyini nəzərə alaraq tükənməyən sərvətlərimizdən, intellekt resurslarımızdan istifadə etməliyik. Eyni zamanda, təhsil üçün maliyyə qaynağı da əldə etmiş olarıq.

XXI əsrin texnoloji, bioloji, iqtisadiyyatın beynəlmiləlləşməsi prosesində hansı ölkə təhsilə öndədirsə, həmin ölkə III minilliyin inkişaf burulğanında öz inkişafını təmin edə biləcək.

**Problemin aktuallığı**. XXI əsrin tələblərinə uyğun olaraq müasir, innovativ təhsil ocaqlarının yenilənməsi ,eyni zamanda, onlara verilən müstəqilliyin, muxtariyyatın tam sərbəst verilməsi rəqabətədavamlı ali təhsil ocaqları yaratmaqla inkişafımızı təmin edə bilər. Təhsilin inkişafı ölkənin inkişafıdır və bu inkişafa gedən yolun müasir təhsil ocaqlarından və intellektlin müəllim əməyindən keçdiyi qaçılmazdır.

**Problemin elmi yeniliyi**. Müasir tələblərə cavab verən təhsil ocaqları yaradılmalı, əcnəbi tələbələri ölkəmizə cəlb etmək üçün fondlar, qrant ayrılmalı, bu işdə dövlət, təhsil ocaqları, iri şirkətlər və bütün ictimaiyyətin birgə səyi ilə nail olmaq mümkündür.

**Problemin praktik əhəmiyyəti**. Ümumtəhsil və ali təhsil müəssisələrini idarə edənlər, eyni zamanda təhsillə bağlı olaraq, təhsil işçiləri, tələbələr yararlana bilər.

**Ədəbiyyat**

1. A.O. Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.

2. Əliquliyev R.M., Alıquliyev R.M., Fətəliyev T.X., Həsənova R.Ş. Elmmetriya: mövcud vəziyyəti və imkanları. Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2013.

3. Əliquliyev R.M., Mahmudov R.Ş. İnformasiya cəmiyyətinin formalaşmasının multidistiplinar elmi-nəzəri problemləri // İnformasiya cəmiyyəti problemləri, 2016, № 2

4. H. İsaxanlı. Müasir dünyada ali təhsil sistemində nələr baş verir və 2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə dövlət proqramı-necə olsa yaxşıdır. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2008.
5. https://www.youtube.com/watch?v=4vrGO8Pa-s0
6. https://www.youtube.com/watch?v=V3QfhMX5ESU
7. https://www.youtube.com/watch?v=agkDTfi

**E-mail:** znazakat@mail. ru
**Rəyçi:** *ped. ü. fəls.dok., dosent, əməkdar müəllim* Ə.M. Abbasov
**Redaksiyaya daxil olub:** 14.12.2018.

*TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

*UOT 374.*

***Dilqəm Qasım oğlu Quliyev***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
***Sadıq Kazım oğlu Sadıqov***
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
***Etibar Dilqəm oğlu Quliyev***
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

# İDMANÇI GƏNCLƏRİN MÜTALİƏYƏ MARAĞININ YARADILMASINDA KİTABXANANIN ROLU

***Дильгам Гасым оглы Гулиев***
*доктор педагогических наук, профессор*
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
***Садыг Кязим оглы Садыгов***
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
***Этибар Дильгам оглы Гулиев***
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*

# РОЛЬ БИБЛИОТЕКИ В ЗАРОЖДЕНИИ ИНТЕРЕСА К ЧТЕНИЮ У МОЛОДЫХ СПОРТСМЕНОВ

***Dilgam Gasim Guliyev***
*doctor of pedagogical sciences, professor*
*Azerbaijan State Academy of Physical Training and Sport*
***Sadig Kazim Sadigov***
*Azerbaijan State Academy of Physical Training and Sport*
***Etibar Dilgam Guliyev***
*Azerbaijan State Academy of Physical Training and Sport*

# THE ROLE OF LIBRARY IN AROUSING INTEREST TO READING IN YOUNG SPORTSMEN

**Xülasə:** Məqalədə ölkə başçısının kitabxanalara göstərilən diqqət və qayğı, kitabxananın yaranma tarixi, kitabın oxunması üçün ölkəmizdə həyata keçirilən müxtəlif tədbirlər, son illər ərzində bu sahədə bir sıra mühüm sənədlər qəbulu, kitabxananın fondunda müxtəlif dillərdə olan nadir ədəbiyyat nümunələri, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kitabxanasının yenidən qurulması və burada elektron kitabxananın yaradılması, kitabxana fondunun mənbələri, İdman tarixi elmi mərkəzi tərəfindən hazırlanmış kitabxananın elektron bazasında Heydər Əliyev irsinin tədqiqi, bədən tərbiyəsi və idmanın təbliğində kütləvi tədbirlərin rolu, bədən tərbiyəsi və idmanın təbliğində kütləvi tədbirlərin təsiri və b. problemlər öz əksini tapmışdır.

***Açar sözlər:*** *kitabxana-informasiya, Marağa rəsədxanası, mütaliə, "Facebook", kitabın oxunması, kompüter və informasiya-proqram təminatı*

**Резюме:** В данной статье нашли свое отражение такие вопросы как: внимание и забота главы государства, различные мероприятия, проведенные в нашей стране для чтения книг, принятие ряда важных документов в этой области в течение последних лет, редкостные литературные образцы на различных языках в библиотечном фонде, реорганизация библиотеки Азербайджанской Государственной Академии Физической Культуры и Спорта и организация здесь электронной библиотеки, источники библиотечного фонда, исследование наследия Гейдара Алиева в электронной базе библио-

теки, созданная научным центром истории спорта, роль массовых мероприятий в агитации физического воспитания и спорта, влияние массовых мероприятий в агитации физического воспитания и спорта и др.

***Ключевые слова:*** *библиотека-информация, обсерватория, чтение, "Facebook", чтение книг, компьютерное и информационно-программное обеспечение, информационно-программное обеспечение*

**Summary:** Attention and care of the head of state, various events held in our country to read books, the adoption of a number of important documents in this field in recent years, rare literary samples in various languages in library fund, the reorganization of the library of the Azerbaijan State Academy of Physical Culture and Sports and the organization of electronic library here, sources of the library fund, the study of the heritage of Heydar Aliyev in the electronic database of the library, created by the sports history research center, the role of public events in the campaign of physical training and sport, the impact of mass events in promotion of physical training and sports and other issues are reflected in this article

***Key words:*** *library-information, ... observatory, reading, "Facebook", reading books, computer and information software support, information software*

Kitabxanaların yaradılmasında zəmanəsinin ağıllı hökmdar və ziyalılarının xüsusi rolu olmuşdur. Belə ki, orta əsrlərdə Nəsrəddin Tusinin rəhbərlik etdiyi Marağa rəsədxanasında 1258-1261-ci illərdə fəaliyyət göstərmiş kitabxana Azərbaycanın məşhur elmi kitabxanalarından sayılırdı. Səfəvi hökmdarı I Şah İsmayıl tərəfindən yaradılmış Təbriz Saray Kitabxanasında Şərqin böyük klassiklərinin əsərləri mühafizə olunurdu.

XXI əsrdə mədəniyyətə müasir baxışlar sistemi formalaşıb. Artıq keçid dövrünün çətinlikləri arxada qalıb. Son illər quruculuq sahəsində gələcəyin inkişaf yolunu işıqlandıran, onun inkişaf istiqamətini, məqsəd və vəzifələrini müəyyənləşdirən proqram xarakterli bir çox sənədlər qəbul edilib. Bu sənədlər içərisində 6 oktyabr 2008-ci il tarixdə Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" olduqca böyük tarixi əhəmiyyət kəsb edən bir sənəddir.

İnsanların mütaliəyə marağını yönəltmək üçün Rumıniya hökuməti əhalinin kitab oxuması üçün maraqlı bir layihəyə imza atıb. Kluj-Napoka şəhər merinin yeni layihəsinə əsasən, yay mövsümündə nəqliyyatda kitab oxuyan sərnişinlərdən gediş haqqı alınmayacaq. Şəhərdə əhalinin kitaba olan marağını artırmaq təkcə bu təşəbbüslə bitmir. Çünki "Bookface" şirkəti də əhalini kitab oxumağa təşviq etmək üçün maraqlı addım atıb. Şirkətin şərtlərində bildirilir ki, "Facebook" hesabına kitabla çəkilmiş şəklini yerləşdirən hər bir sosial şəbəkə istifadəçisi ictimai iaşə obyektləri, kitab mağazaları və stomatoloji kabinetlərə güzəştlər əldə edəcək. Hər il aprelin 23-də Kluj-Napoke şəhərində Ümumdünya Kitab Günü keçirilir. Həmin gün əlində kitab olan hər bir şəxs Nəbatat bağını pulsuz ziyarət edə bilər.

Bu gün gənclik daha çox elektron kitablara üstünlük verir. Ona görə də kitabların, yazılı ədəbiyyatın təbliğata çox ehtiyacı var. Bu işə orta məktəbdən başlanmalıdır. Məsələn, Yaponiyada hər şagird həftədə bir dəfə kitabxanada olmalıdır. Bu, onun dərs balına təsir edir. Bu isə onların kitaba marağında rol oynayır.

Qeyd edək ki, kitabın oxunması üçün bizim ölkəmizdə də müxtəlif tədbirlər həyata keçirilir. Hazırda V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının təşkili bu istiqamətdə atılan addımlardan biridir. Eləcə də, Təhsil Nazirliyinin bu günlərdə "Oxumağı vərdişə çevirək!" şüarı ilə keçirdiyi aksiya da maraqlıdır. "Bir vaxtlar kitab əlimizdən düşməzdi. Hara gedərdiksə, yanımızda mütləq oxumaq üçün kitab olardı" fikirlərindən çıxış edərək cəmiyyətin diqqətini mütaliəyə yönəltmək məqsədi daşıyan aksiyaya dəstək olanlar çoxdur.

Bu gün, çox təəssüf ki, kitab oxumaq mədəniyyəti cavanlar arasında az müşahidə olunur və unudulmuşdur. Halbuki, bu gözəl əməlin çox sayda faydaları vardır ki, sizi onunla tanış edirik: kitab oxumaq insan ömrünü uzada bilər. 2016-cı ildə mütəxəssislər tərəfindən aparılan tədqiqat göstərmişdir ki, o kəslər ki, kitab oxumağı sevirlər, onlarda vaxtsız ölüm riski başqalarından 20 faiz daha azdır. Bu gün həkimlər və mütəxəssislər bu qənaətə gəliblər ki, kitab oxu-

maq insanın cismi və ruhi xəstəliklərinin əlamətlərini azaldar. Qorxu, yuxusuzluq, çəkinin artması və xəstəxanalarda yatmaqdan qaynaqlanan iztirabları rahatlıqla aradan qaldıra bilir. Yatmazdan əvvəl kitab oxumaq adəti insanın rahat yatmasına şərait yaradar. Əvvəl bir-iki səhifə oxumağa çalışın və sonrakı günlərdə bu adətin yarandığını hiss edəcəksiniz. Mütəxəssislər deyirlər ki, oxuduğunuz kitab kağızdan olmalıdır, elektronik kitablar olmamalıdır. Tədqiqatlar göstərir ki, uşaqlar öyrəndikləri sözlərin təqribən 15 faizini mütaliə vasitəsi ilə əldə edərlər. O uşaqlar ki, daha çox mütaliə edirlər, onların lüğət dairəsi də geniş olur (Tebyan). İnsan oxuduğu dastan və hekayələrdə həmin mövzuya qapılaraq, personajların yaşadıqlarını hiss edir, yaşayır. Ona görə də mütaliə etmək başqaları ilə həmdərd olmaq hissini gücləndirir. Tədqiqatlar göstərir ki, çay içmək 54 faiz, piyada yerimək 42 faiz stressi azaldır. Ancaq kitab mütaliə etmək isə stressi 68 faiz azalda bilir. Biz kitab oxuyan zaman müxtəlif təbəqələrə malik olan insanların hissləri ilə tanış oluruq. Bu da ictimai əlaqələrdə bizə çox yardım edər. Həmin təcrübəyə istinadən, cəmiyyətdə rahat şəkildə əlaqə qura bilərik.

Son illər ərzində bu sahədə bir sıra mühüm sənədlər qəbul edilib. Ölkə Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarına əsasən ölkənin bütün kitabxanalarına latın qrafikası ilə çapdan çıxmış nəşrlər hədiyyə edilmişdir. Həmçinin "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", eləcə də, Bakı şəhəri və qəsəbələrinin sosial-iqtisadi inkişafı, rabitə və informasiya texnologiyalarının inkişafı, ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı ilə bağlı proqram sənədlərdə kitabxana-informasiya sahəsinin inkişafı və modernləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub [5].

Ölkə başçısı tərəfindən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi bu sahədə köklü dəyişikliklərin həyata keçirilməsinə səbəb olub. Proqramın reallaşdırılması üzrə Tədbirlər Planının", Kitabxanaların kompüter və informasiya-proqram təminatı, respublika üzrə kompüterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması və inkişafı" bölməsinə uyğun olaraq kitabxanaların informasiyalaşdırılması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işi uğurla həyata keçirilir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası İnformasiya Mərkəzi Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işinin daha effektiv həyata keçirilməsində xüsusi səy göstərir. Hər bir ölkədə elmin, təhsilin, incəsənətin, idmanın, mədəniyyətin inkişafında və təbliğində kitabın rolu əvəzsizdir. Kitab xalqın mənəvi sərvətidir, onun tarixidir. Bu sərvəti gələcək nəsillər üçün qoruyub saxlayan, bəşəriyyətin sənəd yaddaşı sayılan kitabların və digər çap əsərlərinin, məlumat daşıyıcılarının istifadəsini təşkil edən, biliklərin yayılmasını həyata keçirən kitabxanalar insanların intellektual və peşə səviyyəsinin yüksəlməsində, elmin və texnikanın tərəqqisində müstəsna rol oynayır. Məşhur hind kitabxanaşünası S.R. Rapqanatan kitabxananı inkişaf edən orqanizm adlandıraraq yazır ki, bir orqanizm kimi kitabxana daim inkişafda olmalı, kitabxana fondu aramsız olaraq yeni kitablarla zənginləşdirilməlidir. Kiçik su hövzələri, göllər ona tökülən çaylardan məhrum olduqda quruduğu kimi, hər hansı bir kitabxana da yeni kitablardan məhrum olarsa, öz elmi və mədəni əhəmiyyətini itirər. Kitabxanaların daim zənginləşməsinin mənəviyyatımızın yüksəlməsində böyük əhəmiyyətinə diqqət çəkən ümummilli lider Heydər Əliyev demişdir: "Kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır. Bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir" [6].

İdman Akademiyasının rektoru Fuad Hacıyevin daxili əmrinə əsasən, 2015-ci ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında kitabxana işini tənzimləmək, onların fəaliyyətini müasir tələblər səviyyəsinə çatdırmaq, ədəbiyyatın geniş təbliğini və bu sahədə xidmət işini genişləndirmək üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə tədbirlərdən biri də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kitabxanasının yenidən qurulması və burada elektron kitabxananın yaradılmasıdır [2].

Akademiyanın idman tarixi elmi mərkəzinin kitabxana fondu 2019-cu ildə (fevral ayına qədər) 207.519 nüsxə təşkil etmişdir. Həmçinin kitabxananın fondunda müxtəlif dillərdə olan nadir ədəbiyyat nümunələri saxlanılır. Fondda əsasən bədən tərbiyəsi və idman ədəbiyyatı üstünlük təşkil edir. Bununla yanaşı tibbə, iqtisadiyyata, siyasətə, hüquqa, fəlsəfəyə, statistikaya, tarixə, ədəbiyyatşünaslığa və dilçiliyə dair elmi ədəbiyyat, bədii ədəbiyyat da vardır. Dövri mətbuat fondundan kitabxanaya respublikamızda və digər ölkələrdə çap olunan 12-dən artıq qəzet, 4-dən yuxarı jurnal və digər dövri nəşrlər daxil olur. Kitabxanada fondun elektron nəşrlərlə komplektləşdirilməsi sahəsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə həm də kitabxanaya daxil olan nəşrlərin elektron versiyasının da mütləq şəkildə olması əsas götürülür. İstər hədiyyə kimi və istərsə də komplektləşdirmə yolu ilə kitabxanaya daxil olan nəşr növlərinin elektron versiyalarının imkan daxilində əldə edilməsi nəzərdə tutulub [4].

Bədən tərbiyəsi və idmanın təbliği ilə bağlı akademiyanın kitabxanasında həyata keçirdiyi tədbirlərdə başlıca məqsəd sağlam nəsil yetişdirməkdir. Bu zaman işin fiziki tərəfi ilə yanaşı mənəvi tərəfi də ön planda olmalıdır. Məlumdur ki, idmanla məşğul olanların böyük əksəriyyəti gənclərdir və bu sahədə böyük gənclik ordusu cəmləşmişdir. Deməli, idman cəmiyyətin ən aktiv təbəqəsi olan gəncləri öz ətrafına cəmləməklə pis vərdişlərə meyllənməyin qarşısını alır. İnternetin həyatımıza bu qədər sürətlə daxil olduğu, qloballaşmanın mənfi təsirlərindən qorunmağın bu qədər çətin olduğu bir zamanda idmanın təbliğ edilməsi çox aktualdır. Kitabxana işçiləri üçün önəmli məqamlardan biri tələbə-gənclərin uğurlarına, qələbələrinə sevinmək, onun təbliği sahəsində hər cür imkanlardan istifadə etməkdir. Tədbirlərin təşkilində Nərimanov rayonunda fəaliyyət göstərən dövlət orqanları, ictimai birliklər və müxtəlif qurumlar, idmanla bağlı idarə və təşkilatlarla akademiyanın kitabxana işçiləri sıx əlaqə saxlayır və öz köməklərini əsirgəmirlər [3].

**Kitabxananın fondu aşağıdakı mənbələrdən komplektləşdirilir:**




Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının İdman tarixi elmi mərkəzi tərəfindən hazırlanmış kitabxananın elektron bazasında Heydər Əliyev irsinin tədqiqi, Azərbaycanda bədən tərbiyəsi və idman haqqında qanunlar, sərəncam və fərmanlar (1918-2018-ci illər), dövlət proqramı, idmanla bağlı rəsmi sənədlər, idmanın tarixi, Olimpiya, dünya və Avropa çempionları və mükafatçıları, Azərbaycan Respublikası Gənclər və İdman Nazirli-

yi, Milli Olimpiya Komitəsi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yaranma tarixi, kitabxananın yaranma tarixi, şəhid idmançılar, milli qəhrəmanlar, generallar, filmlər, fotoqalereya xronoloji ardıcıllıq əsasında düzülmüşdür.

İdmanın təbliği, gənc nəslin sağlam gələcəyinin təmin edilməsi məqsədilə akademiyanın kitabxanasında kütləvi tədbirlərin müxtəlif formalarından istifadə edilir. Bundan başqa, hazırkı şəraitdə kitabxanaların çap imkanlarının həddindən artıq zəiflədiyi bir zamanda ayrı-ayrı görkəmli idmançıların yaradıcılığına, müxtəlif bədən tərbiyəsi və idmana aid ədəbiyyat nümunələrinə həsr olunmuş kiçik formatlı nəşrlər, kiçik tövsiyə biblioqrafik göstəriciləri, çap plakatları idmançıların nailiyyətləri haqqında soraq kitabçaları və s. hazırlamaq mümkün deyil. Ona görə də bədən tərbiyəsi və idmana aid ədəbiyyatın təbliği zamanı təsadüfi hallarda bu üsullara rast gəlmək olur.

Oxucularda vətənpərvərlik hisslərinin aşılanmasında, milli-mənəvi dəyərlərimizin qorunmasında mətbuatdan istifadə edərək bədən tərbiyəsi və idmana aid elmi əsərlərin təbliğat işini daim yaxşılaşdırmaq, onların hər bir oxucuya ən asan yolla çatmasına kömək etmək lazımdır. Bədən tərbiyəsi və idmana aid elmi əsərlərin, idman nailiyyətlərinin təbliğinin ən geniş yayılmış forması KİV-lərlə əlaqədir.

Akademiyanın kitabxanasında KİV-lər hər zaman oxucuların köməyinə çatır. Kitabxanaçı Zəminə Abbasova oxucularla fərdi iş apararkən, kitabxananın işi haqqında məlumat verərkən və kitab tövsiyə edərkən özünün şifahi söhbətinə əlavə olaraq oxucuya çap materialı da təqdim edir. Mətbuatda dərc olunan məlumatlar həm kitabların əyani təbliğatı zamanı sərgiləri tamamlayır, həm də görkəmli idmançılara, Olimpiya çempion və mükafatçılarının həyatına həsr olunmuş gecələrin, idmana aid kitabların icmallarının təşkili zamanı kütləvi işdə istifadə edilir.

Bədən tərbiyəsi və idmanın təbliğində kütləvi tədbirlərin təsiri ilə kitabxanaya yeni-yeni oxucular cəlb edilir. Bu da bədən tərbiyəsi və idmanın təbliğində oxucu-kitabxana əlaqələrinin yüksək səviyyədə qurulması, istifadəçilərə keyfiyyətli xidmət göstərilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Hazırda kitabxanada 941 istifadəçi elektron formada qeydiyyatdadır. Çalışırıq ki, xidməti vəzifəmizi layiqincə yerinə yetirək, mədəniyyətimizin qorunması və nümayiş etdirilməsində səy və bacarığımızı əsirgəməyək. Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi kimi: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanalara daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

**Tədqiqatın məqsədi** tələbə gənclərin kitablara mütaliəyə marağının artırılması, kitabın təbliğatı, onların kitab və elektron kitab vəsaitləri ilə təmin olunması, kitabxanaların elmi və mədəni irsinin toplanıb qorunması, "Səyyar kitabxana"nın fəaliyyəti, Azərbaycan idmanını təbliğ etmək məqsədilə saytda müxtəlif məlumat bazaları, video çarxlar, elektron nəşrlər, akademiyanın idman şərəfini yüksəldən qalib idmançılar haqqında materiallar, fotolar, müxtəlif təşviqat xarakterli slayd şoular yerləşdirmək, elmi müəssisələr arasında əməkdaşlığı inkişaf etdirməkdir.

**Tədqiqatın vəzifəsi** akademiyanın kafedraları və ictimai təşkilatlarla kitabxananın fəaliyyətini əlaqələndirək, oxucularda vətənpərvərlik hisslərini tərbiyə etmək. Fondlarda toplanmış elmi, mədəni, mənəvi irsi təbliğ etməklə, idmançı gənclərin informasiya tələbatının ədəbiyyatla təmin olunmasına yardımçı olmaq.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Qarşıya qoyulan məqsədi həyata keçirməklə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil prosesinin keyfiyyətinin artırılması, eləcə də rəqəmsal resursların istifadəsi genişləndirilmiş çərçivədə tam funksional elektron kitabxana yaratmaq, informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətlərinin inkişaf etdirilməsinə imkan yaranır, habelə bədən tərbiyəsi və idman sahəsində yüksək dərəcəli kadrların hazırlığının müasir elmi bilik sistemində yeri, elmi quruluşu və bütövlükdə elmi sistemi aydınlaşdırılır.

Tədqiqat prosesində belə **nəticəyə** gəlmək olar ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminat işlərinin təşkili, idmançı gənclərin mütaliəyə marağın yaradılmasında kitabxananın rolu və başqa problemlər tədqiq olunur.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
2. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının arxivi. Opis № 3«s» 1939
3. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının salnaməsi. Bakı: Araz, 2010.
4. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının salnaməsi. Bakı: "Lettepress" nəşriyyat evi, 2015.
5. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. «Azərbaycan müəllimi» qəz., 2009, 7 sentyabr
6. İsmayılov X.İ. Kitabxana informasiya texnologiyaları. Bakı, 2009.
7. Rzayev S.M. Kitabxana xidməti: Dərslik. Bakı: BDU-nun nəşri, 2009.


**E-mail:** mr.quliyev.d@mail.ru

**Rəyçilər:** *prof.* O.M. Cəfərov,
**Redaksiyaya daxil olub:** 09.11.2018

*UOT 374.*

***Rüxsarə Məcid qızı Əliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinin direktoru*

# DƏRSDƏNKƏNAR TƏDBİRLƏR KOLLEC TƏLƏBƏLƏRİNDƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN FORMALAŞDIRILMASI VASİTƏSİ KİMİ

***Рухсара Меджид гызы Алиева***
*доктор философии по педагогике*
*директор Бакинского Государственного Экономического и Гуманитарного Колледжа*

# ВНЕУРОЧНЫЕ МЕРОПРИЯТИЯ КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ НРАВСТВЕННЫХ КАЧЕСТВ У СТУДЕНТОВ КОЛЛЕДЖА

***Ruxsara Majid Aliyeva***
*PhD in pedagogy*
*director of the Baku State Economic and Humanitarian College*

# EXTRACURRICULAR ACTIVITIES AS A MEANS OF FORMING MORAL QUALITIES OF COLLEGE STUDENTS

**Xülasə**: Tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsində təlim prosesi mühüm rol oynayır. Ayrı-ayrı fənlərin təhsilləndirici, inkişafetdirici vəzifələrindən bəhrələnməklə, eyni zamanda tərbiyəedici imkanlarından faydalanmaq mümkündür. Bütün bunlarla yanaşı, sinifdənxaric iş formaları, dərsdənkənar tədbirlər də əhəmiyyətli rol oynayır. Məqalədə dərsdənkənar tədbirlər kollec tələbələrində mənəvi keyfiyyətləri formalaşdırma vasitəsi kimi nəzərdən keçirilir.

***Açar sözlər:*** *dərsdənkənar tədbirlər, tələbə, kollec tələbələri, mənəvi keyfiyyətlər, mənəvi keyfiyyətlərin formalaşdırılması*

**Резюме.** Учебный процесс играет важную роль в развитии нравственных качеств у студентов. Обогащаясь образовательными, развивающими задачами отдельных предметов в то же время можно использовать их воспитательные возможности. Наряду с этим важную роль играют также внеклассные формы работы и внеурочные мероприятия.

В статье внеурочные мероприятия рассматриваются как средство формирования нравственных качеств у студентов колледжа.

***Ключевые слова:*** *внеурочные мероприятия, студент, студенты колледжа, нравственные качества, формирование нравственных качеств*

**Summary**. The educational process plays an important role in the development of students' moral qualities. Enriching the educational, developmental tasks of individual subjects at the same time, you can use their educational opportunities. In addition, extracurricular forms of work and extracurricular activities also play an important role.

The article considers extracurricular activities as a means of forming moral qualities in college students.

***Keywords***: *extracurricular activities, student, college students, moral qualities, the formation of moral qualities*

Kollec tələbələrinin əxlaqının saflaşdırılması, mənəviyyatının zənginləşdirilməsi, geniş dünyagörüşünə yiyələndirilməsi yeni pedaqoji təfəkkür şəraitində önəmli məsələlərdən biridir. Bu sahədə fənn müəllimləri, şöbə müdirləri, qrup rəhbərləri, kollecin gənclər təşkilatı rəhbə-

ri, direktorun tərbiyə işləri üzrə müavini səmərəli fəaliyyət göstərmək imkanlarına malikdirlər.

Tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsində təlim prosesi mühüm rol oynayır. Ayrı-ayrı fənlərin təhsilləndirici, inkişafetdirici vəzifələrindən bəhrələnməklə, eyni zamanda tərbiyəedici imkanlarından faydalanmaq mümkündür. Bütün bunlarla yanaşı, sinifdənxaric iş formaları, dərsdənkənar tədbirlər də əhəmiyyətli rol oynayır. Ailədə başlanan, təlim prosesində davam etdirilən mənəvi kamilləşmə, əxlaqi saflaşma üzrə işlərə kollec tələbələrinin asudə vaxtlarında da xüsusi diqqət yetirilir. Nəticədə səmərəli göstəricilərə nail olunur, tələbələr nümunəvi davranış və rəftara, nitq, ünsiyyət mədəniyyətinə sahib olur, onlarda vətənpərvərlik, dostluq və yoldaşlıq, sadəlik və təvazökarlıq, ədalət, humanizm, obyektivlik, işgüzarlıq, mərdlik və qəhrəmanlıq, qayğıkeşlik, böyüyə hörmət və s. bu kimi mənəvi keyfiyyətlər təşəkkül tapır, inkişaf edir, formalaşır.

Dərsdənkənar tərbiyə işləri könüllü xarakter daşıyır. qabaqcıl kolleclərdə tələbə oğlanların və qızların arzu və istəkləri nəzərə alınmaqla, bu və ya digər tədbir həyata keçirilir.

Dərsdənkənar işin iki növü vardır: 1. Sinifdənxaric iş. 2. Məktəbdənkənar iş.

Sinifdənxaric iş, adətən dərsdən sonra kollecin hüdudlarında həyata keçirilirsə, məktəbdənkənar (başqa sözlə, kollecdənkənar) iş tələbələrlə kollecin hüdudlarından kənarda (kinoteatrda, konsert salonlarında, muzeydə, sərgidə və b.) həyata keçirilir.

Fikrimizi əsaslandırmaq üçün, prof. A.N. Abbasovun sinifdənxaric və məktəbdənkənar işə verdiyi təriflərlə tanış olaq: "*Sinifdənxaric iş* dedikdə, təlimdənkənar vaxtlarda pedaqoji kollektiv üzvlərinin (sinif rəhbərləri, fənn müəllimləri, kitabxanaçı, şagird təşkilatları, məktəb ictimai təşkilatları, valideyn komitəsi, məktəb həkimi və b.) və məktəb rəhbərlərinin, bir sıra hallarda ailə və ictimaiyyət nümayəndələrinin və b. yaxından köməyi ilə müxtəlif təşkilatı formalarda aparılan təlim-tərbiyəvi tədbirlərdir" (1, 314). "Müxtəlif məktəbdənkənar müəssisələr tərəfindən asudə vaxtlarda məktəb mikrorayonunda şagirdlərlə aparılan təlim-tərbiyəvi tədbirlər *məktəbdənkənar iş* sayılır. Məktəbdənkənar müəssisələr dedikdə, uşaqlar və yeniyetmələrlə məktəbdən kənarda iş aparan dövlət və ictimai müəssisələr nəzərdə tutulur" (1, 315).

Professorlar F.A. Rüstəmov və Ə.X. Paşayev qənaətinə görə, sinifdənxaric və məktəbdənkənar təlim və təhsil-tərbiyə şəxsiyyətin məqsədyönlü formalaşması prosesidir. Bu, tərbiyəçi, müəllim və təhsilalanların idarəedilən və nəzarətdə olan qarşılıqlı təsiridir. Həmin təsirin son məqsədi cəmiyyət üçün gərəkli və faydalı şəxsiyyət formalaşdırmaqdır. Müasir anlamda dərsdənkənar təhsil-tərbiyə prosesi qarşıda qoyulmuş ümumi məqsədə çatmaq üçün müəllim və təhsilalanların səmərəli qarşılıqlı təsiridir, əməkdaşlığıdır" (2, 285).

Qabaqcıl kolleclər tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi məqsədilə dərsdənkənar işin (sinifdənxaric və məktəbdənkənar tədbirlərin) yüksək səviyyədə təşkilinə xüsusi diqqət yetirirdilər. Bu zaman kəmiyyətdən daha çox keyfiyyətə fikir verilirdi.

Bunu necə başa düşməli?

Bəzi təhsil müəssisələri, istər ümumtəhsil məktəbləri, istər texniki peşə təhsili müəssisələri, istərsə də kolleclər kəmiyyətə üstünlük verərək belə təsəvvür yaratmağa çalışırlar ki, onlar şagirdlərin, tələbə gənclərin tərbiyəsi sahəsində gərgin əmək sərf edirlər. Yəni daha çox tədbir keçirilər.

Təcrübəli müəllimlər, qabaqcıl təhsil müəssisələri isə, daha çox təşkil olunan tədbirlərin keyfiyyətli olmasını diqqət mərkəzində saxlayırlar. Yoxlanılır ki, keçirilən tədbirin təsir gücü necə oldu, şagirdlərin (tələbələrin) hiss və duyğularında öz izlərini buraxa bildimi, onların tərbiyəlilik səviyyəsini, məlumatlılıq, səviyyəsini yüksəltdimi. Tədbirin təhsilləndirici, tərbiyələndirici, inkişafetdirici funksiyaları təmin olundumu.

Kollec tələbələrinin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsinə şərait yaratmaq üçün sinifdənxaric işin söhbət, məruzə, viktorina, yarış, müsabiqə, adlı-sanlı adamlarla (alimlərlə, yazıçı və şairlərlə, bəstəkar və rəssamlarla, milli qəhrəmanlarla, müğənni, memar, hüquqşünaslarla, istehsalat qabaqcılları və b. ilə), dəyirmi masa ətrafında görüşlər, müzakirə və disputlar, tələbə konfransları, klubların, studiyaların, dərnəklərin fəaliyyəti və s. kimi formalarından istifadə etmək mümkündür.

Sinifdənxaric tədbirlər kimi, “Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur”, “Neft kapitalını insan kapitalına çevirək”, “Milli Müstəqillik Günü”, “1918-ci ilin mart soyqırımı”, “18 oktyabr - dövlət müstəqilliyi günü”, “12 Noyabr – Konstitusiya günü”, “17 Noyabr – milli dirçəliş günü”, “Vətən üçün doğulmuşuq, Vətən üçün ölməliyik”, “Əxlaqımızı saflaşdıraq”, “Anam Azərbaycanım!”, “Davranış mədəniyyəti”, “Azərbaycan Respublikasının Prezidenti”, “Vətən – anadır!”, “Dövlət Bayrağı günü”, “Dünya azərbaycanlılarının həmrəylik günü”, “Azərbaycan Respublikasının Dövlət bayrağı”, “Yaddan çıxmaz Qarabağ”, “Azərbaycanın milli bayramı - Novruz bayramı”, “8 Mart – beynəlxalq qadınlar günü”, “Xocalı harayı”, “Təbiət qoynuna səsləyir bizi”, “Faşizm üzərində qələbə günü”, “Dini dəyərlərimizə hörmətlə yanaşaq”, “Uğrunda ölən varsa – Vətəndir”, “Dünya azərbaycanlıları! Həmrəy olun!”, “O taylı, bu taylı Azərbaycan”, “Azərbaycanlılara qarşı soyqırım”, "20 Yanvar şəhidləri” “Silahlı Qüvvələr günü, “Faşizm üzərində qələbə”, “Azərbaycan bir nəğmədir”, “Yurduna ağlayan ana!”, “Vətən! Torpağına, daşına qurban!”, “Layla, Xocalım, layla”, mövzularında söhbətlər, konfranslar, müzakirələr və s. nəzərdə tutula bilər.

Gənclərdə müsbət mənəvi keyfiyyətlərin inkişaf etdirilməsində, tələbə şəxsiyyətinin formalaşmasında məktəbdənkənar tədbirlər də müstəsna dərəcədə əhəmiyyət daşıyır.

F.İ. İbrahimov və R.L. Hüseynzadə ikicildlik “Pedaqogika” dərsliyinin ikinci cildində digər məsələlərlə yanaşı məktəbdənkənar işə də yer ayırmışlar.

Professorlar məktəbdənkənar işə aşağıdakı tərifi verirlər: “Məktəbdənkənar tərbiyə işi dərsdən sonra məktəblilərin məktəbdəki təlim-tərbiyə işlərindən sonra onların asudə vaxtlarının təşkili üçün keçirilən planlı, məqsədyönlü tədbirlərdir. Bu tədbirləri əsasən məktəbdənkənar təhsil müəssisələri təşkil edib keçirir” (3, 472).

Göründüyü kimi, tərifdə məktəbdənkənar müəssisələrin uşaq və yeniyetmələr arasında apardıqları təhsilləndirici və tərbiyələndirici işlərə diqqət yetirilir.

Məktəbdənkənar tədbirlər zamanı tələbə oğlanlar və qızlar respublikamızın, Vətənimizin, cəmiyyətin, fədakar şəxslərin mənafeyi naminə ictimai faydalı işlərdə iştirak edir, tələbə konfranslarında çıxış edir, ekskursiya və yürüşlərdə olur, yarışlara qoşulur, yaşıllıqların salınmasında və qorunmasında, kollec mikrorayonunda abadlıq işlərinin görülməsində, ətrafın, təbiətin flora və faunasının mühafizə olunmasında fərqlənirlər. Gənclər təşkilatı, tələbə özünüidarə orqanları məktəbdənkənar işin səmərəli təşkilində kollecin pedaqoji kolleytivinə öz köməyini göstərə bilər.

Tələbələrinin yaxından iştirakı ilə kolleclərdə Azərbaycan-Türkiyə dostluğuna həsr olunmuş mövzularda söhbət, müzakirə və disputlar keçirilə bilər. “Bir millət – iki dövlət”, “Azərbaycan – Türkiyə”, “3 May – beynəlxalq türk dünyası günü”, “Türkiyə ilə Azərbaycan – biri könül, biri can” və s. mövzularda tədbirlər tələbələrdə, iştirakçılarda maraq doğurur, onları qardaş türk xalqları ilə həmrəyliyə səsləyir. Tematik axşamlarda, söhbətlərdə, müzakirə və disputlarda Bəxtiyar Vahabzadənin “Azərbaycan-Türkiyə”, Zəlimxan Yaqubun “Heydər dastanı” poemasından parçalar, eyni zamanda onun “Şeyxim mənim, şahım mənim, şairim mənim” şeri ifa oluna bilər. “Şeyxim mənim, şahım mənim, şairim mənim” şeri Zəlimxan Yaqubun Ərdəbildə Şeyx Səfi türbəsində Şah İsmayıl Xətainin məzarı başındakı düşüncələrinin məhsulu kimi meydana gəlmişdir. Diqqət yetirək:

Qızıl baxtım, qızıl taxtım, qızıl tacım, hey,
Həm uğurum, həm qüsurum, ağrım-acım, hey,
Bu günümdə çoxdu sənə ehtiyacım, hey,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

İblis yenə fitnəsində, şeytan şərində,
Ağrı canda, nisgil gözdə, yara dərində.
Tağım uçdu, belim sındı Xudafərində,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Yerevana döndərdilər Rəvanımızı,
Sarsıtdılar qocamızı, cavanımızı.
Səndən sonra düşmən qurdu divanımızı,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Qollarınla torpağıma sarıl, gəl, babam,
Oxa çevril, kaman kimi gəril, gəl, babam,
Dirilt bizi, yaşat bizi, diril, gəl, babam,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!
Çaldıranda yaralanmış şahıma qurban,
Bu yaradan tüstülənən ahıma qurban.
Tarixdəki on üç yaşlı dahimə qurban,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim! (4).

kimi mənalı və məzmunlu parçalar tələbələrin mənəvi aləminə, mənəvi şüuruna, mənəvi düşüncə tərzinə və mənəvi davranışının formalaşmasına müsbət təsir göstərir.

Tələbə özünüidarə orqanları mənəvi keyfiyyətlərin inkişaf etdirilməsinə həsr olunmuş dərsdənkənar tədbirlərin təşkilinə yaxından kömək edə bilərlər. Gənclərin təşəbbüskarlığının və müstəqilliyinin artırılmasında onların rolu böyükdür.

Məktəbdənkənar tədbirlər zamanı tələbələrin mənəvi keyfiyyətlərini səmərəli şəkildə inkişaf etdirmək üçün fəaliyyətin məqsədinə aydınlıq gətirilməlidir. Bunun üçün qarşıya belə vəzifə qoyula bilər: kollec tələbələrində mənəvi keyfiyyətlərin inkişaf etdirilməsinə şərait yaradan sosial-pedaqoji şərtləri müəyyənləşdirmək və əsaslandırmaq.

**Problemin aktuallığı**. Kollec tələbələrində mənəvi keyfiyyətlərin formalaşdırılması dərsdənkənar tədbirlərin rolu aydınlaşdırılır.

**Problemin yeniliyi**. Dərsdənkənar tədbirlər kollec tələbələrində mənəvi keyfiyyətlərin formalaşdırılması vasitəsi kimi araşdırılır.

**Problemin praktik əhəmiyyəti**. Gənc tədqiqatçılar məqalədən faydalanacaqlar.

**Ədəbiyyat**:


1. A.N. Abbasov. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
2. Ə.X. Paşayev, F.A. Rüstəmov. Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2007.
3. F.N. İbrahimov, R.L. Hüseynzadə. Pedaqogika. 2 cilddə. 2-ci cild. Bakı: Mütərcim, 2013.
4. Zəlimxan Yaqub. Seçilmiş əsərləri. cilddə. 2-ci cild. Bakı: Şərq-Qərb, 2006.


**Rəyçilər:** ped.ü.elm.dok., prof. **A.N. Abbasov**,
ped.ü.fəls.dok. **L.A. Məmmədli**
**E-mail**: ruxsare_aliyeva@mail.ru
**Redaksiyaya daxil olub**: 17.12.2018

*UOT 378.*

***Tahirə Ənvər qızı Quliyeva***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# MİLLİ-MƏNƏVİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI ÜZRƏ APARILAN İŞLƏR TƏLƏBƏLƏRİN SOSİALLAŞMASININ BAŞLICA ŞƏRTİ KİMİ

***Тахира Энвер гызы Гулиева***
*диссертант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# РАБОТЫ, ПРОВОДИМЫЕ ПО ФОРМИРОВАНИЮ НАЦИОНАЛЬНО-НРАВСТВЕННОЙ КУЛЬТУРЫ КАК ВАЖНОЕ УСЛОВИЕ СОЦИАЛИЗАЦИИ СТУДЕНТОВ

***Tahira Anvar Guliyeva***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan*

# THE WORK CARRIED OUT ON THE FORMATION OF NATIONAL MORAL CULTURE AS AN IMPORTANT CONDITION FOR THE SOCIALIZATION OF STUDENTS

**Xülasə.** Azərbaycan cəmiyyətində, istər ailədə, istər təhsil müəssisələrində, ictimai yerlərdə, əmək kollektivlərində insanların, o cümlədən tələbə-gənclərdə milli-mənəvi mədəniyyətin formalaşdırılması həmişə öncül məsələlərdən biri olmuşdur və hazırda da son dərəcə aktual vəzifələrdən biri olaraq gündəmdədir. Mütəfəkkirlərimiz, klassik və müasir yazıçılarımız, pedaqoq və psixoloqlarımız, filosoflarımız, dövlət başçılarımız haqqında danışılan məsələyə həmişə diqqət yetirmiş, vacibliyini dönə-dönə qeyd etmişlər.

Məqalədə milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işlər tələbələrin sosiallaşmasının başlıca şərti kimi nəzərdən keçirilir.

***Açar sözlər:*** *tələbələr, milli-mənəvi, milli-mənəvi mədəniyyət, milli-mənəvi mədəniyyətin formalaşdırılması, milli-mənəvi mədəniyyətin formalaşdırılması meyarları, tələbələrin sosiallaşması*

**Резюме.** В азербайджанском обществе одной из актуальных задач было и является по сей день формирование национально-нравственной культуры людей, в том числе студенческой молодежи как в семье, так и в учебных заведениях, общественных местах, рабочем коллективе. Наши просветители, классики и современные писатели, педагоги и психологи, философии отмечали важность задач, высказанных о главах страны. В статье рассматриваются работы, проводимые по формированию национально-нравственной культуры как важное условие социализации студентов.

***Ключевые слова:*** *студенты, национально-нравственное, национально-нравственная культура, формирование национально-нравственной культуры, критерии формирования национально-нравственной культуры, социализация студентов*

**Summary**. In Azerbaijani society, one of the urgent tasks was and is to this day the formation of the national-moral culture of people, including students, both in the family and in educational institutions, public places, and the working community. Our enlighteners, classics and modern writers, teachers and psychologists, philosophies noted the importance of the tasks expressed about the heads of the country. The article discusses the work carried out on the formation of national and moral culture as an important condition for the socialization of students.

***Keywords:*** *students, national moral, national moral culture, formation of national moral culture, criteria for the formation of national moral culture, socialization of students*

Azərbaycan cəmiyyətində, istər ailədə, istər təhsil müəssisələrində, ictimai yerlərdə, əmək kollektivlərində insanların, o cümlədən tələbə-gənclərdə milli-mənəvi mədəniyyətin formalaşdırılması həmişə öncül məsələlərdən biri olmuşdur və hazırda da son dərəcə aktual vəzifələrdən biri olaraq gündəmdədir. Mütəfəkkirlərimiz, klassik və müasir yazıçılarımız, pedaqoq və psixoloqlarımız, filosoflarımız, dövlət başçılarımız haqqında danışılan məsələyə həmişə diqqət yetirmiş, vacibliyini dönə-dönə qeyd etmişlər.

Ümummilli liderimiz Heydər Əliyev gənclərdə milli-mənəvi mədəniyyətin formalaşdırılmasına, onlarda yüksək mənəvi keyfiyyətlərin daha da inkişaf etdirilməsinə fikir verilməsini son dərəcə lazım bilirdi. Ulu öndərin sözləridir: "Gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik... Azərbaycan xalqının yüksək mənəviyyatı hər şeydən ucadır... Bu, həm xalq üçün, millət üçün, hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçündür".

Milli-mənəvi dəyərlərimiz tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması baxımından qiymətli xəzinədir. Azərbaycan xalqı maddi və mənəvi xəzinəmizi illər və əsrlərlə qoruyub saxlamışdır. Ali təhsil müəssisələrinin pedaqoji kollektivləri, professor-müəllim heyəti bu xəzinədən bəhrələnmək lazımdır.

Ümummilli lider Heydər Əliyevin müdrik sözlərini və məsləhətini yadımıza salaq: "Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır" .

Ulu öndərin irsində azərbaycançılıq ideyası özünəməxsus rola malikdir. Heydər Əliyev ölkəmizdə yaşayan xalqların vahid bir ailədə yaşadıqlarını deyir və əlavə edirdi ki, Azərbaycan bu ölkədə yaşayan xalqların hamısı üçün Vətəndir: "Biz azərbaycanlıyıq. Hamımızın Vətəni Azərbaycandır. Bizi bir xalq, bir millət, bir insan olaraq bu torpaq ərsəyə gətirmişdir. Buna görə də bizim hər birimizin canında azərbaycançılıq ruhu yaşayır. Bizi bir-birimizə bağlayan və daha çox birləşməyə sövq edən də azərbaycançılıq ruhu, azərbaycançılıq ideyası olmalıdır. Hər bir dövlətin milli ideologiyası olur. Müstəqil Azərbaycan Respublikasının milli ideologiyası da azərbaycançılıq ideologiyasıdır".

Ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və daim yaşadılması ilə bağlı 2001-ci il avqustun 13-də "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanat imzalamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz məruzə və çıxışlarında Azərbaycan xalqının hər zaman milli-mənəvi dəyərlərinə sadiq olduğunu dönə-dönə demişdir.

Cənab İlham Əliyev 2014-cü il fevralın 13-də Milli Konservatoriyanın yeni inzibati-tədris kompleksinin açılışında iştirak etmiş və demişdir: "Ona görə biz elə etməliyik ki, gənc nəsil milli ruhda böyüsün, vətənpərvər, Vətənə sadiq olsun, Vətən üçün işləsin, çalışsın. Bunu etmək üçün güclü vətənpərvərlik hissi və milli ruh lazımdır. Milli ruhun da təməlində milli ənənələr, musiqi, ədəbiyyat, ana dili dayanır. Ona görə bu sahə ümumiyyətlə, ölkəmizin gələcək inkişafı üçün çox önəmlidir" (1).

Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da uşaq, yeniyetmə və gənclərdə mlli-mənəvi mədəniyyətin formalaşdırılması məsələsini həmişə diqqət mərkəzində saxlayır. Mehriban xanım Əliyevanın sözləridir: "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında, həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir" (2).

Milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işlər tələbələrin sosiallaşmasının başlıca şərti kimi nəzərdən keçirilə bilər. Tələbələrin sosiallaşması yeni pedaqoji təfəkkür şəraitində mühüm məsələlərdən biri kimi diqqət mərkəzinə gəlir.

Nədir "sosiallaşma"? Gəlin bu suala cavab tapaq. Politoloq G. Abdullayevanın qənaətincə, "bu proses insanın cəmiyyətə adaptasiyası deməkdir. Yəni, o, artıq cəmiyyətin fəal bir üzvünə çevrilir. Başqa sözlə, sosiallaşma insanın fəal vətəndaş, bir şəxsiyyət kimi formalaşma prosesidir. Şəxsiyyət kimi formalaşmada bioloji və psixoloji amillərlə yanaşı, sosial təsir amili də mövcuddur. Sosial amil dedikdə, ictimai-siyasi

fəaliyyət nəzərdə tutulur ki, nəticədə bu, fəal vətəndaşı yaradır. Sosiallaşma üçün, ilk növbədə, mühit – cəmiyyət, insanın buna psixoloji hazırlığı və sosiallaşmaya olan ehtiyac kimi amillər mühüm rol oynayır" (3, s. 9).

Məqalə müəllifinin aşağıdakı fikirləri ilə tam razılaşmaq mümkündür: "İnsanların öz hüquq və öhdəliklərini bilməsi, özünü cəmiyyətin və sistemin tamhüquqlu bir üzvü kimi hiss etməsi, lazım gəldikdə vətəndaş mövqeyini ortaya qoya bilməsi birmənalı şəkildə dəstəklənəndir. Vətəndaş bilməlidir ki o azad, intellektual fiziki şəxsdir və onun hər hansı bir sistemdən asılılığı yoxdur, heç nəyə tabe deyil, sadəcə, tamın bir hissəsidir. Məsələlərdə öz fikrini ortaya qoya bilmə, tələb etmə hüququ vardır. "Vətəndaş hüquq və vəzifələrini bilməlidir" anlayışı tələb və təklif prosesinin obyektivliyini təmin edir. Bu, vətəndaşın cəmiyyət və sistem qarşısında məsuliyyətini və məlumatlılığını artırır ki, hər bir vətəndaş da ən azından yaşadığı cəmiyyəti tanımalıdır" (3, s. 9)..

Kanada Nikah və Ailə İnstitutunun araşdırmalar və məlumat üzrə meneceri Andrea Mrojekin qənaətləri də çox maraqlıdır. Bir sıra maraqlı və başqalarından fərqli mühakimələrlə rastlaşırıq. Onun fikirlərindən faydalanaq: "Erkən sosiallaşma uşaqların tərbiyəsində daim ən böyük şər hesab olunub…uşaqlar özləri olmağa macal tapmamış həddən artıq erkən vaxtda bir yerə salındıqda, bu onların fərdiliyini itiləmir, əksinə sındırır" (4).

Məqalədə diqqətəlayiq nümunə gətirilir. Fikir verək: "Mən əmin olmaq istəyirəm ki, oğlum ətrafdakılarla ünsiyyət qurmağı öyrənir" – bir valideyn deyir. Digəri əlavə edir: "Qızım utancaqdır. İstəyirəm ki, o digər uşaqlarla birlikdə olsun, bu ona öz "qınından" çıxmağa kömək edəcək". Üçüncü valideyn isə həyəcanla bildirir ki, uşağı bağçadakı bütün dostlarını sevir: "O həsrətlə gözləyir ki, bağçaya gedib onlarla vaxt keçirsin!".

"Valideynlər öz uşaqlarının digərləri ilə ünsiyyət qurmaq bacarıqlarından narahat olmaqda haqlıdırlar. Lakin həmyaşıdlarla erkən qarşılıqlı əlaqənin balaca uşaqların sosiallaşmasına müsbət təsir göstərdiyi fikri doğrudurmu?

Kanadalı psixoloq, doktor Qordon Nyufeld bildirir ki, bu heç də belə deyil. Məsələ burasındadır ki, onlar balaca uşaqları buna hazır olmazdan əvvəl "sosiallaşdırıcı" mühitə salırlar" (4).

Uri Bronfenbrennerin mülahizələri də maraqlıdır. Psixoloq nəyin sosiallaşma olmadığını aşağıdakı şəkildə təqdim edir: "Aydın olmalıdır ki, sosiallaşmaq – mədəniləşmək demək deyildir. Unutmayın ki, nasist gənclər də sosiallaşma prosesinin məhsulu idi". Sosiallaşma o deməkdir ki, uşaqlar cəmiyyətə uyğunlaşdırılmış şəkildə elə tərbiyə olunur ki, onlar böyüdükdə cəmiyyətə fayda gətirəcək böyüklər ola bilsinlər və həm işdə, həm evdə, həmkarları, ailələri və dostları ilə qarşılıqlı hörmətə əsaslanan ünsiyyət qura bilsinlər" (4).

Məqalədə diqqəti cəlb edən başqa məqam da vardır. Diqqət yetirək: "Doktor Nyufeld və onun Nyufeld İnstitutunda çalışan həmkarları üçün sosiallaşma təkcə həmyaşıdları ilə yaxşı yola getmək bacarığı deyil. Sosiallaşma – özün olmağa davam edərək ətrafdakılarla münasibət qurmaq bacarığını özündə əks etdirir.

Nümunə olaraq, Doktor Nyufeld münaqişəyə səbəb olmamaq qorxusu ilə öz fikrini bildirməyə qadir olmayan qadın müəllimi misal gətirir. Müəllimlər iclasında bu müəllim kiməsə öz etirazını bildirməkdənsə, susub oturmağa üstünlük verir. Elə təəssürat yaranır ki, bu müəllim "çox gözəl insandır" və digərləri ilə yaxşı yola gedir. Bəlkə də o öz şagirdlərinə də bunu məsləhət görür. Əslində isə, o münaqişə qorxusu ilə öz şəxsi "mənliyini" qoruyub-saxlaya bilmir.

Daim hər kəslə razı olmaq və "yaxşı insan" olmaq cəhdləri əslində inkişaf etməmiş, yetişməmiş bir şəxsiyyətin gizli əlamətləri ola bilər" (4).

Tələbələr ali təhsil müəssisələrində müəyyən peşələrə (müəllim), konkret ixtisaslara (tarix müəllimi) yiyələnirlər. Gələcək mütəxəssis üçüm mədəniyyət heç də bir dəstə dəyər deyil, əslində yaradıcı fəaliyyət imkanları, mənəviyyat, ruhi aləmdir, əxlaqi təmizlik, saflıqdır. Tələbələrdə milli-mənəvi mədəniyyətin təşəkkülü istiqamətində aşağıdakı vəzifələr həyata keçirilməlidir:

-tələbələrdə mənəvi-ruhi inkişafa, mənəvi təkmilləşməyə, özünüqiymətləndirməyə, öz həyatının mənasını bilməyə, nümunəvi davranışa tələbat yaradılmalıdır;

-əxlaqi normalar əsasında mənəvi fəaliyyətdə, sosial və peşə mobilliyində fəallıq olmalıdır;

-azadlığa, iradəyə və mənəvi-ruhi milli ənənələrə əsaslanmaqla mənəviyyatı inkişaf et-

dirmək lazımdır, əxlaqın saflaşdırılması təmin olunmalıdır;

-tələbələrdə vicdanlılıq, xeyirxahlıq, ədalətlilik, humanizm, obyektivlik, insansevərlik, vətənpərvərlik və s. bu kimi müsbət keyfiyyətlərin formalaşdırılması qayğısına qalmaq lazımdır;

-milli dəyərlərə, milli mənəvi adət və ənənələrə hörmət hissləri inkişaf etdirilməlidir;

-milli şərəf və milli ləyaqət, ailə şərəfi və ləyaqəti, milli mənlik şüuru formalaşdırılmalıdır;

-tələbələrdə tənqidi təfəkkürün inkişaf etdirilməsi nəzərdə tutulmalı, özünütənqid bacarığı yaradılmalıdır;

-toleranqlığın tərbiyə olunmasına nail olunmalı, intolerantlığın yalnız düşmənə münasibətdə lazım gəldiyi tələbələrə başa salınmalıdır;

-başqalarının mənafeyinin tapdalanmaması, eyni zamanda insan həyatının dəyərinin başa düşülməsi təmin edilməlidir;

-insanların həyatına, bəşəriyyətin mövcudluğuna təhlükə törədə biləcək hallara qarşı barışmazlıq tərbiyə olunmalı, ətraf mühitin, ekologiyanın qorunmasına tələbat yaradılmalıdır;

-öz ailəsi, Vətənimiz üçün borc, məsuliyyət hissi, cavabdehlik formalaşdırılmalıdır və s.

Milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işlər tələbələrin sosiallaşmasına təsirini artırmaq üçün müəyyən meyarlar əsas götürülməlidir. Aşağıda qeyd edəcəyimiz meyarları məqsədəuyğun hesab edirik: *definisial meyar* (ruhi-mənəvi kateqoriyaları və onların tətbiqini bilmək); *davranış-iradı yönlü meyar* (fəaliyyətin hər hansı bir növündə şəxsiyyətin ruhi-mənəvi mədəniyyətə yiyələnməyə hazır olması, özünütəkmilləşməyə cəhdi, əxlaq normalardan kənaraçıxmalara qarşı barışmazlıq); imperatib meyar (məntiqi təfəkkürün formalaşdırılması, mənəvi-ruhi sahə çərçivəsində fəaliyyətin məqsədəyönəlmişliyi) və s.

**Problemin aktuallığı.** Milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işlərə tələbələrin sosiallaşmasının əsas şərti kimi yanaşılması öz aktuallığı ilə fərqlənir.

**Problemin yeniliyi.** Milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işlər tələbələrin sosiallaşmasının başlıca şərti kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2014-cü il fevralın 13-də Milli Konservatoriyanın yeni inzibati-tədris kompleksinin açılışı zamanı nitqi. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. https://president.az/articles/11013/print
2. C. Feyziyev. Müasir Azərbaycan qadınının real obrazı: Mehriban Əliyeva. “Xalq qəzeti”, 2016, 26 avqust
3. G. Abdullayeva. Siyasi sosiallaşma və bu prosesə təsir edən amillər. “Xalq qəzeti”, 2013, 2 iyul
4. Andrea Mrojek. Забота о детях: почему раннее образование в этом не помощник? http://tebiivalideynlik.az/bes-sosiallasma/


**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**E-mail:** tahiraaztu@gmail.com
**Redaksiyaya daxil olub:** 16.10.2018

UOT 37.

**Həmidə İsgəndər qızı Qasımova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# YUXARI SİNİF ŞAGİRDLƏRİNİN TƏŞKİLATÇILIQ QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN PEDAQOJİ ƏSASLARI

**Гамида Искендер гызы Гасымова**
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИИ ОРГАНИЗАТОРСКИХ СПОСОБНОСТЕЙ У СТАРШЕКЛАССНИКОВ

**Hamida İsgandar Gasimova**
*doctorial student in the program of a Ph.D*
*İnstitute of Education of the Republic of Azerbaijan*

# PEDAGOGICAL BASIS OF THE FORMATION OF ORGANIZATIONAL ABILITIES IN HIGH SCHOOL STUDENTS

**Xülasə.** Təşkilatçılıq qabiliyyəti şəxsiyyətin təşəkkül tapıb formalaşmasında çox mühüm rol oynayır. Bu qabiliyyətlər fəaliyyətin bütün növlərində vacibdir. Xüsusi qabiliyyətlər fəaliyyətin növlərinin məhdud dairəsində müvəffəqiyyəti təmin edən keyfiyyətlərdir. Buraya, məsələn, görmə yaddaşı, insanları anlamaq, əllərin hissiyyatı aiddir. Kommunikativ və təşkilatçılıq qabiliyyətləri də xüsusi qabiliyyətlərə daxildir. Təşkilatçılıq qabiliyyətləri idarəetmə sahəsində yüksək səviyyəyə çatmağa, müxtəlif planların həyata keçirilməsinə və tədbirlərin təşkilinə kömək göstərir.

***Açar sözlər:*** *yuxarı sinif şagirdləri, təşkilatçılıq qabiliyyətləri, təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması, pedaqoji əsaslar, özünüidarə*

**Резюме.** Организаторские способности играют большую роль в становлении личности. Эти качества важны во всех видах деятельности. Специальные способности - это качества, обеспечивающие успех в узком кругу видов деятельности. К таким, например, относятся зрительная память, понимание людей, чувствительность рук. Коммуникационные и организаторские способности также можно отнести к специальным способностям. Организаторские способности подразумевают также возможность достижения высокого уровня мастерства в сфере управления, организации разного рода планов и мероприятий.

***Ключевые слова:*** *старшеклассники, организаторские способности, формирование организаторских способностей, педагогические основы, самоуправление*

**Summary.** Organizational skills play a large role in the development of the personality. These qualities are important in all activities. Special abilities are qualities that ensure success in a narrow circle of activities. These include, for example, visual memory, people's understanding, and hand sensitivity. Communication and organizational skills can also be attributed to special abilities. Organizational skills also imply the possibility of achieving a high level of excellence in management, organizing all sorts of plans and events.

***Key words:*** *high school students, organizational skills, formation of organizational skills, pedagogical foundations, self-government*

Yeni pedaqoji təfəkkürün tələblərindən biri də məktəblilərdə, o cümlədən yuxarı sinif şagirdlərində müstəqillik və idrak fəallığı ilə yanaşı onlarda təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması və inkişaf etdirilməsindən ibarətdir.

Təşkilatçılıq qabiliyyətləri şəxsiyyətin təşəkkül tapıb formalaşmasında çox mühüm rol oynayır. Bu qabiliyyətlər fəaliyyətin bütün növlərində vacibdir. Xüsusi qabiliyyətlər fəaliyyətin növlərinin məhdud dairəsində müvəffəqiyyəti təmin edən keyfiyyətlərdir. Buraya, məsələn, görmə yaddaşı, insanları anlamaq, əllərin hissiyyatı aiddir. Kommunikativ və təşkilatçılıq qabiliyyətləri də xüsusi qabiliyyətlərə daxildir.

Təşkilatçılıq qabiliyyətləri idarəetmə sahəsində yüksək səviyyəyə çatmağa, müxtəlif planların həyata keçirilməsinə və tədbirlərin təşkilinə kömək göstərir.

Təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması probleminin öyrənilməsi həm didaktikanın, həm də tərbiyə nəzəriyyəsinin vəzifələrinə daxildir. Bu qabiliyyətlərin öyrənilməsində çox mühüm cəhət kimi özünütəyin, özünüreallaşdırma və həyatakeçirmə, azadlıq, qarşılıqlı anlama və anlama, əməkdaşlıq, bir-birinə dayaqdurma dəyərlərinə əsaslanan kollektiv fəaliyyətə sabit-müsbət münasibətlərin formalaşmasına imkan verən şərtlər özünü göstərir.

Şagird kollektivinin inkişafı şagirdin inkişafının hər bir yaş mərhələsində təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasından xeyli dərəcədə asılıdır. Böyük məktəb yaşı dövrü (13-15 yaş) təşkilatçılıq qabiliyyətlərinin planauyğun və sistemli formalaşdırılması üçün mühüm dövrdür. Böyük məktəb yaşlı məktəbli nəzəri təfəkkürə yiyələnir, onda həyat fəaliyyəti barədə dəyərli fikirlər, mövqe yaranır, onlar öz həyat yollarını layihələndirirlər. Formalaşdırılmış təşkilatçılıq qabiliyyətləri böyük məktəbyaşlı şagirdə hər hansı bir qrupa uğurla uyğunlaşmağa imkan verir.

Yuxarı sinif şagirdlərinin təşkilatçılıq qabiliyyətləri fəaliyyətin müxtəlif növlərində həyata keçirilir. Yeniyetmənin fəaliyyətin aparıcı növünün ünsiyyət olduğu faktı nəzərə alınmalıdır. Məzmun həmyaşıdları ilə qarşılıqlı anlaşmanın, qarşılıqlı fəaliyyətin müəyyənləşdirilməsinə, bu bacarıqların formalaşdırılmasının səmərəli şərtlərinə yönəlməlidir. Bu sahədə şagird özünüidarə orqanları mühüm rol oynayır. Sinif rəhbərləri, fənn müəllimləri, məktəb direktorunun tərbiyə işləri üzrə direktor müavini ilə yanaşı şagird özünüidarə orqanları yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi qayğısına qalmalıdırlar.

Şagird özünüidarə orqanları məktəblilərin həyat fəaliyyətinin müstəqil təşkilinə istiqamətlənir. Bu, şagirdlərdən öz fəaliyyətlərinə məsuliyyətli yanaşmanı nəzərdə tutur.

Şagird özünüidarəsinin inkişaf etdirilməsi prosesi müəllimin pedaqoji rəhbərliyi şəraitində müvəffəqiyyətlə reallaşır. Yeni pedaqoji təfəkkür təhsil prosesinin bütün subyektlərinin məktəbin idarə olunmasında fəal iştirakını nəzərdə tutur.

Bu, şagird özünüidarəsinin təşəkkülü prosesində bir tərəfdən, şagirdləri məktəbin həyat fəaliyyətinin idarə olunma subyekti kimi adekvat olaraq qəbul etməyən müəllimlərin mövqeyi ilə bağlı olan bir sıra çətinlikləri meydana gətirir; digər tərəfdən, öz fəaliyyətlərinin təşkilatçıları rolunda çıxış etməyə hazır olmayan şagirdlərin mövqeyi ilə bağlıdır.

Təhsilalanlarda təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması pedaqoji tədqiqatlarda yeni məsələ deyildir. Hələ vaxtilə A.S. Makarenko uşaq kollektivində təşkilatçının tərbiyə olunması problemini diqqət mərkəzinə gətirmişdi. Onun ideyaları sonralar İ.P. İvanov, A.N. Lutoşkin, M.İ. Rojkov, A.S. Çernışev və b. tərəfindən inkişaf etdirildi. Təşkilatçılıq fəaliyyəti və təşkilatçılıq bacarıqları və qabiliyyətləri psixoloqlardan L.İ. Umanski və A.N. Lutoşkin tərəfindən tədqiqata cəlb edilmişdir. A.V. Kosov, E.A. Malaşenkova və E.T. Toksombayev təşkilatçılıq bacarıqlarının formalaşdırılmasını tədqiq etmişlər.

Özünüidarə pedaqoji fenomen kimi pedaqoji nəzəriyyə və təcrübənin diqqət mərkəzində olmuşdur. K.D. Uşinski bu problemi şagird mühitində araşdırmış, cəmiyyətdə müstəqil həyata hazır olan azad şəxsiyyətin tərbiyəsi haqqında fikri əsaslandırmışdı.

Müasir elmi-pedaqoji ədəbiyyatda şagird özünüidarə orqanı prosesinin çoxcəhətli öyrənilməsinə baxmayaraq, yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətlərinin pedaqoji əsasları xüsusi olaraq nəzərdən keçirilməmişdir.

Yuxarı sinif şagirdlərinin təşkilatçılıq qabiliyyətlərinin strukturunu müəyyənləşdirməyə çalışdıq. Bu strukturun dörd komponentini aşkara çıxardıq:

Motivasiyadəyərli komponent şagirdin həyatda fəaliyyətin rolunun, əhəmiyyətinin və eyni zamanda təşkilatçılıq qabiliyyətlərinə yiyələn-

mənin zəruriliyinin başa düşülməsini özündə birləşdirir.

Koqnitiv komponent fəaliyyətin strukturu və onun hər bir elementi barədə biliklərin formalaşdırılmasını, eyni zamanda sinifdə, məktəbdə hansı təşkilatçılıq qabiliyyətinə malik olmağın zəruriliyi barədə təsəvvürü nəzərdə tutur.

Əməliyyatyönlü komponent təşkilatçılıq qabiliyyətlərinin kompleksinə daxil olan müstəqil fəaliyyətin, işin həyata keçirilməsini tələbata çevirir.

Qiymətləndirici-refleksiv komponent yerinə yetirilmiş fəaliyyətin və əməliyyatların qiymətləndirilməsini və təhlilini nəzərdə tutur.

Təşkilatçılıq qabiliyyətlərinin strukturuna və yuxarı sinif şagirdlərinin yaş xüsusiyyətlərinə uyğun olaraq, ümumiləşdirilmiş qabiliyyətlərin mərhələlərlə formalaşdırılmasına əsaslanmaq lazımdır. Bu mənada təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasının aşağıdakı mərhələlərini qeyd etmək mümkündür:

1) kollektiv fəaliyyət prosesində təşkilatçılıq vəzifələrinin həyata keçirilməsi zamanı təşkilatçılıq qabiliyyətlərinə yiyələnmənin vacibliyinin şagirdlər tərəfindən dərk olunması;

2) təşkilatçılıq fəaliyyətlərinin məqsədinin müəyyən edilməsi;

3) təşkilatçılıq fəaliyyətinin elmi əsaslarının aydınlaşdırılması;

4) fəaliyyətin başlıca struktur komponentlərin müəyyən edilməsi;

5) əməliyyatların yerinə yetirilməsinin daha səmərəli ardıcıllığının müəyyən edilməsi. Fəaliyyətin modelinin (alqoritminin) qurulması (kollektiv və yaxud müstəqil axtarışlar əsasında);

6) daha çox tapşırıqların verilməsi. Bu zaman müəllim-təşkilatçı tərəfindən nəzarət həyata keçirilir.

7) yerinə yetirilmiş tapşırıqların birgə təhlili və alınmış nəticələrin qiymətləndirilməsi;

8) şagirdlərdən təşkilatçılıq fəaliyyətləri məlumatlarını müstəqil yerinə yetirmək bacarıqları tələb edən tədbirlərin həyata keçirilməsi;

9) kollektiv fəaliyyət prosesində yerinə yetirilmiş təşkilatçılıq fəaliyyətlərinin müstəqil təhlili və alınmış nəticələrin qiymətləndirilməsi;

10) fəaliyyətin daha mürəkkəb növlərində yeni, daha mürəkkəb bacarıqlara yiyələnmək üçün fəaliyyətin yerinə yetirilməsi zamanı müəyyən qabiliyyətlərdən istifadə olunması və s.

Tədqiqat zamanı biz yuxarı sinif şagirdlərində formalaşdırılması nəzərdə tutulan təşkilatçılıq qabiliyyətlərinin təsnifatını apardıq:

1. Fəaliyyət seçimində prioritetləri müəyyənləşdirən bacarıq – öz fəaliyyətində və sinfin fəaliyyətində başlıcanı və ikinci dərəcəlini ayırmağa hazır olmaq, həmçinin əsas vəzifələri müəyyənləşdirməyi bacarmaq.

2. Şəxsi və sinif motivlərini müəyyən etmək bacarığı – motivləri aşkara çıxarmağa hazır olmaq (fəaliyyətə təhrikedici) ki, bu da fəaliyyətin bu və ya digər növlərinin əhəmiyyətini dərk etməyə imkan verir.

3. Özünün və kollektivin qarşısında konkret məqsədi qoymaq bacarığı – həyata keçiriləcək gözlənilən nəticənin dərk edilməsinin təsəvvür olunmasına hazır olmaq.

4. Sinfin fəaliyyətini planlaşdırmaq bacarığı.

5. Vasitələri seçmək bacarığı.

6. Fəaliyyətin ardıcıl şəkildə yerinə yetirilməsi bacarığı – müvafiq plana uyğun olaraq fəaliyyət göstərmək.

7. Fəaliyyətin yerinə yetirilmə vaxtını dəqiq müəyyənləşdirmək bacarığı.

8. Fəaliyyətin nəticələrini təhlil etmək bacarığı. Fəaliyyət prosesində onun struktur komponentləri və nəticənin keyfiyyəti ilə bağlı qənaətlərin formulə edilməsi arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirə bilməyə hazır olmaq.

9. Nəticələr əsasında sinif, kollektiv fəaliyyətin gedişi vəziyyəti barədə proqnoz vermək bacarığı.

Yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasında sinif və məktəb özünüidarə orqanları əhəmiyyətli rol oynayır. Ona görə də ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri şagird özünüidarə orqanlarının təşkili və səmərəli fəaliyyəti qayğısına qalmalıdırlar.

**Problemin aktuallığı.** Yuxarı sinif şagirdlərinin təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin pedaqoji əsaslarının müəyyənləşdirilməsi özünün aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Yuxarı sinif şagirdlərinin təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin pedaqoji əsasları diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Gənc tədqiqatçılar, doktorant və dissertantlar məqalədən faydalanacaqlar.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
2. Əliyeva R.M. Orta ixtisas məktəblərinin təlim və tərbiyə sistemində tələbələrin sosial fəallığının formalaşdırılması: Ped.ü.fəls.dok. ...dis. Bakı, 2017.

**E-mail:** hamida15@mail.ru
**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub**: 02.10.2018.

# *PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*

*UOT 159.9.*

***Edison Məmməd oğlu Quliyev***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

## YENİYETMƏ DÖVRÜNDƏ SOSİAL DAVRANIŞIN İNKİŞAFININ PSİXOEMOSİONAL XÜSUSİYYƏTLƏRİ

***Эдисон Мамед оглы Гулиев***
*доцент Азербайджанского Государственного Педагогического Университета*

## ПСИХОЭМОЦИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ СОЦИАЛЬНОГО ПОВЕДЕНИЯ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

***Edison Mammad Guliev***
*associate professor at Azerbaijan State Pedagogical University*

## PSYCHO-EMOTIONAL FEATURES OF THE DEVELOPMENT OF SOCIAL BEHAVIOR IN ADOLESCENCE

**Xülasə.** Məqalədə yeniyetmə dövründə davranışın sosiallaşmasının psixoemosional xüsusiyyətləri xarakterizə edilmiş və bu əsasda bəzi yeniyetmələrdə müşahidə olunan davranış kənaraçıxmalarının mahiyyəti aşkarlanaraq təhlil edilmişdir. Belə bir ümumi yanaşma əsaslandırılır ki, yeniyetmə yaşlı şagirdlərin davranışının müsbət istiqamətdə formalaşmasında ailədaxili münasibətlərin tənzim olunmasının və münaqişələrə səbəb ola biləcək psixoemosional gərginliklərin xəbərdar edilərək aradan qaldırılmasının çox mühüm əhəmiyyəti vardır. Yaranan belə əlverişli şəraitin təsiri altında yeniyetmələrdə ağlabatan və motivləşən sosial davranışın inkişafına müvəffəqiyyətlə nail olmaq mümkündür.
***Açar sözlər:*** *ailədaxili münasibətlər, konfliktli münasibətlər, davranış müstəqilliyi, emosional müstəqillik, şəxsi motivlər, sosial davranış, kommunikativ maraqlar, aqressiv davranış*

**Резюме:** В статье характеризуются психоэмоциональности социализации поведения в подростковом возрасте и на этой основе анализируются причины наблюдаемых нарушений поведения у некоторых подростков. Обосновывается общий подход в том, что в развитии нормального поведения у школьников подросткового возраста большое значение имеет регулирования внутрисемейных отношений и предупреждение возможных психоэмоциональных нарушений, которые могут способствовать возникновению конфликтной ситуации. В таких благоприятных условиях можно успешно развивать у подростков разумное и мотивированное социальное поведение.
***Ключевые слова:*** *внутрисемейные отношения, конфликтные отношения, поведенческая самостоятельность, эмоциональная самостоятельность, личностные мотивы, социальное поведение, коммуникативные интересы, агрессивное поведение*

**Summary**: The article describes the psychoemotional socialization of behavior in adolescence and on this basis analyzes the causes of the observed behavioral disorders in some adolescents. The general approach is based on the fact that in the development of normal behavior among adolescent schoolchildren, the regulation of intrafamily relations and the prevention of possible psycho-emotional disorders that may contribute to a conflict situation are of great importance. In such favorable conditions it is possible to successfully develop sensible and motivated social behavior in adolescents.
***Keywords***: *family relations, conflict relations, behavioral autonomy, emotional autonomy, personal motives, social behavior, communicative interests, aggressive behavior*

Yeniyetmə dövründə şagirdin sosial aktivliyi genişlənir və bu amil onun davranışının və münasibətlərinin yenidən qurulmasını şərtləndirir. Yeni tipli münasibətlərin yaranması prosesi müəyyən çətinliklərlə müşayiət olunur. Çünki yeniyetmənin böyüklərin dünyasına daxil olması ondan psixoloji və sosial hazırlıq tələb edir. Belə ki, sosial vərdişlərin lazımi səviyyədə inkişaf etməməsi şəraitində yeniyetmənin yeni tipli münasibətlərə daxil olması müəyyən psixoemosional gərginlik törədir. Xüsusilə, yaranan qeyri-müəyyənlik yeniyetmənin həyatına gərginlik gətirir və bu amil onun münasibətlərinin xarakterinə bilavasitə təsir göstərir. Belə şəraitdə yeniyetmə psixoloji baxımdan təklənir və onun ünsiyyət fəallığı zəifləyir.

Yeniyetmə dövründə ailədaxili münasibətlərdə, yeniyetmə - valideyn ünsiyyətində nəzərə çarpan gərginlik yaranır. Yeniyetmənin valideynlərindən asılı vəziyyətdə olması və bu zəmində onun müstəqilliyinin məhdudlaşdırılması çox ciddi psixoemosional gərginlikdə müşayiət olunur. Yaranmış bu ziddiyyətli vəziyyət yeniyetmə-valideyn münasibətlərinin tənzim olunmasında, onun ağlabatan xarakter daşımasında müəyyən çətinliklər törədir.

Ailədaxili münasibətlərdə yeniyetmənin yaşlıların himayəsindən azad olmağa fəal meyl onun davranışının əsas motivlərindən birinə çevrilir. Valideyn himayəsindən azad olmaq cəhdi konfliktli münasibətlərin yaranmasını şərtləndirir. Burada yeniyetmənin maddi baxımdan valideynlərindən asılı olması heç də az əhəmiyyət kəsb etmir. Yeniyetmənin müstəqilliyi və onun davranışının psixoemosional yönəlişliyi üç cəhəti özündə birləşdirir: a) yeniyetmə emosional baxımdan valideynlərinə bağlılığından imtina edərək yaşıdlarına daha çox yaxınlaşmağa çalışır; b) yeniyetmə davranış müstəqilliyinə nail olmaqla valideynlərinin himayəsindən xilas olmağa çalışır; c) yeniyetmə valideynlərinin qəbul etdiyi dəyərlərdən və normalardan uzaqlaşmağa meyl edir. Bütün bu amillərin təsirinin davamı olaraq yeniyetmə emosional müstəqilliyini təmin etməyə çalışaraq valideynlərinin ona olan emosional təsirini aradan qaldırmağa çalışır.

Yeniyetmənin davranış müstəqilliyi və dəyərlərlə bağlı mövqeyi müəyyən mənada nisbi xarakter daşıyır. Belə ki, yeniyetmə əslində məhdudiyyətsiz müstəqilliyə nail olmaq istəmir, çünki belə vəziyyət onu ailədən tamamilə uzaqlaşdıra bilər. Valideyn - yeniyetmə münasibətlərində yaranan gərginlik bir çox hallarda tərəflərin maraqlarının üst-üstə düşməməsi ilə əlaqədar ola bilər. Bunun təsiri altında yeniyetmə ailənin maraqları çərçivəsindən kənara çıxır və özünün şəxsi motivlərinə əsaslanaraq davranışını tənzim etməyə çalışır. Yeniyetmənin ailədə konfliktli münasibətləri bəzi səbəblərlə əlaqədar ola bilər: a) dostların və tərəfdaşların müstəqil sürətdə seçilməsi və valideynlərinin rəyinin nəzərə alınmaması; b) məktəbdaxili və məktəbdənxaric tədbirlərdə, görüşlərdə iştirak etməyə aktiv meyil; c) geyimlə, saç düzümü ilə əlaqədar qeyri-məhdud müstəqillik; ç) ailədaxili tədbirlərdən və işlərdən yayınma; d) ailədaxili iş və istirahət rejiminin gözlənilməməsi. Bütün bunlar ailə üzvlərinin çoxluğu şəraitində yarana biləcək konfliktli münasibətləri daha da dərinləşdirəcək davamlı bir ailədaxili vəziyyətə çevirir.

Ailədaxili konfliktlərin mövcud olmasına baxmayaraq, əksər hallarda yeniyetmələrin davranışı müsbət istiqamətə malik olur. Belə ki, normal tərbiyə mühiti şəraitində yeniyetmənin ailədaxili münasibətləri normal xarakter daşıyır və müsbət emosional fonla müşayiət olunur. Yeniyetmə ailənin qayğılarında yaxından iştirak edir, nailiyyət və uğursuzluqlar onda emosional mütəəssirlik doğurur. Yeniyetmə valideynlərinin nüfuzu ilə hesablaşır və onlarla səmimi və qarşılıqlı anlaşmaya əsaslanan münasibətlər qurmağa çalışır.

Yeniyetmə yaşı dövründə şagirdlərin sosial davranışının formalaşmasında onların yaşıdları ilə münasibətlərinin və emosional əlaqələrinin mühüm əhəmiyyəti vardır. Yaşıdları ilə əlaqə və münasibət yeniyetmənin sosial davranışının əsas amillərdən biri kimi xarakterizə oluna bilər. Müşahidələr göstərir ki, tənhalığa və tək qalmağa meyl çox az bir qisim yeniyetmələr üçün səciyyəvi hal sayıla bilər. Yaşıdları ilə ünsiyyət əksər yeniyetmələrin sosial motivi kimi ön plana çəkilir və bu amil onlarda özünüdərkin inkişafına bilavasitə təsir göstərir. Sosial davranış və ünsiyyət sahəsində topladığı təcrübə yeniyetmənin müstəqil həyat və fəaliyyətə hazırlanmasında heç də az əhəmiyyət kəsb etmir.

Aparılmış psixoloji tədqiqatların nəticələri göstərir ki, yeniyetmə dövründə sosial davranışın formalaşması prosesini müşayiət edən ünsiy-

yət amili bəzi əlavə psixososial funksiyaların yerinə yetirilməsini reallaşdırır: a) ünsiyyət vasitəsilə yeniyetmə müəyyən məlumatları (böyüklərdən ala bilmədiyi) əldə etməyə nail olur; b) yaşıdları ilə ünsiyyət yeniyetmənin sosial əlaqələri ilə bağlı təcrübəsini formalaşdırır; c) qarşılıqlı ünsiyyət şəraitində yeniyetmənin davranışı emosional mütəəssirliklə müşayiət olunur və bu zəmində o, həmyaşıdları ilə səmimi münasibətlər qurmağa nail olur.

Yeniyetmə dövrünün ən səciyyəvi psixoloji xüsusiyyətlərindən biri odur ki, bu yaş mərhələsində sosial davranışının formalaşmasında ünsiyyət amili aparıcı mövqeyə malik olur. Cinslərdaxili və cinslərarası ünsiyyətin formalaşması yeniyetmənin sosiallaşması prosesinin ümumi istiqamətinə bilavasitə təsvir göstərir.

Cinsi sosializasiyanın formalaşması şəraitində yeniyetmələrin sosial davranışında nəzərə çarpan dəyişikliklər baş verir. Bu, ilk növbədə, cinsi mənsubiyyətlə əlaqədar olan rolların müəyyənləşməsi ilə müşayiət olunur. Yeni tipli sosial davranışının yaranması cinslərarası münasibətlərin xarakterinə bilavasitə təsir göstərir. Bu təsirin bəzi əlamətləri ön plana çəkmək olar: a) əks cinsə marağın fəallaşması, b) qızların özünəməxsus cinsi əlamətlərinin və bununla bağlı sosial davranışın davamlı xarakter daşıması, c) cinsi mənsubiyyətlə əlaqədar davranış formalarının daha çox istifadə olunması; d) cinsi sosiallaşmanın təsiri altında məişət adətlərinin və maraqlarının yeni tipli sosial davranışın formalaşmasında rolunun genişlənməsi.

Yeniyetmə dövründə sosial davranışın formalaşmasında müxtəlif tipli maraqların inkişafı və onların məzmun xarakteristikasının çox mühüm əhəmiyyəti vardır. Yeniyetməyə məxsus maraqların qrupları bunlardır: 1) intellektual-estetik maraqlar: yeniyetmələrdə müxtəlif texniki sahələrə, incəsənətə, tarixə və i.a. maraq aktiv xarakter daşıyır; 2) fiziki imkanların inkişaf etdirilməsinə fəal meyl: yeniyetmə idmanla məşğul olur, fiziki gücünü, dözümlülüyünü artırmağa ciddi diqqət yetirir; 3) yaşıdları qrupunda lider olmağa tələbatın formalaşması: yeniyetmə yaşıdları içərisində fərqlənməyə, aparıcı mövqeyə malik olmağa və lazım gəldikdə başqalarına rəhbərlik etməyə çalışır; 4) diqqət mərkəzində olmaq naminə yeniyetmə istənilən işlərin yerinə yetirilməsində aktiv iştirak etməyə çalışır, necə deyərlər, yorulmaq bilmir; 5) müxtəlif tipli uduşlu oyunlarda iştirak etməyə meylin fəallaşması; 6) kommunikativ maraqların təmin edilməsinə marağın olması: yeniyetmə ünsiyyət dairəsini genişləndirməklə daha geniş və çoxşaxəli planda məlumatlar əldə etməyə çalışır.

Beləliklə, yeniyetmə dövründə sosial davranışın formalaşmasında bir sıra psixososial amillərin rolu ön plana çəkilə bilər: cinsi sosiallaşma və onunla bağlı baş verən dəyişikliklər, orqanizmin fizioloji inkişaf sisteminin yenidən qurulması, yeniyetmənin sosial statusunun qeyri-müəyyənliyi, yeniyetmənin yeni tipli fərdi-psixoloji xüsusiyyətlərinin formalaşması.

Müşahidələr göstərir ki, yeniyetmənin müstəqil olmağı, yaşlıların himayəsindən azad olmağa fəal meyli bir çox hallarda yeniyetmə - yaşlı münasibətlərini gərginləşdirir və münaqişəli situasiyaların yaranmasına səbəb olur. Bununla belə, qeyd etmək lazımdır ki, yeniyetmələr mütləq müstəqilliyə yox, nisbi müstəqilliyə nail olmaq istəyirlər.

Yeniyetmə dövründə sosial davranışda müəyyən kənaraçıxmalar da qeydə alınır. Belə ki, bu yaşda davranışın təcavüzlə bağlı formaları daha tez-tez müşahidə olunur. Təcavüzə meylli davranışın qarşısının almaq üçün, ilk növbədə, yeniyetmənin motivasiya sferasına təsir göstərərək onu sağlamlaşdırmaq lazımdır. Başqa adamlarla bağlılığın motivasiyasının formalaşması şəraitində yeniyetmənin yaşlılarla münasibətlərinin normal olmasına tələbatı fəallaşır və o istəyir ki, yaşlılar onu dəstəkləsin və maraqlarını nəzərə alsınlar. Təcavüzlü davranışın psixokorreksiyasında, yeniyetmənin müəyyən qadağalara və tələblərə alışdırılmasının da mühüm əhəmiyyəti vardır. Onu da əlavə etmək lazımdır ki, aqressiv davranışın korreksiyasında yeniyetmə - valideyn münasibətlərinin səmimi və qarşılıqlı hörmət əsasında qurulmasının heç də az əhəmiyyəti yoxdur. Yeniyetmələrdə təcavüzlü davranışın qarşısını iki yolla almaq olar: a) yeniyetmənin hərəkətinin qarşısı dərhal alınır; b) yeniyetmə ciddi sürətdə cəzalandırılır. Belə halda təcavüzlü davranış möhkəmləndirilmir və yeniyetmə müsbət davranışa doğru istiqamətləndirilir. Bu zəmində möhkəmləndirilməyən təcavüzə meyilli davranış tədricən zəifləyərək öz təsirini itirir.

Yuxarıda qeyd olunduğu kimi, fəal sürətdə reallaşdırılan cəzalandırma təcavüzlü davranışın korreksiyasında və ləngidilməsində istifadə oluna bilər. Lakin heç də həmişə cəzanın təsiri sayəsində təcavüzlü davranış aradan qalxmır (xüsusilə cəzanın zəif olması şəraitində). Müəyyən olunmuşdur ki, cəzanın ciddiliyi ilə aqressivliyin səviyyəsi arasında müsbət asılılıq vardır. Cəza amili valideynlər tərəfindən istifadə olunarsa, belə halda yeniyetmənin cəzalandırılması tərbiyəvi funksiyaların reallaşdırılmasını təmin edə bilər. Cəzanın ciddiliyi təcavüzlü davranışı stimullaşdırmır, lakin onun nisbətən zəif, yüngül formada istifadə olunması əks effekt verir. Odur ki, cəza amili çox ehtiyatla istifadə olunmalı və valideynlər yaranmış münaqişəli situasiyanı ağlabatan sürətdə təhlil edərək daha əlverişli olan təsvir üsulunu tətbiq etməyə nail olmalıdırlar.

Aparılmış psixoloji tədqiqatların nəticələrinin təhlili göstərir ki, şəxsiyyətin sosialyönlü, qeyri-təcavüzlü davranışının formalaşmasında möhkəmləndirmə mexanizmlərinin əhəmiyyəti rolu olsa da belə, əsas mövqeyə qeyri-təcavüzlü davranış formalarının fəal sürətdə aşılanmasının mühüm rolu vardır. Belə şəraitdə şəxsiyyətin davranışla bağlı motivasiyası möhkəmlənir.

Təcavüzlü davranışın təzahüründə cinsi fərdlərlə yanaşı, yeniyetməlik yaşının ayrı-ayrı illərinin xüsusiyyətləri də nəzərə alınmalıdır. Yeniyetmə dövrünün müvafiq illərində aqressivliyin təzahürü özünün fərqli xarakteri ilə diqqəti cəlb edir. Bu baxımdan oğlan yeniyetmələrdə təcavüzlü davranışın təzahürünü iki mərhələyə ayırmaq olar: 12 yaş və 14-15 yaş. Qızlarda iki yaşda təcavüzə meyillilik daha aktiv xarakter daşıyır: 11 yaş və 13 yaş. Aparılan müşahidələr göstərir ki, təcavüzlü davranışının təzahüründə və ifadə olunmasında oğlan və qızlar arasında müəyyən fərqlər qeydə alınır. Belə ki, oğlanlarda birbaşa olaraq fiziki və verbal təcavüzə olan meyl daha aktiv xarakter daşıyır: qızlarda isə birbaşa və dolayı təcavüzə meyllə bağlı davranış daha çox müşahidə olunur. Oğlanlarda hər iki münasibət forması açıq şəkildə özünü büruzə verir və konflikt tərəfdaşına birbaşa olaraq istiqamətlənir. Qızlar isə əsasən verbal təcavüzlü münasibətin müxtəlif formalarından istifadə edirlər.

Aparılmış psixoloji tədqiqatların nəticələri göstərir ki, oğlanlarda fiziki təcavüzə meyl 10-11 yaşlı uşaqlar üçün daha səciyyəvidir. 14-15 yaşlı yeniyetmələr isə verbal təcavüzlü davranışa üstünlük verirlər. Bu vəziyyət heç də yaşla əlaqədar fiziki təcavüzün zəifləməsinə dəlalət etmir. Çünki hər iki davranış formasının təzahürünün yüksək həddi məhz 14-15 yaşlara təsadüf edir. Sonradan fiziki təcavüzün dinamikası zəifləməyə doğru istiqamətlənir, əksinə, verbal təcavüzə meyl isə dinamik baxımdan daha da fəallaşır. Onu da əlavə etmək lazımdır ki, kiçik yeniyetmə yaşlı dövründə psixoloji təcavüzün iki forması arasında elə bir ciddi fərqli situasiya qeydə alınmır. Böyük yeniyetmə yaşı dövründə isə başqa vəziyyət müşahidə olunur. Belə ki, bu mərhələdə hər iki təcavüz forması arasında mövcud fərqlər aydın sürətdə nəzərə çarpır. Onu da qeyd etmək lazımdır ki, hər iki təcavüzlü davranış forması yeniyetməlik dövrünün bütün illərində oğlanlarda qızlara nisbətən daha aktiv yönümə malik olar.

Psixoloji ədəbiyyatın təhlili göstərir ki, bir çox hallarda təcavüz anlayışı ilə konfliktlilik anlayışı eyniləşdirilir. Məsələ burasındadır ki, istənilən təcavüzlü davranış müxtəlif tipli təsir qüvvəsinə malik olan konfliktlə və psixoemosional gərginlikdə müşayiət olunur. Lakin diaqnostik baxımdan hər iki emosional müvazinətsizliyin fərqləndirilməsinin çox mühüm psixopedaqoji əhəmiyyəti vardır. Belə ki, fərqli cəhətlərin nəzərə alınması şəraitində konfliktli və təcavüzlü davranışın psixopedaqoji korreksiyasını daha səmərəli sürətdə reallaşdırmaq olar.

Aparılan müşahidələr göstərir ki, təcavüzlü davranışla özünüqiymətləndirmə arasında müəyyən funksional əlaqə və asılılıq vardır. Özünüqiymətləndirmə yüksək olduqca, təcavüzə meyl də uyğun olaraq daha yüksək ifadə tərzinə malik olar. Qeyri-adekvat yüksək özünüqiymətləndirmə ətrafdakıların rəyi ilə üst-üstə düşmürsə, belə halda təcavüzlü davranışa olan aktiv meyl daha da qüvvətlənir. Bunun təsiri altında yeniyetmənin psixoemosional müvazinətsizliyi bir sıra əlavə neqativ reaksiyalarla, düşmənçilik hissinin təzahürü ilə müşayiət olunur.

Psixoemosional gərginliklə müşayiət olunan təcavüzlü davranışın korreksiyası psixopedaqoji təsirlər sisteminin düşünülmüş sürətdə tətbiqi şəraitində müvəffəqiyyətlə reallaşdırıla

bilər. Bunun üçün, ilk növbədə, təcavüzlü davranışa meyli stimullaşdırılan və yönəldən psixoloji şərait müəyyənləşdirilməli, yeniyetmənin ailədaxili və kollektivdaxili münasibətləri təhlil edilməli və bu zəmində adekvat korreksion tədbirlərin həyata keçirilməsi planlaşdırılmalıdır.

Beləliklə, aparılmış psixoloji təhlil əsasında belə bir ümumi qənaətə gəlmək olar ki, yeniyetmə yaşı dövründə emosional inkişaf sürətlə davam edir və çox dəyişkən və qüvvətli hissi mütəəssirliklə müşayiət olunur. Yeniyetmənin emosional həyatı çox gərgin keçir və bunun təsiri altında əhval-ruhiyyənin davamsızlığı, əsəbiliyə meyl, konfliktli davranışın fəallaşması kimi əlamətlər açıq şəkildə özlünü büruzə verir. Lakin şəxsiyyətin inkişafı, özünüdərkin formalaşması və ətrafındakılarla ünsiyyətin çoxcəhətli xarakter daşıması zəminində yeniyetmələrin bir qisminə xas olan psixoemosional pozğunluqların qarşısı müvəffəqiyyətlə alına bilər.

**Problemin aktuallığı:** Yeniyetmə dövrünün az işlənən bir aspekti-davranışın psixososial mexanizmlərinin formalaşmasında emosional sferanı təsir imkanları araşdırılmışdır.

**Problemin elmi yeniliyi və praktik əhəmiyyəti:** Davranışın psixososial mexanizmlərinin formalaşmasında emosional sferanı təsir imkanları əsasında toplanan müşahidə materiallarının təhlili verilmişdir.

## Ədəbiyyat:


1. Гамезо М.В., Петрова Е.А., Орлова Л.М. Возрастная и педагогическая психология. М.: Педагогическое общество России, 2003.
2. Психолого-педагогическая диагностика / Под реакцией И.Ю. Левченко, С.Д. Забрамной. М.: Академия, 2008.
3. Савенков А.И. Педагогическая психология. В двух томах. Том 2. М.: Академия, 2009.
4. Социальная психология / Под редакцией А.В. Петровского. М.: Просвещение, 1987.
5. Эльконин Д.Б. Избранные психологические труды / Под редакцией В.В. Давыдова, В.П. Зинченко. М.: Педагогика, 1989.


**E-mail:**edissontarana@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.* N. Rzayeva
*ped.ü. fəls.dok.* M. Əliyev
**Redaksiyaya daxil olub:** 12.12.2018.

*UOT 159.9.*

***Nailə Tofiq qızı Hüseynova***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# DAMAQ-UDLAQ QÜSURU OLAN XƏSTƏLƏRDƏ NİTQ POZULMALARININ ƏSAS KORREKSİYA İSTİQAMƏTLƏRİ

***Наиля Тофиг гызы Гусейнова***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ КОРРЕКЦИИ НАРУШЕНИЙ РЕЧИ У ПАЦИЕНТОВ С НЕБНО-ГЛОТОЧНОЙ НЕДОСТАТОЧНОСТЬЮ

***Nailya Tofig Huseynov***
*doctor of Philosophy in Pedagogy*
*Azerbaijan State Pedagogical University*

# THE MAIN CORRECTION DIRECTIONS OF SPEECH DISORDERS IN PATIENTS WITH DEFICIENCY PALATAL-PHARYNGEAL

**Xülasə.** Nitq pozulmasının bərpası üzrə korreksiya-pedaqoji işlərin analizi bu işin iki — əməliyyata qədər və əməliyyatdan sonrakı reabilitasiya mərhələsini effektiv metodiki üsulları seçməyə imkan verir (fərdi yanaşma prinsipi saxlanılmaqla).

Korreksiya-pedaqoji işlərin əsas bölmələrindən biri damaq-udlaq pozulmasının hələ cərrahi yolla aradan qaldırılmasına qədər səs tələffüzünün bərpası hesab olunur. Rekonstruktiv-bərpa əməliyyatından sonra nitq funksiyasının uğurlu bərpası üçün damaq-udlaq halqasının əzələ quruluşunun böyüməsinə istiqamətlənmiş tapşırıqlar xüsusi əhəmiyyət daşıyır.

***Açar sözlər*:** damaq-udlaq halqası, artikulyasiya aparatı, fərdi reabilitasiya, korreksiya pedaqoji iş, səs tələffüzü.

**Резюме.** Анализ полученного материала и коррекционно-педагогической работы по исправлению нарушений речи в группе обследованных пациентов позволил выделить эффективные методические приемы (при соблюдении принципа индивидуального подхода) на основе разграничения двух этапов этой работы - дооперационной и послеоперационной реабилитации.

Одним из основных разделов коррекционно-педагогической работы является исправление звукопроизношения еще до хирургического устранения НГН. Для успешного восстановления речевой функции после реконструктивно-восстановительной операции особое значение имеют упражнения, направленные на увеличение силы мышечных структур НГК.

***Ключевые слова:*** *небно-глоточное кольцо, артикуляционный аппарат, индивидуальная реабилитация, коррекционно-педагогическая работа, звукопроизношение.*

**Summary.** Analysis of correctional-pedagogical studies on speech disturbance allows the selection of effective methodological methods of treatment for both postoperative and postoperative rehabilitation (maintaining the principle of individual approach).One of the main sections of correctional-pedagogical work is considered sound reproduction until surgical removal of DPP. Tasks aimed at the growth of the muscular structure of the palate-ulcer ring are of particular importance for the successful restoration of the speech function ,after the reconstruction process.

***Key words:*** *palatal-pharyngeal ring, articulation apparatus, individual rehabilitation, correctional pedagogical work, voice pronunciation.*

Nitq pozulmasının bərpası üzrə korreksiya-pedaqoji işlərin analizi bu işin iki- əməliyyata qədər və əməliyyatdan sonrakı reabilitasiya mərhələsini effektiv metodiki üsulları seçməyə imkan verir (fərdi yanaşma prinsipi saxlanılmaqla).

Əməliyyata qədərki müddətə daxildir:

1. Uşağın və onun artikulyasiya aparatının nitqin yaxşılaşdırılması əməliyyatına hazırlığı.

2. Damaq-udlaq halqasının quruluşunun aktivləşdirilməsi.

Əməliyyatdan sonrakı reabilitasiya bunları nəzərdə tutur:

1. Damaq-udlaq halqasının quruluşunun aktivləşdirilməsi, uşağın yeni kinesteziyaya öyrədilməsi.

2. Səs əmələ gətirmə korreksiyası, səsin burun çalarlarının aradan qaldırılması.

3. Əldə edilmiş vərdişlərin tam avtomatlaşdırılması.

Hələ əməliyyata qədər xəstənin artikulyasiya aparatını düzgün səs əmələ gətirməyə hazırlamaq vacibdir. Həmçinin uşağın əməliyyata psixoloji hazırlığına da ciddi diqqət yetirmək lazımdır. Bu uranoplastikadan sonra səslərin korreksiyasına və nitqdə köhnə qüsurlu vərdişlərin möhkəmlənməsini aradan qaldırmağa daha az vaxt sərf etməyə imkan verir, düzgün səs tələffüzünün əmələ gəlməsi müddətini sürətləndirir. Hər reabilitasiya mərhələsinin müddəti fərdi iş prosesində müəyyənləşdirilir. İlk növbədə uşağı ciddi şəkildə müayinə etmək və onun nitq inkişafı xüsusiyyətlərini aşkar etmək vacibdir. Xəstənin nitqinin yaxşılaşdırılması əməliyyatına məqsədyönlü hazırlığa mümkün qədər tez başlamaq lazımdır – cərrahi müdaxiləyə bir, iki ay qalmış.

Lakin nəzərə almaq lazımdır ki, regionlara və kənd yerlərinə bölünmüş loqopedlərin heç də hər biri rinolaliyadan əziyyət çəkən xəstələrlə iş metodikasını bilmirlər. Bu həm əməliyyata qədər həm də əməliyyatdan sonrakı effekti aşağı salır. Buna görə də həm əməliyyata qədər həm də əməliyyatdan sonrakı dövrdə Mərkəz şəraitində xəstələrlə iş zaman parametrində dəqiq planlaşdırılmalı və riayət edilməlidir. Xəstəyə ilk baxış zamanı müayinə artikulyasiya aparatına baxılması ilə başlanılır. Loqoped cərrahla birlikdə patologiyanın növünü, formasını, dərəcəsini təsnifatlandırır, xeyloplastikanın, uranoplastikanın ilk dəfə hansı yaşda edildiyini, əməliyyatın harada və kim tərəfindən, nə zaman aparıldığını müəyyənləşdirir (xüsusiləşmiş müəssisədə və ya yox). Sonra bütün artikulyasiya orqanlarının vəziyyətini ətraflı şəkildə təsvir edir və qiymətləndirir, loqopedik diaqnoz qoyur, rəy verir və kompleks reabilitasiya planı hazırlayır. Bu məqsədlə, loqopedlə birgə həm ambulator üsul həm də stasionar xəstə üçün xüsusi "Loqopedik müayinə xəritəsi" hazırlandı. Loqopedik müayinənin standartlaşdırılmış xəritəsi patologiya növlərinə uyğun bölmələri özündə birləşdirir (birtərəfli ADDY, ikitərəfli ADDY, ADY). Xəritədə toplanmış məlumatlar daha sonrakı emal, analiz, öyrənmə, arxivləşdirmə və s. üçün kompüter məlumatları bazasına köçürülür.

Aparılmış müayinələr əsasında, özündə dərinləşdirilmiş tibbi-psixoloji-pedaqoji korreksiyanı birləşdirən fərdi reabilitasiya proqramı hazırlanır. Bu zaman uğurlu reabilitasiya üçün aksent şəxsin müsbət aspektlərinin, xəstənin maraqlarının, bacarıqlarının aşkarlanmasına qoyulur.

Fərdi reabilitasiya proqramları kompleks köməyin mərhələlərini, xəstənin potensial imkanlarını və onların aktivləşdirilməsini müəyyənləşdirir, müalicəvi-korreksiya və inkişafetdirici tədbirləri əsaslandırır. Əgər ilkin uranoplastika daha gec yaşda aparılmışdırsa (4, 5, 6 yaşda) o zaman bu xəstələrdə səslə bağlı problemlər yarana bilər: gücdən düşür, zəifləmə, boğuqluq yaranır, onun diapazonunun genişlənməsi dayanır. Rinolaliyalı yeniyetmələr və böyüklərin demək olar ki, 80%-i səs pozulmalarından əziyyət çəkir. Onlar üçün fonasteniya və ya qırtlağın daxili əzələlərinin parezi xarakterikdir. Üz deformasiyasından və qüsurlu nitqindən utanaraq, ətrafdakıların diqqətini çəkmək istəmədiklərinə görə uşaqlar həmişə sakit, heç bir halda səsini qaldırmadan danışmağa vərdiş edirlər. Səs təliminin olmaması sakit səslənmənin möhkəmlənməsinə gətirib çıxarır. Bizim müşahidələrimiz də İ.İ. Yermakovanın məlumatlarını təsdiqləyir. Qeyd etmək lazımdır ki, DUH quruluşunun aktivləşdirilməsi prosesi uzun zaman alır. Dilin düzgün vəziyyətinin hazırlanması, onun önə gətirilməsi, dil ucunu bərkitmək və kökünü boşaltmaq önəmlidir. Dilin yerdəyişməsi işin effektini ciddi dərəcədə müəyyən edir, belə ki, o, düzgün artikulyasiyanın hazırlanması, fonasiya tənəffüsünün normallaşdırılması üçün şərait yaradır. Hər hansı tapşırığı izah edərkən loqoped mütləq

dilin mövqeyini dəqiqləşdirir və onun vəziyyətini izləyir. Tapşırıq loqopedin diqqətli nəzarəti altında aparılır.

ADDY olan uşaqlarda eşitmə və nitq-hərəkət analizatorlarının analitik-sintaktik fəaliyyətinin çatışmazlığı müşahidə olunur, çox vaxt fonematik eşitmə pozulur, akustik nəzarət zərər görür və öz səs məhsulunun ətrafdakıların nitqinin yaddaşına həkk olmuş nümunələri ilə tutuşdurulması pozulur fikirləri ilə şərikik. Buna görə də loqopedik korreksiya işləri prosesində və xəstənin səs tələffüzü nəzarəti düzgün kinesteziyanın formalaşmasına gətirib çıxarır ki, bu da onda yeni nitq stereotipi yaratmağa imkan verir. Bu zaman dəqiq əks afferentasiyasının (əks əlaqənin) inkişafı böyük rol oynayır. Əks əlaqənin maksimal dərəcədə mümkün informasiya axını nitq pozulmasının korreksiyasının uğurunu artırır. Bizim əməliyyata qədərki reabilitasiya proqramımızda tənəffüs pozulmasının korreksiyası DUH-nın əzələ quruluşunun hazırlanmış patoloji kompensator refleksinin aradan qaldırılması ilə başlanılır. Nəzərə alsaq ki, xəstə düzgün istiqamətdə hava axınını bacarmır və nəfəs vermə zamanı hava burundan sızır, tənəffüs korreksiyası loqoped və MFT təlimçisinin birgə işlədiyi müalicəvi fiziki tərbiyə kabinetində keçirilməsi yaxşı olar. Nəzərə almaq lazımdır ki, bu zaman tənəffüs tapşırıqları ilə xüsusi loqopedik üsullar əla kömək edir. İstiqamətlənmiş hava axını davamınca samit səsin əmələ gətirilməsi üçün yetərincə ağızdaxili təzyiq təmin etməlidir. Məşğələnin gedişatında uşaqlar istiqamətlənmiş hava axınının hiss edilməsini yadda saxlayır və sonra tənəffüs gimnastikasının yerinə yetirilməsi zamanı uşaqlar onu yerinə yetirə bilir. Səs tələffüzünün bərpasının əməliyyata qədərki mərhələlərdən biri fonematik eşitmə pozulmasının aradan qaldırılmasıdır. Bu zaman yaranan çətinliklər rinolaliyalı uşaqlar pis danışır, öz nitqlərində çox vaxt fonemləri diferensiallaşdırmırlar, lakin bununla yanaşı özlərini normal danışan hesab edirlər. Onlar bütöv bir qrup fonemi eyni patoloji artikulyasiya ilə əmələ gətirə bilirlər. Onların nitq eşitmə analizatorları oxşar səs birləşmələrinin səslənişini tanımaq, fərqləndirmək vəziyyətində deyil. Buna görə də belə uşaqların nitqinin düzəldilməsi zamanı iki məsələnin həll edilməsi lazımdır: ətrafdakıların danışıq səslərini fərqləndirə bilmək və həmin səslərin öz tələffüzündə tənqidi qəbulu və qiymətləndirilməsi. Əməliyyata qədər uşaqlar nitq səslərinin diferensiallaşdırılmasını öyrənməlidirlər. Praktiki təcrübə göstərir ki, nitqin tələffüz sahəsinin hətta rinolaliya kimi kobud pozulması zamanı da yalnız fonemləri tanımağı deyil, həmçinin eşitmə ilə onun düzgün səslənişini fərqləndirməyi öyrənmək olar.

Korreksiya-pedaqoji işlərin əsas bölmələrindən biri DUP-un hələ cərrahi yolla aradan qaldırılmasına qədər səs tələffüzünün bərpası hesab olunur. Əməliyyata qədər səs tələffüzünün bərpası ağız boşluğunun ön hissəsində samit səslərin tələffüzü zamanı maneənin irəliləməsi, məişət nitqində artikulyasiyaya şüurlu nəzarət imkanlarının yaranması, fonemlərlə artikulyasiya əlaqəsinin formalaşması bacarıqlarının öyrənilməsi, nitq axını zamanı bu fonemləri ayırmaq bacarığını bildirir.

Bu zaman çox vaxt yaxın artikulyasiya ilə, analoji səslərlə, kifayətlənmək lazım gəlir, hansı ki, uşaq nitqinin inkişafı üçün qanunauyğundur və fonematik təsəvvürün və səs analizi vərdişlərinin formalaşması və inkişafı üçün yetərlidir. Bizə elə gəlir ki, əməliyyata qədər uşağın diqqətini burundan hava sızması hadisəsinə cəlb etmək lazım deyil, buna səssizliklə və dil və dodaqların düzgün hərəkəti ilə nail olmaq lazımdır.

Əməliyyatdan sonrakı dövrdə əsas qüvvə xəstənin ümumi vəziyyətinin yaxşılaşdırılmasına və mürəkkəbləşmənin profilaktikasına, damaq-udlaq əzələ kompleksinin təkmilləşməsinə, ağız-udlaqda yeni anatomik vəziyyətlə bağlı burun tənəffüsü vərdişlərinin öyrənilməsinə, orqanizmin yeni şərtlərə adaptasiyasına yönləndirilir. Əgər səs tələffüzü korreksiyası əməliyyata qədər aparılarsa, bu zaman müvəqqəti pisləşməyə baxmayaraq, əməliyyatdan sonrakı dövrdə, 2-3 həftə ərzində xəstədə düzgün artikulyasiya bərpa olunur.

Rekonstruktiv-bərpa əməliyyatından sonra nitq funksiyasının uğurlu bərpası üçün DUH-nın əzələ quruluşunun böyüməsinə istiqamətlənmiş tapşırıqlar xüsusi əhəmiyyət daşıyır. DUH-nın bütün əzələ quruluşunun tənəffüs aparatı ilə sıx anatomik və funksional əlaqəsi həmçinin onun funksiyasının təkmilləşməsi üçün də tənəffüs tapşırıqları yerinə yetirməyə imkan verir. Əməliyyatdan sonrakı məşğələlərin analizi göstərdi ki, xüsusi tapşırıqların hər gün dəfələrlə yerinə

yetirilməsi ilə yaxşılaşır. Bu səbəbdən də, bu mərhələdə korreksiya-pedaqoji işlərə əməliyyatdan 5-6 gün sonra başlanılır, baxmayaraq ki, bu dövrdə DUH-nın əzələ quruluşları şiş, hərəkətliliyi pis olur, onların həssaslığı zəifləmişdir, udqunma və tənəffüs zamanı xəstəlikli olması hiss olunur. Uşaqlar artikulyasiyadan qaçır, buna görə də mütəxəssislərin əsas vəzifələri formalaşmış damaq-udlağın əzələ quruluşunun "tormozlanması" (ЛБСГ, ПБСГ, НЗ, ЗСГ) və onların hərəkətliliyinin inkişafı və onların funksiyasının stimullaşdırılmasıdır. Buna görə də əməliyyatdan sonrakı erkən dövr bütün müalicə kursu ərzində xüsusi yer tutur.

Əməliyyata qədərki dövrdə hərəkətliliyin yaxşılaşdırılması, gücün bərpası, elastikliyi, udlaq halqası əzələlərinin tarımlığı, normal qan təchizatının bərpası və innervasiya üçün biz yumşaq damaq əzələlərinin barmaqla və aparatla masajını təklif edirik. Barmaq masajı standart sxem üzrə aparılır. Aparat masajı üçün bizim tərəfimizdən hazırlanmış "Yumşaq damağın masajı üçün qurğu"nu təklif edirik.

Aparat yumşaq damaq əzələlərinin qısalmasının aktiv əks fəaliyyətini təmin edir. Bu məqsədlə yay kimi yığılıb açılan ştanqlar elə bükülür ki, pelot yumşaq damağa təzyiq etsin. Yumşaq damağa masaj edilməsi, əzələlərə daha intensiv təzyiq yaratmaq üçün qövsün ucunu fiksatorun lüləsinə qoyub qurğunu üst çənənin dişlərinə geyindirirlər. Uşaq çənələrini ritmik olaraq birləşdirir, bu zaman alt dişlərin təzyiqi əlavə olaraq pelota ötürülür, hansı ki, onun səthində sürüşərək yumşaq damağı itələyir və dartır. Seansın müddəti 10-15 dəqiqədir, onu gündə 3-4 dəfə təkrar etmək olar. Seansın sonunda qövsü ehtiyatla çıxarırlar, pelotla birlikdə lövhə isə damağın birləşməsinin formalaşması funksiyasını yerinə yetirməyə davam edir. Uşaqlar aparata rahatlıqla öyrəşirlər, belə ki, onlar artıq qoruyucu lövhə taxmışdırlar, ondan müstəqil istifadə edirlər. Əldə olunan nəticələr təqdim edilən qurğunun yüksək təcrübi əhəmiyyətini və müsbət effektini təsdiq etdi. O, uşaqların mənfi reaksiyalarından yan keçməyə imkan verir, uşaqlar ondan həvəslə istifadə edirlər. Qrup məşğələlərinin aparılması imkanı tibbi personalın iş zamanına əhəmiyyətli dərəcədə qənaət edir. Ondan həmçinin valideynlərə verilmiş təlimat üzrə evdə də istifadə etmək olar. İstəyə görə qurğunu istənilən diş-texnologiya laboratoriyasında ucuz və əlçatan materiallarla hazırlamaq olar.

**Ədəbiyyat:**


1. Hüseynova N.T., Ağayeva T.H. Loqopediya. Bakı, 2018.
2. Супиев Т.К. Врожденная расщелина верхней губы и неба. Сроки и принципы комплексного лечения // Лекции по стоматологии детского возраста. Алматы: Стомлит, 2006.
3. Супиев Т.К., Негаметзянов Н.Г., Нигай Г.А., Утепов Д.К. Оптимизация комплексной реабилитации детей с врожденной расщелиной губы и неба с применением информационных технологий //Матер. III Всерос. науч.- практ. конф. «Врожденная и наследственная патология головы лица и шеи у детей: актуальные вопросы комплексного лечения» -М.: МГМСУ, 2009.


**E-mail:** nailyahuseyn72@gmail.com

**Rəyçilər**: *ped. ü. fəls. dok., dos., dos.* D.Ə. Dostuzadə.
*ped. ü. fəls. dok.* E.M Kərimova
**Redaksiyaya daxil olub:** 04.12.2018

*UOT 159.9.*

***Yeganə Baxış qızı Əskərova***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# MƏKTƏBLİLƏRİN ŞƏXSİYYƏT KİMİ İNKİŞAFINDA AİLƏ VƏ MƏKTƏBİN PSİXOLOJİ TƏSİRİ

***Егяна Бахыш гызы Аскерова***
*доктор философии по психологии*
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ПСИХОЛОГИЧЕСКОЕ ВЛИЯНИЕ СЕМЬИ И ШКОЛЫ НА РАЗВИТИЕ ЛИЧНОСТИ ШКОЛНИКА

***Yegana Bakhısh Askarova***
*doctor of philosophy in psychology*
*teacher at Azerbaijan State Pedagogical University*

# THE IMPACT OF THE FAMILY AND THE SCHOOL PSYCHOLOGY ON THE DEVELOPMENT OF SCHOOLCHILDREN AS A GENDER

**Xülasə.** Müasir dövrdə yetişməkdə olan gənc nəslin hərtərəfli inkişafı, onlarda lazımi bilik, bacarıq və vərdişlərin, yüksək mənəvi keyfiyyətlərin təşəkkülü təlim-tərbiyə prosesi qarşısında duran ən ümdə vəzifələrdən biridir. Cəmiyyət üçün gərəkli olan şəxsiyyətin yetişməsində ailə və məktəbin - valideyn və müəllimin rolu danılmazdır. Məhz ailə və məktəb birliyinin möhkəm olması şəxsiyyətin inkişafına əsaslı təsir göstərə bilər. Məqalədə bütün bu məsələlərə toxunulmuş, şəxsiyyətin inkişafında müəllim və valideynin rolu tutarlı fikirlərlə şərh olunmuşdur.
***Açar sözlər:*** *şagird, müəllim, valideyn, cəmiyyət, şəxsiyyət, inkişaf, ailə, məktəb, tərbiyə*

**Резюме**. Всестороннее развитие растущего поколения молодых людей в современную эпоху, формирование необходимых знаний, умений и навыков, развитие высоких моральных качеств - одна из важнейших задач, стоящих перед учебным процессом. Роль родителей и учителей в семье и в школе - не определена в культивировании потребностей личности в обществе. Именно семья и единство школы может оказать глубокое влияние на развитие личности. В статье основное внимание уделяется всем этим вопросам, роль учителя и родителя была последовательной в развитии личности
***Ключевые слова****: ученик, учитель, родитель, социум, личность, развитие, семья, школа, воспитание*

**Summary.** Comprehensive development of young generation, which presently forms, and development of knowledge, skills, habits and high moral qualities in them are the most important tasks for the educational process. The role of family and schools i.e. parents and teachers in the formation of persons needed for the society is undeniable.

Exactly strength of family and school union can substantially influence development of personality. All these issues were discussed in the article, and the role teachers and parents in the development of personality was commented with weighty thoughts.
***Key words****: pupil, teacher, parent, society, person, develop, family, school, upbringing*

"Bəşər sivilizasiyasını ailəsiz və ailə həyat tərzi olmadan təsəvvür etmək mümkün deyil. Ailə öz mövcudluğunda bütün ictimai hadisələrin xüsusiyyətlərini əks etdirir" (1, 400 s). "Müasir Azərbaycan ailələrində uşaqlar gələcək həyatlarında əsas keyfiyyətlərdən biri olan ilkin əmək bacarıq və vərdişlərinə yiyələnirlər. İnsana

sevgi, hörmət və ətraf gözəlliklərlə uşaq ilk dəfə ailədə tanış olur" (1, s. 107).

İnsan dünyaya fərd kimi gəlir, lakin bir şəxsiyyət kimi özünün həyatı və fəaliyyəti prosesində uzun və mürəkkəb bir yol keçərək yetkinləşir. Şəxsiyyətin formalaşmasında ailə tərbiyəsinin böyük rolu vardır. Tərbiyə sayəsində uşaqda yeni qabiliyyət və keyfiyyətlər yetişir, müəyyən xarakter yaranır və formalaşır. Uşaq təlim-tərbiyə vasitəsilə həqiqi olmağı öyrənir, geniş dünyagörüşünə sahib olur. Bir sözlə, uşaq tərbiyə prosesində formalaşır. Uşağın insanlıq dünyasına daxil olması ailədən başlayır. Ailə üzvləri, yaşlı adamlar uşağın tərbiyəsi ilə məşğul olur, ona qayğı göstərirlər. Valideyn də, müəllim də uşağın uşaq şəxsiyyətinə böyük təsir göstərən şəxslərdir. Təlim-tərbiyə prosesi müəllim və valideynlərdən xüsusi səriştə və işə bələdlik tələb edir. Övlad tərbiyəsinin ən vacib məsələlərdən biri olduğuna xüsusi fikir verən N. Tusi "Əxlaqi-Nasiri" əsərində bu məsələyə ayrıca bir fəsil həsr etmişdir.

N. Tusi ailə başçısının sağlam ailənin yaranıb qorunmasındakı rolunu xüsusi qiymətləndirir. O göstərir ki, ailə başçısı, birinci növbədə, evdəkilərin ümumi mənafeyinə riayət etməlidir. N. Tusi uşağın tərbiyəsində ağıla, idraka təsir edən başa salmaq yolunu əsas yol hesab edir və tərbiyədə aldadıcı və ucuz üsulların əleyhinə çıxır. Uşaqlara qarşı həssas olmaq, onların kiçik hərəkətini belə gözdən qaçırmamaq, vaxtında pis adət və hərəkətin qarşısını almaq ən kiçik, yaxşı bir hərəkət baş verdikdə onu tərifləyib adətə çevirmək, onlarda əməksevərlik, düzlük, bilik və peşəyə həvəs yaratmaq, xeyirxahlıq, başqalarına kömək vərdişləri aşılamaq, tənbəlliyə, yalan, böhtan, iftiraya, bədxahlıq etməyə, kədər və qəmlərə biganə qalmağa, xudpəsəndlik, öz hayına qalmaq, nifrət hissi və s. öyrətmək uşaq tərbiyəsinin əsası hesab edilir.

Uşaqlarda pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır. Uşaq inkişafının ilk anlarında çoxlu səhvlərə yol verər, qəbahətli iş görər, çox zaman yalançı, paxıl, oğru, xəbərçi, tərs və inadkar olar və başqalarını da zərərli və xoşagəlməz iş tutmağa vadar edər. Buna görə də N. Tusi uşağı körpəlikdən tərbiyə etməyə xüsusi fikir verməyi məsləhət görür.

Ailədə uşağın tərbiyəsi heç də həmişə müvəffəqiyyətlə getmir, çətinliklər qarşıya çıxır, müəyyən səhvlərə yol verilir. Açılan səhər özü ilə bir ümid, fərəh, qayğı gətirir. O, qapıları döyərək valideynləri, uşaqları səfərbərliyə alır, onları əmək fəaliyyətinə səsləyir. Açılan səhər ideal ailəyə sevinc, ümid gətirir, normal ailədə bu səhərdə hər kəs öz vəzifəsini yerinə yetirir, qalmaqallı ailələrdə isə səs-küy, əsəbilik, qışqırıq yaranır. Ailə tərbiyəsindəki mühüm nöqsanlardan biri uşaqların tərbiyəsində vahidliyin olmamasıdır.

Ailə tərbiyəsində ən qorxulu cəhət uşağın tərbiyəsinə laqeyd münasibətdir. Qapalılıq, uşağı hər cür ünsiyyətdən, kollektivdən ayırmaq məktəbli şəxsiyyətinin formalaşmasına mənfi təsir edir. Valideynlərin övladlarına nə qədər çox inamı və etibarı varsa, bunun müqabilində daha yaxşı nəticə əldə edirlər. Tərbiyədə hədəqorxu, cəza müsbət nəticə vermir, uşaqların ruhi aləmini zəhərləyir, onlarda yalançılıq, qorxaqlıq, ikiüzlülük kimi mənfi keyfiyyətlər yaradır, onları iradəsizləşdirir.

Ailədə uşaqların tərbiyəsinə fərdi yanaşmaq, onların fərdi xüsusiyyətlərini nəzərə almaq vacibdir. Tərbiyə işində uşağın yaş və cinsini də nəzərə almaq əsas amildir. Ailə həyatı şəxsiyyətin inkişafına bütövlükdə təsir göstərir, onun və hisslərinin inkişafında ananın roluna son dərəcə böyük əhəmiyyət verirlər. Uşaq xarici aləmə bütün münasibətləri ana vasitəsilə müəyyənləşdirir. Uşağın işi necə görməsinə nəzarət olunmalı, ona sərbəstlik verilməlidir.

Məktəbdə tərbiyə - həyata hazır olan, hərtərəfli inkişafa və bədii zövqə malik gümrah, nikbin, sağlam vətəndaşların yetişdirilməsinə xidmət edir. Uşaqların hər biri özünəməxsus fərdi xüsusiyyətlərə malikdir. Uşaq özlüyündə kəşf olunmamış dünyadır. Bu dünyaya bələd olmaq, onunla faydalı iş aparmaq üçün müəllim onu dərindən öyrənməlidir. Hər bir uşağın öz təfəkkürü, hissləri, maraq və qabiliyyətləri, idealı, iradi və xarakter əlamətləri, temperamenti vardır. Bu xüsusiyyətləri nəzərə almaq vacibdir.

Ailə və məktəb uşaq şəxsiyyətinin inkişafına əsaslı təsir göstərir. "Məktəbə daxil olması uşağın ictimai həyatındakı vəziyyətini dəyişməklə bərabər, onun qarşısında tamamilə yeni bir aləm açır... Əlbəttə, bu münasibət heç asanlıqla formalaşmır... Bu vaxt müəllimin şəxsi nümunəsi çox mühüm tərbiyəvi əhəmiyyət kəsb edir, hətta şagirdlər ata-ananın dediklərindən müəllimin dediklərini üstün tutur" (2, s. 242).

Təhsilin ilk günlərində uşaq tamam yeni təsirə düşür və elə həmin andan müəllimini sevməyə başlayır. Və bu andan etibarən "müəllim tapşırdı ki, …" ifadələrini tez-tez eşitməli oluruq. Bu bir daha onu göstərir ki, məktəb yaşlı uşaq üçün müəllim avtoriteti böyük əhəmiyyət kəsb edir. İlk gündən müəllim və şagirdlər arasında qarşılıqlı anlaşma prosesi ehtiyatlı və dəqiq qurulmalıdır. Lakin müəllimlər müxtəlif xarakterli olduğundan kollektivdə bu münasibətlərin yaranması və şagirdlərin yanaşma tərzi müxtəlif olur. Elə bu zaman həm məktəbdə, həm də ailədə müxtəlif problemlər yaranır.

Əlbəttə, valideynlərin böyük əksəriyyəti belə bir vəziyyətdə müəllimin və məktəbin tələblərinə düşüncə ilə yanaşmalı və uşaqlarını bu prosesə tədricən alışdırmalıdırlar. Belə müəllim valideyn arasındakı münasibətlər zamanı ata, yaxud ana məktəbdə uşağın sinfə oriyentasiyası, kollektiv və təhsilə münasibəti ilə maraqlanır. Bir çox hallarda isə valideyn məktəblə əlaqəsini tamam zəiflədir. Bunu isə vaxtın azlığı ilə əlaqələndiririlər. Bəzən isə: "Biz onu məktəbə vermişik və sizə etibar etmişik. Əgər nəsə baş versə, bizi çağırın " kimi fikirlərlə qarşılaşırıq. Bu halda valideynlər, şüursuz olaraq, uşaqların üzərində məsuliyyət yükünün azalmasını istəyirlər. Şagird 4-cü sinfə keçənə qədər məktəb və müəllimlə münasibət yaratmağa tələsmirlər. Tərəflər arasındakı qarşılıqlı münasibətin zəif olduğunu hiss edən şagird valideynləri ilə qeyri-səmimiliyə üstünlük verir.

V.O. Suxomlinski deyirdi: "Uşağın mənəvi aləmini yalnız təlimə bağlamaq olmaz. əgər biz buna çalışsaq, uşağın həyatı dözülməz olacaq. O, təkcə məktəbli deyil, hər şeydən əvvəl, çoxtərəfli marağa və məqsədə malik olan insan olmalıdır". Bəzən sinifdəki müəllim-şagird münasibətlərinin pozulmasına müəllimin özünü pis hiss etməsi, məişət problemləri, yuxusuzluq və s. səbəb olur. Belə halda müəllim bütün zəifliyi bir kənara qoyub daha tələbkar və ciddi olmalıdır. O bu məharətini asta tərzdə elə həyata keçirməlidir ki, özünəqapanan və astagəl uşaqları təlimdən uzaqlaşdırmasın. K.D. Uşinskinin dili ilə desək, əsl tərbiyəçi bir tərəfdən məktəblə, digər tərəfdən isə həyat və elm arasında əlaqələndirici rolunu oynamalıdır.

Yeniyetmələrə gəldikdə isə onlar valideynlərinin məktəblə əlaqəsinə heç də cəhd göstərmirlər. Onlar belə hesab edirlər ki, yaranmış bütün problemləri özləri həll etməyə qadirdirlər. Bu zaman: " Müəllimin vəzifəsi, hər şeydən əvvəl, həmin fərdiyyətin psixoloji xüsusiyyətlərini öyrənərək ona təsir yollarını axtarmaq, seçmək və tətbiq etməkdir" (3, 331 s). Lakin, yaxşı olardı ki, bu hallarda valideynlərdən ana məktəblə əlaqəni kəsməsin. Çünki belə vəziyyətdə yalnız ana başa düşər və onu təhsilə yönəldə bilər. Hər şeydən əvvəl, uşağın ailədə istənilən halda hər iki valideynlə səmimi münasibəti və ünsiyyəti olmalıdır ki, düşdüyü çətin vəziyyətlərdə ilk olaraq problemlərini valideynləri ilə bölüşməyə bağlı olsun.

Uşağın şəxsiyyət kimi formalaşması prosesində bir sıra qaçılmaz olan və ciddi diqqət tələb edən problemlər meydana çıxır. Şəxsiyyətin formalaşması üçün meydana çıxan həlledici məqamları yaşla bağlı çətinliklər adlandırırlar ki, uşağın inkişafında özünü daha çox 2-dən 4-ə, 7-dən 9-a, 13-dən 16 yaşa keçərkən büruzə verir. 2 yaşdan 4-5 yaşa keçid dövründə uşaq şəxsiyyətində özünəməxsus tərslik meydana çıxır. 7-9 yaşlarında isə özünüqiymətləndirmənin ilkin tərəddüdləri meydana çıxır. Keçid yaş dövrü isə xarakterin inkişafına yeni növ çətinliklər əlavə edir. Cinsi yetişkənliklə əlaqəli bəzi problemlərin meydana çıxması da bu yaş dövrünə təsadüf edir. Buraya məhəbbət, sədaqət, həyat, ölüm kimi məfhumlar da daxildir. " Müəllimlər yeniyetmələrin cinsi tərbiyəsinə xüsusi diqqət yetirməlidirlər. Onlar ehtiyatla, səbirlə əks cinsə hörmət hissi tərbiyə etməlidirlər. burada ehtiyatsızlıq, bir söz əks cinsə ya marağı, yaxud da mənfi münasibəti artıra bilər "(4, 186s).

2-4 yaşlarında uşağın inkişafında ilk fizioloji böhran özünü göstərir. Bu zaman vegetativ endokrinoloji inkişaf sahəsində bir sıra dəyişiklər baş verir. Belə ki, boyun artması, daxili orqanların böyüməsi və psixo-nevroloji sistemin inkişafında nəzərəçarpacaq dəyişiklər baş verir. Bu keçid yaş dövründə valideynlər başa düşməlidirlər ki, uşaqların əsəb xəstəliklərinə tutulma ehtimalları güclənir. Psixoloqların böyük əksəriyyəti belə bir fikri dəstəkləyirlər ki, uşaq şəxsiyyətinin fizioloji inkişafının lazımı mərhələsində "Mən" obrazını kəşf edir. Bu zaman uşaq üçün sehrli bir "Mən" dünyası mövcud olmağa başlayır və o bunu mövcud əlamətlərlə nəzərə çarpdırır. Belə halda uşaq şəxsiyyəti üçün istək birinci yerdə durur, yəni hər işdə "mən özüm", "mən istəyirəm", " mən edəcəm" ərköyünlüyü nəzərə çarpır.

Məktəb təliminə atılan addım uşaq şəxsiyyətinin inkişafında baş verən ən ciddi proseslərdən biridir. Bu zaman uşaq qayğısız uşaqlıq illərindən məsuliyyətlə dolu olan yeni bir aləmə keçid alır. Aydındır ki, uşaq həyatın yeni sınaqlarına artıq daxilən hazır olmalıdır. Burada uşaq ağlının lazımi inkişaf səviyyəsiylə yanaşı onun mənəvi keyfiyyətlərinin inkişafı, daxili qaydaları da nəzərə alınır. " ... şagirdlər gözləyirlər ki, müəllim onlara yaxşı dərs desin, yüksək qiymət versin, onların istəyini yerinə yetirsin və s." (5, s. 76). Uşaq üçün maraqlı olmayan bir kollektivdə artıq özü də bilmədən müəyyən sosial mövqe tutmağa və çalışmağa başlayır.

Yeniyetmə yaş dövrünə keçdikdə isə uşaq şəxsiyyətinin inkişafında kəskin dəyişikliklər nəzərə çarpır. Bu zaman onlarda daha çox eqoistlik, müstəqil qərar qəbuluna və fəaliyyətə can atma, özünü sübut etmə, tərslik və s. kimi xüsusiyyətlər üzə çıxır. "...yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yarandıqca, özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmək meyli xüsusi məna kəsb edir. Bunun da nəticəsində yeniyetmə özü üçün öz "Mən"ini, bir növ, kəşf edir. Mənlik şüurunun formalaşmağa başlaması və inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinin xarakterinə, ətrafdakılarla münasibətinə, yaşlılarla, mənsub olduğu kollektivin üzvləri ilə qarşılıqlı münasibətlərinə öz təsirini göstərir"( 6, s. 58). Yeniyetmələr əksər hallarda valideynlərinin onlara qarşı çıxmalarını qəbul etmirlər. Bu yaşda onlarda şəxsiyyətin inkişafına əks təsir göstərən xarici amillərə, məsələn, spirtli içkilərə, narkotiklərə və s. maraq artır. Yeniyetməni bu cür əməllərdən çəkindirmək üçün valideynlərin onlarla söhbəti kifayət deyil. Çünki bu yaş dövründə yeniyetmə özünü müstəqil hesab etdiyi üçün bütün proseslərdən keçməyə hazırdır. Valideynlər uşaqla əlaqədar hər hansı problemə rast gəldikdə kömək üçün məktəbə, məktəb psixoloquna müraciət edirlər. Məktəb psixoloqu uşağın yaşadığı və tərbiyə aldığı ailə, həmin ailə üzvləri arasındakı qarşılıqlı münasibət və s. ilə də maraqlanmalıdır. Məktəbin, məktəb psixoloqunun vəzifəsi uşağı tərbiyə etmək, onda mövcud olan qüsurları aradan qaldırmaq, onun şəxsiyyətindəki müsbət cəhətləri möhkəmləndirməkdən ibarətdir.

A.S. Makarenkonun sözləri ilə desək: "Tərbiyənin əsl mahiyyəti valideynin uşaqla birbaşa münasibətindən, onun hərəkətlərinə təsirindən deyil, ailə və şəxsi həyatın təşkilindən, uşağın dünyasının düzgün təşkil olunmasından ibarətdir".

**Problemin aktuallığı.** Gənc nəslin tərbiyəsi yaşadığı mühitlə, ünsiyyətdə olduğu insanlarla, təlim-tərbiyə aldığı pedaqoji kollektiv, ən vacibi isə böyüyüb başa çatdığı ailəsi ilə sıx bağlıdır. Ailə - cəmiyyətin insani dəyərlərin qorunmasını, nəsillərin mədəni və tarixi varisliyini təmin edən əsas elementidir. Ölkənin inkişafı haqqında fikir söyləmək üçün cəmiyyətdə ailənin vəziyyətinə və dövlətin ailəyə münasibətinə nəzər salmaq lazımdır. Ailənin əmin-amanlığı ölkənin tərəqqi və inkişaf meyarıdır. Ailəsini sevənlər cəmiyyətini də, vətənini də, xalqını da sevir. Ailəni də məktəb kimi qəbul etmək vacibdir, çünki burada uşaqlar ailə və cəmiyyət qarşısındakı vəzifələrini öyrənirlər.

**Problemin elmi yeniliyi.** Şagird şəxsiyyətinin inkişafında ailə və məktəbin rolu və vəzifələri hərtərəfli təhlil edilmiş, yeni tərbiyə yolları araşdırılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti.** Məqalədə göstərilən məsələlər məktəblərdəki pedaqoji-psixoloji prosesə yeni forma və metodların tətbiqində, yeni optimal variantların ortaya qoyulmasında istifadə edilə bilər.

## Ədəbiyyat:


1. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: Mütərcim, 2015.
2. Qədirov Ə.Ə. Yaş psixologiyası Bakı: Maarif, 2002.
3. Əmrahlı L.Ş, Rzayeva N.T Uşaq psixologiyası. Bakı, 2010.
4. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006.
5. Həmzəyev M.Ə., Əmiraslanova S.F., Ünsiyyətin psixologiyası. Bakı: Nurlan, 2007.
6. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003.


**E-mail**: asgarova_y@mail.ru

**Rəyçilər**: *psix. ü.fəls dok.,dos*. U.M. Qəzvini
*psix. ü.fəls. dok.,dos.*M.C. İsmayılova
**Redaksiyaya daxil olub:** 05.12.2018.

UOT 159.9.

**Səlbi Ağamehdi qızı Abasova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# SEREBRAL İFLİCLİ UŞAQLARDA SENSOR FUNKSİYALARIN POZULMASI

**Сальби Агамехти гызы Абасова**
*преподаватель Азербайджанского*
*Государственного Педагогического Университета*

# НАРУШЕНИЕ СЕНСОРНЫХ ФУНКЦИЙ У ДЕТЕЙ С ЦЕРЕБРАЛЬНЫМ ПАРАЛИЧОМ

**Salbi Agamehdi Abasova**
*teacher at Azerbaijan State Pedagogical University*

# BREACH OF SENSORY FUNCTIONS IN CHILDREN WITH CEREBRAL PARALISM

**Xülasə**. Serebral iflicli uşaqlarda idrak proseslərinin pozulmasının patogenezi çox mürəkkəbdir. Belə xəstələrdə hərəki-kinestetik funksional sistemin patologiyası ilə birgə qavrayışın inkişafsızlığında sensor, intellektual və nitq pozulmaları da böyük rol oynayır. Sensor qavrayışa görmə, eşitmə, taktil, və kinestetik qavrayış (hərəki qavrayış) daxildir. Sensor qavrayış uşağın idrak fəaliyyətinin yaranması, ali psixi funksiyaların formalaşması üçün böyük məna kəsb edir.

***Açar sözlər***: *idrak prosesləri, taktil hissiyyat, hərəki pozulmalar, motor funksiyalar, eşitmə qavrayışı, görmə qavrayışı, hərəki sfera*

**Резюме.** Патогенез когнитивных процессов у детей с церебральным параличом очень сложен. Сенсорные, интеллектуальные и речевые нарушения играют важную роль в развитии восприятия наряду с патологией церебральной функциональной системы. Сенсорное восприятие включает зрение, слух, тактильное и кинестетическое восприятие (восприятие движения). Сенсорное восприятие имеет большое значение для познавательной деятельности ребенка, формирования высших психических функций.

***Ключевые слова:*** *познавательная сфера, тактильные чувства, двигательные нарушения, моторные функции, слуховое восприятие, зрительное восприятие, двигательная сфера*

**Summary.** The pathogenesis of cognitive processes in children with cerebral palsy is very complex. Sensory, intellectual and speech disorders play an important role in the development of perception along with the pathology of the cerebral functional system. Sensory perception includes sight, hearing, tactile and kinesthetic perception (motion perception). Sensory perception is of great importance for the child's cognitive activity, the formation of higher mental functions.

***Key words:*** *Cognitive sphere, tactile feelings, motor disorders, motor functions, auditory perception, visual perception, motor sphere*

Serebral iflicli uşaqlarda idrak proseslərinin pozulmasının patogenezi çox mürəkkəbdir. Belə xəstələrdə hərəki-kinestetik funksional sistemin patologiyası ilə birgə qavrayışın inkişafsızlığında sensor, intellektual və nitq pozulmaları da böyük rol oynayır. Sensor qavrayışa görmə, eşitmə, taktil, və kinestetik qavrayış (hərəki qavrayış) daxildir. Sensor qavrayış uşağın idrak fəaliyyətinin yaranması, ali psixi funksiyalarının formalaşması üçün böyük məna kəsb edir.

USİ-li uşaqlarda məkan təsəvvürlərinin təhlili və sintezində, bədən sxeminin pozulmasında, gördüklərinin sözlə təsvirini verməkdə çətinliklər müşahidə edilir.

Xüsusi təşkil edilmiş təlim olmadıqda serebral iflicli uşaqlar əşyaların ölçülərini, forma

və ayrı-ayrı əlamətlərini qavraya bilmirlər. Serebral iflicli məktəbəqədər yaşlı uşaqların iybilmə və görmə qavrayışlarının xüsusiyyətlərinin müqayisəli tədqiqi göstərir ki, serebral iflicli uşaqlarda qavrayışın və fiqurların əks olunmasının pozulmasının əsasında beynin inteqrativ funksiyasının çatışmazlığı durur. Hərəki qüsurun ağırlıq dərəcəsi belə uşaqlarda sensor-perseptiv fəaliyyətin inkişafsızlığı üçün müəyyənedici amil sayılmır.

Serebral iflicli bir çox uşaqlarda taktil hissiyyat pozulmuş ola bilər. Barmaqlarının ucları ilə əşyaya toxunduqda onlarda hissiyyat dəqiq və aydın olmur. Bu zaman yaranan hissləri sanki əşyanı qalın əlcəklə əldə saxlayıblar kimi hisslərlə müqayisə etmək olar. Taktil qavrayışın çatışmazlığı yazı bacarıqlarının mənimsənilməsində çətinlik yaradır. Bunun üçün taktil hissiyyatı məşq etdirmək üçün xüsusi oyun məşğələləri vacibdir.

USİ zamanı hərəki pozulmaların xüsusiyyətlərinə təkcə bu və ya digər hərəkətlərin yerinə yetirilməyinin imkansızlığı deyil, həm də bu hərəkətlərin zəif hiss olunması da aiddir. Bununla əlaqədar uşaqda hərəkət haqqında səhv təsəvvürlər yaranır.

Öz hərəkətlərinin zəif hiss olunması və əşyalarla fəaliyyətin çətinliyi fəal toxunmanın çatışmazlığı səbəbindəndir, o cümlədən əşyaları toxunma ilə tanımaq (stereoqnoza). Bu, əşyavi fəaliyyətin yaranmasına mane olur; serebral iflicli uşağın ümumi psixi inkişafına mənfi təsir edir.

USİ zamanı motor funksiyaların zəifləməsi və ya inkişafsızlığı üzündən eşitmə analizatorunun fəaliyyəti pozulur. Hiperkinezlərin olması ilə eşitmənin azalması da müşahidə oluna bilər. Xüsusilə də yüksək tezlikli tonların azalması və alçaq tezlikli tonların qorunması xarakterikdir. Bu zaman səs tələffüzünün xarakterik pozulmaları müşahidə olunur.

Yüksək tezlikli səsləri (t, k, s, p, e, f, ş) eşitməyən uşaq onların tələffüzündə əziyyət çəkir və nitqdə ya bu səsləri itirir, ya da digərləri ilə əvəz edir. Sonradan belə uşaqlarda oxu və yazı təlimində çətinliklər yaranır.

Bir sıra uşaqlar üçün fonematik eşitmənin çatışmazlığı xarakterikdir : onlar səslənməsinə görə oxşar olan səsləri və səs birləşmələrini fərqləndirmirlər.

Məsələn, onlar eşitmə ilə taz-saz, don-ton kimi sözləri eyni tipli qavrayırlar. Bəzi hallarda eşitmənin zəifləməsi olmadıqda da eşitmə qavrayışının və eşitmə yaddaşının çatışmazlığı ola bilər. Eşitmə qavrayışının hər cür pozulması nitqin ləngiməsinə, daha ağır hallarda isə nitqin inkişafsızlığına gətirib çıxarır.

USİ zamanı eşitmənin pozulmasını üzə çıxarmaq çox vacibdir. Bu işdə valideynlərin böyük köməyi ola bilər. Eşitmə pozulması hətta zəif olsa belə, erkən diaqnostika uşaqda psixi inkişaf ləngiməsinin qarşısını almağa kömək edər.

Bəzi uşaqlarda səs siqnallarına yüksək həssaslıq müşahidə olunur. Onlar qəfil səsdən diksinir, amma səslərin diferensial qavrayışı yetərincə deyil.

Xüsusi pedaqoji yollarla uşağın qəfil səs qıcıqlarının qavranılması zamanı olan qorxusunu yavaş-yavaş aradan qaldırmaq olar.

Körpənin duyğularının inkişafına diqqət yetirmək vacibdir, çünki dəqiq və incə hissiyyat onun hərəkələrinin inkişafı ilə sıx bağlıdır.

Uşağın dünyaya gəlməsi anına artıq onun gözlərinin uyğunsuz, əlaqəsiz hərəkətləri, həyatının üçüncü həftəsinin sonuna isə sağlam körpənin hər iki gözlərinin əlaqəli hərəkəti, hər hansısa bir əşya üzərində dəqiq fiksasiya müşahidə olunur. 30-32 gün ərzində uşaq gözlərinin önündə hərəkət edən əşyanın ardınca işləyə bilir. Artıq həyatının ikinci ayının sonuna körpə müxtəlif istiqamətlərdə hərəkət edən əşyaları izləyə bilir. Hərəkətdə olan parlaq və rəngli əşyalar rəngsiz əşyalara nisbətən uşaqların diqqətini daha çox cəlb edir.

Serebral iflicli uşaqların görmə qavrayışı gözlərin hərəkətinin məhdudluğu, görmə fiksasiyasının pozulması, görmə sahəsinin daralması, görmə itiliyinin zəifləməsi və s. səbəbindən olur. Buna görə də gözü ilə əşyanı axtarıb tapmaq, nəzərdən keçirmək və yerdəyişməsini izləmək onun üçün çətindir.

Uzun müddətli və məcburi yataq rejimi, gözlərin hərəkiliyinin pozulması belə uşaqların görmə sahələrini məhdudlaşdırır. Əşyavi qavrayışın inkişafsızlığı xəstə uşaqlarda əşyavi fəaliyyətin səviyyəsindən bilavasitə asılıdır. Məlumdur ki, əşyalarla fəaliyyət ümumi motorikanın təkmilləşməsi ilə formalaşır. Uşaq başını saxlamağa başlayanda və davamlı olaraq oturduqda əşyalarla fəal manipulyasiya etməyə başlayır.

Serebral iflicli uşaqların təxminən 10 %-də ağır görmə pozulmaları (zəifgörmə və korluq) qeydə alınır. Serebral iflicli uşaqlarda (təxminən 20-30 % hallarda) çəpgözlük, gözlərdə ikiləşmə, gözlərin hərəkətlərində əlaqəlilik, yuxarı göz qapağının enməsi (ptoz), göz almalarının qeyri iradi hərəkətləri (nistaqm) müşahidə olunur. Görmə analizatorunun bu cür xüsusiyyətləri ətraf aləmin hadisələrinin və əşyaların təhrif olunmuş qavranılmasına səbəb olur.

Bəzi uşaqlar daxili çəpgözlük üzündən ətraf sahələri nəzərə almayaraq məhdud görmə sahəsindən istifadə etmək vərdişi qazanır. Məsələn, sol gözün motor aparatının böyük zədələnməsi zamanı uşaqda sol tərəfdən görmə sahəsini nəzərə almamaq vərdişi yarana bilər. Kublar və ya çöplərlə fiqurlar düzəldərkən o, sol tərəfdəki hissələri nəzərə almır, vərəqin ancaq sağ tərəfində şəkil çəkir və ya yazı yazır, şəkillərə baxarkən ancaq sağ tərəfdəki təsvirləri görür. Oxu zamanı da həmin pozulmalar müşahidə olunur. Belə uşaqlarla məktəbəqədər yaşda göz almalarının hərəkiliyinin inkişafı və əşyanın bütövlükdə qavranılması üzrə xüsusi məşğələlər keçirilməlidir.

Əşyavi-praktik və idrak fəaliyyətinin formalaşması üçün əl və gözün birgə hərəkətlərinin böyük mahiyyəti var. Əvvəlcə sağlam uşaq öz görmə sahəsində əlini hərəkət etdirərkən ona diqqət vermir. Sonra əlini izləyir, daha sonra isə əl hərəkətlərini idarə edərək istiqamətləndirməyə başlayır.

Serebral iflicli uşaqlarda hərəki sferanın və gözlərin əzələ aparatının zədələnməsi nəticəsində, xüsusilə də bədənin, ətrafların, başın yuxarıda təsvir edilmiş düzgün olmayan quruluşu da təzahür edirsə, əl və gözün əlaqəli hərəkətləri yetərincə inkişaf etmir. Bu vəziyyətdə uşaqlar öz hərəkətlərini gözləri ilə izləyə bilmir ki, bu da manipulyativ fəaliyyətin inkişafına, şəkil çəkməyə, nə isə düzəltməyə mane olur, sonralar isə təhsil bacarıqlarının (yazı, oxu) və idrak fəaliyyətinin formalaşmasını ləngidir.

Oxu təliminin ilk mərhələlərində uşaq barmaq hərəkətlərini gözləri ilə izləyə bildikdə hərf, heca, sözlərin ardıcıllığını təyin edərək göstərə bildikdə görmə-motor koordinasiyası çox vacibdir. Oxu texnikası və axıcılığı bu əsas üzərində formalaşır. Belə şagirdlər dəftərdə və ya oxu zamanı işçi sətri saxlaya bilmir, çünki bir sətirdən digərinə sürüşərək nəticədə oxuduqlarının mənasını anlamır və öz yazdıqlarını izləyə bilmirlər.

Görmə-motor koordinasiyasının formalaşmaması nəinki yazı və oxu zamanı, həmçinin özünəxidmət, əmək və digər təhsil bacarıqlarının mənimsənilməsi zamanı təzahür edə bilər. Məsələn, əmək dərslərində belə şagirdlərə materialı düzgün yerləşdirmək, bölgüsünü aparmaq çox çətin olur. Onlar üçün ən çətin olanı ayrı-ayrı hissələr üzərində işləməkdir.

Bu səbəbdən özünəxidmət vərdişlərinin formalaşma səbəbi ləngiyir. Öz əllərinin fəaliyyətini gözləri ilə izləyə bilməmək, əl və gözlərin hərəkətini koordinasiya etmək imkanının olmaması fiziki tərbiyə dərslərində iradi hərəkət aktının yetərincə təşkil olunmaması ilə nəticələnir. Uşaqlar məqsədi saxlaya bilmir, topu atıb-tuta bilmir, digər idman oyunlarının bacarıqlarını mənimsəməkdə çətinlik çəkirlər.

Baxış fiksasiyası pozulmuş, əşyanı yaxşı izləyə bilməyən, görmə sahəsinin məhdudluğu olan uşaqlarda diqqət pozulması və tapşırıqlar üzərində diqqəti mərkəzləşdirmək, eləcə də məkan təsəvvürlərinin pozulması müşahidə oluna bilər.

Xüsusilə də uşaqlar öz bədənlərinin və yoldaşlarının bədənlərinin sağ və sol tərəflərini müəyyənləşdirməkdə çətinlik çəkirlər. Məkan anlayışlarının "sağ" və "sol"-un formalaşması üçün biliklər bədən sxeminin mənimsənilməsi əsasında inkişaf edir.

Serebral iflicli uşaqlarda bədən sxeminin pozulması müşahidə olunur. Bu, xüsusilə sol tərəfin ətraflarının zədələnməsi ilə ifadə olunur. Uşaq çətinliklə bədəninin hissələrini yadda saxlayaraq qavrayır, istiqamətləri müəyyən etməkdə uzun müddət qarışdırır. Məktəbdə ilk təhsil pillələrində, bir qayda olaraq, uşağın "yuxarı", "aşağı", "sağdan", "soldan", "arxadan" kimi məkani təsəvvürləri mənimsəmədiyi üzə çıxır.

Onlar müxtəlif şəkillərin, kubların ayrı-ayrı hissələrindən bütöv, tam düzəltməyə çətinlik çəkirlər. Bəzilərində yazı və şəkil çəkmə zamanı güzgü təzahürü müşahidə olunur. Uşaqlar məkan qavrayışında və hərf, rəqəm yazılarını b-d, e-ə, n-m hərflərin yazılışını çaşdırır, şəkil çəkməkdə, plastilinlə fiqurlar düzəltməkdə, konstruktorla işləməkdə böyük çətinliklə üzləşirlər.

Məkan analiz və sintezinin formalaşmaması uşaqların özünəxidmət vərdişlərini, eləcə

də oxu, yazı və fiziki tərbiyə dərslərində mənimsəmə zamanı təzahür edir. Belə uşaqlar sağ və sol tərəfin diferensasiyasında, hissələrdən tamın düzəldilməsində çətinlik çəkirlər. Onlar dəftərlərdə xətləri izləmir, səhifələrin sağ və sol tərəfini fərqləndirmir, dəftərin və ya albomun müxtəlif yerlərindən yazmağa, səhifənin ortasından oxumağa başlaya bilərlər.

Məkan analizi və sintezinin formalaşmaması görmə-motor koordinasiyasının inkişafsızlığı ilə birləşdikdə göstərilmiş çətinliklərin dərəcəsi daha da artır. Belə hallarda uşaqlar bir çox özünəxidmət bacarıq və düzəltmə və s. vərdişlərini: ayaqqabı bağını bağlamaq, düymələri açıb-bağlamaq, yatağı toplamaq və s. ləng mənimsəyirlər. Onlar uzun müddət sağ və sol ayağın ayaqqabısını fərqləndirməyi bacarmır, köynək geyinərkən sağ və sol qollarını, önlük geyinərkən aşağı, yuxarı istiqamətləri təyin edə bilmirlər.

Çox zaman əl əməyi dərslərində ayrı-ayrı hissələrdən tam, bütöv bir fiqur (göbələk, ağac, evcik və s. yapışdırmaq, konstruktordan fiqur düzəltmək,) quraşdırmaqda çətinlik çəkirlər. Yuxarı siniflərdə bu çətinliklər çilingərlik, tikiş və dülgərlik işlərində təzahür edir.

Məkan təsəvvürlərinin pozulması, eləcə də fiziki tərbiyə dərslərində bir xətt üzrə dayanarkən, sağa dön, sola dön, fırlan komandalarını yerinə yetirərkən, istiqaməti dəyişərək bir hərəkətdən digərinə keçərkən təzahür edir.

Məkan təsəvvürləri haqqında məlumatlılıq riyaziyyatdan proqram materialının mənimsənilməsinin ilkin mərhələsində əksini tapır. Uşaqlar sayın tərkibini öyrənərkən əşyaları ayrıca bir qrup kimi təsəvvür edə və ya düzə bilmirlər. Lakin həndəsə və triqonometriya materiallarını mənimsəmək onlar üçün daha çətindir. Çünki bu zaman onlar ayrı-ayrı həndəsi fiqurları təsəvvür edərək çertyojlarını çəkməyi bacarmalıdırlar.

Bəzi şagirdlərə coğrafiya materialını (yer kürəsinin hissələrinin yerləşməsi, çayların axın istiqaməti və s.) mənimsəmək daha çətin olur. Bu da onlarda məkan təsəvvürünün və yaddaşın inkişafsızlığı ilə əlaqədar olur. Belə hal kontur kartları ilə işlədikdə daha aydın təzahür edir.

**Problemin elmi yeniliyi.** Məkan pozulmaları adətən spastik diplegiya diaqnozunda qeydə alınsa da, xəstəliyin digər formalarında da müşahidə oluna bilər. Bu faktın zamanında aşkar olunması, düzgün korreksiya istiqamətlərinin seçilməsi uğurlu nəticələr əldə etməyə imkan verə bilər.

**Problemin praktik əhəmiyyəti və aktuallığı.** Hərəkətlərin pozulması uşaqlarda idrak proseslərinin inkişafına mənfi təsir edir. Məsələn, tədqiqatlar göstərir ki, məkan qavrayışının inkişafsızlığı hərəkət çatışmazlığının bütün formalarında (anadan gəlmə və erkən qazanılan ortopedik xəstəliklər, miopatiyalar, miodistrofiyalar, zəif iflic) müşahidə olunur. Bu pozulmalar müvəqqəti xarakter daşıyır, uşaq sərbəst yeriməyə başladıqda isə asanlıqla kompensasiya olunur.

**Ədəbiyyat:**

1. Детский церебральный паралич: лечение в школьном возрасте / Под ред. И.В. Добрякова, Т.Г. Щедриной. Санкт-Петербург: Издательский дом СПбМАПО, 2008.

2. Ермоленко НА., Скворцов И.А., Неретина А.Ф. Клинико-психологический анализ развития двигательных, перцептивных, интеллектуальных и речевых функций у детей с церебральными параличами // Журнал неврологии и психиатрии, 2000, № 3

3. Ипполитова М.В. Коррекционно-воспитательная работа с детьми дошкольного возраста, страдающими церебральными параличами // В сборнике: Очерки по патологии речи и голоса / Под ред. С.С. Ляпидевского. М., 1967, .Вып. 3.

4. Л.М. Щипицына, И.И. Мамайчук. Детский церебральный паралич. Санкт-Петербург: Дидактика плюс, 2001.

**E- mail:** s-asadzade@mail.ru

**Rəyçilər** *: ped. ü. fəls. dok.*N.T. Hüseynova
*ped. ü. fəls. dok.* M. Məlikov
**Redaksiyaya daxil olub:** 05.12.2018.

UOT 159.9.

**Günay Nazim qızı Bədəlzadə**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# DAUN SİNDROMLU GƏNCLƏRİN (15-18 YAŞ) SOSİAL-ƏMƏK ADAPTASİYASININ ONLARIN ŞƏXSİYYƏT KİMİ İNKİŞAFINDA ROLU

**Гюнай Назим гызы Бадалзаде**
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# РОЛЬ СОЦИАЛЬНО-ПРОФЕССИОНАЛЬНОЙ АДАПТАЦИИ МОЛОДЫХ ЛЮДЕЙ С СИНДРОМОМ ДАУНА (15-18 ЛЕТ) В РАЗВИТИИ ИХ ЛИЧНОСТИ

**Gunay Nazim Badalzade**
*doctoral student in the program of a Ph.D*
*Azerbaijan Republic Education İnstitute*

# THE ROLE OF SOCIAL-VACATIONAL ADAPTATION OF YOUNG PEOPLE WITH DOWN SYNDROME (15-18 YEARS) IN THEIR PERSONALITY DEVELOPMENT

**Xülasə.** Daun sindromlu şəxslərin sosial əmək təlimi onların şəxsiyyət kimi inkişafına və cəmiyyətə inteqrasiya olunması məqsədilə həyata keçirilir. Əsas məqsəd onların həyat fəaliyyətinin yaxşılaşdırılması və əlilliyin onlara yaratdığı maneələrini aradan qaldırmaqdır. Sosial əmək adaptasiyası , Daun sindromlu şəxslərin optimal zehni, fiziki və sosial funksional səviyyəyə çatmasını təmin etmək məqsədi ilə məqsədə yönəlmiş bir prosesdir və onların həyatlarını dəyişdirmək üçün lazım olan vasitələrlə təmin olunur.

***Açar sözlər:*** *Daun sindromu , intellektual əlilliyi olan şagirdlər, zəka geriliyi, peşə reabilitasiyası, əmək təhsili, adaptasiya , sosial inteqrasiya*

**Резюме.** Социально-профессиональная адаптация возникла как комплексный подход с комбинацией методов лечения, целью которых является устранение множества препятствий и преодоление инвалидности. Социально-профессиональная адаптация - это целенаправленный процесс, целью которого является предоставление людям с синдромом Дауна оптимального умственного, физического и социального функционального уровня, предоставляя им инструменты, необходимые для изменения их жизни.

***Ключевые слова:*** *синдром Дауна, учащиеся с ограниченными интеллектуальными возможностями, умственная отсталость, профессиональная реабилитация, трудовое воспитание, адаптация, социальная интеграция*

**Summary.** Socaial-vacational adaptation has emerged as a comprehensive approach with a combination of treatment modalities that have the purpose of addressing multiple impediments and overcoming disabilities. Socaial-vacational adaptation is a goal-oriented process, with the aim of enabling people with Down syndrome to reach an optimum mental, physical and social functional level, there by providing them with the tools required to change their lives.

***Key Words:*** *Down syndrome, students with intellectual disabilities, mental retardation, vocational rehabilitation, labor education, adaptation, social integration*

Xüsusi qayğıya ehtiyacı olan şagirdlərin ictimai və əmək uyğunlaşma probleminin dərin tarixi kökləri var. Keçmişdəki həkimlər, pedaqoqlar və filosoflar həmişə zehni maneələri olan şagirdlərə cəmiyyətin tam hüquqlu üzvləri olmağa kömək edəcək həyati bacarıq və qabiliy-

yətlərlə təmin etməyə kömək edən faydalı vərdişləri öyrətməyə böyük diqqət göstərmişlər. Bu işin nəzəri əsası rus psixoloqları və defektoloqları L.S. Vqotski, A.R. Luria, S.Y. Rubinşteyn, A.N. Leontyeva, G. Muldeva, V.V. Voronkova və xarici ekspertlər T.N. Şibutani, İ.G. Pestalozzi və s.

"Adaptation" (lat. uyğunlaşma ) - XVIII əsrin sonunda fizioloqlar tərəfindən elmə gətirilmişdir. Ən ümumi formada adaptasiya sözünün izahı: ətraf mühit parametrləri dəyişdirərkən obyektin bütövlüyünü qoruya bilməsi qabiliyyətidir.

Sosial adaptasiya fərdlərin ictimai mühitin şərtlərinə (həmçinin bu prosesin nəticəsi olaraq) aktiv şəkildə uyğunlaşması prosesidir.

Sosial uyğunlaşma ən azı davamlıdır, lakin adətən bir şəxsin fəaliyyətində və onun sosial mühitində başlıca dəyişiklik dövrü (məsələn, uşaqlıq dövründə sosial adaptasiya problemi, ümumilikdə bir uşağın bağçaya, məktəbə qəbulu ilə əlaqədar yaranır) ilə bağlıdır. Sosial adaptasiyanın vacib bir xüsusiyyəti fərd tərəfindən müəyyən bir ictimai rolun qəbul edilməsi deməkdir. Sosial adaptasiya fərdlərin sosiallaşmasının əsas mexanizmlərindən biridir. Onun effektivliyi əsasən fərdlərin özünü və sosial əlaqələrini kifayət qədər qəbul etdiyindən asılıdır.

Orta təhsil məktəbinin səmərəli əməklə məşqi birləşdirməyi tapşırığı, əsasən ümumi təhsil proqramlarına tətbiq olunan Daun sindromlu şagird üçün, təhsil müəssisəsi üçün vacibdir. Lakin ümumi tapşırıqlar ilə yanaşı, uyğunlaşdırılan əsas ümumi təhsil proqramlarını həyata keçirən bir təhsil təşkilatı Daun sindromlu şagirdlərin əqli inkişaf xüsusiyyətlərinə görə özünün xüsusi vəzifələrinə malikdir.

Psixi və fəaliyyətin xüsusiyyətləri xüsusi təlim işinin təşkili, eləcə də xüsusi pedaqoji metodlardan istifadəni tələb edir. Əmək təhsilinin bütün prosesi Daun sindromlu şagirdlərin psixi inkişafının çatışmazlıqlarının aradan qaldırılmasına yönəlmiş bərpa işləri ilə sıx bağlıdır.

Beynin zəifliyi və yüksək sinir fəaliyyəti ilə əlaqəli xüsusiyyətləri psixi inkişafı və zəka geriliyi olan şagirdin şəxsiyyətinin formalaşmasını tamamilə müəyyən etmir. T.A. Vlasovanın fikrincə, "əksər növ qüsurların əsas patolo-giyasının mövcudluğu hələ anormal inkişafın şiddətini önə çıxarmır və uşağın taleyinə ölümcül təsiri olmur ... anormal inkişafın köklərində ətrafdakı həqiqət və ictimai əlaqə biliklərinin bir və ya bir növü pozulur ... "Zehni geriliyi olan (intellektual əlil) olan tələbələrə xas olan qüsurlar tədris və tərbiyə prosesində effektiv tədris və düzəliş üsullarından istifadə edildikdə böyük ölçüdə kompensasiya olunur.

Daun sindromlu şagirdin işə hazırlığının əsas ideyalarını, məqsədlərini, prinsiplərini aşkar etməzdən qabaq, bu kimi əsas anlayışları müəyyənləşdirmək lazımdır: əmək, əməyə hazırlıq, əmək təhsili, əməyə hazırlıq, əməyin formalaşması, peşə istiqamətləndirilməsi. Daun sindromlu şagirdlərə tətbiq edilən xüsusiyyətləri müəyyən etmək lazımdır.

Geniş mənada əmək "təbiətin obyektlərini ehtiyaclarını ödəmək və ya iş alətləri vasitəsilə maddi və mənəvi dəyərlər yaratmaq üçün dəyişdirmək və uyğunlaşdırmaq məqsədi ilə müvafiq insan fəaliyyətidir"

Bu tərif Daun sindromlu şəxslər üçün işin xüsusiyyətlərini obyektiv əks etdirir. Əlil və ya məhdud işlərlə məşğul olan insanlar, yalnız istehsal işi ilə deyil, həm də qeyri-məhsuldar işlərlə: idman, ev, özünə qulluq işi və peşə müalicəsi, yəni ehtiyaclarını təmin etmək üçün hər fəaliyyətlə məşğul ola bilərlər. İş konsepsiyasının yuxarıda göstərilən şərhinə əsasən, zəka geriliyi olan (intellektual əlillik) tələbə işlərinə hazırlıq "şagirdin müsbət münasibətinin məqsədyönlü formalaşması prosesi, həyatın əsasları kimi işləmək istəyi və istəkli olması, bir insanın ən yüksək dəyəri və həyat tərzi, özünü inkişaf mənbəyi kimi təyin oluna bilər.

Əmək təhsili cəmiyyətdə inteqrasiyanın zəruri elementidir. "İnteqrasiya" - bərpa, yeniləşdirmə, qoşulma, təklif, əvvəllər qadağa olunmuş, pozulmuş hadisələrin yenilənməsi, bütövlükdə hissələr, işləmək arzusu, digər insanlarla birgə işə qatılmaq zəruriliyini bilmək işləmək istəyini ifadə edir.

Karyera rəhbərliyi işə hazırlıq kontekstində mühüm bir konseptdir. Karyera rəhbərliyi altında başa düşülür:

1. "Hər bir insanın xüsusiyyətlərinə və cəmiyyətin ehtiyaclarına cavab verən peşəkar öz müqəddəratını təyin etməyə yönəlmiş elmi əsaslı, sosial-iqtisadi, psixoloji və pedaqoji, tibbi və fizioloji tədbirlər kompleksi"

2 ."Professional öz müqəddəratını təyin etmə şəxsin özünə hörmət dərəcəsini xüsusi bir

peşə üzrə mütəxəssis kimi göstərir və şəxsiyyətyönümünün məzmununu təmsil edir və peşə rəhbərliyi prosesində şəxsiyyətin formalaşmasının ən vacib obyektidir".

İntrapersonal sosial və peşə ehtiyaclarını birləşdirən bu uzun proses bütün həyat tərzində davam edir və bunun üçün birdəfəlik peşə seçimi və peşə təhsili ilə sona çatmır.

Sinifdə, təhsil təşkilatının müəllimi, uyğunlaşdırılmış əsas ümumi təhsil proqramlarını həyata keçirmək, tələbələrdə məntiqi təfəkkürün az inkişafı ilə bağlı səbəb-təsir münasibətlərini və əlaqələrini qurma bacarığı kimi böyük çətinliklərlə qarşılaşır. Eyni zamanda qeyd etmək lazımdır ki, iş tapşırığının yerinə yetirilməsi prosesində təlimin düzgün təşkil edilməsi ilə bu çətinliklər aradan qaldırıla bilər və lazımi əlaqələri və əlaqələri qurma qabiliyyəti yarana bilər.

Təhsil təşkilatında islah işləri, uyğunlaşdırılmış əsas ümumi təhsil proqramlarını həyata keçirmək, bütün pedaqoji proseslərə nüfuz edir və onun ayrılmaz tərkib hissəsidir. İlk növbədə, düzəliş işi hazırlıq funksiyasını yerinə yetirir, zəruri edir intellektual dayanıqlılıq (intellektual əlillik) olan şagirdlərin bilikli mənimsəmə və məqsədyönlü fəaliyyətə hazır olmağının şərtləri; sonra işə düzgün münasibətin inkişafı və fərdi hərəkətlər və məqsədlərə uyğun olaraq həyata keçirilməsi zərurəti ilə sosial motivlərin formalaşmasına gətirib çıxarır.

Daun sindromu olan tələbələrin ümumi baxışlarını xüsusi texnika ilə genişləndirmək, uyğunlaşdırılmış əsas ümumi təhsil proqramlarını həyata keçirən təhsil müəssisələrində sinif otağında fəaliyyət göstərmək üçün onların bilik mənafeləri və müstəqil iş bacarıqlarını inkişaf etdirmək lazımdır. Bu o deməkdir ki sinifdə işləyən müəllim yalnız tələbələrlə əmək qabiliyyətlərini inkişaf etdirməklə məhdudlaşmır və məhdudlaşdırılmamalıdır.

İşin bilik komponentlərini inkişaf etdirmək vacibdir: plana uyğun hərəkət etmək qabiliyyəti, hərəkətlərini dəqiq və düzgün şəkildə idarə etmək və düzəltmək, daha əvvəl əldə edilmiş məlumatları, bacarıqları və qabiliyyətlərini müvafiq qaydada tətbiq etmək. Dəyərli şəxsiyyət xüsusiyyətlərini yaratmaq lazımdır: kollektivizm, müstəqillik, intizam, əzm, təşəbbüs və cəmiyyətə aid digər vacib keyfiyyətlərdir.

**Məqalənin aktuallığı.** Hal-hazırda cəmiyyətimizi narahat edən problemlərdən biri xüsusi qayğıya ehtiyacı olan şəxslərin məktəbdən sonrakı iş fəaliyyətidir. Bu mövzu valideynləri, bu sahə üzrə çalışan mütəxəssisləri daha çox maraqlandırır.

**Məqalənin elmi yeniliyi.** Daun sindromlu şagirdlər üçün əmək prosesinə uyğunlaşma istiqamətləri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalədən korreksiya pedaqogikası və psixologiyası üzrə çalışan mütəxəssislər, tələbələr, magistrantlar və valideynlər istifadə edə bilərlər.

## Ədəbiyyat:


1. Выготский Л.С. Умственно отсталый ребенок. М., 1956.
2. Коррекционно – развивающая направленность обучения и воспитания умственно отсталых детей. Сборник научных трудов. М.: МГПИ имени В.И. Ленина, 1983.
3. Маллер А.Р., Цикото Г.В. Обучение, воспитание и трудовая подготовка детей с глубокими нарушениями интеллекта. М.: Педагогика, 1988.
4. Социально-трудовая реабилитация детей и подростков с ограниченными возможностями жизнедеятельности: Учебное пособие/ (Акатов Л.И.)


**E-mail:** gunay.badalzade@mail.ru
**Rəyçi:** ped.ü.fəls.dok., dos. N.T. Hüseynova
**Redaksiyaya daxil olub:** 02.11.2018

*UOT 159.9.*

***Simuzər Alim qızı Hacıyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*

# AİLƏ HƏYATININ ÇƏTİNLİKLƏRİ: MƏNƏVİ VƏ PSİXOLOJİ TƏRƏFLƏR

***Симузер Алим гызы Гаджиева***
*докторант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ТРУДНОСТИ СЕМЕЙНОЙ ЖИЗНИ: НРАВСТВЕННЫЕ И ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ

***Simuzar Alim Hacıyeva***
*doctorial student in the program of a Ph.D*
*Ganja State Univercity*

# DIFFICULTY OF FAMILY LIFE: MORAL AND PSYCHOLOGICAL ASPECTS

**Xülasə**. Hazırda ailə davranış normalarını formalaşdırmağın səmərəli alətidir. Odur ki, şagirdlərdə ailə haqqında zəruri təsəvvür yaradılmalıdır. Həm də nəinki biliklərin səviyyəsi artırılmalı, eyni zamanda, onlarda ailə dəyərlərinə müsbət təsəvvür oyatmalı, həm də gənc ailənin problemlərini həll etmək bacarığı aşılanmalıdır. Bütün bunlar ailə çətinliklərinin aradan qaldırılmasına kömək edir.

***Açar sözlər:*** *ailə, ailə həyatı, ailə çətinlikləri, mənəvi tərəflər, psixoloji tərəflər*

**Резюме.** В настоящее время семья призвана стать эффективным инструментом формирования норм поведения. Поэтому необходимо формировать у школьников должное представление о семье, не только повышать уровень знаний, но и воспитывать позитивное отношение к семейным ценностям, готовность решать проблемы молодой семьи. Всё это может оказать большую помощь в устранении семейных трудностей.

***Ключевые слова****: семья, семейная жизнь, семейные трудности, нравственные аспекты, психологические аспекты*

**Summary.** Currently, the family is intended to be an effective tool for the formation of new values and norms of behavior. Therefore, it is necessary to form a proper idea of the family for schoolchildren, not only to raise the level of knowledge, but also to foster a positive attitude towards family values, a willingness to solve the problems of a young family. All of these help eliminate family hardships

***Key words****: family, family life, family difficulties, moral aspect, psychological aspect*

Ailə insanın xoşbəxtlik, rahatlıq, dinclik tapdığı məkandır. *Ailə* dedikdə, sosioloji nöqteyi-nəzərdən evlənmək və ya qohumluq xətti ilə bağlı olan bir həyat ittifaqı başa düşülməlidir. "Ailə" sözü Qərbdə əsas etibarilə ata-ana və uşaqlar anlayışını özündə birləşdirirsə, Şərqdə daha çox eyni evdə yaşayan və ya eyni nəsildən olan insanların birliyinə deyirlər.

Ailə insanların qarşılıqlı əlaqə, fəaliyyət və münasibətlərinin çox qədim təsisatı və unikal hadisədir. Ailənin unikallığını bunda görmək mümkündür ki, bir neçə şəxs uzun vaxt ərzində sıx şəkildə qarşılıqlı əlaqə və fəaliyyətdə olur.

*"Ailə"* deyəndə, aralarında qohumluq münasibətləri bərqərar olan insanların birliyi anlaşılır. O, dövlətin fundamental vahidi hesab edilir.

Cəmiyyətdə ailələr nə qədər möhkəm olarsa, dövlətin quruluşu bir o qədər möhkəm olur. Ailədə ər-arvadın qarşılıqlı münasibətləri, valideyn-övlad münasibətləri bərbad halda olduğu təqdirdə, cəmiyyətin dayaqları da zəif olur.

Nəsirəddin Tusi ailəyə böyük dəyər verir, ailə qanunlarına ciddi yanaşırdı. Böyük mütəfəkkir ailəni bütöv bədənə, ailə üzvlərini də bədən üzvlərinə oxşadır, ailə dolandırmaq sənətini sağlam bədən saxlamaq istəyində bulunan həkimlik sənəti ilə müqayisə edirdi. Tusiyə görə, həkim insan bədəni və onun üzvləri arasında münasibətin sağlamlığına fikir verdiyi kimi, ailə başçısının önəmli vəzifəsi də ailə üzvləri arasındakı münasibətlərə diqqət yetirməkdən ibarət olmalıdır.

Sual olunur: Nə üçün ən yaxın insanlar - ər və arvad, valideynlər və uşaqlar, ər-arvadlar və onların ata-anaları arasında ixtilaflar, mübahisələr, qalmaqallar, dava-dalaşlar, təhqirlər baş verir? Bu kimi hallar, xüsusən onlar bir mənzildə, bir həyətdə yaşadıqda daha ağrılı olur. Nə üçün bizə əziz olan insanlar bizə görə əziyyət çəkirlər, yaxud nə üçün onlar öz hərəkətləri, tutduqları mövqeləri ilə bizi incidirlər?

Tədqiqatlar zamanı bu suallara cavab tapmağa çalışdıq. Məlum oldu ki, hər bir insanın daxilində qorxu və günah hissləri mövcuddur. Sadəcə ailə həyatında qorxunun nə, günahın nə olduğunu aydın başa düşmək, xeyirxahlığa yol açmaq lazımdır. Qəzəb, təsirlənmək, özünüsevməklik, iddialı olmaq, doğru olub-olmadığına baxmayaraq öz mövqeyində dayanmaq, tənbəllik, mütəəssir olmaq, deyingənlik, ciddi səbəb olmadan əhvalın pozulması və s. ailə münasibətlərinin yaxşı və pis olmasına təsir göstərir.

Evdə olmayanda (yəni işdə, qonaq gedəndə, yoldaşlar, dostlar kompaniyasında, toyda, ad günlərində, ziyafətlərdə, ictimai yerlərdə və s.) ehtiras, coşqunluq, özündənçıxmalar açıq-aydın təzahür edir. Bəzi insanlar özünü evdə, ailədə bir cür, cəmiyyətdə, məclisdə, ictimai yerlərdə başqa cür aparır. Burada qəribə heç nə yoxdur. Evdə özünü həyat yoldaşına göstərir, hökmlü olduğunu bildirir. İşdə, başqa yerlərdə belə hərəkətləri nümayiş etdirməyi onun barəsində pis fikir formalaşdırar, onun nüfuz və hörmətini aşağı sala bilər, bunu isə o istəmir. Ailədə vəziyyət başqadır. Ona dözürlər, ailədə sakitliyin naminə dözməyə məcburdurlar. Əks təqdirdə hər şey bir-birinə qarışar, ailənin mənəvi və psixoloji iqlimi pisləşər.

Deməli, işdəki, məhəllədəki və s. yerlərdəki yaxın olmayan adamlara münasibətdə araları dəymiş yaxınlarla müqayisədə daha dözümlüdürlər. Evə gələndə isə, ərin (arvadın) hələ də unuda, razılaşa, etiraf edə bilmədiyi məsələ, umu-küsü həyat yoldaşını görən kimi alovlanır. Daxilindəki narazılıq, razı qalmamaq gec-tez üzə çıxır. Evdə, çöldə, küçədə, işdə büruzə verilməyənlər, başqa sözlə, tormozlaşma, evdə artıq işə düşür. Əyləci işə salmamaq mümkün olmur.

İnsan (ər, yaxud arvad) öz iddiaları, hikkələri ilə mübarizədə mənəvi-ruhi iş aparmırsa, əxlaqının saflaşdırılması, mənəviyyatının təkmilləşdirilməsi qayğısına qalmırsa, öz ruhunu tərbiyə etmirsə, xeyirxah əmələ doğru getmirsə, ixtilaflara uyaraq özünün günaha batdığını anlayaraq tolerantlıq nümayiş etdirmirsə, əzizlərinə, doğmalarına (həyat yoldaşına, övladlarına) əzab vermiş olur.

İnsan ailədən kənarda tərbiyəli, nəzakətli, mərifətli, xeyirxah, səmimi, mehriban ola bilər, daha doğrusu, görünə bilər, ailədə isə, artıq onun əsil siması açılır. O, özünün əslində kim olduğunu, hisslərini gizlədə bilmir. Ailə çətinlikləri belə yaranır.

A.S. Makarenkonun belə fikri var: "Köhnə məntiq belə idi – mən xoşbəxt adam olmaq istəyirəm, özgələri ilə mənim işim yoxdur. Yeni məntiq belədir - mən xoşbəxt adam olmaq istəyirəm, lakin ən doğru yol budur: mən elə hərəkət etməliyəm ki, başqaları da xoşbəxt olsun. O zaman mən də xoşbəxt olaram" (1, s. 58).

Ona görə də böyük pedaqoq erkən yaşlardan uşaqlara ailə dərsləri keçməyin tərəfdarı idi. Göstərirdi ki, "Biz öz uşaqlarımızı elə tərbiyə etməliyik ki, onlar sevgiyə ciddi və dərin bir hiss kimi baxsınlar, böyüyən vaxt öz zövqlərini, öz məhəbbətlərini və sədaqətlərini ailə qurmaqda həyata keçirsinlər" (1, s. 428).

Ailə çətinlikləri bir sıra səbəblərdən irəli gəlir. Onları müəyyənləşdirməyə çalışaq: düşünülməmiş nikah ittifaqının bağlanması ("Göz gördü, könül sevdi". Bu hələ azdır), mənafe güdərək evlənmək, ərə getmək (oğlanın, yaxud qızın ailəsi imkanlıdır, bu fürsəti əldən buraxmaq olmaz), xasiyyətlərin tutmaması, ayrıca mənzilin olmaması, tərəflər arasında güzəştə getmə bacarığının olmaması, oğlanın (qızın) valideyn-

lərinin gənc ailənin daxili işlərinə qarışması, qısqanclıq, düzgün olmayan gəlin-qayınana münasibətləri, ailənin imkanlarının nəzərə alınmadan israfçılığa yol verilməsi, maddi çətinlik, sədaqət andını pozma, sərxoşluq, ərin narkotik maddələrə uyması və s. və i.a.

Ailə çətinliklərinə yol açan səbəblərdən biri, qeyd etdiyimiz kimi, ərin ailədən soyuması, başqa qadınla görüşməsidir. Təbii ki, bu, ailəli kişi üçün yolverilməzdir. O, hər şeydən əvvəl, uşaqları nəzərə almalıdır. Onların təlim-tərbiyəsinə laqeyd yanaşıla bilməz. A.S. Makarenko ailəyə etinasız yanaşan kişilərə uzunu tutaraq deyirdi: "Hərgah sizin iki uşağınız varsa və siz öz arvadınızı artıq sevməyib başqasını sevirsinizsə, yeni hissinizi söndürün. Ağırdır, çətindir, lakin siz bu hissi söndürməyə borclusunuz. Öz ailənizdə ata olaraq qalın. Siz bunu etməyə borclusunuz, çünki sizin uşağınızın simasında gələcək vətəndaş böyüyür və siz öz sevgi səadətinizi buna müəyyən dərəcədə qurban verməlisiniz" (1, s. 309).

Ailənin çətinliklərini yaradan səbəblərdən biri də ər-arvadlardan birinin ailə qayğılarını çəkmək istəməməsi, özü üçün yaşamaq istəyidir. Belə bir mövqe, təbii ki, ailə həyatını çətinləşdirəcəkdir. K.D. Uşinskinin bu məsləyə münasibəti vardır. Tanış olaq: "Əgər ər yaşamaq üçün maddi vəsait əldə etmək məqsədilə işləyir, arvad isə onun əməyində iştirak etməyərək, ancaq ərinin hesabına yaşayırsa, bu zaman da ailə xoşbəxtliyi mümkün deyildir. Çiçəklərlə bəzənmiş yatağında daimi istirahət edən qadın fransız roman yazanlarının pozğun xəyalları ilə yaradılmış ən mənasız məxluqdur" (2, s. 64).

Həmin sözlərdə dərin həqiqət vardır. Ailəni nə tək ər, nə də tək arvad kiçik dövlət halına gətirə bilməz. Onların ikisinin də təkidli səyi tələb olunur. Ona görə də böyük rus pedaqoqu gənclərin, o cümlədən qızların ailə həyatına hazırlanmalarını vacib hesab edirdi. Oğlanlar və qızlar vaxtında ailə həyatına mənəvi, psixoloji, pedaqoji, tibbi, iqtisadi, sanitar-gigiyenik, hüquqi baxımdan hazırlandıqda gələcəkdə qurulan ailələrdə çətinliklər baş qaldırmır. Diqqət yetirək. K.D. Uşinski yazırdı: "Öz qızları üçün işsiz həyat düzəltməyə çalışan analar azmı tapılır? Məgər öz istəkli qızları üçün işsiz həyat hüququ almaq məqsədilə, onların gəncliyini, gözəlliyini, atəşin qəlblərini heç bir sevgiyə layiq olmayan adama satmağa hazır olan adamlar azdırmı?" (2, s. 65).

Bu müdrik fikirləri valideynlər yadlarında saxlamalı, qızlarının tərbiyəsində nəzərə almalıdırlar.

Ailə çətinlikləri bir sıra hallarda qayınanagəlin münasibətlərinin aşağı səviyyədə qurulmasından irəli gəlir. Prof. A.N. Abbasov universitetlərin magistratura səviyyəsi üçün yazdığı "Milli əxlaq və ailə etikası" dərsliyində göstərir ki, qayınanalar əsasən gəlinlərində müşahidə etdikləri aşağıdakı halları xoşlamırlar: diqqətsizlik, hörmətsizlik, saymazlıq, tənbəllik, boşboğazlıq, böyüyün sözünü yerə salmaq, moda, daşqaş hərisi olmaq, ərin iş və istirahət qayğılarına biganə olmaq, evdarlığa dair sadə vərdişlərə yiyələnməmək, xudpəsəndlik, ailədə mənəmlik iddiasında olmaq, gəlinin yüngülxasiyyətliliyi, gəlində müsahibini dinləmək bacarığının və onu başa düşmək arzusunun olmaması və s. və i.a." (3, s. 281-282).

Professor, eyni zamanda, gəlinlərin də fikirlərinə müraciət etmiş, onların sözləri ilə qayınanalarda özünü büruzə verən aşağıdakı halların dözülməz olduğunu göstərmişdir:

"1. Qayınanalar onları öz qızları kimi deyil, məhz "yad qızı" kimi qəbul edirlər.

2. Həddindən artıq tələbkarlıq göstərirlər, bəzən bu tələbkarlığın arxasında əslində gəlinə qarşı olan kin-küdurət, acıq, nəyinsə əvəzini, acığını çıxmaq və s. gizlənir.

3. Qayınanalar deyingənliyə adətkərdədirlər. Hər şeyi söz edirlər.

4. Gəlinləri həddindən artıq ucuz tutur, onlarla heç cür hesablaşmırlar.

5. Köhnəpərəstdirlər. Keçmişin qalıqlarını mühafizə edirlər, modanın, yeniliyin düşmənidirlər.

6. Gəlinlərini hər vəchlə öz iradələrinə tabe etməyə çalışırlar.

7. Müəyyən məsələnin həllində gəlinləri ilə məsləhətləşmir, onların rəyini öyrənməyi lazım bilmirlər.

8. Qayınanalar yerli-yersiz ailənin daxili işinə qarışır, oğlu ilə gəlini arasında soyuqluq yaradırlar.

9. Gəlinləri başa düşmək, onun həyatda təcrübəsizliyini nəzərə almaq istəmirlər.

10. Gəlini ilə oğlu mehriban və səmimi olanda sanki bu, qayınanada qısqanclıq hissi oyadır. O, oğlunun daha çox onu sevməsini istəyir.

11. Qayınana qohumların, qonşuların yanında gəlinin ardınca danışır.

12. Qayınana baldıza imkan verir ki, gəlinlə kobud rəftar etsin" və s. və i.a. (3, s. 283).

Ailə çətinlikləri dözülməz həddə çatdıqda boşanma labüd olur. Tərəflərdən biri bu məsələni məhkəmə qarşısında qaldırır. Prof. A.N. Abbasov boşanmaların nəticələrini şərti olaraq üç qrupa bölür:

"1. Boşananların - ər-arvadın özləri üçün nəticələr.

2. Boşanmanın uşaqlar üçün nəticələri.

3. Boşanmanın cəmiyyət üçün nəticələri" (3, s. 286-287)

Odur ki, böyüyən nəsildə, gənclərdə məhəbbətə, nikaha və ailəyə ciddi münasibət formalaşdırılmalıdır. Belə olduqda nikah uğurlu, ailə möhkəm olur.

**Problemin aktuallığı.** Ailə həyatının çətinliklərinin xüsusi tədqiqatın obyekti olmadığından məqalə aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Ailə həyatının çətinliklərini yaradan mənəvi və psixoloji tərəflər aydınlaşdırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün əhəmiyyətli ola bilər.

**Ədəbiyyat:**

1. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı: "Azərbaycan məktəbi" jurnalının nəşri, 1950.
2. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
3. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Universitetlərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2015.

**E-mail**: simuzer.haciyeva.93@mail.ru
**Rəyçilər**: *psixol.ü.elm.dok*. E.B. Bəylərov,
*ped.ü.fəls.dok*. İ.B. Əmirəliyeva
**Redaksiyaya daxil olub:** 06.12.2018.

## *METODİKA: FƏNLƏRİN TƏDRİSİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ*

*UOT 37.01.*

**Hamlet Vəli oğlu İlyasov**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universitetinin Qazax filialı*

# TƏLİM FƏALİYYƏTİNƏ YARADICI YANAŞMANIN BƏZİ XÜSUSİYYƏTLƏRİ

**Гамлет Вели оглы Ильясов**
*доктор философии по педагогике,*
*Газахский филиал Бакинского Государственного Университета*

# НЕКОТОРЫЕ ОСОБЕННОСТИТВОРЧЕСКОГО ПОДХОДА К УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ

**Hamlet Veli Ilyasov**
*PhD in pedagogy,*
*Gazakh branch of Baku State University*

# SOME FEATURES OF THE CREATIVE APPROACH TO EDUCATIONAL ACTIVITY

**Xülasə:** Təhsil islahatının əsas prinsiplərinə əsaslanan təlim prosesi müəllimin yaradıcı imkanlarının genişlənməsini tələb edir. Dərslərin keçirilmə texnologiyası, öyrətmə üsullarının müəllimlər tərəfindən öz təcrübələri ilə zənginləşdirmələri. Şagirdlərin təfəkkür müstəqilliyinə daha çox yer verilməsi. Hər bir dərsin şagirdlər üçün tədqiqat xarakterli olması

***Açar sözlər:*** *Təhsil islahat, təlimin keyfiyyət, pedaqoji texnologiyalar, öyrənmə üsullar, yaradıcı təfəkkürün inkişafı*

**Резюме:** Педагогический процесс опирающийся на основные принципы реформы образования, требует расширения творческих возможностей учителя. Обогащение методов обучения собственной практикой учителей в технологии проведения уроков, отведение все большего места самостоятельности мышления учащихся и превращение каждого урока для учащихся в исследовательский процесс.

***Ключевые слова:*** *реформа образования, качество образования, педагогические технологии, методы обучения, развитие творческого мышления*

**Summary:** the training process, which based on the fundamental principles of the education reform, requires the teachers creative capabilities to be expanded. Teaching technology, enrichment of teaching methods by teachers, giving more chance to students' mental independence, to be as a research characteristic of each lesson for students.

***Key words:*** *education reforms, the quality of training, pedagogical facilities, the methods of learning, the development of creative thinking*

Azərbaycanda təhsil islahatının əsas prinsiplərini təşkil edən demokratikləşdirmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya, humanitarlaşdırma şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında, onun hərtərəfli inkişafının istiqamətləndirilməsində mühüm və həlledici amildir. Bu prinsiplərə əsaslanan təlim-tərbiyə prosesinin səmərəli təşkili müəllimdə yaradıcı imkanların ifadə olunması ilə həyata keçirilir. Bu günün müasir müəllimi özündə fəal yaradıcı düşünmə qabiliyyəti, yeni biliklərə sərbəst, müstəqil sürətdə yiyələnmələri ilə diqqəti

cəlb edir. Milli və ümumbəşəri dəyərləri nəzərə alaraq, təhsildə əlverişli təlim şəraitinin yaradılması qarşıda duran əsas tələblərdəndir.

Ölkəmizdə 1999-cu ildən başlayaraq layihələr şəklində həyata keçirilən fəal təlimlə bağlı tələblər, tətbiqi araşdırmalar, əslində mahiyyət etibarilə yeni yanaşmalarla bağlı görülmüş işlərin başlanğıcı idi. Bu tədbirlər sonralar genişlənərək ölkəmizin hər tərəfinə yayıldı. Artıq Azərbaycanda müəllim-şagird münasibətlərində xarakter dəyişikliyi yaranmış, pedaqoji prosesdə əməkdaşlıq elementləri inkişaf etməyə başlamışdır. Əslində, bu cəhət yeni kurikulumlarda müəyyənləşdirilmiş təlim strategiyalarının başlıca cəhətlərindəndir(1).

Təlim prosesində şagirdin (tələbənin) nailiyyətlərini yaddaşına görə deyil, idrakına, düşüncə qabiliyyətinə görə qiymətləndirmək önəmli hesab edilir. Bu fikir özünün icra zamanına və mexanizminə görə yeni olsa da, dünyanın böyük klassiklərinin nitqində çox əvvəllər müxtəlif formalarda səslənmişdir. Böyük Çin filosofu Konfutsi düşüncəsiz təlimi əhəmiyyətsiz hesab etmişdir. Alman alimi İ. Kant isə deyirdi ki, fikri yox, fikirləşməyi öyrət. Məşhur Amerika alimi T. Edilson isə belə qənaətə gəlmişdir ki, sivilizasiyanın başlıca məqsədi insanlara fikirləşməyi öyrətməkdən ibarətdir.

Düşünməyi öyrətmək, yaradıcılıq qabiliyyətləri qazanmaq müasir kurikulumun fəlsəfəsini təşkil edir, onun texnologiyalarının əsasında durur. Azərbaycan hökumətinin təsdiq etdiyi ümumi təhsilin Milli kurikulumunda bu texnologiyalar pedaqoji prosesin tamlığı, təlimdə bərabər imkanların yaradılması, şagirdyönlülük, inkişafyönlülük, fəaliyyətin stimullaşdırılması, dəstəkləyici mühitin yaradılması prinsipləri ilə əsaslandırılır(2).

Şagirdlərin bilik səviyyəsinə dərsliklərin təsiri danılmazdır. Aydındır ki, dərsliklərdən çox şey asılıdır. Çünki o, hər şeydən əvvəl, kütləvi tədris vəsaitidir. Hələ XVII əsrdə Komenski başa düşmüşdür ki, təhsildə keyfiyyətin əsas faktorlarından biri də qüsurlu dərsliklərdir. Ona görə də dərsliklər orta səviyyəli deyil, elmi olmalıdır, müsabiqələr, müxtəlif oyunlar ilk növbədə dərslikdəki bilikdən qidalanmalıdır.

Pedaqoqların fikrincə, bu gün daim yeniləşməyə qadir olan məktəb şagirdlərin informasiya fəzasında oriyentasiya qabiliyyətinin inkişafını nəzərdə tutan yenilikçi və tədqiqatçılığa meyilli yaradıcı şəxsiyyətlərin formalaşmasına tam hazır olmalıdır. Bu məqsədlə məktəb uşaqların tədqiqatçılıq işləri fonunda layihə, şagird elmi cəmiyyətlərinə, o cümlədən elmi dünyagörüşünün formalaşmasına şəraitin yaradılmasına kömək etməlidir. Göstərilən keyfiyyətləri özündə ehtiva edən bir ölkənin təməlində müntəzəm yeniləşən, təkmilləşən, yüksək keyfiyyətli təhsil sistemi dayanmalıdır. Bu hədəflərə çatmaq üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası (24 oktyabr 2013-cü il) qəbul edilmişdir. Bu sərəncamın mahiyyətindən irəli gələn aşağıdakı beş istiqamətin həyata keçirilməsi nəzərdə tutulur:

1. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması;

2. Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması;

3. Təhsilin nəticəsinə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması;

4. Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması;

5. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması (3).

Təhsilin inkişafı üzrə Dövlət strategiyasında göstərildiyi kimi, təhsilin məzmununun yeniləşdirilməsi ilə bağlı aparılan islahatların uğurla davam etdiyi

Hazırkı dövrdə təlimin təşkilinin əsas formalarından olan dərs, onun quruluşu və müasir tələblər səviyyəsində təşkili barədə pedaqoji mətbuatda geniş müzakirələr aparılır (4,5,6). Müasir dərsin necə olması barədə səsləndirilən çoxşaxəli suallara verilən cavablardan aşağıdakı ümumi nəticəyə gəlmək olar:

-dərsin müasirliyi dövrün müasirliyindən asılıdır. Müasir dərs idrak fəallığı şəraitində, şagird şəxsiyyəti ön plana çəkilməklə, onların fərdi

xüsusiyyətləri, maraq və meylləri, eləcə də cəmiyyətin tələbi nəzərə alınmaqla təşkil olunmalıdır.

-dərsin əsasını təşkil edən təhsilverici, tərbiyəedici və inkişafetdirici funksiyalar müasir dövrün tələblərinə uyğun olaraq yerinə yetirilməlidir.

Hazırda bəşəri dəyərlərdən daha çox bəhrələnmək, faydalanmaq sahəsində təhsil sisteminin keyfiyyətcə tamamilə yeni bir mərhələsi başlanmışdır. Tədrisdə yeni pedaqoji təfəkkürün formalaşması, bir məqsəd kimi, təhsilin keyfiyyətinin yüksəldilməsidir. Bu iş həm müəllim-şagird münasibətlərində, həm də müəllimlərin müntəzəm olaraq ixtisasının artırılması, onların öz bilik və bacarıqlarını şagirdlərə çatdırma metodlarının təkmilləşdirilməsi bu yeniləşmədə başlıca amillərdəndir.

Təlim keyfiyyətinin yüksəldilməsində şagirdlərin yaradıcılıq potensialının üzə çıxarılmasında, onların şəxsiyyət kimi yetişdirilməsində yeni texnologiyaların əhəmiyyəti böyükdür. "Öyrənməyi öyrətmək" məktəbin əsas vəzifəsi olduğundan, bu texnologiyanın əhəmiyyəti bu gün daha da artmışdır. Yaradıcılıq potensialının üzə çıxarılmasında, istedadlı şagirdlərin aşkar edilməsində bilik yarışlarının, müsabiqələrin, fənn olimpiadalarının üstünlüyü hamıya yaxşı bəllidir.

Pedaqoji texnologiyalardan istifadə təhsil sisteminin inkişafını təmin edən əsas amillərdəndir. Həm informasiya-kommunikasiya texnologiyaları, həm də pedaqoji texnologiyalar tədris prosesinin optimallaşdırılması üçün vacib amillərdir. Müəllimin əməyini yüngülləşdirən, şagirdin zehni inkişafını və təfəkkür proseslərini formalaşdıran pedaqoji texnologiyalardan tədris prosesində daim istifadə olunur və ümumilikdə təhsil sisteminin inkişafını təmin edir.

Pedaqoji texnologiyalar arasında daha çox istifadə olunanlar fərqli tədris üsullarıdır. Dərslərin keçirilmə texnologiyası, öyrətmə üsulları, məzmun standartlarının reallaşdırılma strategiyaları müəllimlər tərəfindən fərqli yollarla tətbiq olunur. Yaradıcı müəllimlər mövcud texnologiyaları öz təcrübələri ilə zənginləşdirirlər. Tətbiq olunan pedaqoji texnologiyaların metodikasına müəyyən dəyişiklik edib onu mövcud tədris sisteminə uyğunlaşdıran yaradıcı müəllimlər zaman keçdikcə özləri də müəyyən öyrətmə texnologiyaları ilə işləyir və onu həmkarları ilə bölüşürlər. İnformasiya Cəmiyyətinin ən mühüm tələblərindən biri də müasir inkişafa uyğun yaradıcı informasiya-kommunikasiya vasitələrindən səmərəli istifadə edə bilən vətəndaşların yetişdirilməsidir. Məktəblər hazırda bu vəzifənin öhdəsindən gəlməyə çalışırlar. Regionlarda olan tədris müəssisələrinin hazırda maddi-texniki baza təminatı formalaşdırılmaqdadır. Müəllimlər müxtəlif öyrədici kurslarda iştirak edərək öz peşəkarlıqlarını inkişaf etdirirlər (7). Təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilir. Əsas odur ki, təlim uşaqları inkişaf etdirsin, onlara düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarıqları aşılasın; onlarda ünsiyyət, anlaşma mədəniyyəti, öz problemlərini həll edə bilmək qabiliyyəti formalaşdırsın.

Müasir dərs şagirdlərdə müəyyən bilik əldə etməsinə və vərdişlərin yaranmasına, formalaşmasına imkanlar açır. Təlimin təşkilində bir sıra iş formalarından ( kollektivlə iş, qruplarla iş, cütlərlə iş, fərdi iş) və metodlarından (beyin həmləsi, anlayışların çıxarılması, müzakirə, rollu oyunlar, layihələrin hazırlanması, təqdimatlar, debat, BİBÖ, qərarlar ağacı və s.) istifadə olunur. Təlimin tədrisi prosesində şagird nailiyyətlərinin qiymətləndirilməsi də diqqət mərkəzində durmalıdır. Təcrübə göstərir ki, şagirdlərin təfəkkür müstəqilliyində didaktik əhəmiyyət daşıyan prinsipləri göstərmək olar:

- Şəxsiyyətyönlü təlim prinsipi;
- İnkişafetdirici təlim prinsipi;
- Qabaqlayıcı təlim prinsipi;
- Təlim və tərbiyənin çevikliyi prinsipi;
- Əməkdaşlıq prinsipi;
- Dialoji təlim prinsipi (8)

Şəxsiyyətin hərtərəfli, ahəngdar inkişafını təmin edən əlverişli şəraitin yaradılması yeni metodların tətbiqini zəruri edir. Şagirdlərdə praktik vərdişlərin və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi öyrədənlər qarşısında duran həlli vacib məsələlərdəndir. Öyrədici, tərbiyəedici və inkişafetdirici təlim məqsədləri olan təhsil sistemimiz şagirdlərin yaradıcı təfəkkürünün davamlı inkişafı üçün sistemli iş aparılmasına təminat verir.

Şagirdlərdə yaradıcı təfəkkürün inkişafına çox böyük önəm verən və bu istiqamətdə tədqiqatlar aparan görkəmli psixoloq prof. Ə.Ə. Əlizadə qeyd edirdi ki, XXI yüzillik ağlın, intellek-

tin təntənəsi əsridir. Müstəqillik yoluna çıxmış respublikamızın milli mənafeyi Azərbaycan məktəbinin, ilk növbədə, məhz ağıl, intellekt məktəbi olmasını tələb edir. Xarici tədqiqatçılardan E. Torrensə görə, yaradıcı təfəkkürə malik olan şagird ona verilən tapşırıqları asanlıqla yerinə yetirir, cavab verərkən çeviklik, orijinallıq və dəqiqlik göstərir. Digər bir tədqiqatçı İ. Lernerə görə isə, yaradıcı təfəkkür bilik və bacarıqların müstəqil olaraq yeni şəraitdə tətbiqinə, tanış situasiyalarda yeni problemləri və onların həllinin digər üsullarını görməyə kömək edir. Psixoloqlar və pedaqoqlar yaradıcı təfəkkürün əsas inkişaf yolunu irsiyyətlə əlaqələndirməklə yanaşı, xarici şəraiti əsas amil kimi qeyd edirlər, o cümlədən təlim və tərbiyənin rolunu da nəzərdən qaçırmaq olmaz.

Müasir dərslərdə motivasiyanın yaradılması, dərslərdə problemli situasiyanın, öyrənməyi öyrətmək texnologiyası, fəal və interaktiv təlim metodlarından istifadə edilməsi mühüm şərtlərdəndir. Hər bir dərsdə şagirdlərin yaradıcı fəaliyyəti diqqət mərkəzində saxlanılmalı, bu işin ardıcıl və sistemli şəkildə aparılması təlim-tərbiyə işinin önəmli sahələrindən ibarətdir. Müasir dövrün tələbləri səviyyəsinə uyğun olaraq qurulan hər bir dərs şagirdlər üçün tədqiqat xarakterli olmalı, təlim nəticələrini özləri "kəşf" edərək tətbiq etməlidirlər. Şübhəsiz ki, təlimin bu cür qurulması, şagirdlərin yaradıcılıq potensialının inkişafı üçün əhəmiyyətli nəticələr verəcəkdir.

**Ədəbiyyat:**

1. Abbasov Ə. Kurikulum islahatının əsas istiqamətləri // Azərbaycan məktəbi, 2011, № 4
2. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) // Kurikulum, 2010, №3
3. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı // Azərbaycan məktəbi, 2013, № 5
4. Mehrabov A. Müasir dərs: onun təşkilinə və gedişinə qoyulan tələblər // Kurikulum, 2013.
5. Müasir dərs: O necə olmalıdır // Kurikulum, 2013, № 4
6. Veyisova Z. Dərs və onun quruluşu haqqında // Kurikulum, 2013, № 2
7. Kazımova Ş. Pedaqoji texnologiyaların təhsil sistemində rolu // Azərbaycan məktəbi, 2016, № 4
8. Veyisova Z. Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait.. Bakı, 2007.

**E-mail**: hamlet.ilyasov9597@gmail.com
**Rəyçilər:** ped.ü.fəls.dok.,
dos. **M.S. Kazımov**,
ped.ü.fəls.dok., dos. **T.S. Paşayev**
**Redaksiyaya daxil olub:** 26. 10..2018.

*UOT 37.01*

***Nahidə Xəqani qızı Əhmədova***
*Bakı Modern Təhsil kompleksinin müəllimi*

# MÜƏLLİMİN GÜNDƏLİK DƏRSƏ HAZIRLAŞMASI TƏLİMİN SƏMƏRƏLİLİK GÖSTƏRİCİSİ KİMİ

***Нахида Хагани гызы Ахмедова***
*учитель Образовательного комплекса Баку Модерн*

# ЕЖЕДНЕВНАЯ ПОДГОТОВКА УЧИТЕЛЯ К УРОКУ КАК ПОКАЗАТЕЛЬ ЭФФЕКТИВНОСТИ ОБУЧЕНИЯ

***Nahida Khagani Akhmedov***
*teacher of the Baku Modern Educational Complex*

# DAILY TRAINING OF THE TEACHER TO THE LESSON AS AN INDICATOR OF EFFICIENCY OF TRAINING

**Xülasə.** Məqalədə gündəlik planlaşdırmanın məzmunu və qaydaları təsvir edilir. Planlaşdırma əvvəlcədən hazırlanmalı olan bir sənəddir. Müəllimin gündəlik dərsə hazırlaşması üçün müəyyən bir vaxt lazımdır. Planlaşdırma nəticəyə yönəlməlidir.
***Açar sözlər:*** *müəllim, tədris, gündəlik plan, tələblər, standartlar, məqsəd, nəticə, motivasiya, fərdi, tapşırıq, islahat*

**Резюме.** В статье описывается содержание и правила проведения ежедневного планирования. Планирование - это документ, который надо подготовить заранее. Надо иметь определенное время и важно подготовить планирование, направленное на результат.
***Ключевые слова****: учитель, обучение, ежедневный план, требования, стандарты, цель, результат, мотивация, индивидуальный, задание, реформа*

**Summary.**The article describes the content and the rules of the annual and daily planning. Plan is a document that is necessary to prepare in advance. It is necessary to have a certain time and it is important to prepare a plan based on the results.
***Key words:*** *teacher, teaching, daily plan, requirements, standards, purpose, result, motivation, individual, task, reform*

Təlim prosesinin əsasında dərs durur. Dərs - təlimin hüceyrəsi olub, dinamik və variantlılığı ilə seçilir. Dərsin müəllifi müəllimdir. Öz istedadından asılı olaraq müəllim dərsdə ustalıq göstərir, yaradıcılıq tətbiq edir. Dərs, həmçinin şagird şəxsiyyətinin formalaşmasında əvəzsiz rol oynayır. Dərsə verilən tələblər zaman-zaman dəyişmişdir.

Hazırda, təhsil islahatlarının həyata keçirildiyi bir zamanda dərs prosesinin yenidən təkmilləşdirilməsi vəzifəsi öz əhəmiyyətini artırmaqdadır ki, bunu da, ilk növbədə, müəllimlərin peşə hazırlığını artırmaqla yerinə yetirmək mümkündür. Dərsin alınması müəllim yaradıcılığından tamamilə asılıdır.

Dərsin müxtəlif aspektləri vardır: dərsdə reallaşdırılacaq standartlar, məqsədlər, istifadə olunacaq forma, üsul və resurslar, digər fənlərlə inteqrasiya, motivasiya, tapşırıqlar, müzakirə sualları, yaradıcı tətbiq etmə, qiymətləndirmə və refleksiya. Dərsin əsasında fənnin məzmunu vasitəsilə şəxsiyyətin inkişaf prosesini təmin etmək durur ki, bu da müəllim və şagirdlərin birgə fəaliyyəti nəticəsində həyata keçirilir.

Müəllim dərsdə reallaşdıracağı məzmun standartlarına (və ondan irəli gələn təlim məqsədlərinə) xidmət edən tapşırıqların üzərində dayanmalıdır. Şagirdlərin gəldikləri nəticələri isə yığcam müsahibə, yaxud təqdimatlar, çıxışlar vasitəsilə müzakirə etmək mümkündür. Məzmun standartlarının reallaşdırılması baxımından təlim məqsədlərinin düzgün müəyyənləşdirilməsi zəruridir. Bu baxımdan bütün mövzularda müvafiq alt standartlara uyğun təlim məqsədlərinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılmışdır. Təlim məqsədlərinin yerinə yetirilməsi məzmun standartlarının addım-addım reallaşdırılmasını, ilin sonunda isə gözlənilən təlim nəticələrinin əldə olunmasını təmin edir. Müasir dərsin ən vacib göstəricilərindən biri dərsin məqsədinin qoyuluşudur. Təlim məqsədi dərsdə reallaşdırılacaq standartın və ya standartlar qrupunun tələblərini ödəməlidir. Yeni fənn kurikulumunun tələblərinə görə 45 dəqiqəlik dərs həmin gün reallaşdırılacaq standartın reallaşdırılması üzərində qurulmalıdır. Məzmun standartları ümumi hazırlanmışdır. Gündəlik planlaşdırmaya dair dərs nümunələri tədris materiallarının illik planlaşdırılmasına uyğun olaraq işlənilir. Bu zaman metodik ənənələrlə yanaşı, metodika elminin son nailiyyətləri, kurikulum sənədlərinin tələbləri əsas götürülmüşdür. Dərs nümunələrinin məktəb təcrübəsində uğurlu tətbiqini təmin etmək üçün respublikamızın qabaqcıl müəllimlərinin, o cümlədən son bir neçə ildə "İlin müəllimi" müsabiqəsinin iştirakçıları və qaliblərinin iş təcrübəsi diqqətlə öyrənilməli, bir sıra məktəblərdə sınaq dərsləri keçirilməlidir.

Ənənəvi dərsdə müəllim yaradıcılığı və şagirdin müstəqil fəaliyyətinə imkan yoxdur. Cəmiyyətdə baş verən demokratik proseslər müstəqil düşünmə bacarığına malik şagirdlər tələb edir ki, bunun da mühüm yolu dərsin mərhələlərindən keçir.

Fəal dərsdə birinci mərhələ motivasiyadır. **Motivasiya** – hər hansı bir fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvə, hər hansı bir fəaliyyətə təhrik edən vasitədir. **Motivasiya** - fəal dərsin vacib komponenti olub, təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən bir prosesdir. Çox zaman müəllimlər səhvən motivasiyanı şagirddən yalnız dərsin adını almaq üçün istifadə olunduğunu düşünürlər. Lakin bu belə deyil. Motivasiya müəllimə öyrənilən mövzu ilə bağlı şagirddə maraq yaratmaq üçün lazımdır. Düzgün qurulmuş motivasiya dərsin 50% alınması deməkdir. Motivasiya 4 hissədən ibarətdir: düşünülmüş problem, yönəldici suallar, şagirdin fərziyyələri və tədqiqat sualı.

Motivasiyanın qurulmasının 3 yolu vardır. Müəllim dərsdə reallaşdıracağı standarta və müəyyənləşdirdiyi məqsədə görə bu yollardan birini seçərək motivasiya qura bilər.

**1. Rəmzi (simvolik) materialın şərhi** (bu, rəsm, foto-şəkil, simvol, *təranə (melodiya)*, ədəbi əsərdən parça, əşya, rəvayət, tapmaca, qrafik, sxem və s. ola bilər). Müəllim bu materialı təqdim edərkən, şagirdlərə aşağıdakı suallara cavab verməyi təklif edir: "Bu nəyi bildirir? Bunun bizim öyrəndiyimiz mövzuya nə kimi aidiyyəti var?")

**2. Sual verməyə həvəsləndirmə.** Təfəkkür prosesinin aktuallaşdıran sualların 3 növü mövcuddur:

• Öyrənilən mövzu üzrə naməlum olan məsələləri müəyyənləşdirən suallar:

• "... haqqında biz nəyi bilirik və nəyi bilmirik? ... haqqında daha nələri bilmək istərdik?"

Sual vermə zamanı müəllim fasilitasiyanın köməyi ilə şagirdlərin təfəkkürünü lazımi məcraya yönəldir. Suallar verilib qurtardıqdan sonra onların arasından mövcud tədqiqata uyğun olanlarını seçib ayırırlar. Müəllimə yalnız bu qalır ki, tədqiqat sualını dəqiqləşdirmək üçün şagirdləri bu sualı daha dürüst ifadə etməyə yönəltsin.

• Açıq suallar, yəni iki və daha çox cavab variantı olan suallardan istifadə olunur.

• Öyrənilən mövzuya aid suallar **açar sözlərin** köməyi ilə verilir ("açar" sözlər: xassələr, xüsusiyyətlər, funksiya, növlər, tiplər, rol, əhəmiyyət, səbəb, nəticə , əlaqə, qarşılıqlı əlaqə, qüsur və üstünlük, struktur, qayda və s.).

**3. Problemin müxtəlif yollarla həll edilməsi** (məsələn, müxtəlif yollarla təsnif edilməsi, məsələnin müxtəlif üsullarla uğurlu həlli, yaxud həlli imkanı, hansısa hadisənin bir neçə bərabərdəyərli səbəbinin olması).

Ənənəvi dərslərdən fərqli olaraq fəal/interaktiv dərsdə ev tapşırıqlarının yoxlanılmasını məqsədə çevirmək doğru deyildir. Müəllim vaxt itkisinə yol verməmək üçün tapşırıqların icra (mənimsənilmə) səviyyəsini seçmə yolla, qısa vaxt ərzində müsahibə, təqdimat, müzakirə və s.

istifadə etməklə aşkara çıxara bilər. O, ev tapşırığının hansı məzmunda və formada verilməsini təlim məqsədlərindən çıxış edərək müstəqil də müəyyənləşdirə bilər. Bəzi yaradıcı tapşırıqların nəticələrinin şagird portfoliosuna toplanması məqsədəuyğundur.

Gündəlik plan hazırlayarkən səhv etməmək üçün müəllimlərin bir neçə məsələyə diqqət etmələri vacib hesab edilir. Müəllim şagirdlərdə fərdi fərqliliklərə diqqət yetirilməlidir. O, hər uşağın dəyişik maraq, ehtiyac və qabiliyyətləri olduğunu nəzərdən qaçırmamalı, eyni davranış və ya öyrənmə vəziyyətini hər şagirddən eyni şəkildə istəməməli və planını ona görə hazırlamalıdır.

Gündəlik dərs planı hazırlayarkən diqqət yetirilməli ən önəmli məsələlərdən biri də tapşırıqların hazırlanmasıdır. Şagirdləri araşdırmaya sövq edən və inkişaf etdirəcək tapşırıqlar təqdim edilməli, lakin şagirdlərin potensial imkanlarını aşan tapşırıqlar verməməlidir. Şagirdlərə verilən hər cür araşdırma və tapşırığa mütləq nəzarət etməlidir. Plan şagird səviyyəsinin nə üstündə, nə də altında olmamalıdır.

Fiziki mühit, zəka, yaş, sosial-iqtisadi vəziyyət kimi öyrənməyə təsir edən faktorlar hər sinifdə hər şagird üçün fərqlidir. Şagirdlər üçün öyrənmədə fərqli olmayan tək şey zamandır. Müəllim zaman amilini çox yaxşı qiymətləndirəcək bir plan hazırlamalıdır, nəyi, necə və nə qədər müddətdə tədris edəcəyini çox yaxşı planlaşdırmalıdır.

Plan hazırlayarkən həddindən artıq kitaba bağlı qalınmamalı və plan elastik olmalıdır. Plana daxil olunan detallar nə çox qısa, nə də çox uzun olmamalıdır, müəllimin şagirdlərə göstərişlər verəcək xüsusiyyətdə olmalıdır.

Gündəlik plan ən əhəmiyyətli mövzuların öyrədilməsini asanlaşdırır, zamanı yaxşı qiymətləndirməyə fayda verir, müəllimin fəaliyyətini göstərən sənəd xüsusiyyəti daşıyır və dərslərin bir-biri ilə əlaqələndirilməsini, dərslərdə davamlılığı və bütövlüyü təmin edir.

**Problemin aktuallığı.** Yeni fənn proqramları (kurikulumları) tətbiq olunan siniflərdə planlaşdırmanın aparılması yerli şəraitdən, sinfin səviyyəsindən, müəllimin yaradıcılığından asılı olaraq müxtəlif hazırlanmalıdır.

**Problemin elmi yeniliyi.** Uğurlu və nəticəyönlü təlim prosesinin təşkili əvvəlcədən mükəmməl hazırlanmış planlaşdırmadan asılıdır. Planlaşdırma özü isə iki cürdür: illik (perspektiv) planlaşdırma; gündəlik (cari) planlaşdırma.

**Problemin praktik əhəmiyyəti.** Planlaşdırmanın düzgün aparılması tədrisin keyfiyyətinə müsbət təsir edir. Planlaşdırma müəyyənləşdirilmiş məqsədlərin hədəfə çatdığında nəticələri qiymətləndirmək üçün meyarlar müəyyənləşdirməyi də tələb edir.

**Ədəbiyyat:**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı: Qanun, 2009.
2. Ümumtəhsil səviyyəsində yeni dövlət proqramları (kurikulumları). Bakı, 2013.
3. Əlizadə. Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.
4. İnteqrativ kurikulum: Mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait (müəllif qrupu) Bakı, 2005. (İREX təşkilatının xətti ilə)

**E- mail:** nahide_ehmed@mail.ru
**Rəyçilər:** *dos.* A. Bəkirova, *dos.* Ə.Gərayev
**Redaksiyaya daxil olub:** 10.12.2018.

*UOT 37.01*

***Mübariz Tahir oğlu Süleymanov***
*Bakı Dövlət Universitetinin Qazax filialının tarix müəllimi*

# YUXARI SİNİF ŞAGİRDLƏRİNİN ÖZÜNÜTƏHSİLİNDƏ BƏDİİ ƏDƏBİYYATIN ROLU

***Мубариз Тахир оглу Сулейманов***
*учитель истории Газахского филиала Бакинского Государственного Университета*

# РОЛЬ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ В САМООБРАЗОВАВАНИИ УЧАЩИХСЯ В СТАРШИХ КЛАССОВ

***Mubariz Tahir Suleymanov***
*teacher at the Kazakh branch of Baku State University*

# ARTISTIC LITERATURE, THE ROLE OF UPPER CLASS STUDENTS IN EDUCATION

**Xülasə.** Bu məqalə multikultural və ümumi formanın və yuxarı sinif şagirdlərinin dünyagörüşünü aydınlaşdırır. Müəllif qeyd edir ki, dünyada gənclərin kitab oxumağa tələbatı azalıb. Müşahidələr göstərir ki, ədəbiyyatın kompüterdən oxunması şagirdlərə əqli cəhətdən çətinlik yaradır və onlar oxudan zövq ala bilmirlər. Bu halda pedaqoji müdaxilə çox faydalıdır. Şagirdlər bədii ədəbiyyatın özünütəhsildə böyük rolunu qeyd edir, müəllif bu fəaliyyətin əsas funksiyalarını göstərir. Bu gün bu problemlə əlaqəli olaraq məktəb kitabxanasının heyəti böyük öhdəlik yerinə yetirir. Müəllif belə nəticəyə gəlir ki, klassik ədəbiyyatın oxunması şagirdlərin dünyagörüşünü artırır və eyni zamanda, multikultural dəyərlərin görünməsini təmin edir.

***Açar sözlər:*** *özünütəhsil, bədii ədəbiyyat, mütaliə, dünyagörüşü, təlim, vərdiş, idrak, fəal, ideya, özünüdərk*

**Резюме.** В статье раскрывается влияние художественной литературы на расширение мировоззрения учащихся старших классов и формированию общечеловеческих и мультикультуралистических ценностей. Автор отмечает, что сегодня в связи с социальными изменениями во всем мире снизилась потребность молодежи к чтению. Наблюдения показывают, что при чтении литературы с компьютера, учащиеся физически устают и не могут получать удовольствие от прочитанного. В таких случаях необходимо вмешательство педагога. Отмечая большую роль литературного чтения в самообразовании учащихся, автор указывает основные функции этой деятельности. В связи с этой проблемой сегодня большая задача возлагается на работников школьной библиотеки. Автор делает вывод о том, что чтение классической литературы расширяет мировоззрение учащихся и тем самым обеспечивает формирование ценностей мультикультурализма.

***Ключевые слова:*** *самообразование, художественная литература, чтение, мировоззрение, сознание, обучение, привычка, активно, самознание*

**Summary.** The article clarifies the outlook for upper class students and the formation of universal and multiculturalism. Author notices that, demand for reading books all youths in the world reduce. Observations show that reading literature from computer tries student by mental accept and they can't enjoy from reading, at that cases pedagogical intervention is very useful. Students note a great role of artisting reading in self education, author points main functions of this activity.

Relating to this problem today the staff of school library must carry out great duty. Author makes such result that reading classic literature increases the students' outlook and at the same time supports the appearing multicultural values.

***Key words:*** *self-education, fiction, reading, worldview, consciousness, learning, habit, active, self-knowledge*

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nda qeyd olunur ki, sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir [1].

Bu baxımdan özünütəhsil prosesində şagirdlərin əldə etdiyi biliklər mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, bütün dövrlərdə incəsənət, ədəbiyyat və tarixin öyrənilməsi insanların dünyagörüşünün, mədəniyyətinin və milli şüurunun formalaşmasında böyük rol oynamışdır. Əsl incəsənət və ədəbiyyat insanın daxili aləmini dəyişir, zənginləşdirir, onlara xeyirxahlıq, insanlara məhəbbət hissi aşılayır. Bu istiqamətdə klassik ədəbiyyat birinci yerlərdən birini tutur. Böyük mütəfəkkirlər, ictimai xadimlər, filosoflar, yazıçılar dəfələrlə insanın bədii zövqünün formalaşmasında, mənəvi dəyərlərin, davranış normalarının, bilik əldə etməyin yollarının müəyyənləşdirilməsində mütaliənin rolunu yüksək qiymətləndirmişlər. Görkəmli tənqidçi-ədəbiyyatşünas Y. Qarayev yazırdı ki, klassik - əbədi deməkdir. Klassiki klassik olmayandan ayıran yeganə cəhət də elə budur. Klassikin əsərinə müasirliyi kənardan əlavə etmirlər. Əsrdən-əsrə klassiklər özləri addımlayır. Daha doğrusu, bəşəriyyət, xalqlar özü əsrdən-əsrə addımladıqca klassikə daha çox yaxınlaşırlar. Məqsəd dahi klassikin yaradıcılığına məxsus nəhayətsizliyin, bitməz-tükənməzliyin yeni hüdudlarını kəşf etməkdir [2, 178].

Yuxarı sinif şagirdləri üçün də klassik ədəbiyyatın mütaliəsi daxili mədəniyyətin formalaşması, bəşər tarixində əldə edilən biliklərin və multikultural dəyərlərin mənimsənilməsində fundament rolunu oynayır.

Bu gün klassik ədəbiyyatın oxunmasına tələbatın azalması bütün dünyada gedən sosial dəyişikliklərlə bağlıdır. Buna görə də oxucuların sosial dəyişikliklərin nəticəsində həyatın dəyərlərinə münasibəti, məhz mütaliə etməyə marağı azalmışdır. Müşahidələr göstərir ki, özünütəhsil zamanı yuxarı sinif şagirdləri həyatda yaşamağın əsl məqsədindən, mənəvi tərəfindən daha artıq yaxşı yaşamaq, qazanc əldə etmək haqqında düşünürlər. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, intellektual cəhətdən mütaliə edən şagirdlər, mütaliə etməyənlərdən fərqlənirlər. Onlar problemi dərk etməkdə, danışıq zamanı əsas fikri tutmaqda, məntiqlə cavab verməkdə, situasiyanı adekvat qiymətləndirməkdə və qərar verməkdə daha çox fəallıq nümayiş etdirirlər. Mütaliə edən şagirdlər daha dərin yaddaşa, fəal yaradıcı təxəyyülə malikdirlər və onların danışıq dili daha zəngindir. Sözsüz ki, bu şagirdlər də həyatda daha firavan yaşamağı arzulayırlar, lakin mənəviyyatın zənginləşməsinə də böyük önəm verirlər.

Müasir dövrdə kompüter, internet şagirdləri bədii ədəbiyyatın oxunmasından uzaq salmış və illər boyu davam edən oxucu-kitab münasibətləri pozulmuşdur. Bədii ədəbiyyat yalnız xalqın əsrlər boyu əldə etdiyi nailiyyətləri deyil, həm də dünyada meydana gələn yeni mənəvi və mədəni dəyərlərin formalaşdırılması vasitəsidir. Müşahidələr göstərmişdir ki, elektron kitablar bu cür kitab rolunu əvəz edə bilmir. Çünki elektron kitablarda ənənəvi kitablara məxsus oxucu-kitab kontaktı pozulur. Kompüterdən kitab mətnini oxuyarkən şagird artıq kitabla deyil, maşınla ünsiyyət edir. İnternetin tərəfdarları bunun mütaliəyə heç bir dəxli olmadığını iddia etsələr də, təcrübədə biz kitabdan və kompüterdən oxunan mətnin fərqini daha aydın görürük.

Şagirdlər mütaliəyə nə qədər çox təşəbbüs və müstəqillik göstərirlərsə, bunun təlim və tərbiyə nəticələri daha yüksək olur. Çünki yalnız bu prosesdə həyata baxışlar və ideyalar yaranır. Bununla şagirdlərin dünyagörüşü, mühakimələrindəki və praktik fəaliyyətindəki müstəqillik özünü büruzə verir.

Məlum məsələdir ki, internet insan ağlının yaratdığı bir möcüzədir. Lakin maraqlı bir romanı kompüterdən oxumağın nə dərəcədə yorucu olduğunu müşahidə edirik. Bu yalnız fiziki yorğunluq deyil, şagird hətta oxuduğu mətndən zövq də ala bilmir. Belə hallarda müəllimin müdaxiləsi və şagirdi kitabdan mütaliə etməyə yönəltməsi məqsədəuyğundur. Kitabın təhsilverici və tərbiyəvi təsiri mətnin həm dərinliyindən, həm də şagirdin onu mənimsəməsindən çox asılıdır. Özünütəhsil prosesində məhz bu qabiliyyətlər inkişaf edir.

Yuxarı sinif şagirdlərinin klassik ədəbiyyat oxuması onlarda ətrafdakı insanlara müsbət münasibət aşılayır. Klassik ədəbiyyat şəxsi və ictimai dəyərlərin, ətraf aləmə, insanlara və özünə münasibətin oriyentiri kimi mənəvi dəyərlərin xəzinəsidir.

Yuxarı sinif şagirdlərinin özünütəhsil prosesində klassik ədəbiyyatın rolunu yüksək qiymətləndirərək bu fəaliyyətin əsas funksiyalarını aşağıdakı kimi formalaşdırmaq olar:

1. İdrak funksiyası. Bu funksiya özünü şagirdlərin biliklərlə (dünya, təbiət, insanlar, hadisələr, münasibətlər) zənginləşməsində büruzə verir. Bundan əlavə, bir kitabı oxuduqdan sonra şagirdlərdə özünüdərk müşahidə edilir. Özünüdərk özünütərbiyə və özünütəhsillə birgə dünyagörüşünün formalaşmasında əsas amillərdir. Şagird özünü dəyişməyə, özünü təkmilləşdirməyə can atır.

2. Tərbiyəvi funksiyası. Bu funksiya bədii ədəbiyyatın şagirdin hiss və şüuruna təsirində özünü büruzə verir. Bədii obrazlardan istifadə etməklə müəllif oxucunu baş verən hadisələrə münasibət göstərməyə və bundan dərs almağa imkan verir.

3. Kommunikativ funksiya. Bu funksiya çoxşaxəlidir və digər funksiyaları da qabaqlayır. Çünki şagird kitabla kontakta daxil olarkən nəyisə dərk edir, mütaliədən məmnun olur, mənəvi cəhətdən zənginləşir.

4. Estetik funksiya. Həqiqəti əks etdirən əsərlər daim insanlarda estetik hisslər yaşatmışdır. Yaxşı əsər şagirdlərdə bədii zövqü formalaşdırır, onun davranışına və insanlarla münasibətinə müsbət təsir göstərir. Kitab oxumaq həmçinin şagirdlərdə bəşəri dəyər kimi bilavasitə mədəniyyətin formalaşmasına təsir göstərən gözəllik haqqında təsəvvürlər yaradır.

5. Multikultural funksiya. Bu funksiyaya əsasən şagirdlər öz mədəniyyəti, dini baxışları ilə yanaşı başqa xalqların da mədəniyyətinə və dininə hörmətlə yanaşır. Multikultural prinsiplərə riayət edirlər.

6. Yaradıcı funksiya. Bu funksiya yuxarı sinif şagirdlərini özünüinkişafa, özünü təkmilləşdirməyə və müxtəlif sahələrdə yaradıcılıq nümayiş etdirməyə sövq edir. O, yekun funksiya olaraq şəxsiyyətin mənəviyyatının formalaşmasında iştirak edir. Bu, özünü şagirdlərin şəxsi imkanlarını bədii ədəbiyyatın təsiri ilə inkişaf etdirməsində büruzə verir. Bundan başqa, fərdin mütaliəsi və inkişafı bir şəxsiyyət kimi özünü reallaşdırması üçün şüurlu fəaliyyətə çevrilir. Fəaliyyət mədəniyyətin inkişafının əsası kimi aparıcı rol oynayır. Özünütəhsil şagirdin real qabiliyyətlərini, öz fərdi xüsusiyyətlərini və potensial imkanlarını tənqidi təhlil edib qiymətləndirməsində əks olunur [6].

Müşahidələr göstərir ki, şagirdlər məktəb dövründə klassik ədəbiyyat oxuyurlarsa, onlar heç vaxt bu əsəri unutmur və həyatının müəyyən anlarında bir yaxın dost kimi yenə o kitablara müraciət edirlər. Kitabı hər dəfə oxuyarkən şagird ondan zövq alır, yeni fikirlər yaranır, müdrik məsləhətlərlə qarşılaşır. Onlar öz imkanlarını və arzularını müqayisə edə bilir, çatışmazlıqlarını müəyyənləşdirir və onları aradan qaldırmağın yollarını öyrənirlər. Bu halda da kitab və onun müəllifinin təcrübəsi müdriklik və mədəniyyət mənbəyi kimi şagirdin köməyinə gəlir.

Yuxarı sinif şagirdlərinin özünütəhsil prosesində kitabxana böyük rol oynayır. Bu gün onun əsas vəzifəsi şagirdləri həm informasiya resursları ilə təmin etmək, həm də öz şəxsi tələbatlarını ödəmək üçün onları tapmağı öyrətməkdir. Kitablarla müstəqil iş bacarıqlarını öyrətmək, həmçinin zəruri dərs və yaxud bədii kitabın dünya informasiya məkanında axtarışı üzrə kitabxana işçiləri yuxarı sinif şagirdləri ilə informasiya mədəniyyətinin əsasları üzrə məşğələlər təşkil etməlidirlər.

Özünütəhsil zamanı kitabxananın təşkil etdiyi ədəbiyyat bayramları şagirdlər tərəfindən maraqla qarşılanır. Fəal şagirdlər üçün bu bayram oxuduqlarının yekunu, yaradıcılıq bayramı kimi qeyd olunur. Digər iştirakçılar üçün isə maraqlı kitabların təqdimatı kimi, yəni onlarda oxumağa istək yaratmaq formasında keçirilir. Özünütəhsil prosesində klassik ədəbiyyatın öyrənilməsi şagirdləri həm mənəvi cəhətdən zənginləşdirir, həm də dünyagörüşünü genişləndirərək multikultural dəyərlərə malik olmasını təmin edir.

Beləliklə, “Təlimin inkişafetdirici vəzifəsini tam həyata keçirmək üçün, ilk növbədə, şagirdlərin təfəkkür əməliyyatının işlənməsinə nail olmaq lazımdır. Yəni, şagird təlim prosesində maraqlanmalı, heyrətlənməli, psixoloji situasiyalarda olmalı, müqayisə aparmalı, məsələlərə tənqidi yanaşmalı və b. təfəkkür əməliyyatları

keçirməlidir. Təlimin inkişafetdirici və tərbiyələndirici funksiyasının yüksək səviyyədə həyata keçirilməsi şagirdlərin yaradıcı fəaliyyətinin, müstəqil işinin kifayət qədər olmasına, onlarda öyrənmək, biliyi təcrübədə tətbiq etmək və özünütəhsil, özünütəkmilləşdirmə bacarıq və vərdişlərinin formalaşmasına geniş imkan yaradır.

Beləliklə, zənnimizcə, klassik ədəbiyyatın mütaliəsi özünütəhsil prosesində şəxsiyyət yetişdirir. Lakin, buna baxmayaraq, kitab oxuyanların sayı azalır. Bu, bütün dünyada gedən prosesdir. Bunun səbəbi bəlli olsa da, çıxış yolu vardır. Birinci növbədə, kitaba maraq ailədən başlanır. Sosiallaşma prosesi sonsuzdur və şəxsiyyətin formalaşması da uşaqlıq dövründən başlayır. Mütaliə vərdişlərinin və bədii zövqün məktəbəqədər yaş dövründən başlaması məqsədəuyğundur. Məktəb dövründə bu vərdişləri aşılamaq nisbətən çətinlik törədir. Buna görə də şagirdlərin lazımi kitabları əldə etməsi üçün kitabxana işçilərinin, fənn kabinetləri müəllimlərinin daim ardıcıl iş aparması, ilk dərslərdən hansı kitabların oxunmasının daha vacib olduğunu şagirdlərə çatdırmaqdır.

Bədii ədəbiyyat şagirdləri düşündürür, insani keyfiyyətləri formalaşdırır, onların həssaslığını artırır, kövrək hisslər yaradır, qəlbini incələşdirir, nəcib sifətlər aşılayır, daxili qüvvə verir, həyata səsləyir, yeni mənəvi dəyərlərin qorunmasına təkan verir. Bədii ədəbiyyat şagirdlərdə vətənpərvərlik və əməyə məhəbbət hissi oyadır ki, bu da gənclərin cəmiyyət üçün xeyirli insan kimi formalaşmasında mühüm rol oynayır.

Beləliklə, deyə bilərik ki, ciddi təlim fəaliyyətinə daxil olmuş şagird artıq yeni bir aləmə düşür. Müəllim şagirdin artıq dünənki uşaq olmadığını ona xatırladır, bu gün onun məktəbli, şagird olduğunu, özünə hər dəqiqə, hər saat başa salır"[4,115].

**Problemin aktuallığı**. Gənclərin uğurlu şəxsiyyətyönlü inkişafında özünütəhsilə marağın formalaşması yuxarı sinif şagirdlərinin əksəriyyətinin həyatı tələbatına çevrilmişdir ki, bu da pedaqogika sahəsində özünütəhsillə bağlı yeni yanaşmalar və yolların axtarılmasına, tədqiqatların aparılmasına zərurət yaradır.

**Problemin elmi yeniliyi**. Şagirdlərin özünütəhsil prosesində müstəqil işləməsi üçün İKT-dən istifadə etməklə yanaşı, bədii ədəbiyyatın da mütaliəsinin rolunun yüksək olması dəlillərlə göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Şagirdlərin dünyagörüşü genişlənir, bədii zövqü formalaşır və bu, özünütəhsil fəaliyyətinin fasiləsizliyinə zəmin yaradır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi", 2013, 25 oktyabr
2. Qarayev Y. Səhnəmiz və müasirlərimiz. Bakı, 1972.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.
4. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. I cild. Bakı: Mütərcim, 2012.
5. Борисова Е.А. Формирование готовности учащихся к самообразованию в процессе обучения иностранному языку. Дисс. ...канд. пед. наук. Самара, 2013.
6. Multikulturalizn siyasətinin prinsipləri və Azərbaycan. "Respublika"qəz., 2016, 10 iyun http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/item/11696-multikulturalizmsiyasaetinin-prinsiplaeri-vae-azaerbaydzan.


**E-mail:** mubariz.suleymanov.74@bk.ru

**Rəyçi**: *ped.ü.elm.dok.*İ.H. Cəbrayılov
**Redaksiyaya daxil olub:** 05.12.2018.

# *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ*

*UOT 373.2.*

**_Gülnar Etibar qızı Vəliyeva_**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

## MƏKTƏBƏQƏDƏR DÖVRDƏ UŞAĞIN SOSİALLAŞMA PROSESİNDƏ OYUNUN VƏ ÜNSİYYƏTİN ROLU

**_Гульнар Етибар гызы Велиева_**
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

## РОЛЬ ИГРЫ И ОБЩЕНИЯ В ПРОЦЕССЕ СОЦИАЛИЗАЦИИ РЕБЕНКА В ДОШКОЛЬНОМ ПЕРИОДЕ

**_Gulnar Etibar Valiyeva_**
*doctoral student in the program of a Ph.D of*
*Azerbaijan Republic Education İnstitute*

## THE ROLE OF PLAY AND COMMUNICATION IN THE PROCESS OF SOCIALIZATION OF THE CHILD IN THE PRESCHOOL PERIOD

**Xülasə:** "Sosiallaşma" konsepsiyasının əhəmiyyəti nəzərdən keçirilir və fəlsəfə tipli bir təhsil sahəsi (fəlsəfə, sosiologiya, psixologiya, pedaqogika) kimi sosiallaşma prosesinin mahiyyətini müəyyənləşdirir. Sosiallaşmanın ictimai mühitin (mədəniyyət, dil, dəyərlər, davranış normaları) və fərdin aktiv mövqeyinin əhəmiyyəti, onun yaşını və fərdi xüsusiyyətlərini nəzərə alaraq əhəmiyyətli olduğunu vurğulayır. Sosiallaşma probleminə iki fərqli yanaşmanın xarakteristikası təqdim olunur: uyğunlaşma və fəaliyyət. Uşaqların inkişafında məktəbəqədər mərhələsinin gənc nəslin sosiallaşma dövrü kimi diqqət yetirilir. Ailənin və məktəbəqədər təhsil müəssisələrinin uşaqların cəmiyyətdə formalaşması prosesi müəyyənləşdirilir. Müasir bir məktəbəqədər müəssisədə kommunikativ və oyun fəaliyyətlərinə aid problemlər göstərilir.

***Açar sözlər**: sosiallaşma, sosiallaşma faktorları, məktəbəqədər yaşda olan uşaqlar, ailə, məktəbəqədər təhsil müəssisələri, oyun və ünsiyyət fəaliyyəti*

**Резюме**: Рассматривается важность понятия «социализация» и выявляется сущность процесса социализации, например философского образования (философия, социология, психология, педагогика). Подчеркивается важность социализации (культура, язык, ценности, поведенческие нормы) и важность активной позиции человека с учетом его возраста и личности. Представлены характеристики двух разных подходов к проблеме социализации: адаптация и действие. В развитии детей молодое поколение дошкольной стадии рассматривается как период социализации. Определен процесс формирования детей в обществе и дошкольных образовательных учреждениях. В современном дошкольном учреждении общение и игровая деятельность являются сложными задачами.

***Ключевые слова**: социализация, факторы социализации, дошкольники, семья, дошкольные образовательные учреждения, игровая и ассоциативная деятельность*

**Summary:** The importance of the concept of "socialization" is examined and identifies the essence of the process of socialization, such as philosophical education (philosophy, sociology, psychology, pedagogy). It emphasizes the importance of socialization (culture, language, values, behavioral norms) and the importance of the individual's active position, taking into account its age and personality. Characteristics of two different approaches to the problem of socialization are presented: adaptation and action. In the

development of children, the younger generation of the preschool stage is considered as a period of socialization. The process of the formation of children in the society and pre-school education institutions is determined. In a modern preschool, communication and gaming activities are challenges.

***Key words**: socialization, socialization factors, preschool children, family, preschool education institutions, game and association activities*

"Sosiallaşma" konsepsiyasının siyasi iqtisadiyyatdan gəldiyi hesab olunur. Bu konsepsiyanın tarixi Amerikalı sosioloq Franklin G. Giddinsin adı ilə əlaqələndirilir. Franklin "Sosiallaşma nəzəriyyəsi" kitabında ilk olaraq bu konsepsiyanı təsvir etmişdir [1]. F. Giddins sosiallaşmanı insanın cəmiyyətə, həyata hazırlanması kimi qeyd edirdi. XX əsrin ortalarına qədər sosiallaşma fənlərarası sahə kimi göstərilirdi. Hazırda sosiallaşma sosioloqlar, filosoflar, psixoloqlar və pedaqoqlar tərəfindən araşdırılır. Hər bir elm bu anlayışın öyrənilməsinə kömək edir. Bu konsepsiyanın açıqlanmasında çox sayda sahə və yanaşmalar var.

Fəlsəfi baxımından sosiallaşma prosesi insan və dünya arasındakı əlaqənin öyrənilməsindən ibarətdir. Fəlsəfə insan mahiyyətinin sosial amillərdən asılılığını araşdırır. Alimlərin fikrinə əsasən sosiallaşmanın bir insanın cəmiyyətə daxil olması, ictimai ünsiyyəti, ictimai idrakı, bir sıra sosial funksiyaları və rollarını qeyd edir.

Sosioloqlar sosiallaşma prosesinə xüsusi diqqət yetirirlər. Sosioloqların fikrincə sosiallaşma prosesi fərdlərin ictimai dəyərlərini, cəmiyyətdə qəbul edilmiş davranış normalarını və davranış qaydalarını sosiallaşma prosesində aktiv və ya passiv mənimsəməsi durur.

Psixoloqların fikrincə, sosiallaşma prosesi insanla ətrafdakı sosial reallıq arasındakı əlaqələr sisteminin öyrənilməsidir. Psixoloqlar sosiallaşma anlayışını, bir insanın ictimai təcrübəsini, davranış qaydalarını, mədəniyyətini, ənənələrinin mənimsənilməsi kimi qeyd edirlər.

Sosiallaşma prosesini öyrənərkən pedaqoqların mövqeyində qeyd etmək vacibdir. Pedaqoqlar sosiallaşma prosesini bir insana sosial mühitin müxtəlif təsirlərini və insanın bu təsirlərə reaksiya verməsi kimi qeyd edirlər. L.V. Mərdaxayevin sözlərinə görə, sosiallaşma şəxsiyyətin formalaşması, onun şüurunun formalaşması (sosial dəyərlərə, dilə, mədəniyyətə), sosial rolların və davranış təcrübəsinin (davranış standartlarının), ictimai əlaqə tərzinin mənimsəməsi və yaşla əlaqəli şəkildə ifadə olunmasıdır [5].

L.V. Mərdaxayev sosiallaşma prosesində üç mühüm aspekti qeyd edir: şəxsin yaşı, ətraf mühitin təsiri və fərdlərin özünəməxsus fəaliyyəti. O, insanın sosiallaşma prosesini izah edərkən, insanın yaşadığı mühitə, ətrafdakı insanlara, qarşılıqlı əlaqələrə təsir göstərdiyini vurğulayır. Ətraf mühitin dəyişməsi ilə şəxsiyyət fəaliyyətinin insan cəmiyyətinə daxil olma prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir [6].

Qeyd etmək lazımdır ki, uşağın sosiallaşma prosesi ailə və məktəbəqədər dövrdə başlayır. Ailədə və cəmiyyətdə sosial həyat normaları ilə ilkin tanışlığı formalaşır, böyüyərkən uşağın sosial dəyərlərinin və ideallarının təməli qoyulur. Ailədə uşaq yaşıdları və yaşlılar ünsiyyəti, davranışı öyrənir, özünü digərləri ilə əlaqələndirir. Bu zaman uşaqlar ailədə həyat tərzi, vərdişləri, mənfi və müsbətləri qiymətləndirir, ədalətli və ədalətsiz olan meyarlar ilə tanış olur, nəsillərin, ailənin, keçmişi, adət-ənənələrini mənimsəyir, müasir cəmiyyətin müsbət tendensiyaları barədə məlumat alır, gələcəyinin qayğısına qalmağı çalışır. Ailə üzvlərinin hər birinin bioloji (ərzaq, istilik) və sosial (fərdlərə hörmət, rəğbət, dəstək, tanınma, psixoloji müdafiə) ehtiyaclarını təmin edir. Məktəbəqədər yaşda uşağ mədəniyyəti, universal dəyərlərini, dünya ilə qarşılıqlı əlaqəsini öyrənir.

Qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlarında olan uşaqlar, fəaliyyətdən başqa, inkişafında aparıcı amilidir. M.İ. Lisinanın sözlərinə görə, bu müddət ərzində uşağın dörd növ kommunikasiya dəyişikliyi var: situasiya-fərdi, situasiya-biznes, əlavə vəziyyətli informativ, əlavə vəziyyət-şəxsi [8].

1. Situasiya və şəxsi ünsiyyət (doğumdan 5-6 aya) - ilkin ünsiyyət formasıdır. Onun fərqli xüsusiyyəti, uşağın təhlükəsizliyin təminatı kimi qəbul etdiyi böyüklərin dost münasibətinə ehtiyacdır.

2. Situasiya və biznes əlaqələri (6 aydan 3 ilə qədər). Uşağın əsas fəaliyyəti subyektlərin öyrənilməsi ilə bağlıdır. Uşaq, böyüklərin müəllifləri əməllərini necə təkrar etməyə çalışdığını müşahidə edir.

3. Əlavə-mədəni ünsiyyət. Rabitə forması məktəbəqədər yaşlı uşaqlar üçün tipikdir. İndi uşağın fəaliyyəti obyektlərin xüsusiyyətlərini bilmək məqsədi daşıyır.

4. Əlavə şəxsi ünsiyyət. 6 ildən 7 ilə qədər görünür. Uşaq, bir yetkinliyi cəmiyyətin üzvü kimi müəyyən bir şəxs kimi qəbul edir. Uşaq böyüklərdən həyatı, işi haqqında çoxsaylı suallar verir və "insanların dünyası" ilə maraqlanır.

Məktəbəqədər yaşda bir uşağın sosiallaşması məsələsini nəzər saldıqda aparıcı fəaliyyətin oyun olduğunu vurğulamaq lazımdır. Bu, uşağın emosional, zehni, iradəsi və şəxsi inkişafına kömək edir. Oynayarkən, uşaq ətrafında olan dünya haqqında məlumat alır, sosial rolları və davranışları assimilyasiya edir. Uşaq böyüdükcə, oyunun xüsusiyyətləri dəyişir (daha mürəkkəb olur). Beləliklə, dörd yaşlı bir uşaq böyüklərin davranışını təkrarlayır və onları təqlid edir. Oyun zamanı o, sosiallaşır. Oyunun süjet olur və uşaq süjetə uyğun oyun qurur, təfəkkürü formalaşır. Altı ya da yeddi yaşına çatdıqda, uşaq rollu oyun oynanır.

Müasir oyunlar on il əvvəlki uşaq oyunlarından tamamilə fərqlənir: karikatura, televiziya şousu və kompüter oyunlarından alınan yeni oyun sahələri ilə əvəzlənir. Düzgün olmayan video oyunlarından çox istifadə uşaqlarda zehni inkişafı üçün ciddi bir risk yarada bilər. Qeyd edək ki, bəzi video oyunları oynayan, uşaq fərdi fəaliyyətlərdə məhdudlaşdırılır və əlaqələri tükənir, kommunikasiya sahəsi pozulur və sosial təcrid olunmasına səbəb ola bilər. Həmçinin, bir çox video oyunlar uşağın təxəyyülünün inkişafına kömək etmir, bu oyunlarda hərəkətlərin əxlaqi qiymətləndirilməsi, şiddət səhnələri çoxluq təşkil edir. Bir uşağın kompüterdə uzun müddət sərf etməsinə və uşağın oyun fəaliyyətindən çəkilməsinə imkan verən böyüklər, uşağın daxili dünyasının və inkişafının formalaşmasına mane olur.

Oyun fəaliyyətinin mütləq rabitə ilə müşayiət edilməlidir. Oyun zamanı uşaqların fikirləri və təəssüratlarının mübadiləsi, onların niyyətlərini əlaqələndirməsi müşayiət olunur. Rabitəli oyun zamanı uşaqların biliklərinin qarşılıqlı köçürülməsini asanlaşır, kommunikasiyasının formalaşması bu zaman formalaşır.

Məktəbəqədər yaşlı uşaqların sosiallaşması sosial-pedaqoji bir problemdir. Uşağın sosiallaşma prosesinin əsası fəaliyyətlər ünsiyyət və oyun təşkil edir. Lakin məktəbəqədər dövrdə ünsiyyət qurmaqda çətinlik çəkirlər. Ailədə, nə də məktəbəqədər təhsil müəssisələrində ünsiyyət bacarıqlarının formalaşmasına çox da diqqət yetirilmir. Tədqiqatçıların fikrincə müasir uşaq oyunları monotondur, oyunun sahəsi məhduddur, müxtəlif peşə nümayəndələri üçün heç bir rolu yoxdur. Alimlərin fikrincə, oyunun mövqeyini itirən səbəblərdən biri onun zənginləşdirilməsinə zəmanət verməsi üçün uşağın sürətlə inkişafı deməkdir. Oyunun vəziyyətinin dəyişdirilməsinin digər bir səbəbi də uşaq əlaqələr sistemində dəyişiklik ola bilər. Rabitə səviyyəsinin aşağı olması və inkişaf etdirilməmiş oyun fəaliyyəti uşağın yetkinlik yaşında cəmiyyətə inteqrasiyasında maneələrə səbəb olur. Olası mənfi nəticələr nəzərə alsaq, sosiallaşma prosesinin təşkili daha məsuliyyətli bir şəkildə aparılmalıdır. Məktəbəqədər yaşlı bir uşağın əsas fəaliyyəti bir oyun olduğundan, sosiallaşma prosesi müxtəlif oyun fəaliyyəti ilə qurulmalıdır.

**Problemin aktuallığı.** Məktəbəqədər dövrdə uşağın sosiallaşma prosesində oyunun və ünsiyyətin həmişə aktuallığı ilə seçilib, bu gün də mühüm bir problemdir, tədqiqinə ehtiyac vardır.

**Problemin yeniliyi.** Məktəbəqədər dövrdə uşağın sosiallaşma prosesində oyunun və ünsiyyətin rolu diqqətə çatdırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar və uşaq bağçası tərbiyəçiləri üçün faydalı ola bilər.

**Ədəbiyyat:**

1. Гиддингс Ф. П. Теория социализации. Н. Я. М., 1897.

2. Парыгин Б. Д. Основы социально-психологической теории. М.: Мышление, 1971.

3. Ковалева А. Методологические проблемы изучения социализации // Гуманитарные: теория и методология. 2012, № 2

4. Андреева Г. М. Психология социальных наук. М.: Аспект Пресс, 2000.

5. Мардахаев Л. В. Социализация и социализация. Социально-педагогический подход // Вестник высшего образования. Звание: Педагогика и психология, 2015, № 4

6. Комарова Т.С. Развитие способностей и навыков у детей до 10 лет // Педагогическое образование и наука, 2010, №

7. Выготский Л.С. Проблемы детской (возрастной) психологии // Собрание сочинений. 6 т. М., 1984, т. 4

8. Лисина М. Формирование личности ребенка во взаимоотношениях. Л.: Питер, 2009.

9. Евдокишина О. В. Влияние игровой деятельности на социализацию дошкольников // Мир науки, культуры, образования, 2015, № 2

**E-mail**: Velijevagulnar@gmail.com

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub:** 20.11.2018.

# RİYAZİYYATIN TƏDRİSİ METODİKASI

UOT 37.01.

**Mübariz Xasay oğlu Əsədov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
**Züleyxa Suliddin qızı Heydərova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## MƏSƏLƏ HƏLLİNDƏ HƏNDƏSƏ ELEMENTLƏRİNDƏN İSTİFADƏ

**Мубариз Хасай оглы Асадов**
*доцент Азербайджанского Государственного Педагогического Университета*
**Зулейха Сулиддин гызы Гейдарова**
*Азербайджанский Государственный Педагогический Университет*

## ПРИМЕНЕНИЕ ГЕОМЕТРИЧЕСКИХ ЭЛЕМЕНТОВ В РЕШЕНИИ ЗАДАЧ

**Mubariz Hassay Asadov**
*associate professor at Azerbaijan State Pedagogical University*
**Zuleuha Sulid Geydarova**
*Azerbaijan State Pedagogical University*

## APPLYING THE GEOMETRIC ELEMENTS IN THE SOLUTION TASK

**Xülasə.** Məsələ həllində həndəsə elementlərindən geniş istifadə olunur. Həndəsi məsələlərin həlli şagirdlərin sərbəst təfəkkürlərinin inkişaf vasitəsi hesab olunur. Bu məqalədə ibtidai siniflərin riyaziyyat kursunda müxtəlif məzmun xətlərinə aid məsələlərdə həndəsə elementlərinin rolu araşdırılmışdır.
***Açar sözlər:*** *məsələ, həndəsi fiqur, fəza fiqurları, kvadrat, simmetriya oxu*

**Резюме.** В решении задач широко используются элементы геометрии. Решение геометрических задач, как средство развития самостоятельности мышления учащихся. В этой статье рассматривается роль геометрических элементов на курсе математики начальных классов связанных с различными содержательными линиями.
***Ключевые слова:*** *задача, геометрические фигуры, пространственные фигуры, квадрат, ось симметрии*

**Summary.** Geometry elements is widely used in issue solution. The solution of geometric issues is considered as the means of development of students free thinking.

The role of geometry elements is investigate in this article, the mathematics course of elementary classes, different content lines issues.
***Key words:*** *issue, geometric figure, spatial figures, square, axis of symmetry*

Məzmun xətlərinin strukturu onların ayrı şəkildə öyrənilməsinə imkan vermir. İstənilən məsələnin strukturunda məsələdə verilənlər və onlar arasındakı asılılıqlar müxtəlif şəkildə ifadə oluna bilər. İbtidai siniflərin riyaziyyat kursunda məsələdə verilən situasiyanı reallaşdırmaq üçün həndəsə elementlərindən geniş istifadə olunur. I sinifdən başlayaraq şagirdlərdə fəza təsəvvürlərinin formalaşdırılması və əsas həndəsi fiqurlar haqqında ilkin məlumatlar verilir. Həndəsə elementlərinin daxil edilməsində digər məzmun xətlərinin elementlərinin öyrənilməsinə imkanlar yaranır. Təlim prosesində şagirdlər ilkin olaraq aşağıdakı anlayışlarla tanış edilməli və müvafiq bacarıqları əldə etməlidirlər:

- həndəsi fiqur nədir və hər hansı fiquru təsvir etmək üçün nədən istifadə etmək olar;

- fiqurun xassəsi dedikdə nə başa düşülür və istənilən fiqurun xassəsini müəyyən etmək üçün hansı vasitələrdən istifadə zəruridir;

- sadə həndəsi fiqurların bəzi xassələrini məsələ həllində tətbiq etməyi bacarır;

- əsas sadə müstəvi fiqurları tanıyır və sadə fiqurların kombinasiyasından ibarət fiquru təhlil edir və müvafiq şərhlərin verilməsini bacarır;

- fəza fiqurlarının müstəvi fiqurlardan fərqini müəyyən edə bilir və sadə fəza fiqurlarının müstəvi üzərində sxematik təsvirlərini seçə bilir;

- uzunluq və istiqamət anlayışlarını sadə məsələlərin həllində tətbiq etməyi bacarır və məsələdə verilənləri sxematik təsvir etməyi bacarır;

- çoxbucaqlının perimetri və sahəsi anlayışlarını dərk edir və verilmiş müvafiq məsələlərin həllində məlum anlayışlardan istifadə qaydasını tətbiq etməyi bacarır.

Ölçmələr məzmun xəttinin öyrənilməsi həndəsə elementlərinin öyrənilməsi ilə sıx əlaqədardır. I sinfin riyaziyyat dərsliyində "Həndəsə. Ölçmə" bölməsi bir fəsil daxilində verilib. Burada həndəsi fiqurlar haqqında məlumatların verilməsi ilə yanaşı uzunluq, kütlə, tutum, onların ölçü vahidləri və temperatur haqqında məlumatlar daxil edilib. Riyaziyyat – I "Müəllim üçün vəsait"də şagirdin nail olacağı bəzi bacarıqlar aşağıdakı kimi müəyyən edilir:

1. Həndəsi fiqurları kağız üzərində sərbəst çəkə bilir.
2. Əlamətlərinə və həndəsi xassələrinə görə sadə həndəsi fiqurların təsnifatını apara bilir və təsnifatın nəticəsini şərh edə bilir.
3. Həndəsi fiqurlardan ibarət ardıcıllıqların qaydasını başa düşür və növbəti elementi müəyyən edə bilir.
4. Müxtəlif formalı fiqurları sadə həndəsi fiqurlara bölə bilir.
5. Həndəsi fiqurların köməyilə müxtəlif şəkillər və ornamentlər dizayn edir.
6. Şifahi nitqində riyazi ifadələri düzgün işlədir.
6. Simmetriya anlayışını başa düşür və sadə fiqurlar üzərində nümayiş etdirir.
7. Sxematik təsvirləri təhlil edərək mətnli məsələlər tərtib edir. [3, s. 94].

Riyaziyyat kurikulumu standartlarına uyğun olaraq birinci sinifdə müstəvi fiqurlar – kvadrat, üçbucaq, dördbucaqlı, dairə, romb, paraleloqram, trapesiya, çoxbucaqlı və s. öyrənilir. Şagirdlərin simmetriya haqqında məlumatları olduqda qeyd olunan həndəsi fiqurların simmetriya mərkəzi və simmetriya oxu haqqında şagirdlərdə motivasiya yaratmaq olar.

Təcrübə göstərir ki, simmetriya anlayışına aid bütün məlumatlar şagirdlərə hazır şəkildə verilərsə, mənimsəmə uzun müddətli olmayacaq. Məsələn, hər hansı həndəsi fiqurun simmetriya oxunun bir, iki, üç, dörd və s. olması haqqında şagirdlərə verilən məlumat metodik baxımdan düzgün hesab edilə bilməz.

Məsələ 1. Düzbucaqlının neçə simmetriya oxu var və hansı halda düzbucaqlının simmetriya oxu daha çox ola bilər?

Bu məsələnin həlli induktiv mühakiməyə əsaslanır və tam induksiyaya əsasən şagirdlər yekun nəticəyə gələ bilərlər. Cins və növ anlayışı, anlayışın mühüm və mühüm olmayan əlamətləri təhlil olunduqdan sonra alınan nəticə məntiqi mühakiməyə əsaslanır.

Məsələ 2. İxtiyari üçbucağın simmetriya oxu varmı və hansı üçbucağın simmetriya oxu daha çoxdur?

İbtidai siniflərin riyaziyyat dərsliklərində həndəsi fiqurların qruplaşdırılması dedikdə əsasən cins və növ anlayışları nəzərdə tutulur. Eyni zamanda həndəsi fiqurların ölçüləri və rəngləri qruplaşmaya daxil edilə bilər. Rənglərin seçilməsi, istiqamətlərin müəyyən edilməsi şagirdlərdə fəza təsəvvürlərinin formalaşmasına şərait yaradır.

Əşyaların fəzada qarşılıqlı vəziyyəti, qəbul edilmiş məkana (koordinat başlanğıcına) nəzərən yerinin müəyyən edilməsi şagirdlərin riyazi məntiqi təfəkkürlərinin formalaşmasında, mühakimə və dərketmə qabiliyyətlərinin yüksəlməsində müstəsna rol oynayır.

Məsələ 3. Sonsuz sayda simmetriya oxu olan həndəsi fiqur varmı və hansıdır?

Bu məsələnin təhlili zamanı şagirdlərin məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, fəza təsəvvürlərini inkişafı üçün şərait yaradılır. Məsələnin təhlili zamanı induksiya və deduksiya, ümumiləşdirmə və konkretləşdirmə, analiz və sintez, təsnifetmə və sistemləşdirmə, mücərrədləşdirmə və analogiya kimi əqli mühakimə üsullarından istifadə olunur. Bu da şagirdlərin məntiqi təfəkkürünün inkişafını sürətləndirməklə yanaşı, diqqətin, hafizənin və nitqin inkişafına kömək edir. Qeyd olunan nəti-

cələrin əldə olunması üçün müxtəlif vasitələrdən istifadə olunur. Bu vasitələrdən biri də məsələ həllində əyani illüstrativ materiallardan istifadə olunmasıdır. Əyani və illüstrativ materialların tətbiqi zamanı şagirdlər məsələnin məzmunu və şərti üçün bütün zəruri halları şüurlu halda mənimsəyirlər. Həll prosesində məntiq və mühakiməyə əsaslanan bəzi məsələlərin həllində əyani və illüstrativ materiallardan istifadə şagirdlərin dərsə marağını artırır. İbtidai siniflərdə həll olunan qeyri-standart məsələlərin həllində ilkin olaraq həndəsi fiqurlardan istifadə məqsədəmüvafiqdir. Məsələn, sehrli kvadratlar və üçbucaqlarla bağlı məsələlərin həllində şagirdlər həndəsi fiqurların xassələrini öyrənməklə yanaşı natural sırada ədədlər arasındakı qanunauyğunluqları əyani şəkildə mənimsəyirlər. Riyaziyyat təlimində beş məzmun xəttinin bir yerdə tədris olunması qeyd olunan təkliflərin nəticəsi kimi qəbul edilə bilər.

**Problemin aktuallığı.** İbtidai siniflərdə bütün məzmun xətlərinin öyrənilməsində həndəsə elementlərindən geniş istifadə olunur. Kursun əsas məzmunu məsələ həlli vasitəsi ilə reallaşdığından onun tədqiq olunması həmişə aktualdır.

**Problemin elmi yeniliyi.** Məqalədə məzmun xətlərinə aid məsələlərin həllində həndəsə elementlərinin tətbiqi imkanları araşdırılmış və məsələnin həlli prosesində müxtəlif həll üsullarının metodik təhlili nəzərdən keçirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Həndəsə elementlərindən, eyni zamanda, məsələ həllində əyani və illüstrativ material kimi istifadə olunur. Məsələlərin həllində həndəsə elementlərindən müxtəlif variantda istifadə şagirdlərin riyazi və məntiqi təfəkkürlərinin inkişafına səbəb olur. Bu baxımdan təklif olunan yanaşmadan istifadə riyaziyyat təlimində məqsədəmüvafiqdir.

## Ədəbiyyat:

1. Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı: АДПУ, 2012.
2. Qəhrəmanova N.M. Riyaziyyat: I sinif üçün dərslik. Bakı, 2016.
3. Qəhrəmanova N.M. Riyaziyyat: I sinif. Müəllim üçün metodik vəsait. Bakı, 2016.
4. Бантова М. А. и др. Методика преподавания математики в начальных классах. М.: Просвещение, 1998.

**E-mail:** mubariz.esedov.66@ mail.ru
**E-mail:** hzuleykha@bk.ru
**Rəyçilər:** *prof.* A.S. Adıgözəlov,
*dos.* S.C. Tağıyeva
**Redaksiyaya daxil olub:** 13.12.2018.

*UOT 37.01.*

***Dəstəgül Məzahir qızı Zeynalova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# RİYAZİYYAT TƏLİMİNDƏ DİDAKTİK PRİNSİPLƏR

***Дастагюль Мазахир гызы Зейналова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ДИДАКТИЧЕСКИЕ ПРИНЦИПЫ В ОБУЧЕНИИ МАТЕМАТИКЕ

***Dastagul Mazahir Zeynalova***
*Azerbaijan State Pedagogical University*

# DIDACTIC PRINCIPLES IN MATHEMATICS TRAINING

**Xülasə:** Şüurlu mənimsəmənin təmin olunması müəyyən çətinliklərlə bağlıdır. Bu çətinliklərin ən əsası mənimsəmə mexanizminin “kifayət qədər” öyrənilməməsidir, çünki “şagird verilən tədris materialını mənimsəmişdir” təklifini dəqiq söyləmək mümkün deyil. Əgər şagird verilən suallara cavab verirsə, verilən çalışmaları həll edirsə, onda müəyyən ehtimalla “şagird tədris materialını mənimsəmişdir” söyləmək olar. Əks halda “şagird bu materialı mənimsəməmişdir” demək olar. Təlim prosesində şagirdin tədris materialını necə mənimsəməsi haqqında daim informasiya almaq vacibdir. Buna yalnız pedaqoji cəhətdən düzgün qoyulmuş suallar sistemi vasitəsi ilə nail olmaq olar.

***Açar söz:*** *didaktik sistem, təlim prosesi, biliklər sistemi, biliklər sistemi, formalizm, fərdi yanaşma prinsipi, əyanilik prinsipi, şüurlu mənimsəmə, fəallıq və müstəqillik prinsipi*

**Резюме:** Обеспечение сознательного усвоения связано с определенными трудностями. Наиболее важной из этих трудностей является отсутствие «адекватного» механизма обучения, так как невозможно точно сказать, освоил ли ученик учебный материал. Если ученик отвечает на вопросы, заданные учителем, то можно сказать, что ученик освоил учебный материал. В противном случае, можно сказать, что ученик его не освоил. В процессе обучения важно постоянно получать информацию о том, как ученик осваивает учебный материал. Это может быть достигнуто только с помощью педагогически правильно построенной системы вопросов.

***Ключевые слова****: дидактическая система, процесс обучения, система знаний, формализм, принцип индивидуального подхода, принцип наглядности, сознательное усвоение, принцип активности и независимости*

**Summary**: Ensuring conscious adoption is related to certain difficulties. The most important of these difficulties is the lack of "adequate" learning mechanism, as it is impossible to say precisely the proposal "mastered the educational material of the pupil". If a student responds to questions asked by a student, he / she can probably say that "the student has mastered the learning material". Otherwise, "the pupil did not adopt this outfit." In the learning process, it is important to constantly get information on how the student acquires learning material. This can only be achieved through a pedagogical correct answer system.

***Key words****: didactic system, learning process, knowledge system, knowledge system, formalism, individual approach approach, principle of principle, conscious adoption, activity and independence principle*

Y.A. Komenski dövründən bəri qabaqcıl təlim təcrübəsi pedaqoqlar tərəfindən ümumiləşdirilərək təlim prinsipləri adlandırılmışdır. Bu prinsiplərdə təlim prosesinin vəzifələri, təlimdə müəllimin fəaliyyətinin əsas və mühüm cəhətləri əks olunur.

Riyaziyyatdan metodik ədəbiyyatda aşağıdakı didaktik prinsiplər sistemi qəbul edilir:

1) riyaziyyat təlimində elmilik prinsipi;

2) riyaziyyat təlimində şüurlu mənimsəmə, fəallıq və müstəqillik prinsipi;

3) riyaziyyat təlimində müvafiqlik prinsipi;

4) riyaziyyat təlimində əyanilik prinsipi;

5) riyaziyyat təlimində fərdi yanaşma prinsipi;

6) riyaziyyat təlimində biliklərin möhkəmliyi prinsipi.

Riyaziyyat təlimində elmilik dedikdə, təlimin məzmununun elmin müasir səviyyəsinə uyğun olması başa düşülür. Riyaziyyat təlimində elmilik prinsipi əsasən dərsliklərin yazılması ilə təmin olunur. Məlumdur ki, riyazi material təlim prosesinə didaktik işləndikdən sonra daxil edilir. Dərslik və ya didaktik sistem aşağıdakı tələbləri ödəməlidir:

1) didaktik sistem əks etdirdiyi elm sahəsini ona məxsus məntiqi və biliklər sistemini mümkün qədər saxlamalıdır;

2) didaktik sistemdə hər sonrakı tədris materialı özündən əvvəlki materialla əsaslandırılır;

3) didaktik sistemdə tədris materiallarının yerləşdirilməsi ardıcıllığı şagirdlərin inkişafda olan psixoloji xüsusiyyətlərinə uyğun olmalı və bu ardıcıllıq şagirdlərin riyazi təfəkkürünün sürətli inkişafına yardım etməlidir;

4) didaktik sistem elmi faktlar və anlayışlar arasındakı daxili əlaqəni açmalıdır.

Riyaziyyat təlimində elmilik prinsipinin reallaşmasına hər addımda nail olmaq olar. Məsələn, müəllim riyazi anlayışlara tərif verərkən, riyazi mühakimələri qurarkən ifadələrin korrektliyinə diqqət yetirməyi və ya hər mühakiməyə tənqidi yanaşmağı şagirdlərdən tələb edirsə, o, elmilik prinsipinə əməl edir. Təlimdə elmilik prinsipinin reallaşmasında hələ də maneələr vardır. Proqram və dərsliklərin mükəmməl olmamasını, ayrı-ayrı fənlər üzrə proqramların tam uyğun olmamasını buna misal göstərmək olar. Riyaziyyat təlimində şüurluluq, fəallıq və müstəqillik prinsipləri aparıcı prinsip olmaqla təlimin müvəffəqiyyətini təmin edir. Şüurlu mənimsəmə dedikdə, şagirdlərin biliklərə elə dərindən yiyələnməsi başa düşülür ki, onlar aldığı bilikləri yeni konkret situasiyalarda tətbiq etməyi bacarırlar. Şüurlu mənimsəmənin təmin olunması müəyyən çətinliklərlə bağlıdır. Bu çətinliklərin ən əsası mənimsəmə mexanizminin "kifayət qədər" öyrənilməməsidir, çünki "şagird verilən tədris materialını mənimsəmişdir" təklifini dəqiq söyləmək mümkün deyil. Əgər şagird verilən suallara cavab verirsə, verilən çalışmaları həll edirsə, onda müəyyən ehtimalla "şagird tədris materialını mənimsəmişdir" söyləmək olar. Əks halda "şagird bu materialı mənimsəməmişdir" demək olar. Təlim prosesində şagirdin tədris materialını necə mənimsəməsi haqqında daim informasiya almaq vacibdir. Buna yalnız pedaqoji cəhətdən düzgün qoyulmuş suallar sistemi vasitəsi ilə nail ol-maq olar. Pedaqoji cəhətdən sual düzgün qoyulmuşdur dedikdə, biz həmin sualın şagirdi fəal zehni fəaliyyətə cəlb etdiyini başa düşürük. Təlim prosesində suallar elə tərtib olunmalıdır ki, onların tələb etdiyi informasiyanın həcmi optimal olsun. Əgər tələb olunan informasiyanın həcmi böyük olarsa, onda bu sual şagirdi fəal zehni fəaliyyətə cəlb etməz, çünki şagird bu informasiyanı qəbul etməkdə çətinlik çəkəcək. Əgər tələb olunan informasiyanın həcmi kiçik olarsa, onda bu sual yenə də şagirdi fəal zehni fəaliyyətə cəlb etməz, çünki cavab çox sadə və aşkardır.

Təlim prosesində şüurlu mənimsəmənin əks qütbündə şagirdin biliyindəki formalizm durur. Riyaziyyat təlimində 2 ənənəvi nöqsan olur: a) formalizm; b) nəzəriyyənin praktikadan təcrid olunması. Təlim prosesində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaq vacibdir. Təlim prosesi hər bir şagirdin təfəkkürünün xüsusiyyətlərini, yaddaşının xüsusiyyətlərini, nitqini, görmə qabiliyyətini, iradəsini və s. nəzərə almaqla təşkil olunmalıdır. Hətta eyni sinfin iki müxtəlif şagirdində göstərilən xüsusiyyətlər çox müxtəlifdir. Bu da təlimdə fərdi yanaşmanı zəruri edir. Hər bir şagirdin fərdi öyrədilməsini təşkil etmək yalnız ideal halda mümkündür. Müasir şəraitdə informasiya texnologiyasından səmərəli istifadə etməklə buna qismən nail olmaq olar. Məsələn, təlimdə mükəmməl öyrədici proqram sistemlərindən istifadə olunması buna imkan verir. Təlimdə fərdi yanaşma prinsipini təmin etmək müəllimdən yüksək peşəkarlıq tələb edir. Hər bir konkret tədris materialının öyrənilməsini sinif kollektivini şərti olaraq zəif, orta və güclü qruplara ayırıb, öyrənmə prosesini hər qrup üçün ayrıca təşkil etmək də təlimdə fərdi yanaşmaya qismən nail olmağa imkan verə bilər

**Problemin aktuallığı:** Riyaziyyat təlimində müvafiqlik prinsipinin əsasını tədris planı və proqramların tərtibində şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması tələbi təşkil edir. Müvafiqlik prinsipi tələb edir ki, tədris materialının həcmi və məzmunu şagirdlərin zehni inkişaf səviyyəsinə, mövcud bilik, bacarıq və vərdişlərinə uyğun olsun. Müvafiqlik prinsipi təlimdə sadədən mürəkkəbə, asandan çətinə, məlumdan məchula müddəasının həyata keçirilməsini tələb edir. Ona görə də təlimdə sistemlilik və ardıcıllıq prinsiplərinin ciddi gözlənilməsi müvafiqlik prinsipinin həyata keçirilməsinə imkan yaradır.

**Problemin elmi yeniliyi**. Məktəb riyaziyyat kursunun təlimində şagirdə fərdi yanaşma zərurəti meydana çıxır. Bu səbəbdən də materialın əhəmiyyəti həm mənimsəmə, həm də şərhetmə xarakterinə görə zəruri sayılır.

**Problemin praktik əhəmiyyəti:** Müəllimlərə, təhsilverənlərə şagirdlərin yaradıcı təfəkkürünün inkişafının imkan və yollarına dair metodik tövsiyələr verir.

## Ədəbiyyat:


1. Adıgözəlov A.S. Məktəbdə Riyaziyyat Təliminin Nəzəri Əsasları, Bakı, 2009.
2. Adıgözəlov A.S., Əliyeva T. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2011.
3. Tahirov B.Ö., Namazov F.M., Əfəndi S.N., Qasımov E.A., Abdullayeva Q.Z. Riyaziyyatın tədrisi üsulları. Bakı, 2009.
4. Nəzərov A. Müasir təlim texnologiyaları: Mühazirə xülasələri. Bakı, 2012.


**E-mail:** Zahir.zeynalova96@mail.ru

**Rəyçi:** *prof.* A.S. Adıgözəlov

**Redaksiyaya daxil olub:** 08.11.2018.

*UOT 37.01.*

***Gülşən Yurik qızı Sadıqova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# 5-Cİ SİNİF RİYAZİYYAT KURSUNDA HƏNDƏSİ ELEMENTLƏRİN TƏDRİSİ METODİKASI

***Гульшан Юрик гызы Садыгова***
*Азербайджанский Государственный Педагогический Университет*

# МЕТОДИКА ПРЕПОДАВАНИЯ ГЕОМЕТРИЧЕСКИХ ЭЛЕМЕНТОВ В 5 КЛАССЕ МАТЕМАТИЧЕСКОГО КУРСА

***Gulshan Yurik Sadigova***
*Azerbaijan State Pedagogical University*

# METHODOLOGY OF TEACHING GEOMETRIC ELEMENTS IN THE 5TH GRADE MATH COURSE

**Xülasə.** Məqalə ümumtəhsil məktəblərinin 5-ci sinif riyaziyyat dərslərində tədris olunan həndəsi elementlərin tədrisi ilə bağlı məsələlərin tədqiqinə həsr olunub. Burada ilkin həndəsi anlayışlar olan müstəvi, nöqtə, düz xətt, şüa, parça kimi anlayışların dolayı tərifi, təsviri, xassələri göstərilmişdir. Həmçinin konqruyent fiqurlar, bucaqların ölçülməsi, üçbucaqların fərqləndirilməsi və adlandırılması, müxtəlif çoxbucaqlıların qurulması, çevrə, dairə, radius, diametr, vətər, mərkəzi bucaq anlayışlarının təsviri, müstəvi fiqurların dönmə, əksetmə, sürüşmə hərəkətlərinə görə vəziyyətinin müəyyən edilməsi, fəza fiqurlarının təlimi və təsviri, düzbucaqlı prizmanın və kubun səthinin sahəsinin və həcminin hesablanması geniş şərh olunmuşdur.
***Açar sözlər** : müstəvi, nöqtə, düz xətt, şüa, bucaq, üçbucaq, çevrə, sahə, həcm*

**Резюме.** Данная статья посвящена изучению геометрических элементов, преподаваемых на курсе математики пятого класса общеобразовательных школ. Вот косвенное определение первых геометрических понятий, таких как плоскость, точка, прямая линия, луч и ткань. Формы, сходные друг с другом, измерение углов, создание и обозначение треугольников, создание различных многоугольников, определение круга, радиуса, диаметра, скорости, угла центра, позиционирования плоских фигур, вращения, скользящих движений, образования пространственных форм и описательных прямоугольных призм и площадь поверхности и объем куба были широко интерпретированы.
***Ключевые слова**: плоскость, точка, прямая, луч, угол, треугольник, круг, площадь, объем*

**Summary.** This article focuses on the study of geometric elements taught in the fifth grade mathematics course of general schools. Here is an indirect definition of the first geometric concepts such as plane, dot, straight line, beam and fabric. Shapes similar to each other, measurement of angles, derivation and designation of triangles, creation of different polygons, definition of circle, circle, radius, diameter, speed, velocity, center angle, positioning of plane shapes, rotation, sliding movements, education of spatial shapes and descriptive, rectangular prisms and the surface area and volume of the cube were broadly interpreted.
***Key words**: plane, dot, straight line, beam, angle, triangle, circle, area, volume*

Müstəvi hissə şüşənin üzü, sakit göldə suyun üzü və s. kimi təsəvvür edilir. Müstəvi sonsuzdur. Müstəvi nöqtələrdən ibarətdir. Şəkildə müstəvi və onun üzərindəki A və B nöqtələri göstərilmişdir.



İki nöqtədən yalnız bir düz xətt keçir. Düz xəttin hissəsini tarım dartılmış sim kimi təsəvvür etmək olar. Düz xətt sonsuzdur, nə başlanğıcı, nə də sonu var. Düz xətt müstəvini iki hissəyə (yarımmüstəviyə) ayırır. Bir nöqtədən sonsuz sayda düz xətt keçirmək olar. Müstəvi üzərində iki müxtəlif düz xətt ya bir nöqtədə kəsişir, ya da kəsişmirlər. Kəsişməyən düz xətlərə paralel düz xətlər deyilir. a düz xətti ilə b düz xəttinin paralelliyi *a* II *b* kimi yazılır. Düz xətt üzərində bir nöqtə götürsək, o həmin düz xətti iki hissəyə - şüaya ayırır. O nöqtəsi şüanın başlanğıcıdır. Düz xəttin iki nöqtəsi arasında qalan hissəsi parça adlanır.

İstənilən iki nöqtəni yalnız bir parça ilə birləşdirmək olar. Parçanın ucları da parçaya aiddir. AB parçasının uzunluğu A və B nöqtələri arasındakı məsafə adlanır. Parçaları uzunluqlarına görə müqayisə etmək olar:




Ortaq başlanğıcı olan iki şüanın əmələ gətirdiyi fiqur bucaq adlanır.




Bu ortaq başlanğıca bucağın təpə nöqtəsi, şüalara isə onun tərəfləri deyilir.

Bucaq, adətən, üç hərflə işarə olunur. Məsələn: ∠AOB (∠ işarəsi "bucaq" sözünü əvəz edir). Bucağı bir hərflə də işarə etmək olar. Bu halda onun yalnız təpə nöqtəsi yazılır: ∠O

1)  Düz bucaq 90°- dir .

2)  İti bucaq 0°- dən böyük , 90°- dən kiçikdir .

3)  Kor bucaq 90°- dən böyük , 180°- dən kiçikdir .

4) 

Açıq bucaq 180°-dir.

Müstəvi üzərində bir düz xətt üzərində olmayan üç A, B və C nöqtələrini qeyd edib, onları düz xətt parçaları ilə birləşdirək:




Alınan həndəsi fiqur üçbucaq adlanır. A, B, C nöqtələri üçbucağın təpə nöqtələri, AB, AC, BC parçaları isə tərəfləri adlanır. Bu üçbucaq ΔABC kimi işarə olunur və "ABC üçbucağı" kimi oxunur. ∠ABC, ∠ACB, ∠BAC üçbucağın bucaqlarıdır.

**Üçbucaqlar tərəflərinin uzunluğuna görə adlandırılır:**

Müxtəliftərəfli üçbucaq :




Bərabəryanlı üçbucaq :




Bərabərtərəfli üçbucaq :




**Üçbucaqlar həm də bucaqlarına görə adlandırılır:**

Düzbucaqlı üçbucaq




bir düz bucağı var

Korbucaqlı üçbucaq :




bir kor bucağı var

Itibucaqlı üçbucaq :




bütün bucaqları iti bucaqdır

**Üçbucağın bucaqlarının cəmi 180°-dir.**

**Problemin aktuallığı:** Məktəb təcrübəsi göstərir ki, 5-ci sinif həndəsi ele-mentlərin öyrənilməsi və ölçülməsində şagirdlər müxtəlif çətinliklərlə qarşılaşır. Ona görə də məktəb riyaziyyat kursunda 5-ci sinif həndəsi elementlərin təliminin araşdırılması aktuallıq kəsb edir.

**Problemin tətbiqi əhəmiyyəti.** Müəllimlərə, təhsilverənlərə şagirdlərin yaradıcı təfəkkürünün inkişafının imkan və yollarına dair metodik tövsiyələr verir .

**Ədəbiyyat:**

1. Quliyev Ə.A. Həndəsə məsələləri Bakı: Elm, 2010.
2. Qəhrəmanova N., Kərimov M., Hüseynov İ. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik Bakı: Radius, 2015.
3. Əliməmmədov Rəşad Riyaziyyat abituryentlər üçün dərs vəsaiti. Bakı: Çaşıoğlu, 2013.
4. İsmayılov S., Feyzullayev S., Salmanlı S. Abuturiyentlər üçün vəsait I nəşr, Bakı: Şərq Qərb, 2018
5. Qəhrəmanova N., Kərimov M., Hüseynov İ. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün metodik vəsait, Bakı: Radius, 2015.

**E-mail:** gulsenbdu96@gmail.com
**Rəyçi:** *prof.* A.S. Adıgözəlov
**Redaksiyaya daxil olub:** 04.12.2018.

UOT 37.01.

**Rəqibə Sakit qızı Talıbova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# MƏKTƏB RİYAZİYYAT KURSUNDA İBTİDAİ FUNKSİYA VƏ QEYRİ-MÜƏYYƏN İNTEQRALIN TƏTBİQLƏRİ

**Рагиба Сакит гызы Талыбова**
*Азербайджанский Государственный Педагогический Университет*

# ВВЕДЕНИЕ ЭЛЕМЕНТАРНОЙ ФУНКЦИИ И НЕОПРЕДЕЛЕННОЙ ИНТЕГРАЦИИ В ШКОЛЬНЫЙ КУРС МАТЕМАТИКИ

**Ragiba Sakit Talibova**
*Azerbaijan State Pedagogical University*

# INTRODUCING PRIMARY FUNCTION AND UNDEFINED INTEGRATION IN SCHOOL MATHEMATICS COURSE

**Xülasə.** İbtidai funksiya anlayışı məktəb riyaziyyatının mühüm məsələlərindən biri olmaqla bərabər, cəbrin və həndəsənin bəzi mövzularının tədrisi bunun ətrafında birləşir. Bu məqalədə biz ibtidai funksiya və qeyri-müəyyən inteqral haqqında məlumat vermişik. Eyni zamanda, qeyri-müəyyən inteqralın tətbiqinə dair misal həlləri göstərmişik.
***Açar sözlər:*** *inteqral, ibtidai funksiya, törəmə*

**Резюме.** Концепция первичной функции является одним из важных предметов школьной математики, и вокруг нее объединено преподавание некоторых предметов алгебры и геометрии. В этой статье мы дали информацию об элементарных функциях и неопределенном интеграле. В то же время, мы предложили, как решить проблемы с неопределенной интеграцией.
***Ключевые слова:*** *интеграл, элементарная функция, производное*

**Summary.** The concept of primary function is one of the important subjects of school mathematics and the teaching of some algebra and geometry subjects is united around it. In this article we gave information about the elementary function and indefinite integral. At the same time, we show that how to solve the problems about indefinite integral.
***Key words:*** *integrated, primary function, derivative*

Tutaq ki, hər hansı $f(x)$ funksiyası verilmişdir. Elə $F(x)$ funksiyasını tapmaq tələb olunur ki, onun törəməsi $f(x)$-ə bərabər olsun, yəni $F'(x) = f(x)$.

**Tərif 1.** Əgər $[a,b]$ parçasının bütün nöqtələrində $F'(x) = f(x)$ bərabərliyi ödənərsə, onda $F(x)$ funksiyasına $f(x)$ funksiyasının ibtidai funksiyası deyilir.

**Teorem.** Əgər $F_1(x)$ və $F_2(x)$ – eyni bir $f(x)$ funksiyasının $[a,b]$ parçasında ibtidai funksiyalarıdırsa, onda onların fərqi sabit ədədə bərabərdir.

**Tərif 2.** Əgər $F(x)$ funksiyası $f(x)$ üçün ibtidai funksiyadırsa, onda $F(x)+C$ ifadəsinə $f(x)$ funksiyasının qeyri-müəyyən inteqralı deyilir və $\int f(x)dx$ simvolu ilə işarə edilir. Beləliklə, tərifə görə, əgər $F'(x) = f(x)$ olarsa, onda

$$\int f(x)dx = F(x) + C$$

olar. Burada $f(x)$ inteqralaltı funksiya, $f(x)dx$ inteqralaltı ifadə adlanır. Deməli, qeyri-müəyyən inteqral $y = F(x) + C$ funksiyaları ailəsindən ibarətdir. Həndəsi olaraq qeyri-müəyyən inteqral elə əyrilər çoxluğudur (ailəsidir) ki, bu əyrilərdən hər biri digərindən özünə paralel olaraq yuxarı və ya aşağı (yəni $OY$ oxu boyunca) köçürmə nəticəsində alınır. Qeyd edək ki, $[a,b]$ parçasında kəsilməz $f(x)$ funksiyasının ibtidai funksiyası (deməli, qeyri-müəyyən inteqralı) var. Verilmiş $f(x)$ funksiyasının ibtidai funksiyasını tapmağa $f(x)$ funksiyasını inteqrallamaq deyilir.

Tərif 2-dən alınır ki:

1. Qeyri-müəyyən inteqralın törəməsi inteqralaltı funksiyaya bərabərdir, yəni $F'(x) = f(x)$ olarsa, onda

$$\left(\int f(x)dx\right)' = \left(F(x) + C\right)' = f(x)$$

2. Qeyri-müəyyən inteqralın diferensialı inteqralaltı ifadəyə bərabərdir:

$$d\left(\int f(x)dx\right) = f(x)dx$$

3. Hər hansı bir funksiya diferensialının qeyri-müəyyən inteqralı həmin funksiya ilə ixtiyari sabitin cəminə bərabərdir:

$$\int dF(x) = F(x) + C$$

İndi isə qeyri-müəyyən inteqralın xassələrini nəzərdən keçirək.

**Teorem 1.** İki və ya bir neçə funksiyanın cəminin qeyri-müəyyən inteqralı onların inteqrallarının cəminə bərabərdir:

$$\int [f_1(x) + f_2(x)]dx = \int f_1(x)dx + \int f_2(x)dx$$

.

**Teorem 2.** Sabit vuruğu inteqral işarəsi xaricinə çıxarmaq olar, yəni a=constant olarsa, onda $\int af(x)dx = a\int f(x)dx$.

Qeyri-müəyyən inteqralı hesablayarkən aşağıdakı qaydaları nəzərə almaq faydalı olur. Əgər $\int f(x)dx = F(x) + C$ olarsa, onda

1. $\int f(ax)dx = \frac{1}{a}F(ax) + C.$
2. $\int f(x+b)dx = F(x+b) + C.$
3. $\int f(ax+b)dx = \frac{1}{a}F(ax+b) + C.$

**Misallar.**

**1.** $\int x^6 dx = \frac{x^7}{7} + C$

Yoxlama: $\left(\frac{x^7}{7} + C\right)' = 6x$

**2.** $\int cos2xdx = \frac{1}{2} sin2x + C$

Yoxlama: $\left(\frac{1}{2}sin2x + C\right)' = cos2x$

**3.** $\int (2x+1)dx = x^2 + x + C$

Yoxlama: $(x^2 + x + C)' = 2x + 1$

**Problemin aktuallığı və praktik əhəmiyyəti.** İbtidai funksiya anlayışının məktəb riyaziyyat kursunda tədrisi məsələsi alimlərin və müəllimlərin nöqteyi-nəzəri bir çox sahələrdə bir birinə uyğun gəlirsə də, bəzi məsələlərdə müəyyən dərəcədə fərqlənir. Müşahidələr göstərir ki, məktəb riyaziyyatı tədrisində ibtidai funksiya və qeyri-müəyyən inteqralın tətbiqləri şagirdlər tərəfindən müxtəlif çətinliklərlə rastlaşır. Bu nöqteyi-nəzərdən ibtidai funksiya və qeyri-müəyyən inteqralın tətbiq sahələrinin araşdırılması aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Məktəb riyaziyyat kursunun təlimində şagirdə fərdi yanaşma zərurəti meydana çıxır. Bu səbəbdən də materialın əhəmiyyəti mənimsəmə, həm də şərhetmə xarakterinə görə zəruri sayılır.

**Problemin tətbiqi əhəmiyyəti.** Mövzunun öyrədilməsində məqsəd şagirdləri diferensiallaşmanın tərsi olan ibtidai funksiya və qeyri-müəyyən inteqral əməliyyatları ilə tanış etməkdir.

**Ədəbiyyat:**


1. Məmmədov R.H. Ali Riyaziyyat kursu: I, II, III h. Bakı, 1984.
2. Berman K.N. Riyazi analizdən məsələlər. Bakı, 1966.
3. Nəsibov M.X. Məktəb kursunda riyazi analizin elementləri. Bakı, 1991.
4. Quliyev Ə.A. X-XI siniflərdə cəbr və analizin başlanğıcı. Bakı, 2014.


**E-mail:** ragiba.talibova@gmail.com

**Rəyçi:** *ped.ü.elm.dok.,prof.* A.S. Adıgözəlov
**Redaksiyaya daxil olub:** 17.12.2018.

*UOT 37.01.*

***Zinyət Əslan qızı Bədəlova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# LOQARİFMİK FUNKSİYALARIN ÖYRƏDİLMƏSİ

***Зиньят Аслан гызы Бадалова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ОБУЧЕНИЕ ЛОГАРИФМИЧЕСКИХ ФУНКЦИЙ

***Zinyat Aslan Badalova***
*Azerbaijan State Pedagogical University*

# TEACHING LOGARITHMIC FUNCTIONS

**Xülasə.** Məktəb riyaziyyat kursunda loqarifmik funksiya böyük əhəmiyyətə malikdir. Məqalədə loqarifmik funksiya, onun xassələri, natural və onluq loqarifma haqqında geniş məlumat verilmiş, koordinat müstəvisində qrafikinin çəkilmə qaydası təsvir olunmuşdur.
***Açar sözlər:*** *funksiya, tərs funksiya, qrafik, düstur, onluq loqarifma, natural loqarifma*

**Резюме.** Велико значение логарифмической функции на школьном курсе математики. В статье представлена обширная информация о логарифмической функции, ее свойствах, натуральной и десятичной логарифме, описаны правила построения графиков в координатной плоскости.
***Ключевые слова:*** *функция, обратная функция, графика, формула, десятичный логарифм, натуральный логарифм*

**Summary.** The logarithmic functions has great importance of the school math course. The article provides extensive information about logarithmic functions, its properties, natural and common logarithm and the coordinate plane describes the method of withdrawal.
***Key words:*** *functions, inverse functions, graphics, formula, common logarithm, natural logarithm*

$y=a^x$ , $a>0$ (1)

üstlü funksiyası verilmişdir. Bu funksiyanın hansı oblastda tərs funksiyası olub-olmadığını aydınlaşdıraq. a=1 olarsa, x dəyişəninin bütün qiymətlərində $y=1^x=1$, $\forall x \in$ (-∞ ; +∞) olar. Bu münasibət x-in aldığı qiymətlərdən asılı olmadığı üçün, bu halda (1) münasibətindən x dəyişənini y-in tərs funksiyası kimi təyin etmək mümkün olmur. Odur ki, $a \neq 1$ fərz edəcəyik. Tutaq ki, a>1. Onda $y=a^x$ funksiyası(-∞; +∞)intervalında kəsilməyən və monoton artan funksiyadır. Belə ki,

$a^x=0$ , sup $a^x=+\infty$

x€(-∞ ; +∞)x€(-∞ ; +∞)

Ona görə də (1) funksiyasının tərs funksiyası vardır. $\alpha^x$ funksiyası (-∞ ; +∞) intervalını $a^x$ funksiyası (-∞ ; +∞) intervalını (0 ; +∞) intervalına inikas etdirdiyi üçün onun tərs funksiyası (0 ;+∞) - da təyin olunmuş kəsilməyən, monoton artan funksiya olar. Bu funksiyaya y-in a əsasına görə loqarifması deyilir və

$x=\log_a y$ (2)

kimi yazılır. Deməli, (2) münasibəti tərifə görə (1) münasibətinin özüdür. Bu yazılışa görə $\log_a a=1$, çünki $a^1=a$.

Deməli, loqarifmik funksiyanın təyin oblastı (0 ;+∞), qiymətlər çoxluğu isə (-∞ ;+∞) intervalıdır.

Dəyişənlərdən aşkar olur ki,

$\lim_{x\to\infty} \log_a x=+\infty$, $\lim_{\substack{x\to 0\\ x>0}} \log_a x=-\infty$

$a<1$ olduqda, mühakimə analoji olaraq aparılır, $y=a^x$ funksiyası (-∞; +∞) intervalını (0; +∞) intervalına inikas etdirən monoton azalan funksiyadır. Onun tərsi, $\log_a x$ funksiyası, (0; +∞) intervalında təyin olunmuş, qiymətlər çoxluğu (-∞ ; +∞) intervalı olan kəsilməz və monoton azalan funksiyadır.

Bu zaman

y=log$_a$x funksiyası x=a$^y$ kimi göstərilə bildiyi üçün onun qrafikini qurmaqdan ötrü əvvəlcə y=a$^x$ funksiyasının qrafikini qurub, *ox* və *oy* oxlarının adlarını dəyişmək lazımdır.




(1) və (2) ifadələrindən qarşılıqlı tərs funksiyalara xas olan aşağıdakı eynilikləri

yaza bilərik:

$a^{\log_a x}$=x (0<x<+∞)

$\log_a a^x$ =x (-∞<x<+∞)

Riyazi məntiq işarələrindən istifadə edərək loqarifmik funksiyanın monotonluq xassəsini aşağıdakı kimi yazmaq olar:

$(\forall a > 1)\ (\forall x_1 > 0)(\forall x_2 > 0)(x_1 < x_2 \rightarrow \log_a x_1 < \log_a x_2)$
$(\forall a < 1)\ (\forall x_1 > 0)(\forall x_2 > 0)(x_1 < x_2 \rightarrow \log_a x_1 > \log_a x_2)$

Eyniliklərin köməyilə loqarifmik funksiyanın bütün xassələrini isbat etmək olar. Doğurdan da

$a^{\log_a(x\cdot y)} = xy = a^{\log_a x} \times a^{\log_a y} = a^{\log_a x + \log_a y}$

Olduğundan,

$\log_a(xy) = \log_a x + \log_a y$ (3)

(2) bərabərliyində x əvəzinə $\frac{x}{y}$ yazsaq,

$\log_a x - \log_a y = \log_a \frac{x}{y}$ (4) olar.

Digər tərəfdən

$a^{\log_a x^y}$ =x$^y$=

$(a^{\log_a x})^y = a^{\log_a x}$ , $\quad x > 0$

Olduğundan,

$\log_a x^y = y \log_a x \quad (a \neq 1, a > 0, x > 0) \qquad (5)$

İstənilən iki a və b ədədləri üçün (a $> 0, b > 0, a \neq 1, b \neq 1$)

$a^{\log_a b \cdot \log_b a} = (a^{\log_a b})^{\log_b a} = b^{\log_b a} = a$

Olduğundan,

$\log_a b \cdot \log_b a = 1$ (6)

Yəni, $\log_a b = \frac{1}{\log_b a}$ $(6^1)$ olar. Nəhayət, istənilən üç a, b, c ədədləri verilmiş olsa,

(a$> 0,\ b > 0,\ c > 0,\ a \neq 1,\ b \neq 1, c \neq 1$)

$\log_a b = \log_a(c^{\log_c b}) = \log_c b \cdot \log_a c$ $\quad$ $_a$x = ,

olduğundan,

$\log_a b = \log_a c \log_c b = \frac{1}{\log_c a} \cdot \log_c b \qquad (7)$

münasibətini almaq olar. Burada M $= \frac{1}{\log_c a}$ vuruğu vasitəsilə loqarifmada bir əsasdan başqa əsasa keçmək olur. Ona görə də buna çevirmə metodu deyilir: c=10, a=e olarsa,

$M = \frac{1}{\lg c} = 2{,}303\ldots$

olar ki, bu zaman (7) düsturunu belə yazmaq olar:

$\ln b = \frac{1}{\ln e} \cdot \lg b$ (8)

Bu düstur vasitəsilə onluq əsası olan loqarifmadan natural əsası olan loqarifmaya keçmək olar. c=e , a=10 olarsa,

$M = \frac{1}{\ln 10} = 0{,}43\ldots$

olar və bu zaman (7) düsturu

$\lg b = \frac{1}{\ln 10} \cdot \ln b \qquad (9)$

şəklini alar. Bu düstur vasitəsilə natural loqarifmadan onluq loqarifmaya keçmək olar.

Natural loqarifma ilk dəfə Nikolas Merkator tərəfindən 1668-ci ildə dərc edilmiş “Logarithmotecnia” əsərində qeyd edilmişdir. Hərçənd ki, hələ 1619-cu ildə riyaziyyat müəllimi olan Con Spaydell natural loqarifmaların cədvəlini qurmuşdur. Əvvəllər bu loqarifmanı hiperbolik loqarifma adlandırırdılar, çünki natural loqarifma hiperbolanın altındakı sahədə təyin olunur. Bəzən bu loqarifmanı Nepera loqarifması da adlandırırlar.

**Problemin elmi yeniliyi.** Ən çox istifadə olunan proqram paketləri olan C, C++, SAS, MATLAB, Fortran və Basic “log” və “LOG” funksiyaları natural loqarifmaya aiddir.

**Problemin aktuallığı.** Loqarifmik funksiya anlayışı məktəb riyaziyyat kursunun mühüm anlayışlarından biridir. Lakin məktəb dərslikləri bu mövzunun kifayət qədər dərindən mənimsənilməsi üçün kifayət deyildir. Buna görə də bu mövzu şagirdlər üçün çətinlik təşkil edir. Məqalənin aktuallığı şagirdlər üçün çətinlik törədən anlayışın seçilib, yenidən nəzərdən keçirilməsidir.

**Problemin praktik əhəmiyyəti.** Loqarifmalar bir çox tənliklərin həllində istifadə edilir. Xüsusən də naməlum obyektin dərəcə göstəricisi kimi istifadə edilir. Loqarifmalar riyaziyyat və tətbiqi elmlərin bir çox sahələrində mühüm rol oynayır.

## Ədəbiyyat:

1. Qəhrəmanova N., Kərimov M., Hüseynov S. Riyaziyyat: X sinif üçün dərslik. Bakı: Radius, 2017.
2. Mərdanov M.C. və b. Cəbr və analizin başlanğıcı: X sinif üçün dərslik. Bakı: Çaşıoğlu, 2003.
3. Yaqub M., İmran A., Əli Y., Nizami K., Arzu B., Hidayət A., Məmməd V. TQDK-Abituriyent, 2007.
4. Koçetkov İ.S., Koçetkova İ.S. Cəbr və elementar funksiyalar. Bakı: Maarif, 1967.

**E-mail**: amrahova.zinyet@mail.ru
**Rəyçi:** *ped.ü.elm.dok, prof.* A.S. Adıgözəlov
**Redaksiyaya daxil olub:** 12.12.2018.

*UOT 37.01.*

***Aynur Mübariz qızı Əsədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# MƏZMUN XƏTLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ HƏNDƏSƏ ELEMENTLƏRİNİN TƏTBİQİ

***Айнур Мубариз гызы Асадова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПРИМЕНЕНИЕ ГЕОМЕТРИЧЕСКИХ ЭЛЕМЕНТОВ ПРИ ИССЛЕДОВАНИИ СОДЕРЖАТЕЛЬНЫХ ЛИНИЙ

***Aynur Mubariz Asadova***
*Azerbaijan State Pedagogical University*

# APPLICATION OF GEOMETRY ELEMENTS IN THE STUDY OF CONTENT LINES

**Xülasə.** Məzmun xətlərinin öyrənilməsində həndəsə elementlərindən geniş istifadə olunur. Məsələ həllində situasiyaların həndəsi təsvir edilməsi şagirdlərin məntiqi və fəza təsəvvürlərinin formalaşmasına xidmət edir. Bu məqalədə məzmun xətlərinin öyrənilməsində həndəsə elementlərinin rolu və tətbiqləri araşdırılmışdır.

***Açar sözlər**: məsələ həlli, məzmun xətləri , həndəsə elementləri, kəmiyyət, ölçü*

**Резюме.** Элементы геометрии широко используются при изучении содержательных линий. При решении задач, геометрическое описание ситуаций служит для формирования логических и пространственных представлений учащихся. В данной статье изложен материало роли применения геометрических элементов в исследовании содержательных линий.

***Ключевые слова**: решение задач, содержательные линии, геометрические элементы, количество, измерение*

**Summary:** Geometry elements are widely used in the study of content lines. Geometrical description of situations in problem solving serves to formulate logical and spatial concepts of students. In this article the role and applications of geometry elements in the study of content lines have been studied.

***Key words:** issue solution, content lines, geometry elements, quantitative, measure*

Orta məktəb kursunda ilkin riyazi anlayışlar haqqında məlumatlar, əsasən, ibtidai siniflərdə nominal qaydada formalaşır. İbtidai siniflərin riyaziyyat kursu yuxarı siniflərin riyaziyyat kursunun tərkib hissəsi olmaqla yanaşı, bütün məzmun xətlərini qismən də olsa əhatə edir. Riyaziyyat dərsliklərinin strukturunda olan varislik həmişə təlim prosesində nəzərə alınır və məzmun xətlərinin əlaqələndirilməsində müxtəlif əyani vasitələrdən istifadə olunur. Bu məqalədə ibtidai və yuxarı siniflərin riyaziyyat kursunda həndəsə elementləri vasitəsilə məzmun xətlərinin öyrənilməsi məsələləri nəzərdən keçirilir.

Şagirdlərin ölçü, istiqamət, forma haqqında təsəvvürlərinin formalaşdırılması və ümumiyyətlə fəza təsəvvürlərinin inkişaf etdirilməsi bilavasitə həndəsə elementləri ilə əlaqədardır. Riyaziyyat dərsliklərində həndəsə elementlərindən istifadə etməklə digər məzmun xətləri ilə əlaqəli tədrisinə xüsusi əhəmiyyəti verilir. Məlumdur ki, ədəd anlayışı və onun miqdari xarakteristikası məlum kəmiyyətlərin qiymətlərini və ya ölçülərini ifadə edən vasitədir.

Həndəsə elementlərinin öyrədilməsində əsas məqsəd isə ilkin həndəsi təsəvvürlərin formalaşdırılmasından və şagirdlərin məntiqi təfək-

kürlərinin inkişaf etdirilməsindən ibarətdir. Şagirdlərdə məntiqi təfəkkürün inkişaf etdirilməsi onlarda yeni həndəsi anlayışların mənimsədilməsinə potensial imkan yaradır. Həmin həndəsi anlayışların yaradıcı şəkildə mənimsədilməsi də şagirdlərdə məntiqi təfəkkürün inkişafına yenidən imkan yaradır. Metodist alimlərin və pedaqoqların araşdırmalarına görə hər hansı anlayışın dərk edilməsi və formalaşması ilkin olaraq əyani şəkildə mücərrədləşdirilərək həyata keçirilməsi daha əlverişlidir. Bu isə anlayışın formalaşdırılması xüsusiyyətindən asılı olaraq müəyyən olunur. Müəyyən anlayış haqqındakı məlumat hazır şəkildə verilməməlidir. Bu zaman əyanilikdən geniş şəkildə istifadə olunmalıdır.

Hər bir həndəsi anlayışın verilməsi şagirdin təfəkkür inkişafına müəyyən təkan vurur. Belə ki, şagird analiz edərək, müqayisə apararaq həmin həndəsi anlayışı dərk etməyə çalışır. Bu prosesdə təfəkkür şagird üçün fəaliyyət forması səviyyəsini daşıyır. Şagirdlər həndəsə elementlərini öyrənərkən və yaxud hesab elementlərinin öyrənilməsində həndəsə elementlərindən istifadə edərkən hər hansı fıqurun, cismin və hadisənin oxşar və fərqli cəhətlərinin əlamətlərini araşdırır, təfəkkür prosesini yerinə yetirirlər. Eyni bir həndəsi fıquru müxtəlif fıqurlara bölmək, müxtəlif həndəsi fıqurlardan (hissələrdən) yeni bir həndəsi fıqurun düzəldilməsi şagirdlərin müqayisə etmək, nəticə çıxarmaq, ümumiləşmə aparmaq və s. keyfıyyətlərinin inkişafına geniş imkan yaradır. Bu zaman yeni cisim və hadisələri, həndəsi fiqurları müqayisə edərkən, onlar arasında mövcud olan fərqləri müəyyənləşdirərkən daha çox intellektual fəallıq göstərə bilərlər. Lakin cisim və hadisələrin, həndəsi fıqurların oxşar cəhətlərinin ayırd edilməsi zamanı şagirdlərin müqayisə bacarığının funksional imkanları məhdud şəkildə təzahür edir. Ona görə də təlim prosesində bu cəhətə xüsusi diqqət verilməlidir. Çalışmaq lazımdır ki, şagirdlər həndəsi fıqurları müqayisə edərkən, müəyyən hissələrə bölərkən müqayisə prosesini hər iki tərəfdən - fərqli və oxşar əlamətlərinin müəyyənləşdirilməsi şagirdin təfəkkür fəaliyyətinin istiqamətlənməsində bərabər mövqe tutsun. Nəticədə şagirdlərdə həm fəza təsəvvürləri formalaşır, təfəkkürün dinamikliyi inkişaf edir, həm də onlarda həndəsəni öyrənməyə maraq yüksəlir.

Məsələn, həndəsə məzmun xətti ilə statistika elementləri arasında funksional asılılıqlar zamanı şagirdlər aşağıdakı anlayışları bilməlidirlər:

- müstəvi üzərində düz xətlərin, düz xətlə çevrənin, çevrələrin qarşılıqlı vəziyyəti haqqında biliklərini nümayiş etdirir;
- qonşu bucaqların və qarşılıqlı bucaqların xassələrinə aid məsələləri həll edir;
- çevrə və dairənin elementlərini bilir, onların xassələrini tətbiq edir, düz xətlə çevrənin qarşılıqlı vəziyyətini müəyyən edir;
- verilmiş düz xəttə nəzərən verilmiş nöqtə ilə simmetrik nöqtəni qurur, oxa nəzərən simmetrik olan fiqurların həmin fiqurla konqruyent olduğunu göstərir;
- ölçmələr aparmaqla bəzi fiqurların sahələrini və həcmlərini hesablayır;
- məlumatların dəyişməsini xarakterizə edən cədvəl və ya diaqram qurur, ədədi məlumatların modasını, medianını və ədədi ortasını tapır, məlumatların təhlili əsasında proqnozlar verir və azehtimallı və çoxehtimallı hadisələri fərqləndirir, nisbətən mürəkkəb hadisələrdə əlverişli halların sayını tapır [3, 21].

Bu isə şagirdlərdə fəallığın və müstəqilliyin formalaşmasına imkan və şərait yaradır. Həndəsi fiqurların ölçü və sahələri ilə əlaqədar hesablamalarda əyaniliyin tamamilə ideallaşdırılması doğru deyil. Əyanilik əsasında aparılan hesablamalarda bəzən səhv nəticə alına bilər. Məsələn, şəklə görə fiqurların müəyyən ölçülərinin bərabər olması, bucaqlarının növünün təyin edilməsi və s. məsələnin şərtində verilənlərə uyğun mühakimə əsasında tapılan nəticəni doğru qəbul etmək olmaz.

Məsələ 1. Şəkil 1-də CB mərkəzi O olan çevrəyə toxunandır. $\angle C = 25^{\circ}$ olarsa, AOB üçbucağının bucaqlarını tapın.




Şəkil 1.

Məsələnin şərtində CB-nin toxunan olması verilməsə, verilən şərt daxilində məsələnin həll olunması mümkün deyil. Çevrənin radiusu və toxunanı arasındakı asılılığa görə məlum olmayan kəmiyyətlərin ədədi qiymətlərini tapmaq

olar. Şəklə əsasən AO və OB məsafələri fərqli görünür. Lakin şəkil əsasında nəticənin qəbul edilməsi doğru deyil. BC toxunan və O nöqtəsi çevrənin mərkəzi olduğu üçün $\angle CBO$ 90º -yə bərabərdir. $\Delta CBO$-da $\angle C = 25^{\circ}$, $\angle B = 90^{\circ}$ olduğundan, $\angle B$ OC= =65º. Məsələnin şərtinə və məlum anlayışa əsasən $\angle AOB + \angle BOC = 180^{\circ}$ olar. Bu isə $\angle AOB$ -nin 115º-yə bərabər olması deməkdir. Bu məsələyə oxşar, lakin məzmununda fərqli anlayışdan istifadə olunan digər məsələnin həll olunmasını şagirdlərə təklif etmək olar:

Məsələ 2. Şəkil 2-də CB mərkəzi O olan çevrəyə toxunandır. $\angle C = 30^{\circ}$ olarsa, BOC üçbucağının bucaqlarını tapın.

Şəkil 2.




Bu məsələdə $\angle C = 30^{\circ}$ olması şərti əvvəlki məsələnin həlli prosesindən fərqli olaraq şagirdlərdə düzbucaqlı üçbucaqla əlaqədar əlavə anlayışların təkrarlanmasına imkan yaradır.

Qurmaya aid məsələlərin həllində kəmiyyətlərin verilmiş qiymətinə əsasən qurmanın mümkün olub olmaması xüsusi əhəmiyyət kəsb edir. Məsələn, üçbucağın tərəfləri arasındakı münasibət, hündürlükləri arasındakı münasibət, dördbucaqlının elementləri və onun xassələri haqqında araşdırmaların aparılması üçün həndəsi fiqurların əsas anlayışlarını şagirdlər düzgün mənimsəməlidirlər.

Qurmaya aid aşağıdakı məsələləri nəzərdən keçirmək olar.

Məsələ 1. AB=4sm, AC=5sm və $\angle A = 60^{\circ}$ olarsa, ABC üçbucağını qurun.

Məsələ 2. AB=4sm $\angle B=50^{\circ}$ və $\angle A=30^{\circ}$ olarsa, ABC üçbucağını qurun.

İki tərəfinə və onlar arasındakı bucağına, bir tərəfi və ona bitişik iki bucağına görə məsələlərin həlli alt məsələlərə ayrılmış sadə qurma məsələləri vasitəsilə həll olunur. Belə ki, qeyd olunan məsələlərin həlli sadə qurma məsələlərinin həllinə gətirildiyindən, şagirdlər bunların həllində çətinlik çəkmirlər.

Hesab məsələlərinin həllində həndəsə elementlərindən əyani vasitə kimi daha çox istifadə olunur. Xüsusən, ibtidai siniflərdə hərəkətə aid məsələlərin həllində məsələdə verilən situasiyaların əyaniləşdirilməsində və müxtəlif məzmun xətlərinin əlaqələndirilməsində həndəsə elementlərinin rolu əvəzolunmazdır.

**Problemin aktuallığı.** Məktəb kursunda məzmun xətlərinin vahid fənn daxilində verilməsi təlim prosesində müəyyən problemlər yaradır. Bu problemlərin azaldılması və təlimin keyfiyyətinin yüksəldilməsi zəruridir.

**Problemin elmi yeniliyi.** Məzmun xətlərinin ayrılıqda öyrənilməsində və onların inteqrasiyasında həndəsə elementlərindən istifadə yolları araşdırılmış və praktik məsələlərin həll olunmasında həndəsə elementlərinin tətbiq imkanları təhlil olunmuşdur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi:** Təklif olunan metod və yanaşma riyaziyyat kursunda fərqli məzmun xətlərinin ayrılıqda və həndəsə elementləri ilə birgə öyrənilməsində istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı, ADPU.
2. Qəhrəmanova N. və b. Riyaziyyat: IV sinif. Müəllimlər üçün vəsait. Bakı, 2017.
3. Qəhrəmanova N.M. Riyaziyyat: 8-ci sinif üçün dərslik. Bakı: Radius, 2015.

**E-mail:** aynurasadova12@gmail.com
**Rəyçi:** *prof.* A.S. Adıgözəlov
**Redaksiyaya daxil olub:** 28.11.2018.

*UOT 37.01.*

***Elgün Xanlar oğlu İsmayilov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ANLAYIŞIN FORMALAŞMASI METODİKASI

***Эльгун Ханлар оглы Исмаилов***
*Азербайджанский Государственный Педагогический Университет*

# МЕТОДИКА ФОРМИРОВАНИЯ ПОНЯТИЯ

***Elgun Khanlar Ismayilov***
*Azerbaijan State Pedagogical University*

# METHOD OF FORMATION OF THE NOTION

**Xülasə.** Anlayış real əşyaların ümumi və mühüm əlamətlərini özündə əks etdirir. Anlayışın formalaşması mühüm psixoloji proses olub, idrakın ən sadə formalarının əmələ gəlməsindən başlayır. Məqalədə anlayışın formalaşmasının sxemi, anlayışın formalaşmasına verilən metodik tələblər, anlayışın mühüm xassəsinin müəyyən edilməsi ilə anlayışın tərifinin verilməsi, tərifin daha yaxşı mənimsənilməsi üçün çalışma həllindən istifadə olunması, riyaziyyatın öyrənilməsində materialının sistemləşdirilməsi mərhələsinin əhəmiyyəti qeyd olunmuşdur .
***Açar sözlər:*** *anlayış, əlamət, formalaşdırmaq, çalışma, tərif, həll, tələb*

***Резюме.*** Понятие отражает в себе общие и важные признаки реальных вещей. Формирование понятия сложный психологический процесс, начинается с появления простейших форм познания. В статье отмечено формирование схемы понятия методологических требований предоставленные по формированию понятия, определение основного свойства понятия и использование решения упражнений для лучшего присваивания понятия, значение этапа систематизации материала в изучении математики**.**
***Ключевые слова:*** *понимание, признак, формирование, упражнение, определение, решение, требование*

**Summary:** The concept reflects the general and essential signs of real things. The formation of understanding is an important psychological process and begins with the formation of the simplest forms of cognition. The article outlines the importance of the concept of the formation of the concept, the methodological requirements for the formation of the concept, the definition of the concept of the concept of understanding, the use of a work solution to better understand the definition, and the importance of the materialization of the mathematical material in the study of mathematics.
***Key words****: understanding, marking, forming, working, definition, solution, demand*

Anlayış elmin əsas kateqoriyalarından biridir, çünki heç bir elm sahəsini anlayışlarsız təsəvvür etmək mümkün olmaz. Anlayışa aşağıdakı kimi tərif verə bilərik: bu və ya digər sinif əşyaların mahiyyətini ifadə edən fikir və ya fikirlər sisteminə anlayış deyilir.

Anlayışın əmələ gəlməsi, yəni formalaşması mürəkkəb psixoloji proses olub, idrakın ən sadə formalarının əmələ gəlməsindən başlayaraq çox vaxt aşağıdakı ardıcıllıqla baş verir:

Duyğu → qavrayış → təssəvür → anlayış → termin

Adətən bu prosesi iki mərhələyə bölürlər: birinci duyğu, qavrayış və təsəvvürlərin əmələ gəlməsindən ibarət hissi mərhələ, ikinci isə ümumiləşdirmə və mücərrədləşdirmənin köməyi ilə təsəvvürlərdən anlayışa keçiddən ibarət olan məntiqi mərhələ. Beləliklə, yuxarıda verilən sxem 2 mərhələdən ibarət oldu: yeni hissi və məntiqi mərhələlərdən. Anlayışın formalaşması prosesinin birinci mərhələsi ümumilikdə idrak

yolunun birinci mərhələsinə, yəni canlı müşahidəyə uyğun gəlir, ona görə də onun həyata keçirilməsi əsasən əyaniliyin geniş tətbiqini tələb edir. Əgər şagirdə məlum olmayan hər hansı bir model və ya forma göstərilməyibsə, şagird onu təsəvvür edə bilməz. Bu dediklərimizə nümunə göstərə bilərik, yəni şagirdə heç vaxt kubun modeli və ya kub formalı əşyalar göstərilməyibsə, onda şagirddə kub haqqında təsəvvürlər və kub anlayışı əmələ gələ bilməz.

Anlayışın formalaşması prosesinin səmərəli olması üçün anlayışın formalaşması prosesini şagirdlərdə formalaşan anlayışın mühüm əlamətlərinin ümumiləşməsinə və mücərrədləşməsinə istiqamətləndirilməlidir.

Biz anlayışın formalaşmasını yuxarıdakı sxem vasitəsiylə göstərdik, lakin anlayışın formalaşması prosesi heç də həmişə sxemdə göstərilənlər üzrə getmir. Formalaşan anlayışın bu və ya digər formada sonsuzluq kateqoriyası ilə əlaqədar olduqda birinci mərhələ, yəni hissi mərhələ az rol oynayır. Belə ki, biz sonsuzluğu təsəvvür edə və qavraya bilmirik və anlayışın formalaşmasına imkan verən əyani vasitələr bəzən tormozlayıcı faktora çevrilir. Məsələn, istənilən iki rasional ədəd arasında yerləşən rasional ədədlər çoxluğunun sonsuzluğu təsdiq edilmir, əksinə, bu çoxluq daxil olan konkret sonlu parçanın qavranması ilə inkar edilir, beləliklə, yuxarıda dediklərimizə gəlirik. Buradan nəticə olaraq çıxara bilərik: rasional ədədlər çoxluğunun sıxlıq xassəsini təcrübi yolla müəyyən etmək olmaz, o, əyani həndəsi təsəvvürlərlə təsdiq edilmir, məntiqi müəyyən edilir. Bu dediklərimizə əsasən bu və ya digər çoxsaylı misallar əyani materialın qavranılmasının yalnız müsbət deyil, həm də mənfi rol oynaması haqqında psixoloqların nəticələrini təsdiq edir.

Anlayışın formalaşmasına bəzi metodik tələblər verilir. Bu metodik tələbləri şərh edək: birinci mərhələ, yəni başlanğıc mərhələ motivasiyadır. Bu mərhələnin mahiyyəti ondan irəli gəlir ki, öyrəniləcək anlayışın mühümlüyünün qeyd edilməsindən, şagirdləri fəal və məqsədyönlü şəkildə fəaliyyətə cəlb etməkdən, öyrəniləcək anlayışa maraq oyatmaqdan ibarətdir. Motivasiya həm qeyri-riyazi məzmunlu vasitələrin cəlb edilməsi, həm də riyazi nəzəriyyənin inkişafının zəruriliyini şərh edən xüsusi çalışmaların yazılması və ya yerinə yetirilməsi ilə həyata keçirilir. Məsələn, adi kəsirlər üçün motivasiyanın yaranmasını deyək: adi kəsrlərin meydana gəlməsi, bir qayda olaraq, praktikanın tələbləri ilə motivasiya olunur, qonşu bucaqların daxil edilməsini yalnız ayrı-ayrı fiqurların deyil, həm də onların birləşməsinin öyrənilməsi zərurəti ilə motivasiya etmək daha düzgün və doğru olar. İndi isə düz xətt ilə çevrənin qarşılıqlı vəziyyətlərin keçirilməsi aydındır ki, üç hala gətirilir. Bu hallardan biri onunla xarakterikdir ki, düz xətt ilə çevrənin yalnız bir ortaq nöqtəsi vardır. Göstərilən hal çevrəyə toxunan düz xətt anlayışını da şərtləndirir.

Növbəti, yəni ikinci mərhələ anlayışın mühüm xassəsinin qeyd edilməsidir ki, bununla da anlayışa tərif vermək olur. O, əsasən çalışmalar vasitəsi ilə yerinə yetirilir. Bu mərhələnin əsas məqsədi ondan ibarətdir ki, öyrəniləcək anlayışın əsas və mühüm xassələrinin ayrılmasından ibarətdir .

Anlayışın tərifi verildikdən sonra onun mənimsənilməsi mərhələsində tərifdə istifadə edilən hər bir mühüm xassə xüsusi öyrənmə obyekti olur. Bu tələb çalışmalar vasitəsiylə yerinə yetirilir. Belə çalışma növlərindən biri isə anlayışa aid olan obyektlərin tanınmasıdır.

Növbəti mərhələ anlayışın konkret situasiyalarda istifadəsidir. Bu mərhələdə, hər şeydən əvvəl, anlayışın xassələri və əlamətləri ilə tanışlıq həyata keçirilir: anlayışın verilən tərifinə ekvivalent təriflərlə tanışlıq həyata keçirilir, anlayışın öyrənilən xassələri və əlamətlərindən istifadə edilir. Bu mərhələdə isə şagirdlər bəzi bacarıqlara yiyələnirlər. Buna misal olaraq anlayışdan onun mühüm xassələrinə və tərsinə keçmə bacarıqlarına yiyələnirlər. Bu mərhələdə müəyyən ümumi ideyada birləşən məsələlər qrupundan istifadə edilməsi məqsədə uyğun-dur .

İstənilən tədris fənnində olduğu kimi, o cümlədən riyaziyyatın öyrənilməsində materialın sistemləşdirilməsi mərhələsi çox əhəmiyyətlidir. Bu mərhələdə verilmiş anlayışın digər anlayışlar sistemində yeri müəyyən edilir. Buna aşağıdakı yollarla nail olmaq mümkündür:

1) Ayrı-ayrı anlayışlar, teoremlər arasında əlaqələrin yaradılması;

2) Materialın müxtəlif əsaslar üzrə sistemləşdirilməsi;

3) Anlayışın ümumiləşməsi;

4) Anlayışın konkretləşməsi;

İnformasiyaların şagirdlərə sıxlaşmış şəkildə təqdim edilməsi üçün əsasən cədvəllər, qrafiklər, sxemlər, ümumiləşmiş referatlar və s. kimi vasitələrdən istifadə edilir. Məsələn, A.V. Poqorelovun həndəsə dərsliyinin hər paraqrafın sonunda "suallar" bölməsi verilmişdir ki, burada nəzəriyyənin "dayaq nöqtələrinə" və diqqət onlar arasındakı əlaqələrə yönəldilir. Bu suallardan sonra öyrənilən paraqrafa aid çalışmalar verilir. Dərslikdə "suallar" və "məsələlər" bölməsinin verilməsi riyazi biliklərin sistemləşdirilməsinin səmərəli vasitəsidir. Beləliklə, ümumtəhsil məktəblərində çalışmaların anlayışın formalaşmasının əsas vasitəsi olduğunu deyə bilərik.

**Mövzunun elmi yeniliyi.** Riyaziyyat təlimində riyazi anlayışlar şagirdlərin həm təlim, həm də tərbiyəsində müstəsna əhəmiyyətə malikdir.

**Mövzunun aktuallığı.** Məktəbdə istifadə olunan riyazi anlayışlar şagirdlərin məntiqi təfəkkürünün və yaradıcı fəaliyyətinin inkişafına kömək edir.

**Mövzunun praktik əhəmiyyəti.** Təlimdə istifadə olunan riyazi anlayışlar müxtəlif anlayışların, praktik öyrənilməsinə şərait yaradır .

**Ədəbiyyat:**

1. Adıgözəlov A.S. "Məktəbdə Riyaziyyat Təliminin Nəzəri Əsasları" Bakı, 2018.
2. Adıgözəlov A.S "Orta Məktəbdə Riyaziyyatın Tədrisi Metodikası" Bakı, 2009.
3. Tahirov B.Ö., Namazov F.M., Əfəndi S.N., Qasımov E.A., Abdullayeva Q.Z. , "Riyaziyyatın tədrisi üsulları", 2007.
4. Tahirov B.Ö., Namazov F.M., Əfəndi S.N., Qasımov E.A., Abdullayeva Q.Z. "Məktəb riyaziyyat kursunun elmi əsasları". 2007.

**E-mail:** elgun7451@gmail.com
**Rəyçi:** *prof.* A.S. Adıgözəlov
**Redaksiyaya daxil oub:** 06.12.2018.

# *FİZİKANIN TƏDRİSİ METODİKASI*

*UOT 37.01.*

***Gülbəniz Babaverdi qızı Valehova***
*Bakı şəhəri Suraxanı rayonu, 238 nömrəli məktəbin fizika müəllimi*

## FİZİKA DƏRSLƏRİNDƏ FƏALİYYƏTYÖNÜMLÜ YANAŞMA

***Гюльбениз Бабаверди гызы Валехова***
*учитель физики школы № 238 Сураханского района гор. Баку*

## ДЕЯТЕЛЬНОСТНЫЙ ПОДХОД НА УРОКАХ ФИЗИКИ

***Gulbeniz Babaverdi Valehova***
*Physics teacher school № 238 Surakhani district of Baku*

## ACTIVITY APPROACH IN PHYSICS LESSONS

**Xülasə.** Məqalədə fizika dərslərində tədqiqatçılıq fəaliyyəti nəticəsində səriştəliklərin formalaşdırılması üzrə işin məzmunu və mahiyyəti araşdırılmışdır. Fənnin təlimi prosesində fəaliyyətlərin qurulması müxtəlif səriştəliklərin qazanılmasına imkan yaratmaqla həyatda qarşılaşılan standart və qeyri-standart problemlərin həllini asanlaşdırır. Tədqiqatçılıq fəaliyyətinin nəticəsində uyğun səriştəliklə bərabər inteqrativ və universal səriştəliklərdə formalaşmış olur.

***Açar sözlər:*** *Tədqiqatçılıq fəaliyyəti, tədqiqatçılıq səriştəliliyi, didaktik məqsəd, pedaqoji məqsəd, səriştəlilik, şəxsiyyətyönlü keyfiyyət, həyati bacarıq*

**Резюме.** В статье рассматривается содержание и сущность работы по формулированию компетенций по результатам исследовательской деятельности на уроках физики. Установление деятельности в процессе обучения предмета наряду с обретением некоторых компетенций облегчает решение стандартных и нестандартных проблем, возникающих в жизни. В результате исследовательской деятельности наряду с соответствующими компетенциями формируется интегративные и универсальные компетенции.

***Ключевые слова:*** *Исследовательская деятельность, исследовательская компетентность, дидактическая цель, педагогическая цель, компетентность, личностно-направленное качество, жизненные навыки*

**Summary.** The article discusses the content and essence of the work on the formulation of competencies based on the results of research activities in physics lessons. The establishment of activities in the process of learning the subject, along with the acquisition of certain competencies facilitates the solution of standard and non-standard problems arising in life. As a result of research activities, along with the relevant competencies, integrative and universal competences are formed.

***Keywords:*** *research, research competence, didactic goal, pedagogical goal, competence, personality-oriented quality, life skills*

Bu gün bizi əhatə edən dünyada çox sürətli dəyişikliklər gedir. Gələcəkdə də daha yeni dəyişikliklərin sürətlə getməsi haqqında proqnoz vermək mümkündür. Çünki bu dəyişmə elmi-texniki inkişaf ilə əlaqədardır. Dəyişən həyat şəraitindən baş açmaq üçün hər bir təhsil alan şagird özünü inkişaf etdirməyə, bilik və bacarıqlara yiyələnməyə əsasən müxtəlif səriştəliklər qazanmağa meyl və maraq göstərməlidirlər. Həyati əhəmiyyətli səriştəliklərin müasir dövrdə texniki inkişafla əlaqəsini təbii ki, inkar etmək mümkün deyildir. Göstərilən bu inkişafda sıralamada ilkin yeri fizika elmi tutur.

Ümumtəhsil məktəblərində fizikanın təlimində uyğun səriştəlikləri müxtəlif fəaliyyətlər sistemindən ardıcıl, davamlı, sistemli istifadə et-

məklə formalaşdırmaq mümkündür. Fənnin tədrisində fəaliyyətlərin qurulması müxtəlif bilik, bacarıqların qazanılmasına, yaradıcılıq qabiliyyətlərinin inkişafına, açar səriştəliklərin formalaşmasına imkan yaradır. Açar səriştəliklər çoxfunksiyalı, çoxölçülü və fənnüstüdür. Onlara yiyələnmək gündəlik həyatda rastlaşdığımız standart və qeyri-standart problemlərin həllinə imkan yaradır. Açar səriştəliyin formalaşması insanın şəxsi xüsusiyyətlərindən, psixoloji keyfiyyətindən, geniş praktik universal qabiliyyətindən asılı olması təfəkkürdən kənar deyildir.

Məktəb təcrübəsi göstərir ki, fizika çox maraqlı, lakin şagirdlər tərəfindən mənimsənilməsi kifayət dərəcədə çətin olan fəndir. Akademik biliklərin şagirdlər tərəfindən dərk olunması təlim prosesində istifadə olunan metod və vasitələrin düzgün istifadəsindən, pedaqoji prosesin təşkilinin məqsədyönlü qurulmasından asılıdır.

Fənnin öyrənilməsi didaktik, fəaliyyətin öyrənilməsi isə pedaqoji məqsəddir. Fəaliyyətlər vasitəsilə didaktik məqsədlərin həyata keçirilməsi fənnyönlü səriştəliklərin formalaşmasını əsaslı dərəcədə asanlaşdırır. Çevik fəaliyyət zamanı şagirdlərin rast gəldiyi bəlli, yəni standart və bəlli olmayan, yəni qeyri-standart həyat hadisələrinin dərk olunması və yaxud həll edilməsi üçün dərsin təşkilində şagirdlərin maraq və meyllərini nəzərə alaraq istifadə olunan metod və texnologiyaların dəyişdirilməsi zərurəti yaranmış olur.

Təlimin təşkili formasından asılı olaraq açar-səriştəlikləri formalaşdırmaq üçün istifadə olunacaq metod və vasitələrdən istifadədə şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaq təlimin keyfiyyətini artırmış olar.

Fizika fənni üzrə məzmun standartlarının tələbinə uyğun həyati əhəmiyyətli səriştəliklərin formalaşdırılmasına diqqətin artırılması tədris prosesini məqsədəuyğun fəaliyyətlər hesabına zənginləşdirməyi aktuallaşdırır. Bu fəaliyyətlər hesabına şagirdlər inteqrativ biliklərə, universal bacarıqlara yiyələnmiş olurlar. Lakin onu da qeyd etməyi lazım bilirik ki, məktəb təcrübəsi göstərir ki, təlim prosesində hərtərəfli düşünmədən yaradılan müxtəlif fəaliyyətlər akademik biliklərin və həyati əhəmiyyətli bacarıqların inkişafına və formalaşmasına gətirib çıxarmır. Şagirdlər yeni bilikləri və inteqrativ bacarıqları müstəqil tədqiqatçılıq prosesində qazanırlar. Ona görə də fənn müəlliminin qarşısında duran əsas vəzifə şagirdlərin tədqiqatçılıq fəaliyyətini elə təşkil etməlidir ki, məzmun standartlarının tələbinə uyğun biliklərlə yanaşı, fəaliyyət nəticəsində formalaşdırıla bilən səriştəliklərə də yiyələnmiş olsunlar.

Fizika eksperimental elm olduğundan təlim prosesində şagirdlərin tədqiqatçılıq fəaliyyətinə daha geniş zaman ayrılması labüddür. Tədris prosesində aparılan müşahidələr və izləmələr göstərir ki, bu fəaliyyət zamanı praktiki olaraq nəzərdə tutulan bütün səriştəlikləri formalaşdırmaq mümkündür. Çox əminliklə qeyd etmək istərdik ki, təlim prosesində tədqiqatçılıq fəaliyyətinin təşkili şagirdlərin marağını artırır, standartların tələbinə uyğun biliklərin mahiyyətinin dərk olunmasına imkan yaradır:

- fənlərarası əlaqənin genişləndirilməsini aktuallaşdırır;
- şagirdlərin müşahidəçilik, dəqiqlik, səliqəlilik, inadkarlıq, cihaz və avadanlıqlardan istifadədə təhlükəsizlik qaydalarını gözləmək kimi şəxsiyyətyönlü keyfiyyətlərini inkişaf etdirir;
- tədqiqatçılıq fəaliyyəti ilə əlaqədar müxtəlif informasiya mənbələrindən istifadəyə meyl formalaşdırır.

Digər fənlərlə müqayisədə fizikanın öyrənilməsində şagirdlərin tədqiqatçılıq fəaliyyətinə cəlb edilməsinin imkanları daha çoxdur.

Fizika fənni üzrə məzmun standartlarının tələbini gözləməklə praktikyönlü səriştəliklərin formalaşdırılmasında eksperimental məzmunlu mövzuların (laboratoriya təcrübələrinin, laboratoriya işlərinin, laborator praktikumların, eksperimental təcrübələrin və s.) hesabına müxtəlif səriştəlikləri inkişaf etdirməklə formalaşdırmaq olar. Deyilənlərə istinad etməklə praktik tədqiqatçılıq fəaliyyəti nəticəsində standartların tələbinə uyğun səriştəlikləri formalaşdırmağa dair bir nümunəyə baxaq.

Bildiyimiz kimi, fizika fənninin təlimi fənn kurikulumunun tələblərinə uyğun müəyyənləşdirilmiş məzmun xətləri və standartlara görə həyata keçirilir. Standartlara görə müəyyənləşdirilmiş mövzunun təlimində tətbiq olunan üsullar və fəaliyyətlər formalaşdırılacaq səriştəlikləri nəzərə alınmaqla tətbiq olunmalıdır. Məktəb təcrübəsi göstərir ki, təlim prosesinin daha fəal qurulması məqsədəuyğun seçilən üsullardan əhəmiyyətli dərəcədə asılıdır.

VII sinifdə "Cisimlərin üzməsi" mövzusu maddi mühitlə əlaqədar olduğundan, əsasən "Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər" məzmun xətti üzrə uyğun standartların reallaşdırılmasına diqqət yetirməyi tələb edir. Lakin mövzunun təlimi ilə digər "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" və "Eksperimental fizika və müasir həyat" məzmun xətləri üzrə standartların elementlərinin reallaşdırılmasına qismən imkan verilməsini nəzərdən qaçırmaq olmaz.

Dərsin motivasiya mərhələsində lövhəyə aşağıdakı suallar qeyd olunur:

1) Nə üçün cisimlər üzür?

2) Nə üçün suya atılan dəmir parçası batır, ağır gəmi isə batmır?

3) Mayelərdə itələyici qüvvə mövcuddurmu?

4) Suda batmış ağır cisimlərin çıxarılmasına dair hansı fərziyyələri söyləmək mümkündür?

Suallara diqqət etsək görərik ki, birinci sual informativ, digər suallar isə problemli suallardır. Şagirdlər tərəfindən alınan cavablar qeyd olunaraq qruplaşdırılır. Düzgün cavabın müəyyənləşdirilməsi və sinfin səviyyəsinə məqsədəuyğun fəaliyyətlər hesabına həyati bacarıqları formalaşdırmaq üçün qruplaşdırılmış cavablara əsasən müxtəlif kiçik qruplar və cütlər üzrə şagirdlər tədqiqata cəlb olunurlar.

Birinci qrupa şirin və duzlu suda yumurtanın batması və üzməsinin tədqiqini;

İkinci qrupa şam və dəmirağacından hazırlanmış eyni həcmli taxta parçalarının suda üzməsi və yaxud batmasının tədqiqini;

Üçüncü qrupa eyni həcmli buz və parafin parçasının suda üzmə səviyyələrinin müəyyən edilməsinin tədqiqi;

Dördüncü qrupa sıxlıq cədvəlindən istifadə etməklə hansı bərk maddələrin, soda, kerosində, spirtdə üzməsinin, hansıların isə batmasının müəyyən edilməsinin tədqiqi tapşırılır.

Tədqiqatın aparılması üçün vaxt müəyyən edilir. Aparılan tədqiqatların nəticələri şagirdlər tərəfindən söylənilir. Əlavə olaraq aparılmış tədqiqatlardan alınan nəticələrin anlaşılma səviyyəsini yoxlamaq üçün belə bir suala cavab almaq istəyi ilə sinfə müraciət edilir: "Suya batmış cisimləri suyun üzərinə qaldırmaq üçün hansı üsulu əlverişli hesab edirsiniz?" Aparılan tədqiqatlara əsasən şagirdlər suala düzgün cavab verərək qeyd edirlər ki, suya batmış cisimləri həcmlərini artırmaqla suyun səthinə qaldırmaq mümkündür. Və yaxud: "Nə üçün duzlu sulu göllərdə üzmək şirin sututarlarına nisbətən daha asandır?" sualına da çox asanlıqla cavab vermiş olurlar. Göründüyü kimi, tədqiqat xarakterli yanaşmalar cisimlərin üzmə şərtləri haqqında bilikləri anlamaqla bərabər, suda olan cisimlərə təsir edən qaldırıcı qüvvənin mayenin sıxlığından, cismin həcmindən asılılığını praktiki tədqiqatçılıq fəaliyyəti nəticəsində mənimsəmiş olurlar. Təlim prosesinin bu şəkildə qurulması akademik biliklərin qazanılması ilə bərabər, şagirdlərdə həyati əhəmiyyətli müşahidəçilik, səliqəlilik, dəqiqlik, təqdimetmədə inadkarlıq, nəticəni qrafik, riyazi təqdim etmək bacarıqlarının formalaşmasına səbəb olur.

**Tapşırıq 1.** Az duzlu sudan istifadə etməklə yumurtanın yemək üçün əlverişli olub olmadığını necə müəyyən edərdiniz?

**Tapşırıq 2.** Ağac parçasının suya az, buz parçasının çox batmasını necə izah edərdiniz?

**Tapşırıq 3.** Areometr üzərindəki bölgülər nəyi ifadə edir? Nəyə görə areometrin aşağı yükə yaxın hissəsində rəqəm göstəriciləri böyük, yuxarı hissəsində isə kiçik yazılmışdır?

**Tapşırıq 4.** Stolunuzun üzərində şam, palıd, dəmirağacından hazırlanmış eyni ölçülü nümunələr, bir stəkanda içməli, bir stəkanda duzlu su vardır. Nümunələri hər iki stəkandakı suya atmaqla müşahidələrinizi cədvəl şəklində qeyd edin. Mayenin sıxlığından asılı olaraq cisimlərə təsir edən qüvvələr arasındakı asılılığı qrafik şəkildə təsvir edin.

Tapşırıqlar verilmiş zaman müddətində icra olunur, müzakirələr aparılır və eyni zamanda şagirdlərin qruplar üzrə tədqiqatçılıq fəaliyyətləri qiymətləndirilir.

**Problemin elmi yeniliyi:** Fizikanın tədrisi prosesində tədqiqatçılıq fəaliyyəti nəticəsində səriştəliklərin formalaşdırılması üzrə işin məzmunu və mahiyyəti müəyyənləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti:** Fizika fənninin tədrisi prosesində tədqiqatçılıq fəaliyyəti nəticəsində səriştəliklərin formalaşdırılması texnologiyalarına dair nümunələrin verilməsidir.

**Problemin aktuallığı:** Fizika fənninin tədrisi prosesində şagirdlərdə tədqiqatçılıq fəaliyyəti nəticəsində səriştəliklərin inkişaf etdirilməsi və formalaşdırılması qaydalarının müəyyən edilməsidir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Kurikulum, 2013, №4
2. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, 2012.
3. Малафеев Р.И. Проблемное обучение физики в средней школе. М.: Просвещение, 1993.
4. Щукина Г.И. Роль деятельности в учебном процессе; Книга для учителя. М.: Просвещение, 1986.
5. Глущенко Е. П. Методическая условия формирования исследовательских компетенций у учащихся на уроках физики // Сибирский педагогический журнал, 2015, № 6
6. Горелов А. А. Концепции Современного естествознания М.: Гуманитарный издательский центр ВЛАДОС, 2000.

**E-mail:** gvalehova@gmail.com
**Rəyçi:** *ped.ü.fəls.dok.* Ə.Ə. Gərayev
**Redaksiyaya daxil olub:** 14.12.2018.

## *İNFORMATİKANIN TƏDRİSİ METODİKASI*

*UOT 372.0:002*

***Mehriban Ağa qızı Həsənova***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Gəncə Dövlət Universiteti*

# PEDAQOJİ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN İNFORMATİKA ÜZRƏ KOMPETENSİYALARININ FORMALAŞMASINDA ELEKTRON TƏHSİL SİSTEMİNİN ROLU

***Мехрибан Ага гызы Гасанова***
*доктор философии по педагогике,*
*доцент Гянджинского Государственного Университета*

# РОЛЬ ЭЛЕКТРОННОЙ СИСТЕМЫ ОБРАЗОВАНИЯ В ФОРМИРОВАНИИ КОМПЕТЕНЦИЙ ПО ИНФОРМАТИКЕ У СТУДЕНТОВ ПЕДАГОГИЧЕСКИХ ВУЗОВ

***Mehriban Aga Hasanova***
*PhD in pedagogy, associate professor of Ganja State University*

# THE ROLE OF ELECTRONIC EDUCATION SYSTEM IN THE FORMATION OF COMPETENCE ON INFORMATICS IN STUDENTS OF PEDAGOGICAL HIGHER EDUCATION INSTITUTIONS

**Xülasə.** Məqalədə A.M. Pışkalo tərəfindən təklif edilmiş pedaqoji ali məktəblərin tələbələrinin informatika üzrə kompetensiyalarının formalaşmasına aid komponentlərin ali məktəb tələbələrində formalaşması üçün hansı vəzifələrin yerinə yetiriləcəyi ifadə edilmişdir. Pedaqoji ixtisas verən, lakin informatika ilə əlaqəsi olmayan ali məktəblərin birinci kursunda "İnformatika və İKT" fənninin tədrisindəki nöqsanlar göstərilmiş və onların həlli yolu təklif edilmişdir. Eləcə də pedaqoji ali məktəb tələbələrinin informasiya kompetensiyalarını formalaşdırmaq üçün təlimin innovativ və aktiv metodları, Web-texnologiyaların, distant təhsilin əhəmiyyəti açıqlanmışdır. Göstərilmişdir ki, İKT sahəsində vərdişlərin formalaş- ması istənilən təhsil forması ilə müqayisədə daha intensiv baş verir.
***Açar sözlər:*** *informasiya kompetensiyaları, distant təhsil, pedaqoji kadrlar*

**Резюме.** В статье изложены обязанности студентов педагогических вузов, предложенные А.М. Пишкало, для формирования компетенций информатики в компетенции студентов высшей школы. Первый курс высших учебных заведений, предоставляющих педагогические квалификации, но не связанных с информатикой, выявлен недостатки в преподавании «Информатики и ИКТ» и предложен пути их решения. Кроме того, описаны инновационные и активные методы обучения и важность Веб-технологий дистанционного обучения для формирования информационных компетенций учащихся педагогических вузов. Было показано, что формирование навыков ИКТ происходит более интенсивно по сравнению с любой формой обучения.
***Ключевые слова:*** *информационные компетенции, дистанционное образование, педагогические кадры.*

**Summary.** The article outlines the responsibilities of the students of the pedagogical higher education institutions proposed by AM Pishkalo for the formation of the competencies of the computer science competence in the higher school students. The first course of the higher education institutions providing pedagogical qualifications, but not related to informatics, showed deficiencies in the teaching of "Informatics

and ICT", and suggested ways to solve them. In addition, innovative and effective teaching methods, Web technologies and the importance of distant education have been described to shape the information competencies of pedagogical high school students. It has been shown that the formation of ICT skills is more intensive in comparison with any form of education

***Key words:*** information competences, distance education, pedagogical staff.

Hal-hazırda pedaqoji ali məktəblərin tələbələrinin informasiya kompetensiyalarının formalaşması ciddi problemlərdən biri sayılır. Bu problem informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə bağlıdır. Müasir tələbənin informasiya kompetensiyası pedaqoji kadrların fasiləsiz olaraq müxtəlif səviyyələrdə məqsədyönlü şəkildə formalaşmasıdır. Bu proses aşağıdakıları əhatə edir:

1) yüksək qabiliyyətli və pedaqoji sahəyə maraq göstərən şagirdlərin xüsusi pedaqoji siniflərə və orta tədris müəssisələrinə cəlb edilməsi;

2) yüksək qabiliyyətli və pedaqoji sahəyə meyil göstərən şagirdlərin pedaqoji ali məktəblərə hazırlanması;

3) pedaqoji ali məktəblərdə tələbələrin hazırlanması;

4) pedaqoji ali məktəbi bitirmiş məzunların dövri olaraq ixtisasartırma kurslarında iştirakını təmin etmək. Eyni zamanda bu fəaliyyəti distant şəkildə həyata keçirmək;

5) müəllimlərin özünütəhsil fəaliyyətini həyata keçirmək üçün daim metodik təminatın yaradılması;

6) pedaqoji sahəni özünə peşə seçmiş və qəbul prosesində yüksək göstəriciləri ilə fərqlənən abituriyentlərin Təhsil Nazirliyi tərəfindən mükafatlandırılması.

Onu da qeyd etməyi vacib bilirik ki, müəllimlərin informatika üzrə kompetensiyalarının formalaşması üçün vacib olan şərtlərdən sonuncusu, demək olar ki, yalnız Azərbaycan Respublikasına şamil edilə bilər. Belə ki, ali təhsil müəssisələrinə qəbulda 500 və daha yüksək bal toplayan, ixtisas seçimində birinci müəllimlik ixtisasını qeyd edən ilk 300 tələbəyə 100 manat məbləğində əlavə təqaüd verilməsi artıq qüvvədədir. Əgər bu cür tələbələrin sayı 300 nəfərdən az olarsa, o halda ixtisas seçimində müəllimlik ixtisasını ikinci yerdə qeyd edən tələbələrin arasında seçim ediləcəkdir.

A.M. Pışkalo (1975) tərəfindən təklif edilmiş 5 komponent (sonuncunu biz Azərbaycan təhsil mühitinə uyğun olaraq əlavə etdik) pedaqoji ali məktəblərin tələbələrinin informatika üzrə kompetensiyalarının formalaşmasına xidmət edir.

Pedaqoji ali məktəb tələbələrinin informatika üzrə kompetensiyalarının formalaşması sisteminin komponentlərinin qarşılıqlı təsiri aşağıdakı sxemdə verilmişdir.



Bunlardan çıxış edərək kompetentliyin formalaşması üçün hansı vəzifələrin yerinə yetiriləcəyini ifadə edək (onların daha çox əhəmiyyətli olmasını nəzərə alaraq sıranı formalaşdırırıq):

1) tələbələri fərdi kompüterlə işləmək metod və üsulları ilə tanış etmək (əgər onlar bu metod və üsulları mənimsəməyiblərsə). Təlimin məqsədi - pedaqoji ali məktəb tələbəsinin- gələcəyin müəlliminin informasiya mədəniyyətinin yüksəltmək;

2) tələbələri qlobal kompüter şəbəkəsinin metod və üsulları ilə tanış etmək (İnternet, eyni zamanda lokal kompüter seti, əgər onlar bu üsul və metodlarla tanış deyilsə);

3) tələbələrdə İnternet vasitəsilə lazımi informasiyanı almaq və fənn üzrə metodik materialları əldə etmək bacarıqlarını formalaşdırmaq;

4) şəbəkə təhsil resursları, pedaqoji proqramlar, dərs üçün metodik, didaktik və təşkilati materiallar yaratmaq bacarıqlarını tələbələrə aşılamaq. Bir sözlə, İKT- nin geniş spektri ilə işləməyi bacarmaq və müxtəlif növ məşğələlərin, dərsdə və dərsdənkənar bütün pedaqoji işlərin aparılmasında onlardan istifadə etməyi bacarmaq;

5) tələbələri didaktik və psixoloji-pedaqoji üsul və metodlara öyrətmək. Bununla da müəllim uşaqların informatika üzrə kompetensiyalarının formalaşmasında bu metod və üsullardan istifadə etməyi bacarsın.

Pedaqoji ali məktəb tələbələrinin informasiya kompetensiyalarının formalaşmasında təlimin məzmunu fənnin tədrisi zamanı təşkilati-metodik təminatla, eyni zamanda İnformatika fənninin elmi- texnoloji planda aktual vəziyyəti ilə müəyyən edilir (təhsil standartı, tədris planları, proqramları, və s.) [18].

Təlimin məzmununu heç zaman onun məqsəd və vəzifələrindən ayrı təsəvvür etmək olmaz, çünki bunlar məzmuna çox ciddi təsir edən vasitələrdir.

Pedaqoji ixtisas verən, lakin informatika ilə əlaqəsi olmayan ali məktəblərin birinci kursunda "İnformatika və İKT" fənni öyrədilir. Bu fənn yalnız ona imkan verir ki, müəllimlərin informasiya kompetensiyalarının formalaşmasında yuxarıda göstərilən vəzifələrdən ilk ikisini yerinə yetirmək mümkün olsun, xüsusilə tələbələrə kompüterlə işləməyi öyrətmək; tələbələrə İnternetin qlobal kompüter şəbəkəsi ilə işləməyi öyrətmək ön plandadır. Əvvəla, onu qeyd edək ki, bu kursun proqramı İKT-dən tədris prosesində pedaqoji aspektləri deyil, texnoloji aspektləri öyrənməyə istiqamətlənmişdir. Digər tərəfdən, birinci kurs tələbələri özlərinin gələcək peşəsini və fənn sahəsini zəif təsəvvür edirlər və təlim prosesində İKT- dən istifadəyə lazımi səviyyədə maraqlı deyillər.

Nəhayət, adı çəkilən kursda informatikanın tədrisə tətbiqinə haqqında yalnız bir geniş mühazirə vardır, qalan bütün mühazirələr sistemsiz hazırlanmışdır. Beləliklə, "İnformatika və İKT" fənni pedaqoji ali məktəbdə təhsil alan tələbələrin gələcək informasiya kompetensiyalarının formalaşması üçün yalnız hazırlıq (propedevtik) kurs rolunu oynaya bilər.

Son üç vəzifəni yerinə yetirmək üçün "Təlim prosesində müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə" adlanan fənn öz rolunu oynaya bilər. Bu kursun proqramını hazırlayan zaman elə etmək lazımdır ki, onun məzmununda şagirdlərin informasiya kompetensiyalarının formalaşması üzrə sistemin bütün komponentləri yer ala bilsin, xüsusilə təlimin məqsəd və vəzifələri, məzmunu, metodları, təşkilati forma və vasitələri orada öz əksini tapmış olsun. Müəllim yalnız bu komponentlərin hamısını mənimsədiyi zaman şagirdlərin informasiya kompetensiyalarının formalaşmasını təmin edə bilər. Bəzən elə görünür ki, müəllim və şagirdin informasiya kompetensiyaları üst-üstə düşür. Əslində, bu çox formal bir görüntüdür, bu kompetensiyalar məzmun və metodlarına görə bir-birindən köklü surətdə fərqlənir. Həmin fənn yuxarı kurslarda, daha doğrusu pedaqoji praktikaya az qalmış bir zamanda keçilir.

Pedaqoji ali məktəb tələbəsinin informasiya kompetensiyası formalaşarkən əsasən təlimin innovativ və aktiv metodlarından istifadə etmək lazımdır. Hazırda geniş yayılmış metodlardan biri problem xarakterli metoddur. Bu metod vasitəsilə şagird təlim problemlərini həll etməklə bilik əldə edir. Müasir mənada problem xarakterli təlim subyektin təlimin problematik məzmunu ilə aktiv şəkildə qarşılıqlı fəaliyyətindən ibarətdir. Bu fəaliyyətin gedişi zamanı subyekt elmi biliklərin obyektiv ziddiyyətləri ilə qarşılaşır, onun həlli üsullarını axtarır, mürəkkəb məsələlərin həlli üçün düşünməyi öyrənir, biliyi yaradıcılıqla mənimsəməyə başlayır. Problem xarakterli təlimin tərbiyəvi əhəmiyyəti onun təh-

sil əhəmiyyətindən heç də az deyil. Belə ki, şagird problemlərlə döyüşdə qalib çıxanda onun özünəinamı kimi müsbət keyfiyyət yaranır. İnnovasiyalara münasibətdə problem xaraktrerli metodun müəyyən çatışmazlığı da vardır. Daha doğrusu, bu metod şagirdlərin tam müstəqil olması üçün o qədər də uğurlu yol deyil. Məsələ burasındadır ki, problem situasiya müəllim tərəfindən yaradılır, şagirdlər yalnız onun həlli yolları üzərində baş sındırırlar, halbuki problem situasiyanı yaratmaq daha çox yaradıcılıq tələb edir. Yuxarıda söylədiyimiz fikrin üzərinə məhz bu zaman da gələ bilərik. Biz şagird və müəllimlərin informasiya kompetensiyalarının vizual olaraq oxşar olduğunu vurğulamışdıq. Artıq məlum olur ki, problem situasiya metodundan istifadə edərkən bu oxşarlıq özünü göstərsə də, problem situasiyanı quran, kəşf edən müəllim, onun həlli yollarını axtaran isə şagirddir. Müəllim, sanki, onlara bilindirmədən şagirdlərin tədqiqat fəaliyyətini qurur, bu fəaliyyəti lazımi istiqamətə yönəldir və nəzərdə tutduğu mərhələlərlə həll olunmasına nəzarət edir. Məhz müəllim ziddiyyətlərin, təlim konfliktlərinin, təlim iştirakçılarının mövqelərinin qarşıdurmasının yaranmasını layihələşdirir .

Problem xarakterli metodun ardınca layihə metodu gəlir. Problem xarakterli təlimdə müəllim dəqiq şəkildə təlim problemini müəyyən edir və onun düsturunun tapılması üçün uşaqları səfərbər edir. Layihə təlimdə isə problem aşkar nəzərdə tutulmur. Bu bir növ əvvəlki metodun astar üzüdür. Müəllim informasiya mənbələrini deyə bilər və şagirdlərin diqqətini lazımi istiqamətə yönəltməklə onların müstəqil axtarışları üçün detenator rolunu oynaya bilər. Amma nəticədə şagirdlər müstəqil şəkildə birgə çalışmaqla problemi həll etməlidirlər. Onlar müxtəlif sahələrdən bildiyi məlumatlardan istifadə etməklə real nəticə əldə etməlidirlər. Beləliklə, problem üzərində bütövlükdə iş layihə metodunun konturlarını əhatə edir. Layihələr metodunun mahiyyəti şagirdlərin müəyyən problemlərə marağını stimullaşdırmaqdan ibarətdir. Bu həmin problemlərdir ki, bir çox biliklər məcmuyuna malik olmağı layihə metoduna əsaslanmaqla, tənqidi təfəkkürü işə salmaqla əldə edə bilir.

Gələcək müəllimlərin informasiya kompetensiyalarının formalaşması üçün distant təhsilin böyük əhəmiyyəti vardır. Bu təhsil forması tam şəkildə kompüter telekommunikasiyasından istifadə etməklə həyata keçirilir. Əvvəla, distant təhsil zamanı İKT təlim prosesində həmişə istifadə edilir, çünki təlim materialını, əlavə informasiyanı əldə etmək lazımdır. Axı bunlar olmadan təlim tapşırıqlarını yerinə yetirmək də olmaz. Eyni zamanda müəllim və tələbələrin qarşılıqlı əlaqəsini qurmaq üçün İKT-dən istifadə etmədən heç nə əldə etmək olmaz.

Beləliklə, İKT sahəsində vərdişlərin formalaşması istənilən təhsil forması ilə müqayisədə daha intensiv baş verir. İkincisi, distant forma təhsilalanın hələ təliməqədərki dövrdə müəyyən informasiya kompetensiyalarının olmasını tələb edir. İnformasiya kompetensiyasına malik olmayan abituriyent, heç şübhəsiz, belə təlim formasını seçə bilməz. O, ən azı minmal şəkildə bu kompetrensiyalara sahib olmalıdır ki, qarşılıqlı əlaqə yarada bilsin. Üçüncüsü, tələbə əvvəlcədən kompüterə və kompüter şəbəkələrinə ya evdə, ya da iş yerində daxil olmağı bacarmalıdır. Belə bir girişin olması informasiya kompetensiyalarının formalaşması üçün ilkin şərt rolunu oynayır. Bu təlimdənkənar, sanki, kortəbii xarakter daşıyır. Nəhayət, daim İKT- dən istifadə etməklə və yaxşı vərdişlər əldə etməklə tələbə bu vərdişləri sistematik olaraq təlimdənkənar vaxtlarda da tətbiq edir. Bu yolla o, maraqlı informasiya haqqında məlumat alır; şəxsi və rəsmi yazışmaları aparır; istirahətini təşkil edir və həyata keçirir. Düzdür, bunlar birbaşa təlim prosesinə təsir edən hallar deyil, lakin tələbənin informasiya kompetensiyalarının formalaşması üçün vacib rol oynayır.

Təhsilin distant forması bütün informasiya-kommunikasiya texnologiyalarını əhatə etməklə informasiya kompetensiyalarının formalaşması üçün yuxarıda göstərilən ilk üç vəzifəni yerinə yetirməyə kömək edir.

Bir qayda olaraq, müasir distant təhsil vahid proqram örtüyü bazasında yaradılır və Web-interfeysdən ibarətdir. Web-texnologiyaya əsaslanan təlim vasitələrinin üstünlüyü bunlardan ibarətdir: birincisi, bu texnologiya didaktik prinsip olan əyaniliyi yüksək səviyyədə realizə edir, çünki burada təlim materialında multimedianın statistik və animasiyalı qrafiklərindən, video və səsdən geniş istifadə edilir. İkincisi, Web-texnologiyanın ayrılmaz tərkib hissəsi olan hipermətn texnologiyası təhsilalanlara xüsusi təhsil traek-

toriyası seçməyə imkan verir. Beləliklə, təlim materialının ifadə olunması üçün diferensial və şəxsiyyətyönlü realizə prosesi baş verir. Üçüncüsü, bu təlimdə İnternetin (elektron poçt, FTR-serviz, videokonferensiya, təlim çatları və s.) müxtəlif servislərindən inteqrativ şəkildə vahid Web-interfeysin köməyi ilə istifadə edilir.

Dördüncüsü, internet Web- texnologiya hətta İnternetə (lokal serverdə, kompakt diskdə, sərt- disklərdə yerləşdirilmiş Web-sayt formasında təlim materialları giriş olmadan belə istifadə edilə bilər. Beşincisi, Web-texnologiyanın nisbətən öyrənənlər tərəfindən asanlıqla mənimsənilməsi imkan verir ki, hər hansı öyrənilən fənn üzrə təlim proyektinin nəticələrinin diaqnostika edilməsini Web-sayt asanlaşdırır. Nəhayət, Web-texnologiya təhsilalanların onlayn testləşdirilməsini aparmaq üçün imkan yaradır.

**Problemin aktuallığı:** Pedaqoji ali məktəb tələbələrinin informasiya kompetensiyalarının formalaşmasında təlimin məzmunu fənnin tədrisi zamanı təşkilati-metodik təminatla, eyni zamanda İnformatika fənninin elmi-texnoloji planda aktual vəziyyəti ilə müəyyən edilir

**Problemin yeniliyi**: pedaqoji ali məktəblərin tələbələrinin informatika üzrə kompetensiyalarının formalaşmasına aid komponentlərin ali məktəb tələbələrində formalaşması üçün hansı vəzifələrin yerinə yetiriləcəyinin tövsiyə edilməsi, eləcə də pedaqoji ixtisas verən, lakin informatika ilə əlaqəsi olmayan ali məktəblərin birinci kursunda "İnformatika və İKT" fənninin tədrisindəki nöqsanların göstərilməsi və onların həlli yolunun təklif edilməsidir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, yeni müəllimin fəaliyyət modelinin mütəxəssisin hazırlanma modelinə uyğunluğu prinsipinin həyata keçirilməsi son nəticə olmalıdır. Deməli, müəllim hazırlığı üçün ilk növbədə onun hazırlığının məzmununu müəyyən etmək lazımdır.

**Ədəbiyyat:**

1. Могилев А.В. Развитие методической системы подготовки по информатике в педагогическом вузе в условиях информатизации образования: Дис. ...докт. пед. наук. М., 1999.

2. Никишина. И.В. Инновационная деятельность современного педагога: Методическое пособие. М., 2012.

**E-mail:** mehriban-70@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* Ə.Q. Pələngov.
*f-r.ü.fəls.dok., dos.* Ə.Ə. Aslanov
**Redaksiyaya daxil olub:** 17.12.2018

*UOT 372.0:002*

***Vüsalə Abdulla qızı Süleymanova***
*Sumqayıt Dövlət Universitetinin baş müəllimi*

# MƏKTƏB İNFORMATİKASI VƏ V SİNİF İNFORMATİKA DƏRSLİYİNİN TƏHLİLİ

***Вусаля Абдулла гызы Сулейманова***
*старший преподователь Сумгаитского Государственного Университета*

# АНАЛИЗ ШКОЛЬНОГО КУРСА ИНФОРМАТИКИ И УЧЕБНИКА ИНФОРМАТИКИ V КЛАССА

***Vusala Abdulla Suleymanova***
*senior lecturer at Sumgait State University*

# ANALYSIS OF THE SCHOOL COURSE OF INFORMATICS AND THE TEXTBOOK OF INFORMATICS V CLASS

**Xülasə.** Müasir informatika fənninin tədrisi zamanın tələblərindən irəli gələn bir zərurətdir. Sözsüz ki, orta məktəblərdə tədris olunan informatika dərslikləri müasir dövrün tələblərini maksimum ödəməyə çalışmalıdır.
***Açar sözlər**: məktəb informatikası, informasiya texnologiyaları, proqram təminatı, dərslik komplekti, Milli Kurikulum.*

**Резюме.** Преподавание информатики в наше время является требованием современности. Несомненно, учебники современного курса информатики должны максимально удовлетворять требованиям сегодняшнего дня.
***Ключевые слова:** школьный курс информатики, информационные технологии, програмное обеспечение, комплект учебников, Национальный Курикулум*

**Summary.** Teaching computer science in our time is a requirement of modernity. Undoubtedly, the textbooks of the modern computer science course should meet the requirements of today to the maximum.
***Key words:** school course of informatics, information technology, software, set of textbooks, National Curriculum*

İnformatikanın bir elm kimi formalaşması keçən əsrin ikinci yarısına təsadüf edir. İnformatika elmi kibernetika elminin əsasında yaradılmış, təkmilləşdirilmiş və bu gün konkret informasiya proseslərinin (texnologiyalarının) hamısına aid olan ümumi qanunauyğunluqları öyrənir.

İnformatikanın təhsildə tətbiqləri ilə məşğul olan predmet məktəb informatikası adını almışdır. İlk dəfə bu termin rus alimi A.P. Yerşov tərəfindən işlədilmişdir. Məktəb informatikası məktəbdə kompüter texnikasının tətbiqi ilə proqram, texniki, tədris-metodiki və təşkilati təminatının öyrənilməsi məsələləri ilə məşğul olan sahəsidir. Məktəb informatikasının proqram təminatı məktəblərin informasiya sistemlərinə əsaslanır. Bu sistemlər isə məktəbin bütün kollektivinin - məktəblilər, idarə edənlər və müəllimlərin fəaliyyətini uzlaşdırır. Məktəb informatikasının texniki təminatı dedikdə isə məktəbdə təlim-tərbiyə işinin optimal təşkili üçün nəzərdə tutulmuş bütün texniki avadanlıqlar başa düşülür. Tədris metodiki təminat məktəblərdə tədris olunan və informatika elmi ilə müəyyən dərəcədə əlaqəsi olan bütün fənlər üzrə istifadə edilən dərsliklər, elmi metodiki vəsaitlər və s.-dir. Məktəb informatikasının təşkilati təminatı daim yenilənən və inkişaf edən informasiya texnologiyalarının dinamikliyi səbəbindən çox mürəkkəbdir. Buraya məktəb informatikasının texniki bazasının yaradılması, məktəbə aid müasir texniki vasitələrin alınması, bütün səviyyələrdə yeni informasiya texnologiyalarından bacarıqla istifadə edən, bunu şagirdlərə yüksək səviyyədə öyrədə bilən və digər fənlərin öyrənilməsi üçün

informatikadan alınan zəruri bacarıqları aşılaya bilən pedaqoji kadrların hazırlanması daxildir.

İnformatikanın ilk zamanlarda tədrisində üç əsas baza anlayışı var idi - informasiya, alqoritm, EHM. İnformatikanın ilk maşınlı variantı 1985-ci ildə İnformatika və hesablama texnikasının əsasları kursu üçün hazırlanmışdı və əsasən yuxarı sinif şagirdləri üçün nəzərdə tutulmuşdu. Həmin kurs şagirdlərin kompüter siniflərində işini nəzərdə tuturdu.

Keçən əsrin 70-ci illərindən sonra formalaşmış kurikulum nəzəriyyəsi, 90-cı illərin axırlarından başlayaraq Azərbaycanda da istifadə olunmağa başlanmışdır. Kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi, elmdəki yenilikləri ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir. Xarakterinə görə kurikulumlar iki yerə ayrılır:

- fənyönlü kurikulum;
- şəxsiyyətyönlü kurikulum.

Milli Kurikulum mədəni və sosial həyatın qloballaşdığı, informasiya kommunikasiya texnologiyalarının rolunun artdığı müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun lazımi bilik və bacarıqlara malik olmasına, onun ahəngdar şəxsiyyət kimi formalaşmasına yönəlmişdir. İnformasiya cəmiyyətinin bugünki şagirdi, əlbəttə ki, sabahın gənci və qurucusudur. Yetişən gənc nəsil qloballaşan dünyanın bir parçası olaraq öz milliliyini və ənənələrini qorumalıdır. Bunlar və digər məqamlara nəzərən Milli Kurikulum hazırlanarkən aşağıdakı prinsiplər əsas götürülmüşdür:

- tələbyönümlülük;
- nəticəyönümlülük;
- şagirdyönümlülük;
- inteqrativlik;
- milli və ümumbəşəri dəyərlərin nəzərə alınması;
- şagirdin fərdi xüsusiyyətləri nəzərə alınmaqla onun üçün əlverişli şəraitin yaradılması.

Dərslik komplektinin mövzular üzrə strukturunu formalaşdırarkən alt standartlar təhlil edilmiş, tədris prosesində məzmun standartlarının məzmun xətləri üzrə nisbəti müəyyənləşdirilmiş və mövzuların həcminə müvafiq dərs saatları ayrılmışdır.

5-ci sinif informatika fənni üzrə dörd məzmun xətti müəyyənləşdirilmişdir:

1. İnformasiya və informasiya prosesləri;
2. Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma;
3. Kompüter, informasiya-kommunikasiya texnologiyaları və sistemləri;
4. Cəmiyyətin informasiyalaşdırılması.

5-ci sinif dərsliyində bölmələr aşağıdakı kimi düzülmüşdür:

1. İnformasiya;
2. Kompüter;
3. Tətbiqi proqramlar;
4. Alqoritm və proqram;
5. İnternet.

İnformasiya və internet bölmələrinin hər biri 4 mövzunu əhatə edir. Digər bölmələrin hər biri isə 6 mövzu ilə əhatələnmişdir. Dərslikdə hər bir mövzu üzrə materiallar xarakterinə görə bu ardıcıllıqla yerləşdirilmişdir:

1. *Maraq oyatma (motivasiya).* Mövzunun tətbiqləri ilə bağlı maraqlı vəziyyət və hadisələr təsvir edilir, motivasiya yaradılır, şagirdlər dərs prosesində fəallaşdırılır və suallarla yekunlaşır.

2. *Fəaliyyət.* Maraq yaradılan hadisələrin araşdırılmasına, bu hadisələrin səbəb-nəticə əlaqələrinin kəşf edilməsinə yönəlmiş tədqiqat xarakterli tapşırıqlar verilir. Praktik dərslərdə fəaliyyət tapşırığı alqoritm şəklində təqdim olunur və hər bir addımın nəticəsi qeyd olunur.

3. *İzahlar.* Fəaliyyət zamanı kəşf etdiyimiz faktlarla bağlı bəzi açıqlamalar verilir. Əsas anlayışlar, mövzu ilə bağlı izahatlar, təriflər, qaydalar, düsturlar, bir sözlə, dərsin əsas məzmunu burda əks etdirilir.

4. *Biliklərin dərinləşdirilməsi.* Əldə edilən bilikləri dərinləşdirmək üçün nümunələr və maraqlı məlumatlar verilir.

5. *Araşdıraq - öyrənək.* Mövzuda öyrənilənləri tamamlamaq, tətbiq etmək və onlara münasibət bildirmək məqsədi ilə verilən tapşırıqlardır.

6. *Sual və tapşırıqlar.* Hər mövzuda öyrənilənləri nümayiş etdirmək üçün nəzərdə tutulub.

*Özümüzü qiymətləndirək* hissəsində tədris vahidində öyrədilənlərin tədqiqi ilə bağlı ümumiləşdirici sual və tapşırıqlar verilmişdir. Onlar summativ qiymətləndirməyə hazırlıq üçün də istifadə oluna bilər.

***Sözlük.*** Hər mövzu üzrə öyrənilən əsas anlayışlar daha çox diqqət cəlb etmək üçün çərçivədə qeyd olunur. Bu maraqlıdır hissəsində

mövzu ilə əlaqəli maraqlı məlumatlar və faktlar qeyd olunur.

Dərslikdə mövzuların rəngarəng səkillərə müşayiət olunması kitabın şagirdlər üçün daha oxunaqlı olmasını təmin edir. Dərslik komplektinə daxil olan müəllim üçün metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- informatika fənn kurikulumunun tələblərinin reallaşma mexanizmlərinin şərhi və əsaslandırılması;
- dərslik komplektinin mövzular üzrə strukturu;
- fənn üzrə məzmun standartlarının reallaşma cədvəli və illik planlaşdırma nümunəsi;
- fənlərarası inteqrasiya imkanları və digər fənlərin uyğun alt standartları ilə inteqrasiya cədvəli;
- şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və formaları;
- gündəlik planlaşdırmaya dair nümunələr;
- hər mövzu üzrə qruplaşdırılmış təlim materiallarının dərslik səhifələrinin kiçildilmiş surətləri üzərində sxematik təsviri;
- hər mövzuda qruplaşdırılmış təlim materialları üzrə iş texnologiyasının şərhi;
- hər bir mövzu üzrə tövsiyələrin əvvəlində dərsin təlim məqsədlərinin reallaşdırılması ilə bağlı daha çox diqqət yetirilməli məsələlər;
- müəllimlər üçün mövzu üzrə əlavə məlumatlar;
- müəllimin istifadə edə biləcəyi mənbələr.

Müəllim tövsiyə olunan materiallardan sinfin hazırlıq səviyyəsinə, tədris vaxtına, texniki təchizata və diferensial təlim prinsiplərinə uyğun olaraq lazım bildiyi qədər istifadə edə bilər. Bu günə qədər məktəb informatika kursunun inkişafında nəzərə çarpan ən vacib məqamlardan biri onun məzmununda informasiya texnologiyaları (İT) həcminin artmasıdır. Texnologiya yunanca techne - bacarıq və loqos - hazırlanma, istehsal mənasını verib, nəyinsə hazırlanması, istehsalı deməkdir. Texnoloji məzmuna aşağıdakılar daxildir:

- kompüterin arxitekturası, ayrı-ayrı qurğuları və onların iş prinsipləri ilə tanışlıq;
- tətbiqi proqram təminatının – mətn və qrafik redaktorlarda işin öyrədilməsi və s.

İnformatika tədrisində aşağıdakı vasitələr sistemindən istifadə olunur:

- kompüter və kompüter sinifləri;
- informatika kursunun proqram-metodik təminatı;
- tədris, nümayiş materialları;
- telekommunikasiya sistemləri, internet bağlantısı vasitələri və digər lokal şəbəkələr.

Məktəb informatikasında İKT–nin tətbiqi proqram mühitini mətn və qrafik redaktorlar, verilənlər bazası, multimedia proqramları təşkil edir. Bu proqramlar ümumi təyinatlı proqramlar olub, praktikada geniş istifadə olunur, məktəbdə öyrədilməsi təqdirə layiq haldır. Məktəbdə İT mövzusunun tədrisinə müxtəlif yanaşmalar mövcuddur. Belə proqramlara Word Pad mətn redaktoru, Paint Brush qrafik redaktoru və s. aiddir. İnformasiya texnologiyaları xəttinin hər bir mövzusunun öyrədilməsi həmin texnologiyaların tətbiq sahələri ilə tanışlıqla başlamalıdır.

İnformasiya cəmiyyətinin insanı bu və ya digər şəkildə müxtəlif informasiya sahələrinin istifadəçisi və yaradıcısıdır.

**Problemin aktuallığı.** Kurikuluma əsasən hazırlanmış dərsliklərdə əsasən İT xətti şagirdlərin tətbiqi proqramlarla tanış edilməsi və bu proqramlarda praktik işlərin aparılması ilə tədris edilir.

**Problemin elmi yeniliyi.** Məktəbdə düzgün biliklərlə silahlandırılmış yetişən nəsil bu informasiya selində informasiyadan düzgün istifadə etmək və faydalanmaq xüsusiyyətlərinə malik olacaq.

**Problemin praktik əhəmiyyəti.** İnformatika kursunda əsas diqqəti İT vasitələrinin deyil, insanın informasiya fəaliyyətinin müxtəlif sahələrinin öyrədilməsinə yönəltmək lazımdır.

**Ədəbiyyat:**

1. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. İnformatika: Umumtəhsil məktəblərinin V sinfi üçün dərslik. Bakı, 2012.
2. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. İnformatika: V sinif. Müəllim üçün metodik vəsait. Bakı, 2012.
3. Novruzova X. İnformatikanın tədrisi metodikası. Bakı, 2017.
4. http://kurikulum.az
5. http://informatik.az

**Rəyçilər:** *dosent* X.S. Həsənova, *dosent* İ.S. Səfərli
**Redaksiyaya daxil olub:** 12.12.2018.

## *KİMYANIN TƏDRİSİ METODİKASI*

*UOT 37.01.*

**_Kamil Nəsir oğlu Haqverdiyev_**
*kimya üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti*
**_Rəna Tofiq qızı Abdinbəyova_**
*kimya üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*
**_Gülay Güloğlan qızı Cəfərova_**
*Bakı Dövlət Universiteti*

# AMİNLƏR MÖVZÜSUNUN AKMEO-PSİXOLOJİ TƏDRİSİ

**_Камил Насир оглу Аквердиев_**
*доктор философии по химии, доцент*
*Бакинский Государственный Университет*
**_Рена Тофик кызы Абдинбекова_**
*доктор философии по химии, преподаватель*
*Бакинский Государственный Университет*
**_Гюлай Гюльоглан кызы Джафарова_**
*Бакинский Государственный Университет*

# АКМЕО-ПСИХОЛОГИЧЕСКОЕ ПРЕПОДАВАНИЕ ТЕМЫ АМИНЫ

**_Kamil Nasir Hagverdiyev_**
*doctor of philosophy in chemistry, associate professor*
*Baku State University*
**_Rena Tofiq Abdinbeyova_**
*doctor of philosophy in chemistry, teacher*
*Baku State University*
**_Gulay Guloglan Jafarova_**
*Baku State University*

# ACMEO-PSYCHOLOGICAL TEACHING TOPIC OF AMINES

**Xülasə.** Müəllimik fəaliyyətinin akmeo-psixoloji tədqiqatları öyrənilmişdir. Göstərilən üsul ilə öyrətdikdə öyrənənlərin mənimsəmə qabiliyyətləri, kimya elminə maraqları artır və motivləşmə inkişaf etdirilir.

**_Açar sözlər:_** *akmeologiya, akmeoloji psixologiya, şəxsiyyətin inkişaf etdirilməsi və tərbiyənin artırılması*

**Резюме.** Изучение акмео-психологического исследования деятельности учителя. Обучение учащихся указанным методом повышает их познавательную способность, интерес к химической науке и развивает их мотивацию

**_Ключевые слова:_** *акмеология, акмеологическая психология, повышение образования и воспитания*

**Summary.** Acmeological psychological researches of teaching activity have been studied. Teaching of students with the showing method improve their learning skills, interest in chemistry and motivation

**_Key words:_** *acmeology, acmeological psychology, development of personality, progressing of education*

В настоящее время изыскание методов и приёмов в методологии преподавания химии имеет большое значение, так как методологические знания учащихся связаны с проблемой активации познавательной деятельности учащихся. Овладение приёмами учебной работы изменяет отношение школьника к своей учебной деятельности, даёт им возможность осознать как надо учиться. Одним из способов возбуждения в учащихся познавательного интереса при решении задач является «вооружение» их необходимыми приёмами и средствами, умениями и навыками познавательной деятельности. В настоящее время многие исследователи отмечают, что интерес именно к познанию, потребность в познании, самостоятельном осмыслении знаний и добывании их «более и далее» всего способен стимулировать активную учебную и внеучебную в том числе творческую деятельность.

Акме – вершина, логика - это наука. В последнее время в преподавании химии используются различные методы приёма и методологии. Из этих приёмов и методов проведения исследования акмеологические методы в преподавании имеют важное значение. Возникновение, становление и развитие акмеологии непосредственно связано с именами многих выдающихся российских учёных: профессора Н.В. Кузьминой, А.А. Бодальёва. Именно их научные идеи, интуиции, талант организаторов, логика в короткие сроки уверенно занять ведущие позиции в системе наук о человеке. Акмеология развивается в полном соответствии логикой развития научного знания. На первом этапе своего становления обьектом акмеологии был главным образом профессионализм деятельности учителей. В это время увидели свет книги Н.В. Кузьминой, которые стали по-настоящему этапными для утверждения акмеологии. В них акмеологическое значение было доказательно представлено как актуальное, самостоятельное и высокоэффективное. Но главным всё же стало доказательство его универсальности. Многие и другие работы стали своеобразным научным плацдармом для интенсивного развития теоретичеких и прикладных акмеологических исследований. В 1995 году под редакцией А.А. Деркача выходит в свет фундаментальная коллективная монография «Основы общей и прикладной акмеологии». В данной теории были обобщены многие акмеологические исследования, уточнена методологическая и теоретическая основа акмеологии, определены её важнейшие научные направления, описаны главные результаты в том числе и конкретных прикладных исследований, обозначены научные перспективы. Многие исследования необходимы не только для углубления разработки теории акмеологии, они нужны для улучшения качества подготовки специалистов-педагогов акмеологов.

Методическим обеспечением курсов в методологии в ряде других высших учебных заведений изложены результаты исследований авторов в области интеграции акмеологического знания:

1. категориально-понятийный аппарат;
2. общие и частные принципы акмеологического исследования;
3. закономерности методов акмеологического исследования;
4. концепции развития профессионализма и профессионала.

Эти значения необходимы для вхождения в акмеологическую проблематику, ориентация в мире задач, связанных с изучением прогрессивного развития зрелой личности и её профессионализма. Данные теории вызвали большой интерес у специалистов, которые высказали немало ценных замечаний и предложений, направленных на его улучшение. В то же время потребность в издании учебно-методологической литературы по акмеологии не уменьшилась. В частности появилась необходимость в развитии таких методических теорий, которые бы отличались единой определяющей логикой, понятийным аппаратом и решающей практические проблемы.

Понятие акмеология было впервые предложено Н.А. Рыбниковым в 1928 году для обозначения особого раздела педагогической психологии – «психология взрослости или зрелости». Однако, в те годы в понятии взрослость и зрелость проводилась чёткая грань, они практически не отождествлялись. Напомним, что личностный аспект зре-

лости рассматривается здесь прежде всего в контексте моральной нормативности поведения следующим образом:

- когда личные нормы и нравственные ценности соответствуют гуманистичности;
- когда они являются главными регуляторами поведения и отношения;
- когда они настраивают человека на прогрессивное развитие, достижение высоких не только личностных, но и социально положительных результатов.

Особенно много проблем возникает с изучением личностного аспекта акмео. Дело в том, что определяя его содержание в программном развитии, человеку как личности необходимо чётко обозначить следующее:

- мировоззренческие позиции;
- дать описание соответствующих личности стандартов и эталонов развития.

Сейчас необходимо разрабатывая акмеологические проблемы решать задачи разного уровня, ориентированные как на узкое, так и широкое предметные поля, соответствующие истинному статусу акмеологии.

Во-первых, полученные научно-практические результаты отличаются практической значимостью, ясностью и доступностью, что способствует утверждению акмеологии как науки, укреплению её позиций.

Во-вторых, углубление исследований, расширение её обьектного поля, как это случалось не раз в науке, приводит к тесной интеграции с другими направлениями и дисциплинами. В нашем случае акмеология соответственно применяется в методике преподавания химии.

В-третьих, прогрессивное развитие человека не происходит по одной «узкой колее», ведь трудно стать настоящим профессионалом своего дела. Развиваясь исключительно как субьект труда.

Предмет акмеологии весьма обширен. Имеет разные уровни конкретности, соответственно разные исследовательские сферы и практики.

Ниже приводим методико-психологические методы преподавания темы амины:

Обучение темы начинаем следующим образом:

**1.** сначала даётся определение аминов;

Амины – это органические соединения, являющиеся производными аммиака, в молекуле которого один, два или три атома водорода замещены на углеводородные радикалы.

**2.** затем классификация аминов .

I. В зависимости от того, сколько атомов водорода замещено углеводородными радикалами в молекуле $NH_3$, различают амины:

— первичные $R\text{-}NH_2$ – содержат аминогруппу ($-NH_2$). Первичные амины можно также рассматривать как производные углеводородов, в которых атом водорода замещен на аминогруппу $-NH_2$).

— вторичные $R\text{-}NH\text{-}R'$ - содержат иминогруппу (-NH)

— третичные $R\text{-}N\text{-}R'$ - содержат атом азота

II. В зависимости от природы углеводородных радикалов, амины могут быть *алифатическими* (*предельными и непредельными), алициклическими, ароматическими или смешанными* (атом азота связан с алифатическим и ароматическим радикалами)

III. По числу аминогрупп в молекуле амины делят на *моноамины* $CH_3 - NH_2$, *диамины* $H_2N\,(CH_2)_2NH_2$, триамины и т.д.

**3.** изучаются способы получения аминов;

1) Нагревание галогеналканов с аммиаком:

$$NH_3 + CH_3Cl \longrightarrow [CH_3NH_3]^+Cl^- \xrightarrow{NH_3} CH_3NH_2 + NH_4Cl$$

$$CH_3NH_2 + CH_3Cl \longrightarrow [(CH_3)_2NH_2]^+Cl^- \xrightarrow{NH_3} (CH_3)_2NH + NH_4Cl$$

$$(CH_3)_2NH + CH_3Cl \longrightarrow [(CH_3)_3NH]^+Cl^- \xrightarrow{NH_3} (CH_3)_3N + NH_4Cl$$

2) Первичные амины получают восстановлением нитросоединений:

$$R\text{-}NO_2 \xrightarrow{LiAlH_4} R\text{-}NH_2$$

Важнейший ароматический амин – анилин – образуется при восстановлении нитробензола.

$$C_6H_5NO_2 + 6[H] \longrightarrow C_6H_5NH_2 + 2H_2O$$

**4.** изучаются физические и химические свойства аминов,

Амины, являясь производными аммиака, имеют сходное с ним строение и проявляют подобные ему свойства. Для них также характерно образование донорно-акцепторной связи.

Взаимодействие с водой. Водные растворы алифатических аминов проявляют щелочную реакцию, так как при их взаимодей-

ствии с водой образуются гидроксиды алкиламмония, аналогичные гидроксиду аммония:

$$C_2H_5NH_2 + H_2O \rightarrow [C_2H_5NH_3]OH$$

Взаимодействуя с кислотами, амины образуют алкиламмониевые соли, в большинстве случаев растворимые в воде. Например, амины присоединяют галогеноводороды:

$$CH_3CH_2NH_2 + HCl \rightarrow [CH_3CH_2NH_3]Cl$$

Реакция с ангидридами протекает в мягких условиях. Ещё легче реагируют хлорангидриды, реакция проводится в присутствии основания, чтобы связать образующийся HCl. Таким образом получают жаропонижающее средство — ацетанилид:

$$C_6H_5NH_2 + CH_3COCl \rightarrow C_6H_5NH(COCH_3) + HCl$$

Если в качестве исходных соединений взять диамин и дикарбоновую кислоту, то они взаимодействуют по такой же схеме, но поскольку каждое соединение содержит две реагирующие группы, то образуется полиамид.

Амины присоединяют галогеналканы RCl, с образованием донорно-акцепторной связи N-R, которая также эквивалентна уже имеющимся.

Ароматические амины реагируют с галогенами по механизму электрофильного замещения в бензольном ядре. При галогенировании анилина бромной водой при комнатной температуре образуется триброманилин (в виде осадка белого цвета):

$$C_6H_5NH_2 + 3Br_2 \rightarrow C_6H_2NH_2Br_3 + 3HBr$$

Первичные и вторичные амины взаимодействуют с азотистой кислотой различным образом. При помощи азотистой кислоты первичные, вторичные и третичные амины отличают друг от друга. Из первичных аминов образуются первичные спирты:

$$C_2H_5NH_2 + HNO_2 \rightarrow C_2H_5OH + N_2 + H_2O$$

Третичные амины при обычной температуре в азотистой кислоте просто растворяются. При нагревании возможна реакция с отщеплением алкильных радикалов.

При горении амин выделяет, кроме воды и углекислого газа, ещё и азот:

$$4CH_3NH_2 + 9O_2 \rightarrow 2N_2 + 4CO_2 + 10H_2O$$

Первые 3 амина – газы, средние члены алифатического ряда – жидкости, а высшие – твердые вещества. Температура кипения у аминов выше, чем у соответствующих углеводородов, т.к. в жидкой фазе в молекуле образуются водородные связи. Амины хорошо растворимы в воде, по мере роста углеводородного радикала растворимость падает.

**5. практическое применение аминов.**

Амины относятся к числу лучших горючих для жидкостных ракетных двигателей. Они обладают обладают рядом положительных качеств температурой воспламенения, большим газообразованием, относительно большой плотностью широкими концентрационными пределами воспламенения, малым периодом задержки воспламенения. Хорошая воспламеняемость и высокая устойчивость сгорания обусловили очень широкое использование аминов в качестве горючих для жидкостных ракетных двигателей, несмотря на их сравнительно высокую стоимость. Наибольшее практическое применение как горючее получили анилин, триэтиламин и ксилидин. Амины обладают резкими неприятными запахами. Все они являются смертельными ядами.

**Научные актуальности проблемы:** В настоящее время инновационное преподавание в химии приобретает большое значение в средней и высшей школах. Изыскание методов и приёмов в области улучшения качества преподавания и освоения учащимися предлагаемого материала, а также развитие их мировоззренческого познания имеет большую значимость. Среди этих методов акмеопсихологический метод является инновационным и новой технологией в методике преподавания химии

**Научная новизна проблемы:** Использование акмео-психологических знаний в качестве новой теоретической основы в процессе преподавания способствует более активному составлению уроков в средней и высших школах, а также усиливая логическое мышление учащихся увеличивает их интерес к предмету химии и мотивацию.

**Практическая важность проблемы:** Практическая значимость статьи заключается в том, что выдвинутые в статье идеи могут быть успешно использованы педагогами высшей и средней школ, а также студентами и учащимися в процессе обучения химии.

**Литература:**


1. Богданов Е.И., Зазыкин В.Г. Введение в акмеологию. Калуга: КГПУ, 2000; 2001.
2. Бодалев А.А. О предмете акмеологии // Психологический журнал, 1993, № 5
3. Буякас Т.М. Смыслы и ценности в деятельности психолога-профессионала // Акмеология, 2001, № 1
4. Деркач А.А., Михайлов Г.С. Методология и стратегия акмеологического исследования. М.: МПА, 1998.
5. Климов Е.А. Психология профессионала. М.: Воронеж: МПСИ, 1996.


**E-mail:** gulay_96_00@mail.ru

**Rəyçilər:** *kim. ü. elm. dok., prof.* E. İ. Əhmədov
*kim.ü.elm.dok., prof.* T.M. İlyaslı
**Redaksiyaya daxil olub:** 08.11.2018

*UOT 37.01.*

***Əyyub Teymur oğlu Əzizov***
*kimya üzrə fəlsəfə doktoru, professor*
*Bakı Dövlət Universiteti*
***Kamil Nəsir oğlu Haqverdiyev***
*kimya üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti*
***Vüsalə Oktay qızı Yusifli***
*Bakı Dövlət Universiteti*

# AMİN TURŞULARININ AKMEOLOJİ-METODOLOJİ TƏDRİSİ

***Эййуб Теймур оглу Азизов***
*доктор философии по химии, профессор*
*Бакинского Государственного Университета*
***Камиль Насир оглу Ахвердиев***
*доктор философии по химии, доцент*
*Бакинского Государственного Университета*
***Вусала Октай гызы Юсифли***
*Бакинский Государственный Университет*

# АКМЕОЛОГО-МЕТОДОЛОГИЧЕСКОЕ ПРЕПОДАВАНИЕ АМИНОКИСЛОТ

***Eyyub Teymur Azizov***
*doctor of philosophy in chemistry*
*professor of Baku State University*
***Kamil Nasir Hagverdiyev***
*doctor of philosophy in chemistry*
*associate professor of Baku State University*
***Yusifli Vusala Octay***
*Baku State University*

# ACMEOLOGICAL-METHODOLOGICAL TEACHING OF AMINO ACIDS

**Xülasə**: Akmeoloji-metodoloji üsul ilə amin turşularının tədrisi öyrənilmişdir. Müəllimin peşəkarlığı, onun elmi öyrətmə bacarığı, şagirdlərin mənimsəmə qabiliyyətləri, məntiqi təfəkkürləri və marağı inkişaf etdirilib. Nəticədə şagirdlər kimya biliyinə asan və konkret yiyələnirlər.

***Açar sözlər**: tədrisdə akmeoloji tədqiqat, pedaqogikanın akmeoloji məsələləri, şagirdlərin pedaqoji və psixoloji, metodoloji inkişaf etdirilməsi, mücərrəd təfəkkürün əldə edilməsi*

**Резюме:** В статье исследован акмеологический методологический метод изучения аминокислот. Развит профессионализм учителя, его научно-преподавательские навыки, способность учащихся к овладению навыками их логическое мышление и интерес. В итоге, учащиеся свободно и легко овладевают знаниями в области химии.

***Ключевые слова:** акмеологические исследования в преподавании, акмеологические вопросы педагогики, педагогическое, психологическое и методологическое развитие учащихся, приобретение абстрактного мышления*

**Summary:** Acmeology methodological method of study of amino acids. The professionalism of the teacher, his scientific and teaching skills, the ability of students to master the skills, logical thinking and interest have been developed. As a result, students freely and easily acquire knowledge in the field of chemistry.

***Key words**: Acmeological research in teaching, acmeological issues of pedagogy, pedagogical, psychological and methodological development of students, acquiring of abstract thinking*

Təlim prosesinə qoyulan tələblərdən biri tədrisin yeni innovativ üsul və texnologiyalarla təlim edilməsidir. Sayılan üsullardan biri də tədris prosesinin akmeoloji-metodoloji üsul ilə təşkil edilməsidir. Akmeo-zirvə, logika-elmdir. *Akmeologiya* – peşəkarlığa doğru gedən yollarda üsulları, metodları, metodologiyaları və mexanizmləri öyrənir. Akmeologiya peşəkarlığa doğru gedən yolu hərtərəfli öyrənərək, öz prinsiplərini istifadə edərək elmi bilikləri daha dərindən, daha geniş və daha düzgün öyrətməyi diktə edir. Müasir dövrdə Rusiya Federasiyasında bu sahədə tədqiqatlar 1970-ci illərdən başlayaraq bu günə qədər 300- dən artıq dissertasiya işi akmeologiyaya həsr edilmiş “Akmeologiya “ jurnalı çapdan çıxır və “Akmeoloji tədqiqatlar” yaradıcılıq işi çap edilir. Akmeologiyanın bütün elm sahələrinə tətbiq edilməsi nəticəsində aşağıdakı akmeoloji elm sahələrinə akmeologiyanın prinsip və metodları tətbiq edilir: Pedaqoji akmeologiya, metodoloji akmeologiya, psixoloji akmeologiya, fəlsəfi akmeologiya, hüquq akmeologiyası, təbiət elmlərinin akmeologiyası, tibb elminin akmeologiyası, hərbi akmeologiya, idarəçilik akmeologiyası və s. Buradan göründüyü kimi, akmeologiyanın bütün elmlərə tətbiq edilməsi həmin elmi biliklərin inkişaf etdirilməsi, həm dərk edilməsi, həm də dərk olunanlar əsasında biliyin yeni prioritet istiqamətlərinin müəyyən edilməsinə yardımçı olur. Ona görə ki, hər bir elmin, hər bir peşənin növündən asılı olmayaraq onun peşəkarcasına öyrənilməsi və öyrədilməsi elmi məqsədin əsasını təşkil edir. Məlum olduğu üzrə metodoloji akmeologiya dedikdə tədris və təlim prosesinin akmeoloji müəllimlər tərəfindən inkişaf etdirilməsi nəzərdə tutulur. Hər bir müəllim akmeoloq peşəkarlığın zirvəsinə gedən yolu öyrənməklə peşəkarlığın zirvəsinə çata bilər. Akmeo müəllim öz bildiklərini öyrənənlərə daha dəqiq, daha səlist, daha düzgün öyrədərək mənimsəməni, passiv vəziyyətdən şagirdlərin fəal vəziyyətə gətirilməsini, eyni zamanda, bütün öyrənənlər üçün fərdi təlimin təşkil edilməsini və metodoloji biliklər vasitəsilə pedaqoji prosesin daha maraqlı olmasını qarşıya qoyur. Akmeo-müəllim həm daxili, həm də xarici rəqabətlərə dözümlülük göstərərək, necə deyərlər, pedaqoji prosesin əsl peşəkarına çevrilir. Müəllim tədrisi təşkil edərkən 3 əsas şeyi unutmamalıdır:

1. Nəyi öyrətməli?
2. Necə öyrətməli?
3. Hansı formada öyrətməli?

Bu əsas şərtə əməl edən akmeo-müəllim mürəkkəb təlim prosesində sadədən mürəkkəbə doğru, yaxından uzağa, asandan çətinə, elmsizlikdən elmiliyə gedən yolu işıqlandıra bilir. Bizə məlumdur ki, innovasiyalar, yəni kimyanın akmeo-innovasyon yeni texnologiyalarla tədrisi heç də asan proses deyildir. Bu prosesi asanlaşdırmaq üçün müəllimin akmeopeşəkarlığı inkişaf etdirilməli, müəllim nə öyrədəcəyini əvvəlcədən müəyyənləşdirməli, dövlət proqram sənədinə uyğun dərslərin yeni formada təşkil olunmasına nail olmaqdır. Akmeometodologiya dedikdə, öyrətmənin peşəkarcasına metodoloji, psixoloji və fəlsəfi öyrədilməsi nəzərdə tutulur. Bu deyilənləri nəzərə alaraq, aminturşularının akmeoloji-metodoloji tədrisini aşağıdakı şəkildə təqdim edirik: Molekulunda, eyni zamanda, amin(-$NH_2$) və karboksil qrupu (-COOH) saxlayan birləşmələrə aminturşuları deyilir. Aminturşulara karbon turşularının karbohidrogen radikalında hidrogen atomunun əsasi xassəli-$NH_2$ qrupu ilə əvəz olunmuş törəmələri kimi baxılır; məsələn: $CH_3$-COOH $H_2N$-$CH_2$-COOH

Sirkə turşusu Aminsirkə turşusu

Amin qrupunun karboksil qrupuna nəzərən yerləşməsinə görə aminturşuları α, β, γ və s. olur:

$CH_3CHCOOH$

| $H_2NCH_2CH_2COOH$ $H_2N(CH_2)_3COOH$

NH2 β-aminpropion γ-aminturşusu

α - aminpropion

**İzomerliyi**. Aminturşular üçün iki cür izomerlik - quruluş və fəza izomerliyi xarakterikdir. Quruluş izomerliyi karbohidrogen zəncirinin quruluşu ilə (A,A') və -COOH qrupuna nəzərən amin qrupunun zəncirdəki yeri ilə ( B,B') əlaqədardır; məsələn: $CH_3$

5 4 3 2 1 4 3| 2 1

A) $CH_3$—$CH_2$—$CH_2$—CH—COOH A') $CH_3$—CH—CH—COOH

| |

$NH_2$ $NH_2$

2-aminpentan turşusu 2-amin-3-metilbutan turşusu

Karbohidrogen zəncirinin quruluşuna görə izomerlik

4 3 2 1 4 3 2 1
B) $CH_3$—$CH_2$—CH—COOH B') $CH_3$—CH—$CH_2$—COOH
| |
$NH_2$ $NH_2$
2-aminbutan turşusu 3-aminbutan turşusu

←————————————→

-COOH qrupuna nəzərən amin qrupunun zəncirdəki yerinə görə izomerlik

**ALINMASI**. Aminturşular zülalların hidrolizindən alınır.

(H —NH—CH—CO— )OH + ( N-1) HOH → nNH2—CH—COOH
| |
Ri Ri ( i= 1,2,3,.....)
Zülal i=ixtiyari aminturşu qalığı

**Xassələri. Turşu xassələri.** Aminturşular karbon turşuları kimi fəal metallarla, əsasi oksidlərlə, əsaslarla, zəif turşuların duzları ilə və spirtlərlə qarşılıqlı təsirdə olur:

$2NH_2CH_2COOH + Mg \rightarrow (NH_2CH_2COO)_2Mg + H_2\uparrow$

$2NH_2CH_2COOH + Na_2CO_3 \rightarrow 2NH_2CH_2COONa + H_2O + CO_2\uparrow$

**Əsasi xassələri**. Molekullarında əsasi xassəli amin qrupu olduğundan, aminturşular qüvvətli mineral turşularla qarşılıqlı təsirdə olub duz əmələ gətirir:

$HOOC—CH_2NH_2+HCl \rightarrow [HOOCCH_2NH_3]^+ Cl^-$ (və ya $HOOCCH_2NH_2·HC$ ) qlisin aminsirkə turşusunun hidroxloridi

**Problemin aktuallığı:** problemlə bağlı olan elmi tədris ədəbiyyatının araşdırmasından aydın olur ki, tədris təcrübəsində şagird və tələbələrin kimyəvi anlayışlarla real həyat ilə əlaqələrinin aşkar edilməsinin ən səmərəli mexanizmi akmeoloji metodologiya vasitəsilə yerinə yetirilir.

**Problemin elmi yeniliyi:** Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, mürəkkəb sayılan kimyəvi metodoloji anlayışlar akmeoloji metodologiyanın tətbiqi ilə sadələşdirilir, ali və orta məktəbdə kimya biliklərinin mənimsənilməsi və tətbiq edilməsi asanlaşır.

**Problemin praktiki əhəmiyyəti**: Tədqiqat işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işində irəli sürülən akmeoloji, metodoloji və yeni texnologiyalardan ali və orta məktəb müəllimləri, tələbə və şagirdləri tədris prosesinin asanlaşdırılması, pedaqoji peşəkarlığın inkişaf etdirilməsi üçün istifadə edilə bilərlər.

## Ədəbiyyat:

1. А. Деркач, В. Зазыкин. Акмеология: Учебное пособие. СПб.: Питер, 2003.
2. Иванов Г. П. Акмеологические аспекты формирования профессионально-нравственной культуры педагогов-психологов. М., 1999.
3. Храпик В. А. Стратегия достижения профессионализма. М., 1997.
4. Пазекова Г. Е. Профессионализм педагога в реализации личностно-профессионального подхода. М., 2001.
5. Михайлов Г. С. Методология и стратегия акмеологического исследования. М., 1998.

**E-mail**: adpuyusifli@bk.ru
**Rəyçi**: *kimya ü. elm. dok., prof.* T.Ə.İlyaslı
**Redaksiyaya daxil olub**: 27.11.2018.

# *TARİXİN TƏDRİSİ METODİKASI*

*UOT 37.01.*

***Мубариз Миразиз оглу Амиров***
*доктор наук по педагогике, профессор*
*Азербайджанский Государственный Педагогический Университет*

## ФОРМИРОВАНИЕ У УЧАЩИХСЯ НАВЫКОВ ИСПОЛЬЗОВАНИЯ МЕЖДИСЦИПЛИНАРНЫХ СВЯЗЕЙ ПРИ ОБУЧЕНИИ ИСТОРИИ

***Mübariz Mirəziz oğlu Əmirov***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## TARİX TƏLİMİNDƏ ŞAGİRDLƏRDƏ FƏNLƏRARASI ƏLAQƏLƏRDƏN İSTİFADƏ BACARIQLARININ FORMALAŞDIRILMASI

***Mubariz Miraziz Amirov***
*doctor of pedagogical sciences, professor*
*Azerbaijan State Pedagogical University*

## FORMATION OF USING SKILLS OF INTERDISCIPLINARY RELATIONSHIP FOR PUPILS IN HISTORY EDUCATION

**Резюме.** Актуальность темы была обоснована в статье. Дидактическое значение междисциплинарных отношений было интерпретировано. В условиях междисциплинарных отношений определены возможности, методы и критерии когнитивной самостоятельности учащихся. Выяснены вопросы использования междисциплинарных отношений для формулирования научного мировоззрения учащихся. Полученные результаты, направления обновления и совершенствования методики и содержания обучения в общеобразовательных школах представлены в данной статье.

***Ключевые слова**: обучение истории, межпредметная связь, формирование умений, мыслительная активность, сознательное усвоение, качество обучения*

**Xülasə.** Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Fənlərarası əlaqələrin didaktik əhəmiyyəti şərh edilib. Fənlərarası əlaqələr şəraitində şagirdlərin idraki müstəqilliyinin imkanları, yolları və meyarları müəyyənləşdirilib. Fənlərarası əlaqələrdən istifadənin şagirdlərin elmi dünyagörüşünün formalaşdırılması məsələlərinə aydınlıq gətirilib. Məqalədə əldə edilən nəticələri ümumtəhsil məktəblərində təlimin metodlarının və məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsinin istiqamətlərini verib.

***Açar sözlər:** tarix təlimi, fənlərarası əlaqə, bacarıqların formalaşdırılması, fikri fəallıq, şüurlu mənimsəmə, təlimin keyfiyyəti*

**Summary.** The actuality of the subject has been justified in the article. The didactic significance of interdisciplinary relationship has been interpreted. Opportunities, methods and criteria of the pupils' cognitive independence have been determined in the interdisciplinary relationship condition. The issues of the use of interdisciplinary relations to formulate pupils’ scientific outlook has been clarified. The obtained results, the directions of the updating and improvement of teaching methods and content in general education schools have been provided in this article.

***Key words:** history education, interdisciplinary relationship, formation of skills, mental activity, conscious learning, quality of education*

Одной из специфических особенностей междисциплинарной связи среди многочисленных методов обучения в педагогической литературе является ее исключительное значение в формировании мировоззрения учащихся.

Преподавание «…истории в тесной связи с литературой, языком, географией и другими предметами углубляет знания учащихся о природе и обществе. Следовательно, это создает мотивацию у учащихся комплексно понимать мир. У учеников преподавателей, которые отдают предпочтение междисциплинарным связям, преобладает сознательное усвоение в обучение из-за того, что они более развиты с познавательной точки зрения» (1, с. 250).

Эффективное использование междисциплинарных связей в преподавании истории имеет нижеперечисленные дидактические преимущества:

1) Логические методы результатов (дедуктивно-иллюстрационные или индуктивно-поисковые); обобщение материала; развитие речи (схематичная речь с малым словарным запасом и грамматическими конструкциями или четкая, правильная, ясно выражающая мысли речь с богатым словарным запасом и грамматическими конструкциями).

«Методы поисковой деятельности: а) познание проблемы (понимание краткого и правильного выражения познавательных задач, логические «привязки», раскрывающие пути решения проблемы в тексте, отражение общих проблемных связей в результатах); б) решение проблемы (структура текста, степень оригинальности при решении, анализ «своих», новые образцы)» (2, с. 266).

Как и видно, системе знаний соответствует система определенных методов для проведения работы с ними. Степень проявления отдельных показателей системы знаний в работах учащихся соответствует системам методов работы, что демонстрирует их способность использовать фактический материал разных предметов в решении проблемы междисциплинарных связей: увидеть проблему, находить общий метод его решения и т.д.

В результате анализа показателей системы навыков в самостоятельных работах учеников разных классов было выявлено, что продуктивность познавательной деятельности, формирование системы знаний в значительной степени определяется способностью увидеть суть проблемы междисциплинарных связей, воспринимать познавательную проблему как субъективную цель, которая приводит в движение знания, методы и мотивы деятельности.

Другая группа критериев – вдохновляющая. Мотивационная ситуация:

1) средство междисциплинарного задания учителям - как ставить обучающую и познавательную цель, оценка проводится по одному или нескольким предметам, по классам или по домашним работам и т.д.;

2) степень проблемности задач – ориентация на самостоятельный поиск или описание и систематизацию знаний, степень обобщения задач, инструкция, наличие аналогичного предыдущего опыта и т.д.;

3) прогнозирование успеха в работе – степень успеха, устойчивость знаний, которая необходима для выполнения работ по предметам, уровень их новизны, соответствие индивидуальным способностям и возможностям ученика и т.д.

Стабильная мотивация - характер и развитие познавательных интересов учащихся: интерес к предметам, к которым привлечены знания, общая направленность познавательных интересов, их теоретический и прикладной характер, уровень развития и т.д.

Процессуальная мотивация – активность в процессе выполнения самостоятельных работ, творческий подход в процессе решения, его логика, постановка проблемных задач со стороны учащегося, наличие оценочных соображений и т.д.

«Первостепенную роль в «междисциплинарной» деятельности учеников, во многих случаях, играют их познавательные интересы, которые определяют успех в восприятии мировоззренческих идей» (3,с.114).

Определение уровня познавательной самостоятельности учащихся в условиях междисциплинарных связей имеет особое значение. Анализ последовательно проводимых междисциплинарных самостоятельных работ, направленных на решение комплексных образовательных проблем и обобщение их результатов, позволил выделить три критерия познавательной самостоятельности учащихся в деятельности, основанной на междисциплинарные связи: систематичность знаний; наличие иерархии и структуры, ко-

торые соответствуют межнаучным связям; динамичность сознания, способность видеть предметные знания в системе новых отношений, установление связей между объектами, идеями, понятиями и фактами из разных наук, обобщение их с точки зрения мировоззренческих идей, высокая мотивация познавательной деятельности, мировоззренческое направление познавательных интересов, его широкий характер, стремление к пониманию межнаучных связей, философских идей и диалектики объективного мира.

Каждый критерий познавательной самостоятельности конкретизируется совокупностью показателей, отраженных в таблице 1.

*Таблица 1*

**Уровни познавательной самостоятельности учащихся в деятельности, основанной на междисциплинарные связи**

| Показатели | Высокий уровень | Средний уровень | Низкий уровень |
|---|---|---|---|
| **Системные знания** Широта связей между элементами знаний | Межсистемные связи преобладают; философские положения связываются с философским естествознанием, научными теориями и концепциями | Межсистемные связи, характерные для отдельных наук (предметов), преобладают, знание из других предметов подчиняются им. | Особые системные связи, характерные для отдельных фактов и обстоятельств из разных предметов, преобладают |
| Иерархия элементов знаний | Иерархические знания из разных дисциплин подчиняются структуре межнаучных связей | Иерархические знания из разных дисциплин подчиняются конкретным познавательным целям | Знания из разных дисциплин используются вместе |
| Теоретическая и фактическая связь элементов знаний | Анализ и обобщение оригинальных примеров с точки зрения ведущих теоретических положений | Анализ и обобщение в основном известных фактов с точки зрения отдельных теоретических положений | Отсутствие устойчивых связей между теоретическими положениями и фактами; поверхностный анализ устаревших примеров |
| Объем знаний | Знание всех основных теоретических положений, утверждение их фактами | Неполное знание теоретических положений и подтверждающих их фактов | Знание только отдельных теоретических фактов и отдельных фактов |
| Прочность предметных знаний | Правильное толкование предметных понятий, теорий, законов, отсутствие фактических ошибок | Правильное толкование предметных понятий, теорий, законов, наличие отдельных фактических ошибок | Ошибки в толковании теоретических и фактических предметных знаний |
| **Динамичность** Появление проблемы | Понимание междисциплинарной сути проблемы, самостоятельность проблемы, самостоятельный обзор познавательных проблем | Понимание междисциплинарной сути проблемы, неспособность самостоятельно точно выразить междисциплинарные познавательные вопросы | Понимание междисциплинарной сути только особых вопросов проблемы, неспособность выразить междисциплинарные познавательные вопросы |

| | | | |
|---|---|---|---|
| Решение проблемы | Творческий подход, включение новых связей предметных знаний, широкий перенос, обобщение на уровне философско-мировоззренческих идей | Интуитивно-поисковый подход, использование аналогий, усиление идентичности связей предметных знаний, обобщение на уровне мировоззренческих идей наук | Репродуктивно-подражающий подход, действия, основанные на примеры, трафаретность междисциплинарных связей, обобщение не достаточно обосновано знаниями из различных предметов, или вообще не обосновано. |
| Методы обобщения | Соединение индуктивно-поискового способа с дедуктивно-доказатель-ным способом преобладает, теоретичес-кое обобщение свя-зы-вается с эмпирическим обобщением | Дедуктивно-иллюстративный способ с индуцированными элементами преобладает; эмпирическое обобщение | Элементы дедуктивно-иллюстративного способа; элементы эмпирического обобщения; |
| Связь между системой знаний и системой навыков | Корреляция между знаниями и навыками высокая, в частности по показателям высокого уровня эффективности познавательной деятельности | Корреляция между знаниями и навыками несколько ниже, однако, на более низких уровнях эффективности дея-тельности высокое зна-чение сохраняется (более низким показателям в системе знаний соответ-ствуют более низкие по-казатели в системе навыков) | Корреляции ослабли |
| **Мотивация** Мотивация решения междисципли нарной проблемы | Ведущая роль устойчивой мотивации, которая определяется познава-тельными интересами и положительными моти-вами обучения; высокий уровень процессуальной мотивации поиска (его сознательность, актив-ность, эмоциональная полнота), влияние ситуа-ционной мотивации ослабло | Усиление роли мотивации; устойчивая и процессуальная мотивация ослабла по причине уменьшения сознательности, успешности, эмоциональной направленности поиска | Ведущая роль мотивации; отсутствие или низкий уровень устойчивой мотивации познавательной деятельности: ослабление процессуальной мотивации по причине усиления деятельности репродуктивного характера |
| Интерес к предметам, включенным в связи | Интерес к предметам, между которыми создаются связи на высшем, меньше на среднем уровне; активная познавательная деятельность по данным предметам; элементы личного образования | Интерес к предметам, которые включены в связи на среднем, а иногда на высшем уровне; ослабление активности познавательной деятельности (в частности внеклассной) по данным предметам | Низкий или средний уровень интереса к предметам, включенным в связи; эпизодичное участие во внеклассной деятельности по данным предметам, а иногда участие на факультативных занятиях и олимпиадах по другим предметам |

| | | | |
|---|---|---|---|
| Общий характер и направление познавательно го интереса | Широкие интересы основных предметов и мировоззренческого направления; интерес к пониманию философских идей и межнаучных связей | Широкие или основные интересы, их мировоззренческое направление; интерес к пониманию философских идей, конкретных наук, общенаучных положений | Основные или аморфные интересы, ослабление их мировоззренческих направлений; интерес к фактам, событиям, проблемам, исследуемым смежным наукам |
| Средняя степень успеваемости по предметам, включенным в связи | Отметка по междисциплинарным самостоятельным работам высокая или совпадает со средней отметкой | Отметка по междисциплинарным самостоятельным работам совпадает со средней отметкой, а иногда выше или ниже | Отметка по междисциплинарным самостоятельным работам совпадает со средней отметкой или ниже |
| Общий характер познавательной самостоятельности | Творческо-мировоззренческий | Изменяюще-поощряющий | Репродуктивно-подтверждающий |

Их взаимоотношения позволяют определить три основных уровня познавательной самостоятельности учащихся в деятельности, основанной на междисциплинарные связи.

Высокий уровень - творческо-мировоззренческий (связи между разноэтапными предметами обобщаются и применяются творческим путем с точки зрения философско-мировоззренческих идей);

Средний уровень - изменяюще-поощрительный (связи между одноэтапными или разноэтапными предметами обобщаются путем сочетания репродуктивного подхода с творческими элементами с точки зрения мировоззренческих идей конкретных наук);

Низкий уровень - репродуктивно-подтверждающий (связи между одноэтапными, а иногда разноэтапными предметами обобщаются репродуктивным путем, не обеспечивая в достаточной степени поверхностные, общепредметные идеи содержанием предмета).

«Особенности формирования познавательной самостоятельности в деятельности учащихся, основанной на междисциплинарные связи, определяются тем, что она находится в тесном взаимоотношении с мировоззрением. Самостоятельность в установлении междисциплинарных связей приводит к формированию мировоззренческих взглядов ученика. А это, в свою очередь, влияет на его образ мышления, способы подведения итогов, на его умственную деятельность, на интерес понимания мировоззренческих аспектов предметных знаний; знания хватают для мировоззренческого обобщения, при этом создаются условия для превращения знаний в убеждения, рождаются идейные, оценочные отношения к новым предметным понятиям и научным фактам. В то же время ученики приобретают обобщенные навыки, которые повышают их творческие возможности и включаются в диалектический метод мышления, а также приобретают способность увидеть развитие мира, единственность в многообразии» (4, с. 62).

Увеличение самостоятельности ученика в познавательной деятельности, основанной на междисциплинарные связи, в целом, связано с мировоззренчески ориентированным развитием его интересов, укреплением нравственных основ обучения (ответственность за знания по предметам, включенным в междисциплинарные связи, мотивы коллективизма, взаимная помощь по учебной работе, которая требует твердых знаний по различным предметам и т.д.).

В качестве примера можно сказать, что, если тема «Культура Азербайджана XII века» в курсе истории Азербайджана будет преподаваться с темой «Творчество Низами Гянджеви» в курсе литературы, знания учеников о культуре Азербайджана XII века будут еще больше расширяться.

У учеников, которые были ознакомлены в творчестве Низами с такими понятиями, как научность, патриотизм, этика, эстетика,

восприятие мира, социальная жизнь, философские взгляды, архитектура, управление государством, справедливость, создается мотив для основательного развития их мировоззрения.

Этим мы становимся свидетелями новых особенностей обучения - системных знаний, связей между системными знаниями, внутрисистемных знаний, превосходства особых системных связей, характерных для отдельных фактов из различных предметов. Все это создает мотив для развития знаний, навыков и мировоззрения у учеников.

Таким образом, познавательная самостоятельность, не только как качество деятельности ученика, но и как качество его личности под влиянием междисциплинарных связей, формируется у школьника, как одна из сторон его активной позиции в обучении, которое реализует комплексный подход к воспитанию всесторонне развитой личности.

Беспрерывное исследование проблемы междисциплинарных связей было завершено выводами следующего содержания:

Теория междисциплинарных связей составляет важное звено теории содержания общего образования и теории современного обучения.

Междисциплинарные связи, как объект исследования, требуют привлечения ученых – специалистов по всем учебным предметам, составителей учебников и учебных программ, дидактов, психологов, методистов и преподавателей.

В результате многостороннего анализа проблем по междисциплинарным связям, проведенного на основе применения системных подходов, была установлена необходимость комплексного включения междисциплинарных связей в реальный процесс обучения.

Осуществление принципа междисциплинарных связей начинается с образовательных программ. Включение специального раздела «Междисциплинарные связи» в программы нового типа средней школы обеспечивает их целенаправленное использование на учебной практике. Определение объема междисциплинарных связей по каждой преподаваемой теме по каждому курсу, выбор прежних, сегодняшних и перспективных связей, изолирование в структуре предмета конкретных компонентов, между которыми создаются связи, согласования времени в изучении опорных знаний - все эти вопросы являются задачей дальнейшего комплексного исследования.

Проблема включения в учебные планы школы новых предметов (психология, этические основы кибернетики, техники и т.д.), которые способны отражать науки, выполняющие функции связующих звеньев в системе научных знаний, требует своего исследования.

Совершенствование учебно-воспитательного процесса на основе междисциплинарных связей в школе требует проведения специальной подготовки учителей в высших педагогических школах и в институтах усовершенствования и повышения квалификации.

Идея междисциплинарности, включенная в цели и задачи школьного образования, в учебные программы и в систему подготовки учителей, реализуется в конкретной учебно-воспитательной деятельности школы. Учитель конкретизирует задачи, выбирает содержание, методы и формы осуществления междисциплинарных связей. В данной организационно-методической деятельности учителя ему необходимы научно обоснованные направления, конкретные принципы, обеспечивающие учебно-воспитательную полноту образовательного процесса на основании междисциплинарных связей. Такие направления дает дидактическая теория междисциплинарных связей, которая осуществляется с помощью различных средств формирования учебно-познавательной деятельности учащихся и раскрывает их функции, типы и виды.

Исследование закономерных отношений между организационно-методическими формами реализации междисциплинарных связей и качественными изменениями учебно-познавательной деятельности учащихся в процессе обучения имеет особое теоретическое и практическое значение.

Содержание, методы, формы междисциплинарных связей, изменяясь, влияют на взаимодействие функций обучения, образования, развития, воспитания, что непосредственно отражается в изменении системы знаний, навыков, мотивов и ученических от-

ношений. Прогресс в обучении – в познавательной деятельности, вынуждая учителя находить новые пути более широкого и глубокого использования междисциплинарных связей в обучении с целью осуществления развивающих и воспитывающих функций, изменяет его деятельность.

Включение междисциплинарных связей в учебный процесс наделяет качественной спецификой все компоненты учебно-познавательной деятельности ученика:

- единство общих и конкретных целей обучения предмету заметно проявляется;
- интерес к родственным предметам значительно обогащает мотивы учебной деятельности;
- содержание деятельности становится более обобщенным, процессы и события, идеи, теории, законы, понятия, факты, общие для ряда предметов, и связи между ними выступают в качестве познавательных объектов;
- деятельность, способы оперирования знаниями обобщаются на основании междисциплинарной содержательной базы, активизируются производительные процессы познания;
- успешно осуществляется единство образовательных, воспитательных, развивающих целей обучения, системность знаний способствует усвоению эффективных познавательных методов, развитию широких интересов.

Сама познавательная деятельность, как принцип общности навыков, методы обучения, источник междисциплинарных связей, установленных по навыкам, в преподавании различных предметов не менее значительна, чем содержание.

Систематические операции с междисциплинарными знаниями и навыками создают системный стиль умственной деятельности, который характеризуется широтой мировоззренческого подхода, способностью мобильной передачи обобщенных механизмов эффективного познания и творчества.

На основе междисциплинарных связей формируются междисциплинарные навыки, как синтез обобщенных знаний, способов и познавательных мотивов в учебно-познавательной деятельности ученика. Они создаются в процессе передачи и обобщения знаний из разных предметов. В содержательный компонент таких навыков входят знания из нескольких предметов, которые формируют новые связи и отношения. Комплексная познавательная деятельность составляет операционный компонент междисциплинарных навыков.

В мотивационном компоненте междисциплинарных навыков ярко выражена внутренняя мотивация, исходящая из качественной, более высокой, более сложной, обобщенной познавательной деятельности, в которой мыслительные процессы анализа и синтеза, операции по сравнению, систематизации, обобщению завершаются на уровне связей между предметными системами знаний. Высший уровень обучения на основании междисциплинарных связей, формирование междисциплинарных навыков учащихся старших классов в значительной степени зависит от практики обобщения разнопредметных знаний, которые были получены учащимися в средних, даже в младших классах. Поэтому проблемы изучения междисциплинарных связей с возрастной точки зрения является весьма актуальным вопросом. Исследование путей организации учебного процесса с использованием наглядных и технических средств на основе соответствия междисциплинарных связей с проблематичным, запрограммированным, дифференцированным образованием является немаловажным вопросом, так как никакое средство, никакой метод в изолированном виде не может обеспечить эффективность всех функций обучения.

**Новизной проблемы** является толкование форм и путей повышения познавательной самостоятельности учащихся под дидактическим воздействием использования междисциплинарных связей.

**Теоретическая значимость проблемы** заключается в том, что выдвинутые в ней идеи и положения еще более обогатят методику преподавания истории.

**Практическая значимость проблемы** заключается в том, что ее могут использовать многочисленные преподаватели истории общеобразовательных школ в своей ежедневной педагогической деятельности.

**Научный вывод**. Формирование у учащихся навыков использования междисциплинарных связей при обучении истории способствует их всестороннему развитию, повышает качество обучения.

## Литература

1. Амиров М.М. Методика активного/интерактивного обучения истории в общеобразовательных школах (учебное пособие для студентов исторического факультета высших школ) Баку, 2014.

2. Мамедов А.И. Психологические основа обучения. Баку,1993.

3. Казанский Н.Г., Назарова Т.С. Дидактика. Учеб. пособие для студентов пед. ин-тов по специальности №2121 «Педагогика и методика начального обучения». М.: Просвещение, 1978.

4. Дидактика средней школы / Под. ред. М.Н. Скаткина. М: Просвещение, 1982.

**E-mail**: mubariz.amir@mail.ru
**Rəyçi:** *ped.elm.dok., prof.* H.H. Əhmədov
**Redaksiyaya daxil olub:** 26.11.2018

*UOT 374.*

***Arif Hacı oğlu Veyisov***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti, Qazax filialının əməkdaşı*

# EPİQRAFİK ABİDƏLƏR AZƏRBAYCANIN TARİXİ ƏRAZİSİ HAQQINDA

***Ариф Гажи оглу Вейисов***
*доктор философии по педагогике, доцент*
*сотрудник Газахского филиала Бакинского Государственного Университета*

# ЭПИГРАФИЧЕСКИЕ ПАМЯТНИКИ О ИСТОРИЧЕСКОМ ПАМЯТНИКЕ АЗЕРБАЙДЖАНА

***Arif Haji Veyisov***
*employee of Gazakh branch of Baku State University*

# EPIGRAPHICAL MONUMENTS, ABOUT HISTORICAL TERRITORY OF AZERBAIJAN

**Xülasə.** Azərbaycan ərazilərinin müəyyənləşdirilməsində epiqrafik abidələrin rolu, Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən ermənilərin Azərbaycana köçürülməsindən sonra yer adlarını planlı şəkildə dəyişdirməklə azərbaycanlıların bu torpaqlarda izlərini tamamilə itirmək məqsədi güdmələri məqalədə konkret faktlarla verilmişdir. Qarabağda, İrəvan və işğal olunmuş digər ərazilərdə ermənilərin qədim Azərbaycan-alban mədəniyyətinə məxsus xristian abidələri özününküləşdirərək özlərini Qafqazın ən qədim, sivil, köklü xalq olduqlarını sübut etməyə çalışmaları məqalədə konkret faktlara əsasən şərh olunmuşdur.
***Açar sözlər:*** *epiqrafik abidələr, Azərbaycan, Qərbi Azərbaycan, Ermənistan Respublikası, xristian abidələri, qəbiristanlıq, məscid, pir*

**Резюме**. В статье приводятся конкретные факты о том, как армяне, заселенные в Азербайджане на основании 15 статьи Туркменчайского договора, меняя намеренно, планово названия мест, территорий в этих землях, преследовали цель стереть с этих земель все следы азербайджанцев. Здесь же, опираясь на конкретные факты, изложены попытки доказательства армян, что будто бы они являются самой древней, самой цивилизованной, коренной нацией на Кавказе, за счет присвоения себе христианских памятников, принадлежащих древней Азербайджано-албанской культуре в Гарабахе Иреване и в других оккупированных территориях.
***Ключевые слова:*** *эпиграфические памятники, Азербайджан, западный Азербайджан, Армянская Республика, христианские памятники, кладбище, мечеть, пир (священное место)*

**Summary:** The role of epigraphic monuments in identification of Azerbaijani territories, according to article 15 of the Turkmenchay Treaty after relocation of armenians to Azerbaijan by changing land names in a planned way, the fact that Azerbaijanis intended to completely lose their traces on these lands is given in the article with concrete facts. The Christian monuments belonging to the ancient Azerbaijani-Albanian culture in Karabakh, Iravan and other occupied teritorries, have proven themselves as the oldest, civilized, rooted nation of the Caucasus is based on specific facts in the article.
***Key words:*** *epigraphic monuments, Azerbaijan, historical territory, Western Azerbaijan, The Republic of Armenia, Christian monuments, cemetery, mosque, pyrites*

Epiqrafik abidələr Azərbaycanın tarixi ərazisini müəyyənləşdirməkdə böyük rol oynayır. Qərbi Azərbaycan adlandırdığımız Ermənistan Respublikasının yerləşdiyi ərazi Azərbaycanın tarixi ərazisidir. Bu haqda bizə geniş məlumatı orada yerləşən azərbaycanlılara məxsus

maddi-mədəniyyət abidələri verir. Azərbaycanlıların bu ərazinin avtoxton əhalisi olmasını yüzlərlə tarixi qaynaqlar təsdiq edir.

İndiki Ermənistan respublikasının ərazisi də daxil olmaqla bütün Cənubi Qafqazdakı XIX əsrə qədərki abidələrin erməni tarixi ilə heç bir əlaqəsi yoxdur.

Erməni ideoloqları iddia edirlər ki, guya dünyanın yaranışı onların adı ilə bağlıdır. Bu iddianın tərəfdarları tarixi həqiqətlərdən daha çox rəvayətlərə üstünlük verirlər. Ermənilərlə bağlı yazılan həqiqətlər isə başqa şey deyir. Tarixçi Tatsit yazır: "Xəzərsahili xalqlar hunlar, albanlar, kadusilər və başqalarının aralarında erməni adına rast gəlmədim"[1], rus tarixçisi Dyakonov yazır: "Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb"[2], erməni tarixçisi Pastermasyan isə yazır: "Ermənilər e.ə. VII-VI əsrlərdə Qərbdən Şərqə gəlmişlər"[3] və sair. E.ə. V əsrdə yaşamış qədim yunan müəllifi, tarix elminin atası hesab edilən Heredot, Frakiya tayfalarından olan ermənilərin əcdadlarının Balkan yarımadasından köçüb gələrək Şərqi Anadoluda məskunlaşması barədə kifayət qədər dəqiq məlumat vermişdir.[4] Bunu bir sıra erməni müəllifləri də etiraf edirlər. Frakiya tayfalarından olan hind-avropa mənşəli ermənilərin e.ə. VII-VI əsrlərdə, Balkanlardan keçərək Kiçik Asiyaya gəlməsi faktı artıq elm aləmində qəbul edilmişdir. "Erməni" terminine ilk dəfə olaraq Əhəməni şahı Daranın Bisutun qayasındakı yazılarda rast gəlinir. Tarixçilər bu yazıların e.ə. 515-ci ilə aid olduğunu güman edirlər.[5]

Ermənilər indiki Ermənistan ərazisini özlərinin tarixi ana vətəni hesab edirlər. Halbuki, bəzi istisnalar nəzərə alınmazsa ermənilərin Cənubi Qafqaza XIX əsrin birinci yarısından etibarən kütləvi şəkildə köçürülmələri faktı hamıya məlumdur. Bu köçürülmə hadisələrini əks etdirən tarixi sənədlər arxivlərdə bu günə qədər qorunub saxlanılır. Burada Rusiya ilə İran arasında 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin 15-ci maddəsini, ermənilərin Azərbaycana köçürülməsinin əsas təşkilatçılarından olan, o zaman İranda rus səfiri, tanınmış yazıçı Qriboyedovun tərtib etdiyi sənədləri yada salmaq kifayətdir. Təkcə 1828-30-cu illərdə Azərbaycanın Yelizavetpol və İrəvan quberniyalarının ərazisinə İrandan 40 mindən artıq, Türkiyədən isə 84 min kibitka (yəni araba) erməni köçürülmüşdür. Qeyri-rəsmi köçənlər isə daha çox idi. Qarabağ erməniləri buraya köçüb gəlmə olduqlarını özləri də etiraf edirlər və bunu mühüm tarixi hadisə kimi qiymətləndirilər. Belə ki, Qarabağdakı Marağaşen kəndində ermənilər özləri 1978-ci ildə buraya Cənubi Azərbaycanın Marağa şəhərindən köçüb gəlmələrinin 150 illiyi şərəfinə abidə ucaltmışdılar. Lakin çox təəssüf ki, son hadisələr nəticəsində tarixi həqiqəti əks etdirən həmin abidə ermənilərin özləri tərəfindən vəhşicəsinə dağıdılmışdır.

1854-56-cı illər Krım müharibəsindən sonra çoxlu sayda erməni, şimali-şərqi Anadolunu tərk edən rus qoşunları ilə birgə, Cənubi Qafqaza gəlmişdir.

Ermənilərin Zaqafqaziyaya sonrakı axınları 1877-1878-ci illərin rus-türk müharibəsi və 1893-1894-cü illərdə Türkiyədə baş verən hadisələrdən sonraya təsadüf edir. 1877-1878-ci illər rus-türk müharibəsi zamanı Cənubi Qafqaza 50 min erməni, 40 min yunan köçürülüb gətirilmişdir. Bununla yanaşı Ter-Qukasov da 35 min erməni ailəsinə ayrıca Türkiyədən Ağrıdağ vadisinə köçürülmüşdür.[6] Şübhəsiz, bu axın Qarabağda əhalinin dini və etnik tərkibinin dəyişməsinə də öz təsirini göstərdi.

XIX əsrdə Rusiyada əhalinin siyahıya alma sənədləri, o zaman tərtib olunan rus hərbi topoqrafik xəritələr, bu xəritələrdəki yaşayış yerlərinin adları, həmin ərazidə yaşayanların əsasən azərbaycanlılardan ibarət olduğunu göstərir. O zaman erməniləri Azərbaycan ərazisinə yerləşdirərkən yerli əhalini aldadaraq deyirdilər ki, onlar buraya qaçqın kimi müvəqqəti yerləşdirilir. İrandakı rus səfiri Aleksandr Qriboyedov yazırdı: "Müsəlmanlar ehtiyat edirlər ki, onların bir dəfə buraxdıqları torpaqlara ermənilər həmişəlik yiyələnsinlər".[7] Bu, belə də oldu. Azərbaycan torpaqlarına sığınan ermənilər az sonra bu torpaqların sahibləri ilə özlərini düşmən kimi aparırdılar ki, İ. Çavçavadze haqlı olaraq Gürcüstanda məskunlaşmış ermənilərə müraciət edərək yazırdı: "Bizim evimizdə, bizimlə düşmən kimi rəftar etməyin".[8]

Şavrov yazırdı: "Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyildir. Onları bura biz köçürüb gətirmişik".[9]

Eyni zamanda, sistemli şəkildə azərbaycanlıların bu ərazilərdən sıxışdırılıb çıxarılması

baş verirdi. V. Veliçko yazırdı: "Zaqafqaziyanın müsəlman əyalətlərində azərbaycanlıların Türkiyə və İrana köçürülməsi haqqında söhbətlər səngimir. Tadricən köçürülmə baş verir, bu işdə erməni intriqası öz işini görür. Sistemli surətdə rusların vasitəsi ilə müsəlman əhalisi öz yerlərindən didərgin salınır və onların yerini gəlmə ermənilər tutur".[10]

Məhz bu yolla Rus imperiyasının müsəlman əyalətlərində ermənilərin say çoxluğu təmin olunur. Ümumiyyətlə, ermənilər Azərbaycan torpaqlarına, o cümlədən, Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisinə son 200 il ərzində köçüb gəlmələri faktını inkar edərək bu ərazilərdəki qədim abidələrin məhz onlara məxsus olmalarını heç bir əsas olmadan iddia edirlər. Köçüb gələn ermənilər bu ərazidəki qədim Azərbaycan-alban mədəniyyətinə məxsus xristian məbədlərini özününküləşdirərək, alban mədəni irsinə sahib çıxaraq, özlərinin Qafqazda ən qədim, sivil, köklü xalq olduqlarını sübut etməyə çalışırlar, bir çox abidələri isə tamamilə məhv etmişlər.

Hələ Roma işğalları dövründən qalmış, romalılara məxsus məbədi qədim erməni məbədi kimi təqdim edən ermənilər özlərini bu yerlərin köklü sakinləri kimi tanıtmağa çalışırlar. Eçmiədzin muzeyində "Nuh peyğəmbərin gəmisinin bir parçası"nı nümayiş etdirən, Nuhun özünün də erməni olmasını iddia edən, XIX əsrə aid ərəb əlifbası ilə yazılmış qəbirüstü yazıları soldan sağa qədim erməni dilində "oxuyan", özgə mədəniyyətinə və torpaqlarına yiyələnən ermənilərin saxtakarlıqlarının siyahısı cildlərlə kitablarda toplana bilər.

Ayvazyanın Zəngəzurun Zeyvə kəndində aşkar etdiyi ərəb əlifbası ilə yazılmış XIX əsrə aid bir başdaşının ərəbcə yazısını soldan sağa oxuyub e.ə. XIX əsr qədim erməni yazısına aid etməsi olmuşdur. Ayvazyan iddia edirdi ki, bütün dünya əlifbaları bu qədim erməni əlifbasından yaranıb. S. Ayvazyanın bu əfsanəvi nəticələrini tarixçi alim, akademik V.V. Piotrovski ifşa edərək, göstərirdi ki, "bu cür üzdəniraq, savadsız "nəzəriyyələr" erməni tarix elminə böyük zərbə vura bilər".[11]

Ermənilərin yaydığı məlumatda sadalanan Azərbaycanın yer adlarının bir çoxu təhrif edilərək erməniləşdirildiyindən burada konkret olaraq hansı ərazidəki abidədən bəhs edildiyini dəqiqləşdirmək mümkün deyil. Məlumatlarda həm də "erməni" abidələrinin əsasən sovet dövründə dağıldığı göstərilir. Bu məlumatlarda adları çəkilən xristian abidələrinin heç biri qədim erməni abidəsi deyil və onlar XIX əsrin II yarısı, XX əsrin əvvəllərində erməniləşdirilmişdir. Bu abidələrin heç biri azərbaycanlılar tərəfindən məqsədyönlü şəkildə dağıdılmamışdır. Əksinə, Azərbaycan Respublikası ərazisindəki abidələr, o cümlədən, xristian abidələri qorunur və bərpa edilir. Qax rayonundakı xristian kilsələri vaxtı-vaxtında təmir və bərpa edilir. Şəki rayonunun Kiş kəndindəki qədim alban kilsəsi Azərbaycan və Norveç mütəxəssislərinin birgə iştirakı ilə tədqiq və bərpa edilmişdir. XIX əsrdə Azərbaycana köçürülən ermənilər və ruslar tərəfindən inşa edilən kilsələr də dövlət tərəfindən qorunur.

Erməni nümayəndələrinin yaydıqları məlumatda göstərilən Culfa (Cuqa) erməni qəbiristanlığı isə heç də onların iddia etdikləri kimi orta əsrlərə aid deyildir, onlar dağıdılmayıb və Culfa heç bir zaman erməni şəhəri olmayıb. Orta əsrlər dövründə Culfa Azərbaycanın beynəlxalq əhəmiyyəti böyük olan ticarət mərkəzlərindən biri olmuşdur. Şərq ölkələrini Qərbi Avropa ilə birləşdirən Böyük İpək yolunun bir qolu məhz Culfa şəhərindən keçmişdir. Buradakı ticarətdə erməni tacirləri fəal iştirak etmiş, onların burada ticarət koloniyaları mövcud olmuşdur. Eyni sözləri bir sıra Yaxın Şərq ölkələrindən, Qenuya, Amsterdam, Venesiya kimi Qərbi Avropa şəhərlərindən gəlmiş tacirlər haqqında da söyləmək mümkündür. Culfadakı erməni qəbiristanlığı isə əsasən XIX əsrin II yarısında, ermənilərin Naxçıvan bölgəsinə kütləvi şəkildə köçürülməsindən sonra salınmışdır.

Başqa bir məqama da diqqət yetirmək lazımdır ki, Sovet dövründə xristian abidələrindən daha çox islam dini abidələri dağıntılara məruz qalmışdır. O dövrdə ermənilər mühüm rəhbər vəzifələri icra edirdilər. Məhz sovet dövləti sayəsində ermənilər Azərbaycan torpağında Ermənistan Respublikası yaratdılar və 70 il ərzində bu ərazidəki islam abidələrini sistemli şəkildə məhv etməklə məşğul olmuşlar. Hazırda Ermənistan adlandırılan ərazidə azərbaycanlılara məxsus yüzlərlə məsciddən və qəbiristanlıqlardan əsər-əlamət qalmamışdır. Ermənistanda bu gün yalnız bir məscid fəaliyyət göstərir. İrəvan

şəhərindəki bu məscid "fars məscidi" adı ilə İran vətəndaşlarının ixtiyarına verilmişdir.

Son iki yüz ildə ermənilər Cənubi Qafqazın azərbaycanlılara məxsus abidələrinin məqsədyönlü şəkildə məhv edilməsi ilə məşğul olmuşlar. Bu məsələ ilə əlaqədar bəzi faktlara nəzər salmaq kifayətdir. 1914-cü ildə Tiflis-Kutaisi quberniya məclisi müsəlmanlara məxsus qəbristanlığın ermənilər tərəfindən dağıdılmasının qarşısını almaq xahişi ilə qubernatora müraciət etmişdir. İndiki Ermənistanın Mehri rayonunun Nüvədi kəndindəki qəbiristanlıq, Sisyan rayonundakı XV-XVIII əsrlərə aid Urud (indiki Oront) kəndindəki qəbristanlıq, Şəki kəndindəki (Zəngəzur) XVI əsrə aid qəbiristanlıq, Mehri rayonundakı XVI əsrə aid Baba Hacı piri türbəsi, Ələyəz kəndindəki XVI əsrə aid Əxi zaviyəsi son illər ərzində ermənilər tərəfindən yer üzündən silinmiş abidələrdəndir.

Zəngəzurun Urud (Oront) kəndində 1961-ci ildə M.S. Nemət tərəfindən orta əsr qəbiristanlığında çox maraqlı abidələr aşkarlanmışdı. Bunlar sənduqə və qoç heykəlli qəbir daşları idi. Onların ikisinin üzərində "min evladi avğvan" sözləri həkk olunmuşdu, yəni "alban nəslindən". Bu abidələrin üzərində qədim türk tayfalarına məxsus tamqalar, onqonlar (tanrılar) həkk olunmuşdu. İndiyə kimi elmi ədəbiyyatda belə bir fikir hökm sürürdü ki, xristian olan alban tayfaları islam gəldikcə gürcüləşdilər və erməniləşdilər. Urud abidələri albanların hələ islamdan qabaq türkləşməsi və azərbaycanlılaşması prosesini göstərir. Bu nadir tapıntı erməni ədəbiyyatında artıq formalaşan türk elementinin Qafqaza gəlmə olduğu konsepsiyasını alt-üst edirdi və azərbaycanlıların Qafqazın avtoxton əhalisi olduğunu sübuta yetirirdi. Buna cavab olaraq ermənilər bu orta əsr nekropolunu məhv etdilər və onun ardınca 1988-ci ildə bütün azərbaycanlıları bu ərazilərdən didərgin saldılar. Dağıda bilmədiklərini erməniləşdirdilər.

Zəngəzurun Cəfərabad (Arqavanq) kəndində Qaraqoyunnlu dövrünə aid bir türbə var. Türbənin üzərində 22 metrlik kitabə var. Ermənilər türbənin bünövrəsində qazıntı apararaq belə bir nəticəyə gəlirlər ki, türbə erməni ustaları tərəfindən inşa olunub və erməni maddi-mədəniyyət abidələrinə aiddir. Ermənilər Qaraqoyunlu dövlətini İran dövləti, Qaraqoyunlu əmirlərini türkmən (müasir türkmənlər nəzərdə tutulur) adlandırırlar.

Qaraqoyunlu əmirlərini müasir türkmənlərlə eyniləşdirmək qeyri-elmi və cəfəng bir fikirdir. Qaraqoyunlu əmirləri XIII əsrdə Anadoluda yaşayan yarım köçəri türkmən oğuz-türk tayfa birləşmələrinə məxsus idilər. Onların mərkəzi vilayəti Van gölünün şimalında yerləşən Ardjiş şəhəri idi. Qeyd olunan yerdə bir neçə türbə binası və azərbaycanlılara məxsus böyük qəbiristanlıq olmuşdur. Hamısı dağıdılıb.

Erməni təcavüzünə məruz qalmış istər İslam, istərsə də Alban irsinə dair tarixi-dini abidələrdən İrəvandakı "Şah Abbas" məscidi, Şuşadakı "Yuxarı Gövhər Ağa", "Aşağı Gövhər", "Saatlı məscidi", Ağdamdakı "Cümə məscidi" dağıdılaraq təhqir olunub.

Dinşünaslarımızın qeyd etdiyinə görə, ilahi dinlərin hər birində məbəd dağıtmaq böyük günah hesab edilir. Lakin görünən odur ki, ermənilər Tanrı məbədlərini dağıtmaqla xristian ehkamlarını da pozmaqdan çəkinmirlər. İncildə bu barədə deyilir: "Kim Allahın məbədini məhv edirsə, Allah onu məhv edəcək, çünki Allahın məbədi müqəddəsdir..."[12]

Eyni zamanda, Qurani-Kərimdə də buyurulur: "Allahın məscidlərində Onun (Allahın) adının çəkilməsinə maneçilik törədənlərdən və onların xarab edilməsinə (dağıdılmasına) çalışanlardan daha zalım kim ola bilər? Halbuki onlar oraya (məscidə) ancaq qorxa-qorxa girməli idilər. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük əzab gözləyir".[13]

Azərbaycanlıların bu regionda köklü xalq olduğunu toponimlər - yer adları bir daha sübut edir. Toponimlər konkret etnosun müəyyən coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər əraziləri azərbaycanlılardan təmizlədikcə, ilk növbədə, yer adlarını dəyişdirirlər. Demək olar ki, bütün toponimlər erməniləşdirilib. Adını çəkdiyimiz Urud - Oront, Cəfərabad - Arqavanq, Zeyvə - Metsamor, Almalı - Xndzorek və s. adlandırılıb. Bu da azərbaycanlıların bu torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədini güdür.

İrəvan məscidlərinin İrəvan quberniyasının müxtəlif yerlərində vəqf əmlakları yerləşirdi. Bu, əsasən, torpaq sahələri, dükanlar idi. Sənədlərdən göründüyü kimi, vəqf əmlaklarının sərhəd olduğu torpaqlar azərbaycanlılara məx-

sus idi. Sənədlərdə bir dənə də olsun erməni adına rast gəlinmir. Bu da, öz növbəsində, regionun əhalisinin böyük əksəriyyətinin azərbaycanlılar olduğunu sübut edir. Bütün bu elmi dəlillər Ermənistan Respublikasının hal-hazırda yerləşdiyi ərazinin Azərbaycanın tarixi ərazisi olduğunu sübuta yetirir.

Qarabağda yerləşən abidələr də ermənilər tərəfindən kütləvi surətdə dağıdılır və erməniləşdirilir. Ermənilər çalışırlar ki, bu yolla öz təcavüzkar siyasətlərinə haqq qazandırsınlar. Eyni zamanda, dünya ictimaiyyətinin nəzərini başqa istiqamətə yönəltmək məqsədi ilə Naxçıvanda erməni qəbiristanlıqlarını dağıtmaq haqqında cəfəng məlumatlar yayırlar.

Dağlıq Qarabağ ərazisində yerləşən alban-xristian abidələri ermənilər tərəfindən mənimsənilir və erməni mədəniyyət abidələri elan edilir. Bu abidələr haqqında erməni, rus və Avropa dillərində "əsərlər" çap olunur.[14] Lakin qeyd olunan ərazidə, həm Dağlıq Qarabağ ərazisində, həm də ona sərhəd və ermənilər tərəfindən hal-hazırda işğal olunmuş zonada, külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikililər, orta əsr qəbiristanlıqları, məscidlər və s. müsəlman abidələri yaxın zamanlara qədər mövcud idi. 30 ildir ki, biz bu ərazilərə nəzarət edə bilmirik və bu abidələrin indiki vəziyyətindən xəbərimiz yoxdur.

Bu ərazilərdə XIV-XIX əsrlərə aid sənduqə, başdaşı formalı, qoç, at heykəlli qəbir daşları ərəb-fars-Azərbaycan dilli yazılarla və müxtəlif relyeflərlə Azərbaycan xalqının həyat, məişətinin müxtəlif tərəflərini əks etdirir, xalqın tarixinə, toponimikasına, xalq təbabətinə, etnoqenez məsələlərinə aydınlıq gətirir, Azərbaycanın orta əsr mədəni həyatına dair bir sıra məsələləri işıqlandırır.

Laçın rayonunun Malıbəyli, Güləbird kəndlərində at heykəlli qəbir daşlarında günəş simvolunun və əlində quş tutmuş insanın təsvirləri var. Məlumdur ki, qədim türk tayfalarının tanrısı Humay quşu idi və bunun abidələrin üzərində təsvir olunması, güman ki, abidələri dağılmaqdan qoruma məqsədi daşıyırdı. Epiqrafik abidələr Qarabağda gedən tikinti işlərindən, Elxanilər dövrü və Qarabağ xanlarının mədəni-maarif fəaliyyətindən xəbər verir.

1988-1994-cü illərdə baş vermiş müharibə dövründə Azərbaycana aid 500 tarixi-memarlıq, 100-dən çox arxeoloji abidə, minlərlə əsərin qorunduğu 22 muzey, 927 kitabxana, 85 incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı ermənilər tərəfindən dağıdılıb.[15]

Erməni vandalizminin törətdiyi dağıntıların siyahısını artırmaq da mümkündür. Lakin çox təəssüf ki, ermənilərin xalqımıza, onun tarixi keçmişinə qarşı törətdikləri vəhşilikləri dünya ictimaiyyətinə çatdırmaq üçün geniş imkanlara malik deyilik.

Ermənistan dövlətinin Azərbaycanın tarixi ərazilərində yerləşdiyi və ermənilərin son 200 ildə Azərbaycan xalqına qarşı mənəvi qenosidi haqqında dünya ictimaiyyətinə geniş məlumat verilməlidir. Nə qədər ki, Azərbaycan torpaqları işğal altındadır, bu mənəvi qenosid davam edəcək.

**Problemin aktuallığı.** Azərbaycanın tarixi ərazisinin müəyyənləşdirilməsində epiqrafik abidələrin mühüm əhəmiyyəti vardı. Ermənilərin qədim Azərbaycan-alban mədəniyyətinə məxsus xristian məbədlərini özününküləşdirərək, alban mədəni irsinə sahib çıxaraq özlərini Qafqazın ən qədim, sivil, köklü xalq olduğunu sübut etməyə çalışmaları və bir çox abidələri şüurlu şəkildə məhv etmələri problem baxımından aktuallıq təşkil edir.

**Problemin elmi yeniliyi.** Məqalədə, ilk dəfə olaraq, epiqrafiq abidələr vasitəsilə Azərbaycanın tarixi əraziləri müəyyənləşdirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə Azərbaycanın tarixi əraziləri epiqrafiq abidələr və toponimlər vasitəsilə araşdırılmış, onun şagirdlərə öyrədilməsi yolları müəyyən edilmişdir.

## Ədəbiyyat:


1. Тацит Корнелий. Сочинения. Т.2, СПБ, 1987.
2. Дьяконов М.М. Предыстория армянского народа. Ереван, 1968.
3. Пастермасян С.С. Западная Армения в конце XIX века. М., 1949.
4. Геродот. История. Ленинград, 1972, стр: 113
5. Seyidova S., R. Uslu. Osmanlı imperiyasında milli münasibətlər-erməni məsələsi (XIX əsrin II yarısı- XX əsrin I rübü), Bakı, 2002
6. Кавказский календарь на 1903 г. Тифлис, 1903.
7. Грибоедов А.С. Сочинения в двух томах. Т-2. М., 1971.

8. Чавчавадзе И. Армянские учёние и вопиющие камни. Тифлис, 1902.
9. Шавров Н.М. Новая угроза русскому делу в Закавказье; предстояшая распродажа Мугана инородцам. Санкт-Петебург, 1911.
10. Величко В. Гафгаз. Санкт- Петербург, 1904.
11. Историка-филологический журнал. Издательство Армянский А.Н. Ереван, 1971.
12. İncil, Korinflilərə I məktub, 3/17, səh: 5
13. Qurani-Kərim, Bəqərə, 114, səh: 5
14. Карапетян С. Памятники армянской культуры в зоне Нагорного Карабаха. Ереван, 2000.
15. "Azadlıq" qəzeti, 15 yanvar 1994-cü il
16. Neymətova M.S. Əsrlərin daş yaddaşı, Bakı, 1987.
17. Neymətova M.S. Azərbaycanın epiqrafik abidələri. Bakı, 1963.
18. Səfərov F. Epiqrafika, Naxçıvan, 2005.

**E-mail:** veyisof.arif@bk.ru
**Rəyçi:** *ped.ü.elm. dok.* İ.H. Cəbrayılov
**Redaksiyaya daxil olub:** 17.12.2018.

*UOT 378.*

***Sevda Nəsib qızı Məmmədova***
*Gəncə Dövlət Universitetinin müəllimi*

# AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİNİN DİDAKTİK VƏ PSİXOLOJİ ƏSASLARINA DAİR

***Севда Насиб гызы Мамедова***
*преподаватель Гянджинского Государственного Университета*

# ДИДАКТИЧЕСКИЕ ОСНОВЫ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНЫХ РАБОТ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ВЫСШИХ ШКОЛАХ

***Sevda Nasib Memedova***
*teacher of Ganja State University*

# DIDACTIC AND PSYCHOLOGICAL BASES OF ORGANIZATION OF STUDENTS' INDIVIDUAL WORKS IN TEACHING AZERBAIJAN HISTORY

**Xülasə.** Məqalədə ali təhsilin bakalavriat pilləsində tələbələrin müstəqil işlərinin təşkilində didaktik və psixoloji amillərin nəzərə alınması məsələləri şərh edilib. Məqalədə ali məktəblərdə müstəqil işlərin səmərəli təşkilinin kadr hazırlığında müstəsna əhəmiyyəti faktlarla əsalandırılıb. Belə ki, Vətən tarixinin tədrisində tələbələrin müstəqil işlərinin psixoloji və didaktik əsasları müəyyənləşdirilərək ümumiləşdirilib.

***Açar sözlər:*** *Azərbaycan tarixi, didaktik əsas, psixoloji əsas, tələbə, müstəqil işlər, təlimin keyfiyyəti*

**Резюме.** В статье комментируются вопросы учета дидактических и психологических факторов в организации самостоятельных работ студентов. На основе фактов были обоснованы исключительная важность в подготовке кадров эффективной организации самостоятельных работ в Высших школах. Также были обобщены психологические и дидактические основы самостоятельных работ студентов при обучении родной истории.

***Ключевые слова:*** *история Азербайджана, дидактические основы, психологические основы, студент, самостоятельные работы, качество обучения*

**Summary.** The article also explains that didactic and psychological factors should be taken into account in organization of students' individual works in bachelor's degree of higher education. In the article, particular importance of individual works in human resource training has been explained by the facts. Thus, psychological and didactic bases of students' individual works in teaching Motherland history has been identified and summarized.

***Key words:*** *history of Azerbaijan, didactic basics, psychological foundations, student, independent work, training quality*

Müxtəlif yaş dövrlərini keçirən insan övladı yaşa dolduqca müxtəlif xarakterli ehtiyacları özünə lazım olanları əldə etmək üçün onu müstəqilliyə təhrik edir. Beləliklə, uşaq təkbaşına yemək, geyinmək istəyir. Həyatımızın mənəvi qanunauyğunluğu təqlidetmə uşağa böyüklər kimi hərəkət etməyi öyrədir. Bu dövrdə uşaqlarda müstəqilliyin ilk qığılcımları görünməyə başlayır. Təbiət və cəmiyyətdəki hadisə və proseslərə fəal münasibət bəsləyən uşaqlar qısa zaman kəsiyində çox şey öyrənirlər. Müşahidələrimizdən aydın görünür ki, müstəqilliyin psixoloji əsaslarının bir komponentini də heyrətdə, həyəcanda, gözəl görünən hər şeyin mahiyyətini mənimsəməyə meyil və maraqda, uşaqların həyati fəallığında axtarmaq lazımdır. Deməli, nəticə

olaraq deyə bilərik ki, müstəqilliyin əsas göstəricisi fəallıqdır. İdraki fəallıq, zehni fəallıq olmadan müstəqilliyi təmini çətindir. Uşaqlarda hələ erkən yaşlarda müstəqilliyin müəyyən komponentləri mərhələ-mərhələ yaradılmalıdır. Məhz belə olduqda ali məktəbə daxil olan gənclərə onlar üçün yad olan seminar məşğələlərinə müstəqil olaraq hazırlaşmaq çətin olmur. Əks təqdirdə bu prosesi tələbələr çox çətinliklə adlayırlar.

Tələbələrin müstəqil işlərinin səmərəliliyinin təmin edilməsində mühüm məsələlərdən biri təlim-tərbiyə işinin təşkilində psixoloji amillərin nəzərə alınmasıdır. Tələbələrdə müstəqil işləri yerinə yetirməyə hazırlıqda iradənin xüsusi rolu var. Aydın məsələdir ki, tələbə şəxsiyyətinin əqidəsini də müəyyən edən məhz iradədir. Bu baxımdan dahi rus mütəfəkkiri V.Q. Belinski yazırdı ki, düha iradə deməkdir. İradə olmadan çətinliklərə qalib gəlmək olmaz.

Müəllimin pedaqoji ustalığını müəyyən edən amillərdən biri də tələbələrdə elmi bilik və təlim bacarıqlarına yiyələnməyin vacibliyidir. Usta ali məktəb müəllimi tələbələrini zehni və praktik-əməli xarakterli müstəqil işlərə hazırlayarkən aşağıdakıları nəzərə almalıdır:

1) Tələbələrdə fikri və əməli fəallıq yaratmalıdır;

2) Ehtiyac və tələbatların təmin edilməsi üçün çox böyük həvəs və şövqlə həmin ehtiyac və tələbatların ödənilməsini təmin etməlidir;

3) Təlim çətinliklərinin aradan qaldırılması üçün təşəbbüskarlıq və çəldlik nümayiş etdirmək qabiliyyətlərinin formalaşdırılmasına nail olmalıdır;

4) Tələbələrdə təlim prosesində təlimin məzmununa aid hadisə və proseslərin mahiyyətini dərk etməyə və onu mənimsəməyə həvəs və maraq yaratmalıdır.

Psixoloji müşahidələr aşağıdakı amillərin müəyyənləşdirilməsi ilə başa çatdı: 1) ali təhsilin bakalavriat pilləsini müvəffəqiyyətlə başa çatdırmaq; 2) tələbələrin az qismi ali təhsilin magistratura pilləsinə qəbul olmaq arzusunda olmalarını bildirirdilər; 3) müstəqil əmək həyatına hazırlıq; 4) orduda xidmət; 5) karyera pillələrinə can atmaq; 6) ailə həyatı qurmaq və s. Tanınmış psixoloq İ.S. Konun təbirincə desək, sadalanan hadisələr sırasında ən önəmlisi insanın əmək fəaliyyətinə başlamasıdır. Ali məktəb tələbələrinin həyata hazırlanmasında professor və müəllim heyəti tərəfindən verilən (müstəqil iş məqsədi ilə) tapşırıqların layiqli şəkildə yerinə yetirilməsi, ali təhsil müəssisəsinin ictimai həyatında fəal iştirak etməsi tələbələrin həyata hazırlanmasına motiv yaradır.

Sual olunur: Ali məktəb tələbələrinin Azərbaycan tarixinin təliminə münasibəti necədir? Tələbələrin təlim fəaliyyətinin psixoloji xarakteristikasının səviyyəsi necədir?

Müasir dövrdə ümumtəhsil məktəblərinin şagirdləri seçdikləri ixtisas fənlərinin öyrənilməsini xüsusiləşdirdikləri halda, ali məktəb tələbələri tədris olunan bütün fənlərə eyni münasibət bəsləyirlər. Bununla da təlimə münasibət köklü surətdə dəyişir. Bilik və bacarığa tələbat ali məktəb tələbəsinin ən səciyyəvi cəhətidir.

Ali məktəb tələbələrinin idraki maraqları geniş, dəyişməz və praktik xarakter daşıyır. Tələbələrin maraqlarının genişliyi onların fəlsəfi-etik problemlərə – maraqlarını artırır.

Tələbələrdə qavrayışın xüsusiyyətləri genişliyi ilə fərqlənir. Onlarda seçicilik, mənalılıq, müşahidə, ixtiyari diqqət, cisim və hadisələri sistemləşdirmə bacarığı formalaşır. Diqqətini bir neçə iş arasında bölüşdürmə, hər bir müstəqil işi yerinə yetirərək diqqətli olmaq hissi formalaşır.

Tələbələrdə ixtiyari hafizə çoxaldıqca, qeyri-ixtiyari hafizənin çəkisi azalır. Müstəqil işlərin yerinə yetirilməsində anlaşmanın, dərketmənin, analizin, sintezin həcmi çoxalır və genişlənir. Tələbələr plan, sxem tərtib etmək, konspekt hazırlamaq, seminara hazırlaşmaq, mühazirədən əsas fikirləri çıxarmaq və s. hafizələrinin hesabına sahib olurlar.

Tələbələrdə təfəkkürün inkişafına motiv yaradan amillərdən biri də onların müxtəlif fənlərin öyrənilməsi prosesində həmin fənlərin oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsidir. Bu baxımdan tanınmış Azərbaycan psixoloqu Ə.S.Bayramov qeyd edir ki, tələbələr öyrəndikləri fənlərin müxtəlif cəhətlərini bir-biri ilə əlaqələndirdiyi prosesdə onlarda biliklər müəyyən sistem halına düşür, faktlar, tarixlər, anlayışlar, təsəvvürlər, məfhumlar tələbələr tərəfindən daha dərindən başa düşülür.

Respublikamızın tanınmış psixoloqları tələbələrin müstəqil işlərinin təşkili prosesində təfəkkürün inkişafı məsələlərinə aydınlıq gətirərək yazırlar: “Təfəkkürün inkişafında tələbələr arasında nəzərə çarpan fərdi fərqlər təlim prose-

sində onların bu və ya digər fəndən müvəffəqiyyətinə də xeyli təsir göstərir. Lakin bu bəzən təlim-tərbiyənin düzgün təşkil edilməsindən də irəli gələ bilər" (1, s. 93).

Tələbələrin müstəqil işlərinin psixoloji əsaslarının öyrənilməsi üçün şəxsiyyətin psixoloji xarakteristikası, şəxsiyyətlərarası münasibətlərin psixologiyası, şəxsiyyətin fəaliyyətinin ümumi xarakteristikası, diqqət, nitq və ünsiyyət məsələlərinə aydınlıq gətirmək zərurəti yaranırdı. Tələbələrin müstəqil işlərinin təşkili şəxsiyyətin idrak proseslərinin inkişafından asılıdır. Əlbəttə, burada duyğular, qavrayış, hafizə, təfəkkür və təxəyyülün inkişafından yan keçə bilmərik.

Məlum olduğu kimi, ətraf aləmin zənginliklərini duyğularımız vasitəsi ilə əldə edirik. Hiss üzvlərinin köməyi ilə insan orqanizmi xarici və daxili mühitin vəziyyəti haqqında duyğular şəklində müxtəlif məlumatlar əldə edir. Bu baxımdan prof. A.V.Petrovski yazır: "Duyğular maddi qıcıqlandırıcıların müvafiq reseptorlara bilavasitə təsiri nəticəsində maddi aləmin cisim və hadisələrinin ayrı-ayrı xassələrinin, eləcə də orqanizmin daxili vəziyyətinin əks olunmasından ibarət ən sadə psixi prosesdir" (2 s. 241).

Müstəqil işlərin təşkilində hafizənin rolu da kifayət qədərdir. Psixoloji ədəbiyyatda hafizəyə belə tərif verilir: "Fərdin öz təcrübəsini yadda saxlamasına, hifz etməsinə və sonradan yada salmasına hafizə deyilir. Hafizənin əyani-obrazlı, sözlü-mücərrəd və aralıq hafizə formaları var".

Məlum olduğu kimi, tələbələrin müstəqil işləri nəticə etibarı ilə ən önəmli psixi prosesdir. Belə ki, təfəkkür – yeni, mühüm əlamət, xassə qanunauyğunluqlarının axtarılmasına və kəşf edilməsinə yönəldilmiş, sosial cəhətdən şərtlənmiş, nitq ilə ayrılmaz surətdə bağlı psixi prosesdir, gerçəkliyin təhlil və tərkibi gedişində onun vasitəli və ümumiləşmiş inikası prosesidir.

Tələbələrin müstəqil işlərinin səmərəli təşkili təxəyyülün vasitəsi ilə sona yetir. Təxəyyül yaradıcı fəaliyyətin zəruri elementidir.

İ.S. Kon "Yuxarı sinif şagirdlərinin psixologiyası" (3) kitabında yeniyetmələrdə dünyagörüşünün formalaşması, şəxsiyyət kimi inkişafı, onların ictimai fəallıqlarının yüksəldilməsi, emosional və estetik zövqlərinin inkişafı məsələlərinə aydınlıq gətirib.

Prof. Ə.Ə. Əlizadənin "Yeni pedaqoji təfəkkür" adlı kitabı xüsusilə əhəmiyyətlidir. Professor təhsildəki yeni pedaqoji-psixoloji təfəkkürün təfərrüatlarını şərh edərək yazırdı: "Bir cəhət şəksizdir: ənənəvi didaktik sistemin imkanları öz-özünə tükənib və bu sistem elmi-texniki tərəqqi dövrünün böyük tələbləri ilə səsləşmir. Onun alternativi kimi müasir təhsil konsepsiyası və ya yeni pedaqoji təfəkkür adlanan önəmli pedaqoji sistem formalaşıb. Yeni pedaqoji təfəkkür qabaqcıl müəllimlərin təcrübəsində məktəb həyatına sürətlə nüfuz edir. Bu sistem iki əsrin, XX və XXI yüzilliklərin qovşağında psixopedaqoji fikrin əzəmətli təntənəsi sayılır. Müasir təhsilin bu günkü uğurları və işıqlı sabahı ancaq (və ancaq) yeni pedaqoji təfəkkürün nailiyyətləri ilə şərtlənir və şərtlənəcəkdir" (4).

İnkişafın psixologiyası və pedaqogikası məsələlərinə aydınlıq gətirən Ə.Ə.Əlizadə yazırdı ki, insanın yaşı artdıqca psixi funksiyalar (qavrayış, hafizə, təfəkkür, təxəyyül, iradə, hisslər və s.) geteroxron və kumilyativ, diferensiasiya və inteqrasiya ölçüləri ilə inkişaf edir, şəxsiyyətin formalaşması ilə psixi həyat yeni məziyyətlər kəsb edir.

A.A. Məmmədovun "Təlimin psixoloji əsasları" (5, s. 3) adlı kitabı təlimin psixoloji mahiyyətinə aydınlıq gətirib. Əsərdə təlim psixologiyasının bir sıra mühüm məsələlərindən təlimin psixoloji mahiyyəti, təlimlə psixi inkişaf arasında əlaqə, təlim prosesinin optimallaşdırılması yolları, texniki vasitələrin təlim prosesinə tətbiqinin psixoloji əsasları şərh edilib. Müəllim şəxsiyyətinin səciyyəvi cəhətləri izah edilib. Eləcə də psixologiya və pedaqogika elmlərinin əlaqəsindən və onların müasir nailiyyətlərindən bəhs olunur. Əsərin məzmununun zənginliyindən ali məktəb və ümumtəhsil məktəbi müəllimləri, elmi işçilər, doktorantlar və magistrantlar faydalanırlar.

Təlim psixologiyasına görə, öyrənmə prosesində subyektin təlim fəaliyyətinə şüurlu münasibət səviyyəsinə görə iki növə ayrılır: qeyri-ixtiyari və ixtiyari öyrənmə.

Öyrənmədə qeyri-ixtiyari öyrənmə tələbə öz yoldaşları ilə qəzet, jurnal, kitab oxuduqda, televizora baxdıqda, dram əsərlərinə tamaşa etdikdə, təbiətin seyrinə çıxdıqda, müxtəlif gəzintilərdə qeyri-ixtiyari olaraq müxtəlif informasiyaları mənimsəyir, müxtəlif bacarıq və vərdişlə-

rə yiyələnir. Amma burada həmin tələbə qarşısına öyrənmə tələbini qoymur.

İxtiyari öyrənmə məqsədəuyğun, planlı, mütəşəkkil olur. Tələbələr əsas bilik və bacarıqlarını həmin ixtiyari öyrənmədə əldə edirlər. Hazırki dövrdə ali məktəblərdə yeni təlim texnologiyalarından istifadə olunur. Ali məktəblərdə təcrübəli tarix müəllimləri seminar məşğələlərində motivasiyanın yaradılmasından istifadə etməklə məşğələdə öyrəniləcək mövzunun aktuallığını, onun zəruri və səciyyəvi cəhətlərini müxtəlif vasitələrlə tələbələrə çatdırırlar. Sözlərdən, sxemlərdən, şəkillərdən və digər simvollardan istifadə edirlər. Motivasiyanın yaradılması onları məqsədə çatmağa təhrik edir. Biliyə maraq, özünün intellektual və mədəni səviyyəsini yüksəltmək istəyi, bacarıqlara yiyələnmək, müstəqil iş kimi verilmiş tapşırıqları yerinə yetirməyə həvəs və s. daxili motivlərdəndir. Psixoloji ədəbiyyatlarda bu qəbildən olan motivlərə təlim situasiyaları deyilir. Bunlar məqsədəuyğun cəlbedici situasiyalar adlanır. Cəlbedici situasiyalar tələbələrin müstəqil işlərində psixoloji motiv, psixoloji əsas rolunu oynayır.

Müşahidələr göstərir ki, tələbələri fəallaşdıran hər hansı cisim, hadisə və situasiya fəaliyyətin motivi rolunda çıxış edir. Psixoloqlar fəaliyyətin belə mənbələrini üç kateqoriyaya bölürlər:

1) Tələbələrin müstəqil işlərinin təşkilində rolu olan daxili mənbələr – insan tələbatının strukturu ilə əlaqədardır. Daxili mənbələr anadangəlmə – bioloji və həyatda qazanılma – sosial səciyyə daşıyır. Qida birinci, informasiya isə ikinci fəaliyyət mənbəyi növünə misal ola bilər;

2) Xarici mənbələr insan fəaliyyətinin ictimai şərtləri ilə bağlıdır. Bunlar aşağıdakılardır: a) cəmiyyətin fərdə verdiyi tələblər; b) fərdin formalaşmasına imkan yaradan şərait; c) fərdin inkişaf göstəriciləri; ç) onların cəmiyyətdə rolu;

3) Şəxsi mənbələr – şəxsiyyətin maraqları, dünyagörüşü və s. ilə əlaqədardır.

Azərbaycan tarixi üzrə seminar və mühazirələrdə və təlimin digər təşkilat formalarında müstəqil işlər təşkil edilərkən tələbələr aşağıda sadalanan funksiyaları yerinə yetirməlidirlər:

1) verilən informasiyaları qavramalı və mənimsəməli; 2) informasiyalardan müstəqil istifadə etməli; 3) yeni təlim axtarışlarına, informasiyalara yiyələnmə və onlardan istifadə etməyə kənardan təhrik olunma.

Sadaladığımız üç funksiyaya əsasən tələbələrdə üç növ təlim fəaliyyətini müşahidə etmək olar:

Birinci halda təlim materialı tələbələrə hazır formada verilərək dinləmə ilə mənimsənilir ki, bu da yaddasaxlamaya əsaslanır;

İkinci halda tələbələr onlara verilən müxtəlif xarakterli müstəqil işlərin nəticəsində işləyərək öyrənirlər. Burada müxtəlif mənbələrdən informasiyaların axtarılması, öyrənilmiş və mənimsənilmiş biliklərin ümumiləşdirilməsi, analiz və sintez bir sözlə öyrənmənin əsasını təşkil edir.

Üçüncü hal – idrakı fəaliyyətə əsaslanan təlimdir. Bu istiqamətdən tələbələrin müstəqil işlərinin zehni fəaliyyətlə əlaqədar olan növünün tətbiqi prosesində istifadə olunur.

Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin səmərəliliyini təmin etmək üçün mənimsəmənin daxili və xarici faktorlarından istifadə edilməlidir. Mənimsəmənin daxili-psixi faktorları duyğu və qavrayışlardır. Duyğu və qavrayış müstəqil işlər təşkil edilərkən mənimsəmənin ilk mərhələsində xarici aləmin cisim və hadisələrinin ayrı-ayrı xassələrinin düzgün müəyyənləşdirilməsi, daha sonra isə müəyyən cismə və hadisəyə xas olan xüsusiyyətlərin bir tam halında beyində inikasıdır.

Tələbələrin müstəqil işləri təşkil edilərkən digər bir psixoloji əsas seminar və mühazirələrdə müəllimin pedaqoji ustalığı əsasında yerinə yetiriləcək tapşırıq və təmrinlərin icrasına tələbələrin diqqətinin cəlb edilməsidir. Yəni tələbələrə təsir edən informasiya axını içərisindən öyrənilməsi nəzərdə tutulan bilik və informasiyaları müəyyənləşdirmək, lazım olanları seçmək diqqətin birbaşa iştirakı olmadan mümkün deyil. Bu baxımdan tanınmış rus pedaqoqu yazmışdır: “Diqqət, şüurumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir” (6, s. 183).

Araşdırmalar göstərir ki, tələbələrin müstəqil işləri yerinə yetirmək baxımından təlim psixologiyasının tələbələrinin nəzərə alınması xüsusi didaktik əhəmiyyət kəsb edir. Bunlar aşağıdakılardır:

1. Bütün psixi proseslərin ahəngdar fəaliyyət göstərməsi;

2. Tələbələrin müstəqil işlərin yerinə yetirilməsinə düzgün istiqamətləndirilməsi;

3. Tələbələrin qarşılarına çıxacaq təlim maneələrini aradan qaldırma imkanlarına malik olmaları.

Digər psixoloji amillər: tələbələrə verilən müstəqil işlərin zəngin məzmuna malik olması; kifayət qədər mürəkkəb olması; maraqlı, düşündürücü və emosional olmasıdır.

Nəticə olaraq deyə bilərik ki, ali təhsilin bakalavriat pilləsində Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkili prosesində didaktikanın və təlim psixologiyasının tələblərinin nəzərə alınması təlimin keyfiyyətini yüksəldir. Eləcə də, müəllim-tələbə münasibətlərinin nizama salınmasında motiv rolunu oynayır.

**Problemin aktuallığı.** Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilinin didaktik və psixoloji əsaslarını müəyyənləşdirmək öz aktuallığına görə diqqətçəkəndir.

**Problemin yeniliyi.** Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilinin didaktik və psixoloji əsasları aydınlaşdırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə doktorant və dissertantlara öz tədqiqatlarında kömək göstərə bilər.

## Ədəbiyyat


1. Quliyev E.M., Əzimov Q.E. Əlizadə Ə.Ə. Yaş psixologiyası: Pedaqoji institut tələbələri üçün tədris vəsaiti. Bakı: APİ-nin nəşri, 1978.
2. Petrovski A.V. Ümumi psixologiya. Pedaqoji institutların tələbələri üçün dərslik. Bakı: Maarif, 1982.
3. Кон. И.С. Психология старшеклассников. M.: Просвещение, 1980.
4. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər. Bakı: Adiloğlu, 2001.
5. Məmmədov A.A. Təlimin psixoloji əsasları. Bakı: Maarif, 1993.
6. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.


E-mail: sevda.m.@mail.ru
**Rəyçi**: *ped.ü.elm.dok., prof.* M.M. Əmirov
**Redaksiyaya daxil olub:** 28.11.2018

*UOT 37.01.*

***Gülarə Ədalət qızı Ağayeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*

# AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİ PROSESİNDƏ VİZUALLAŞDIRMA METODUNDAN İSTİFADƏ

***Гюляра Адалят гызы Агаева***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# ИСПОЛЬЗОВАНИЕ МЕТОДА ВИЗУАЛИЗАЦИИ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Gulara Adalat Agayeva***
*doctoral student in the program of a Ph.D of*
*Azerbaijan Republic Education İnstitute*

# USE OF THE VISUALIZATION METHOD IN THE PROCESS OF TEACHING THE HISTORY OF AZERBAIJAN

**Xülasə.** Bu məqalədə Azərbaycan tarixi dərslərində yeni metodlar və onlardan səmərəli istifadə qaydalarından bəhs edilir. Bununla da şagirdlər tərəfindən dərsin mənimsənilməsində psixoloji gərginliyi aradan qaldırır, tədris olunan materiala canlı maraq oyadır, şagirdlərin dünyagörüşünü artırır, tarixi hadisə və proseslərə maraqların artmasına, nəzəri materialların tam dəqiqliklə mənimsənilməsinə, onlarda müxtəlif mənbələrdən informasiya əldə etmək qabiliyyətinin formalaşmasına, öz fikirlərinin yığcam və aydın formada ifadə olunmasına müsbət təsir göstərir.

***Açar sözlər***: *ümumtəhsil məktəbləri, Azərbaycan tarixinin tədrisi, əyanilik, yeni təlim metodları, keyfiyyətin yüksəldilməsi, şagird, vizuallaşdırma*

**Резюме.** Активное применение визуальных методов дает возможность развития у обучающихся важнейшего инструмента оперативного освоения действительности – возможность усваивать не совокупность готовых знаний, а овладевать методами приобретения новых знаний при стремительном увеличении объема информации в мире в целом.

***Ключевые слова:*** *общеобразовательные школы, преподавание истории Азербайджана, наглядность, новые технологии обучения, повышение эффективности, ученик, визуализация*

**Summary.** The active use of visual methods makes it possible for students to develop the most important tool for the operational development of reality - the ability to learn not a set of ready-made knowledge, but to master the methods of acquiring new knowledge while rapidly increasing the amount of information in the world as a whole

***Key words:*** *new teaching methods, visibility, improving the quality of education, teaching history of Azerbaijan, visualization*

Bu gün Azərbaycan təhsilində həyata keçirilən innovativ proseslər müəllimlərin qarşısında şagirdlərin bir şəxsiyyət kimi yetişdirilməsi vəzifəsini qoyur. Özünün milli kimliyini dərk edən və mənsub olduğu xalqın tarixi-mədəni irsini qoruyub saxlayan, gələcəkdə cəmiyyətdə tamhüquqlu bir vətəndaş olmağı bacaran şəxsiyyət yetişdirmək təhsilimizin əsas vəzifəsinə çevrilib. Eyni zamanda elm və texnikanın dayanmadan inkişafı gənc nəsildən yüksək erudisiya, rəqabətə davamlılıq, biliklərini daim yenilənmək, tədqiqat aparmaq, peşəsinə yaradıcı yanaşma bacarıqları tələb edir, gəncləri və uşaqları yeni bilik və bacarıqlara yiyələnməyə sövq edir.

Müasir dövrdə müəllimin məqsədi təlimin keyfiyyətini yüksəltməkdir, lakin buna nail olmaq üçün o, hansı metod və üsullardan istifadə etməlidir? Təcrübə göstərir ki, təlimin keyfiyyətini daim yüksəltmək və şagirdlərin dərsə olan marağını artırmaq üçün dərslərin vizuallaşdırılması böyük əhəmiyyət kəsb edir.

Tarix dərslərində vizuallaşdırmanın tətbiq edilməsi şagirdlərin böyük marağına səbəb olur. Şəxsi təcrübəmizə əsaslanaraq belə nəticəyə gəlirik ki, dərslərdə vizuallaşdırmaya geniş yer verilməsi məqsədəuyğundur.

Vizuallaşdırma təlim metodikasının sərbəst sahəsidir. Dərs zamanı şifahi material vizual mənbələrlə tamamlanır. Müəllim fotoşəkillər, film, rəsm əsərlərindən istifadə edir.

Təlim materialının vizuallaşması ilə bağlı bir çox alimlərin elmi əsərləri mövcuddur. Tarixin tədrisinə həsr olunmuş əsərlərdə, o cümlədən İ.H. Cəbrayılovun "Azərbaycan tarixinin tədrisi metodikası", M.M. Əmirovun "Tam orta məktəbdə tarixin fəal-interaktiv təlimi metodikası", M.T. Studenikinin "Tarixin tədrisi metodikası" kitablarında vizuallaşdırma məsələsindən bəhs edilir, təlim prosesində ondan istifadə yolları göstərilir. Bu sahədə multimedia vasitələrinin xüsusi əhəmiyyəti vardır. Mövzudan asılı olaraq interaktiv xəritələr, PowerPoint təqdimatlar, sənədli və bədii filmlər, interaktiv sxemlərdən istifadə etmək məqsədə müvafiqdir. Multimedia texnologiyaları dərs zamanı bədii filmlərin qısa fraqmentlərindən istifadə olunmasına imkan verir. Həmin filmlərdən həm də dərsin əvvəlində motivasiya yaratmaq, ya əlavə bir məlumat vermək, ya da materialı möhkəmləndirmək üçün istifadə etmək olar.

Təcrübə göstərir ki, 9-cu sinifdə Azərbaycan tarixinin tədrisində "Milli mətbuatın, teatrın yaranması "Ədəbiyyat və incəsənət" mövzusu üzrə nümayiş etdirilən sənədli filmə əsasən şagirdlərə sorğu vərəqəsinin təqdim olunması onların böyük marağına səbəb olur. Onu tarixi abidələr reytinqi adlandırmaq olar. Orada qoyulan sualların aşağıdakı kimi qruplaşdırılması mövzu üzrə zəruri məsələlərin dərindən mənimsənilməsinə imkanlar yaradılır:

Filmə baxış zamanı hansı abidələr daha çox yadınızda qaldı?

Filmdə əksini tapmış tarixi abidələrdən hansı birini Siz şəxsən görmüsünüz?

Hansı tarixi abidəni şəhərimizin simvolu adlandırmaq olar və nə üçün?

Hansı abidələri Siz yaxın gələcəkdə ziyarət etmək istərdiniz? Nə üçün?

Bu suallardan əlavə əlavə olaraq şagirdlərə həmin abidələri xəritə üzərində yerləşdirmək tapşırığı verilir. Eyni zamanda, şəhərlərimizin ötən illərə aid olan şəkillərini göstərərək onların müasir görkəmi ilə müqayisə edilməsi təklif olunur. Burada plakatlar, afişalar, fotoşəkillər də əyani vəsait kimi nümayiş etdirilir.

Dərsin mənimsənilmə keyfiyyətini yüksəltmək üçün İsikava diaqramından istifadə etmək daha uğurlu nəticə verir. Bu diaqram vasitəsilə bəhs edilən tarixi hadisə və prosesin səbəb və nəticəsini müəyyən etmək olur. Çox vaxt bu diaqramı "Balıq sümüyü" də adlandırırlar. Bu qrafik vasitəsilə müzakirə olunan problem və ona təsir edən səbəblər müəyyən edilir.

Balığın baş hissəsində müzakirə olunan sual, mövzu və ya problemin adı yazılır. Yuxarı sümüklərin qarşısında problemin yaranma səbəbləri göstərilir. Aşağıda yerləşən sümüklərdə faktları əks etdirən səbəblərin mövcudluğu göstərilir və ya sxemdə verilən anlayışın məğzi açılır. Quyruq hissəsində qoyulan suala cavab əksini tapmalıdır.



*İsikava diaqramı*

Dərsin gedişində şagirdlərə aşağıdakı tapşırıqlar verilir:

- Mövzuya aid təsvirlərdən kollaj düzəltmək.
- PowerPoint təqdimat hazırlamaq.

Öyrənilən materialın vizual olaraq mənimsənilməsi üçün ekskursiyalardan da istifadə edilməsi müsbət nəticə verir. Həmin ekskursiyalar dərsləri maraqlı və rəngarəng edir. Şagirdlər ekskursiya zamanı özləri də fəal iştirak edib araşdırır, topladıqları material əsasında seçim edir, əvvəlcədən hazırladıqları materialları təqdim edir və çıxışlarını videoya çəkib özlərinin iştirakı ilə film hazırlayırlar.

Müasir təhsil sistemində dərsləri daha maraqlı etmək üçün səmərəli metodlardan biri də Krossens sayılır. Bu metod şagirdlərə təqdim olunan şəkillər arasında əlaqə yaratmağa imkan verir. Krossens sözünün mənası sözlərin və mənaların kəsişməsidir. Krossens ideyası ilk dəfə 2002-ci ildə "Nauka i jizn" (Elm və həyat) jurnalında əksini tapmışdır. Bu ideyanın müəllifləri yazıçı, müəllim və riyaziyyatçı Sergey Fedin və pedaqogika elmləri namizədi, filosof və rəssam Vladimir Buslenko olmuşdur.

Şagirdə təqdim olunan şəkillərin mənaca bir-birinə bağlı olduğu əvvəlcədən izah edilir. Şagird doqquz şəkli mənaca bir-birinə uyğunlaşdırıb toplayır. Hər bir şəkil mənaca əvvəlki və sonrakı şəkillə birləşir. Mərkəzdə yerləşən şəklin isə bir necə şəkillə uyğun olması göstərilir. Belə tapşırıqlar şağirdlərdə məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirir.

Tapşırığa uyğun olaraq 5-ci şəklin digərlərinə mənaca uyğun gəlməsi zəruridir. Şəkillər arasında bağlılıq məhz bu prinsip əsasında qurulur: birinci- ikinci, ikinci-üçüncü, üçüncü-altıncı, altıncı-doqquzuncu, doqquzuncu-səkkizinci, səkkizinci-yeddici, yeddinci-dördüncü, mərkəzi şəkil isə beşinci nömrə altında olur. Ya da bu prinsip iki-beş, altı-beş, səkkiz-beş, dörd-beşinci şəkillər arasında əlaqə yaradır.

Maraqlı bir krossens qurmaq üçün aşağıdakı amillər nəzərə alınır:

1. Əvvəl mövzunu müəyyən etmək.
2. Mövzuya aid olan 9 şəkil seçmək.
3. Onların arasında əlaqəni müəyyən etmək.
4. Şəkillərin bir birinə bağlılığının hansı sxem əasında qurulmasını müəyyən etmək.
5. Ümumiləşdirici məna 5 –ci şəkil ətrafında birləşməlidir.

Bu metodun aşağıdakı mərhələlərdə istifadə edilməsi məqsədəuygundur:

1. Mövzunun və dərsin məqsədinin müəyyənləşdirilməsində.
2. Yeni materialın öyrənilməsində.
3. Dərsin yekunlaşdırıcı mərhələsində.
4. Dərsin ümumiləşdirilməsində və s.

Dərslə bağlı krossensin hazırlanması şagirdlər üçün ev tapşırığı kimi də istifadə edilir. Belə tapşırıqlar şagirdlərdə yaradıcı təfəkkürü inkişaf etdirir və biliklərin təcrübə yolu ilə daha da yaxşı mənimsənilməsi üçün imkanlar yaradır. Şagirdlərin bilik və bacarıqlarına əsaslanaraq fənlərarası inteqrasiya imkanlarını təmin edir.

Krossens üsulu vasitəsilə müəllim şagirdin bilik səviyyəsini müəyyən edir, yəni qiymətləndirməsini də həyata keçirir. Nümunə olaraq 9-cu sinif Azərbaycan tarixində "Mədəniyyət" mövzusunun tədrisi ilə bağlı problem baxımından bəzi məsələləri qeyd edək: Dərslikdə movzuya aid şəkillər şağirdlərə təqdim olunur. Məsələn, H.Z.Tağıyev, "Molla Nəsrəddin" jurnalı, "İsmailiyyə " binası, Əzim Əzimzadə, Mirzə Ələkbər Sabir, Həsən bəy Zərdabi, İstiqlaliyyət küçəsi, "Leyli və Məcnun", İosif Ploşko. Onların arasında tarixi əlaqə və bağlantı şagirdlər tərəfindən müəyyən olunur. Bu krossensin həll olunması şagirdlər arasında heç bir çətinlik yaratmır və onlar onu həvəslə yerinə yetirirlər. Ev tapşırığı olaraq şagirdlər həmin şəkillər əsasında internet vasitəsilə əlavə məlumat toplayıb çıxışlarını, ya da PowerPoint təqdimat hazırlayırlar.

Şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirmək üçün inşa yazmaq tapşırığı da səmərəli nəticə verir.

Yekunda qeyd etmək olar ki, vizuallaşdırma dərsin keyfiyyətini yüksəldir, şagirdlərin təfəkkürünü inkişaf etdirir. Onlar dərs zamanı fəal olurlar, hamılıqla müzakirəyə qatılır, öz fərziyyələrini irəli sürür, yaradıcı qabiliyyətlərini nümayiş etdirir və yeni kreativ yollar axtarırlar.

Tarixin tədrisi müəllimlər qarşısında yeni məqsədlər qoyur və şagirdlərin yaradıcı təfəkkürünün formalaşmasını vacib şərt kimi irəli sürür. Bu baxımdan dərslərdə istifadə olunan müasir əyanilik bu tələblərin icrasına xidmət edir.

**Problemin aktuallığı.** Cəmiyyətimizin bütün sahələrində yeniliklərin tətbiq olunduğu bir dövrdə təhsilimiz də bu yeniliklərdən kənarda qalmır .Respublikamız müstəqillik qazandıqdan sonra dünya standartlarına cavab verən bir təhsil sisteminin qurulması bu yolda dünya təcrübəsinə əsaslanan yeniliklərin tətbiq olunması bu günkü təhsilimizin təməlini təşkil edir. Yeni təlim texnologiyalarının məktəbə yol açması ,fəal təlim metodlarının təlimdə yer alması şagirdlərin təfəkkürünü inkişaf etdirmək və öz gələcək fəaliyyətində əldə etdiyi bilikləri tətbiq etmək ,dünya görüşünü artırmaq və başqaları ilə konstruktiv əlaqə yaratmaq imkanlarını genişləndirir

**Problemin elmi yeniliyi.** Məqalədə tarixin tədrisi keyfiyyətinin yüksəldilməsi üçün əyani vasitələrlə vizuallaşdırmanın yolları əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə əksini tapmış pedaqoji ideyalar, tətbiq edilən metodika tarix müəllimləri üçün təhsil keyfiyyətini artırmaq baxımından praktik əhəmiyyət daşıyır.

**Ədəbiyyat:**


1. Cəbrayilov İ.H. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı: Mütərcim, 2006.
2. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal-interaktiv təlimi metodikası. Bakı, 2011.
3. Аранова С.В. К методологии визуализации учебной информации. Интеграция художественного и логического // Вестник Адыгейского Государственного Университета. 2011, № 2
4. Баландина, И.В. Компьютерная визуализация как развитие дидактического принципа наглядности // «Психология и педагогика: методика и проблемы практического применения»: сб. материалов XII междунар. науч.-практ.конф., Новосибирск, 14 апреля 2010 г. – Новосибирск: Изд. «СИБПРИНТ», 2010.


**E-mail:**guler.agayeva@oxbridgedu.org.uk
**Rəyçi:** *ped.ü.elm.dok.,prof.* İ. Cəbrayılov
**Redaksiyaya daxil olub:** 07.12.2018.

## *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*

*UOT 37.01.*

***Firuzə Ədalət qızı Rzayeva***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

# CÜTLƏRLƏ VƏ QRUP ŞƏKİLİNDƏ MÜSTƏQİL İŞİN TƏŞKİLİNİN SƏMƏRƏLİ YOLLARI

***Фируза Адалат гызы Рзаева***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Университет Языков*

# ЭФФЕКТИВНЫЕ СПОСОБЫ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ В ПАРАХ И ГРУППАХ

***Firuza Adalat Rzayeva***
*doctor of philosophy in pedagogy, assistant professor*
*Azerbaijan University of Languages*

# EFFECTIVE WAYS OF ORGANIZING INDEPENDENT WORK IN PAIRS AND GROUP

**Xülasə:** Tələbələrin müstəqil işləri yalnız tədris tapşırıqları ilə deyil, yəni onlar konkret biliklərlə yekunlaşır, müəllimin göstərişi ilə zehni əməyin növü ilə də məşğul olurlar, müqayisələr aparılır, təhlil edilir, qruplaşdırılır və öz fəaliyyətlərini planlaşdırırlar.
***Açar sözlər:*** *pozitiv düşüncə, sərbəst iş, aktual mövzu*

**Резюме:** Самостоятельная работа студентов завершается не только учебными заданиями, но и конкретными знаниями, также посредством команды педагога занимаются умственным трудом, делают сравнения, анализируют, группируются и планируют свою деятельность.
***Ключевые слова:*** *позитивное мышление, индивидуальная работа, актуальный предмет*

**Summary:** Students individual work is not completed with only lesson tasks, concrete knowledge. They also engage with teacher guided mental work, students make comparison, analyses, generalize and group facts, plan their performances.
***Keywords:*** *positive thinking, individual work, actual subject*

Tələbənin müstəqil işi tapşırıqları sərbəst və müəllimin rəhbərliyi ilə auditoriyadankənar həyata keçirdiyi fəaliyyət növüdür.

Sərbəst işlərin həcmi keçirilən mühazirələrə, seminarlara və praktik məşğələlərə ayrılan akademik saatlara müvafiq olaraq ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

Sərbəst fəaliyyət nə üçün təşkil edilir?

Sərbəst fəaliyyətin həyata keçirilməsinin məqsəd və vəzifələri nədən ibarətdir?

Əgər nə istədiyini bilirsənsə, onu əldə etməyin yollarını tapacaqsan (Jim Rohn)

Sərbəst işin təşkilinin başlıca məqsədləri, öyrənənlərin bacarıq və vərdişlərinin üzə çıxarılması və yaradıcı fəaliyyətin, tənqidi düşüncənin, tədqiqat və digər bacarıqların inkişaf etdirilməsidir. Sərbəst və yaradıcı fəaliyyət dedikdə, tələbənin müstəqil fəaliyyət göstərməsi, yeniliklər etməsi, yeni ideyalar irəli sürməsi, kəşflər etməsi nəzərdə tutulur. Fəaliyyətdə olan hər bir tələbə, müəyyən edilmiş problem üzrə axtarışlar

həyata keçirir, müxtəlif mənbələrlə tanış olur və bu zaman həm tanış olduğu fikirləri, ideyaları analiz edib problemə müxtəlif aspektlərdən yanaşır, fikirlərə münasibət bildirir, tənqidi düşüncəsini inkişaf etdirir, həm də tədqiqat bacarıqlarının təkmilləşməsinə nail olur.

Müstəqil işin təşkilinin başlıca vəzifələri, müəyyən edilmiş problemin analizi və həlli istiqamətində işlərin həyata keçirilməsi, çatışmazlıqların, boşluqların müəyyən edilib, aradan qaldırılması, problem ilə əlaqədar ideyaların, problemin həlli yollarının irəli sürülməsidir. Bilib-bilməməyimizdən asılı olmayaraq, hər problemin həlli yolları mövcuddur. Bu yolları tapmaq lazımdır.

Tapmaq üçün isə pozitiv düşüncə, çətinliklərlə mübarizə əzmi və gərgin əmək tələb olunur.

Məsələn, bildiyimiz kimi, xarici dillərin tədrisi zamanı autentik materiallardan istifadə günümüzün aktual mövzularından biridir. Xarici dilin öyrənilməsində autentik materialların istifadəsi məqsədə uyğun hesab edildiyindən, tədris prosesində bu məsələyə ciddi yanaşılması bir çoxları tərəfindən tövsiyə olunur. Lakin, problem ondan ibarətdir ki, autentik materialları tədris prosesində necə istifadə edə bilərik ki, xarici dilin mənimsənilməsinə və öyrənilməsinə nail olunsun. Hansı üsullardan istifadə etməliyik ki, autentik materiallardan istifadə uğurlu nəticələrə yol açsın.

Qeyd edilən nümunə ilə müstəqil işin vəzifələrini aydın şəkildə başa düşə bilərik.

Sərbəst işin müxtəlif növləri vardır. Məqsəd və vəzifələrə müvafiq olaraq, sərbəst işlər şer yazmaq, referat hazırlamaq, məqalə yazmaq, sorğu aparmaq, layihə hazırlamaq və başqa formalarda həyata keçirilə bilər.

Sərbəst iş individual, cütlərlə yaxud qrup şəklində reallaşdırıla bilər. Hansı formada işin təşkil olunması, əvvəlcədən müəyyən edilir.

Sərbəst işin həyata keçirilməsi zamanı başlıca meyarlardan biri, işin maraqlara müvafiq olmasıdır. Yəni, tədqiqatçı hansı məsələni araşdırmaq istəyirsə, o məsələ istiqamətində araşdırma aparması məqsədə uyğun hesab edilir. Çünki, bilirik ki, əgər insanlar daxilən motivasiya olunurlarsa, işləri daha maraqla, həvəslə yerinə yetirir və uğurlu nəticə əldə etmək istiqamətində bütün qüvvəsini səfərbər edirlər.

İndividual işin müsbət cəhətləri

1. Öz işinin ağası olmaq
2. Diqqətin bir istiqamətə yönəlməsi
3. Qərarların bir şəxs tərəfindən qəbul edilməsi
4. Müstəqil fəaliyyətin təkmilləşməsi
5. Təkbaşına işləmək bacarığının formalaşması

İndividual işin mənfi cəhətləri

1. Dəstəyin, motivasiyanın olmaması.
2. Təkbaşına fəaliyyətlə əlaqədar olaraq işin sürətlə yekunlaşmasının ləngiməsi halları.
3. Təkbaşına fəaliyyətin sıxıcı, darıxdırıcı olması.
4. Təkbaşına fəaliyyətlə əlaqədar daha çox stressin yaşanması.

Cütlərlə və qrup şəklində işin müsbət cəhətləri.

1. Bir deyil, bir çox şəxslərin fikirlərinin mövcudluğu, informasiya bolluğu.
2. Kənar dəstəyin olması.
3. Dəstəyin olması ilə əlaqədar olaraq işin daha tez yekunlaşdırıla bilməsi imkanı.

Cütlərlə və qrup şəklində işin mənfi cəhətləri

1. Fikir ayrılıqlarının yaşanması.
2. Fikir ayrılıqlarının olduğu təqdirdə vaxt itkisinə yol verilməsi.
3. Yekun nəticəyə gəlməkdə problemlərin yaşanması halları.

Bildiyimiz kimi, tədqiqat ciddi məsuliyyət, zəhmət tələb edən, gərgin bir fəaliyyətdir. Gərginliyin aradan qaldırılması, işin daha maraqlı olmasını təşkil etmək həm kənar faktorların təsiri ilə mümkün olur, həm də şəxsin daxili qüvvəsini nə dərəcədə kənar dəstək olmadan səfərbər edə bilmək iradəsi, qabiliyyəti ilə.

Bəzi insanlar vardır ki, hər hansı bir fəaliyyətlə məşğul olarkən, onlar üçün kənar dəstəyin olması əvəzolunmaz bir effekt yaradır. Kənar dəstək olmadıqda bu tip insanlar tez ruhdan düşür və hətta bu bəzi hallarda işin yarımçıq qalması ilə də nəticələnir. Ona görə də bu tip insanlar sərbəst işi individual olaraq deyil, başqa insanlarla birgə əməkdaşlıq formasında həyata keçirirlər. Son məqsəd müvəffəqiyyətli nəticələr əldə etmək və məmnuniyyət olduğundan, individual xüsusiyyətlərə hörmət edilməli, insanların hansı formada işləmək istədiyi müəyyən edilərək, o istiqamətdə fəaliyyət göstərməsi təmin edilməlidir.

Bir məsələni də qeyd etmək lazımdır ki, birgə əməkdaşlıq olduqda işi daha sürətli şəkildə həyata keçirmək və daha tez nəticə əldə etmək mümkün olur. Lakin, unutmaq olmaz ki, təkbaşına olaraq da işi sürətli şəkildə və tez bir zamanda tamamlamaq mümkündür. Bu, həmin şəxsin potensialından, imkanlarından, işə olan münasibət və məsuliyyətindən, o cümlədən, işin məzmunundan, formasından asılı olan bir məsələdir.

İşi individual olaraq icra etmək istəyən şəxslər isə, kənar müdaxilələrin olmamasına üstünlük verir, müdaxilələr olduğu təqdirdə işini səmərəli şəkildə həyata keçirməkdə maneələrlə üzləşdiyindən, təkbaşına fəaliyyətə üstünlük verirlər.

İndividual olaraq işin təşkil edilməsi faydalı hesab edilir. Çünki, bu insanların təkbaşına fəaliyyət göstərmək qabiliyyətini inkişaf etdirir və başqalarının asılılığından azad edir. İnsan müstəqil işləyərək özünü yenidən kəşf edir. Hansı çətinliklə qarşılaşdıqda onu necə həll edə biləcəyini öyrənir, çətin situasiyalarda vəziyyəti idarə etməyi, vəziyyətdən çıxmaq texnikalarını özündə inkişaf etdirir. Lakin, işin mahiyyətini də nəzərə almaq lazımdır, individual olaraq fəaliyyət göstərmək hər zaman faydalı olmaya da bilər.

Psixoloq Anders Erikson qeyd edir ki, hər hansı bir qabiliyyəti formalaşdırıb inkişaf etdirməyin başlıca yollarından biri zəif nüansları müəyyən edib, onların aradan qaldırılması istiqamətində addım-addım irəliləməkdir.

**Problemin aktuallığı**. Birgə əməkdaşlıq olduqda işi daha sürətli şəkildə həyata keçirmək və daha tez nəticə əldə etmək mümkün olur. Lakin, unutmaq olmaz ki, təkbaşına olaraq da işi sürətli şəkildə və tez bir zamanda tamamlamaq mümkündür.

**Problemin yeniliyi.** Cütlərlə və qrup şəkilində müstəqil işin səmərəli təşkili diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar, ingilis dili müəllimləri üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. **Усманова Н.Н.** Организация самостоятельной работы на уроках иностранного языка https://open-lesson.net/2340/

2. Самостоятельная работа студентов на уроке английского языка https://pedsovet.org/publikatsii/bez-rubriki/samostoyatelnaya-rabota-studentov-na-uroke-angliyskogo-yazyka

**E-mail:** fira_350@mail.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* ***A.N. Abbasov****,*
*ped.ü.fəls.dok.* **G.X. Şirəliyeva**
**Redaksiyaya daxil olub**: 17.12. 2018

UOT 37.01.

**Günay Xəzail qızı Şirəliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

# İNGİLİS DİLİNİN QRAMMATİKASININ KOMMUNİKATİV METODLA TƏDRİSİ ZAMANI İSTİFADƏ EDİLƏN LİNQVODİDAKTİK VASİTƏLƏR

**Гюнай Хазаил Ширалиева,**
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Университет Языков*

# ЛИНГВОДИДАКТИЧЕСКИЕ СРЕДСТВА ИСПОЛЬЗОВАННЫЕ ВО ВРЕМЯ ПРЕПОДАВАНИЯ ГРАММАТИКИ АНГЛИЙСКОГО ЯЗЫКА С ПОМОЩЬЮ КОММУНИКАТИВНОГО МЕТОДА

**Gunay Khazail Shiraliyeva**
*PhD in pedagogy, associate professor*
*Azerbaijan University of Languages*

# LINGUODIDACTIC MEANS USED IN TECHING ENGLISH GRAMMAR BY THE HELP OF COMMUNICATIVE METHOD

**Xülasə:** Məqalədə ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisi zamanı müəllimlərin istifadə etdikləri linqvodidaktik vasitələrdən bəhs edilir.

Xarici dillərin tədrisinin müasir metodları çox rəngarəngdir. İngilis tədqiqatçısı və metodoloqu Q. Palmer tərəfindən əsası qoyulmuş xarici dillərin kommunikativ metodlarla tədrisi ingilis dilin tədrisində ən effektli və məşhur metodlardan hesab edilir və bu metod tədrisdə şifahi ünsiyyətin praktik olaraq istifadəsinə istiqamətlənmişdir.

Məlumdur ki, kommunikativ metodun əsas prinsipləri Q. Palmer tərəfindən qoyulmuşdur və o, öz metodunu "xarici dillərin öyrədilməsinin şifahi metodu" adlandırmışdır.

Bu məqalədə biz, ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisinin əsas prinsipləri, tələbləri, etaplarını göstərməyə çalışmışıq. Bundan başqa, biz dərsliklərin təhlilini aparmağa, rollu oyunların və digər autentik vasitələrin ingilis dilinin qrammatikasının tədrisində istifadə edilməsinə də cəhdlər göstərmişdik.

***Açar sözlər:*** *imitasiya, transformasiya, əvəzetmə cədvəlləri, rol-oyunlar, dialoqlar*

**Резюме:** Данная статья посвящена исследованию лингводидактических средств, используемых при обучении грамматике английского языка коммуникативным методом.

Современные методы преподавания иностранных языков очень разнообразны. Коммуникативный метод обучения иностранным языкам, основанный английским исследователем и методологом Г. Палмером, является одним из самых эффективных и популярных методов обучения английскому языку, который направлен на использование практики устного общения в обучении.

Известно, что основные принципы коммуникативного метода были предложены известным английским методологом-исследователем Палмером Г., который назвал свой метод «устным методом обучения иностранным языкам».

В этой статье мы постарались показать основные принципы, требования, этапы преподавания грамматики английского языка с помощью коммуникативного метода. В дополнение к этому мы предприняли попытку проанализировать учебники, использовать ролевые игры и другие аутентичные средства обучения грамматике английского языка.

***Ключевые слова:*** *имитация, трансформация, подстановочные таблицы, ролевые игры, диалоги;*

**Summary:** This article has been dedicated to the investigation of the linguodidactic means used in teaching grammar of English language with communicative method.

Modern methods of teaching foreign languages are very diverse. Communicative method of teaching foreign languages, founded by an English researcher and methodologist G. Palmer, is one of the most effective and popular methods of teaching English, which is aimed at using oral communication practice in teaching.

It is known that the basic principles of the communicative method were proposed by the famous English methodologist-researcher Palmer G., who called his method “the oral method of teaching foreign languages”.

In this article we tried to show the main principles, demands, stages of teaching English grammar by using the communicative method. In addition to this, we made an attempt to analyse the text-books, the use of role-play games and other authentic means of teaching English grammar.

***Key words:*** *imitation, transformation, substitution tables, role-playing games, dialogues;*

“İngilis dilinin tədrisinin kommunikativ metodu əsasən praktik ehtiyaclara yönəlmişdir: qrammatika - zəruri hallarda çox məhdud formada, leksika - praktiki tapşırıqlar üçün lazım gəldikdə, praktika – dialoqlar və həyati situasiyalarda”, - Vitlin yazırdı [9, s.1].

Xarici dilin tədrisinə kommunikativ yanaşmanın əsasını dilin kommunikativ nəzəriyyəsi təşkil edir. Hayms (Hymes) xarici dilə yiyələnməni kommunikativ kompetensiya adlandırır. Hayms kommunikativ kompetensiya terminini N. Homskinin dil nəzəriyyəsinə qarşı işlətmişdir. N. Homski belə hesab edirdi ki, dil nəzəriyyəsi tamamilə birtərəfli nitqdə danışan dinləyici ilə ümumi olaraq məşğul olur. N. Homskinin fikrincə, dil nəzəriyyəsinin əsas vəzifəsi, xarici dildə qrammatik cəhətdən düzgün bəyanatların yaradılmasına imkan verən danışanın abstrakt bacarıqlarını xarakterizə etməkdir. Hayms bu cür düşüncəni qeyri-məhsuldar hesab edir, çünki dil nəzəriyyəsi daha ümumi ünsiyyət və mədəniyyət nəzəriyyəsinin bir hissəsi kimi qəbul edilməlidir. Haymsın kommunikativ kompetensiya nəzəriyyəsi, danışanın müəyyən bir danışma prosesində başa düşülməsinə hesablanmışdır [9, s. 1].

Kommunikativ yanaşmanın əsasını təşkil edən kommunikasiyanın linqvistik nəzəriyyəsi M.A.K. Hallidey tərəfindən işlənib hazırlanmış funksional dil nəzəriyyə sidir. M.A.K. Hallideyin fikrincə, "Linqvistika danışma aktları və ya mətnlərin təsviri ilə məşğul olur, halbuki yalnız fəaliyyətdə olan dilin öyrənilməsi vasitəsilə onun bütün funksiyaları və məna çalarları nəzərə alına bilər" [6, s. 12].

Bir neçə illər ərzində bu metod qərbi Avropa və Amerika metodologiyasında aparıcı rol qazandı. Bu metodun təlim məqsədlərinin müəyyənləşdirilməsində vacibdir ki, tərəflərdən ən azı ikisi qarşılıqlı əlaqəyə cəlb olunsun; tərəflərdən birinin ünsiyyətə niyyəti var, ikincisi isə bu və ya digər şəkildə ona reaksiya verir.

Kommunikativ metodla təlimdə əsas yeri oyun situasiyaları, tərəfdaş ilə işləmək, təkcə leksik ehtiyatın artırılmasına deyil, eyni zamanda tələbələrin analitik düşün-məsini yoxlayan və inkişaf etdirən səhvlərin düzəlişini tələb edən tapşırıqlar tutur. Oyun keçirərkən müəllimin mövqeyi və oyunun detallarını hazırlamaq bacarığı çox vacibdir. Y.N. Solovovanın fikrincə, dərs zamanı keçirilən oyun kommunikativ metod üçün çox vacib olan real nitq ünsiyyətini modelləşdirir [5, s. 32].

Biz belə hesab edirik ki, kommunikativ metodika xarici dilin öyrənilməsinə praqmatik yanaşma üsuludur. Kommunikativ yanaşmada təlim prosesi tələbənin üzərində mərkəzləşmişdir. Buna görə də təlim prosesinin təşkilatçısı kimi müəllimdən kommunikativ tapşırıqların yerinə yetirilməsinə şərait yaradan atmosferin yaradılması tələb edilir.

Kommunikativ qrammatikanın tədrisi dörd mərhələdən ibarətdir:

1. Yeni qrammatik materialın izahı kiçik (təxminən üç-beş dəqiqəlik material) mətnin oxunması ilə izah edilə bilər. Əvvəlcə müəllim həmin mətni oxuyur. Tələbələr mətnin əsas ideyasını müəyyənləşdirirlər. mətnin məzmununa müvafiq suallara cavab verirlər; buraxılmış yerləri mətndəki sözlərdən istifadə edərək doldururlar; yeni qrammatik materiala uyğun cümlələr düzəldirlər;

2. İkinci mərhələdə artıq tələbə tanış olduğu qrammatik strukturu oxunulan mətndə tapmağa çalışır. Bu ona yeni məlumatın mənimsənilməsində kömək edir.

3. Qrammatik qaydaların formalaşdırılması: müqayisə, verilmiş variantlardan onların seçilməsi, perefraz və s.

4. Dördüncü mərhələdə oxu, oxunulmuş mətnə qısa annotasiyalar yazmaq, qrammatik qaydaların istifadəsilə cümlələri tamamlamaq; dördüncü mərhələdə tələbələrə belə tapşırıq verilə bilər: iki tələbəyə eyni mətn verilir. Birinci tələbəyə verilmiş mətnin cüt rəqəmli cümlələri, ikinci tələbəyə verilmiş mətnin tək rəqəmli cümlələri buraxılır. Tələbələrdən mətni oxumaq tələb edilir. Beləliklə, tələbələr mətni oxuyarkən həmin cümlələrdəki qrammatik materialı da mənimsəmiş olurlar.

Qrammatik bacarıqların nitq prosesində təkmilləşməsi xarici dilə yiyələnmənin səviyyəsini artırır, bununla da ümumilikdə dil kompetensiyasını inkişaf etdirir və kommunikasiyanın səmərəliliyini artırır.

Situasiyaya əsaslanan xarici dil kommunikasiyası tələbələri kommunikasiyaya motivasiya edir, söhbətin düzgün təşkil edilməsinə inamı artırır.

Xarici dilin kommunikativ metodla öyrənilməsindən bəhs edən çox sayda ədəbiyyat vardır. Kommunikativ metodun tərəfdarları dərs materiallarını tədris kommunkasiyasının və dil istifadəsinin əsas vasitəsi hesab edirlər. Ənənəvi olaraq dərs materiallarının üç növü fərqləndirilir:

1. kommunikativ çalışmalara əsaslanan;
2. mətnə əsaslanan dərs vəsaitləri;
3. realiyalar;

Kommunikativ metodla xarici dilin tədrisinə üstünlük verən dərs vəsaitləri kommunikasiyaya stimul verən çox sayda vizual, informativ mətnlərdən ibarətdir.

Təcrübələr sübut etmişdir ki, qrammatik materialın mənimsənilməsini aşağıdakı mərhələlərlə aparmaq məqsədəuyğundur: nitq nümunəsinin təqdimatı (qrammatik hadisənin təhlil və sintezi vasitəsilə); məşq etmə və həmin nümunənin nitqdə tətbiqi. Bu mərhələlərin hər birinin məqsədinə uyğun tapşırıqlar vardır.

Birinci mərhələdə qrammatik hadisəni anlamaq, onun məzmununu, formasını və istifadəsini aydınlaşdırmaq lazımdır. Məhsuldar öyrənmə üçün yeni tədris materialları ilə tanışlıq, şifahi və ya oxu zamanı tədris-nitq situasiyalarında həyata keçirilir. Aşağıdakı tapşırıqlar bu mərhələyə uyğun gəlir:

1. Vurğulamaq;
2. Yazmaq;
3. Qrammatik təhlil;
4. Sos modeli (toplamaq, təşkil etmək, sistemləşdirmək);

İkinci mərhələdə qrammatik materiallar hazırlanır və qrammatik nitq bacarıqları formalaşır. Şifahi nitqin qrammatik tərəfinin tədrisi aşağıdakı təlimlər vasitə-silə effektiv şəkildə həyata keçirilir:

• imitasiya;
• təkrarlamaq;
• transformasiya;
• əvəzetmə cədvəlləri;
• oyun xarakterli çalışmalar;

Yalnız təlim məşqləri ünsiyyətə qatılma qabiliyyətinə gətirib çıxarmır. Üçüncü mərhələdə, qrammatik nitq bacarıqları və vərdişlərinin yekun formalaşması, yəni onların nitqdə istifadəsi həyata keçir. Bu məqsədlə tələbələrə aşağıdakı çalışmalar təklif olunur:

• kommunikativ tipli çalışmalar;
• təlim və təbii nitq situasiyaları (TNS və TNS);
• kommunikativ oyunlar;

Kommunikativ qrammatikanın tədrisi zamanı aşağıdakı prinsiplərə əməl edilməlidir:

1. situativlik;
2. funksionallıq;
3. şifahi nitq fəaliyyəti;
4. yenilik;
5. fərdilik;

Bu prinsiplərin tətbiqini aşağıdakı kommunikativ çalışmalar, təlim nitq situasiyaları və kommunikativ oyunlar ilə izah edək:

1. Bir neçə replikadan birini seçin, bu replikadan əvvəl yaşanan hər hansı situasiyanı yada salın. Onu qrupa və ya qrup yoldaşınıza təsvir edin. Qrup və ya qrup yoldaşı kontekstə uyğun müvafiq vəziyyətə cavab verməyə çalışır.

Tələbələr bu cür tapşırıqları həvəslə yerinə yetirirlər. Qeyd etmək lazımdır ki, bu cür çalışmalar tələbələrin diqqətini artırır və auditoriyada gözəl mühit, atmosfer yaradır.

2. Suallara cavab vermək bacarığını müəllimlər mövcud cavaba verilən sualın bərpası şəklində olan tapşırıqlar vasitəsilə həyata keçirirlər. Bu tapşırığı tələbələrin bir-birinin anketini doldurması şəklində tərtib etmək olar. Sual cümlələrini məşq edərkən şəkil göstərərək bu hadisənin harada, nə zaman baş verdiyini soruşmaq olar. Ertəsi gün onlar öz şəkillərini gətirərək qrup yoldaşları ilə cütlərlə işləyirlər. Daha sonra şəkildəki

personajı göstərərək ona əvvəl və sonra nə baş verdiyini soruşmaq olar. Tələbə The Past Simple (İndiki qeyri-müəyyən zaman forması) zamanı işlətməklə sorğuya cavab verə bilər.

3. Hər tələbəyə bir şəkil verilir. Tələbə orada təsvir edilən adama ad verir, onun sənəti, yaşı, məşğuliyyətini müvafiq feillərlə ifadə edir. *Tall, beautiful, handsome* kimi sifətləri işlətməklə həmin adam haqqında müvafiq zamanda cümlələr qurur.

4. Kommunikativ qrammatika ünsiyyət situasiyalarından asılı olaraq dil vahidlərinin variativ (dəyişkən) istifadəsini nəzərdə tutur. Belə ki, tələbələrdən lazım olan şəkli təsvir etmək tələb edilərkən həm artiklın, ismin, sifətin işlədilməsi həm də sual, nəqli və əmr cümlələrinin işlənməsi məşq edilir. Şəkli daha yaxşı təsvir edən tələbə qalib olur.

5. Kartlarda yay tətili zamanı yerinə yetirilən fəaliyyət növlərini xarakterizə edən söz birləşmələri yazılıbdır. Tələbələrdən biri pantomima şəklində onu göstərir, digər tələbələr isə onu tapmağa çalışır.

6. "Otaq döyüşü". İki tələbə hər biri öz otaqlarının planını və boş kvatrat şəkli çəkir. Tələbələr bir-birinin planını görməməlidir. Daha sonra bir-birindən mebellərin harada olduğunu növbə ilə soruşurlar. Düzgün cavab verən tələbə öz kvadratında həmin mebelin sxemin çəkir. Yanlış cavab verən isə sual vermək hüququnu itirir və növbə birinci tələbəyə keçir. Daha çox suala cavab verən tələbə qalib olur.

7. "Müsahibə". Öz dostlarınızla söhbət edin və aydınlaşdırın:

a) onlar 26 dekabrda nə ediblər;

b) keçən həftə baş verən maraqlı bir hadisəni nəql etsinlər;

c) bu həftə onlar idmanla məşğul olublarmı;

Qrammatik qaydaların kommunikativyönlü tapşırıqlar vasitəsilə öyrədilməsi tələbələrdə maraq oyadır və onlar bu cür tapşırıqların icra edilməsinə həvəslə cəlb olunurlar. Tapşırığın maraqlı olması, hər-hansı ciddi problemin müzakirəsi və ya rol-oyun tələbənin daxili motivasiyasını yaradır.

Kommunikativyönlü tapşırıqların istifadəsi nəticəsində onlar qrammatik materialların praktiki fəaliyyət yollarını öyrənirlər və suallar soruşmaq, hekayələr, düşüncələrini ifadə etmək, ideyaları ifadə etmək şəklində danışmağa inteqrasiya edirlər. Bu texnika təhsil problemlərinin həllinə böyük töhfə verir. Təcrübə göstərir ki, kommunikativ texnologiyadan istifadə etməklə qrammatikanın öyrənilməsi erkən mərhələdə istifadə edilə bilər və danışma, oxu, dinləmə və yazma materialları üzərində işləyir. Qrammatikanın kommunikasiyaya yönəldilməsi motivasiyanı artırmağa, sözün ifadəli imkanlarını genişləndirməyə imkan verir və öyrənmə mühitində tələbələrin ifadələrinə təbiilik verir.

Kommunikativyönlü təlimdə hərəkət xarakterli kommunikativ çalışmalardan istifadə edilir. Bu çalışmalar da öz növbəsində iki böyük qrupa bölünür:

1) funksional-kommunikativ; 2) qrup əlaqələri;

1) Funksional-kommunikativ tapşırıqlara şəkillər və şəkillər kompleksini müqayisə etmək, bir sıra fotoşəkillər və ya mətn fraqmentləri içərisində məntiqi ardıcıllığı bərpa etmək, şəkillər və mətnlərdə əskik elementləri tapmaq, tapşırıqları uğurla yerinə yetirmək üçün tərəfdaşa dəqiq təlimat hazırlamaq, bütün məlumatları birləşdirərək bir sualın cavabını tapmaq və s. daxil edilir.

2) Qrup əlaqələri iştirakçıların sərbəst ünsiyyəti, fikir mübadiləsi, müzakirələr, rol-oyunlar, improvizasiyalar, eskizlər və s. şəklində təşkil olunur. Tələbələrin söz ehtiyatı və qrammatik bacarıqları üzərində ənənəvi iş aparıldığı təqdirdə kommunikativ tapşırıqların səmərəliliyi artmış olur. Təlimin təşkilində istinad nöqtəsi kimi təbii - nitq və təlim-nitq situasiyalarından istifadə edilir, yəni həyat şərtlərini modelləş-dirən tapşırıqlardan istifadə edilir.

Real ünsiyyət üçün şərtlərdən biri xarici dildə danışmağın zəruriliyidir. Məsələn, əcnəbiyə məktub yazmaq, öz şəhərin haqqında danışmaq, sevimli məşğuliyyət və s. barədə danışmaq təklif olunur. Əgər bunun həyata keçməsi mümkündürsə, bu, real situasiyadır; məsələn: Sabah üçün hava proqnozunu dinləmək və hava Berlində necə olacaq? deyə soruşa bilərsiniz. Mesaj radio ilə ötürülürsə, bu təbii nitq situasiyası, audio yazıdırsa, o zaman bu təlim nitq situasiyasıdır.

Ünsiyyət problemini həll etməyə kömək edən əsas vasitələrdən biri də kommunikativ oyundur. Dil formaları və onların tez-tez təkrarlanmasına yönəlmiş ənənəvi təlim çalışmalarından fərqli olaraq, kommunikativ oyunlarda iştirakçıların diqqəti bir tərəfdən məzmuna yönəldi-

lir, digər tərəfdən isə dil formalarının tez-tez təkrarlanması təmin edilir, oxu, yazı, dinləyib anlama və danışmaq kimi bacarıq və vərdişlər məşq etdirilir. Kommunikativ oyunlar yüksək səviyyədə görüntülüyə malikdir və tələbəyə dili canlı ünsiyyət vasitəsi kimi yaşamağa imkan verir. Onlar ünsiyyətə daxil olmaq, söhbət etmək, suala cavab vermək, fikirlərini ifadə etmək kimi dil formalarını təmin edir.

Bu cür kommunikativ oyunların təşkili və metodikası aşağıdakıları tələb edir:

• oyunun mahiyyətini və qaydalarını bütün qrupa (təlimat) izah etmək;

• oyunun bütün iştirakçılarını zəruri linqvistik və təlimat materialı ilə təmin etmək (tapşırıq üzrə fərdi kartları və ya lövhədə əsas ifadələr yazmaq);

Müəllim və tələbələr tərəfindən oyunun nümayişi;

• bütün qrupun qarşısında mini-qrup sınaq oyunu;

• referans materialları istifadə edərək bütün qrupun oyunu;

• materialları dəstəkləməyən bütün qrupun oyunu;

• Müəllimlə, qrupla frontal ünsiyyət, ümumi söhbət (oyundan sonra);

• iştirakçıların hərəkətlərinin təhlili.

Beləliklə, kommunikativ qrammatikanın tədrisi “süni” nümunələri və mücərrəd nitq situasiyalarını istisna edən autentik materialın istifadəsini nəzərdə tutur. Qrammatik materialı izah edərkən seçilmiş leksik ehtiyat tələbələrə məlum olmalıdır ki, tələbələrə əlavə çətinlik yaratmasın və mövzu aktual olmalıdır ki, tələbələr onu ünsiyyət prosesində istifadə etsinlər. Bundan başqa, qrammatik qaydalar forma, məzmun və funksiyanın vəhdəti kimi nəzərdən keçirilməlidir. Başqa sözlə, tələbə qrammatik strukturu “eşitməli”, onu mətndə “tanımalı”, yazılı və şifahi nitqdə istifadə etməyi bacarmalıdır.

**Problemin aktuallığı.** Məqalə ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisi zamanı istifadə edilən müasir və aktual linqvodidaktik vasitələrin tədqiqinə həsr edilmişdir.

**Problemin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisi zamanı istifadə edilən müasir linqvodidaktik vasitələr nəzəri baxımdan araşdırılır və bu da işin elmi yeniliyini təşkil edir və məqalədən metodikaya dair nəzəri fənlərin tədrisində istifadə edilməsi məqsədəuyğundur.

**Problemin praktik yeniliyi.** Məqalədən müəllim və tələbələr praktik cəhətdən (kommunikativ və praktik qrammatika və eləcə də metodika fənlərinin tədrisində) də yararlana bilər.

**Ədəbiyyat:**


1. Гальскова Н.Д. Гез Н.И. Теория обучения иностранным языкам, Лингводидактика и методика, М: ACADEMA, 2006.
2. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам, М: АРКТИ, 2003.
3. Пальмер Г. Устный метод обучения иностранным языкам. М.: Просвещение, 1960.
4. Пассов Е.И. Коммуникативный метод обучения иноязычному говорению. М.: Просвещение, 1991.
5. Соловова Е.Н. Методика обучения иностранным языкам, Базовый курс лекций, М.: Просвещение, 2015.
6. Halliday M.A.K. Halliday’s Introduction to the Functional Grammar/ Michael Toolan, University of Birmingham UK, London and New York: Routlage, 2014.
7. http://rirorzn.ru/publication/dopolnitelnoe-obrazovanie/kommunikativnyy-metod-v-obuchenii-inostrannomu-yazyku/
8. http://docplayer.ru/35303950-T-s-matveeva-kommunikativnyy-metod-obuche niyainostrannym-yazykam.html
9. http://xn--i1abbnckbmcl9fb.xn--p1ai/%D1%81%D1%82%D0%B0%D1%82% D1%8C%D0%B8/-608831/


**E-mail:**gunay@mail.ru

**Rəyçi**: *ped.ü.fəls.dok., dos.* F.Ə. Rzayeva
**Redaksiyaya daxil olub:** 26.11.2018

*UOT 37.01.*

***Tahirə Oruc qızı Xasməmmədova***
*Qazax rayonu 3 nömrəli tam orta məktəbin ingilis dili müəllimi*

# İNGİLİS DİLİNDƏ OXUYUB-ANLAMA FƏALİYYƏTİNİN PEDAQOJİ VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Тахира Орудж гызы Хасмамедова***
*учитель английского языка средней школы № 3 Газахского района*

# ПЕДАГОГИКО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ЧТЕНИЯ И ПОНИМАНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

***Tahira Oruc Khasmammadova***
*English teacher at the secondary school № 3 of Gazakh district*

# PEDAGOGICAL AND PSYCHOLOGICAL FEATURES OF READING-COMPREHENSION SKILLS IN THE ENGLISH LANGUAGE

**Xülasə:** Bu tədqiqatın məqsədi oxuyub-anlamanın pedaqoji-psixoloji xüsusiyyətlərini nəzərə almaqla şagirdlərin oxuyub-anlama bacarıqlarının artırılmasına həsr edilmişdir. Məqalə V-VI siniflərdə oxuyub-anlamanın yeni bir yanaşma kimi təlim prosesində şagirdlərin koqnitiv inkişafına təsirini vurğulayır. Oxuyub-anlama prosesinin bəzi mərhələlərində effektiv strategiyaları istifadə edərək zəngin lüğət bacarıqlarını artırılması yolları da məqalədə açıqlanmışdır.
***Açar sözlər:*** *oxuyub-anlama, reseptiv, expressiv, lüğət, koqnitiv inkişaf*

**Резюме**. Целью данного исследования является улучшение навыков чтения на английском языке у учащихся. В статье говорится о современном состоянии обучения посредством развития у учащихся V-VI классов когнитивных навыков. Отмечается, что используя эффективные стратегии на некоторых этапах чтения и понимания можно добиться обогащения словарных навыков.
***Ключевые слова:*** *чтение-понимание, рецептивный, выразительный, словарь, когнитивное развитие*

The purpose of this study is to improve students' English language reading comprension skills in order to understand pedagogical-psycological features of reading. The article states new approaches of reading-comprehension during learning process through developing students' of 5-6 grades cognitive skills. Some steps of reading-comprehension are clearified in the article and increasing rich vocabulary skills using some various effective strategies.
***Key words:*** *reading-comprehension, reseptive, expressive, vocabulary, cognitive development*

## 1.1. Oxuyub-anlamanın pedaqoji-psixoloji xarakteri

Oxu bacarıqları dildə digər bacarıqların və təhsil alma bacarıqlarının qazanılmasında bir "keçid qapı" rolunu oynayaraq, zəif oxusu olan şagirdlər üçün belə imkan yaradır. Aparılan müşahidələr sübut edir ki, V-VI sinif şagirdlərinin çoxu ingilis dilində mətnləri oxuyub anlama üzrə kifayət qədər qənaətbəxş deyildir.

Eyni şəkildə, uzun illər ingilis dilinin ibtidai təhsil səviyyəsi və ümumi orta təhsildə tədris olunmasına baxmayaraq, şagirdlər hər səviyyədə, mətnləri oxuduğunda, akademik uğursuzluğa düşmələrini davam etdirirlər.

K. Staniviç (Stanovich, K. 1980) qısaca olaraq yazır ki, reseptiv oxu oxucuların aşağı səviyyəli proseslərdən (məsələn, qrafik simvolları tərcümə etmək) yüksək səviyyəli proseslərə (məsələn, sözlərə məna verilməsi) keçmək kimi mexaniki olaraq öyrənilmiş sözlərə əsaslanan prosesdir.

Oxu prosesi oxucudan onun sxematik şəkildə qavranılmasını tələb edir. F. Münozun (Minoz., F. 2010) sözlərinə görə, oxu mətnlərində vaxt və ya qrammatik struktur nümunələrini tapmaq və ya vurğulamaq, xüsusi məlumat üçün mətni dərindən

təhlil etmək, mətndəki hadisələrin qrafikini hazırlamaq, sözlərin sinonimləri, antonimlərini və naməlum sözləri müəyyənləşdirmək, bu yanaşmada istifadə olunan fəaliyyətlərdir.

D. Hamerberq (Hammerberg, D. 2004, p. 650).) öz əsərlərində qeyd edir ki, ingilis dilində mətnlərin oxuyub-anlaşılması onlar üzərində iş gedərkən mənanın qurulmasını nəzərdə tutur, bu halda mənanın qurulması interaktiv bir prosesdir, sadəcə sözlərin şifrəsini açmaqdan, yüksək səslə söyləmək, sözləri eşitdikdə başa düşülməsi kimi anlaşılır. Mənanın qurulması bir məhsul kimi oxucudan interaktiv yolla prosesin anlamasını tələb edir. Burada əsas məqam oxu performansının düzgün alınmasına, mətnin məzmunun, oxucunun interaktivliyi və tapşırıqların səmərəsi əsas faktor kimi təsir edir.

Hazırda oxuyub-anlama ilə əlaqəli psixoloji dəyişmələri tədqiq edən müxtəlif tədqiqatlar mövcuddur. Bununla yanaşı, müəllimlərin pedaqoji təcrübəsində məktəblərdə oxuyub-anlamanı tədqiq etmək üçün çox az dil tədqiqatı aparılmışdır.

K. Qudman (Goodman., K. 1967), tərəfindən təqdim olunan bu yüksək modeldə oxu bir psixolinqvistik təhmin oyun kimi izah olunur. Bu modelin nəzəri fərziyyəsi odur ki, oxucular hazırladıqları mətnləri öz sxematikasında (diaqram, fiqur və cədvəl) daha məzmunlu şəkildə aktivləşdirərək oxuyub-anlama bacarıqlarını yaxşılaşdıra bilərlər.

Daha sonra, Abersold və Field (Aebersold & Field, 1997) yazır ki, oxuyub-anlamaq üçün gözlədikləri fikirləri daha sərbəst formada dəyişdirmək üçün mətndə şifrələnmiş sözlərdən istifadə edirlər.

C. Fleyvel (Flavell., J. 1976) tərəfindən verilən idrak psixologiyasında meta-koqnitiv nəzəriyyəyə əsasən oxuyub-anlama ilk növbədə oxucuların meta-koqnitiv və sadə koqnitiv bacarıqlarının inkişafını ifadə edə bilir. O qeyd edir ki, gənc uşaqlar oxuduqlarını anlaya, şərh və tənqid edərkən oxucu kimi inkişaf edirlər. Araşdırmalar davamlı şəkildə göstərir ki, inkişafın məqsədi, öyrənənlərimiz üçün hətta səslərin, hərflərin və sözlərin verildiyi mənaları inkişaf etdirmək məqsədi ilə başa çatmalıdır.

Oxuyub-anlamanın digər psixoloji xüsusiyyəti oxunun necə səslənməsi ilə şərtlənir. Təkcə sözlərin tələffüzü və birgə artikulyasiyası mənanın anlaşılmasına kömək etmir. Mətnin effektiv şəkildə anlaşılması oxuda olan məlumatların nə məna kəsb etməsi ilə səciyyələnir. Bu zaman bir çox elementlər uşaqların oxunu anlaması bacarıqlarına təsir edir. Bunlara aşağıdakı faktorlar daxildir:

- motivasiya, məqsədlər, əldə olunacaq nəticələr və cəlb olunma
- lüğət, sözlər, şagirdlərin əvvəlki biliklər
- sözlərin avtomatik dekodlaşması
- ardıcıl, rabitəli oxu
- effektiv oxucu tərəfindən oxu zamanı strategiyaların tətbiqi
- məzmunu cəhətdən mətnin asanlığı və ya çətin olması
- mətnin janr xüsusiyyətləri (bədii, nağıl, poetik)
- mətnin həcmi (söz sayı) və anlama çəkisi

*Lüğətin* inkişafı şagirdlərin söz biliklərini və anlayışlarını zənginləşdirmək və genişləndirməkdir. Lüğətin zəngin olması oxuyub-anlama zamanı şagirdlərin əvvəlki bilik və məlumatları xatırlamasına, məzmunu daha tez anlamasına xidmət edir. Bu baxımdan mətnlərdə yüksək tezlikli sözlərin verilməsi vacib şərtlərdəndir. Bu halda ingilis dili mətnlərində yüksək tezlikli sözlərin nə qədər olması çox vacibdir. Mətnləri əvvəlki biliklər daxilində peşəkarcasına oxumaq yalnız yüksək tezlikli sözlərin olması sayəsində baş verir. Təcrübə sübut edir ki, yüksək tezlikli sözlər vasitəsilə oxucular mətni daha tez oxuyur, onun mənasını daha tez anlamağa imkan yaradılır. V-VI siniflərdə nəzərdə tutulmuş təxminən 300-400 sözdən ibarət mətnlərin 65% belə sözlərdən ibarət olmalıdır. Bu zaman göz yaddaşı ilə sözlərin daha tez tanınması və məzmunun anlaşılması daha tez baş verir.

Oxuyub-anlamada lüğətin öyrənilməsinin iki növü vardır: oxuyaraq anladıqları söz və söz birləşmələri - reseptiv lüğət, danışaraq və yazaraq öyrənilən söz və ifadələr - expressiv lüğət adlanır. K.R. Mehiqan öz mülahizələrində məsləhət görürük ki, (Mehigan., K.R. 2009: 183-196) “təlim fundamental şəkildə dil fəaliyyəti üzrə qurulmalı və bu fəaliyyətdə mənanın ötürülməsi lüğətin hesabına baş verməlidir. Bəzən dil bacarıqları üzrə qazanılan və istifadə olunan lüğət məna və işlənmə baxımından bir birindən fərqlənir. Yəni danışıqda istifadə olunan sözlərin çoxu yazıda işlənmir, və ya əksinə oxuda rast gəldiyimiz sözləri biz nitqimizdə digər sözlərlə əvəz edirik. Bu mənada o, lüğəti aşağıdakı formada fərqləndirir:

*Dinləyib-anlama lüğəti* – dinləyərkən anlaşılmasına ehtiyacı olan sözlər

*Danışma lüğəti* – danışarkən istifadə olunan lüğət

*Oxu lüğəti* – oxunarkən anlaşılmasına ehtiyacı olan sözlər

*Yazı lüğəti* – yazı fəaliyyətində istifadə olunan sözlər.

O, bu kateqoriyaların əhəmiyyətli olduğunu iddia edir, çünki şagirdlər lüğət biliklərinin mənbəyi yazılı sözlə daha çox tanış olduqda dəyişir. Zəngin və müxtəlif lüğət ilə şagirdlər oxuduqları mətnləri daha yaxşı başa düşməyə meyl edirlər və onların oxu anlayışları artdıqca, onların söz məlumatları müvafiq olaraq genişlənir. Bəzən əksinə, məhdud söz lüğəti olan şagirdlər, ingilis dilində mətnləri oxuyarkən onun anlayışına qarşı mübarizə aparır, bu isə öz növbəsində onların lüğət inkişafını məhdudlaşdıra bilər. Sözlərin zənginləşməsi mətnlərin oxunmasında da baş verir. Hər bir mətnin öz məzmun və məna müxtəlifliyi olduğu kimi, lüğət müxtəlifliyi də vardır.

Beləliklə, oxuyub-anlamanın pedaqoji-psixoloji xüsusiyyətləri onun məna baxımından müxtəlif kontekstlərdə daha tez fikir yürütməyə, idraki cəhətdən düzgün formalaşmağa, ardıcıl nitqə və geniş lüğətdən istifadə edərək müxtəlif janrları təhlil etməyə imkan verir.

**Məqalənin aktuallığı** ingilis dilinin tədrisində oxuyub-anlama dilin qazanılmasının əsas faktorlarından biri olması ilə səciyyələnir. İngilis dilində oxunun hansı məqsədlərə xidmət etməsi bəzən təlimdə anlaşılmazlıq yaradır. Oxunun dilin mənimsənilməsində əsas faktor kimi qəbul edilməsi artıq pedaqoji yanaşma kimi qəbul edilməyə başlanılmış və digər bacarıqların da bu fəaliyyətdən faydalanması aktuallıq təşkil edir. Digər aktuallığı isə oxu fəaliyyətinə aşağı səviyyəli fəaliyyətlərilə başlamaqdan ibarətdir. Buraya lüğətin öyrənilməsi, yeni söz və ifadələrin anlaşılması, çətin qrammatik strukturlu cümlələrin tərcüməsi və real həyat bağlılığı əks etdirməyən hadisələrin öyrənilməsi daxildir. İngilis dilində ümumi orta təhsil səviyyəsində ilkin oxu prosesinə əsasən qısahəcmli məktubların, hərflərin və hərf birləşmələrinin, bəzi söz və söz birləşmələrinin hecalarla oxunuşu daxildir. Reseptiv bacarıq olaraq, aşağı səviyyəli proses kimi lüğətin öyrənilməsi digər nitq modellərindən daha asan mənimsənilir. Buna əlavə olaraq qeyd etmək lazımdır ki, oxuyub-anlamanın yeni strategiyalarla tətbiqi yeni bir yanaşmadır və müəllimlərin bu strategiyaları pedaqoji-psixoloji cəhətdən tədris etməyə ehtiyacları vardır.

**Məqalənin elmi yeniliyi** məhz oxuyub-anlama zamanı dilin bütün komponentlərinin mənimsənilməsi yeni ingilis dili fənn kurikulumunda öz əksini tapır və oxu standartlarının həm dinləməyə, danışmaya və sonda yazı fəaliyyətinə müsbət təsiri kimi başa düşülür. Ümumi təhsil səviyyəsində şagirdlərin ingilis dilində oxu vərdişlərinin pedaqoji xarakteri məhz bütün həyatı boyu əhəmiyyətli dərəcədə məntiqi və tənqidi düşüncələrini formalaşmasına təsir edir. Dilin müxtəlif qrammatik qaydaları, lüğət və sintaksis təhlili onun reseptiv nəzəriyyəsinə daxil olmaqla, digər modelləri də əsas diqqət mərkəzindədir.

**Məqalənin praktiki əhəmiyyəti** odur ki, yeni pedaqoji-psixoloji yanaşmalar ingilis dili müəllimləri tərəfindən elmi cəhətdən daha düzgün anlaşılacaq və təlim prosesində onun müasir pedaqoji xarakteri strateji cəhətdən yeni üsullarla tətbiq ediləcək, oxuyub-anlamanın koqnitiv xarakteri şagirdlərin marağına səbəb olacaq.

## Ədəbiyyat:


1. Борисова Л.Г. Обучение школьников культуре чтения // Начальная школа плюс до и после, 2007, № 8
2. Flavell, J. Meta-cognitive aspects of problem solving. In L. B. Resnick (Ed.), *The nature of intelligence* Hillsdale, NJ: Erlbaum. 1976
3. Goodman, K. Reading: A psycholinguistic guessing game. *Journal of the Reading Specialist,* 6, 1967
4. Hammerberg, D.Comprehension instruction for sociocultural diverse classrooms: A review of what we know. *The Reading Teacher, 57,* 2004.
5. Mehigan, K.R. The Strategy Toolbox: a ladder to strategic teaching, The Reading Teacher, 58(6), 552-566. http://dx.doi.org/10.1598/RT.58. 2005.
6. Munoz Fuenzalida, C. Reading Comprehension Learning Strategies in EFL lessons. Research Project on Action Research. Retrieved from: http://blogs.funiber.org/formacion-profesores/files/2011/09/ 2010.
7. Stanovich, K. Towards an interactive-compensatory model of individual differences in the development of reading fluency. *Reading Research Quarterly,16*, 1980.


**E-mail:** tahire-033@hotmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* D.Ə. İsmayılova,
*ped.üzrə fəls.dok.* F.M. Hüseynova
**Redaksiyaya daxil olub:** 03.012.2018

*UOT 37.01.*

***Rəbiyə Əli qızı Qəniyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*

# İNGİLİS DİLİNDƏN TƏLİM XARAKTERLİ SİNİFDƏNXARİC TƏDBİRLƏRDƏ X-XI SİNİF ŞAGİRDLƏRİNİN İDRAK FƏALLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ

***Рабия Али гызы Ганиева***
*докторант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# РАЗВИТИЕ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ УЧАЩИХСЯ 10-11 КЛАССОВ ПО АНГЛИЙСКОМУ ЯЗЫКУ НА ВНЕКЛАССНЫХ МЕРОПРИЯТИЯХ УЧЕБНОГО ХАРАКТЕРА

***Rabiya Ali Ganiyeva***
*doctorial student in the program of a Ph.D*
*Ganja State Univercity*

# DEVELOPMENT OF COGNITIVE ACTIVITY OF PUPILS OF 10-11 CLASSES IN THE ENGLISH LANGUAGE AT EXTRA CLASS EVENTS OF EDUCATIONAL NATURE

**Xülasə.** Şagirdlərdə ingilis dilinin öyrənilməsinə motivasiya və idrak marağı yaratmaqla onların idrak fəallığına nail olaraq, təlim prosesini yaxşılaşdırmaq mümkündür. İngilis dilindən sinifdənxaric tədbirlər zamanı məktəbliləri təzə materiallarla daha az yükləmək lazımdır. Əvəzində təlim prosesində onların əldə etdikləri bilik və bacarıqlardan imkan daxilində çox faydalanmaq məsləhətdir. İngilis dili üzrə sinifdənxaric iş formalarının və mövzuların seçimi çox mühüm məsələdir. Qazanılacaq uğurlar bundan çox asılıdır. Təlim xarakterli sinifdənxaric tədbirlərin təşkili zamanı ingilis dili müəllimi xeyirxah psixoloji mühitin yaranmasına nail olmalıdır.

Məqalədə ingilis dilindən təlim xarakterli sinifdənxaric tədbirlərdə X-XI sinif şagirdlərini idrak fəallığının inkişaf etdirilməsi məsələlərinə münasibət bildirilir.

***Açar sözlər*:** sinifdənxaric iş, *ingilis dili, idrak fəallığı, yuxarı sinif şagirdləri, şagirdlərin idrak fəallığı, idrak fəallığının inkişaf etdirilməsi*

**Резюме.** Достигнув познавательной активности путем создания мотивации и познавательного интереса учащихся к изучению английского языка возможно улучшение учебного процесса. Во время проведения внеклассных мероприятий по английскому языку учащихся желательно меньше загружать новыми материалами. Вместо этого надо дать им возможность применить те знания и умения, которые они обрели в процессе обучения. Возможными задачами также являются выбор тем и форм работ внеклассных мероприятий по английскому языку, так как от этого зависит их успех. При организации внеклассных мероприятий учебного характера учитель английского языка должен добиться благоприятной психологической среды.

В статье выражено отношение к вопросам развития познавательной активности учащихся 10-11 классов по английскому языку на внеклассных мероприятиях учебного характера.

***Ключевые слова****: внеклассная работа, английский язык, познавательная активность, старшеклассников, познавательная активность учащихся, развитие познавательной активности*

**Summary.** Having achieved cognitive activity by creating students' motivation and cognitive interest in learning English, it is possible to improve the learning process. During the behavior of extracurricular activities in the English language of students, it is desirable to load less with new materials. Together, this

should give them the opportunity to apply the knowledge and skills that they have acquired in the learning process. Possible tasks are also the choice of topics and the form of work of extracurricular activities in the English language, since their success depends on it. When organizing extracurricular activities of an educational nature, an English teacher should achieve a favorable psychological environment.

***Keywords**: extracurricular activities, English, cognitive activity, high school students, cognitive activity of students, the development of cognitive activity*

Yeni pedaqoji təfəkkür şəraitində təlimin metodikasında humanist yanaşma üstünlük təşkil edir. Pedaqoji prosesin mərkəzində həmişə olduğu kimi hazırda da məktəbli, o cümlədən X-XI sinif şagirdi şagird dayanır. Fəaliyyət şəxsiyyətin əqli, mənəvi-ruhi və fiziki təşəkkülündə mühüm rola malikdir. Tədqiqatlardan görünür ki, təlim prosesi təhsilalanların idrak fəallıqlarının səmərəli təşkili şəraitində təkmilləşir, məqsədə nail olunur.

Təlim fəaliyyəti ilə sıx əlaqədə sinifdənxaric iş humanist tərbiyənin, həyata keçirilməsi, idrak fəallığının inkişaf etdirilməsi xarici dilə, ingilis dilinə yiyələnməni, ünsiyyət vasitəsini, təmin etməklə milli mədəniyyətin mühüm elementi kimi təhsilalanlarda dünyagörüşün formalaşdırılması üçün geniş imkanlar açır. Sinifdənxaric iş ingilis dili müəlliminin qarşısında dayanan bir sıra təlim xarakterli vəzifələrin yerinə yetirilməsinin mühüm vasitəsidir. Həmin vəzifələrə daxildir: ingilis dilinin öyrənilməsi motivasiyasının yüksəldilməsi, təlim bacarıqlarının və vərdişlərinin fəallaşdırılması, ingilis dilli ölkələrin mədəniyyətinə dair məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin biliklərinin baza səviyyəsinin genişləndirilməsi, onların yazılı və şifahi nitqinin və nəhayət, təhsilalanların müstəqilliklərinin, idrak fəallıqlarının və təşəbbüskarlıqlarının inkişaf etdirilməsi və s. Xarici dillər, o cümlədən ingilis dili bizim dünyagörüşümüzü genişləndirir, idrakın, dərketmənin mənbələrinin diapazonunu artırır, digər ölkələrlə dostluq əlaqələrinin möhkəmlənməsinə şərait yaradır.

Sinifdənxaric iş əməkdaşlıq və birgə yaradıcılıq atmosferi olmaq etibari ilə dərslər sisteminin təbii davamı olduğu təqdirdə ünsiyyətə imkan verən həqiqi pedaqoji mühit yaradır.

Deyirlər "dil ünsiyyət vasitəsidir". Həmin sözlərdə dərin həqiqət vardır. Dil bəşəriyyətin ünsiyyətinin çox mühüm formasıdır. Dil insan fəaliyyətinin bütün formalarını, insan həyatının bütün sahələrinə aid olan məsələləri əhatə edir Xarici dili, o cümlədən ingilis dilini bilməklə müxtəlif mövzularda söhbətlər aparmaq, xarici dildə olan nitqi anlamaq, mətni başa düşmək olur.

Dərsdən sonra hər hansı tədbirin hazırlanması zamanı şagirdlərlə daha yaxından ünsiyyətin yaranması lazım bilinir. Bu ünsiyyət tərbiyəvi xarakterli olur.

İngilis dili üzrə sinifdənxaric iş təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici funksiyalara malikdir.

İdrak proseslərinə daxildir: qavrayış, duyğu, diqqət, təsəvvür, yaddaş, təfəkkür, təxəyyül və s. Bunlar hər bir şəxsin fəaliyyətinin tərkib hissələridir və bir-biri ilə qırılmaz tellərlə bağlıdırlar.

Şəxsiyyətin fəallığı probleminin işlənib hazırlanması zamanı idrak nəzəriyyəsi əsas götürülür. İnsan dünyanı dərk edərək, sadəcə ətraf gerçəkliyə uyğunlaşır, lakin dünyaya fəal təsir göstərir, başqa sözlə özünün aktiv fəaliyyəti prosesində ətraf aləmi dərk edir. Şəxsiyyətin ümumi qabiliyyətlərindən söz düşəndə onun inkişafı və idrak proseslərinin səciyyəvi xüsusiyyətləri diqqət mərkəzinə gəlir. Bu proseslər nə qədər çox inkişaf etsə, insan bir o qədər çox və böyük imkanlara malik olur. İdrak prosesləri fəaliyyət prosesində inkişaf edir və özü fəaliyyətin xüsusi növü kimi çıxış edir.

İdrak (dərketmə) insan fəaliyyətinin ən mürəkkəb növlərindəndir. Aktiv fəaliyyət zamanı insan obyektiv aləmin əşya və hadisələri, prosesləri haqqında daha çox duyğulara, qavrayışa və təsəvvürlərə yiyələnir. Yalnız aktiv fəaliyyət insana öyrənilən əşyaların, hadisələrin və proseslərin mahiyyətinə dərindən nüfuz etmək, onların inkişafının qanunauyğunluqlarını aşkara çıxarmaq və öyrənmək, öz tələbatlarına uyğun şəkildə ətraf aləmi gerçəkliyi dəyişdirmək üçün bu qanunauyğunluqlardan istifadə etmək üçün imkan yaradır.

Filosoflar "idrak fəallığı" anlayışına fərqli yanaşırlar. Onlar "fəallığa" fəaliyyətin keyfiyyət səciyyəsi, ölçüsü, təzahür dərəcəsi (səviyyəsi) kimi yanaşırlar. Gerçəkliyə münasibət baxımından fəaliyyət fəaliyyət aktiv formadır. Ona görə

də idrak fəallığını fəallaşdıraraq, şəxsiyyətin də idrak fəallığını formalaşdırmaq mümkündür.

Pedaqoji ədəbiyyatda da idrak fəallığın mahiyyətinə fərqli yanaşmalar mövcuddur. Pedaqogika lüğəti idrak fəallığını şəxsiyyətin biliklərə yiyələnmə prosesində təlimə, əqli gərginliyə cəhdi, iradi səylərinin təzahürünün fəal vəziyyəti kimi müəyyənləşdirir.

İdrak fəallığına K.D. Uşinski də münasibət bildirmişdir. Böyük pedaqoqa görə, idrak fəallığı müəllim tərəfindən təhsilalanların əqli fəaliyyətlərinin təşkili predmeti olub, biliklərin əldə olunmasına və möhkəm dünyagörüşünə şüurlu tələbatın formalaşmasına istiqamətlənir.

Məhz təlim prosesi ilə, ingilis dili dərslərində nəzərdən keçirilən proqram materialları ilə sıx şəkildə əlaqədar olan sinifdənxaric iş öyrənilən fənnin əhəmiyyətli imkanlarını müəyyənləşdirə və belə qənaətə gələ bilər ki, həmin fənni, bu dili məktəb və müəllim üçün deyil, özü üçün öyrənir. Öyrənir ki, gələcək fəaliyyətində ondan faydalansın. Hər bir müəllim, o cümlədən ingilis dili müəllimi istəyir ki, onun dərs dediyi şagird yaxşı oxusun, təlim prosesində fəal olsun, proqram materialını mənimsəsin, idrak fəallığına yiyələnsin. Valideynlər də bunu istəyirlər. Bunun üçün məktəblilərdə təlimə maraq və tələbat formalaşdırılmalıdır. Bu, bir həqiqətdir ki, şagird təlimə və biliklərə laqeyddirsə məşğələlərə marağı olmayacaqdır. Odur ki, müəllimin və məktəbin ümdə vəzifələrindən biri təhsilalanlarda təlim fəaliyyətinə müsbət motivasiyanın yaradılmasından ibarət olmalıdır. Fəaliyyətin məqsədinə uyğun gəldikdə motiv daxili olur. Başqa sözlə, təlim fəaliyyətinin şərtlərində tədris fənninin məzmununa yiyələnmədə həm məqsəd, həm də motiv əsas rol oynayır. Bu zaman sinifdənxaric iş köməyə gəlir.

Xarici motivasiyalı təlim fəaliyyəti o zaman mümkün olur ki, tədris materialına yiyələnmə təkcə məqsədə xidmət etməsin, eyni zamanda digər məqsədlərə nail olmaq vasitəsi kimi özünü göstərsin. Bu, fəaliyyətin yaxşı qiymətləndirilməsi, təriflər, müəllimin tələblərini yerinə yetirmək, yoldaşları tərəfindən bəyənilmə və s. ola bilər. Xarici motivasiya zamanı bilik təlimin məqsədi kimi çıxış etmir, şagirdlər dərketmə prosesindən kənarlaşır.

Əgər öyrənilən fənn (məsələn, ingilis dili) daxilən qəbul olunmursa, ona tələbat yoxdursa, daxili motivasiya mövcud deyilsə, həmin fənnin məzmunu şəxsiyyət üçün dəyərli olmayacaqdır.

Sinifdənxaric işin səmərəli şəkildə həyata keçirilməsində təhsilalanların motivasiyası, idrak marağı bu mənada həmişə aktual olmuşdur, yeni pedaqoji təfəkkür şəraitində bu məsələ daha da aktuallaşır. Motivasiya şəxsiyyətin daxili psixoloji səciyyəsi olub xarici təzahürdə öz ifadəsini tapır. Yuxarı sinif şagirdlərinin tədris-idrak motivasiyası təlimyönlüdür, yaxşı oxumaq arzusunun reallaşdırılmasıdır.

Motivasiyanın beş tipinə diqqət yetirilə bilər:

-məqsədyönlü motivasiya – bu fəaliyyət üçün nə lazımdır, o, nəyə istiqamətlənib, bu fəaliyyət nəyin əsasında həyata keçirilir? Bu suallara cavab düzgün olduqda mənimsəmə yaxşılaşır.

-Uğur motivasiyası - fənnin "naxışı" gətirsə, o, məmnuniyyətlə öyrəniləcək.

-biliklərdən istifadə perspektivləri nəinki dərslərdə, habelə sinifdənxaric fəaliyyət zamanı həyata keçirilirsə, xarici dilin, o cümlədən ingilis dilinin öyrənilməsində motivasiya xeyli dərəcədə yüksəlir.

-ölkəşünaslıq motivasiyası – bu və ya digər ölkənin (o cümlədən Böyük Britaniyanın, Amerika Birləşmiş Ştatlarının və b.) həyatında bütün sosial dəyişikliklərinə cəld reaksiya verir. Bütün bunlar dilin sosial təbiətinin başa düşülməsi üçün böyük dəyərdir.

-estetik motivasiya ingilis dilinin öyrənilməsini məmnunluq, bu dili öyrənmədən razı qalmaq hissinə yiyələnməkdə köməkçi olurdu.

-İnstrumental motivasiya - təhsilalanların temperamentinin nəzərə alınmasına doğru yönəlir və hər bir şagirdə özünü fəaliyyətin hansısa növündə ifadə etmək imkanı verirdi.

Şagirdlərdə ingilis dilinin öyrənilməsinə motivasiya və idrak marağı yaratmaqla onların idrak fəallığına nail olmaqla ümumtəhsil məktəblərində təlim prosesini yaxşılaşdırmaq mümkündür. İngilis dilindən sinifdənxaric tədbirlər zamanı məktəbliləri təzə materiallarla (xüsusən tanış olmadıqları leksik vahidlərin və qrammatik qaydaların əzbərlənməsinə xidmət edən) daha az yükləmək, bunun əvəzində təlim prosesində onların əldə etdikləri bilik və bacarıqlardan imkan daxilində çox faydalanmaq lazımdır.

İngilis dili üzrə sinifdənxaric iş formalarının və mövzuların seçimi çox mühüm məsələdir. Qazanılacaq uğurlar bundan çox asılı olacaqdır.

Sinifdənxaric tədbirlərin təşkili zamanı ingilis dili müəllimi xeyirxah psixoloji mühitin yaranmasına nail olmalıdır. Bu işi yerinə yetirmək üçün təlimdə yetirməyən, zəif oxuyan şagirdlərə pedaqoji və metodik baxımdan düzgün münasibət göstərilməsi lazım gəlir. Sinifdənxaric tədbirlər, adətən yaxşı oxuyan, və istedadlı şagirdlərlə təşkil olunur. Onlar çox zaman sinifdənxaric iş formalarına (ingilis dili dərnəyinə və s.) qoşulmurlar. İstedadlı, yaxşı və əla qiymətlərlə oxuyan şagirdlərlə müqayisədə zəif oxuyan, təlimdə geri qalan məktəblilərə xüsusi yanaşma tələb olunur.

Müəllim unutmamalıdır ki, əgər o, şagirdi istəklə, qayğı ilə əhatə edərsə, onun imkanlarına inanarsa, qabiliyyətlərini nəzərə alarsa, təşəbbüskarlığına hörmətlə yanaşarsa, müstəqilliyinə şərait yaradarsa istənilən şagird yüksək göstəricilərə nail ola bilər.

Sinifdənxaric iş ingilis dilini öyrənməyə xüsusi marağı və meyili olan şagirdlərin ümidlərini doğrultmalıdır. Sinifdənxaric iş zamanı daha çox təhsilalanların şifahi nitqinin inkişaf etdirilməsi qayğısına qalmaq lazımdır.

Asudə vaxtlarda istifadə olunan dil və ölkəşünaslıq materialının məzmunu şagirdlərin yaş və psixoloji xüsusiyyətlərinə, anlaq səviyyələrinə uyğun gəlməklə yanaşı, ünsiyyət və dərketmədə onların real imkanlarına və istəklərinə cavab verməlidir.

Sinifdənxaric fəaliyyətin həyata keçirilməsi zamanı aşağıdakı vəzifələr həyata keçir:

1. Şagirdlərin dərslərdə qazandıqları biliklərini, praktik bacarıq və vərdişlərini inkişaf etdirmək.

2. Məntiqi təfəkkürün formalaşdırılması qayğısına qalmaq.

3. Daha istedadlı və qabiliyyətli şagirdləri aşkara çıxarmaq, onların daha da inkişafına nail olmaq.

4. İngilis dilinə maraq yaratmaq.

5. Şagirdləri əyləncəli məşğələlərə cəlb etmək.

6. İntizamı möhkəmləndirmək, məqsədyönlülük, mütəşəkkillik və kollektivçilik tərbiyə etmək.

7. Praktik bacarıq və vərdişlərin formalaşdırılması və təkmilləşdirilməsi;

8. Şagirdlərin yaradıcı fəallığının, təşəbbüskarlığının və müstəqilliyinin inkişaf etdirilməsi.

9. Təhsilalanların əqli və praktik əməyə marağının formalaşdırılması;

İngilis dili üzrə təlimin və sinifdənxaric fəaliyyətin fərqi:

1. Şagirdlərin sinifdənxaric tədbirlərdə iştirakının könüllü xarakter daşıması (məcburi təlim fəaliyyətindən fərqli olaraq).

2. Təlimdənkənar xarakterə malik olmaq. Sinifdənxaric iş axşamlar, konsertlər, referatlar və s. formalarda həyata keçirilir.

3. Sinifdənxaric tapşırıqların yerinə yetirilməsində daha çox müstəqilliyin olması.

İngilis dili üzrə sinifdənxaric işin daha çox aşağıdakı formalarından istifadə olunur: 1. İngilis dili üzrə məktəblilərin olimpiadası. 2. İngilis dili həftəsi. 3. Oyunlar. 4. Şən və hazırcavablar klubu üzvlərinin çıxışı. 5. Viktorinalar. 6. Teatr tamaşaları. 7. Bədii əsərlərin səhnələşdirilməsi. 8. Axşamlar. 9. Bayramlar. 10. Müsabiqələr. 11. Layihələrin yaradılması.

Eksperimentə cəlb edilmiş X-XI siniflərdə aşağıdakı müsabiqələr təşkil olunurdu: "Enjoy Conversation with Pearson" (yazılı hissədə 112 və şifahi hissədə 28 iştirakçı); "Nağıllar aləmində" müsabiqəsində ən yaxşı tərcüməçi; ingilis dilində mahnı müsabiqəsi və s.

*Layihələrin yaradılması.* X-XI sinif şagirdləri böyük məmnuniyyətlə öyrənilən mövzu üzrə kompüter təqdimatı təqdim edir. Mingəçevir şəhərinin 10 nömrəli məktəbin X sinfində ingilis dili müəllimi Elnarə Süleymanova şagirdlərlə birlikdə doğma kənd "Hacıkənd"lə bağlı layihəni hazırladılar.

İngilis dili həftəsində Mingəçevir şəhəri 19 nömrəli məktəbdə (ingilis dili müəllimləri Tacmahal Mehdiyevea, eyni zamanda Samirə Paşayeva) XI sinif şagirdləri "Böyük Britaniya" və "Londonun görməli yerləri" mövzusunda layihəni diqqət mərkəzinə gətirdilər.

Sinifdənxaric işin məqsədinə çatmaq, şagirdlərin fəaliyyətini fəallaşdırmaq, məşğələləri daha emosional və maraqlı etmək üçün müxtəlif təşkilati formalardan, metod və priyomlardan istifadə edilməlidir. Bu, dərketmənin səmərəliliyini təmin edir, məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin idrak fəallığını inkişaf etdirir. Sinifdənxaric iş X-XI sinif şagirdlərini cəlb edir, maraqlı və məzmunlu tədbirlərdə həm təşkilatçılar, həm də dinləyici və tamaşaçı kimi yaxından iştirak edirlər. Müəllim isə, sinifdənxaric ünsiyyətdə

şagirdləri daha yaxından tanımaq və onların qabiliyyətlərinə bələd olmaq imkanları qazanırlar.

İngilis dilinin tədrisinin mühüm vəzifələrindən biri nitqin (başqa sözlə danışığın) təlimidir. Nitq situasiyadan kənarda mövcud deyildir, odur ki, ingilis dilinin öyrənilməsi zamanı həyati vəziyyətlərin yaradılması zəruridir. Məktəblilər sinifdənxaric işin kütləvi, qrup halında və fərdi formalarında yaxından iştirak edə bilərlər. Bu, müəllimin bacarığından asılıdır. Haqqında danışılan formalar şagirdlərin əhatə olunma kəmiyyəti ilə, tədbirlərin müntəzəmliyi, şagird qruplarının tərkibinin stabilliliyi müəyyən olunur.

İngilis dili fənni üzrə fərdi iş dili öyrənilən ölkə (İngiltərə, Amerika Birləşmiş Ştatları), əlamətdar günlər və əhvalatlar, görkəmli adamlar haqqında məlumat, yaxud məruzə hazırlayan, ingilis dilində mahnı oxuyan və əzbərdən şeir deyən, səhnəciklər ifa edən, əyani vasitələr hazırlayan, plakatlar, albomlar, stendlər tərtib edən ayrı-ayrı şagirdlərlə keçirilir.

Şagird konfransları xarici dil, o cümlədən ingilis dili üzrə sinifdənxaric işin fərdi formalarına eyni zamanda şagird konfranslarını, elmi işin yazılmasını aid etmək mümkündür.

Son zamanlar, hətta təlimin fərdi vasitəsi kimi layihələr metodlarından da istifadə olunur. Layihələr metodu təlimin forma və vasitələrinin məcmusudur, şagirdə özü fəaliyyətini planlaşdırmaqda, yerinə yetirməkdə və təhlil etməkdə müstəqillik nümayiş etdirmək imkanı verir.

Fərdi iş həm daimi, həm də epizodik xarakter daşıyır.

Sinifdənxaric işin qrup halında formaları iştirakçıların daimi tərkibi ilə diqqət mərkəzinə gəlir və ümumi maraqlara görə şagirdləri öz ətrafında birləşdirir.

İngilis dili fənn üzrə sinifdənxaric işin qrup halında formaları sırasında dərnəklər xüsusən əhəmiyyətlidir. Dərnəklər ingilis dilini öyrənmədə sinifdənxaric işin çox əhəmiyyətli formalarındandır. Onlar müxtəlif tiplidir: danışıq nitqi dərnəyi, kino həvəskarları dərnəyi, xor dərnəyi, poeziya həvəskarları dərnəyi, bədii dərnək, vokal dərnəyi, dram dərnəyi, tərcüməçilər dərnəyi, sinifdənxaric oxu dərnəyi və s. Bəzi metodistlər bütün sinif şagirdləri üçün danışıq (*nitq*) və xor dərnəklərinin (məsələn, Mingəçevir şəhər 3 nömrəli məktəbdə, ingilis dili müəllimləri Azadə Əliyeva, Sevda Rəfiyeva), X-XI siniflər üçün ədəbi-tərcümə və ölkəşünaslıq dərnəyinin təşkilini vacib hesab edirlər.

Əgər xarici dilin, xüsusən ingilis dilinin öyrənilməsi üzrə dərnəkləri sinifdənxaric və məktəbdənkənar işin digər formaları ilə müqayisə etməli olsaq, onda fərqli xüsusiyyətləri aşkarlaya bilərik. Həmin fərqli xüsusiyyətlər hansılardır? Şagirdlərin idrak maraqlarının qarşılıqlı olması; onların ingilis dilini öyrənməyə, bu dil üzrə mükəmməl yazılı və şifahi nitqə malik olmaq və s.

İngilis dili fənni üzrə dərnəklərin eyni yaşlı şagirdlərdən təşkil olunması məqsədəuyğundur. Dərnəyin 10-20 nəfər üzvünün olması məsləhətdir. Dərnək yalnız yaxşı və əla qiymətlərlə oxuyan şagirdlərin deyil, həm də bu dili öyrənməyə maraq göstərən məktəblilərdən təşkil oluna bilər. İş təcrübəsindən görünür ki, orta səviyyədə oxuyan şagirdlər dərnəkdə fəallıq göstərir, həmin fənn (məsələn, ingilis dili) üzrə öz biliklərini artırırlar.

Dərnəklərin yaradılması zamanı məktəblilərin maraqları, imkanları, meyilləri, müəllimin zövqü nəzərə alınmalıdır. Bunlarsız dərnəyin təşkili yolverilməzdir.

İngilis dili dərslərində heç də şagirdləri maraqlandıran bütün məsələləri əhatə etmək, yaxud onların bütün suallarına cavab vermək mümkün olmur. Məktəblilərin idrak maraqları bir sıra hallarda təhsil proqramı və dərsliyin hüdudlarından kənara çıxır. Bu kimi hallarda dərnək işi müstəsna dərəcədə mühüm pedaqoji əhəmiyyət daşıyır.

Oxu və xor dərnəyi mahnı ifaçılığını xoşlayan şagirdlərdən təşkil edilir. İngilis dili müəllimi musiqi müəllimi ilə əlbir işləməklə dərnəyə rəhbərliyi həyata keçirdiyi təqdirdə dərnəyi fəaliyyəti səmərəli olur. Dərnəyin proqramı xalq, estrada, və lirik mahnılardan təşkil olunduqda onun fəaliyyəti maraq doğurur və yaxşı nəticələnir. Xor dərnəyinin məşğələləri müntəzəm keçirilməlidir. Mahnı mətnlərinin fonetik cəhətinə əsas yer verilməlidir.

Dram dərnəyi teatrı sevən, teatr incəsənətinin pərəstişkarı olan ingilis dili müəllimi tərəfindən təşkil olunur. Bu dərnək ingilis dilində bədii qiraəti, rəqsi, ingilis dilində mahnı ifasını, ingilis dilində olan pyesin öyrənilməsini və səhnədə canlandırılmasını nəzərdə tutur. İngilis dilində olan dram əsərinin səhnədə tamaşaya qoyulması

çox vaxt aparır. Əvvəlcə, stol arxasında oxu diqqətdə olur. Bu oxunun məqsədi mətnin ideya-bədii mənasına, onun bütün dil fakturasına yiyələnmək, onu dərk etməkdir. Sonra məşqlər gedir, şagirdlərlə birlikdə mizansların axtarışı başlanır. Dramın, dramdan müəyyən hissənin səhnədə canlandırılması zamanı müəllim şagirdlərin tələffüzünə, diksiyasına fikir verir, dekorasiya, kostyum, qrim barədə fikir mübadiləsi edilir.

Sinifdənxaric işin qrup halında səmərəli formalarından biri də fakültativ məşğələlərdir.

Fakültativlər xarici dil, o cümlədən ingilis dili fənn üzrə ayrı-ayrı mövzuların, qrammatikanın, leksikanın yaxşı öyrənilməsinə, şifahi və yazılı nitqə yiyələnməyə kömək göstərir. Didaktik məqsədlərdən asılı olaraq ingilis dili üzrə fakültativ məşğələlər nəzəri, praktik və kombinəedilmiş fakültativ məşğələlərə bölünür.

Qruplar eyni sinifdən, yaxud paralel siniflərdən komplektləşdirilir. Fakültativlər məcburi məşğələlərlə bağlı deyilsə, o zaman qrupları müxtəlif sinif şagirdlərindən təşkil etmək də mümkündür. Qrupda ən azı 10 dinləyici olur. Məşğələlər ya tədris ili ərzində həftədə 1 saat vaxt çərçivəsində, ya da yarımil ərzində həftədə 2 saat vaxt çərçivəsində, dərsdən əvvəl, yaxud dərsdən sonra keçirilir. Bu sahədə Yevlax rayonu B. Aliyev adına Salahlı kənd tam orta məktəbin ingilis dili müəllimləri Vəfa Əhmədovanın və Alya Yusifovanın fəaliyyətləri qənaətləndiricidir.

İngilis dili üzrə sinifdənxaric işin qrup formalarından biri də tədris ekskursiyadır. Tədris ekskursiyası , adətən məktəbdən kənarda – muzeydə, təbiətin qoynunda, meşədə, istehsalat müəssisəsində keçirilir. Məqsəd gerçəkliyin müxtəlif obyektlərinin, hadisə və təzahürlərinin müşahidə olunması və öyrənilməsidir.

Ekskursiya təlimin müstəqil formasıdır, məktəbdə təlim-tərbiyə işi sistemində mühüm tərkib hissəsidir, şagird şəxsiyyətinin hərtərəfli inkişafına yardımçı olur. Ekskursiya qrupunun tərkibinə tipindən, ekskursiyanın məzmunu və keçirilməsi metodlarından, şagirdlərin yaşından, yerli şəraitdən və hərəkət növündən asılı olaraq, 10-40 uşaq daxil ola bilər. Tədris ekskursiyasının müddəti tədris vəzifələrin, onun həyata keçirilməsinin şəraitlərinə və şəraitinə, şagirdlərin yaşına əsasən müəyyən edilir.

Məzmununa görə tədris ekskursiyaları tematik və kompleks olmaqla iki yerə bölünür. Tematik ekskursiyalar, adətən ingilis dili üzrə bir, yaxud bir-biri ilə sıx surətdə bağlı olan bir neçə mövzunun öyrənilməsi zamanı keçilir.

Kompleks ekskursiyalara iki, yaxud bir neçə fənn üzrə qarşılıqlı surətdə bağlı olan mövzuların öyrənilməsi zamanı müraciət edilir. Bu və ya digər mövzunun, yaxud bölmənin tədrisi zamanı giriş və yekun ekskursiyalar keçirilir.

Sinifdənxaric işin kütləvi formaları, adətən, dəqiq quruluşa malik deyildir. İngilis dili fənni üzrə bədii özfəaliyyət kollektivinin çıxışı, festivallar, karnavallar, tematik axşamlar və s. bu tipli tədbirlərə aiddir. Bu tədbirlər epizodik xarakterli olur.

Məşğələlərin məna əhəmiyyətinə görə ingilis dili üzrə sinifdənxaric işin aşağıdakı formaları diqqət mərkəzinə gətirilə bilər:

Yarış tipli, kütləvi informasiya vasitələri, mədəni-kütləvi, siyasi-kütləvi.

Göstərilən formaların hər bir qrupu konkret tədbirləri nəzərdə tutur. Belə ki, *yarış tipli* tədbirin əsas forması - müsabiqə, oyun, olimpiada, viktorina və s.-dir.

*Kütləvi informasiya vasitələrinə* – məktəb divar qəzetində nəşr, şifahi jurnal, divar qəzeti, elan, bülleten, sərgi-viktorina və s. aiddir.

*Mədəni-kütləvi* xarakterli tədbirlərə daxildir: doğma vətənin, yaxud dili öyrənilən ölkənin (Böyük Britaniya, Amerika Birləşmiş Ştatlar) adət və ənənələrinə, həsr olunmuş axşam; Ümummilli lider Heydər Əliyevin, görkəmli yazıçıların, şairlərin, bəstəkarların, alimlərin, rəssamların, dövlət xadimlərinin, sərkərdələrin, aktyorların həyat və fəaliyyətinə həsr edilmiş axşam-portret; maraqlı insanlarla axşam-görüş; əlamətdar hadisələrlə, bayram günləri ilə bağlı olan tədbir – axşam-xronika və s.

*Siyasi-kütləvi* xarakterli tədbir aşağıdakı formaları əhatə edir: forum, festival, press-konfrans, həmrəylik yarmarkası, telekörpü və s.

Ümumtəhsil məktəbində sinifdənxaric işin ən aktual və səmərəli formalarından biri xarici dil, o cümlədən *ingilis dili həftəsidir*. Bu forma xarakter etibarilə kütləvi forma hesab olunur. Özündə daha çox şagird kontingentini birləşdirir. Quruluşu etibarilə kompleks xarakterlidir, mahiyyətinə və formasına görə müxtəlif tədbirlər kompleksini əhatə edir.

İngilis dili həftəsinin məqsədi ingilis dilini gənc nəsil arasında kütləviləşdirmək, dil vərdiş-

lərini inkişaf etdirmək, ünsiyyət mədəniyyətini, ingilis dilindən praktik istifadəyə tələbat tərbiyə etmək, şagirdlərin dünyagörüşünü və idrak fəallığını genişləndirməkdən ibarətdir.

Eksperimentə cəlb edilmiş məktəblərdə ingilis dili həftəsi elan olunurdu. Həftədə hər bir ingilis dili müəllimi özünün yaradıcılıq imkanlarını diqqət mərkəzinə gətirirdi: Şən və Hazırcavablar Klubunun çıxışları, “dəyirmi masa”, radioveriliş, viktorina, müsabiqə, yarış, konsert, tamaşa və s. belə tədbirlərdən idi. Həftənin keçirilməsi şagirdlərə praktikada öz biliklərini tətbiq etmək, əcnəbi dili öyrənmək sahəsində öz qüvvələrini sınamaq, bir-biri ilə yarışmaq, daha çox uğur qazanmaq imkanı verir.

Ümumtəhsil məktəbində ingilis dili həftəsi bu dilin öyrənilməsinə marağın və şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi baxımından faydalıdır. İngilis dili həftəsi tədris ilinin müəyyən dövründə xüsusi proqrama əsasən təşkil olunur. Proqramda haqqında danışılan həftənin məqsədi, məzmunu və onun komponentlərinin hər birinin forması özünün aydın ifadəsini tapır.

**Problemin aktuallığı.** İngilis dilindən təlim xarakterli sinifdənxaric tədbirlərdə X-XI sinif şagirdlərini idrak fəallığının inkişaf etdirilməsi xüsusi aktuallığa malikdir.

**Problemin yeniliyi.** İngilis dilindən təlim xarakterli sinifdənxaric tədbirlərdə X-XI sinif şagirdlərini idrak fəallığının inkişaf etdirilməsinə diqqət yetirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün əhəmiyyətli olacaqdır.

**Ədəbiyyat:**

1. Məmmədli L.A. Tələbələrin idrak fəallığının inkişaf etdirilməsi yolları / Doktorantların və gənc tədqiqatçıların XV respublika elmi konfransının materialları. Bakı Dövlət Universiteti – 9-10 dekabr 2010

2. Məmmədli L.A. Tələbələrdə yaradıcı fəallığın və idrak müstəqilliyin inkişaf etdirilməsi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2009, № 1

3. Aghayev Z., Aliyeva N., Huseynova G. English: Text-book for 10 class. Baku: Aspoligraph, 2007.

4. Guliyeva G., Rustəmova Kh. English: Student’s Book for 10 th grade of the general secondary schools. Baku: Kovsar, 2018.

5. Guliyeva G., Rustəmova Kh., Aslanova G. English: Student’s Book for 11 th grade of the general secondary schools. Baku: Kovsar, 2018.

6. Rustəmova Kh., Guliyeva G., Aslanova G. English: Techer’s Book: English as the main foreign language for 11 th grade of the general secondary schools. Baku: Kovsar, 2018.

**E-mail:** gadimov0600@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* F.Ə. Rzayeva
**Redaksiyaya daxil olub**: 24.10.2018

## TƏSVİRİ İNCƏSƏNƏTİN TƏDRİSİ METODİKASI

*UOT 37.01.*

**Emilya Məmməd qızı Həsənova**
*Gəncə Dövlət Universitetinin sabiq doktorantı*

# İNCƏSƏNƏTƏ DAİR DƏRS-SÖHBƏTLƏR TƏSVİRİ İNCƏSƏNƏT TƏLİMİNİN SƏMƏRƏLİLİK ŞƏRTİ KİMİ

**Эмилья Мамед гызы Гасанова**
*бывший докторант Гянджинского Государственного Университета*

# УРОКИ-БЕСЕДЫ ПО ИСКУССТВУ КАК УСЛОВИЕ ЭФФЕКТИВНОСТИ ПРЕПОДАВАНИЯ ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА

**Emilya Mammad Hasanova**
*former doctoral student of Ganja State University*

# LESSONS CONVERSATIONS ON ART AS A CONDITION OF THE EFFICIENCY OF TEACHING FINE ARTS

**Xülasə.** Yeni pedaqoji təfəkkür şəraitində fənlərin tədrisində müxtəlif üsul və vasitələrdən, səmərəli metodikalardan istifadə olunur ki, şagirdlər tədris materialını asanlıqla mənimsəyə bilsin, həyati bacarıqlara yiyələnsin, onların idrak fəallığı və yaradıcı müstəqilliyi inkişaf etsin. Hazırda ümumtəhsil məktəblərinin başlıca məqsədi təhsilalanların əqli, mənəvi, emosional və fiziki inkişafı qayğısına qalmaqdır. Təsviri incəsənət müəllimlər bu sahədə fəallıq göstərir, keçdikləri dərslərin qarşısında duran vəzifələri yerinə yetirməyə çalışır, pedaqoji ustalıqları, nəzəri və metodik hazırlıqları sayəsində buna nail olurlar. Təsviri incəsənət fənninin səmərəli tədrisi məqsədilə müxtəlif vasitələrdən istifadə olunur. Həmin vasitələr sırasında incəsənətə dair dərs-söhbətlərin özünəməxsus əhəmiyyəti vardır.

Məqalədə incəsənətə dair dərs-söhbətlər təsviri incəsənət təliminin səmərəlilik şərti kimi nəzərdən keçirilir.

***Açar sözlər**: təsviri incəsənət, dərs-söhbət, səmərəlilik, səmərəlilik göstəricisi, yeniyetmə*

**Резюме.** В условиях нового педагогического мышления в преподавании предметов используются различные методы и средства, а также эффективные методики позволяющие учащимся осваивать учебные материалы, приобретать жизненно важные навыки, и тем самым способствующие развитию их познавательной активности и творческой самостоятельности. В настоящее время основной целью общеобразовательных школ является забота о психическом, духовном, эмоциональном и физическом развитии учащихся. Учителя изобразительного искусства активно работают в этой области, стараются выполнять задачи, стоящие перед уроками, и благодаря педагогическиму мастерству, теоретической и методической подготовке достигают этого. С целью эффективного преподавания изобразительного искусства используются различные средства. Среди этих средств особое значение имеют уроки-беседы по искусству.

В статье уроки-беседы по искусству рассматриваются как условие эффективности преподавания изобразительного искусства.

***Ключевые слова**: изобразительное искусство, урок-беседа, эффективность, показатель эффективности, подросток*

**Summary.** Under the conditions of new pedagogical thinking in teaching subjects, various methods and means are used, as well as effective techniques that allow students to master learning materials, acquire vital skills, and thereby contribute to the development of their cognitive activity and creative independence. Currently, the main purpose of secondary schools is to take care of the mental, spiritual, emotional and

physical development of students. Fine art teachers are actively working in this field, trying to fulfill the tasks of the lessons, and thanks to their pedagogical skills, theoretical and methodical preparation, they achieve this. For the purpose of effective teaching of the fine arts various means are used. Among these tools, lessons on art conversations are of particular importance.

The article discusses lessons on art as a condition for the effectiveness of the teaching of the visual arts.

***Keywords***: *art, lesson-conversation, efficiency, efficiency indicator, teenager*

Müasir dövrdə respublikamızsa yaddaş məktəbindən təfəkkür məktəbinə keçid təhsilin mühüm istiqamətlərindən biri olmuşdur. Hazırda Azərbaycanda təhsilin inkişaf etdirilməsi, dünya təhsil sisteminə özünə layiqli yer tutması, təlimin məzmununun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində məqsədyönlü, sistemli və fasiləsiz işlər aparılır. Ümumtəhsil fənləri sırasında təsviri incəsənət fənni özünəməxsus rola malikdir. Yeni pedaqoji təfəkkür şəraitində fənlərin tədrisində müxtəlif üsul və vasitələrdən, səmərəli metodikalardan istifadə olunur ki, şagirdlər tədris materialını asanlıqla mənimsəyə bilsin, həyati bacarıqlara yiyələnsin, onların idrak fəallığı və yaradıcı müstəqilliyi inkişaf etsin. Hazırda ümumtəhsil məktəblərinin başlıca məqsədi təhsilalanların əqli, mənəvi, emosional və fiziki inkişafı qayğısına qalmaqdır. Təsviri incəsənət müəllimlər bu sahədə fəallıq göstərir, keçdikləri dərslərin qarşısında duran vəzifələri yerinə yetirməyə çalışır, pedaqoji ustalıqları, nəzəri və metodik hazırlıqları sayəsində buna nail olurlar.

Təsviri incəsənət fənninin səmərəli tədrisi məqsədilə müxtəlif vasitələrdən istifadə olunur. Həmin vasitələr sırasında incəsənətə dair dərs-söhbətlərin özünəməxsus əhəmiyyəti vardır.

Problemi bir sıra səbəblər aktuallaşdırır:

1. Dövlət sənədlərində səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasını və təlimin məzmununun təkmilləşdirilməsini mühüm tələb kimi irəli sürür. ailə problemlərinə diqqət yetirir, onun möhkəmləndirməsi qayğısına qalır. Bu, Təsviri incəsənət fənninin məzmununun optimallaşdırılmasını və tədrisdə səmərəli metodlardan və vasitələrdən istifadə olunmasını gündəmə gətirir.

İkincisi, bəzi müəllimlər Təsviri incəsənət fənninin tədrisi prosesində dərs-söhbətlərin imkanlarını lazımınca qiymətləndirmirlər.

Üçüncüsü, Təsviri incəsənət fənninin tədrisi prosesində dərs-söhbətlərin səmərəli təşkilinə istiqamətlənmiş zəruri ədəbiyyat yoxdur və problemi özündə ehtiva edən tədqiqat aparılmamışdır.

Qarşıda dayanan vəzifələrin müvəffəqiyyətli həlli təsviri incəsənət dərslərinin səmərəli təşkilini tələb edir. Məhz maraqlı və canlı qurulan məşğələlər şagirdləri cəlb edir, onların fəallığını, o cümlədən yaradıcı fəallığını təmin edir. Bütün bunları nəzərə alaraq müəllim təlimin müxtəlif təşkilati formalarına müraciət etməlidir. Bu baxımdan dərs-söhbətlər özünəməxsus rol oynayır.

Təsviri incəsənət haqqında təsəvvürlər I sinifdən etibarən şagirdlərdə yaradılır. Onlara təsviri incəsənətin meydana gəldiyi zaman, təsviri incəsənətə aid əsərlər, memarlıq və peyzaj haqqında məlumat verilir. Şagirdlər rəsmin növləri (naturadan, yaddaşa əsasən, eskiz və s.), təsviri incəsənət əsərləri (şəkil, rəsm, kitab illüstrasiyası, qravüra, heykəltəraşlıq, dekorativ-tətbiqi incəsənət əsərləri və s.) ilə tanış olur; rəssam haqqında məlumat əldə edir, rəssamın hansı insanı, hansı əşyaları, hansı hadisələri (janrlar haqqında ilkin təsəvvürlər kimi) təsvir etdiyini öyrənirlər.

Təcrübəli təsviri incəsənət müəllimləri təlimin müxtəlif təşkili formalarından, interaktiv metodlardan, informasiya kommunikasiya texnologiyalarından faydalanmaqla yanaşı, qeyri-standart dərslərin (dərslər-işgüzar oyunlar, yarış dərsləri, fantaziya dərsləri, həqiqəti axtarma dərsləri; möcüzələr aləmi dərsi, kompüter dərslər, dərslər-oyunlar, dərslər-rollu oyunlar, dialoq dərsləri, açıq fikirlər dərsi, evrika-dərs, yaradıcılıq dərsi, müsabiqə-dərs, inteqrasiya-dərs, dərs-oyun, işin qrup formasında olan dərslər, yaradıcılıq dərsləri və s.) imkanlarından bacarıqla istifadə edir, təsviri incəsənət üzrə məşğələləri maraqlı və cəlbedici edirlər.

Qeyri-standart dərs dedikdə, qeyri-standart quruluşa malik tədris məşğələsi anlaşılır. Qeyri-standart dərs standart dərsdən fərqlənir. Onun bir çox növləri vardır. Onların adları bu tipli dərslərin məqsəd və vəzifələri, aparılması metodikası haqqında təsəvvür yaradır. Adi, ənənəvi dərsin konkret mərhələləri olur. Bu mərhələlər isə, müəllimlə yanaşı şagirdlərə də tanışdır.

Hansı mərhələdən sonra hansı mərhələnin gələcəyini məktəblilər də çox yaxşı bilirlər. Qeyri-standart dərslər təhsilalanların müstəqilliyini, təşəbbüskarlığını, yaddaşını, təfəkkürünü, təxəyyülünü və iradəsini inkişaf etdirir. Lakin bir məsələ diqqət mərkəzində dayanmalıdır. Qeyri-standart dərsə aludə olub hər dəfə ona müraciət etmək də məsləhət bilinmir. Bu, qeyri-standart dərsə marağı söndürə bilər. Bundan başqa, standart dərsin pis, qeyri-standart dərsin yaxşı olduğu qənaətinə gəlmək də düzgün deyil. Həm standart, həm də qeyri-standart dərslərdən istifadə etməklə təlim prosesinin səmərəliliyinə nail olmaq mümkündür. Bunun üçün şagirdlərdə təlimə motivasiya, öyrənməyə tələbat formalaşdırılmalı, həm müəllim, həm də məktəblilər fəal olmalıdırlar. Qeyri-standart inkişafedici təlimin təşkili şagirdlərin əqli fəaliyyət priyomlarına yiyələnmələrindən ötrü şəraitin yaradılmasından ibarətdir.

Prof. A.N. Abbasovun qeyd etdiyi kimi, “qeyri-standart dərslər improvizasiya edilmiş tədris məşğələsi olub, qeyri-ənənəvi quruluşa malikdir” .

Professor pedaqoji ədəbiyyata istinadən, qeyri-standart dərslərin aşağıdakı növlərinə diqqəti cəlb edir: “məqbul dərslər, dialoq dərslər (Sokrat (şagirdinə): “Bilirsən mən nə üçün özüm danışmayıb sənə müraciət edirəm? Müsahibə xatirinə”. Buradan Sokratın müsahibə metodu meydana gəlib); inteqral dərslər: şagirdlər müxtəlif fənlərdən yeni biliklər ala bilir, belə dərsləri 2-3 müəllim aparır; müşahidə dərsləri; möhkəmə dərsləri; həqiqəti tapma dərsləri; səyahət dərsləri; şagirdlərin apardıqları dərslər; dərslər-mətbuat konfransları; məsləhət dərsləri; dərslər ekskursiyalar; səhnələşdirilmiş dərslər; möcüzələr aləmi dərsləri; dərslər seminarlar; mühazirə dərs; hazırcavablar dərsləri; məqbul dərsləri; yarış dərsləri; fantaziya dərsləri; yaradıcılıq dərsləri; kompüter dərsləri; dərslər konsertlər və s.

Mövcud ədəbiyyatla tanışlıq zamanı aşağıdakı qeyri-standart dərslərin adlarının çəkildiyinin şahidi olduq: dərs-benefis, fənlərarası dərs, yaşlararası dərs, dərs-paradoks, dərs-səyahət, dərs: - Nə? Harada? Nə zaman? dərs-ədəbi mehmanxana, dərs-musiqi salonu, rəsm qalereyasında, muzeydə, teatrda dərs istehsalatda, çöldə, meşədə dərs, reqlamentləşdirilməmiş dərs, dərs-soruş-cavab verək, dərs-döyüş (fənn), dərs-praktikum, dərs-biliklərə baxış, təlim fəaliyyətinin səmərəli təşkili üzrə şagirdlərin təcrübə mübadiləsi dərsi, dərs-ünsiyyət.

Qeyri-standart dərslər arasında dərs-söhbətin özünəməxsus rolu və əhəmiyyəti vardır. lakin pedaqoji ədəbiyyatda bir çox müəlliflər nədənsə dərs-söhbəti qeyri-standart dərslər sırasına daxil etmirlər.

Dərs-söhbətlərin bir sıra üstünlükləri vardır. Mövcud elmi-pedaqoji və metodik ədəbiyyatla, müdafiə olunmuş dissertasiyalarla tanışlıqdan görünür ki, dərs-söhbətlər, xüsusən təsviri incəsənət fənni üzrə dərs-söhbətlər ya xüsusi tədqiqatların mövzusu olmamış, yaxud da bu problemə az diqqət yetirilmişdir. Dərsdə söhbət (dərs-söhbət) uşaqların yaradıcı təxəyyülünü fəallaşdırır, onların nitqini və yaddaşını inkişaf etdirir, məktəblilərə öz fikirlərini savadlı ifadə etməkdə kömək göstərir. Aparılmış söhbətdən sonra şagirdlərin rəsmə başlaması faydalı olur. Onlar şəkilçəkmədə, hadisə və əşyaları canlandırmaqda daha az səhvlərə yol verirlər. Fantaziya güclənir. Dərs-söhbətlər tərbiyəedici funksiyaya malikdir. Azərbaycan və xarici ölkə rəssamlarının əsərləri ilə tanışlıq nəticəsində incəsənətə maraq artır, gözəlliyə meyil hissi, eyni zamanda doğma təbiətə məhəbbət duyğusu inkişaf edir.

Təsviri incəsənət fənninin məqsədi məktəblilərin estetik dünyagörüşünün və hissiyyat aləminin inkişaf etdirilməsi qayğısına qalmaq, bədii təsvir vasitələrindən faydalanmaqla hadisələri canlandırmaqdan ibarətdir. Fənn yaradıcı təxəyyülə malik, incəsənət əsərlərini duyaraq qiymətləndirən, obrazlı və simvolik düşünmə qabiliyyətinə yiyələnmiş şəxsiyyətin formalaşdırılmasına istiqamətlənmişdir.

Məktəblilərdə idrak fəallığını və yaradıcı qabiliyyətləri inkişaf etdirmək təhsilin qarşısında duran ümdə vəzifələrdəndir. Bu məsələ nə üçün diqqət mərkəzindədir? Başlıca olaraq iki səbəb həmin məsələni aktuallaşdırır. Əvvəla, etiraf etmək lazımdır ki, şagirdlərdə təlimə maraq azalmışdır. İbtidai siniflərdə məktəblilər yaxşı oxumaq üzrə bir-birilə bəhsə girir, müəllimlə birgə, onun köməyi ilə bir çox həqiqətlərə bələd olur, onlara məlum olmayan məsələləri öyrənirlər. Kiçik yaşlı məktəblilərdə öyrənməyə həvəs böyükdür. IV sinfin sonlarına yaxın şagirdlərin bir qismində təlimə maraq azalır. La-

kin beşinci sinfə gələn məktəblilərin çoxunda təlimə motivasiya güclü olur. Lakin yenə də X-XI siniflərdə təlimə maraq xeyli aşağı düşür. Səbəb nədir? Tədris proqramının artan mürəkkəbliyi və yüklənməsi arasında, eyni zamanda şagirdlərə verilən tələblərin daimi yüksələn tələbləri ilə şagirdlərin materialı mənimsəmə imkanları arasındakı ziddiyyətlər başlıca səbəbdir.

İkincisi, hətta tədris proqramını lazımi səviyyədə mənimsəməyə qadir olan şagirdlər də qeyri-standart tədris vəziyyətlərində çətinlik çəkir, müvafiq tapşırıqları yerinə yetirə bilmirlər.

Təsviri incəsənət fənni üzrə materiallarla təlim və təlimdənkənar məşğələlərdə tanış olan məktəblilərdə bədii zövq və yaradıcı təxəyyül inkişaf edir, onlar incəsənət əsərlərini dərk edərək qiymətləndirməyi bacarır, simvolik düşüncə tərzinə yiyələnirlər. Bu sahədə, təbii ki, fənn üzrə dərsliklər önəmli rol oynayır. Dərsin səmərəliliyini, maraqlı və cəlbedici olmasını isə bir sıra vasitələr təmin edir. Onların sırasında incəsənətə dair söhbətlərin özünəməxsus əhəmiyyəti vardır. Bunu nəzərə alan qabaqcıl müəllimlər, yeri gəldikcə, dərs-söhbətlərə müraciət edirlər. Dərslərdə şagirdlər təhsillənir, tərbiyələnir və inkişaf edir. Yeni pedaqoji təfəkkür təhsilə insan kapitalının formalaşdırılması vasitəsi kimi baxılmasını tələb edir. Həmişə olduğu kimi, müasir şəraitdə də təhsilin məzmunu, o cümlədən Təsviri incəsənət fənninin məzmunu yeniləşdirilməlidir. Cəmiyyət inkişaf etdikcə buna tələbat yaranır.

Məktəblilər təsviri incəsənətin ayrı-ayrı dövrlərinə, mərhələlərinə, növlərinə və janrlarına həsr olunmuş dərs-söhbətlər zamanı, həmçinin praktik məşğələlər prosesində incəsənətin tarixinə ekskurs edirlər. Əsas məqsəd – təsviri incəsənətin dilinin əsaslarını anlamağı şagirdlərə öyrətmək, əsəri onun məzmunu və formasının vəhdətində görmək, müxtəlif növlü və janrlı əsərləri müstəqil təhlili etməkdən ibarətdir. Nəticədə şagirdlər ölkəmizdə və xaricdə yaradılmış qiymətli şəkilləri, abidələri (heykəlləri), memarlıq qurğuları haqqında müfəssəl məlumatlar alırlar.

İncəsənətlə təması əmək və mənəvi tərbiyə ilə, o cümlədən incəsənətin tarixi ilə (rəssamın əməyi, onun şəxsiyyəti, onun yaradıcılığının tərbiyəvi cəhəti ilə) əlaqələndirmək məsləhətdir.

Beləliklə, təsviri incəsənət haqqında dərs-söhbətlər tərbiyəedici təsir göstərmək, onların mənəvi və ideya-siyasi inam və əqidəsini, vətənpərvərlik hisslərini formalaşdırmaq, incəsənətə məhəbbət, bədii zövq tərbiyələndirmək, yaradıcı təxəyyülünü inkişaf etdirmək baxımından zəngin material verir. Söhbətlərin məktəblilərin müstəqil təsviri fəaliyyəti ilə, başqa sözlə, naturadan, yaddaşa əsasən və təsəvvürə əsasən rəsmlər, həmçinin dekorativ rəsmlər çəkməklə uzlaşdırmaq lazımdır. III sinifdən etibarən şagirdlərin incəsənətlə tanışlığına tamamilə ayrı-ayrı dərslərə (ildə 5-6 saat) ayrılır; digər dərslərdə təsviri incəsənətə dair bilikləri konkret tapşırıqlar üzərində praktik işlə bağlı alırlar.

"Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin I-IX sinifləri üçün təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu)"nda təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətlərindən söz açılır. İncəsənətə dair dərs-söhbətlər V-VII siniflərdə təhsil alanların bir tərəfdən estetik zövqünü, estetik düşüncə və təfəkkürünü, digər tərəfdən hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarını inkişaf etdirir, son nəticədə onlarda estetik və bədii mədəniyyət formalaşdırır. İnteqrasiya nəticəsində təsviri incəsənət fənninin məzmunu tədricən yeni məlumatlarla zənginləşir, mövzulararası əlaqələr sayəsində maraqlı olur.

V-VII siniflərdə dərs-söhbətlərin təşkili zamanı incəsənətə dair şagirdlərə məlumatların verilməsi zamanı fənlərarası və fəndaxili əlaqələrə müraciət olunması, bir tərəfdən şagirdlərin marağına, onların zəruri məlumatlara yiyələnmələrinə şərait yaradır, onların fəallığını, biliklərə yiyələnmə həvəsini və tələbatını artırır, digər tərəfdən, incəsənət təliminin səmərəliliyini yüksəldir.

Fənn müəllimi nəzəri və metodik hazırlığa malik olmalı, pedaqoji ustalıq nümayiş etdirməlidir. Bu sahədə müəllim-şagird münasibətlərinin düzgün qurulması da az əhəmiyyət daşımır. Yüksək nəzəri hazırlığa malik olmaq hələ müəllim üçün kifayət etmir, o, metodik səriştəyə də yiyələnməlidir. Bundan başqa, şagirdlərlə ünsiyyəti qura bilmirsə, onların yaş və anlaq səviyyələrini nəzərə almırsa, həm də müəllim-şagird ünsiyyəti lazımi səviyyədə deyilsə, dərsin məqsədinə çatmaq çətin olur.

Bəzən təsviri incəsənət müəllimləri şagirdlərin fənnə maraq göstərməməyindən, valideynlər də müəllimlərdən şikayətlənirlər. Unu-

dulur ki, yeknəsəq keçilən dərslər şagirdləri cəlb etmir. Onlar məşğələlərin rəngarəngliyini, müəllimlərin fəallığını və özlərinin fəal təlim əməyinə qoşulmalarını daha çox xoşlayırlar. Məsələn, ümumtəhsil məktəblərində incəsənətə dair aparılan söhbətlər təsviri incəsənət təliminin səmərəliliyini artırır, məktəblilərdə maraq doğurur.

Müəllimlər təlim prosesini müxtəlif vasitələrin köməyi ilə optimallaşdıraraq, məktəblilərin, o cümlədən V sinif şagirdlərinin dünyagörüşünü, idrak fəallığını, müstəqilliyini, yaradıcı qabiliyyətlərinin inkişaf etdirməyə çalışmalı və buna nail olmalıdırlar. Bu məqsədlə, yeri gəldikcə, dərs-söhbətlərin imkanlarından faydalanmaq məqsədəuyğundur. Təbii ki, müəllim öyrənməlidir: təsviri fəaliyyətin hansı növü şagirdləri daha çox maraqlandırır. Müəllimin şagirdlərlə əməkdaşlığı, birgə fəaliyyəti, qarşılıqlı anlama şəraiti təlimin səmərəli metodu kimi özünü göstərir.

Dərs-söhbətlin təşkili zamanı müəllim perspektiv planlaşdırma zamanı göstərilən bacarıqlara sahib olmalıdır ki, məşğələni optimallaşdırsın, dərsdə yüksək nəticələrə nail olsun, şagirdlərin müstəqilliyini, idrak fəallığını təmin etsin.

Təsviri incəsənət fənninin tədrisi zamanı müxtəlif məşğələ növlərinə müraciət olunması məqsədəuyğun hesab edilir. Müəllimin rəhbər rolu ön plana çəkilir, ondan təşkilatçılıq qabiliyyətlərinə yiyələnmək, peşəkarlıq tələb edilir.

Dərs-söhbətlərin təşkilində digər tədris resurslarından fərqli olaraq dərsliklər və müəllim üçün metodik vəsaitlər əhəmiyyətli rol oynayır. Metodik vəsaitlər müəllimdən ötrü etibarlı yol göstərici və istiqamətləndiricidir. İncəsənətə dair dərs-söhbətlər təsviri incəsənət təliminin səmərəliliyini artırır.

Təsviri incəsənət dərslərində incəsənətə dair məlumatların dərs-söhbətlərin köməyilə şagirdlərə çatdırılması və əyanilikdən faydalanmaq təlim prosesini maraqlı edir.

Dərs-söhbətlərin səmərəli və yüksək səviyyədə təşkilində müəllimin üzərinə mühüm vəzifələr düşür. Səmərəlilik və yüksək nəticələrə nail olmaq, təlimin keyfiyyətini artırmaq müəllimin nəzəri və metodik hazırlığından, pedaqoji ustalığından, müəllim-şagird münasibətlərini necə qurmasından, pedaqoji əməkdaşlığın səviyyəsindən, sinfin idarə olunmasında hansı rəhbərlik üslublarına önəm verməsindən çox asılıdır.

Yan Amos Komenski vaxtilə deyirdi: "Biz təlimin mütləq irəliyə doğru getməsi və aldadıcı nəticələrə gətirib çıxmaması üçün təlimi möhkəm əsaslar üzərində qurmaq sənətinin mümkün olmasını nəzərdən keçirməliyik".

Dərs-söhbətlər zamanı müəllimin səyi ona doğru yönəlməlidir ki, V-VII sinif şagirdləri incəsənət əsərlərini başa düşüb düzgün qiymətləndirsinlər. Şagirdlər mənəvi-estetik ideallar əsasında tərbiyə olunmalı; məktəblilərin yaradıcı müstəqillikləri təmin edilməli; mənəvi-ruhi aləmi və estetik tələbatları formalaşmalı, təşəbbüskarlıqları və fəallıqları, bədii obrazlarla düşünmə qabiliyyətləri inkişaf etməlidir.

Təlimin keyfiyyətinin yaxşılaşdırılması, optimallaşdırılması və təkmilləşdirilməsi üçün bütün bunlarla yanaşı müəllim həm də şagirdlərini də tanımalıdır. Müəllim-şagird münasibətləri düzgün qurulmasa, digər fənlərdə olduğu kimi təsviri incəsənətin təlimi sahəsində də lazımi göstəricilərə nail olmaq çətinlik törədər.

Bu, bir həqiqətdir ki, heç də bütün şagirdlər proqram materiallarını eyni dərəcədə mənimsəməyi bacarmır. Bəzi məktəblilər bu və ya digər mövzuya aid materialı tez, asanlıqla və lazımi səviyyədə qavrayır, başqaları bunu bacarmırlar. Fəal şagirdlər frontal və fərdi sorğular zamanı şüurluluq və fəallıq göstərir, dərsə hazırlaşmayan, təlimdə yetirməyən məktəblilər əzbərçiliyə meyil edir, yaxud ümumiyyətlə, dərsə hazır gəlmirlər. Şagirdlərin bir qismində yaradıcı müstəqillik, idrak fəallığı yaxşı formalaşdığı halda, digər qismində müstəqillik bacarığını, idrak fəallığı inkişaf etdirmək çətinlik törədir.

Təlimdə fərdi yanaşma, təbii ki, təlim prosesində şagirdlərin fərdi xüsusiyyətlərinin diqqət mərkəzində saxlanmasını nəzərdə tutur. Bu və ya digər şagirdin, ümumilikdə məktəblilərin fərdi xüsusiyyətləri nəzərə alınmaqla bu xüsusiyyətlərə (fərdi modelə) uyğun şəkildə onlarla təlim işləri aparılır. Təlim prosesində, xüsusən dərs-söhbətlər zamanı fərdi xüsusiyyətlərin nəzərə alınması diqqətdən kənarda qalarsa, məktəblilərin, o cümlədən V-VII sinif şagirdlərinin əqli inkişafı ləng gedir, onlarda idrak fəallığı və tədris materialı mənimsəmə tempi aşağı düşür. Bütün bunların əvəzində təhsilalanlarda tənbəllik, təlimə məsuliyyətsiz münasibət meydana

gəlir, daha çox təlimdə yetirməyən şagirdlər bunun əziyyətini çəkirlər.

Pedaqoji təsir, adətən şagirdin psixoloji xüsusiyyətləri vasitəsilə həyata keçir. Odur ki, təsirin xarakteri və səmərəliliyi təkcə onun obyektiv xüsusiyyətləri ilə müəyyən olunmur, həm də bu təsirin şagird tərəfindən necə qəbul olunması ilə şərtlənir. Beləliklə, tərbiyədə fərdi yanaşmanın mahiyyəti onunla müşayiət olunur ki, tərbiyənin məqsədi nəinki yaş xüsusiyyətləri ilə, həm də fərdi xüsusiyyətləri ilə konkretləşir. İstər təlim prosesində, istərsə də tərbiyəetmə zamanı fərdi yanaşmanı həyata keçirmək üçün təhsilalanların psixoloji xüsusiyyətlərini öyrənmək lazım gəlir. Bu məqsədlə müxtəlif tədqiqat metodlarından istifadə olunur. onları diqqət mərkəzinə gətirək: müşahidə, söhbət, müsahibə, sorğu testlər və s.

Təcrübəli təsviri incəsənət müəllimi təlim və tərbiyənin fərdi yanaşma prinsipindən istifadə edərkən aşağıdakı məsələləri diqqətdə saxlayır: şagirdləri, onların fərdi xüsusiyyətlərini və fəaliyyətini, həyat tərzini, durub-oturduqları yoldaşlarının kim olduğunu öyrənmək; məktəblilərdə bu və ya digər keyfiyyətləri formalaşdırmağın məqsəd və vəzifələrini (onların qüsurlarını) müəyyən etmək; şagirdlərin xüsusiyyətlərini və fəaliyyətini hesaba almaqla tərbiyənin vəzifələrinə və şəxsiyyətin təlimi vəzifələrinə uyğun olaraq, pedaqoji təsirin prinsiplərini, metod, vasitə və priyomlarını tətbiq etmək; bu və ya digər məktəbliyə pedaqoji təsirin tətbiqi nəticələrinin təhlili.

Dərs-söhbətdən aşağıdakı hallarda istifadə etmək məqsədəuyğundur 1. Dərsi maraqlı və cəlbedici etmək istədikdə. 2. Dərslikdə təsviri incəsənət nümunəsinə kifayət qədər yer ayrılmadıqda. 3. Fəndaxili əlaqə yaratmaq lazım gəldikdə. 4. Şagirdlərin idrak fəallığına və müstəqilliyinə şərait yaratmaq istədikdə.

Müsbət cəhətləri ilə yanaşı dərs-söhbətin bəzi çatışmazlıqları vardır. Onları qeyd edək: 1. Dərs-söhbət zamanı bəzi müəllimlər yalnız özləri danışır, izahat verir, şagirdləri fəal işə qoşmurlar. Başqa sözlə, bu kimi hallarda məktəblilərdən öz yerlərində sakitcə oturaraq müəllimə qulaq asmaları tələb edilir. 2. Dərs-söhbət zamanı müəllim şagirdlərin istedad fərqlərini hesaba almır və tədris materialını hamı üçün eyni səviyyədə aydınlaşdırır. 3. Dərs-söhbət şagirdlərdən daha çox, müəllimlərdən fəallıq tələb edir. 4. Dərs-söhbət zamanı bütün sinfin diqqətini bir nöqtəyə cəlb etmək çətinlik törədir. 5. Dərs-söhbət əqli qabiliyyətlərin üzə çıxarılmasından ötrü mənimsəmə prosesinin fəhm, qavrama, təhlil, tərkib kimi mərhələləri münasib sayılmır. 6. Təhsilalan dərs-söhbət zamanı deyilənləri əzbərləmək məcburiyyətində qalır.

Necə etmək lazımdır ki və göstərilən çatışmazlıqlara yol verilməsin? İlk növbədə müəllim dərs-söhbətin qarşısında duran məqsədi aydın təsəvvür etməlidir. İkincisi, o, yaradıcı olmalı, təsviri incəsənət fənnini yaxşı bilməklə yanaşı, metodik hazırlığa da yiyələnməli, pedaqoji ustalıq nümayiş etdirməlidir.

Müəllim yaxşı bilməlidir ki, təlim prosesində ondan daha çox şagirdlərdən fəallıq tələb olunur. Dərsi maraqlı etmək, təlim prosesini optimallaşdırmaq üçün müəllim müxtəlif təlim metodlarından, innovasiyalardan bəhrələnməlidir. Sadəcə şərh, danışmaq, izahat, məktəb mühazirəsi şagirdlərin diqqətini cəlb edə, onlarda təlimə maraq oyada bilməz. Təlim əməyinə fəal qoşulmaları, müstəqil fikir söyləyə bilmələri, təhlil və tərkib, qruplaşdırma, sistemləşdirmə, ümumiləşdirmə aparmaları, fikri əməliyyatlara sahib olmaq şagirdləri fəallaşdıra bilər. Qazanılmış biliklər davamlı olar, onlarda həyati bacarıqlar formalaşar.

Təsviri incəsənət dərslərində şagirdlərin idrak fəallığının necə inkişaf etdiyini müəyyənləşdirmək üçün monitorinq və qiymətləndirmə əsas vasitə rolunu oynayır. Monitorinq və qiymətləndirmə xüsusi plan əsasında həyata keçirilməli, qarşıya dəqiq məqsəd qoyulmalı, meyarlar nəzərdə tutulmalıdır. Monitorinq və qiymətləndirməni aparan şəxslərin səviyyəsi də diqqətdən yayınmamalıdır. Düzgün aparılmış monitorinq və qiymətləndirmə şagirdlərin nailiyyətlərinin, idrak fəallığına hansı səviyyədə yiyələndiklərini aşkara çıxarmağa imkan verəcəkdir.

Fənnin qarşısında dayanan məqsədə çatmaq üçün müəllimin pedaqoji ustalığa, nəzəri və metodik hazırlığa malik olması, sinfi idarəetmə bacarığına yiyələnməsi, müəllim-şagird münasibətlərini düzgün qurması, şagirdlərlə əməkdaşlıq şəraiti yaratması lazımdır.

Bu sahədə müəllimlərin etik davranış qaydalarını yerinə yetirməsi xüsusilə vacibdir. Müəllimlərin etik davranış qaydaları nəyi nəzərdə tutur? "Müəllimlərin etik davranış qaydaları"

Azərbaycan Respublikası Təhsil nazirinin 16 may 2014-cü il tarixli əmri ilə təsdiq olunmuşdur. Həmin "...qaydalar"da deyilir: "Müəllimlərin etik davranış qaydaları təhsilin bütün səviyyələrində peşə fəaliyyəti zamanı təhsilverənlərin ümumi davranışını və təhsil prosesi iştirakçıları ilə qarşılıqlı münasibətlərini tənzimləyən normalar məcmusundan ibarətdir".

Tədris proqramında nəzərdə tutulduğu kimi, ümumtəhsil məktəblərinin V-VII sinif şagirdləri təsviri incəsənətin tarixi, onun növləri və janrları ilə tanış olmalıdırlar. Bu məqsədlə təsviri incəsənətin ayrı-ayrı dövrlərinə, mərhələlərinə, növlərinə və janrlarına həsr olunmuş dərs-söhbətlərdən və həmçinin praktik məşğələlərdən istifadə olunur.

Nəticədə şagirdlər təsviri incəsənətin dilinin əsaslarına yiyələnmək, əsəri onun məzmununu və formasının vəhdətində görmək, müxtəlif növlü və janrlı əsərləri müstəqil təhlili etmək bacarıqlarına malik olurlar. Beləliklə də, Azərbaycanda və digər ölkələrdə yaradılmış qiymətli sənət nümunələri - şəkillər, abidələr (heykəllər), memarlıq qurğuları haqqında zəruri məlumatlar alırlar.

Dərs-söhbət müəllimdən peşə hazırlığı tələb edir. Müəllim sinfə veriləcək sualları diqqətlə seçməli, onların mümkün cavab variantlarını qabaqcadan müəyyənləşdirməlidir.

Çalışmaq lazımdır ki, ayrı-ayrı şagirdlər deyil, bütün sinif dərsdə yaxından iştirak etsin, fəallıq göstərsin. Təlim prosesinin səmərəliliyində bu cəhət az əhəmiyyət daşımır. Müəllim sinfi təşkil edib, frontal sorğuya keçir. Təsviri incəsənət fənni üzrə məşğələlərdə fəal dərsə, adətən motivasiya ilə başlanır. Motivasiya məktəblilərdə öyrənilən materiala maraq yaratmaq, onları təlim fəaliyyətinə cəlb etməkdir. Dərslərində iştirak etdiyimiz müəllimlər təsviri incəsənət fənni üzrə məşğələlərdə motivasiyanı suallarla, rəsmlərlə, inteqrasiyanın köməyi ilə yaradırdılar. Dolğun, düzgün cavablar qiymətləndirilərək, jurnalda yazılırdı. Təlimdə yetirməyən, zəif oxuyan şagirdlər də diqqətdən kənarda qalmırdı.

Təsviri incəsənətə dair dərs-söhbətlər zəngin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlara malikdir. Bu dərslər məktəblilərin yaradıcı təfəkkürünü və təxəyyülünü, onların mənəvi inam və əqidəsini, vətən sevgisini inkişaf etdirmək, incəsənətə məhəbbət, bədii zövq tərbiyələndirmək baxımından böyük imkanlar açır. Təcrübəli müəllimlər incəsənəti əmək və mənəvi tərbiyə ilə sıx surətdə əlaqələndirir, məktəblilərin müstəqil təsviri fəaliyyəti ilə, başqa sözlə, naturadan, yaddaşa əsasən və təsəvvürə əsasən rəsmlər, həmçinin dekorativ rəsmlər çəkməklə uzlaşdırırlar.

Dərs-söhbətlər bədii əsəri, onun məzmununu, özünəməxsusluğunu, formasını, obraz zənginliyini yaradıcı şəkildə qiymətləndirməyi bacarır, həmçinin dünya xalqların tərəfindən yaradılmış əsərlərə məhəbbətlə və hörmətlə yanaşmağa alışdırır. Rəsm əsərləri emosional şəkildə qavranılmalıdır.

Yaradıcı müəllim proqram materialı ilə bağlı daha əlverişli şərh formasını seçir, münasib incəsənət əsərinin nümayiş etdirir, onların təhlilini aparır, şagirdlərin diqqətini fəallaşdırmağın əlverişli vasitələrinə müraciət edir. Təcrübəli müəllimlər şagirdlərə kitab mütaliəsi ilə, televiziya verilişlərinə və kinofilmlərə baxmaqla; təsviri incəsənət əsərlərinin reproduksiyalarını (albomları, açıqcaları, markaları və s.) kolleksiyalaşdırmaqla bağlı zəruri məsləhətlər verməklə onları dərsdənkənar vaxtlarda da incəsənəti öyrənməyə həvəsləndirirlər.Tədris materialı konsentrik-ardıcıllıq prinsipinə əsasən keçildikdə təsviri incəsənət vasitəsilə estetik və bədii tərbiyənin səmərəliliyi yüksəlir.

Dərs-söhbətlərin üstünlükləri çoxdur: 1. Şagirdlərin yaradıcı təxəyyülünü fəallaşdırır. 2. Onların təfəkkürünü formalaşdırır. 3. Problemli təlimin uğurla həyata keçirilməsinə dəstək olur. 4. Məktəblilərin nitqini və yaddaşını inkişaf etdirir. 5. Öz fikir və mülahizələrini müstəqil şəkildə, düzgün və savadlı ifadə etməyə imkan verir. 6. Şagirdlərdə axtarıcılıq qabiliyyətləri yaradır, tədqiqatçılığa həvəs oyadır. 7. Yarışmaq, qalib gəlmək cəhdini inkişaf etdirir. 8. Aparılmış söhbətlərdən sonra şagirdlərin çəkdikləri şəkillərin səviyyəsi yüksəlir. 9. Dərs-söhbətlərin səmərəliliyinin nəticəsində məktəblilər öz yaradıcılıq məhsullarında daha az səhvlərə yol verirlər. 10. Fantaziyaları inkişaf edir. 11. Azərbaycan və dünya rəssamların əsərləri ilə tanışlıq nəticəsində məktəblilərdə incəsənətə maraq artır, gözəllik hissi, təbiətə və Vətənə məhəbbət hissləri inkişaf edir.

**Problemin aktuallığı.** Təsviri incəsənət təlimində incəsənətə dair dərs-söhbətlərin təşkili dərsin

səmərəliliyini artırır. Ona görə də bu mövzuya müraciət olunması, yeri gəldikcə dərs-söhbətlərdən istifadə olunması aktual problem kimi diqqəti cəlb edir.

**Problemin yeniliyi.** İncəsənətə dair dərs-söhbətlər təsviri incəsənət təliminin səmərəlilik şərti kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar və Təsviri incəsənət müəllimləri üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Abbasov A.N. Pedaqogika: Dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
2. Гасанова Р.В. Использование эффективных форм и нетрадиционных техник на уроках изобразительного искусства https://open-lesson.net/3646/
3. Филатова А.В. Уроки-беседы как вид учебной деятельности на уроке изобразительного искусства. uroki-besedy_kak_vid_uchebnoy_deyatelnosti_na_uroke_izobrazitelnogo_iskusstva.doc


**E-mail**: emilya-hesenova@bk.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof*. A.N. Abbasov,
*ped.ü.fəls.dok*. L.A. Məmmədli
**Redaksiyaya daxil olub:** 22.10.2018

## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

*UOT 37.*

***İradə Böyükağa qızı Əmirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# NİKOLAY ALEKSANDROVİÇ DOBROLYUBOV QADIN TƏHSİLİ VƏ TƏRBİYƏSİ HAQQINDA

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования*
*Азербайджанской Республики*

# НИКОЛАЙ АЛЕКСАНДРОВИЧ ДОБРОЛЮБОВ О ЖЕНСКОМ ОБРАЗОВАНИИ И ВОСТПИТАНИИ

***İrada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy*
*leading scientific worker at the*
*İnstitute of Education of the Republic of Azerbaijan*

# NIKOLAI ALEKSANDROVICH DOBROLUBOV ON WOMEN'S EDUCATION AND UPBRINGING

**Xülasə.** N.A. Dobrolyubov şəxsiyyətin təşəkkül tapıb formalaşmasında həm tərbiyənin, həm də təhsilin və təlimin böyük rolunu dönə-dönə qeyd edirdi. O, qızların ailədə tərbiyə olunmasına ciddi diqqət yetirilməsini məsləhət bilirdi. Hətta təlimin müvəffəqiyyətini də ailə ilə bağlayırdı. Qızların təlim və tərbiyəsində ailə və məktəbin mühüm rol oynadığını, onların bu istiqamətdə fəaliyyətlərinin bir-birini izlədiyini, birinin digərindən fədakarlıq tələb etdiyini vurğulayırdı. Qızların məktəbdə təhsilə cəlb edilməsini məqsədəuyğun hesab etməklə yanaşı, təlimin düzgün təşkilini tələb edirdi.
***Açar sözlər:*** *qadın təhsili, qadın tərbiyəsi, qız məktəbi, qızların ailə tərbiyəsi, ictimai tərbiyə*

**Резюме**. Н.А. Добролюбов неоднократно отмечал большую роль воспитания и образования в становлении личности. Он советовал обращать серьезное внимание на воспитание девочек в семье. Даже успех обучения он связывал с семьей. Он подчеркивал, что семья и школа играют важную роль в образовании и воспитании девочек, при этом наблюдая за деятельностью друг друга, и требуя самоотверженности друг от друга в этом русле. Считая целесообразным привлечение девочек к школьному образованию, он также требовал надлежащей организации обучения.
***Ключевые слова:*** *женское образование, женское воспитание, школа для девочек, семейное воспитание девочек, общественное воспитание.*

**Summary.** N.A. Dobrolyubov repeatedly noted the big role of upbringing and education in the formation of the personality. He advised to pay serious attention to the upbringing of girls in the family. Even the success of the education he associated with the family. He noted that the family and the school play an important role in the education and upbringing of girls, while watching each other's activities and demanding dedication from each other in this field. Along with considering rationality of involvement of girls in school, he also demanded proper organization of education.
***Keywords:*** *female education, female upbringing, school for girls, family upbringing of girls, public education.*

Cəmi 25 il ömür sürmüş N.A. Dobrolyubov (1836-1861) görkəmli tənqidçi, publisist və pedaqoq idi. Onun ictimai-siyasi sahədə, fəlsəfə və pedaqoji aspektdə son dərəcə qiymətli fikirləri vardır. Dobrolyubov tərbiyənin idealına, vətənpərvərlik tərbiyəsinə, tərbiyədə nüfuzun roluna, uşaq təbiəti və xarakterin təşəkkülünə, təhsilalanların itaət etməsinə, fiziki tərbiyəyə, əqli təhsilim məzmununa, xalqın maarifləndirilməsinə, təlimin prinsiplərinə, qadın tərbiyəsinə, məktəb dərsliklərinə də dərs kitablarına, uşaqların tərbiyəçilərinə və s., eyni zamanda yalançı vətənpərvərliyə, gec başa düşən şagirdlərə dair qiymətli fikirlər söyləmişdir.

Bu məqaləni yazmaqda məqsədimiz Nikolay Aleksandroviç Dobrolyubovun qadın təhsil və tərbiyəsi ilə bağlı qənaətlərini diqqət mərkəzinə gətirməkdir.

Qızların, qadınların tərbiyəsi, onların təlimə, ictimai həyata cəlb edilməsinin vacibliyi bir çox pedaqoqların, filosofların, psixoloqların, mütəfəkkirlərinin, şair və yazıçıların, dövlət xadimlərinin əsərlərində özünə yer almışdır. Hələ vaxtilə Nizami Gəncəvi nəinki qızların tərbiyəsinə öz münasibətini bildirir, onların təhsilə cəlb edilməsin vacib hesab edirdi, üstəlik oğlanlarla qızların birgə təhsil almalarını mümkün və zəruri sayırdı. "Leyli və Məcnun" poeması bu barədə aydın təsəvvür yaradır. Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasına anası Leyliyə nəsihət verir, onun tərbiyəsi qayğısına qalır:

"Key şux! Nədir bu göftügulər?
Qılmaq sənə tənə eybculər?
Nəyçün özünə ziyan edirsən?
Yaxşı adını yaman edirsən?
Nəyçün sənə tənə edə bədgu?
Namusuna layiq işmidir bu?
Nazik bədən ilə bərgi-gülsən,
Əmma nə deyim ikən yünülsən!
Lalə kimi səndə lütf çoxdur,
Əmma nə deyim, üzün açıqdur.
Təmkini cününə qılma təbdil!
Qızsan, ucuz olma, qədrini bil!
Hər surətə əks kimi baxma!
Hər gördüyünə su kimi axma!
Mey gərçi səfa verər dimağə,
Axdığı üçün düşər ayağə,
Sayə kimi hər yerə üz urma!
Heç kimsə ilə oturma, durma!
Sən sadəsən, özgə əhli-neyrəng,
Cəhd eylə verilməsin sənə rəng (1).

Nəsirəddin Tusi, Y.A. Komenski, K.D. Uşinski, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə, A.S. Makarenko, V.A. Suxomlinski və b. qadın tərbiyəsi və onların təhsillə əhatə olunmasına dair son dərəcə qiymətli fikirlər söyləmişlər.

Təbii ki, N.A. Dobrolyubov da qadın təhsili və tərbiyəsinə biganə qala bilməzdi. Yazdığı "Açıq qız məktəbləri təşkil etmək haqqında fikirlər" məqaləsində bu barədə məlumat almaq mümkündür (2, s. 260-273).

N.A. Dobrolyubov şəxsiyyətin təşəkkül tapıb formalaşmasında həm tərbiyənin ("Hazırki əsrin müxtəlif tərifəlayiq adətləri sırasında uşaqları gözəl tərbiyə etmək və onlara müxtəlif elm və incəsənət öyrətmək adətini göstərmək olar"), həm də təhsilin və təlimin ("Hazırda təlimsiz keçinmək qətiyyən heç cür mümkün deyildir") böyük rolunu dönə-dönə qeyd edirdi. O, qızların ailədə tərbiyə olunmasına ciddi diqqət yetirilməsini məsləhət bilirdi. Hətta təlimin müvəffəqiyyətini də ailə ilə bağlayırdı. Diqqət yetirək: "Tərbiyə və təlimin müvəffəqiyyəti üçün birinci növbədə lazım olan şərt qızların ailədən uzaqlaşdırılmasıdır" (2, 268). Bu fikri irəli sürməklə yanaşı, bildirir ki, "bununla belə, evdə hamıya hər şeyi öyrətmək mümkün deyildir. Bəs çarə nədir? Sadəcə bir şey: öz qızlarınızı evdə tərbiyə edin, oxumaq üçün isə qoyun, gimnaziyaya gedib-gələn oğlanlar kimi məktəbə getsinlər. Bundan saysız-hesabsız fayda olar; siz özünüz öz qızlarınızın müvəffəqiyyətlərini daim izləyə bilərsiniz, dərsləri barəsində hər gün onlardan sorğu-sual apararsınız, onların yaxşı başa düşmədikləri, aydınlaşdıra bilmədikləri nə varsa aydınlaşdıra, yadlarına sala, sinifdə öyrəndikləri biliklərini təcrübəyə tətbiqinə dair xeyli misal göstərə bilərsiniz" (2, s. 268).

N.A. Dobrolyubov qızların təlim və tərbiyəsində ailə və məktəbin hər ikisinin mühüm rol oynadığını, onların bu istiqamətdə fəaliyyətlərinin bir-birini izlədiyini, birinin digərindən fədakarlıq tələb etdiyini vurğulayır. Nikolay Aleksandroviçin düzgün qənaətinə görə, qızlar təhsilə cəlb olunmaqla, məktəbdə təhsil almaqla "həyatdan, ailədən uzaqlaşmayacaqlar, öz ətraflarında eyni nəvazişli qayğı, eyni məişət tələbatla-

rı görəcəklər və kiçik yaşlarından nəyə hazırlaşdıqlarını hiss edəcəklər" (2, s. 268).

Qızlardan ötrü təhsilin faydasından danışarkən Dobrolyubov göstərirdi ki, "Sinifdə onlar elm və təbiət aləmi ilə tanış olacaqlar və bununla birlikdə öz rəfiqələrinin mühitini tanıyacaq, öz müşahidələrini evdə sınaqdan keçirəcək, onları valideynlərinə açıqcasına bildirəcək və valideynlərindən yeni göstəriş və izahatlar alacaqlar" (2, 269).

Nikolay Aleksandroviçin yuxarıdakı fikri söyləməklə bərabər həm də təlimin həyatla əlaqələndirilməsi prinsipini diqqət mərkəzinə gətirmişdir. "Açıq qız məktəbləri təşkil etmək haqqında fikirlər" məqaləsində bu xüsusda yazırdı: "Beləliklə, təlim həyatla yanaşı gedəcək və bizdə qadının, adətən ehtiyac hiss etdiyi sağlam fikir və əməli nəzakətin inkişafına mane olmayacaq, əksinə, huna yardım edəcəkdir" (2, s. 269).

N.A. Dobrolyubov təlimi həyatla əlaqələndirməyənləri kəskin tənqid edirdi. Bu barədə deyirdi: "Qrammatikadan həyatda qətiyyən lazım olmayan qaydalar öyrədilir. ...Bütün elmlər üzrə təlimi həyatla əlaqələndirilməsinə əhəmiyyət verilmir. Hər kəs, əlbəttə, mağazada qaytarılan xırda pulu hesablamağı bacarmayan qadınlara rast gəlmişdir. ...Təhsilli hesab edilən qızların çoxunda təlim yalnız zehni yorur, təbii həssaslığı və hisslərin təravətliliyini kütləşdirir, onların gözündən onsuz da düşmüş ümumiyyətlə elmə hörmətsizlik, bütün mədəni ideyalara qarşı onlarda aciz süstlük əmələ gətirir" (2, s. 267-268).

Qızların təlim və tərbiyəsində ata-analar ilk tərbiyəçilər olsalar da, bu sahədə müəllimin əməyi də danılmazdır. Yaxşı müəllim öz şagirdlərini öz övladları kimi sevməli, onlara qayğı və nəvaziş göstərməli, biliklərə, zəruri həyati bacarıqlara yiyələnmələrinə çalışmalıdır. Dobrolyubov bu mənada müəllimlərə mühüm tələblər verirdi. Onun qənaətincə, "vicdanlı müəllim yaxşı təlim üsulunun yardımı ilə tədris prosesini həm canlandıra, həm də yüngülləşdirə bilər. ...Müəllim üçün yaxşı üsul o birindən çox da çətin deyildir" (2, s. 265).

Böyük rus inqilabçı-demokratı məsləhət görürdü ki, üsulun yaxşı olması üçün təlimin nəyə doğru getdiyini aydın təsəvvür etmək gərəkdir. Başqa sözlə, Dobrolyubov bu və ya digər fəaliyyətə başlamamazdan əvvəl qarşıya konkret məqsədin qoyulmasını məqsədəuyğun hesab edirdi. Oxuyuruq: "siz deyirsiniz ki, "öz qızlarınıza həqiqi xoşbəxt olmaq imkanı və bacarığı verməyi nəzərdə tutmuşsunuz və buna görə onun ağlını biliklərlə zənginləşdirirsiniz". Lakin, axı bu doğru deyildir. Həyat xoşbəxtliyi adamın bilikli olmasından, onun daxili inkişaf dərəcəsindən çox asılıdır. Bu cəhətdən biz razıyıq. Lakin elmiliyi hər hansı coğrafiya dərsliyimi verir, inkişaf təsrifləri öyrənməkləmi baş verir? Xeyr. ...Bunların hamısı ondan irəli gəlir ki, siz heç də elmli olmaq barəsində, inkişaf barəsində deyil, ancaq başqalarından geri qalmamaq, biabır olmamaq üçün sərgi, imtahan və mükafat barəsində qayğı göstərirsiniz" (2, s. 265).

Nikolay Aleksandroviç valideynlərlə yanaşı müəllimlərin fəaliyyətindəki bəzi çatışmayan cəhətlərə münasibət bildirmişdir. Bəzi müəllimlər pedaqogikanın tələblərini əsas götürmək əvəzinə, valideynlərin istəyini anlayaraq ona uyğun hərəkət edirlər. "Onlar çalışırlar ki, qız mümkün qədər çox şey bilsin və yadda saxlasın; şagirdin canlı təbiətini dərslərin mexaniki gedişinə tabe etmək müəyyən müddət onlara müyəssər olur. Qızın xarakterinə uyğunlaşmaq, qadın təbiətinin xüsusiyyətlərini nəzərə almaq və şagirdin daha yaxşı inkişafı üçün bunlara əsaslanmaq əvəzinə, onun bütün mənəvi qabiliyyətlərini zorla gərginləşdirir və ona xas olmayan işlə ölgün hala salırlar" (2, s. 266).

Bildiyimiz kimi, təhsilalanlarda, o cümlədən qızlarda hiss şüur üzərində hökmranlıq edir. bunu nəzərdə tutaraq, Dobrolyubov şəxsiyyətin xəyalının onun hafizəsinin işinə müdaxilə etdiyini xüsusi vurğulayaraq, müəllimin təhsil alan qızlarda təxəyyülün düzgün inkişaf etdirilməsinə, hisslərinin isə, sağlam istiqamətə yönəldilməsinə qayğı ilə yanaşmağı məsləhət görürdü. Bu məsələyə laqeydlik acı nəticələr verə bilər. "Bu qabiliyyətlər şüurun və hafizənin fəaliyyətinə həmişə mane olacaqdır" (2, s. 266).

O zamanlar cəmiyyətdə qapalı qadın məktəbləri fəaliyyət göstərirdi. Dobrolyubov həmin məktəblərin təhsil alan qızları canlı həyatdan ayrı salması faktı ilə barışa bilmir, onların antipedaqoji mövqeyini pisləyirdi. Nikolay Aleksandroviç belə bir qənaətdə idi ki, yuxarı cəmiyyətdə özünü nümayiş etdirməkdən ötrü pansionlarda qızlara şey öyrətsələr də, həyatda lazımi qədər yaşamaq üçün isə, çox az şey öyrədilir. "Onlar məktəbdə olduğu illər ərzində adam gör-

mürlər və onlara yaxşı qiymətlər verən zarafatcıl müəllimi, (başqa) adam olmadığından, həddindən artıq sevirlər".

İllər, hətta əsrlər ötüb. Fəqət. Nikolay Aleksandroviç Dobrolyubovun pedaqoji görüşlər, həmçinin qadın tərbiyəsi və təliminə dair fikirlər öz əhəmiyyətini itirməyib: qızların təliminə, təhsilinə və tərbiyəsinə qayğı göstərilməli, diqqət yetirilməlidir.

**Problemin aktuallığı**. Nikolay Aleksandroviç Dobrolyubovun qadın təhsili və tərbiyəsi haqqında fikirləri həmişə olduğu kimi bu gün də aktuallığını özündə saxlayır.

**Problemin yeniliyi**. Nikolay Aleksandroviç Dobrolyubovun qadın təhsili və tərbiyəsi haqqında fikirləri diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün əhəmiyyətli ola bilər.

**Ədəbiyyat:**


1. M. Füzuli. Əsərləri. 6 clddə. 2-ci cild. Bakı: Şərq-Qərb, 2005.
2. Dobrolyubov N.A. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1963.


**E-mail:** amiraliyeva_i@mail.ru
**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 16.10.2018

*UOT 37.*

***Нигяр Шихнеби кызы Мурадова***
*доктор философии по педагогике, доцент,*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

# ПЕДАГОГИЧЕСКИЕ ИДЕИ ЯН АМОС КОМЕНСКОГО В КОНЦЕПЦИИ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ СТУДЕНТОВ ВЫСШИХ ШКОЛ В СХЕМАХ

***Nigar Şıxnəbi qızı Muradova***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Respublikası Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# YAN AMOS KOMENSKİNİN PEDAGQJİ İDEYALARINDA ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN MƏNƏVİ TƏRBİYƏ KONSEPSİYASI

***Nigar Shihnebi Muradova***
*doctor of philology in pedagogy, associate professor,*
*leading researcher of the Institute of Education of the Republic of Azerbaijan*

# PEDAGOGICAL IDEAS OF YAN AMOS KOMENSKY IN THE CONCEPT OF MORAL EDUCATION OF STUDENTS HIGH SCHOOLS IN DIAGRAMS

**Резюме**: Статья посвящена педагогическим идеям нравственного воспитания Я. Амос Коменского. Его идеи являются опорной силой в работе современного учителя, в их философских и педагогических размышлениях о профессиональной деятельности, об отношениях учителя с учениками. Я.А. Коменский - основатель научной педагогики, сделал много научных открытий, обосновал теорию преподавания и нравственного воспитания. Я.А. Коменский - прекрасный пример настоящего учителя. Сегодня его педагогические идеи являются неотъемлемой частью современной концепции нравственного воспитания студентов - будущих учителей в сфере их профессиональной деятельности. Здесь в схемах представлены модельные проекты (студенческий конкурс, студенческая конференция, научно-студенческий круглый стол и т. д), совершенствующие нравственное воспитание студентов в период их учебно-практической деятельности. Такой подход эффективно способствует их подготовке к будущей профессионально-педагогической деятельности.
***Ключевые слова:*** Ян Амос Коменский, педагогические идеи, концепция нравственного воспитания, студенты высших школ, схемы.

**Xülasə:** Məqalə, Yan Amos Komenskinin pedaqoji ideyalarına həsr olunub. Onun fikirləri müasir müəllimin iş fəaliyyətinə bir dəstəkdir, həm peşəkar fəaliyyətlərdə, həm də müəllim və tələbələrin əlaqələrində fəlsəfi və pedaqoji fikirlərin əksəriyyətini təşkil edir. Y.A. Komenski pedaqoji elmin qurucusudur, o, tədris nəzəriyyəsini və mənəvi tərbiyəni elmi cəhətdən əsaslandırdı. Yan Amos Komenski, əsil müəllimin mükəmməl bir nümunəsidir. Bu gün Y.A. Komenskinin ideyaları ali məktəb tələbələrində, tələbələrin peşə və təhsil fəaliyyətləri sahəsində müasir mənəvi tərbiyə konsepsiyasının tərkib hissəsidir. Burada, sxem şəkillərdə ali məktəb tələbələrinin mənəvi tərbiyəni yaxşılaşdırmaq üçün müxtəlif pedaqoji model və layihələr (tələbə müsabiqəsi, tələbə konfransı, elmi-tələbə dəyirmi masaları və s.). Bu təlim tədbirlər tələbələrin gələcək pedaqoji-peşə fəaliyyətlərinə hazırlığına əsaslı şəkildə kömək edir.
***Açar sözləri:*** Yan Amos Komenski, pedaqoji ideyalar, mənəvi tərbiyə konsepsiyası, ali məktəb tələbələri, sxemlər.

**Summary**: The thesis deals with the pedagogical ideas of moral education of Jan Amos Comenius. His ideas are a support in the work of the modern teacher; they give a lot of room for philosophical and pedagogical reflections both in professional activities and in relations between a teacher and students. Y.A.

Komensky is the founder of scientific pedagogy, made many scientific discoveries in it, scientifically substantiated the theory of teaching and moral education. Jan Amos Comenius is a perfect example of a real teacher. Today, the pedagogical ideas of Y.A. Komensky is an integral part of the modern concept of moral education of students - future teachers of higher schools in the field of their professional and educational activities. Here, in the diagrams, model projects are presented that display various forms (student competition, student conference, scientific pedagogical-student round table, etc.) designed to improve the moral education of graduate students of higher pedagogical schools in their educational and practical activities. This approach effectively contributes to the preparation of students for their future professional and educational activities.

***Key words**: Jan Amos Comenius, pedagogical ideas, the concept of moral education, high school students, schemes.*

XXI век - время интенсивного развития опытного знания, появления многих новых наук, одну из которых называют научной педагогикой. В культурной жизни Западной Европы зарождается ее феномен и создателем ее основ является Ян Амос Коменский, известный всему миру, как ученый, педагог-гуманист, писатель, общественный деятель. Его общественно-политические взгляды по своему демократизму перерастали рамки феодализма и капитализма и значительно опережало свое время. «Какой бы области общественной жизни и научных знаний ни касался Коменский он проявлял себя как прогрессивный и оригинальный мыслитель, чуждый национальной ограниченности, проявляющий заботу о нуждах, угнетенных и стремящийся к прогрессу всего человечности» [1]. Во мнении автора обнаруживается идея гуманизма, которая впоследствии обосновалась в теории нравственного воспитания Я.А. Коменского. Следует, что в развитии теории нравственного воспитания, основанного на идеях гуманизма, особое место занимает теория Коменского. Основным средством воспитания человечности по Коменскому считается спокойное, внимательное и дружеское отношение учителя к обучающимся. Из этого вытекает, что творчество Я.А. Коменского пронизано духом высочайшего гуманизма. «Несмотря на то, что Ян Амос Коменский - сын своего времени, он – наша современность, его бессмертные идеи, интерпретирующие бесценно драгоценные произведения, сегодня также важны, значимы, актуальны» [2].

Я.А. Коменский написал много книг о том, как «всех учить всему». Это и охарактеризовало его педагогическое наследие, которое оказало влияние на развитие философии образования, педагогической науки, теории воспитания, дидактики, отраслевых методик и учебной литературы. «Значит, для того, чтобы иметь хорошую деятельность нужно получить хорошее образование. Для семьи, для общества, для средств, необходимых для существования, создающие условия существования*» [3]*. Схематично представляем основные открытия, сделанные им в области педагогики в нижеследующей схеме № 1:

Схема № 1. *Основные открытия Я.А. Коменского в педагогике*

| **Теории обучения и воспитания Ян Амос Коменского** | |
|---|---|
| *№* | *Семь научных открытий Я.А. Коменского в педагогике:* |
| 1. | - обоснование принципа природосообразности; |
| 2. | - разработка возрастной периодизации; |
| 3. | - создание классно-урочной системы обучения; |
| 4. | - определение системы школ и содержания обучения в них; |
| 5. | - обоснование основных дидактических принципов; |
| 6. | - составление первых учебников для школ, снабженных иллюстрациями и методическими рекомендациями для учителей; |
| 7. | - создание учения о материнской школе; |

Творчество Я.А. Коменского не потеряло своей актуальности, оно неисчерпаемо и является опорой в работе современному педагогу, дает большой простор для философско-педагогических размышлений. Схематично представляем часть его трудов и суть их написания в схеме № 2:

*Схема № 2. Труды Ян Амос Коменского и их основные педагогические идеи*




Изучение трудов по проблеме нравственного воспитания Я.А. Коменского разрешает сделать вывод о том, что его педагогические идеи особо актуальны и сегодня позволяет нам реализовать вопросы нравственного воспитания студентов - будущих учителей в целях усовершенствования их профессионально-педагогической деятельности, особенно, в работе с обучающимися.

Стратегия современного развития отечественного образования имеет целью создание системы обучения и воспитания, которая должна обеспечить духовное совершенствование личности, формирование интеллектуального и культурного ее потенциала как высшей ценности человека. Поэтому в системе образования на современном этапе заложены принципы актуализации знаний, гуманизации и гуманитаризации образовательного процесса.

С целью передачи молодым учителям опыта по педагогическому наследию Я.А. Коменского необходимо внедрить в пространство высшего образования множество модельных проектов, где каждый проект в отдельности содержит разновидные учебно-воспитательные формы работы в этом направлении. Такой подход эффективно способствует плодотворной подготовке студентов к профессиональной деятельности. В качестве образца представляем модель, которая отображается в схеме № 3:

*Схема № 3. Модель и ее педагогические проекты*




В целях выявления уровня знаний по Я.А. Коменскому среди студентов-выпускников высших педагогических школ был организован опрос в форме анкетирования. Образец некоторых вопросов отображаются в схеме № 4:

*Схема № 4. Вопросы в области педагогики Я.А. Коменского*

| **Анкетирование «Уровень знаний студентов-выпускников высших педагогических школ по Я.А. Коменскому»** | |
|---|---|
| *№* | *Некоторые вопросы:* |
| *1.* | Кто такой Ян Амос Коменский? |
| *2.* | Какие основные открытия сделал Я.А. Коменский в педагогике? |
| *3.* | Назовите принципы природосообразности, обоснованные Я.А. Коменским. |
| *4.* | Какие Вы знаете основные дидактические принципы Я.А. Коменского? |
| *5.* | Какие главные нравственные качества личности определяют моральный облик человека по Я.А. Коменскому? |

С учетом ответов, полученных при помощи анкетирования, студентов можно разделить на три группы. Схематично отобразим это в таблице № 5:

*Таблица № 5. Три группы по уровням знаний студентов*

| **Показатель уровня знаний студентов высших педагогических школ по Я.А. Коменскому** | |
|---|---|
| *1-ая группа* | Студенты с преобладанием теоретических знаний по концепции нравственного воспитания Я.А. Коменского. |
| *2-ая группа* | Студенты с преобладанием практических знаний: умений и навыков по концепции нравственного воспитания Я.А. Коменского. |
| *3-ья группа* | Студенты с одинаковой выраженностью теоретических и практических знаний по концепции нравственного воспитания Я.А. Коменского. |

Студенты, анализируя педагогику Коменского приходят к двум следующим выводам: 1) Ян Амос Коменский - идеальный образец настоящего учителя; 2) Я.А. Коменский в своей воспитательной системе провозглашает идею целостного развития личности, объединяя разум, волю и совесть, «так как они составляют единую душу, так не следует разрывать и три украшения души: образование, добродетель и благочестие» [4]. Анализируя

мысль Коменского можно интерпретировать ее по отношению к современной концепции нравственного воспитания студентов высших школ в сфере развития их профессионально-педагогической личности. Схематично отобразим это в схеме № 6:

Схема № 6. *Основные педагогические принципы Я.А. Коменского*

**Основные принципы Я.А. Коменского в сфере развития высоконравственной и профессиональной личности студентов высших школ**

*1. Величайший гуманизм как особый принцип в отношениях учителя и обучающихся.*

*2. Выносливость в труде как этическое требование к личности студента - будущего учителя.*

Основание всего изложенного дает возможность сделать очередной вывод о том, что теория нравственного воспитания Я.А. Коменского представляет собой систему, основанную на гуманистических идеях всеобщего общечеловеческого воспитания, цель которой - воспитание целостной всесторонней личности, «обладающей высокой нравственностью» [5] и «высокими нравственными принципами» [6], что и является одной из приоритетных задач отечественного образования.

**Актуальность**. Признание приоритетной задачей отечественного высшего педагогического образования в сфере нравственного воспитания студентов-будущих учителей, явилась причиной для обращения к педагогическому наследию великого чешского мыслителя Я.А. Коменского, которое насыщено идеями о воспитании вообще и воспитании нравственности в современных образовательных условиях.

**Научная новизна.** Анализ, обоснованность актуальности идей педагогического наследия Я.А. Коменского в сфере воспитания нравственности студентов представлены в схемах.

**Практическая значимость**. Новые подходы к использованию педагогических идей Я.А. Коменского по воспитанию высоконравственной личности студентов-будущих учителей составляют научно-теоретические и практические основы в этом направлении, являются полезным материалом для высших школ.

**Литература:**

1. Харламов И.Ф. Теория нравственного воспитания / История и современная проблематика и основные педагогические идеи. Мн. Изд БГУ, 1972.
2. Rüstəmov F.A. Komenski Y.A. Böyük didaktika. Bakı: Elm və təhsil, 2012.
3. Əmirəliyeva İ.B. Pedaqoji fikir tarixindən. Dərs vəsaiti. Bakı: Mütərcim, 2018.
4. Коменский Я.А. Материнская школа. М., 1947.
5. Коменский Я.А. Великая дидактика. Изб. пед. соч. М.: Учпедгиз. Гл. XXIII. 1955.
6. Кугунурова А. А., Товарищева Ф. Д. Учение Яна Амоса Коменского о нравственном воспитании // Научно-методический электронный журнал «Концепт», 2016. Т. 30
7. Боташева Х.Ю. Духовно-нравственные ценности студента университета в зеркале социологического анализа // Известия РГПУ им. А.И. Герцена, 2008, № 77

**E-mail:** rita-nigar@mail.ru
**Рецензенты**: *проф.* А.Н. Аббасов,
*проф.* И.Г. Джабраилов
**Redaksiyaya daxil olub:** 30.11.2018.

## *MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ*

*UOT 374.*

***Cavanşir Əli oğlu Rəhimov,***
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
***Zübeyid Haqverdi oğlu Tağıyev,***
*fizika-riyaziyyat üzrə elmlər doktoru, professor*
***Tapdıq Abbas oğlu Əliyev,***
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
***Fatma Ağa qızı Axundova***
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, baş müəllim*
*Azərbaycan Tibb Universiteti*
*Tibbi fizika və informatika kafedrası*

# HETEROTSİKLİK BİRLƏŞMƏLƏRİN MOLEKULYAR QURULUŞU, FİZİKİ-KİMYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ TİBBİ-BİOLOJİ ƏHƏMİYYƏTİ

***Джаваншир Али оглу Рагимов,***
*доктор философии по физико-математике, доцент*
***Зубейид Ахверди оглу Тагиев,***
*доктор наук по физико-математике, профессор*
***Тапдыг Аббас оглу Алиев,***
*доктор философии по физико-математике, доцент*
***Фатма Ага гызы Ахундова***
*доктор философии по физико-математике, старший преподаватель*

# МОЛЕКУЛЯРНАЯ СТРУКТУРА ГЕТЕРОЦИКЛИЧЕСКИХ СОЕДИНЕНИЙ, ФИЗИКО-ХИМИЧЕСКИЕ СВОЙСТВА И МЕДИКО-БИОЛОГИЧЕСКИЕ ЗНАЧЕНИЕ

***Cavanshir Ali Rahimov,***
*PhD in physics and mathematics, associate professor*
***Zubeyid Hagverdi Taghiyev,***
*doctor of sciences in physics and mathematics, associate professor*
***Tapdıg Abbas Aliyev,***
*PhD in physics and mathematics, associate professor*
***Fatma Agha Akhundova***
*PhD in physics and mathematics, senior lecturer*

# MLECULAR STRUCTURE OF HETEROCYCLIC COMPOUNDS, PHYSICO-CHEMICAL PROPERITES AND BIOMEDICAL VALUE

**Xülasə.** Məqalədə müxtəlif heterotsiklik birləşmələrin molekulyar quruluşunun, onların fiziki-kimyəvi xassələrinə təsiri öyrənilmişdir. Heterotsiklik birləşmələrin tətbiqi və tibbi-bioloji əhəmiyyəti araşdırılaraq müxtəlif tibbi nöqteyi-nəzərdən vacib sayıla bilən konfiqurasiyaların sintez imkanları öyrənilmişdir.
***Açar sözlər:*** *heterotsiklik birləşmələr, molekulyar quruluş, fiziki-kimyəvi, fiziki-kimyəvi xüsusiyyətləri, tibbi-bioloji əhəmiyyəti*

**Резюме.** В данной статье приводятся экспериментальные данные зависимости макроскопических физических свойств гетероциклических соединений от молекулярной структуры. Применение и медицинская актуальность этих материалов непосредственно зависит от этих свойств. Для синтеза новых материалов, имеющее важное медицинское значение необходимо знать молекулярную структуру.
***Ключевые слова:*** *молекулярная структура, гетероциклические соединения, физико-химические, физико-химические свойства, биологические значение*

**Summary**. In this article, we present experimental data on the dependence of the macroscopic physical, chemical properties and physical activity of heterocyclic compounds on the molecular structure. The use and medical relevance of these materials directly depends on these properties. For the synthesis of new materials, which have important medical significance, it is necessary to know the molecular structure.

***Key words:*** *molecular structure, heterocyclic compounds, physicochemical, physicochemical properties, biological significance*

Heterotsiklik birləşmələrin orqanizm üçün əhəmiyyətini nəzərə alsaq təbabət üçün nə qədər önəmli olduqları başa düşürlər. Son zamanlar təbii və sintetik heterotsiklik birləşmələr kliniki farmakologiyada genis istifadə edilir. Məsələn, malyariya əleyhinə istifadə edilən xinin azot tərkibli üzvü birləşmələrdən biridir [1]. Digər bir alkoloid papaverin, təbabətdə spazmolotik damar genişləndirici və diuretik vasitə kimi istifadə edilir.

B-laktamin antibioelektrikləri-pensimin və sefalosporin də heterotsiklik birləşmələrin törəmələridirlər [2].

Son zamanlar effektiv virus əleyhinə preparatlar hazırlanır. Asiklovir–herpesvirusu infeksiyasi əleyhinə preparatdir. 20-ci əsrin sonlarında amerikan alimlərinə bu sahədəki elmi işlərinə görə Nobel mükafatı təqdim olunmuşdur. Həmin alimlər qrupu azidotimidin preparatı immun çatışmazlıgı xəstəliyinə qarşı preparatı müvəffəqiyyətlə sınaqdan keçirmişlər. Asiklovir və azidotimidin maddələrinin fiziki təsir mexanizmi virusların genetik aparatına təsir etməklə bağlıdır. Teobromin və teofillin maddələri hər iki preparat purin və pirimidin qruplarına aiddir və mərkəzi sinir sistemi üçün stimullaşdırıcı rol oynayırlar, maddələr mübadiləsini bərpa edərək tam normallaşdırırlar. Teofilin və teobromin təbabətdə damar genişləndirici və diuretik vasitə kimi də istifadə edilir. Bu maddələrin sintetik yolla alınması üçün, molekulyar quruluş parametrlərini öyrənmək tələb olunur. Bu məqsədlə bir qrup təbii və sintetik heterosiklik birləşmələrin məlum fiziki metodların (viskozimetriya, Kerr effekti, Cotton-Mutton effekti, dielektrik relaksasiyası, kütlə spektroskopiyası, Onzager metodu və s.) metodların köməyi ilə optik, elektrooptik, dielektrik, maqnit xassələrin və əsas molekulyar parametrləri öyrənilmişdir. Alınan nəticələr aşağıdakı cədvəllərdə öz əksini tapmışdır.

| | **Maddənin kimyəvi quruluşu və molekulyar parametrləri** | **Км, $10^{-9}$ $D^{-1}$ $sm^{5}$ $(300V)^{-2}$** | **μ D** | **Δb $10^{-25}$ $sm^{3}$** | **β°** | **Δ ε** |
|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| MK1 | $C_6H_{13}$-$C_6H_4$- $C_6H_4$-CN<br>К 12 Н 30 И<br>4-n-heksil-4-sianobifenil | 4,4 | 5 | 130 | 0 | 10,5 |
| MK2 | $C_7H_{15}$- O- $C_6H_4$-N=N- $C_6H_4$-CN<br>К 94 Н112 И<br>4-n-heptiloksil-4-sianoazobenzol | 13 | 5.8 | 230 | 0 | 8.4 |
| MK3 | $C_7H_{15}$O- $C_6H_4$-N=N- $C_6H_4$-CNOH<br>К 94 Н112 И<br>4-sian-oksi-4-heptiloksianizol | 13.6 | 5.2 | 310 | 0 | 6.3 |
| MK4 | $C_5H_{11}$O- $C_6H_4$-N=N- $C_6H_4$-CN OH | 9 | 5.3 | 210 | 0 | 6.1 |
| MK5 | $C_7H_{15}$O- $C_6H_4$- $C_6H_4$-CNOH<br>К 67 Н 81 И<br>4-n-otiloksi-4´--sianobifenil | 5.1 | 5.2 | 160 | 10 | 6.0 |

Cədvəl. Son nitril qruplu maye-kristal maddələrin dipol, elektrooptik xarakteristikaları

| | **Tədqiq olunan maddələrin kimyəvi quruluşu və faza keçidləri** | **$K_м x10^9$, $sm^{5/}$ $(300 V)^{-2}$** | **μ, D** | **Δbx $-10^{25,}$ $sm^3$** | **β°** | **Δε ΔT= 5K** |
|---|---|---|---|---|---|---|
| 1 | $C_6H_{13}$ – $C_6H_4$ – COO- $C_6H_4$- $C_6H_4$-CN K65°N218°İ | 11.6 | 6.2 | 190 | 0 | - |
| 2 | $C_6H_{13}$ – $C_6H_4$ –$CH_2$- COO- $C_6H_4$- $C_6H_4$-CN K80°İ | 3.6 | 5.3 | 190 | 30 | - |
| 3 | $C_7H_{15}$– $C_6H_4$ –( $CH_2)_4$ - COO- $C_6H_4$- $C_6H_4$ – -CN K67°$S_A$105°İ | 3.4 | 5.3 | 190 | 30 | 8.5 |
| 4 | $C_4H_9$– $C_6H_{10}$ - COO- $C_6H_4$- $C_6H_4$-CN K80°N242°İ | 4.3 | 5.5 | 150 | 20 | 6.5 |
| 5 | $C_4H_9$– $C_6H_{10}$ – $(CH_2)_2$- COO- $C_6H_4$- $C_6H_4$-CN K71°$S_A$124°N174°İ | 3.8 | 5.4 | 170 | 30 | 6.0 |
| 6 | $C_4H_9$– $C_6H_{10}$ –( $CH_2)_5$- COO- $C_6H_4$- $C_6H_4$-CN K80°$S_A$ 109°İ | 3.5 | 5.3 | 170 | 30 | 6.0 |
| 7 | $C_4H_9$– $C_6H_{10}$ –( $CH_2)_6$- COO- $C_6H_4$- $C_6H_4$-CN K71°$S_A$136.5°İ | 3.2 | 5.2 | 170 | 30 | 6.5 |
| 8 | $C_7H_{15}$– $C_6H_4$ –COO- $C_6H_4$COO- $C_6H_4$- $C_6H_4$-CN K43.5°N55°İ | 7.0 | 6.1 | 135 | 10 | 15 |
| 9 | $C_7H_{15}$– $C_6H_4$ –COO- $C_6H_4$ –O-$(CH_2)_4$-CN K61°N68°İ | 0.7 | 4.4 | 120 | 45 | 4.5 |
| 10 | $C_7H_{15}$O– $C_6H_4$ –N=N-$C_6H_4$ –CN K94°N112°İ | 11.0 | 5.8 | 230 | 0 | 8 |
| 11 | $C_7H_{15}$– $C_6H_4$ –N=N-$C_6H_4$ –O-$(CH_2)_4$-CN K68°N83°İ | 0.1 | 3.7 | 210 | 56 | -0.2 |
| 12 | $C_6H_{13}$– $C_6H_4$ –CH=CH-COO–$C_6H_4$-CN K76.5°N141°İ | 6.9 | 7.1 | 170 | 10 | 16 |
| 13 | $C_4H_9$–$C_6H_4$–CH=CH-COO–$C_6H_4$-$(CH_2)$2- CN K91°N118°İ | 3.9 | 5.4 | 180 | 30 | 8.5 |

Bu işdə məqsəd, kliniki farmakologiyada istifadə oluna biləcək yeni kimyəvi birləşmələrin (heterotsiklllərin) sintezini proqnozlaşdırmaqdır [1].

Son zamanlar təbabətin digər sahələrində də təbii və sintetik heterotsiklik birləşmələr geniş tətbiq olunur. Məsələn, psixofarmokologiya və s. [2].

1.4 dihidropiridin törəmələri, məsələn fenilgidin ürək-qan damar sisteminin müalicəsində öz tətbiqini tapmışdır [3].

Hetereotsiklik birləşmələrin rolu tənəffüs prosesində, enerjinin akkumulyasiyası, fotosintez, pestisidlərin alınmasında rənglərə əlavə kimi, istiliyə davamlı biopolimerlərin istehsalında, analitik reagentlərin və vacib materialların istehsalında geniş istifadə olunur. Son zamanlarda heterotsiklik birləşmələrin iştirakı ilə alınan kimyəvi maddələri öyrənən elmin yeni bir sahəsi supramolekulyar kimya sürətlə inkişaf etməkdədir [4].

Burada vacib olan molekulun özünü təşkil və bərpa etməsi, bir-birinə uyğunlaşmasıdır. Son dövrlərdə ekoloji şəraitin pisləşməsi immun çatışmazlığı probleminin həllini tapmağını aktuallaşdırmışdır. Müxtəlif texnogen faktorların canlı orqanizmə təsiri sistemli şəkildə patologiyaların yaranmasına səbəb olur.

İmmun çatışmazlığının səbəblərinin məqsədyönlü şəkildə öyrənilməsi, stimullaşdırıcı vasitələrin tətbiqi, immun sisteminin bərpası müasir tibbin aktual problemlərindəndir.

Təcrübi olaraq müəyyən edilmişdir ki, müxtəlif immun stimullaşdırıcı preparatlar hormonlarla, tsiklostatiklərlə, antibiotiklərlə və digər dərman maddələrilə birgə qəbul edildikdə daha yüksək nəticələr əldə olunur. Bu zaman dərmanların qəbulu zamanı yarana biləcək əksi təsirlər qismən azalır, kompleks terapiyanın effektivliyi isə artır [4].

Bir çox təcrübi işlər quruluşca təbii pirimidinə yaxın olan dərman maddələrinin axtarışına həsr olunmuşdur. Pirimidinın təbabətdə tətbiq spektri olduqca genişdir. Bu qrup maddələr nuklein turşularının sintezində, zülalların əmələ gəlməsində fundamental həyatı proseslərdə vacib rola malikdirlər. Belə ki, pirimidin və törəmələri antibiotiklərlə kompleks təşkil etdikdə, müxtəlif xəstəliklərin müalicəsində və profilaktikasında müvəffəqiyyətlə tətbiq oluna bilər.

Aparılan elmi işdə məqsəd pirimidinin yeni törəmələrini öyrənərək yeni-yeni immunostimulyatorları axtarıb tapmaqdır ki, daha az toksiki xüsusiyyətə malik olsun, asanlıqla canlı orqanizmə daxil edilə bilsin .

Pirimidin törəmələri müstəvi şəkilli molekul olub rəngsiz, xüsusi qoxuya malikdirlər [4].

Pirimidin törəmələri canlı təbiətdə geniş yayılmışdır. Bir çox bioloji proseslərdə vacib funksiya daşıyır. Məsələn, sitozin, timin, urasil nukleotidlərin tərkibinə daxildir ki, onlarda nuklein turşularının struktur vahidləri sayılırlar. Pirimidin nüvəsi bir çox B qrup vitaminlərin tərkibində də rast gəlinir [4].

Məsələn sitozin, timin, urasil B1 kofermentlərinin və antibiotiklərin tərkibində mövcuddur:

Pirimidin birləşmələri çoxlu bioloji aktiv maddələrin və dərman maddələrinin tərkibinə daxildir. Məsələn, barbituratın tərkibində 1,3,5-trigidroksipiridin mövcuddur. Adı çəkilən preparat yuxugətirici, damar genişləndirici və narkotik təsirinə malikdir [4].

**Problemin aktuallığı.** Heterotsiklik birləşmələrin molekulyar quruluşu, fiziki-kimyəvi xüsusiyyətləri və tibbi-bioloji əhəmiyyəti barədə fikir söyləmək aktual bir məsələdir.

**Problemin yeniliyi.** Heterotsiklik birləşmələrin molekulyar quruluşu, fiziki-kimyəvi xüsusiyyətləri və tibbi-bioloji əhəmiyyəti diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Fizika müəllimləri özünütəhsil məqsədilə məqalədən faydalanacaqlar.

**Ədəbiyyat:**

1. Дж.А.Рагимов // Молекулярная структура и макроскопические свойства макромолекул. Баку: Елм, 2002.

2. Hansch C., Kunip A., Gard R., Gao H. Chem-bioinformatics and QSAR: A review of QSAR tasking positive hydrophobic terms // Chem. Rev. 2001, № 3

3. Mercader A., Castro E.A., Toropov A.A. Maximum topological distances based indices as molecular descriptors for QSPR. Modeling the enthalpy of formation of hydrocarbons from elements // Int. J. Mol. Sci. 2001, № 2

4. Hawkins D.M., Basak S. QSAR with few compounds and many features // J. Chem. Inf. Comput. Sci. 2001. V. 41.,№ 3

**E-mail:** gulizade.gunel@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.* Ə.A.Gərayev,
*ped.ü.fəls.dok., dos.* T.S. Paşayev
**Redaksiyaya daxil olub**: 17.12.2018

## *İŞ YOLDAŞLARIMIZ*

*UOT 37.*

***Həsən Həsən oğlu Bayramov***
*pedaqogika üzrə elmlər doktoru*
***Xatirə Bədrəddin qızı Bəşirli***
*filologiya üzrə elmlər doktoru, professor*

# ZİYALILIQ VƏ LƏYAQƏT SİMVOLU

***Гасан Гасан оглы Байрамов***
*доктор наук по педагогике*
***Хатира Бадреддин гызы Баширли***
*доктор наук по филологии, профессор*

## СИМВОЛ ИНТЕЛЛЕГЕНТНОСТИ И ДОСТОИНСТВА

***Hasan Hasan Bayramov***
*doctor of pedagogical sciences*
***Khatira Badreddin Bashirli***
*doctor of philological sciences, professor*

## SYMBOL OF INTELLIGENCE AND ADVANTAGES

Belə bir deyim var: dörd adam dörd əlamətlə tanınar: yazıçı yazısı, alim hikməti, hikmət sahibi əməli, həlim adam yumşaqlığı ilə. Amma haqqında söz açmaq istədiyimiz Hümeyir Əhmədova şəxsiyyət olaraq yanaşmaq üçün bu əməllərin onun simasında tamamilə əks olunduğunu görürük.

Hümeyir müəllimdə adamı cəlb edən iki əsas məqam var. Əvvəla, ürəyi safdır, həsəddən, küdurətdən, kindən, ədavətdən, paxıllıqdan uzaqdır. Sadəliyi, səmimiliyi və ünsiyyət qura bilmək qabiliyyəti ilə seçilir. Ziyalı üçün bu, çox vacibdir. İkincisi, tələbkardır, amma eyni zamanda insanlara müsbət mövqedən yanaşır. Üçüncüsü, yaxşı təşkilatçısıdır. Təhsil İnstitutunda rəhbərlik etdiyi elmi-pedaqoji kadr hazırlığı şöbəsinin fəaliyyətini səmərəli qurub.

Hümeyir müəllim uzun illər boyu çalışqanlığının əvəzi kimi bu gün təhsilimizin aparıcı simalarından birinə çevrilmişdir, ən yüksək elmi ada, elmi dərəcəyə layiq görülmüşdür. Professordur. Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü (2007), Rusiya Dövlət Təhsil Akademiyasının xarici üzvü (2006), Pedaqoji Təhsilin Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (2007), Rusiya Hüquq Elmləri Akademiyasının (2008), Rusiya Federasiyasının Təhsilin İnformatlaşdırılması Akademiyasının həqiqi üzvü (2012), Rusiya Təbiətşunaslıq Akademiyasının həqiqi üzvüdür (2018). Bundan başqa, bir çox respublika və xarici elmi-pedaqoji jurnalların redaksiya heyətinin üzvüdür.

Hümeyir Əhmədov 14 avqust 1958-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun (hazırda ADPU) riyaziyyat fakültəsini bitirmişdir.

Təyinatla Xaçmaz stansiyası 45 nömrəli dəmir yolu orta məktəbində, Saatlı stansiyasında 33 nömrəli dəmir yolu orta məktəblərində riyaziyyat, fizika və əmək müəllimi; sonralar general Ç. Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış internat məktəbində tərbiyəçi müəllim, A.S. Makarenko adına 12 №-li rus dili təmayüllü internat məktəbində riyaziyyat müəllimi kimi fəaliyyət göstərmişdir.

1984–1987-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (hazırda Təhsil İnstitutu) aspiranturasında təhsil almış, “Azərbaycan SSR-də hamılıqla orta təhsilə keçirilməsinə hazırlıq və onun həyata keçirilməsi (1961-1977)” mövzusunda namizədlik dissertasiyası (1988); sonralar “Qloballaşma şəraitində Azərbaycan Respublikasında ali təhsilin mo-

dernləşdirilməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Hümeyir Əhmədov 1998-2000-ci illərdə Azərbaycan ETPEİ-nin Pedaqogika nəzəriyyəsi və tarixi şöbəsində kiçik elmi işçi, baş elmi işçi vəzifəsində işləmişdir. 2000-ci ildən Azərbaycan ETPEİ-nin bazasında yaradılmış Təhsil İnstitutunun Elmi-pedaqoji kadr hazırlığı şöbəsinin müdiri, dir. 2014-cü ildən Bakı Qızlar Universitetinin Pedaqogika kafedrasının professorudur.

1985-ci ildən SSRİ PEA-nın "Məktəb və pedaqogika tarixi" üzrə problem şuranın üzvü, 2003-cü ildən ABŞ-ın Minnesta Universitetinin "Təhsilin strateji planlaşdırılması" üzrə Koordinasiya Şurasının üzvü və fəxri professorudur. 2004-cü ildən "Pedaqoqlar sülh və qarşılıqlı anlaşma uğrunda" Beynəlxalq ictimai hərəkatının Azərbaycan təşkilatının üzvüdür. Uzun illərdir ki, pedaqoji elmlər sahəsində fəaliyyət göstərən dissertasiya şuralarının üzvü kimi gənc alimlərin yetişməsinə öz töhfəsini verir.

Hümeyir müəllim Moskvada nəşr etdirdiyi "Конституционно-правовые основы науки, научной и научно-технической деятельности в Российской Федерации" monoqrafiyasının (2010) müəllifidir.

Pedaqogika üzrə elmlər doktoru, professor H.M. Əhmədovun tədqiqat sahəsi genişdir və təhsilin gələcək perspektivlərinə yönəlmişdir. Bu elmi araşdırmalar Azərbaycanın milli-mənəvi dəyərləri, mədəniyyəti, zəngin və çoxəsrlik inkişaf tarixinə malik təlim və tərbiyə sisteminə həsr olunmuşdur. Azərbaycanda ali təhsilin təşəkkülü və inkişafı mədəni-pedaqoji ənənələr və tolerant düşüncə kontekstində araşdırılır, ali təhsilin yeniləşdirilməsinin əsas istiqamətləri nəzərdən keçirilir. Bu əsərlərdə respublikamızda ali təhsilin yeniləşdirilməsi qloballaşma kontekstində təhlil olunur, ali təhsil sisteminin qlobal təhsilə keçidi prosesinin mexanizmi və yeniləşmənin müxtəlif aspektləri müəyyənləşdirilir, beynəlxalq əməkdaşlıq və kadr təminatı, təhsilin modernləşdirilməsinin praqmatik hüdudları və elmi-pedaqoji təminatı, ali məktəb fəaliyyətinin müasir şəraitdə əsas prioritetləri və inkişaf strategiyası araşdırılır. Hümeyir Əhmədovun əsərlərində ali təhsil sistemi Bolonya prosesi müstəvisində təhlil edilir, paradiqmaların modernləşdirilməsi və ali təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi və reallığa uyğun hüquqi-normativ bazanın yaradılması prosesi araşdırılır.

Təhsillə bağlı əsərlərində qloballaşma şəraitində Azərbaycan Respublikasında ali təhsilin modernləşdirilməsi istiqamətləri və inkişaf tendensiyası, mövcud idarəetmə sisteminin yeniləşdirilməsinin sosial-siyasi və pedaqoji-psixoloji əsasları müəyyənləşdirilir. Avropa təhsil məkanına inteqrasiyanın şərtlərindən biri kimi ali təhsil sisteminin modernləşdirilməsinin elmi-nəzəri, təşkilati-pedaqoji əsaslarının təkmilləşdirilməsinin və qloballaşan dünyada sərbəst fəaliyyət göstərməyi bacaran yüksək ixtisaslı kadrların hazırlanmasının praktiki yolları üzə çıxarılır. Əsərdə irəli sürülmüş yeni ideyaların, ümumiləşdirmə və təkliflərin bir qismi həm dövlət, həm də özəl ali təhsil müəssisələri üçün nəzərdə tutulmuşdur.

Qloballaşma şəraitində Azərbaycanda ali təhsilin inkişaf strategiyası və ali təhsilin modernləşdirilməsi professor Hümeyir Əhmədovun sistemli tədqiqatlarının predmetinə çevrilmişdir. Bu baxımdan onun "Ali təhsilin modernləşdirilməsi" (2008) monoqrafiyasını nümunə gətirmək olar. O, tədqiqatlarında milli təhsil sisteminin inkişafı, təkmilləşdirilməsi, idarə edilməsi sahəsindəki problemləri həm nəzəri-konseptual, həm də praktik baxımdan araşdırmış, prosesin dinamikasını müəyyənləşdirmişdir. Təhsilin inkişafının qanunvericilik və normativ-hüquqi təminatı, idarə olunmasının dövlət-ictimai əsaslarının formalaşdırılması, tədris müəssisələrinin nəzəri və praktiki cəhətdən müstəqilliyinin genişləndirilməsi sahəsində müxtəlif mexanizmləri təcrübədən keçirmiş, təhsilin məzmun və strukturunun yeniləşdirilməsi ilə bağlı praktik tövsiyələr vermişdir.

Hümeyir Əhmədovun araşdırmalarının üstünlüyü ondadır ki, o, ideoloji tabeçiliklə xarakterizə olunan sovet təhsil sistemindən Avropa ali təhsil məkanına inteqrasiya edən ali təhsil sisteminə keçid proseslərini pedaqoji-psixoloji və aksioloji cəhətdən dəyərləndirmişdir. O, təhsilin hüquqi nizamlanmasının elmi əsaslarını da tədqiq etmiş, "Təhsil hüququ" fənninin proqramını və dərsliyini hazırlamışdır. Əsərlərində ölkəmizdə təhsil siyasətinin istiqamətlərinin və təhsil sisteminin əsaslı surətdə yenidən qurulması prosesində baş vermiş sosial-pedaqoji hadisələrin mürəkkəbliyini, onun ziddiyyətlərini ətraflı təhlil etmiş, islahatların qaçılmazlığını və labüdlüyünü əsaslandırmışdır.

Professor H.M. Əhmədov "Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti", "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəs", "Человеческий ресурс Азербайджанского образования", "Ali təhsilin modernləşdirilməsi", "Azərbaycan təhsilinin inkişaf strategiyası", "Конституционно-правовые основы науки, научной и научно-технической деятельности в Российской Федерации", "The Strategy of Education Development in Azerbaijan", "Elmi-pedaqoji və pedaqoji kadr hazırlığı problemləri" (həmmüəllifli) və s. bu kimi kitab və monoqrafiyaları qələmə almışdır.

Bundan başqa, ümumtəhsil, orta və ali pedaqoji ixtisas təhsili müəssisələri üçün bir sıra metodik vəsaitlər, dərs vəsaitləri, dərsliklər yazmışdır. "Управленческая педагогика и психология", "İnformatikanın tədrisi metodikası", "Pedaqogika", "Təhsil hüququ", "Texnologiya: Ümumtəhsil məktəblərinin II-IX sinif şagirdləri üçün", "Alqoritmlər nəzəriyyəsi" dərslik və dərs vəsaitləri nümunə göstərilə bilər.

Professorun "The Strategy of Education Development in Azerbaijan" adlı monoqrafiyası və "Pedaqogika" adlı dərsliyi 2018-ci ildə Parisdə keçirilən kitab sərgisində "Qızıl medal"la təltif olunaraq sertifikata layiq görülmüşdür. Onun Norveçdə və Sloveniyada ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ərəfəsində elm və təhsilin inkişafında roluna dair məcmuədə dərc olunan məqaləsi də maraq doğurur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə elm və təhsilin inkişafına həsr olunmuş maraqlı məqalələri ölkədə və xaricdə nəşr edilmişdir. Xüsusi qeyd etmək istəyirik ki, onun İsmayıl bəy Qasparlının üsuli-cədid məktəblərinin təşəkkülünə aid yazdığı silsilə məqalələri elmi-pedaqoji ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Professor Hümeyir Əhmədov "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı (2006), Rusiya Federasiyası Elm və Təhsil Nazirliyinin K.D. Uşinski adına medalı (2009) ilə təltif edilmişdir. "Qızıl Qələm" media mükafatı laureatıdır. Ona "YUNESKO müəllimi" (2008) fəxri adı sertifikatı verilmişdir (Kazan şəhəri). Rusiya Federasiyasnın 3-cü dərəcəli «Долг и честь» ordeni (2008) ilə təltif edilmişdir. RTA-nın Prezidiumunun 2017-ci il tarixli qərarı ilə "Əməkdar elm və təhsil xadimi" fəxri adına layiq görülmüşdür.

Professor Hümeyir Əhmədov elmi-pedaqoji fəaliyyətinin uğurlu nəticələrinə görə 2018-ci ildə EUROPEAN SCIENTIFIC AND INDUSTRIAL CONSORTIU-un "LABORE ET SCIENTIA" Ordeni ilə təltif olunmuşdur.

Hümeyir Əhmədovu səciyyələndirən başlıca meyarlar təkcə onun pedaqogika elmi sahəsində, təhsili idarə etmə sahəsində, qazandığı elmi və peşəkar fəaliyyəti yox, məhz onun şəxsi ləyaqətidir. Məncə bunlar bir-birini tamamlamasaydı, bu uğurlar, nailiyyətlər də olmazdı.

Onun elmi rəhbərliyi ilə fəlsəfə doktoru proqramı üzrə bir sıra dissertasiyalar müdafiə olunmuşdur.

Prof. Hümeyir Əhmədovun elmi-pedaqoji fəaliyyəti təkcə ölkə hüdudları ilə məhdudlaşmır. O, "Azərbaycan məktəbi", Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Elmi əsərləri" və "Kurikulum" jurnalı ilə yanaşı "Право и Жизнь», "Инновационные проекты и программы в образовании", "Психология и педагогика служебной деятельности" (зарегистрированы в России), "Международный журнал психологии и педагогики служебной деятельности" (зарегистрирован в Грузии) elmi nəşrlərin redaksiya heyətinin üzvüdür.

Beləliklə, Hümeyir müəllimi xarakterizə edən başlıca məqamlar, öncə dediyimiz kimi, onun ziyalı ailəsində boya-başa çatması, kübarlığı və vətənpərvərliyidir. Onun yetişməsində, heç şübhəsiz, ailəsinin ziyalılığı, təhsil aldığı bütün səviyyələrdə mikromühitin münbitliyi, başlıca amil isə XX-XXI əsr Azərbaycan elmi-pedaqoji fikrinin ən məhsuldar və istedadlı nümayəndələrindən olan akademik Hüseyn Əhmədovun ailəsində doğulub-böyüməsidir.

Hümeyir müəllimin babası 1918-ci ildə Şuşada realnı gimnaziyanı, 1926-cı ildə isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmiş (akademik Mehdi Mehdizadə ilə eyni qrupda təhsil almışdır) və müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur (bax: M.C. Mərdanov Azərbaycan təhsil tarixi. 4 cilddə, II cild. s. 442). Necə deyərlər, ot kökü üstə bitər. Professor Hümeyir Əhmədov ziyalılıq titulunu şərəflə daşıyan xoşbəxt alim və oğuldur.

Bir göz qırpımında altmışı haqlaması onunla bağlı bizi bəzi kövrək olan qeydlərə də şövq etdi. Əlbəttə, deyiləsi söz çoxdur. Qalsın yetmişinə.

**Redaksiyaya daxil olub:** 01.10.2018.

*Məcmuə "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində*
*səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 15.01.2019
Format: 84x108 1/16. Qarnitur: Times.
Həcmi: 14,5 ç.v. Tiraj: 200. Sifariş № 47.

MÜTƏRCİM

**TƏRCÜMƏ**
**VƏ NƏŞRİYYAT-POLİQRAFİYA**
**MƏRKƏZİ**

**Az 1014, Bakı, Rəsul Rza küç., 125/139 b**
**596 21 44; 497 06 25; (055) 715 63 99**
**e-mail: mutarjim@mail.ru**
www.mutercim.az

**Təqdim olunan məqalələrə tələblər**

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.

2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.

3. Məqalənin mətni təxminən 6-8 səhifə olmalıdır. Azərbaycan, rus və ingilis dillərində məqaləyə aid açar sözlər verilir.

4. Məqalənin mətni Azərbaycan dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə (disklə) təqdim olunmalıdır.

5. Məqalələr üç dildən - Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Yazıldığı dildən əlavə digər iki dildə məqalənin xülasəsi təqdim edilir. Xülasədə müəllifin soyadı, adı, atasının adı, məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.

6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.

7. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).

8. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.

9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.

10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.

11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.

12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

13. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.

14. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

15. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.

16. Məqalə müəlliflərinin hüquqları qorunur.

17. Jurnalda «ardı növbəti nömrədə» adı altında seriya məqalələr dərc olunmur.

18. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.

19. Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.